**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Bakı Dövlət Universiteti**

**HİKMƏT BABAOĞLU**

# HEYDƏR ƏLİYEV SİYASİ İRSİNİN POLİTOLOJİ ASPEKTLƏRİ

D Ə R S L İ K

*Azərbaycan Respublikası*
*Təhsil Nazirliyinin*
*10.07.2012-ci il tarixli*
*1326 saylı əmri ilə dərslik kimi*
*təsdiq edilmişdir.*

**"MSA"**

**BAKI - 2013**

Elmi redaktoru: **Ə.M.Həsənov**
t.e.d., professor

Rəyçilər: **İ.Məmmədzadə**
*f.e.d., professor*

**A.Şirinov**
*f.e.f.d., dosent*

**M.Əfəndiyev**
*f.e.f.d., dosent*

HİKMƏT BABAOĞLU.
**HEYDƏR ƏLİYEV SİYASİ İRSİNİN POLİTOLOJİ ASPEKTLƏRİ.** Bakı, MSA, 2013, 456 səh.

*Oxuculara təqdim olunan bu dərslikdə Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkədə baş verən proseslər, onların siyasi-analitik təhlili, müstəqil dövlət quruculuğu prosesində təcrübəli dövlət xadimi Heydər Əliyevin müstəsna xidmətləri baş verən tarixi proseslərin fonunda öyrənilir və müasir Qərb siyasi elmində mövcud olan elmi-nəzəri istiqamətlərlə əlaqələndirilir.*

*İlk dəfə olaraq müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji əsasını təşkil edən Ulu öndər Heydər Əliyev tərəfindən yaradılmış azərbaycançılıq ideologiyası Qərb ölkələrinin təcrübəsi ilə müqayisə edilərək neokonservatizmin milli modeli kimi səciyyələndirilir. Bundan başqa, Heydər Əliyev siyasi irsinin politoloji aspektlərinin əsas istiqamətləri elmi şəkildə tədqiq edilərək Qərb siyasi elminin klassik tezisləri ilə müqayisəli şəkildə təqdim edilir.*

*Dərslik ali məktəblərin bakalavr və magistr pilləsində təhsil alan tələbələr və Heydər Əliyevin siyasi irsini öyrənənlər üçün nəzərdə tutulmuşdur.*

ISBN 978-9952-440-03-4

© Hikmət Babaoğlu, 2013

# Mündəricat

Ön söz ........................................................................................10
Siyasi portret əvəzi ......................................................................17

I HİSSƏ

*Azərbaycan Respublikasında müstəqil dövlət quruculuğu prosesi və Heydər Əliyev fenomeni*

I FƏSİL
**Heydər Əliyevin Sovet İttifaqı dövründə siyasi fəaliyyətinin bəzi səciyyəvi xüsusiyyətləri**

1.1. Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin birinci dövrü.............................................................26
1.2. Böyük qayıdış və Naxçıvan MR-in xilası ......................................32

II FƏSİL
**Müstəqillik uğrunda mübarizə ərəfəsində və müstəqilliyin ilk illərində Azərbaycanda ictimai-siyasi durum (1988-1993-cü illər)**

2.1. Müstəqilliyə gedən yol: milli özünüdərk və milli oyanışı təmin edən tarixi situasiya ..............................................................36
2.2. Milli enerji milli gücün keyfiyyət ünsürü kimi: nəzəri-konseptual əsasları və Azərbaycan təcrübəsi .................................38
2.3. Dövlət müstəqilliyinin bərpası: problemlər, proseslər, reallıqlar və nəticələr ...................................................................42
2.4. Müstəqilliyin ilk illərində keçid dövrü və onun Azərbaycan təcrübəsi analitik tədqiqat obyekti kimi: yeni cəmiyyət və milli dövlət quruculuğu prosesində problemlər və vəzifələr ............................53

## III FƏSİL
## Milli dövlət quruculuğu prosesinin başlanması və yeni siyasi sistemin təşəkkülü: lider faktoru (sosial, siyasi, ideoloji və hüquqi məsələlər)

3.1. Milli dirçəliş və qurtuluşun əsasları. Siyasi sabitliyin təmin edilməsi və milli inkişafın başlanğıcı: lider faktoru ....................................62
3.2. Siyasi sistemin struktur elementlərinin təşəkkül tapması və təkmilləşdirilməsi: Konstitusiyanın qəbulu, parlament seçkilərinin keçirilməsi və ictimai-siyasi institutlaşma prosesinin əsasının qoyulması .................................................... 74
3.3. Siyasi partiyalar plüralist siyasi sistemin başlıca ünsürləri kimi: Yeni Azərbaycan Partiyası ................................................... 83
3.4. Azərbaycançılıq ideologiyası: milli həmrəylik və bütövlüyü təmin edən universal ideoloji formula, yaxud neokonservatizmin milli modeli kimi ............................................. 92

## IV FƏSİL
## Demokratik tranzit problemi: nəzəri-konseptual məsələlər, təcrübi əsaslar və Azərbaycan təcrübəsi

4.1. Demokratiya institutu: mahiyyəti, nəzəri və təcrübi əsasları.........111
4.2. Demokratik tranzit problemi: modellər, mərhələlər və reallıqlar ........................................................................ 118
4.3. "Demokratiya" "silah"ı geosiyasi oyunlar və siyasi manipulyasiya vasitəsi kimi .........................................................125
4.4. Demokratik tranzitin milli modeli – Azərbaycan nümunəsi: reallıqlar və perspektivlər ............................................................ 127

## V FƏSİL
## Hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu milli inkişaf strategiyasının başlıca istiqaməti kimi: nəzəri-empirik məsələlər və Azərbaycan nümunəsi

5.1. Hüquqi dövlət anlayışı: tarixi kökləri, təşəkkülü xüsusiyyətləri və modern səciyyəsi .............................................135
5.2. Vətəndaş cəmiyyəti: ideya əsasları və səciyyəvi

xüsusiyyətləri ....................................................................137
5.3. Azərbaycanda hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunması: mərhələləri, spesifikası və nəticəsi ..............................139

## VI FƏSİL
## İnsan və vətəndaş hüquq və azadlıqları: tarixi təkamülü, siyasi-hüquqi, beynəlxalq aspektləri və Azərbaycan təcrübəsi

6.1. İnsan və vətəndaş hüquq və azadlıqlarının təşəkkülü, inkişafı və siyasi mahiyyəti: nəzəri əsaslar və təcrübi gerçəkliklər................145
6.2. Demokratik cəmiyyətlərdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə edilməsi vasitələri və mexanizmləri ....................................................................... 153
6.3. Ombudsman təsisatı – insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin xüsusi mexanizmi ....................................................161
6.4. İnsan hüquqları probleminin beynəlxalq hüquqi tənzimlənməsinin siyasi aspektləri ............................................. 164
6.5. Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının konstitusiya əsasları ..............................................168
6.6. Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi siyasətinin əsas istiqamətləri ................................175
6.7. Azərbaycan cəmiyyətinin demokratikləşməsi şəraitində ombudsman təsisatının təşəkkülü xüsusiyyətləri ..........................182

## VII FƏSİL
## Milli elita məsələsi: nəzəri-konseptual əsaslar, elitar transformasiyalar və Azərbaycan təcrübəsi

7.1. Elita problemi nəzəri-konseptual və analitik-empirik tədqiqat obyekti kimi ...............................................................189
7.2. Elita nəzəriyyələri: institusional və differensial yanaşmalar .........193
7.3. Milli elitanın Azərbaycan nümunəsi: formalaşma və təşəkkül mərhələləri, transformasiya forması və modern səciyyəsi ...........197

## VIII FƏSİL
## Müxalifət institutu: nəzəri-konseptual əsaslar, siyasi təmayüllər və Azərbaycan təcrübəsi

8.1. Demokratik cəmiyyətdə müxalifət institutu: mahiyyəti və spesifik funksionallıq məsələsi ....................................................209
8.2. Müxalifət institutunun fəaliyyət mexanizmi və funksionallığı məsələsi: radikal və konstruktiv meyillər .....................................211
8.3. Milli müxalifətin Azərbaycan nümunəsi: təmayüllər, reallıqlar və nəticələr ..................................................................214

## IX FƏSİL
## Siyasi mədəniyyət və siyasi modernləşmənin Azərbaycan təcrübəsi: təşəkkül mərhələləri və səciyyəvi xüsusiyyətləri

9.1. Siyasi mədəniyyət: funksiyaları, növləri və struktur elementləri ..........................................................................227
9.2. Siyasi mədəniyyətin Azərbaycan təcrübəsi: reallıqlar, nailiyyətlər və perspektivlər .........................................231
9.3. Siyasi modernləşmə kursu milli inkişaf strategiyasının fundamental istiqaməti kimi: nəzəri-konseptual məsələlər və Azərbaycan təcrübəsi .............................................234

## X FƏSİL
## Müstəqil Azərbaycanda seçki təcrübəsi: hüquqi-siyasi əsasları, göstəricilər, müqayisələr və nəticələr

10.1. Seçki institutu demokratik siyasi sistemin mühüm struktur elementi kimi: nəzəri-empirik əsaslar və təcrübə .........................243
10.2. Azərbaycanda seçki institutu: hüquqi əsasları, spesifikası və struktur elementləri ................................................246
10.3. Müstəqil Azərbaycan Respublikasında prezident seçkiləri institutu və təcrübəsi analitik tədqiqat obyekti kimi: reallıqlar və nəticələr ..............................................252
10.4. Müstəqil Azərbaycan Respublikasında parlament seçkiləri institutu və təcrübəsi analitik tədqiqat obyekti kimi: reallıqlar və nəticələr ..............................................269

## XI FƏSİL
## Azərbaycanda kütləvi informasiya vasitələrinin formalaşma və təşəkkül mərhələləri, fəaliyyət mexanizmi və funksionallıq səviyyəsi


11.1. Media institutu: mahiyyəti, spesifikası və funksiyaları ..............295
11.2. Müstəqillikdən sonra milli mətbuatın təşəkkülü prosesi və inkişaf səviyyəsi: faktlar, reallıqlar və nəticələr ...................................298
11.3. Modern informasiya cəmiyyətində milli maraqlar və jurnalistika ……………………………………………308


## XII FƏSİL
## Milli iqtisadi inkişafın sosial-siyasi nəticələri: Azərbaycanda yeni iqtisadi münasibətlər sisteminin formalaşması mərhələləri


12.1. Müstəqilliyin ilk illərində sosial-iqtisadi durum: problemlər və vəzifələr ..............................................315
12.2. Milli iqtisadi inkişaf strategiyası: konseptual əsasları və real nəticələri ..................................................................318
12.3. Ümummilli lider Heydər Əliyev ölkənin milli inkişaf konsepsiyasının banisidir ........................................................318
12.4. Çoxmülkiyyətli yeni iqtisadi sistemə keçidin başlıca komponentləri ..............................................................319
12.5. Müstəqil Azərbaycanın ilk Konstitusiyası iqtisadi inkişafa fundamental hüquqi təminat idi ................................................321
12.6. İqtisadiyyatın proporsionallığı və balanslaşdırılmış siyasət dinamik inkişafı sürətləndirən fundamental faktor kimi ...........323
12.7. Sosial ədalət prinsipi və milli gəlirlərin bölüşdürülməsi məsələsi milli inkişaf strategiyasının mühüm komponenti kimi...............325
12.8. Milli iqtisadi inkişafın yeni mərhələsi: keçid iqtisadiyyatına son və yeni inkişaf mərhələsi ............................326
12.9. Azərbaycanın yeni milli iqtisadi inkişaf modeli, yaxud milli inkişafın Azərbaycan nümunəsi: reallıqlar, nailiyyətlər və perspektivlər....................................................327
12.10. Sosialyönümlü iqtisadiyyatın təmin olunması və modernləşmə xətti: milli iqtisadi inkişaf strategiyasının substansional istiqaməti kimi ..................................................329

12.11. İqtisadiyyatın şaxələndirilməsi – Azərbaycanın iqtisadi yüksəlişinə, zənginləşməyə aparan yol ....................................331
12.12. Keçid iqtisadiyyatına son və yeni inkişaf mərhələsi ................332
12.13. Azərbaycanın yeni milli iqtisadi inkişaf modeli .......................333
12.14. Sosialyönümlü iqtisadiyyatın təmin olunması və modernləşmə xətti ............................................................334
12.15. İqtisadiyyatın şaxələndirilməsi – Azərbaycanın iqtisadi yüksəlişinə, zənginləşməyə aparan yol ....................................336

## II HİSSƏ

***Müstəqil Azərbaycan Respublikası müasir beynəlxalq münasibətlər sisteminin suveren aktoru kimi. Azərbaycan Respublikasının xarici siyasət strategiyası: reallıqlar, nailiyyətlər, nəticələr və perspektivlər***

### XIII FƏSİL
### Müasir beynəlxalq münasibətlər sistemi və müstəqil Azərbaycan Respublikası

13.1. Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sisteminin aktoruna çevrilməsi prosesi: reallıqlar, nailiyyətlər və nəticələr 340
13.2. Milli potensial və güc dəyərləndirməsi Azərbaycan nümunəsində: meyarlar və göstəricilər .....................................345
13.3. Balanslaşdırma siyasəti, milli maraqlara və dəyərlərə uyğun xarici siyasət strategiyası ...............................................371

### XIV FƏSİL
### Milli maraqlar və xarici siyasət

14.1. Milli maraqlara praqmatik münasibətin geosiyasi nümunəsi və ya Azərbaycanın xarici siyasət strategiyasında enerji resursları amili ............................378
14.2. Azərbaycanın iqtisadi inkişafında tarixi dönüş: “Əsrin müqaviləsi”nin imzalanması və yeni neft strategiyası ..............381
14.3. Azərbaycan nefti regional siyasi-iqtisadi proseslərdə mühüm faktor kimi: Bakı-Tbilisi-Ceyhan kəmərinin işə düşməsi və yanacaq resurslarının dünya bazarlarına nəqli .......................................384
14.4. Neft iqtisadiyyatı digər sahələrin inkişafını stimullaşdıran amil kimi: diversifikasiya siyasəti

və qeyri-neft sektorunun inkişafı ..........................................386
14.5. Neft Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında və regional əməkdaşlığın inkişafında mühüm vasitədir ..............391
14.6. Avropanın enerji təhlükəsizliyində Azərbaycan qazının əhəmiyyəti ................................................................ 396
14.7. Bakı-Tbilisi-Ərzurum qaz kəməri regionda yeni geoiqtisadi mənzərə yaratdı .....................................................................398
14.8. Azərbaycanın qaz nəqli ilə bağlı diversifikasiya siyasəti: "Cənub dəhlizi" və NABUCCO kəmərləri məsələsi ........................... 399
14.9. Qaz nəqlinin yeni mərhələyə qədəm qoyması ......................... 402
14.10. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi analitik tədqiqat obyekti kimi: faktlar və nəticələr ................409
Yekun. Azərbaycan artıq postsovet ölkəsi deyil ...............................422

# ÖN SÖZ

1991-ci ildə dünyanın nəhəng geosiyasi vahidlərindən biri olan SSRİ-nin iflasından sonra formal müstəqilliyə malik olan yeni milli dövlətlər yarandı. Beynəlxalq hüququn tamhüquqlu subyektinə və beynəlxalq münasibətlər sisteminin formal milli aktoruna çevrilən bu dövlətlərin, o cümlədən, Azərbaycanın qarşısında yeni dövrün aktual çağırışlarına, reallıqlarına və qanunauyğunluqlarına müvafiq surətdə milli inkişaf strategiyası hazırlamaq və mərhələli surətdə həyata keçirmək vəzifəsi dayanırdı. Əlbəttə ki, müəyyənləşdiriləcək və tətbiq ediləcək milli inkişaf strategiyası özündə bir neçə fundamental səciyyəli istiqamət və məsələləri ehtiva etməli idi. Yəni, öncə siyasi sistemin təşəkkülünə nail olmaq, daha sonra onun struktur elementlərinin mütəmadi surətdə təkmilləşməsinə mühüm töhfələr bəxş edəcək siyasi-hüquqi islahatlarla müşayiət edilən əsaslı tədbirlər görmək, bununla yanaşı, milli zəmində müəyyən dissonanslar və deviasiyalarla təzahür olunan sosial münasibətlər sistemini tənzimləmək, rasional və paritet sosial stratifikasiyalaşma işini həyata keçirmək, eyni zamanda, milli tərəqqinin maddi substratı qismində çıxış edən iqtisadi inkişaf strategiyasını reallaşdırmaq, milli həmrəyliyi və bütövlüyü təmin edəcək ideoloji əsasları yaratmaq, ümummilli ideologiyanı formalaşdırmaq mütləq zərurət idi. Məhz bütün bu vəzifələrə nail olmaq üçünsə zəngin idarəetmə (dövlətçilik) təcrübəsinə və ənənələrinə, rasional təfəkkürə və praqmatik fəaliyyət mexanizminə malik olan lider siyasətçinin rəhbərlik etdiyi təkmil və mükəmməl idarəetmə sisteminin formalaşdırılması lazım idi.

Müstəqilliyimizin ilk iki ilində (1991-1993) ölkəyə irrasional təfəkkürlü qüvvələrin rəhbərlik etməsi nəinki yuxarıda sadalanan vəzifələrin yerinə yetirilməsini mümkün etmədi, hətta Azərbaycan müxtəlif xarici imperialist güclərin ideoloji mübarizə və siyasi qarşıdurma meydanına çevrildi. Bunun fonunda ölkəmizdə sosial, siyasi, iqtisadi, hüquqi və ideoloji sahələrdə xaos və deviasiyalarla

müşayiət edilən dərin böhran halları baş verdi. Siyasi sahədə xaos və kataklizmlərlə müşayiət edilən antaqonist proseslərin kəskinləşməsi, separatçılıq meyillərinin və "mərkəzdənqaçma" tendensiyalarının sürətlənməsi, subyektlərarası münasibətlərin sürüşkən müstəvidə dərin ziddiyyətlərlə təzahür olunması, sosial sahədə asimmetrik təbəqələşmə və qeyri-paritet münasibətlər sisteminin formalaşması, dezinteqrasiyanın kəskin xarakter alması, ideoloji sahədə eksses aktlarının baş verməsi, qarşıdurma və dağıdıcı mübarizələrin güclənməsi, iqtisadi sahədə tənəzzül meyillərinin, hüquqi sahədə isə nihilizmin hökmranlıq etməsi ölkəni sözün əsl mənasında xaos və kataklizmlər meydanına çevirdi.

Məhz belə bir kəskin situasiyanın fonunda 1993-cü ildə ikinci dəfə hakimiyyətə gələn Ulu öndər Heydər Əliyev rasional təfəkkürü və praqmatik fəaliyyət mexanizminin fonunda tətbiq etdiyi strategiya ilə Azərbaycanı dərin xaos və kəskin kataklizm meyillərindən xilas edərək yeni inkişaf yolunu açmış oldu. Ümummilli lider Heydər Əliyev müəyyənləşdirdiyi və tətbiq etdiyi milli siyasətin fonunda, ilk növbədə, xaos və kataklizmi şərtləndirən bölücülük meyillərinin və "mərkəzdənqaçma" tendensiyalarının qarşısını aldı, subyektlərarası sürüşkən müstəvidə antaqonist meyillərlə müşayiət edilən dağıdıcı prosesləri aradan qaldırmağa müvəffəq oldu. Daha sonra həyata keçirilən quruculuq və inkişaf strategiyasının fonunda siyasi sistemin təşəkkülü və tərəqqisi yönündə fundamental işlər görüldü. Belə ki, ümumxalq səsverməsi-referendum vasitəsilə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi, qarışıq seçki sistemi əsasında parlament seçkiləri keçirildi, ictimai-siyasi institutlaşma prosesinin əsası qoyuldu və bunların fonunda milli inkişaf strategiyasının mühüm ünsürü kimi səciyyələndirilən siyasi-hüquqi islahatlar həyata keçirildi. Bunlarla yanaşı, milli həmrəylik və bütövlüyü təmin edəcək keyfiyyət ünsürü olan və universal ideoloji formula kimi səciyyələndirilən, neokonservatizmin milli modeli qismində çıxış edən "azərbaycançılıq" ideologiyasının əsası qoyuldu. Bu, milli siyasətin mühüm strateji istiqaməti oldu və milli həmrəyliyi təmin edən

substrat qismində çıxış etdi.

Beləliklə, Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu milli inkişaf strategiyasının fonunda həyata keçirilən strateji tədbirlər milli tərəqqini təmin edən və şərtləndirən fundamental mexanizmə çevrildi. Eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə siyasi varislik prinsipi əsasında həyata keçirilən milli inkişaf strategiyası bütün sahələrdə mütəmadi yüksəlişlə müşayiət olunan inkişafın mənbəyi və qarantı qismində çıxış etdi. Qısacası, siyasi, hüquqi, iqtisadi, sosial, mədəni, ideoloji və digər sahələrdə əldə edilən nailiyyətlər Azərbaycanı müasir, müstəqil və güclü milli dövlətə çevirdi. Artıq müasir, müstəqil dövlət kimi çıxış edən ölkəmiz özünün tərəqqisi ilə milli inkişafın Azərbaycan modelinin əsasını qoydu. Eyni zamanda, Ulu öndər Heydər Əliyevin müəyyən və icra etdiyi milli inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən müasir dövrün aktual çağırışlarına, reallıqlarına və qanunauyğunluqlarına müvafiq surətdə uğurla davam etdirilməsi Azərbaycanı müasir beynəlxalq münasibətlər sisteminin müstəqil və suveren aktoruna çevirdi. Artıq Azərbaycan Cənubi Qafqaz regionunun ən güclü və nüfuzlu aktoru, siyasi güc mərkəzi və iqtisadi lokomotivi olmaq etibarilə özünün praqmatik xarici siyasət strategiyası ilə beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməkdədir. Bir sözlə, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan artıq postsovet ölkəsi deyildir: "**Bəzən bizə belə deyəndə, mən hesab edirəm ki, buna razı olmamalıyıq, çünki postsovet dövrü başa çatıb. Biz müstəqil, güclü, müasir, demokratik ölkəyik**".

Beləliklə, bütün bu reallıqların və nailiyyətlərin fonunda Azərbaycan Respublikasının müstəqilliyinin 22-ci ildönümü ərəfəsində qələmə aldığımız bu kitab 22 illik müstəqillik tariximizin reallıqları və nailiyyətlərinin siyasi, ideoloji, sosial, iqtisadi və hüquqi nöqteyi-nəzərdən sistemli və kompleks analitik təhlili səciyyəsi daşıyır. Kitabda "Müstəqillik uğrunda mübarizə ərəfəsində və müstəqilliyin ilk illərində Azərbaycanda ictimai-siyasi durum", "Milli dövlət quruculuğu prosesinin başlanması və siyasi sistemin təşək-

külü: lider faktoru; sosial, siyasi, ideoloji və hüquqi məsələlər", "Demokratik tranzit problemi: nəzəri-konseptual məsələlər, təcrübi gerçəkliklər və Azərbaycan təcrübəsi, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu milli inkişaf strategiyasının başlıca istiqaməti kimi: nəzəri-empirik məsələlər və Azərbaycan nümunəsi", "İnsan və vətəndaş hüquq və azadlıqları: tarixi təkamülü, siyasi-hüquqi, beynəlxalq aspektləri və Azərbaycan təcrübəsi", "Milli elita məsələsi: nəzəri-konseptual əsaslar, elitar transformasiyalar və Azərbaycan təcrübəsi", "Milli müxalifət məsələsi: nəzəri-konseptual əsaslar, siyasi təmayüllər və Azərbaycan təcrübəsi, siyasi mədəniyyət və siyasi modernləşmənin Azərbaycan təcrübəsi: təşəkkül mərhələləri və spesifik səciyyəsi", "Müstəqil Azərbaycanda seçki təcrübəsi: hüquqi-siyasi əsasları, göstəricilər, müqayisələr və nəticələr, Azərbaycanda kütləvi informasiya vasitələrinin formalaşma və təşəkkül mərhələləri, fəaliyyət mexanizmi və funksionallıq səviyyəsi", "Milli iqtisadi inkişafın sosial-siyasi nəticələri: Azərbaycanda yeni iqtisadi münasibətlər sisteminin formalaşması mərhələləri", "Beynəlxalq münasibətlər sistemi və müstəqil Azərbaycan Respublikası", "Milli maraqlar və xarici siyasət" kimi məsələlər hər biri ayrıca fəsillər şəklində analitik tədqiqat obyektinə çevrilmişdir. Eyni zamanda, bəhs edilən fəsillərə müvafiq surətdə "Müstəqilliyə gedən yol: milli özünüdərk və milli oyanışı təmin edən tarixi situasiya", "Milli enerji milli gücün keyfiyyət ünsürü kimi: nəzəri-konseptual əsasları və Azərbaycan təcrübəsi, dövlət müstəqilliyinin bərpası: problemlər, proseslər, reallıqlar və nəticələr", "Müstəqilliyin ilk illərində keçid dövrü və onun Azərbaycan təcrübəsi analitik tədqiqat obyekti kimi: yeni cəmiyyət və milli dövlət quruculuğu prosesində problemlər və vəzifələr, milli dirçəliş və qurtuluşun əsası, siyasi sabitliyin təmin edilməsi və milli inkişafın başlanğıcı: lider faktoru", "Siyasi sistemin struktur elementlərinin təşəkkül tapması və təkmilləşdirilməsi, konstitusiyanın qəbulu, parlament seçkilərinin keçirilməsi və ictimai-siyasi institutlaşma prosesinin əsasının qoyulması", "Siyasi partiyalar plüralist siyasi sistemin başlıca ünsürlər kimi: Yeni Azərbaycan

Partiyası", "Azərbaycançılıq ideologiyası: milli həmrəylik və bütövlüyü təmin edən universal ideoloji formula, yaxud neokonservatizmin milli modeli kimi", "Demokratiya institutu: mahiyyəti, nəzəri və təcrübi əsasları, demokratik tranzit problemi: modellər, mərhələlər və reallıqlar", "Demokratiya" "silah"ı geosiyasi oyunlar və siyasi manipulyasiya vasitəsi kimi", "Demokratik tranzitin milli modeli-Azərbaycan nümunəsi: reallıqlar və perspektivlər", "Hüquqi dövlət anlayışı: tarixi kökləri, təşəkkülü xüsusiyyətləri və modern səciyyəsi", "Vətəndaş cəmiyyəti: ideya əsasları və səciyyəvi xüsusiyyətləri, Azərbaycanda hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunması: mərhələləri, spesifikası və nəticəsi", "İnsan və vətəndaş hüquq və azadlıqlarının təşəkkülü, inkişafı və siyasi mahiyyəti: nəzəri əsaslar və təcrübi gerçəkliklər", "Demokratik cəmiyyətlərdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə edilməsi vasitələri və mexanizmləri", "İnsan hüquqları probleminin beynəlxalq hüquqi tənzimlənməsinin siyasi aspektləri", "Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının konstitusiya əsasları", "Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi siyasətinin əsas istiqamətləri", "Azərbaycan cəmiyyətinin demokratikləşməsi şəraitində ombudsman təsisatının təşəkkülü xüsusiyyətləri", "Elita problemi nəzəri-konseptual və analitik-empirik tədqiqat obyekti kimi", "Elita nəzəriyyələri: institusional və differensial yanaşmalar", "Milli elitanın Azərbaycan nümunəsi: formalaşma və təşəkkül mərhələləri, transformasiya forması və modern səciyyəsi", "Demokratik cəmiyyətdə müxalifət institutu: mahiyyəti və spesifik funksionallıq məsələsi", "Müxalifət institutunun fəaliyyət mexanizmi və funksionallığı məsələsi: radikal və konstruktiv meyillər", "Milli müxalifətin Azərbaycan nümunəsi: təmayüllər, reallıqlar və nəticələr", "Siyasi mədəniyyət: funksiyaları, növləri və struktur elementləri", "Siyasi mədəniyyətin Azərbaycan təcrübəsi: reallıqlar, nailiyyətlər və perspektivlər", "Siyasi modernləşmə kursu milli inkişaf strategiyasının fundamental istiqaməti kimi: nəzəri-konseptual məsələlər və Azərbaycan

təcrübəsi”, “Seçki institutu demokratik siyasi sistemin mühüm struktur elementi kimi: nəzəri-empirik əsaslar və təcrübi göstəricilər”, “Azərbaycanda seçki institutu: hüquqi əsasları, spesifikası və struktur elementləri”, “Müstəqillikdən sonra Azərbaycanda prezident seçkiləri institutu və təcrübəsi analitik tədqiqat obyekti kimi: reallıqlar və nəticələr”, “Müstəqillikdən sonra Azərbaycanda parlament seçkiləri institutu və təcrübəsi analitik tədqiqat obyekti kimi: reallıqlar və nəticələr”, “Media institutu: mahiyyəti, spesifikası və funksiyaları”, “Müstəqillikdən sonra milli mətbuatın təşəkkülü prosesi və inkişaf səviyyəsi: faktlar, reallıqlar və nəticələr”, “Modern informasiya cəmiyyətində milli maraqlar və jurnalistika”, “Müstəqilliyin ilk illərində sosial-iqtisadi durum: problemlər və vəzifələr”, “Milli iqtisadi inkişaf strategiyası: konseptual əsasları və real nəticələri”, “Milli iqtisadi inkişafın yeni mərhələsi: keçid iqtisadiyyatına son və yeni inkişaf mərhələsi”, “Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sisteminin aktoruna çevrilməsi prosesi: reallıqlar, nailiyyətlər və nəticələr”, “Milli potensial və güc dəyərləndirməsi Azərbaycan nümunəsində: meyarlar və göstəricilər”, “Balanslaşdırma siyasəti-milli maraqlara və dəyərlərə müvafiq xarici siyasət strategiyası”, “Milli maraqlara praqmatik münasibətin geosiyasi nümunəsi və ya Azərbaycanın xarici siyasət strategiyasında enerji resursları amili”, “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi analitik tədqiqat obyekti kimi: faktlar və nəticələr” və “Azərbaycan artıq postsovet ölkəsi deyil” adlı mövzular hər biri ayrıca bir paraqraf olmaq etibarilə Azərbaycan nümunəsində elmi-nəzəri və analitik-empirik əsasda hazırlanmışdır.

**Kitabın əsas məziyyətlərindən biri də budur ki, analitik tədqiqat obyektinə çevrilən müxtəlif siyasi proseslərin fonunda Ulu öndər Heydər Əliyevin politoloji irsi geniş şəkildə öz əksini tapır. Müxtəlif faktlar və arqumentlərin geniş analitik təhlili Ulu öndər Heydər Əliyevin politoloji irsinin öyrənilməsi üçün mühüm mənbə rolunda çıxış edir. Eyni zamanda, kitab Prezident İlham Əliyevin siyasi varislik prinsipi əsasında həyata**

**keçirdiyi milli inkişaf strategiyasının əsaslarının öyrənilməsi üçün də xüsusi əhəmiyyət daşıyır.**

Kitabın digər bir məziyyəti odur ki, Azərbaycan nümunəsi və təcrübəsində toxunulan bütün məsələlər elmi-nəzəri kontekstdə əsaslandırılmış və təcrübi gerçəkliklərin fonunda analitik üslubda diqqətə çatdırılmışdır.

Ümidvarıq ki, kitab Azərbaycan Respublikasının 22 illik müstəqillik dövründə ölkəmizin daxili və xarici siyasətində müşahidə edilmiş hadisələrin, proseslərin araşdırılması, öyrənilməsi baxımından tədqiqat xarakterli xüsusi elmi-nəzəri və empirik-analitik informasiya mənbəyi kimi oxucular üçün olduqca maraqlı olacaqdır.

Kitab Azərbaycan Respublikasının müstəqillik tarixini və böyük dövlət xadimi Heydər Əliyev siyasi irsini öyrənən ali məktəb tələbələri, magistr və doktorantlar, müstəqillik dövrünü tədqiq edən araşdırmaçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**Hikmət BABAOĞLU**

# SİYASİ PORTRET ƏVƏZİ

## Heydər Əliyev Azərbaycan xalqı üçün Ümummilli lider, dünya üçün ümumbəşəri dəyərdir

*Onun adı və fəaliyyəti Azərbaycan etnosiyasicoğrafiyası ilə məhdudlaşmır*

Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, Azərbaycanda milli özünüdərk prosesinin başladıcısı və idarəedicisi Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının dövlətçilik tarixində o qədər böyük yeniliklərə, o qədər böyük işlərə imza atıb ki, yuxarıda sadaladığımız titulların heç biri Onun titanik fəaliyyətini tam əhatə etmir. Biz bu gün Azərbaycan tarixində Heydər Əliyev erasını yaratmış Ulu öndər haqqında danışarkən, adətən, Onu bir Ümummilli lider kimi səciyyələndiririk. Əlbəttə, bu, mübahisəsiz olaraq belədir. Amma bu zaman bizə elə gəlir ki, Heydər Əliyevin fəaliyyətini bir qədər məhdudlaşdırmış oluruq. Onun fəaliyyətinə bir qədər sırf milli kontekstdə yanaşmış oluruq. Lakin Heydər Əliyev şəxsiyyəti və Onun fəaliyyəti təkcə Azərbaycanın etnosiyasi coğrafiyası ilə bağlı deyil və Ulu öndərin bir siyasətçi kimi fəaliyyəti də Azərbaycanın etnosiyasi coğrafiyası ilə məhdudlaşmır. O, istər Sovet xalqları müstəvisində və istərsə də Şərqi Avropadan tutmuş, hətta Afrika ölkələrinə qədər olan xalqların tarixində rol oynamış, onların yaxından tanıdığı və onların həyatına təsir edəcək proseslərə imza atmış bir şəxsiyyətdir. Ona görə də, hesab edirik ki, bu gün Ulu öndəri hörmətlə anarkən Heydər Əliyevşünasların və Heydər Əliyev sevərlərin, tədqiqatçıların araşdırmalı olduğu elmi istiqamətlərdən biri də, məhz bu olmalıdır.

**Heydər Əliyev azərbaycançılığı haradan və necə başladı...**

Biz bu gün Ulu öndərin bu vaxta qədər tədqiqatdan və ümumi kütləvi yanaşmadan kənarda qalan fəaliyyətinin bəzi spektrləri haqqında fikirlərimizi bildirməyə çalışacağıq. Ümumi yanaşma Ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasını, məhz Azərbaycanın siyasi rəhbərliyinə gəldikdən sonra başlatdığı yönündədir... Ancaq biz hesab edirik ki, Ulu öndər Heydər Əliyev azərbaycançılıq ideologiyasının əsaslarını, rüşeymlərini hələ Sovet dövründə Azərbaycanın Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərliyi dövründə başlatmışdır. Biz bilirik ki, Dövlət Təhlükəsizlik Komitəsi Sovet dövrünün ideoloji və siyasi əsaslarını formalaşdıran, onu idarə edən və yönləndirən əsas orqan idi. Və təəssüf ki, Sovet Azərbaycanı dövründə Ulu öndər Heydər Əliyevə qədər Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik edən azərbaycanlı olmamışdır. Azərbaycan xalqının, Azərbaycan ziyalısının, Azərbaycan dövlətçiliyinin, Azərbaycanın düşünən beyinlərinin başına gələn faciələrin əsas törədicisi və əsas ideyavericisi də, məhz bu sistemdən doğurdu. Və biz bilirik ki, Sovet quruculuğu prosesində, 1937-ci il repressiyasında, həmçinin, ondan sonrakı dövrlərdə Azərbaycan xalqının ziyalılarına qarşı törətdiyi repressiyanın mərkəzi, məhz təhlükəsizlik orqanları idi. Bu təhlükəsizlik orqanları, sanki Azərbaycanın daxilində antiazərbaycançı qüvvələrin mərkəzini, konsentrasiyasını təşkil edirdi. Bu yanaşma Ulu öndər Heydər Əliyev milli təhlükəsizlik orqanlarına rəhbərlik edən günə qədər davam etdi. Onun rəhbərliyi dövründə isə respublikanın təhlükəsizlik orqanlarından anti-azərbaycançi qüvvələr, Azərbaycanı sevməyən müxtəlif xalqların nümayəndələri təmizlənməyə başlandı. Və azərbaycançılıq ideologiyasının rüşeymi də, milli özünüdərk prosesinin rüşeymi də elə oradan cücərməyə başladı. Bundan sonrakı mərhələdə Ulu öndər öz fəaliyyətini siyasi sahəyə transfer etdikdən sonra, yəni, 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra artıq bu rüşeym daha bir münbit sferaya düşməklə siyasi populyarlıq qa-

zandı. Beləliklə, artıq 1978-ci ildə Ulu öndərin həyata keçirdiyi fəaliyyət nəticəsində Azərbaycan dili Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili kimi Azərbaycan Konstitusiyasına düşdü. Hesab edirik ki, bu, Ulu öndərin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən biri idi.

**İdeyanın ideologiyaya çevrilməsi və kütləvi mənimsənilməsi**

Həmin dövrdə artıq azərbaycançılıq ideyası bir ideya şəklindən, yəni, bir fərdin, bir siyasətçinin, bir öndərin ideyasından ideologiyaya çevrilməyə başladı. Təsadüfi deyil ki, bu ideologiyaya çevrilmə prosesi də məhz ideya müəllifi tərəfindən həyata keçirildi. Bundan sonrakı mərhələdə azərbaycançılıq ideologiyasının xalq tərəfindən mənimsənilməsi, dərk olunması prosesi başladı. Bu istiqamətdə atılan ilk addımın ilkin nəticəsi isə, məhz Bakı şəhərinin azərbaycanlılaşdırılması oldu. Çünki biz bilirik ki, o dövrdə Bakını istənilən yerdə və istənilən şəkildə ümumi universal möhürü beynəlmiləl şəhər möhürü idi. Bu beynəlmiləl şəhər bir kosmopolit bakılılar anlayışını özündə birləşdirməklə, milli ünsürləri rədd edirdi. Beləliklə, hətta o dövrdə mərkəzi hakimiyyətdə Dərbənd kimi neft mərkəzi olan Bakını da hansısa bir şəkildə federasiyaya bağlamaq, bu mümkün olmayanda isə, heç olmasa Bakını azərbaycanlılarından qorumaq siyasəti həyata keçirilirdi.

**Kosmopolit Bakıdan milli Bakıya doğru**

Məhz bu zəncirləri, yəni Bakını azərbaycanlılardan ayıran o zəncir halqalarını Ulu öndər qırdı. 1969-cu ildən başlayaraq 1970-ci illərdə böyük dövlət xadimi Heydər Əliyev tərəfindən Azərbaycanın regionlarından, rayonlarından, kəndlərindən azərbaycanlıların məhz Bakı şəhərində məskunlaşdırılması ilə Bakı bir Azərbaycan şəhərinə çevrildi və azərbaycançılığın ilk nəticəsi Bakının azərbaycanlılaşması oldu. Və əlbəttə ki, bu proses həm iqtisadi, həm siyasi, həm milli intellektual müstəvidə baş verirdi. Yəni regiondan gələn gənclərin işlə, qalacaqla təmin olunması, məskun-

laşması prosesi vardır. Həmin dövr Azərbaycanda həm sənaye müəssisələri tikildi, həm yataqxanalar tikildi, həm də yeni qəsəbələr və mikrorayonlar salındı. Beləliklə də, Bakı azərbaycanlaşdırıldı. Biz, sadəcə, Ulu öndərin siyasi ideoloji fəaliyyətini təhlil etdiyimiz üçün iqtisadi və sosial məsələlər barəsində çox danışmaq istəmirik.

**Heydər Əliyev erası müxtəlif sosial, iqtisadi və ideoloji qatlardan ibarətdir**

Biz Ulu öndərin fəaliyyətinə, Azərbaycan xalqı qarşısında xidmətlərinə nəzər saldıqda görəcəyik ki, dediyimiz bu era ayrı-ayrı qatlardan və mərhələlərdən ibarətdir. Bu qatların və mərhələlərin hər biri Azərbaycan xalqının tarixində ayrıca səhifədir. Ən əsası odur ki, bu səhifələr Azərbaycan xalqının və dövlətinin inkişafını özündə ehtiva edən, onu stimullaşdıran səhifələrdir. Əlbəttə ki, Ulu öndərin hakimiyyətinin ikinci dövrü Onun SSRİ rəhbərliyinə aparılması ilə bağlıdır. Bu dövrdə də yenə Azərbaycan daima Ulu öndərin diqqətində olmaqla respublikamızın inkişafı başlıca məsələ kimi SSRİ rəhbərliyinin diqqət mərkəzində tutulurdu. Və nəhayət, Ulu öndərin sonrakı mərhələdəki fəaliyyəti Onu artıq müstəqil bir dövlətin, müstəqil bir xalqın lideri kimi səciyyələndirməyə imkan verir. Genetik olaraq, liderlik keyfiyyətlərinə və yüksək xarizmaya sahib olan Heydər Əliyev heç kəsin proqnozlaşdıra bilməyəcəyi proseslər baş verərkən, XX əsrin sonlarında bunları proqnozlaşdırmağı, həmçinin, öz yeri və mövqeyini bu proseslərin içində müəyyənləşdirməyi dəqiqliklə bacarırdı. Eyni zamanda, Onun qəbul etdiyi şəxsi qərarlar bir növ Azərbaycan xalqının siyasi qərarlarına çevrilirdi. Ən əsası isə bu qərarlar uzaqgörən və məqsədyönlü, konkret hədəfə doğru istiqamətlənmiş olduğu üçün bizim ümummilli yolumuzu işıqlandıran mayaka çevrildi.

**Azərbaycan xalqının milli özünüdərkinin bərpası və müstəqillik mübarizəmizin uğurla sona çatması üçün Ulu öndər böyük xidmətlər göstərdi**

20 Yanvar faciəsindən sonra Moskvada Azərbaycanın Daimi nümayəndəliyinə gələrək, xalqının ağır günündə onun yanında olduğunu nümayiş etdirən Ulu öndərin bu addımı bütün dünyaya səs saldı. Əslində bu, Azərbaycanın milli dövlətçilik prinsiplərinin elan olunması və hədəflərinin göstərilməsi idi. Əlbəttə ki, Azərbaycan xalqının milli özünüdərkinin bərpası və müstəqillik mübarizəmizin uğurla sona çatması üçün Ulu öndər Heydər Əliyev böyük xidmətlər göstərdi. Baxmayaraq ki, o dövrdə, istər siyasi baxımdan, istər iqtisadi baxımdan, istərsə də mənəvi-psixoloji baxımdan daim məhdudiyyətlər və təzyiqlər altında fəaliyyət göstərirdi. Amma Naxçıvana gələr-gəlməz dərhal Naxçıvan MR Ali Sovetində Azərbaycanın bugünkü bayrağını və eyni zamanda, Azərbaycanın tarixi bayrağını – 1918-20-ci illərdə dalğalanmış üçrəngli bayrağımızı, məhz xüsusi qərarla Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin binası üzərində ucaltdı. Bu addımın özü xalqın milli azadlıq hərəkatına yeni keyfiyyət, yeni ruh və optimizm gətirdi. Hesab edirik ki, bu da tariximizin yaddaqalan, maraqlı və gərəkli səhifələrindəndir.

Ondan sonrakı mərhələdə, əlbəttə ki, Ulu öndərin fəaliyyət sferası daha da genişlənməyə başladı. Azərbaycandan ilk dəfə olaraq imperiya əsgərlərinin çıxarılması və bir xarici dövlətlə sərhədlərin qorunmasının özümüzə qaytarılması da Heydər Əliyev erasında tariximizə yazılan qızıl səhifələrdəndir.

**Müstəqil dövlətimizin tərəqqisi Heydər Əliyevin adı ilə bağlıdır**

Əlbəttə ki, başqa maraqlı bir dövr Azərbaycanda vətəndaş müharibəsinin qarşısının alınması ilə bağlıdır. Bu, olduqca mürəkkəb və təzadlı bir dövr idi. Azərbaycan dövləti parçalanmaq təhlükəsi ilə baş-başa qalmışdı. Həmin dövrə diqqətlə nəzər salsaq

görərik ki, Ulu öndər Heydər Əliyev dahi bir dövlət xadimi kimi Azərbaycan dövlətinin və dövlətçiliyinin mənzərəsini çox aydın şəkildə görür və onun struktur formulasını müəyyənləşdirərək nəyin necə olmasını dəqiq cizgilərlə qura bilirdi. Məhz bunun nəticəsi idi ki, müstəqil Azərbaycan dövləti quruldu. Məhz Ulu öndərin həmin dövrdə həyata keçirdiyi siyasət nəticəsində bu gün Azərbaycan müstəqil dövlət kimi, yəni, formal müstəqil deyil, həqiqi müstəqil dövlət kimi tanınır.

## O, böyük müəllim, mükəmməl natiq, dahi təbliğatçı idi

Ulu öndərin başqa böyük keyfiyyətlərindən biri də Onun böyük müəllim, dahi təbliğatçı və mükəmməl natiq olmasında idi. Heydər Əliyev "ideya, ideologiya və təbliğat" universal üçlük formulasından çox məharətlə istifadə etməyi bacarırdı. O, ideyanı verir, onu ideologiyaya çevirir və həmin ideologiyanın kütlə tərəfindən mənimsənilməsini təmin edirdi. Elə Azərbaycanı birləşdirəcək universal formula olan azərbaycançılıq ideologiyasının da müəllifi, təbliğatçısı və icraedicisi, məhz Ulu öndərimiz olub. Əslində, bir xalqın vahid ideologiya ətrafında təşkilatlanması üçün illər keçir. Yəni, hər hansı bir ideologiyanın mənimsənilməsi, öyrənilməsi və xalqın həmin ideologiyanın daşıyıcısına çevrilmə prosesi uzun illər, bəlkə də qərinələr, yüzillər aparır. Amma Ulu öndər özünəxas xüsusi çevik üsul və metodlarla bu prosesi elə etdi ki, qısa müddətdə azərbaycançılıq ideologiyası Azərbaycanın başlıca milli-siyasi ideologiyasına çevrildi. Bir qədər sonra isə bu öz müsbət bəhrəsini verdi. Azərbaycanda bu ideologiyanın bərqərar olması və mənimsənilməsi ilə ölkəmizdə etnik separatçılığa son qoyuldu.

## Heydər Əliyev dövlətin siyasi və ideoloji varisliyini təmin etdi

Ulu öndər elə böyük dövlət və siyasi xadimlərdən idi ki, dövlətçiliyin siyasi-ideoloji əsaslarını yaratmaqla bərabər, eyni zamanda, onun varisliliyini də təmin etdi. Hər hansı bir dövlətin var olması üçün mütləq ideoloji-siyasi varislik lazımdır. Əgər bu olma-

sa, dövlət bir nüfuza, liderə, bir fiziki şəxsə bağlı olduqda, o şəxsin fiziki-bioloji mövcudluğu bitdikdən sonra dövlətin də ömrü bitir. Məhz bunu bilən Ulu öndər dövlətçiliyimizin siyasi-ideoloji varisliyini də təmin etmiş oldu.

Heydər Əliyev üçün biz çoxlu titullar deyə bilərik. Ümummilli lider, Ulu öndər, Azərbaycan Respublikasının siyasi rəhbəri, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, müstəqil Azərbaycan Respublikasının Prezidenti və s. Bunlar əlbəttə ki, hamısı bir titul, bir vəzifədir. Amma Heydər Əliyev şəxsiyyəti bütün bunların hamısının fövqündə duran bir nümunədir. Yəni bu, bir həqiqətdir ki, bütün bu vəzifələrdən və titullardan Heydər Əliyev Azərbaycan xalqının milli və dövlətçilik maraqlarının təmin olunması üçün istifadə etdi. O, bir millət mücahidi idi, xalq mücahidi idi, Azərbaycan xalqının böyük mücahidi idi, Azərbaycan xalqını beynəlxalq münasibətlərdə böyük arenaya çıxarmağı qarşısına məqsəd qoymuşdu. Azərbaycan həqiqətlərini dünyaya çatdırmağı qarşısına məqsəd qoymuşdu. Müstəqil Azərbaycan dövlətinin əbədi olmasını qarşısına məqsəd qoymuş böyük bir mücahid idi. Prezidentlikdən tutmuş digər titul və vəzifələr isə Onun üçün, məhz bu məqsədləri həyata keçirmək üçün bir mexanizm və vasitə idi. Ona görə də Ulu öndər Heydər Əliyev Azərbaycan xalqı tərəfindən daima hörmətlə anılacaq. Xalqımız var olduqca O da yaşayacaqdır.

**Hikmət BABAOĞLU**

*Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir*

***Ulu öndər Heydər Əliyev***

***

*İndi ...bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində olmağa qoymamışam*

***Ulu öndər Heydər Əliyev***

***

*Bizim üçün müstəqillik ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük dəyərdir*

***Prezident İlham Əliyev***

***

*İyirmi illik inkişaf yolumuzun ən parlaq nəticəsi ondan ibarətdir ki, bu gün Azərbaycan, sözün əsl mənasında, artıq tam müstəqil ölkədir. Ölkəmizdə gerçəkləşdirilən siyasət daim Azərbaycan xalqının maraqlarına xidmət göstərir*

***Prezident İlham Əliyev***

# I HİSSƏ

# Azərbaycan Respublikasında müstəqil dövlət quruculuğu prosesi və Heydər Əliyev fenomeni

# I FƏSİL

# HEYDƏR ƏLİYEVİN SOVET İTTİFAQI DÖVRÜNDƏ SİYASİ FƏALİYYƏTİNİN BƏZİ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

## 1.1. Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin birinci dövrü

Ulu öndər Heydər Əliyevin siyasi irsinin politoloji aspektlərini araşdırarkən, ilk növbədə, Onun hakimiyyətinin birinci mərhələsinə (1969-1982-ci illər) nəzər yetirmək lazımdır.

Məlum olduğu kimi, 1969-cu ilədək Azərbaycan SSRİ-nin tərkibində bütün sahə və istiqamətlər üzrə ən geridə qalmış ölkələrin başında gəlirdi. Respublikamızın inkişafı üçün əhəmiyyətli resurs və potensial mövcud olsa da, onlardan səmərəli surətdə istifadə edilməməsi tənəzzül meyillərinin əsasında dayanan başlıca faktor və destruktiv substrat idi.

Amma Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul (14 iyul 1969-cu il) plenumunda Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olması ölkəmizin Sovet dövrü tarixində dönüş nöqtəsi oldu. Məhz bu tarixdən sonra bütün sahələrdə həyata keçirilən islahatlar, görülən tədbirlər respublikamızın inkişafını təmin edən substrat oldu.

Həmin dövrə qədər Azərbaycan SSRİ miqyasında xammal mənbəyi qismində çıxış edən aqrar respublika kimi tanınırdı. Odur ki, ölkəmizin yalnız xammal mənbəyi kimi çıxış etməsi ənənəsini aradan qaldırmaq və davamlı, sürətli inkişafı təmin etmək üçün kompleks səciyyəli strateji islahatlar aparmaq, genişmiqyaslı tədbirlər görmək zəruri idi. Bunun üçünsə ilk növbədə, sosial-iqtisadi islahatlar həyata keçirməklə milli inkişafın maddi bazasını formalaşdırmaq lazım idi. Ulu öndər Heydər Əliyev də məhz bu istiqa-

mətdə fundamental strateji tədbirlər görməklə davamlı və nizamlı inkişafı təmin etməyi bacardı. Sürətli sənayeləşmə kursu seçildi və qısa zaman kəsiyində sənaye sahəsinin inkişafında mühüm irəliləyişlər qeydə alındı. Ardıcıl surətdə sənaye müəssisələri tikilib istifadəyə verildi ki, bu da davamlı inkişaf konsepsiyasının həyata keçirilməsini təmin edən əsaslardan biri oldu. Qısa müddətdə Azərbaycan İttifaq səviyyəsində sənaye istehsalının artım sürətinə görə ilk yerdə qərarlaşdı. Bunun məntiqi və qanunauyğun nəticəsi kimi, maşınqayırma, metallurgiya və digər sahələrdə də əhəmiyyətli irəliləyişlər qeydə alındı. Eyni zamanda, müəssisələrin maddi-texniki bazası daha da yaxşılaşdırıldı, çoxsaylı yeni komplekslər, emal zavodları istifadəyə verildi. Bunlar isə yüngül və yeyinti sənayesinin inkişafına təkan verdi.

Sənaye sahəsinin inkişaf etdirilməsi aqrar sektorun da tərəqqisinə təkan və töhfə verən əsas oldu. Aqrar sahədə görülən işlər bu sektorda sürətli və sıçrayışlı inkişafın şərtləndiricisi qismində çıxış etdi. 1970-ci ildə Heydər Əliyevin təşəbbüsü və səyləri ilə SSRİ Nazirlər Sovetinin qəbul etdiyi "Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" Qərar kənd təsərrüfatının inkişafı yönündə həyata keçirilən yeniliklərin normativ əsasını təşkil etdi. Bunun ardınca 9 iyul 1975-ci il tarixli "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək haqqında" Qərar da bu sahənin inkişafının hüquqi substratı qismində çıxış etdi.

Həyata keçirilən tədbirlərin fonunda kənd təsərrüfatı sənaye təməli üzərində inkişaf etdirildi və istehsal olunan məhsulların orta illik həcmi mütəmadi surətdə artırıldı. Artıq 1982-ci ildə kənd təsərrüfatı məhsullarının istehsal həcmi ilk dövrlərlə müqayisədə 6 dəfə artırılmışdı ki, bu da aqrar sektorun inkişafı yönündə həyata keçirilən siyasətin səmərəliliyindən xəbər verirdi.

Bunlarla yanaşı, Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə neft sənayesində də tənəzzül meyilləri aradan qaldırıldı və bəhs edilən sahədə ehtiyatlardan səmərli istifadə etməklə davamlı və nizamlı inkişafın əsası qoyuldu. Neft hasilatı

xeyli artırıldı. Artıq 1970-ci ildə neft hasilatı 17,3 milyon tona çatdırıldı ki, bu da mühüm göstərici idi. Bununla yanaşı, Xəzər dənizində "28 aprel", "Bahar", "Günəşli" kimi zəngin ehiyatlara malik olan neft və qaz yataqları aşkar edildi. Neftçıxarma texnologiyasında sürətli təkmilləşdirmə işləri aparıldı. Xəzər dənizində 2800-6500 metr dərinliyində neft quyuları qazıldı və sualtı neft kəməri çəkildi. 1972-ci ilədək Azərbaycanda neft yataqlarından bir milyard ton neft çıxarıldı. 1976-cı ildə Yeni Bakı Neftayırma zavodu, 1982-ci ildə isə Bakı Neftayırma zavodunda neftin ilkin emalı üçün ELOU-AVT qurğusu işə salındı. Bu müəssisələrdə 30 adda müxtəlif neft məhsulları istehsal olunurdu. Neft sektorunda əldə edilən bu nailiyyətlər, o cümlədən, dənizdə neft istehsalı üçün tikilmiş "Dərin özüllər" zavodunun yaradılması, əslində, gələcəkdə "Əsrin müqaviləsi" adlandırılan və müstəqil Azərbaycanın inkişafını təmin edən müqavilənin imzalanmasına gətirib çıxardı ki, bu da hazırki iqtisadiyyatımızın inkişafında başlıca stimullaşdırıcı amildir.

Nəticə etibarilə, neft və qaz ehtiyatlarından səmərəli istifadə edilməsi milli inkişafa mühüm töhfələr bəxş etmiş oldu. Eyni zamanda, sənaye müəssisələrinin sayının və sənaye istehsalının illik həcminin artırılması, kənd təsərrüfatında məhsuldarlıq səviyyəsinin yüksəldilməsi, enerji sektorunun mütəmadi inkişafının təmin edilməsi milli inkişafı təmin etməklə yanaşı, respublikamıza milli inkişafa sərf etmək üçün əhəmiyyətli dərəcədə kapital gətirmiş oldu.

Beləliklə, görülən tədbirlərin fonunda tənəzzül meyillərinə son qoyuldu və respublikamızın sosial-iqtisadi inkişafına, dirçəlişinə start verildi. Sosial-iqtisadi inkişafın təmin edilməsi mədəniyyət, təhsil, səhiyyə və digər sahələrdə də görülən fundamental strateji tədbirlərin uğurluluğunu şərtləndirdi ki, bu da Azərbaycanın SSRİ səviyyəsində ən yüksək inkişaf tempinə malik olan ölkəyə çevrilməsinin təminatçısı qismində çıxış etdi.

Bunlarla yanaşı, ümummilli inkişafın strateji detallarını aşkar etmək üçün sosial-iqtisadi tərəqqinin fonunda müxtəlif sahələrin dinamik inkişaf tempinə nəzər yetirmək məqsədəmüvafiqdir.

İlk növbədə, təhsil sektorunda ardıcıl və davamlı islahatlar həyata keçirildi ki, bu da kadr potensialının formalaşdırılması və təkmilləşdirilməsi işinə fundamental töhfələr bəxş etmiş oldu. Əvvəla, təhsil sektorunun maddi-texniki bazası yaxşılaşdırıldı. Xüsusi intellektual təbəqənin formalaşdırılması istiqamətində normativ baza yaradıldı və buna müvafiq olaraq praktik müstəvidə əhəmiyyətli tədbirlər görüldü. Ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə müxtəlif bölgələrdə 350 mindən çox şagird yeri olan 849 ümumtəhsil məktəbi istifadəyə verildi. Eyni zamanda, ümumtəhsil məktəblərinin maddi-texniki bazası mütəmadi surətdə yaxşılaşdırıldı və əhəmiyyətli keyfiyyət dəyişikliklərinə nail olundu.

Bunlarla yanaşı, Ulu öndər Heydər Əliyevin xüsusi diqqət və qayğısının fonunda kadr potensialının formalaşdırılması və təkmilləşdirilməsi istiqamətində azərbaycanlı gənclər SSRİ miqyasında fəaliyyət göstərən ali təhsil müəssisələrinə göndərildilər. Belə ki, azərbaycanlı tələbələr Moskva, Leninqrad, Xarkov, Kiyev, Minsk, Voronej və s. şəhərlərdə fəaliyyət göstərən nüfuzlu ali təhsil müəssisələrində öz təhsillərini başa vuraraq ölkəmizə qayıdır və kadr potensialı kimi müxtəlif sahələrdə çalışırdılar. Ümumilikdə Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə SSRİ-nin ən nüfuzlu ali təhsil müəssisələrində 18 minədək yüksək ixtisaslı mütəxəssis hazırlandı. Bu isə milli inkişafın intellektual əsaslarının möhkəmlənməsinə fundamental töhfə idi.

Ulu öndər Heydər Əliyev təhsil sektorunun inkişafının zərurətini məhz bu cür dəyərləndirirdi: “**Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər onlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı, Azərbaycan elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyətləri heç vaxt unutmamalıyıq**”.

Bununla yanaşı, azərbaycanlı gənclərin SSRİ miqyasında fəaliyyət göstərən nüfuzlu ali təhsil məktəblərinə göndərilməsi milli mədəniyyətimizin təbliği və möhkəmləndirilməsi, milli diaspor quruculuğunun formalaşdırılması işinə mühüm strateji töhfələr bəxş etdi. Sonralar Ulu öndər Heydər Əliyev bu missiya və prosesi məhz bu cür dəyərləndirirdi: "**O vaxtlar azərbaycanlıları ayrı-ayrı yollarla sovetlər ittifaqının müxtəlif yerlərinə göndərməklə dayaq yaratmaq istəyirdim. İndi isə sərhədlər açılıb, azərbaycanlılar hər yerdə yaşaya bilər. Bir şərtlə ki, gərək, millətini, dinini, torpağını və ana vətənini unutmayasan**".

Bunlardan başqa, milli-mənəvi dəyərlərin qorunması və dirçəldilməsi istiqamətində əhəmiyyətli tədbirlər görüldü. Musiqi, teatr, kino, təsviri incəsənət və digər sahələrdə xüsusi dəyişikliklər və inkişaf meyilləri qeydə alındı. Mədəniyyət evləri inşa edildi, abidələr ucaldıldı, incəsənət xadimlərinə fəxri adlar, ordenlər, təqaüdlər ayrıldı. Bütün bunlar isə cəmiyyətin intellektual təbəqəsinin fəaliyyət mexanizminin səmərəlilik səviyyəsini daha da artırdı.

Səhiyyə sektorunda da fundamental yeniliklər həyata keçirildi və əhəmiyyətli tədbirlər görüldü. 1969-cu ilin dekabr ayında Heydər Əliyevin təşəbbüsü ilə səhiyyə qanunvericiliyinin təkmilləşdirilməsi haqqında qərar qəbul edildi. Bunun ardınca isə Sağlamlıq Məcəlləsi və "Səhiyyə haqqında" Azərbaycan SSR-in Qanunu qəbul edildi. 1970-1980-ci illərdə Heydər Əliyev 30-a yaxın gənc azərbaycanlı alimin müxtəlif ixtisaslar üzrə SSRİ miqyasında doktoranturaya qəbul edilməsinə müvəffəq oldu.

Bundan başqa, Heydər Əliyevin təşəbbüsü ilə paytaxt Bakı müvafiq sahədə müxtəlif seminar və konfranslara ev sahibliyi etdi. 1970-ci ildə Ümumdünya Səhiyyə Təşkilatının regionlararası seminarının Bakıda keçirilməsi barədə qərar qəbul edildi.

Bunlarla yanaşı, səhiyyə işçilərinin çalışma və məişət şəraitinin yaxşılaşdırılması yönündə də əhəmiyyətli tədbirlər görüldü. Səhiyyə sektorunda çalışanların əməkhaqları artırıldı və onlar müxtəlif orden, medal və fəxri fərmanlarla təltif edildilər.

Beləliklə, Ulu öndər Heydər Əliyevin 1969-1982-ci illər ərzində ölkəyə rəhbərlik etdiyi dövrdə həyata keçirilən islahatlar və görülən strateji tədbirlərin fonunda respublikamız sürətlə inkişaf edərək SSRİ miqyasında xüsusi çəkiyə malik olan respublikaya çevrildi. Əgər o zamanadək Azərbaycan SSRİ miqyasında yalnız xammal mənbəyi kimi çıxış edərək inkişaf tempinə görə ən geridə qalmış ölkə kimi səciyyələndirilirdisə, Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən işlərin fonunda ölkəmiz sürətli inkişaf tempinə malik oldu və 70-ci illərin sonu 80-ci illərin əvvəlində bütün sahələrdə mütəmadi inkişaf meyilləri qeydə alındı.

*Bununla yanaşı, siyasi-ideoloji müstəvidə görülən işlər də milli inkişaf və həmrəyliyimizin təminatçı substratı qismində çıxış etdi. Milli ideoloji siyasətin tərkib hissəsi kimi 1978-ci ildə Heydər Əliyevin cəhdləri və təşəbbüsü sayəsində Azərbaycan SSR-in Konstitusiyasına "**Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir**" maddəsi daxil edildi. Bu, milli ideologiyamızın funksional vahidi olan milli dilimizin mühafizəsi və təbliği baxımından mühüm tarixi strateji addım oldu. Bunun ardınca "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı ki, bu da bəhs edilən siyasətin ideoloji substratı səciyyəsi daşıdı.*

Ulu öndər Heydər Əliyevin hakimiyyətinin birinci mərhələsinin mühüm əsaslarından biri də ölkəmizə qarşı ermənilərin təşkil etdikləri təbliğat və hücumların qarşısının məharətlə alınmasıdır. Belə ki, ermənilərin ölkəmizə qarşı təşkil etdikləri antitəbliğatın SSRİ miqyasında Ulu öndər Heydər Əliyev tərəfindən məharətlə qarşısının alınması tarixi nailiyyət kimi dəyərləndirilməlidir. Məlum olduğu kimi, həmin ərəfədə ermənilər mütəmadi surətdə Dağlıq Qarabağ məsələsini gündəmə gətirməyə cəhd edirdilər. 1977-ci ildə də belə təşəbbüs edilməsinə baxmayaraq, Ulu öndərin operativ və effektiv tədbirləri sayəsində bunun qarşısı məharətlə alındı.

Ümumiyyətlə, Ulu öndər Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi 13 il ərzində (1969-1982) respublikamızın regionları da daxil olmaqla, bütün şəhərlərində ciddi tarixi inkişaf baş

verdi. Bu inkişaf ölkənin həm iqtisadi, həm də sosial-mədəni sferasını əhatə edirdi. Bütövlükdə, Bakı şəhərinin milliləşməsi, paytaxtımızda onlarla sənaye müəssisəsinin yaradılması, mikrorayonların və yeni qəsəbələrin salınması, kəndlərimizin abadlaşdırılması, gənclərin işlə təmin edilməsi və kadr kimi ixtisaslaşdırılması və s. kimi məsələlər Heydər Əliyev hakimiyyətinin əsas xüsusiyyətləri idi.

Nəticə etibarilə, Ulu öndər Heydər Əliyevin 1969-1982-ci illərdə ölkəmizə rəhbərlik etdiyi dönəm inkişaf tendensiyaları ilə tarixə daxil oldu. Eyni zamanda, siyasi-ideoloji müstəvidə həyata keçirilən işlər milli həmrəylik və bütövlüyümüzün təminatçısı rolunda çıxış etdi.

1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi və SSRİ-nin rəhbərlərindən biri oldu. Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verdi. Təəssüflər olsun ki, Ulu öndər Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi fəaliyyəti lazımi qədər tədqiq edilməyib. Hesab edirik ki, bu, ayrıca və əlahiddə bir mərhələ olduğu üçün xüsusi araşdırma mövzusu olmalıdır.

### 1.2. Böyük qayıdış və Naxçıvan MR-in xilası

Ulu öndər Heydər Əliyevin siyasi irsinin politoloji aspektlərini araşdırarkən Ümummilli liderin siyasi fəaliyyətinin Naxçıvan dövrünə də nəzər yetirmək məqsədəmüvafiqdir.

Məlum olduğu kimi, 1990-cı ildə Azərbaycan olduqca mürəkkəb situasiya qarşısında idi. SSRİ-nin dayaqlarının sarsıldığı bir dövrdə İttifaq miqyasında baş alan hərc-mərclik ölkələrin daxili həyatına da sirayət etmiş və idarəetmə potensialı və qabiliyyəti

aşağı olan ölkələrdə çox mürəkkəb siyasi-hüquqi kataklizmlər cərəyan etməkdə idi.

Həmin tarixi dövrdə mövcud problemlərin fonunda Azərbaycan da olduqca mürəkkəb sosial, iqtisadi və siyasi-hüquqi kataklizmlər burulğanında idi. Bunu şərtləndirən obyektiv səbəblər var idi. İlk növbədə, ölkəyə səriştəsiz qüvvələrin rəhbərlik etməsi idarəetmənin rasional və praqmatik prinsiplər əsasında həyata keçirilməsini mümkün etmədiyindən bütün sahələrdə dərin tənəzzül meyilləri müşahidə edilirdi. Bunun fonunda Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü ərazi iddiaları və işğalçı siyasətini davam etdirməsi ölkəmizin durumunu mürəkkəbləşdirən amillər sırasında səciyyələndirilməlidir. Həmin tarixi mərhələdə Naxçıvan da olduqca mürəkkəb vəziyyətdə idi. Muxtar Respublikanın blokada şəraitində olması, sosial-iqtisadi durumunun bərbadlığı, hakimiyyətin muxtar qurum üzərində oynamağa çalışdığı oyunlar Naxçıvanın vəziyyətini maksimum dərəcədə mürəkkəbləşdirmişdi.

Mövcud durum 1991-ci ilin sentyabr ayında Ulu öndər Heydər Əliyevin Naxçıvan MSSR-in Ali Sovetinin sədri *seçilməsinədək olan tarixi mərhələdə* daha da kəskinləşdi. Ali Sovetin sədri seçilən Ulu öndər Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində sabitlik təmin edildi və muxtar qurumun sosial-iqtisadi vəziyyəti yaxşılaşdırıldı. Müharibənin davam etdiyi, sənaye məhsullarının çatışmadığı, elektrik enerjisinin olmadığı, sosial-iqtisadi durumun kəskin olduğu şəraitdə Ali Məclisin sədri seçilən Heydər Əliyev həyata keçirdiyi islahatlar, gördüyü tədbirlər və işlər sayəsində sabitliyin, tərəqqinin və həmrəyliyin təmin olunmasına nail oldu.

Ümumiyyətlə, Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövründə gördüyü işlərin mahiyyətini və əzəmətini anlamaq üçün, sadəcə, bir neçə fakta nəzər yetirmək kifayət edir.

Beləliklə, görülən işlər sırasında, ilk növbədə, milli dövlətçilik ənənələrinin bərpasını qeyd etmək lazımdır. Belə ki, milli dövlətçilik ənənələrinin bərpa olunması yönündə görülən işlər sırasında Muxtar Respublikanın dövlət rəmzlərinin bərpa olunması və milliləşdirmə siyasətinin həyata keçirilməsi vurğulanmalıdır. 17 noyabr

1990-cı il tarixində Naxçıvan Ali Məclisinin I sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımız qaldırıldı. Milli bayraq məsələsi ilə əlaqədar 2 bəndlik qərar qəbul edildi. Bununla yanaşı, Naxçıvan MSSR adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı. SSRİ-nin mövcud olduğu bir dövrdə belə bir qərarın qəbul və icra edilməsi olduqca yüksək siyasi səriştə və cəsarət tələb edirdi ki, Ulu öndər Heydər Əliyev bunu nümayiş etdirdi. Eyni zamanda, Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Sovet ordusu, əsgəri birlikləri Naxçıvan MR ərazisindən çıxarıldı.

Bununla da Naxçıvan MR-in müstəqil inkişafı üçün ilkin zəmin yaradıldı və sabitliyə real təhdid yaradan faktorların neytrallaşdırılması istiqamətində mühüm işlər görüldü. O zaman Azərbaycanda hakimiyyətdə olan səriştəsiz qüvvələr korporativ maraqlar əsasında çıxış edərək sabitliyə və inkişafa mane olmaq yönündə xüsusi fəallıq göstərirdilər ki, bu da Naxçıvanın durumuna mənfi təsir edən destruktiv faktor qismində çıxış edirdi. Hətta iş o həddə çatmışdı ki, xarici güc mərkəzlərinin "marionetka"ları qismində çıxış edən hakimiyyətdəki "piyada"lar Naxçıvanda bir neçə dəfə dövlət çevrilişinə cəhd etdilər. Bunlardan ilki Xalq Cəbhəsinin 24 oktyabr 1992-ci ildə Naxçıvandakı silahlı dəstələrinin Muxtar Respublikada etdiyi çevriliş cəhdi oldu. Amma Ulu öndər Heydər Əliyevin siyasi məharəti sayəsində bəhs edilən çevriliş cəhdlərinin qarşısı alındı.

Bunlarla yanaşı, Ulu öndər Heydər Əliyev milli ideoloji məsələləri önə çəkərək bir sıra təxirəsalınmaz tədbirlər gördü və tarixi qərarlar qəbul etdi. İlk növbədə, "1990-cı il yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərar qəbul edildi. Qərarda 20 Yanvar hadisələrinin mahiyyəti, siyasi və hüquqi əsasları əks olunmuşdu. Eyni zamanda, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsi barədə də tarixi qərar qəbul edildi.

Bütün bunlarla yanaşı, Naxçıvan MR-də sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması və tərəqqi meyillərinin əldə olunması üçün əhəmiyyətli tədbirlər görüldü. Sosial-iqtisadi və aqrar islahatlar

reallaşdırıldı, özəlləşdirmə prosesinə start verildi və infrastruktur sahələrinin inkişafı yönündə xüsusi işlər həyata keçirildi.

Digər tərəfdən, blokada şəraitində olan Muxtar Respublikanın inkişafı və sabitliyinin davamlılığını təmin etmək üçün regional miqyasda rasional strateji münasibətlər sistemi formalaşdırmaq lazım idi ki, Ulu öndər Heydər Əliyev bu yöndə xüsusi addımlar atdı. Xüsusilə də Türkiyə və İranla qarşılıqlı əməkdaşlığa və tərəfdaşlığa əsaslanan rəsmi təmaslar sıxlaşdırıldı. 24 mart 1992-ci il tarixində Ankarada Naxçıvan MR-lə Türkiyə Cümhuriyyəti arasında işbirliyi protokolunun imzalanması blokada şəraitində olan Naxçıvanın vəziyyətinə xüsusi əhəmiyyətli müsbət töhfə oldu.

Beləliklə, siyasi fəaliyyətinin Naxçıvan dövründə Heydər Əliyev gördüyü, atdığı rasional, praqmatik addımlarla Muxtar Respublikanın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etmiş oldu. Odur ki, Naxçıvan dönəmi Ulu öndər Heydər Əliyevin siyasi irsinin politoloji aspektlərinin araşdırılması üçün xüsusi dönəm səciyyəsi daşımaqdadır.

# I I FƏSİL

# MÜSTƏQİLLİK UĞRUNDA MÜBARİZƏ ƏRƏFƏSİNDƏ VƏ MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ DURUM (1988-1993-cü İLLƏR)

## 2.1. Müstəqilliyə gedən yol: milli özünüdərk və milli oyanışı təmin edən tarixi situasiya

XX əsrin 60-70-ci illərindən etibarən dünya miqyasında qeyri-ərazi müstəmləkəçiliyi kimi səciyyələndirilən imperialist idarəetmə sisteminə qarşı geniş mübarizə dalğası başlandı. Portuqaliya, İspaniya, Yunanıstan, Şərqi Avropa və SSRİ məkanında başlanan və rüşeym halında olan milli özünüdərk və milli oyanış prosesi xalqların milli azadlıq hərəkatlarına təkan verən fundamental faktor oldu. A.Pşerovski, F.Şmitter, X.Lins, S.Hantiqton kimi araşdırmaçılar xalqların milli azadlıq hərəkatları ilə müşahidə edilən prosesləri tranzit problemi (avtoritarizmdən demokratiyaya keçid) üzərindən izah etməyə çalışsalar da, əslində, baş verən proseslər birmənalı şəkildə istismarçı imperializmə qarşı yönəlmiş və özündə müstəqillik tələbləri və niyyətlərini ehtiva edən xalqların milli azadlıq hərəkatları kimi dəyərləndirilməlidir. Məhz belə bir tarixi situasiyanın fonunda başlanan milli müstəqillik və azadlıq hərəkatları qlobal miqyasda imperializmin əsaslarından birini təşkil edən ikiqütblü dünya nizamının substratlarını sarsıtmış oldu. Bəhs edilən hərəkatlar qeyri-sistematik və düzənsiz olsa da, dünyanın geo-siyasi xəritəsində kardinal dəyişikliklərlə nəticələndi. Beləliklə, beynəlxalq hüququn müstəqil subyektləri qismində çıxış edən yeni

milli dövlətlər yarandı və beynəlxalq münasibətlər sistemində uzunmüddətli keyfiyyət dəyişikliklərinin əsası qoyuldu.

Təbii ki, SSRİ məkanını da əhatə edən bütün bu proseslər Azərbaycandan da yan keçmədi. Xalqların milli azadlıq mübarizələrinin başlandığı bir ərəfədə SSRİ daxilində müxtəlif vasitə və resurslarla mərkəzə bağlanmış xalqlar artıq imperialist idarəetmə siyasətinə etiraz edərək milli özünüdərk və milli oyanış prosesinin fonunda azadlıq və müstəqillik hərəkatlarına başladılar. Amma bu mübarizə prosesində xalqlar süni surətdə yaradılan çətin və mürəkkəb problemlərlə üzləşdilər. 1985-ci ildən başlayaraq SSRİ miqyasında "Yenidənqurma" planlarının həyata keçirilməsi ilə başlanan ciddi kataklizmlər sonradan xalqların forma və mahiyyət etibarilə yeni istismarına və milli azadlıq hərəkatlarının "boğulması" cəhdlərinə rəvac verdi. İmperialist idarəetmə sisteminə qarşı çıxan və milli azadlıq yolunda mübarizə aparan xalqların milli mücadiləsini sıradan çıxarmaq naminə ən müxtəlif metod və vasitələrə baş vuruldu. İlk növbədə, "parçala, hökmranlıq et" və "zəiflət, diktə et" strateji prinsipləri əsasında milli-etnik münaqişələr yaradıldı və xalqların milli mübarizəsi qanla yatırılmağa çalışıldı. Moldovada Dnestryanı, Ukraynada Krım və Zakarpatye, Gürcüstanda Abxaziya və Cənubi Osetiya, Azərbaycanda Dağlıq Qarabağ problemləri yaradıldı və Orta Asiyada xalqlararası milli-etnik antaqonizmlə müşayiət edilən dərin ziddiyyətlərin əsası qoyuldu. Daha sonradan Litva, Almatı, Tbilisi və Bakıda imperiya qoşunlarının həyata keçirdiyi qanlı olaylar hadisələrin pik nöqtəyə qalxmasına səbəb oldu. Məhz belə bir mürəkkəb şəraitin fonunda xalqların milli azadlıq və müstəqillik mübarizəsi daha intensiv xarakter aldı.

SSRİ rəhbərliyinin Azərbaycana qarşı "erməni kartı"ndan istifadə etməsi ölkəmizə yönəlik işğal və ilhaq planlarının sürətlə həyata keçirilməsini şərtləndirdi. Belə bir şəraitdə imperiyanın dəstəyi ilə Azərbaycana qarşı qaldırılan ərazi iddialarının daha da güclənməsi, bunun ardınca isə Dağlıq Qarabağda, Əsgəranda ermənilərin törətdikləri hadisələr, 200 mindən çox azərbaycanlının Ermə-

nistandan deportasiya edilməsi, Dağlıq Qarabağdakı təxribat və iğtişaşların şiddətlənməsi sonrakı kataklizmlərə və ilhaqla müşahidə edilən destruktiv xarakterli faciəvi olaylara təkan verdi. Məhz bütün bunlar imperiyanın xalqlara qarşı sərgilədiyi şovinist mövqeyin mahiyyətini bir daha aşkar etdi və digərləri kimi Azərbaycan xalqının da milli azadlıq mübarizəsini sürətləndirən amil oldu. Beləliklə, xalqımız milli maraqlar və dəyərlər əsasında birləşməklə özünün müstəqillik yolunda apardığı mücadilənin dönməz xarakter alması üçün mübarizəyə başladı. Siyasi tariximizə "Dirçəliş" hərəkatı kimi daxil olan 17 noyabr 1988-ci il hadisələri xalqımızın milli azadlıq mübarizəsini başladan təkanverici əsas oldu. Amma Moskvanın şovinist, imperialist siyasəti və Azərbaycana rəhbərlik edən o zamankı səriştəsiz şəxslərin antimilli mövqeyi meydana çıxmış milli enerjinin yanlış istiqamətlənməsinə və müəyyən qədər passiv xarakter almasına səbəb oldu. Beləliklə, milli azadlıq və müstəqillik hərəkatının fonunda ümummilli bütövlüyü və həmrəyliyi təmin edəcək potensial ünsür olan milli enerjidən düzgün istiqamətdə istifadə olunmaması əldə edilmiş formal müstəqilliyin fonunda qeyri-formal yeni cəmiyyət və milli dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsini mümkün etmədi.

## 2.2. Milli enerji milli gücün keyfiyyət ünsürü kimi: nəzəri-konseptual əsasları və Azərbaycan təcrübəsi

Beləliklə, xalqların milli azadlıq mücadilələri fonunda ortaya çıxan milli enerji xalqımızın milli azadlıq, müstəqillik mübarizəsini başladan və sürətləndirən potensial keyfiyyət ünsürü oldu. Belə bir şəraitdə vahid və ümumi amal uğrunda birgə hərəkət edən Azərbaycan xalqı müstəqil dövlətçilik ənənələrini bərpa etmək, eləcə də, milli azadlıq, bütövlük və həmrəylik əldə etmək üçün milli mübarizəyə başladı.

Bəs milli enerji nədir, onun əsas xüsusiyyətləri və potensial ünsürləri nə(lər)dən ibarətdir? Milli enerji bir çox nəzəriyyələrdə mil-

li gücün keyfiyyət ünsürü kimi səciyyələndirilməkdədir. Bu, güc məfhumunun keyfiyyət ünsürü kimi xarakterizə edilən milli xarakter və milli mənəviyyatın struktur elementi qismində dəyərləndirilir. Bir çox araşdırmaçılar qeyd edirlər ki, milli enerji millətin, xalqın taleyüklü məsələlərinin meydana çıxdığı və dərin kataklizmlərin müşahidə edildiyi tarixi situasiya və zaman kəsiyində aktiv forma alır. Məhz bundan sonra ideoloji-psixoloji bütövlük və həmrəyliyin təmin olunmasında milli enerji faktoru təməl mexanizm qismində çıxış edir. Milli enerjini ortaya çıxaran və onu aktiv fazaya keçirən təməl mexanizm milli xarakter və milli mənəviyyatdır.

Bildiyimiz kimi, milli xarakter və milli mənəviyyatdan bəhs edərkən, ilk növbədə, belə bir yanaşmaya istinad edilir ki, xalqların, millətlərin inanc sistemləri, özlərinə məxsus xüsusiyyətləri, fərqlilikləri, onların siyasi mədəniyyətləri və digər bu kimi qeyri-maddi faktorlar milli gücün keyfiyyət ünsürünün əsas elementləri hesab edilməlidir. Milli xarakter (xüsusiyyət) dedikdə bir millətin xarakterində mütəmadi surətdə əks olunan intellektual və digər özünəməxsus keyfiyyətlərin məcmusu nəzərdə tutulur. Bu keyfiyyətlər bir milləti digərindən fərqləndirən mənəvi xüsusiyyətlərin məcmusudur və onlar ən mürəkkəb kataklizmlərdən sonra belə, öz mövcudluğunu qorumaq gücünə malikdirlər. Hər hansı bir millətin digərindən nə qədər güclü olduğunu müəyyənləşdirmək istəyən araşdırmaçılar mütləq mənada milli xarakter fərqini və faktorunu da nəzərə alırlar.

Başqa sözlə, istər müharibə, istərsə də sülh şəraitində millət adından fəaliyyət göstərənlər, milli təmsilçilər, milli siyasəti formalaşdıranlar, onu həyata keçirənlər və dəstəkləyənlər, seçənlər və seçilənlər, ictimai rəyi formalaşdıranlar, istehsalçılar və istehlakçılar – bütün bu subyektlərin hamısı milli xarakteri meydana gətirən intellektual və digər mənəvi keyfiyyətlərin daşıyıcıları olduqları üçün milli xarakter milli gücün səviyyəsi və necəliyinə ciddi surətdə təsir edir. Məsələn, rusların tez-tez güc tətbiqinə istinad etmələri və inadcıllıqları, amerikalıların fərdiyyətçilik və ünsiyyətçilliklə-

ri, almanların qanunpərəstlikləri və qənaətcillikləri həmin millətlərin, yaxud onları təmsil edən subyektlərin təmsil olunduğu hər hansı bir situasiyada mütləq surətdə özünü büruzə verən dəyişməz xüsusiyyətlərdir. Beləliklə, milli xarakter və onun struktur elementləri bir millətin ən müxtəlif tarixi situasiyalarda atdığı addımların və göstərdiyi fəaliyyətin mənəvi əsasını təşkil edir.

Milli mənəviyyat isə bir çox araşdırmaçılar tərəfindən siyasi mədəniyyət kimi qiymətləndirilir və milli enerjini formalaşdıran təməl mexanizm qismində səciyyələndirilir. Milli mənəviyyat bir millətin xarici siyasətində təzahür edən müharibəpərəst, yaxud sülhpərvər siyasətin həyata keçirilməsinə dəstək olan iradə dərəcəsidir. Milli mənəviyyatın keyfiyyəti hər şeydən öncə millətin ən çətin anlarında, yaxud onun öz varlığını sürdürməklə əlaqədar olan həlledici qərarların qəbul edildiyi məqamlarda fövqəladə əhəmiyyət daşıyır. Hər bir millətin milli mənəviyyatı müəyyən bir nöqtəyə qədər dayanıqlıdır və həmin nöqtədən sonra müəyyən zəifləmələrə, düşkünlüyə məruz qalır. Amma düşkünlük nöqtəsi ayrı-ayrı millətlər üçün fərqli şərtlər və şərait altında olur. Məsələn, bəzi millətlər müharibə və bunun kimi digər ekstremal şəraitlərdə müəyyən itkilər verdikdə mənəvi aşınma və düşkünlüyə məruz qalır, digərləri isə çox ciddi kataklizmlərlə üzləşdikdə deqradasiyalarla qarşılaşır.

Ümumiyyətlə, bir millətin mənəviyyatı daha çox müharibə olduğu zaman özünü qabarıq şəkildə büruzə versə də, millətin taleyi ilə bağlı digər problemlər zamanı da sözügedən keyfiyyət ünsürü aşkar surətdə özünü göstərir. Tutaq ki, bir millətin müəyyən bir təbəqəsi, yaxud çoxmillətli dövlətlərdə millətlərdən biri və ya bir neçəsi özünün digərlərindən siyasi, iqtisadi, sosial, hüquqi və s. baxımlardan zəif mövqeyə sıxışdırıldığını və istismara, ədalətsizliyə məruz qaldığını düşünür. Belə olan halda həmin təbəqə və millətdə tədricən milli-mənəvi aşınma başlayacaq və vətənpərvərlik hissi zəifləyəcəkdir. Nəticə etibarilə həmin topluluqlar arasında ziddiyyətlər meydana çıxacaqdır.

Beləliklə, yuxarıda sadaladıqlarımız bunu deməyə əsas verir ki,

milli gücün keyfiyyət ünsürü olan milli xarakter və milli mənəviyyat milli enerjini formalaşdıran və onu aktiv fazaya keçirən potensial faktorlardır. Başqa sözlə, mürəkkəb tarixi situasiyaların fonunda təzahür və təcəssüm edən milli enerji milli hərəkat, inkişaf və bütövlüyün qeyri-maddi əsaslarını təşkil edən amillərdən biri qismində çıxış edir.

Milli enerjinin Azərbaycan təcrübəsinə gəldikdə isə qeyd etməliyik ki, "Dirçəliş" hərəkatının fonunda ortaya çıxan və xalqı bir mərkəzdə birləşdirən bu potensial ünsürdən zamanında və məkanında düzgün istifadə edilməməsi əldə edilmiş formal müstəqilliyin ilk illərində yeni cəmiyyət və milli dövlət quruculuğu prosesinin müəyyən qədər gecikməsinə və həmin ərəfədə cəmiyyətdə ciddi kataklizmlər və problemlərin meydana çıxmasına səbəb oldu. Azadlıq və müstəqillik uğrunda gərgin mübarizə aparan Azərbaycan xalqının milli enerjisindən düzgün istifadə edilməməsi bəhs edilən hərəkatın pərakəndə xarakter almasına səbəb olmaqla yanaşı, sonradan ictimai-siyasi mühitdə müəyyən deviasiyaların meydana çıxmasını şərtləndirdi.

Milli enerjidən düzgün istifadə edilməməsinin səbəblərindən biri də həmin ərəfədə milli azadlıq mübarizəsinə təcrübəli, praqmatik, harizmatik və rasional lider siyasətçinin rəhbərlik etməməsi idi. Hərəkatın başlanmasından müstəqilliyin ilk illərinədək ölkəyə rəhbərlik edən şəxslərin irrasional, antimilli mövqe sərgiləmələri və Moskvanın strateji tapşırıqları əsasında hərəkət etmələri milli enerjidən milli birliyi və həmrəyliyi təmin edən resurs qismində istifadə edilməsini mümkün etmədi. Bununla da milli azadlıq mübarizəsində iştirak edən qüvvələrin birliyi və müntəzəm, sistematik fəaliyyət mexanizmi təmin edilmədiyindən proseslər pərakəndə, iştirakçıların təmsilçiliyi isə spontan xarakter aldı. Bunun ən ağır nəticəsi müstəqilliyin ilk illərində ölkədə xaotik proseslər, ziddiyyətlər, dissonanslar və antaqonizmlə müşayiət edilən destruktiv durumun və disbalanslı əlaqələr sisteminin hökm sürməsi nəticəsində yeni cəmiyyət və milli dövlət quruculuğu vəzifəsinin həyata keçirilə bilməməsi oldu. Bir sözlə, ölkə tam mənada antaqonist qrupların

mübarizə meydanına və ideoloji qarşıdurma poliqonuna çevrildi.

Amma 1993-cü ildən, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra ümummilli inkişafın strateji konseptual əsasları formalaşdırıldı və bunun fonunda təcrübi müstəvidə milli enerjidən səmərəli istifadə mexanizmi həyata keçirildi və milli enerji amilindən sözün əsl mənasında sabitlik, bütövlük, həmrəylik və birlik yaradan fundamental faktor qismində istifadə edildi. Bununla da Azərbaycan xalqının milli xarakteri və milli mənəviyyatı yeni cəmiyyət və qeyri-formal milli dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi istiqamətində mühüm keyfiyyət ünsürünə çevrildi.

## 2.3. Dövlət müstəqilliyinin bərpası: problemlər, proseslər, reallıqlar və nəticələr

Beləliklə, xalqların milli azadlıq hərəkatının fonunda bipolyar sistemin fonunda dünyanın nəhəng geosiyasi vahidlərindən biri olan SSRİ süquta uğradı və beynəlxalq hüququn yeni müstəqil subyektləri meydana çıxdı. 70 ilə yaxın bir müddətdə SSRİ-nin imperialist idarəetmə sistemi altında əzilmiş xalqların müstəqilliyə qovuşması milli azadlıq mübarizəsində tarixi qələbə, nailiyyət kimi dəyərləndirilsə də, hələ bundan sonra bəhs edilən milli dövlətlərin qarşısında çox ciddi strateji vəzifələr dururdu. Keçid dövrü kimi səciyyələndirilən tarixi mərhələdə yeni cəmiyyət və qeyri-formal milli dövlət quruculuğu vəzifəsini dövrün tələblərinə, qanunauyğunluqlarına və reallıqlarına müvafiq surətdə yerinə yetirmək üçün uzunmüddətli praqmatik siyasi strategiya hazırlanmalı və mərhələ-mərhələ həyata keçirilməli idi. Amma formal müstəqillik əldə etmiş bir çox postsovet ölkəsində müstəqilliyin ilk illərində bu vəzifəyə nail olmaq mümkün olmadı.

18 oktyabr 1991-ci il tarixində Azərbaycan Respublikası Ali Sovetinin cari sessiyasında qəbul edilmiş “Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktına müva-

fiq olaraq formal müstəqillik əldə etmiş Azərbaycan da müstəqilliyin ilk illərində kompleks problemlər və dərin kataklizmlərlə üzləşdi. Əvvəla, həmin dövrdə cərəyan edən proseslər və ortaya çıxan mənzərə onu göstərdi ki, Azərbaycan digər keçmiş SSRİ respublikaları ilə müqayisədə öz müstəqilliyini olduqca gec elan etmişdi. Məsələn, Litva 11 mart 1990, Rusiya 12 iyul 1990, Gürcüstan 9 aprel 1991, Estoniya 20 avqust 1991, Qırğızıstan 31 avqust 1991, Özbəkistan 1 sentyabr 1991-ci il, nəhayət, Tacikistan 9 sentyabr 1991-ci ildə öz müstəqilliyini elan etdiyi halda, Azərbaycan buna yalnız 1991-ci il oktyabrın 18-də nail ola bildi. Təbii ki, bunun bir sıra obyektiv və subyektiv səciyyə daşıyan fundamental səbəbləri var idi. Bu səbəblərin başında isə həmin vaxt Respublikaya "rəhbərlik" edən subyektlərin qətiyyətsizliyi, Moskvanın kölgəsi altında, "kölə psixologiyası" ilə yaşamaq niyyətləri və bu rəhbərlərin xalqın ali mənafeyini mərkəzin imperialist maraqlarına qurban vermələri dayanırdı. Yəni, keçmiş SSRİ-yə daxil olan respublikalarda öz müstəqillikləri uğrunda mübarizə aparan xalqlara həmin respublikaların rəhbərləri də bu və ya digər formada dəstək verdikləri halda, başda Ayaz Mütəllibov olmaqla o zamankı Azərbaycan rəhbərliyi öz funksiyasını normal qaydada yerinə yetirə bilməyən mərkəzin təlimatlarını gözləyir və onun tapşırıqları əsasında hərəkət edirdi. Bu da nəticə etibarilə Azərbaycan xalqının müstəqillik arzularının mərkəzin imperialist tapşırıqları əsasında boğulması ilə nəticələnirdi.

Bir sözlə, bütün mahiyyəti və mövcudluğu ilə Kremldən asılı olan o zamankı Azərbaycan rəhbərliyi müstəqillik ideyalarını, prinsiplərini qəbul etmək, mənimsəmək iqtidarında deyildi. Sadəcə, SSRİ-nin dağılması ərəfəsində formalaşmış təbii situasiya, hətta imperiyanın mərkəzində dayanan Rusiyanın belə, öz dövlət müstəqilliyini elan etməsi, həmçinin, xalqın azadlıq istəyi kimi faktorlar Azərbaycanın da müstəqilliyinin əldə edilməsini şərtləndirdi. Məhz Azərbaycanın o zamankı iqtidarının müstəqillik ideyalarına etinasız olmasının nəticəsi idi ki, onlar ölkəmizin müstəqilliyinin möhkəmlənməsi istiqamətində konkret olaraq heç bir addım

atmadılar. Eyni zamanda, sonrakı hadisələr göstərdi ki, o zamankı rəhbərlik təbii situasiyanın fonunda əldə edilmiş müstəqilliyin qorunub saxlanılması kimi strateji missiyanı da reallaşdırmaq iqtidarında deyildi.

Beləliklə, Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra daha kəskin problemlər və kataklizmlərlə qarşı-qarşıya qaldı. O zamankı hakimiyyətin müstəqilliyə etinasız yanaşaraq və xalqımızın ali maraqlarını ayaqlar altına ataraq Azərbaycanı Rusiyanın forpostuna çevirmək uğrunda xüsusi fəallıq nümayiş etdirməsi və Moskvadan verilən tapşırıqlar əsasında hərəkət etməsi, bütün bunların fonunda isə yanlış strategiya seçməsi, ilk növbədə, torpaqların itirilməsinə xüsusi şərait yaratdı. Bu şəraitdən istifadə edən təcavüzkar Ermənistan isə həmin dövrdə strateji baxımdan ən əlverişli ərazilərimizi anneksiya etdi. Hələ bu, son deyildi. Xalqımızın bir sıra ictimai-siyasi xadimlərinin terror aktlarına məruz qalmaları, dövlət strukturları arasında çəkişmələrə start verilməsi və bunların daha kəskin xarakter alması Azərbaycanın bir dövlət kimi varlığını sual altına almışdı. Formal qaydada əldə edilən müstəqilliyin itirilməsi təhlükəsi həyəcan təbillərini daha da artırmışdı. Mövcud vəziyyətdən çıxışı təmin edə bilməyəcəyini anlayan Mütəllibov hakimiyyəti çarəni istefa verməkdə gördü. Amma bu heç də ölkənin qurtulması mənasına gəlmirdi.

Bundan sonra hakimiyyətə gəlmiş AXC-Müsavat cütlüyü Azərbaycanı sözün əsl mənasında xarici kəşfiyyat orqanlarının mübarizə meydanına çevirdi. Ölkədə tam bir anarxiya yarandı və daxili çəkişmələr özünün pik nöqtəsinə çatdı. Artıq “əlinə silah alan” hakimiyyəti ələ keçirməyə çalışırdı və bölücü meyillər olduqca güclənmişdi. Ermənistanın təcavüzü davam edir və xarici dövlətlər beynəlxalq münasibətlər sistemində Azərbaycanı müstəqil subyekt kimi qəbul etmirdilər. Həmin ərəfədə güclü siyasi liderin nüfuzuna söykənən mütəşəkkil siyasi subyektlər lazım idi ki, Azərbaycanı anarxiya meyilləri ilə müşayiət edilən xaotik durumdan xilas etsin.  Amma 1993-cü ilədək ölkəyə rəhbərlik edən şəxslər xarici qüvvələrin “piyada”sı kimi çıxış etməkdən başqa, xalqı-

mız, dövlətçiliyimiz üçün heç bir önəm kəsb edə bilmədilər.

Beləliklə, müstəqilliyin ilk illərində Azərbaycan çox ciddi problemlərlə üzləşdi və sistematik strategiyanın həyata keçirilməməsi nəticəsində kataklizmlər iqtisadi, siyasi, sosial, hüquqi və digər sahələri iflic etdi.

Beləliklə, bütün bunların fonunda ölkədaxili xaos və destabilliklə müşayiət edilən dağıdıcı tendensiyalar daha da sürətləndi. Artıq ölkədə vətəndaş qarşıdurması səviyyəsində təzahür edən kataklizm və konfrantasiyalar şiddətləndi, eləcə də, aqonist və antaqonist daxili qüvvələrin dağıdıcı mübarizəsi etnik bölücülük aktlarının yayılmasını şərtləndirdi. Əlbəttə, mövcud institusional kataklizmlərin dərinləşməsi etnik bölücülüyü sürətləndirməklə bərabər, üfüqi və şaquli münaqişələrin əhatə dairəsinin genişlənməsinə də təkan vermiş oldu. Bütün bunlar o zamankı hakimiyyət daxilindəki qarşıdurmaların açıq müstəviyə keçməsi ilə davam etdi.

1993-cü ilin iyun ayının 4-də Gəncədə sabiq korpus komandiri və AXC hakimiyyətinin Qarabağ üzrə xüsusi səlahiyyətli nümayəndəsi Surət Hüseynovun rəhbərlik etdiyi 709-cu briqadanın ləğvi ilə bağlı qərarın rəsmi şəkildə qəbul edilməsindən sonra o zamankı müdafiə naziri Dadaş Rzayevin imzaladığı bu əmrə tabe olmayan Surət Hüseynov tabeliyində olan hissələrin Bakıya doğru irəliləməsi ilə bağlı xüsusi göstəriş verdi. Bundan sonra toqquşmalar və qarşıdurmaların kəskinlik səviyyəsi daha da artdı. Belə ki, 709-cu briqadanı tərk-silah etmək məqsədilə Gəncəyə göndərilmiş Milli Qvardiya hissələri ilə Surət Hüseynovun rəhbərlik etdiyi silahlı birləşmələr arasında baş vermiş toqquşma hakimiyyət daxilindəki ayrılmalar və isterikanı artırmaqla bərabər, xaos və böhranın dərinləşməsinə səbəb oldu. Bütün bunlar isə ölkəni vətəndaş müharibəsinə sürükləyən dağıdıcı tendensiyaların pik nöqtəsi idi.

Beləliklə, yuxarıda sadalananlar belə bir nəticəyə gəlməyə imkan verir ki, AXC-Müsavat dövrünün hakimiyyət boşluğundan və təcrübəsizliyindəm istifadə edən xarici qüvvələr özlərinin dağıdıcı niyyətlərini ölkəmizdə reallaşdırmaq üçün müxtəlif metod və vasi-

tələrə istinad edirdilər. Bu zaman onlar daha çox iki klassik üsul üzərindən taktiki manevrlər edirdilər. Bunlardan biri taktiki manevrləri ayrı-ayrı ölkədaxili subyektlər üzərində qurmaqla məqsədə nail olmaq, digəri isə açıq surətdə zor işlətməklə uzurpasiya vasitəsilə son hədəfə çatmaq idi. İkinci variant üzərində durmaqla son məqsədə çatmaq real və perspektivli olmadığından bəhs edilən subyektlər daha çox birinci üsul üzərindən hərəkət edirdilər. Bunun başlıca səbəblərindən biri həmin ərəfədə Azərbaycanın ortamüddətli və uzunmüddətli perspektivdə məhz bu cür uzurpasiya siyasətinə qarşı duruş gətirmək üçün kifayət qədər potensial ehtiyatlarının (kəmiyyət və keyfiyyət ünsürləri baxımından) olması idi. Təbii ki, ölkəmiz üzərindən özlərinin milli və transmilli maraqlarını həyata keçirməyə çalışan aktorlar bu faktoru birmənalı şəkildə nəzərə almışdılar. Məhz bu səbəbdən onlar birinci variant üzərindən hərəkət etməyə başladılar. Bunun üçünsə bəhs edilən xarici qüvvələr Surət Hüseynovun timsalında özlərinə "etibarlı" tərəfdaş tapdılar və rus generalı Şerbakın  vasitəsilə öz planlarını reallaşdırmağa  başladılar. Hadisələrin məhz bu cür inkişafının fonunda mövcud hakimiyyətin zəif cəhətlərindən məharətlə istifadə edən xarici güclər başladıqları böyük oyunun davamlılığını təmin etmək üçün S.Hüseynovun çox kiçik fiqur olduğunu nəzərə alaraq onu müəyyən vəzifə kürsüsünə əyləşdirmək üçün bir sıra tədbirlər həyata keçirdilər və tezliklə buna nail oldular. Artıq cəmiyyətdə stereotiplər əsasında formalaşmış "xalq qəhrəmanı" imici və vəzifə səlahiyyəti ona xarici güclərin transmilli maraqları əsasında "piyada" qismində hərəkət etməyə imkan verirdi. Məhz həmin maraqların fonunda təşəkkül tapmış ssenariyə görə, Azərbaycan Ayaz Mütəllibov, Əlikram Hümbətov, Surət Hüseynov və ermənilər arasında bölüşdürülür, sonra isə konfederasiya əsasında yeni federativ respublika yaradılırdı. O zamankı iqtidar diplomatik resursları və strateji idarəetmə potensialı ilə bunun qarşısını almaqda aciz idi. Məhz buna görə də, Əbülfəz Elçibəy qurtuluşu Heydər Əliyevi Bakıya dəvət etməkdə görürdü. Çünki belə bir mürəkkəb situasiyanın fonunda ölkədəki dağıdıcı qüvvələr və meyilləri neytrallaşdıra-

caq, struktur islahatları ilə xaos və anarxiya vəziyyətini aradan qaldıracaq, münasibətləri sürüşkən müstəvidə cərəyan edən qüvvələrarası ziddiyyyətləri həll edəcək və nəticə etibarilə tətbiq edəcəyi strategiya ilə ümummilli maraqları əsas götürəcək lider siyasətçi tələb olunurdu. Məhz belə bir mürəkkəb situasiyanın və strateji vəzifələrin fonunda Azərbaycanı kataklizmlərdən, eksses aktlarından (kəskin qarşıdurmalarla səciyyələnən toqquşmalar və ictimai ahəngin ciddi surətdə pozulması) xalqımızın Ümummilli lideri Heydər Əliyev öz zəngin dövlətçilik təcrübəsi və milli bağlılığı ilə qurtara bilərdi. Məhz bunun da qanunauyğun nəticəsi kimi, bu cür mürəkkəb vəziyyətdə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev iyun ayının 9-da Bakıya gəldi, 15 iyun 1993-cü ildə Milli Məclisə sədr seçildi və həyata keçirdiyi təxirəsalınmaz tədbirlərlə qısa zaman kəsiyində vətəndaş müharibəsi təhlükəsinin qarşısını aldı. Əlbəttə, bir neçə xarici dövlətin dəstəklədiyi və kifayət qədər daxili qüvvənin müdafiə etdiyi bu planı pozmaq və milli maraqlara və dəyərlərə müvafiq surətdə ictimai-siyasi sabitliyi təmin etmək çox çətin idi. Lakin Ümummilli liderin sistematik surətdə həyata keçirdiyi milli siyasətin fonunda birinci mərhələ xalqımızın ali maraqları əsasında başa çatdı. Xalqımızın milli psixologiyasına dərindən bələd olan, ölkədaxili ictimai-siyasi proseslərin mahiyyətini rasional surətdə dərk edən Ulu öndər Heydər Əliyev xalqın bir hissəsinin Surət Hüseynovu dəstəklədiyini, orduda onun möhkəm dayaqlarının olduğunu və xarici himayədarların güclü mühafizə qrupu tərəfindən qorunduğunu bilirdi və buna müvafiq siyasi manevrlər seçməklə xalqımızın ali mənafeyinə uyğun nəticələrə doğru irəliləməyə nail oldu. Bundan sonra məharətli və praqmatik siyasi manevrlərin fonunda Surət Hüseynovun baş nazir vəzifəsinə təyin olunmasından sonra mərhələli taktiki gedişlərin fonunda məlum şəxs haqqında formalaşmış, amma reallığa adekvat olmayan "qəhrəman" imici dağıdıldı, onun arxasında duran silahlı qüvvələr zərərsizləşdirildi, onu himayə edən xarici aktorlar neytrallaşdırıldı, nəhayət, S.Hüseynov bölücü səciyyə daşıyan "Talış-Muğan" məsələsində ifşa edildi. Beləliklə, Azərbaycan xalqı bölücü

aktlarla müşayiət edilən və xaos, kataklizm mənbəyi kimi çıxış edən kontrovenzaların (ixtilaflarla müşayiət edilən və parçalanmalara səbəb olan dağıdıcı proseslər) böyük bir hissəsindən qurtula bildi.

Bununla belə, hələ də daxildəki bəzi dağıdıcı qüvvələr xarici güclərin transmilli mənafeyinə və özlərinin korporativ maraqlarına müvafiq qaydada etnik bölücülüyü davam etdirməyə çalışırdılar. Bunun bariz nümunəsi kimi, ölkənin şimal bölgələrində "Sadval" adı altında yaradılmış silahlı birləşmələr xarici qüvvələrdən aldıqları tapşırıqlar əsasında ölkəni parçalamağa və dövlət içində "dövlət" yaratmağa cəhd edirdilər. Təsadüfi deyil ki, bu ərəfədə ölkədə ictimai-siyasi sabitliyi təmin etmək məqsədilə son dərəcə qəti addımlar atan Ulu öndər Heydər Əliyevin praqmatik və rasional tədbirləri bəhs edilən bölücüləri dağıdıcı tendensiyaları davam etdirməyə vadar etmişdi. Çünki həmin qüvvələr və onları hərəkətə gətirən xarici himayəçi subyektlərin başlıca məqsədi bəhs edilən metod və vasitələrə istinad etməklə ölkədə sabitliyin təmin olunmasının qarşısını almaq idi.

Bütün bunların fonunda bəhs edilən qüvvələr etnik bölücülüyün əhatə dairəsini genişləndirmək üçün xüsusi canfəşanlıq göstərirdilər. Artıq bölücü aktlar və meyillər ölkənin cənubunda da müşahidə edilirdi. Ölkənin parçalanması yönündə edilən növbəti həmlələrdən biri də 1993-cü ilin avqust ayının 7-də Əlikram Hümbətovun başçılığı altında qondarma "Talış-Muğan Respublikası"nın elan edilməsi oldu. Ölkənin 7 rayonunun bəhs edilən qondarma respublikanın tərkibinə daxil edildiyinin elan edilməsi öz növbəsində çox ciddi etirazlarla qarşılandı. Cənub bölgəsində məskunlaşmış talışların əksəriyyəti ayağa qalxdı və bunu görən Ə.Hümbətov Cəlilabad, Lənkəran, Masallı, Lerik, Yardımlı, Astara rayonlarında kütləvi repressiyalar həyata keçirməyə başladı. Lənkərandan çıxarılan Rusiyaya məxsus "N" saylı hərbi hissənin ölkənin Müdafiə Nazirliyinə deyil, Ə.Hümbətovun tabeliyinə keçməsi həmin dövrdə baş verən hadisələrin mahiyyətini bir az daha aydınlaşdırdı. Həmin dövrdə ölkənin sabiq müdafiə naziri Rəhim Qazıyevin mü-

təmadi qaydada Lənkərana gedərək Ə.Hümbətovla danışıqlar aparması isə vəziyyəti daha da gərginləşdirdi. Amma bu məsələdə Ulu öndər Heydər Əliyevin tutduğu qəti mövqe separatçıların planını alt-üst etdi. Avqustun 23-də Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev milli televiziya ilə xalqa müraciət etdi. Müraciətdə bildirilirdi ki, Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar rayonlarında baş verən hadisələr qanuna, konstitusiyaya zidd hərəkətlərdir və onların çox ağır nəticələridir: **"Həmin rayonlarda camaat artıq ayağa qalxmışdır. Adamlar Əlikram Hümbətovun bu çirkin hərəkətlərinə dözə bilmirlər".**

Həmin dövrdə cənubda silahlı bölücülük aktları gerçəkləşdirməyə çalışan Ə.Hümbətov bir sıra hallarda xarici ölkələrin müəyyən dairələrinin nümayəndələri ilə də gizli görüşlər keçirirdi. Həmin xarici qüvvələr Ə.Hümbətovdan öz maraqları üçün istifadə edərək Azərbaycana qarşı təzyiq kampaniyasını davam etdirmək istəyirdilər. Digər tərəfdən, bu, həm də Ermənistanın anneksiya siyasətinin davam etdirilməsi üçün yaranan ən münbit şərait idi. Məhz buna görə də, həmin günlərdə Füzuli və Cəbrayıl rayonları ermənilər tərəfindən işğal olundu.

Amma Azərbaycanı parçalamaq və forposta çevirmək istəyənlər öz niyyətlərinə çata bilmədilər. Bölücülərlə yanaşı, onlara havadarlıq edənlər Azərbaycanda Ulu öndər Heydər Əliyevin yaratdığı milli birliyə məğlub oldular. Xalqa müraciətində Azərbaycanın vahid və bölünməz olduğunu bir daha bəyan edən Ulu öndər Heydər Əliyev Azərbaycanda hər bir vətəndaşın qanun qarşısında eyni hüquqlara malik olduğunu söylədi: **"Bizim Azərbaycan vahid Azərbaycandır. Onun vətəndaşlarının hamısı eyni hüquqlara malikdir. İndiyədək Azərbaycanda heç vaxt talış, azərbaycanlı, türk və sair söhbəti olmamışdır. Bu, süni surətdə ortaya atılmış şeydir. Onları bir-birindən ayırmaq olmaz. Bu, əti dırnaqdan ayırmağa bərabərdir. Ayrı-ayrı avantüristlərdən savayı, buna heç kəs yol verməz. Bizim birliyimizi heç kəs poza**

**bilməz, bizi bir-birimizdən heç kəs ayıra bilməz".**

Beləliklə, müstəqilliyin ilk illərində ölkəyə rəhbərlik edən səriştəsiz qüvvələrin antimilli mövqeləri və irrasional strateji fəaliyyətləri ölkəni, sözün əsl mənasında, xaos və kataklizmlər meydanına çevirdi. Bütün bunların fonunda ölkə daxilində siyasi böhranın daha da kəskinləşməsi müşayiət edildi və bütün sahə və strukturlarda sürətli tənəzzül meyilləri baş verdi. Həmin dövrü analiz edən və strateji tədqiqat obyektinə çevirən bir sıra ekspertlər baş verən dərin tənəzzül meyillərini siyasi böhranla eyniləşdirməyin doğru olmadığını bildirsələr də, məsələnin nəzəri, empirik və təcrübi aspektlərinə nəzər yetirmək kifayət edir ki, baş verənləri siyasi böhran kimi səciyyələndirək. Belə ki, politoloji sözlüklərdə siyasi böhran dar mənada "cəmiyyətin siyasi sisteminin mövcud münaqişələr və qarşıdurmaların kəskinləşməsi və dərinləşməsi, siyasi gərginliyin və kataklizmlərin artması ilə təzahür edən vəziyyəti" kimi səciyyələndirilir. Nəzəri baxımdan daxili siyasi böhranlar hökumət, parlament və konstitusiya böhranları olaraq təsnif edilir. Hökumət böhranı hökumətin parlamentdə, onun palatalarının birində və digər üfüqi strukturlar qarşısında müdafiəsi və etimadını itirməsi ilə müşayiət edilir. Əgər hökumət yaranmış mürəkkəb problemlərin öhdəsindən gələ bilmir və tənəzzül meyilləri daha da kəskinləşirsə, ölkə daxilində institusional kataklizmlər bütün strukturların işinə və fəaliyyət mexanizminə ciddi surətdə mənfi təsir edərək iflic durumu yaradır. Beləliklə, məhz bu cür təcrübi əsaslarla təsbit edilmiş nəzəri ümumiləşdirmələrin fonunda belə bir nəticəyə gəlmək olar ki, 1991-1993-cü illər ərəfəsində ölkədə, sözün əsl mənasında, hökumət böhranı müşahidə edilib və mütəmadi surətdə daha da kəskinləşərək digər daxili siyasi böhran formalarının təzahür etməsinə yol açıb.

Digər tərəfdən, həmin ərəfədə baş verən daxili siyasi böhran formalarından biri də parlament böhranı idi. Siyasi leksikonda parlament böhranı "qanunverici orqanda qüvvələr balansının asimmetrik surətdə dəyişməsi və parlamentin qəbul etdiyi qərarların ölkə vətəndaşlarının əksəriyyətinin iradəsinə uyğun gəlməməsi, bu-

nun fonunda qanunverici orqanın öz funksiyalarını yerinə yetirə bilməməsi" kimi səciyyələndirilir. Əgər müstəqilliyin ilk iki ilindəki mövcud şəraitə nəzər salsaq, asanlıqla müşahidə edə bilərik ki, ölkədə sözün əsl mənasında parlament böhranı da baş verib. Çünki parlamentin asimmetrik qüvvələr balansı əsasında formalaşması, normal institusional fəaliyyət mexanizmindən məhrum olması, qanunverici orqanda təmsil olunmuş ayrı-ayrı subyektlərin korporativ maraqlar üzərindən hərəkət etmələri, mövcud reallıqlar, tələbatlar və qanunauyğunluqlara müvafiq surətdə səmərəli qanun layihələrinin qəbul edilməməsi, qəbul edilmiş qanunların işləkliyinin təmin edilə bilinməməsi və digər bu kimi faktlar parlament böhranının bariz təzahürlərini təşkil edirdi.

Bununla yanaşı, milli dəyərlərə və maraqlara uyğun şəkildə yeni konstitusiyanın qəbul edilməməsi, tələblərə, reallıqlara və qanunauyğunluqlara cavab verməyən əvvəlki konstitusiyanın legitimliyini itirməsi kimi hallar və faktlar da daxili siyasi böhranın növlərindən biri olan konstitusiya böhranının mövcudluğunu təsdiq edirdi.

Bunlardan başqa, geniş mənada daxili siyasi böhranın mövcudluğunu sübut edən digər hallara da nəzər yetirmək məqsədəmüvafiqdir. Belə ki, hakimiyyət strukturlarının öz legitimliklərini itirməsi, hakimiyyət orqanları arasında üfüqi və şaquli münasibətlər sisteminin pozulması, hakimiyyətin müstəqil qolları (icraedici, qanunverici və məhkəmə hakimiyyəti) arasında dissonans (qeyri-ahəngdar, asimmetrik) xarakterli əlaqələrin daha da kəskinləşməsi, sosial-siyasi tənzimləmə və nəzarət səviyyəsinin aşağı düşməsi, siyasi protestlərin irrasional və spontan formalarının (mitinqlər, nümayişlər) daha da intensiv səciyyə alması kimi faktlar da siyasi böhranın aşkar göstəriciləri idi.

Ümumiyyətlə, təcrübi əsaslarla təsbit edilmiş siyasət nəzəriyyəsində daxili siyasi böhranlar yaranma səbəbləri və təzahür xüsusiyyətlərinə görə bir neçə cür təsnif edilir: legitimlik böhranı, identiklik böhranı, siyasi iştirak böhranı, nüfuzetmə böhranı və bölgü böhranı.

Legitimlik böhranı mövcud rejimin dayaqlarının sarsıldığı situasiyanın fonunda siyasi tənzimləmənin əsas forma və vasitələri, legitim idarəetmə normaları haqqında hakim komandanın yanaşma və mövqelərinin uyğun gəlməməsi nəticəsində yaranır. İdentiklik böhranı isə etnik və sosial-mədəni müstəvidə ciddi ayrı-seçkiliyin baş verməsi, etnososial münasibətlərin ixtilaflarla müşayiət edilməsi şəraitində üzvi bütövlük və həmrəyliyin təmin edilməməsi şəklində baş verir. Siyasi iştirak böhranı isə gildiya sisteminin (qapalı sistem) əsasında həyata keçirilən idarəetmənin fonunda hakim qüvvələrin vətəndaşlar və qrupların ictimai-siyasi həyatda iştirakına süni maneələr yaratması, siyasi sosiallaşma səviyyəsinin olduqca aşağı olması, sərbəst siyasi iştirak imkanlarının məhdudlaşdırılması kimi hallar zəminində baş verir. Nüfuzetmə böhranı isə siyasi hakimiyyətin ictimai həyatın müxtəlif sahələrində öz qərarlarını həyata keçirmək qabiliyyətini (inkluzivlik) itirməsi ilə müşayiət edilir və hakimiyyət böhranını şərtləndirən amillərdən biri kimi çıxış edir. Bölgü böhranı isə hakim elitanın cəmiyyətin maddi rifahını, onun kəskin sosial diferensiasiyadan qaçmağa imkan yaradan və əsas maddi nemətlərin əhalinin bütün təbəqələrinin faydalanmasına təminat verən bölgüsünü həyata keçirə bilməməsi ilə təzahür edir.

Beləliklə, sadalanan böhran növlərinin əsas xüsusiyyətlərinə nəzər yetirdikdə belə bir nəticəyə gəlmək olur ki, 1991-1993-cü illərdə ölkədə hökm sürən və mürəkkəb kataklizmlərlə müşayiət edilən siyasi böhran özündə yuxarıda sadalanan bütün mikro və makro böhran elementlərini daşımaqda idi.

Amma Ulu öndər Heydər Əliyevin zamanında atdığı praqmatik addımlar bir əsrdə ikinci dəfə müstəqillik əldə etmiş Azərbaycanın öz mövcudluğunu qoruyub saxlamasını təmin etdi. İctimai-siyasi sabitliyin təmin edilməsi və sistematik səciyyəli kompleks tədbirlərin görülməsi nəticə etibarilə yeni cəmiyyət və qeyri-formal milli dövlət quruculuğu prosesinin başlanmasını mümkün edən substrat oldu.

## 2.4. Müstəqilliyin ilk illərində keçid dövrü və onun Azərbaycan təcrübəsi analitik tədqiqat obyekti kimi: yeni cəmiyyət və milli dövlət quruculuğu prosesində problemlər və vəzifələr

Müstəqilliyin əldə edilməsindən sonra Azərbaycanın qarşısında çox ciddi vəzifələr dururdu. Belə ki, ilk növbədə, formal müstəqillik əldə etmiş dövlətin təməl komponentləri və atributları formalaşdırılmalı, dirçəldilməli, daha sonra isə ictimai, siyasi, ideoloji və iqtisadi münasibətlər sisteminin substratlarını müəyyənləşdirəcək sistem-struktur islahatları həyata keçirilməli idi. **Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir**. Bunun üçünsə ilk növbədə, uzun müddət SSRİ mühitində və şəraitində dominant və vahid ideologiya və idarəetmə rejimi olan totalitarizmin qalıqlarından (əslində, hökmranlığından) qurtulmalı, ideoloji-siyasi rejim transformasiyasını milli münasibətlər və dəyərlər sisteminə və mövcud duruma müvafiq olaraq həyata keçirməli, ictimai-siyasi münasibətləri yeni şəraitə uyğun formada tənzimləmək üçün sosial strukturlar və siyasi təsisatların fəaliyyətinə legitim şərait yaradılmalı, milli identiklik və özünüdərk üçün təməl komponent və mexanizm olan universal ideoloji formula – milli ideologiya formalaşdırılmalı, ondan siyasi-ideoloji və etnosiyasi bütövlüyü təmin edəcək resurs qismində istifadə edilməli, cəmiyyətdaxili inteqrasiya prosesi sürətləndirilməli, sosial stratifikasiyalararası ictimai münasibətlər sağlam dəyərlər əsasında təşkil edilməli və nəticə etibarilə qeyri-formal milli dövlət quruculuğu prosesi tədrici transformasiyanın fonunda davam etdirilməli idi.

Bütün bunlara real əlverişli zəmin yaradacaq başlıca amil isə özündə yeni və daha təkmil struktur elementlərini, sağlam milli

münasibətləri və dəyərləri birləşdirən, ehtiva edən siyasi sistemin təşəkkül tapması idi. Belə ki, bunun üçün rasional seçim strategiyası əsasında ictimai-siyasi təsisatlanma prosesi formalaşdırmalı, bu, tendensiya halını almalı, ictimai, siyasi, hüquqi, informativ, normativ resurslar sistemindən səmərəli istifadə mexanizmi təşəkkül tapmalı, idarəetmə forması və onun xüsusiyyətlərində kardinal reformativ dəyişikliklər edilməli, sərvətlərin (dəyərlərin) simmetrik bölgüsü həyata keçirilməli və bu kimi bir çox fundamental səciyyə daşıyan vəzifələr həyata keçirilməli idi. Bununla da təşəkkül tapmış siyasi sistemin fonunda milli dövlət və yeni cəmiyyət quruculuğu prosesinin əsası qoyulmalı və bu tendensiya real şəraitin qanunauyğunluqlarına və tələblərinə müvafiq surətdə davam etdirilməli idi.

Beləliklə, bütün bu vəzifələrin yerinə yetirilməsi yeni müstəqillik əldə etmiş Azərbaycan dövlətinin siyasi-hüquqi əsaslarının təşəkkül tapması və davamlı xarakter alması, tendensiya halını almış kataklizmlərin neytrallaşdırılması və aradan qaldırılması, sistem transformasiyasının milli münasibətlərə və mövcud dəyərlərə müvafiq surətdə həyata keçirilməsi üçün xüsusi önəm kəsb edirdi. Burada əsas məsuliyyət isə o zamankı ölkə rəhbərliyinin üzərinə düşürdü.

Amma müstəqilliyin ilk illərində ölkəyə "rəhbərlik" edən qüvvələrin totalitar təfəkkürlə hərəkət etmələri və xarici imperialist güclərin maraqlarına xidmət etmələri nəinki qeyri-formal milli dövlət quruculuğunun həyata keçirilməsini mümkün etmədi, eləcə də ölkəni fərqli korporativ maraqlara malik olan subyektlərin mübarizə meydanına və ideoloji poliqonuna çevirdi. Bunun fonunda ictimai-siyasi münasibətlərdə meydana çıxan xaos daha da dərinləşdi və kataklizmlər, dissonanslar bütün sahələrə sirayət etdi. Bunun təməlində duran əsas amil isə qeyd etdiyimiz kimi, hakimiyyətdə olan qüvvələrin sistem transformasiyası vəzifəsinin əksinə mövqe sərgiləmələri, yəni birpartiyalı idarəetmə sisteminə əsaslanan totalitar rejimin saxlanılması yönündə mövqe tutmaları idi. Həmin qüvvələr Azərbaycanı idarəetmə xüsusiyyətlərinə görə fias-

koya uğrayan imperiyanın kiçik ideoloji modeli kimi mühafizə etmək niyyətlərini gizlətmirdilər. Daha doğrusu, bəhs edilən "marionetka"lar imperialist güclərin tapşırıqlarına əsasən hərəkət etməklə Azərbaycanın müstəqilliyini sual altına almaqdan çəkinmirdilər.

Bu ərəfədə bəhs edilən niyyəti bariz surətdə sübut edən əsas dəlil 1991-ci il martın 17-də SSRİ-nin saxlanmasına münasibəti öyrənən referendumun keçirilməsinə və onun nəticələrinə yönəlik Azərbaycan hakimiyyətinin sərgilədiyi mövqedir. Belə ki, o dövrdə Azərbaycana rəhbərlik etmiş Ayaz Mütəllibov komandası bu referenduma dəstək verməklə Azərbaycanın müstəqil dövlətçilik niyyətlərini puç etmək və ölkəni ənənəvi surətdə imperialist güclərin müstəmləkəsinə çevirmək niyyətində olan qüvvələrə razılıq vermiş oldu. Bu fakt o zamankı ölkə rəhbərliyinin müstəqillik və milli dövlət quruculuğu prosesinə yönəlik etinasız reaksiyasını bir daha nümayiş etdirdi. Yəni, sözügedən qüvvələr Azərbaycanın qeyri-formal müstəqilliyinə və onun davamlı xarakter almasına qarşı çıxış etdilər. Bunun sayəsində isə totalitar idarəetmə sistemi və onun neqativ nəticələri ölkədə hökm sürən kataklizmlərin daha kəskin xarakter almasına və siyasi sistemin təşəkkül tapması vəzifəsinin puç olmasına səbəb oldu.

Amma bütün bu mənfi hal və tendensiyalara baxmayaraq, Azərbaycan xalqı imperiyanın bərpası və sonradan formal müstəqilliyin davam etdirilməsi cəhdlərinə qarşı qəti etirazını nümayiş etdirdi. Belə ki, ilk növbədə, Naxçıvan Ali Məclisinin sədri olan Heydər Əliyev imperiyanın qorunub saxlanmasına çalışan qüvvələrə, Kommunist Partiyasına və SSRİ-yə etirazını bildirdi. 1991-ci il iyulun 19-da Kommunist Partiyası sıralarını tərk edən Heydər Əliyev Azərbaycanın rəhbərliyini xalqın haqlı tələblərini dinləməyə, Kommunist Partiyasının totalitar idarəçiliyinə son qoymağa çağırdı. Amma ölkə rəhbərliyinin antimilli mövqeyi davam etdi və müstəqilliyin ilk illərində bu, daha da kəskinləşdi. Bu isə nəticə etibarilə müstəqilliyin ilk illərində yuxarıda sadalanan strateji vəzifələrin həyata keçirilməsinə mane olan təməl faktor oldu.

Beləliklə, müstəqilliyin ilk illərində keçid dövrünün səciyyəvi

xüsusiyyətləri rasional surətdə nəzərə alınmadı və simmetrik sistem transformasiyasını təmin edəcək strateji əhəmiyyətli proqram-konsepsiya təsbit və tətbiq edilmədi.

Dünya ölkələrinin təcrübəsi və məsələnin nəzəri, empirik əsasları sübut edir ki, sistem dəyişikliyinin fonunda qeyri-formal transformasiyanı təmin etmək üçün siyasi, hüquqi, sosial, iqtisadi və digər sahələrdə sistematik dəyişikliklər edilməli və bu dəyişikliklər zamanı milli xüsusiyyətlər, eləcə də, cari situasiya nəzərə alınmalıdır. Araşdırmaçı F.Şmitter qeyd edir ki, sistem transformasiyası üç mərhələdə baş tutmaqla özündə sistematik və kompleks planlar məcmusunun həyata keçirilməsi vəzifəsini ehtiva edir: "Sistem transformasiyası 3 mərhələnin ardıcıl və bir-birinə simmetrik şəkildə həyata keçirilməsindən ibarətdir. Bunlar liberallaşma, demokratikləşmə və sosiallaşmadır. Liberallaşma prosesi zamanı sistemin komponentləri mütləq mənada dəyişikliyə uğramır. Sistemin avtoritar xüsusiyyətləri müəyyən dərəcədə saxlanır və cəmiyyət özünün formal təsisatları ilə dövlət apartının himayəsində ("himayəçi demokratiya") fəaliyyət göstərir. Hakim elita iqtisadi dəyişikliklərlə siyasi nüfuzunu və varlığını mühafizə etməyə çalışır. Elita islahatlara maraqlı olduqda cəmiyyət və siyasi sistem demokratik təkmilləşmə mərhələsinə keçid ala bilir. Dəyişikliklər iki mərhələdə baş tutur: birincisi, əvvəlki avtoritar rejimin əsasları sarsılır və o, tədricən sıradan çıxmağa başlayır. İkinci mərhələdə isə yeni təfəkkürlü və daha təkmil resurslara sahib olan siyasi qüvvələr demokratik təsisatlaşma və təkmilləşmə prosedurasına üstünlük verir. Liberallaşma iqtisadi mənada transformasiyanı təmin etsə də, siyasi qeyri-müəyyənlik yaradan mərhələ qismində çıxış edir. Liberallaşma mərhələsində strateji tələblərin düzgün yerinə yetirilməməsi sosial-siyasi ziddiyyətlərin meydana gəlməsinə səbəb olur. Beləliklə, transformasiya probleminin həll edilməsi üçün ilk növbədə, hər üç mərhələnin (liberallaşma, demokratikləşmə və sosiallaşma) tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə sistematik strategiyanın hazırlanması və tətbiq edilməsi lazımdır".

Şmitter bildirir ki, sistem transformasiyasının fonunda həyata

keçirilən demokratikləşmə prosesi olduqca mürəkkəb səciyyə daşımaqla yanaşı, özündə bir neçə mərhələni ehtiva edir: "**Demokratikləşmə prosesi sistem transformasiyasında ən mürəkkəb və problematik tranzit mərhələsini təşkil edir. Plüralist, plebisistar, partisipator (iştirakçı), konsosiativ və sosialist demokratiya nəzəriyyələrində birmənalı şəkildə təsbit edilib ki, demokratik transformasiyanın düzgün təşkil və tətbiq edilməsi üçün iki mərhələdən ibarət olan və özündə sistematik tədbirlər kompleksini ehtiva edən uzunmüddətli strateji konsepsiyanın işlənib hazırlanması və mərhələ-mərhələ həyata keçirilməsi lazımdır. Birinci mərhələdə köhnə quruluşun "miras" qoyduğu reallıqlar və hədəflənən perspektivin əsas strateji istiqamətləri müəyyən edilməli və ona müvafiq çərçivə strategiyası hazırlanmalı və tətbiq edilməlidir. Məhz bunun fonunda tranzit baş tutduqdan sonra əsas mərhələ – demokratiyanın bərqərar olunması mərhələsi başlayır. Bu mərhələ olduqca mürəkkəb vəzifə və problemləri özündə ehtiva etdiyindən bəzi cəmiyyətlərdə müxtəlif kataklizmlərə yol aça bilir. Bunun əsasında isə, təbii ki, reallıqlar və qanunauyğunluqlara müvafiq strategiyanın həyata keçirilməməsi amili dayanır. Keçid dövrü kimi səciyyələndirilən bu mərhələdə prosesləri rasional şəkildə davam etdirəcək və tənzimləyəcək mühüm (bəlkə də, ən mühüm) faktor harizmatik və rasional-leqal lider siyasətçidir. Müxtəlif ölkələrin təcrübəsində dəfələrlə təsdiq edilib ki, transformasiya vəzifəsinin uğurla həyata keçirilməsi üçün "bayraqdar" və "yanğınsöndürən" liderlərin rolu və fəaliyyəti birinci dərəcəli amil qismində təzahür edib. Beləliklə, iki mərhələli demokratikləşmə prosesinin uğurla həyata keçirilməsi və əldə edilmiş nailiyyətlərin davamlılığının təmin edilməsi üçün rasional-leqal və harizmatik lider siyasətçinin rəhbərliyi ilə uzunmüddətli milli strategiya tətbiq edilməlidir**".

Araşdırmaçının qənaətincə, bəzən sistem transformasiyasının fonunda demokratiya əvəzinə demokraturaya keçid baş tutur ki, bu da sözün əsl mənasında demokratikləşmə demək deyil: "**Demok-**

**ratura ilə demokratiyanı bir-birindən fərqləndirmək lazımdır. Demokratura hibrid (keçid) idarəetmə sisteminin və rejimin növlərindən biridir. Burada liberallaşma və demokratikləşmə bir-birindən ayrı təsəvvür edilir və praktik olaraq özündə qarışıq struktur elementlərini ehtiva edir. Burada demokratiyanın müəyyən ünsürləri bərqərar olunsa da, onlar həqiqi mənada liberal dəyərlərin daşıyıcısı kimi çıxış etmirlər. Bir sözlə, hakim elitanın siyasi iradəsi ilə formalaşmış bu sistem "kölgə tranzit"inin bariz nümunəsi olmaq etibarilə nə demokratikləşmə, nə də ki, liberallaşma demək deyil**".

Bundan başqa, transformasiya probleminin fonunda bəzən liberallaşma ilə paralel surətdə müşayiət edilən diktokratiya anlayışına da rast gəlmək olur. Bu anlayışın mahiyyətini aşkar etmək və onu demokratik tranzitdən fərqləndirmək lazımdır. Bəzi zahiri ünsürlərinə və daşıdığı dəyərlərə görə diktokratiya ilə hibrid demokratiya bir-birinə bənzəsələr də, əsas və təməl xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Belə ki, diktokratiya liberallaşmanın demokratik transformasiyasız aparıldığı hallarda ortaya çıxan hibrid siyasi rejimin bir növüdür. Bu halda hakim elita cəmiyyətə hesabat verilməsini nəzərdə tutmadan və subyektiv iradə əsasında insan və vətəndaş hüquq və azadlıqlarının olmasına razılıq verir. Bunun fonunda üstünlük çoxluğun ziyanına olaraq siyasi azlığa verilir. Bu isə nəticə etibarilə aşkar demokratiyanın bərqərar olması demək deyil.

Beləliklə, keçid dövrünün strateji tələbi kimi qarşımıza çıxan demokratikləşmə məsələsinə ümumi və xüsusi yanaşmalardan da məlum olur ki, bu mərhələ özündə olduqca mürəkkəb vəzifə və problemləri ehtiva edir. Odur ki, buna nail olmaq üçün sistem transformasiyasının fonunda ən müxtəlif avanqard strateji konsepsiyalarda təsbit edilmiş vəzifələrin milli dəyərlərə və maraqlara müvafiq surətdə həyata keçirilməsi lazımdır. Yuxarıda bildirildiyi kimi, transformasiyanın düzgün təşkil edilməməsi özündə bütün sahələri əhatə edən kompleks problemlərin düzgün həll edilməməsindən irəli gəlir. Belə ki,

sosial sahədə sosial-iqtisadi amillərin düzgün təşkil edilməməsi ictimai istehsalın idarə edilməsində cəmiyyət üzvlərinin iştirakının məhdudlaşdırılması, iqtisadi sahə və sektorlarda özünüidarə sisteminin təşəkkülü və inkişafına süni maneələrin yaradılması, bölgü və mübadilə münasibətlərinin düzgün meyarlar əsasında təşkil edilməməsi kimi hallar bəhs edilən sahədə xaotik və dağıdıcı meyillərin yaranmasına və kəskinləşərək tendensiya halını almasına səbəb olmaqla yanaşı, keçid dövrünün aktual çağırışları və tələblərinin düzgün dəyərləndirilməməsinə gətirib çıxarmaqdadır. Bu isə nəticə etibarilə transformasiya prosesinin sosial-iqtisadi əsaslarının yararsızlığına və prosesin funksionallığının azalmasına səbəb olur.

Hüquqi, konstitusion sahədə isə hüquqi nihilizm və siyasi maksimalizmin aradan qaldırılması, daha sonra isə siyasi-hüquqi əsasda struktur islahatlarının həyata keçirilməsi, legitimləşdirmə prosesinin tamlığının təmin edilməsi və digər bu kimi substratlar başlıca vəzifələr qismində dəyərləndirilməkdədir. Bütün bu vəzifələrin yerinə yetirilməsi üçünsə dövrün tələblərinə müvafiq surətdə peşəkarcasına tərtib edilmiş konseptual proqramın və siyasi iradənin olması zəruridir.

Bu məsələnin Azərbaycan təcrübəsinə gəldikdə isə qeyd edə bilərik ki, müstəqilliyin ilk illərində bu vəzifənin reallaşmasına nail olmamağın başlıca səbəbləri qismində hakimiyyətdə olan səriştəsiz subyektlərin rasional surətdə bu prosesi başlada bilməmələri və ya bunu istəməmələri – xarici imperialist qüvvələrin tapşırıqları əsasında milli dəyərlərə və maraqlara zidd surətdə hərəkət etmələri kimi təməl faktorlar çıxış edirdi. Bütün bunlar isə nəticə etibarilə siyasi, hüquqi və sosial sahələrdə deviasiyaların artmasını şərtləndirmiş oldu. Başqa sözlə, müstəqilliyin ilk illərində keçid dövrünün reallıqları və qanunauyğunluqlarının nəzərə alınmaması, aqonis və antaqonist qüvvələr arasında kəskin qarşıdurmaların baş verməsi, iqtisadi, siyasi, sosial və hüquqi sahələrdə tələb olunan struktur islahatlarının həyata keçirilməməsi və digər bu kimi səbəblər sistem transformasiyasının həyata keçirilməsini mümkün et-

mədi. Amma Ulu öndər Heydər Əliyevin 1993-cü il oktyabr ayının 3-də keçirilən Prezident seçkilərində ikinci dəfə hakimiyyətə gəlişindən sonra qeyri-formal milli dövlət və yeni cəmiyyət quruculuğu vəzifəsinin fonunda sadalanan istiqamətlərdə fundamental strateji tədbirlər görüldü və sistem transformasiyası ardıcıl siyasi-hüquqi islahatların fonunda həyata keçirildi.

*Azərbaycan heç bir ölkənin təsiri altına düşməyəcəkdir. Azərbaycan öz müstəqilliyini qoruyacaqdır. Bu da bir Prezident kimi mənim siyasətimin əsas ana xəttidir. Bunun üçün də hamı bir yolla getməlidir. Burada başqa bir yol yoxdur. Burada başqa yolla gedən adam, demək, məqsəd daşıyır. O məqsədlərə bu gün Azərbaycanda yer yoxdur*

**Ulu öndər Heydər Əliyev**

***

*Yeni Azərbaycan Partiyası Azərbaycanın həyatında ən güclü, ən böyük intellektual səviyyəyə malik, ən böyük hörmətə malik olan siyasi partiyadır. Yeni Azərbaycan Partiyası Azərbaycanın bu gününün partiyasıdır, Azərbaycanın sabahının partiyasıdır, XXI əsrin partiyasıdır, üçüncü minilliyin partiyasıdır*

**Ulu öndər Heydər Əliyev**

***

*1993-cü ilin iyun ayından ölkədə formalaşmağa başlayan yeni siyasi kurs vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, separatçılıq meyillərinə son qoydu və Heydər Əliyevin dövlət quruculuğu siyasətinin gerçəkləşməsinə gətirib çıxardı*

**Prezident İlham Əliyev**

***

*1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyasının qəbul edilməsi ilə ölkədə dövlət quruculuğu üçün zəruri hüquqi baza formalaşdı. Ölkəmizin daxili və xarici siyasət konsepsiyası beynəlxalq hüquq normalarına uyğun olaraq quruldu. Bu illər ərzində Azərbaycanda bütün istiqamətlərdə dövlət quruculuğu prosesi uğurla həyata keçirilib, dövlətçilik ənənələri zənginləşdirilib*

**Prezident İlham Əliyev**

# III FƏSİL

# MİLLİ DÖVLƏT QURUCULUĞU PROSESİNİN BAŞLANMASI VƏ SİYASİ SİSTEMİN TƏŞƏKKÜLÜ: LİDER FAKTORU; SOSİAL, SİYASİ, İDEOLOJİ VƏ HÜQUQİ MƏSƏLƏLƏR

## 3.1. Milli dirçəliş və qurtuluşun əsası. Siyasi sabitliyin təmin edilməsi və milli inkişafın başlanğıcı: lider faktoru

Tariximizə "Milli Qurtuluş Günü" kimi daxil olan 1993-cü ilin 15 iyun günündə Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə sədr seçilməsi tarixi Azərbaycanın siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Ölkənin mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu. Belə ki, Ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi əsasında istinad etdiyi rasional seçim strategiyası və bunun fonunda atdığı praqmatik addımlar sayəsində ölkədə hökm sürən və mütəmadi eskalasiya vəziyyətində qeyri-müəyyənliklə təzahür olunan destruktiv proseslərin mərhələli şəkildə neytrallaşdırılmasına nail olundu.

Həmin tarixi dövrün qanunauyğunluqlarına və reallıqlarına bir daha nəzər yetirdikdə belə bir nəticəyə gəlmək olur ki, qeyri-formal milli dövlət və modern cəmiyyət quruculuğu prosesinin sistematik surətdə əsası qoyulmamışdan öncə ölkə daxilində bir sıra dağıdıcı ünsürlərin qarşısının alınması, diskriminasiya və kataklizmlərlə müşayiət edilən xaotik proseslərin neytrallaşdırılması, bütün bunların fonunda isə siyasi sabitliyin təmin edilməsi lazım idi ki, Ümummilli lider Heydər Əliyev, ilk növbədə, sadalanan strateji vəzifələr üzərindən hərəkət edərək buna nail oldu.

Həmin ərəfədə hökm sürən destruktiv situasiyanın fonunda mövcud problemlərin xarakteristikasını anlamaq üçün bir neçə fak-

ta toxunmaq kifayət edir. Belə ki, o zamankı prezident Əbülfəz Əliyevin paytaxtı tərk edərək ucqar bir əyalətin əlçatmaz bir kəndinə getməsi hakimiyyət böhranının yeni mərhələyə transfer olunmasını şərtləndirdi. Məhz belə bir mürəkkəb situasiyanın fonunda ölkədə yeni prezident seçkilərinin keçirilməsi zərurəti var idi. 1993-cü ilin 3 oktyabr tarixində keçirilən prezident seçkiləri demokratiklik səviyyəsi və hüquqi prosedurlarına görə əvvəlkilərdən birmənalı şəkildə kəskin surətdə fərqləndi. Məlum olduğu kimi, Azərbaycanda keçirilən ilk prezident seçkiləri təyinat xarakterli idi. Başqa sözlə, respublikanın ilk prezidenti Ayaz Mütəllibovun hakimiyyətin ən yüksək pilləsində əyləşməsi xalqın ali iradəsi əsasında baş tutmamışdı. Üstəlik, mövcud situasiyanın fonunda prezident olmasına onun özü belə şübhə ilə yanaşırdı. Bunun nəticəsi idi ki, A.Mütəllibovun siyasi karyerasının son akkordları istefalar və yenidən dönüşlərlə zəngin oldu. 1992-ci ildə keçirilən növbəti prezident seçkiləri də, şübhəsiz, bir qrup hərəkatçının siyasi iradəsi və qrup mənafelərinə müvafiq surətdə reallaşdırıldı. Başqa sözlə, prezident olmağı arzu etməyən və uyğun olaraq xalq tərəfindən arzu olunmayan şəxs bəhs etdiyimiz bir qrup siyasi avantüristin iradəsi və təzyiqi ilə “zorən” prezident elan edildi. Məntiqi olaraq bu siyasi şou da qısa bir müddətdən sonra başa çatdı. Bundan sonra Azərbaycan xalqı ölkənin ayrı-ayrı subyektlər üçün siyasi təcrübə laboratoriyası olmasına qəti etiraz edərək öz siyasi iradəsini ortaya qoydu. Nəticə etibarilə, bunun məntiqi yekunu 3 oktyabr 1993-cü il seçkiləri ilə başa çatdı. Məhz bundan sonra mövcud problemlərin həll edilməsi istiqamətində sistematik strategiya ilə müşayiət olunan ardıcıl strateji addımlar atıldı.

Həmin ərəfədə milli həmrəylik və bütövlüyə, ümummilli inkişaf və siyasi sabitliyə təhdid yaradan və mane olan başlıca amillərdən biri də müxtəlif xarici subyektlərin göstərişi və daxili qüvvələrin iştirakı ilə həyata keçirilməyə cəhd edilən dövlət çevrilişləri idi. Məhz bu cəhdlər xaricdən idarə edilən daxili antimilli qüvvələrin formal müstəqilliyə malik olan milli dövlətimizin mövcudluğu və təhlükəsizliyinə qarşı etdiyi mənfur sui-qəsd idi. Xarici güclərin

milli və transmilli maraqları əsasında baş tutan çevriliş cəhdləri ilk zamanlarda ölkədə hökm sürən xaotik durumu daha da kəskinləşdirən amil qismində çıxış etməklə yanaşı, ölkədaxili qüvvələrarası antaqonist münasibətləri də olduqca şiddətləndirmişdi. Məhz bu cür dağıdıcı hallar ölkə daxilində bütün strukturların işini iflic etməklə dərin institusional kataklizmləri daha da kəskinləşdirmişdi. Bütün bunlar 1991-ci ildən 1993-cü ilədək davam edən hakimiyyət böhranı və boşluğunun, anarxiyanın doğurduğu faciəvi olaylar idi. Mövcud hakimiyyətin siyasi irrasionallığı, qeyri-praqmatik fəaliyyət mexanizmi məlum çevriliş cəhdlərinin baş tutmasına real zəmin və imkan yaradan başlıca faktorlardan idi.

Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra da dövlət çevrilişlərinə cəhdlər edilsə də, onların qarşısı siyasi rasionallıqla zamanında atılmış addımlar və görülmüş tədbirlər sayəsində alındı. **Digər tərəfdən, əgər 1991-1993-cü illər ərəfəsində edilmiş çevriliş cəhdləri hakimiyyət boşluğu və böhranından, ölkəyə rəhbərlik edən şəxslərin siyasi irrasionallığından qaynaqlanırdısa, 1993-cü ildən sonrakı cəhdlər Ümummilli lider Heydər Əliyevin siyasi sabitliyi və ümummilli bütövlüyü təmin etmək üçün gördüyü tədbirlərə əks reaksiya idi**. Başqa sözlə, Ulu öndərin sistematik tədbirlər planının fonunda məlum çevriliş cəhdlərinin arxasında və əsasında duran dağıdıcı daxili və xarici qüvvələr ölkəmizdə siyasi sabitliyin təmin edilməsinə yönəlik strateji tədbirlərin qarşısını almağa və ölkədə yenidən anarxiya mühitini bərpa etməyə çalışırdılar. Amma ölkədəki situasiya əvvəlki kimi deyildi. Ulu öndər Heydər Əliyevin sürətli strateji tədbirlər planı və milli siyasəti sayəsində ictimai-siyasi palitrada kardinal səciyyə daşıyan mərhələli reformativ tədbirlər görülmüşdü və bunun sayəsində bölücü faktorların neytrallaşdırılması mümkün idi. Bütün bu strateji tədbirlərin sayəsində məhz bu cür də oldu, yəni bölücü faktorların neytrallaşdırılmasına və ictimai-siyasi müstəvidə siyasi sabitliyin təmin olunmasına nail olundu.

3-4 oktyabr 1994-cü il hadisələrinin müvafiq profilaktik tədbir-

lərin görülməsi sayəsində qarşısının alınmasından sonra ölkəmiz bölücü xarakterli çevriliş cəhdlərinin son halqası olan 16 mart 1995-ci il hadisələri ilə qarşı-qarşıya qaldı. Bu qiyam, əslində, 3-4 oktyabr hadisələrinin məntiqi davamı idi. Çünki hər iki akt eyni bir mərkəzdən idarə olunurdu və analoji məqsədlərə xidmət edirdi. Son məqsəd isə 70 illik fasilədən sonra öz müstəqilliyini yenidən əldə etmiş Azərbaycanı müxtəlif spontan qüvvələrin iştirakı ilə parçalamaq, ölkəni xarici qüvvələrin transmilli maraqlarına müvafiq surətdə zəiflədərək idarəolunan qeyri-suveren subyektə çevirmək idi. Məhz belə bir mövqeyin fonunda isə son hədəf Azərbaycanı federativ dövlət formasına çevirmək və belə bir konfederasiya şəraitində ölkəni periferiyaya döndərmək idi.

**O zaman təbii strateji müttəfiq kimi qəbul etdiyimiz milli aktorlardan birinin məhz bu çevriliş cəhdinə göstəriş verməsi bir daha sübut etdi ki, məhz belə bir situasiyanın fonunda milli həmrəyliyin və ictimai-siyasi sabitliyin təmin edilməsi bilavasitə milli qüvvələr və resurslar hesabına baş tuta bilər. Çünki həmin təşəbbüs bir daha göstərdi ki, milli maraqlar milli-etnik identiklik və ortaq tarixi keçmişdən öndə duran dəyişməz strateji istinad nöqtəsi və məfhumudur. Belə ki, xalqımızla eyni tarixi keçmişə və ortaq dəyərlərə, milli etnik identikliyə malik olan dövlətlərdən birinin ölkəmizdə xaos və anarxiya ilə müşayiət ediləcək çevrilişə cəhd etməsi bütün ortaq dəyərlərin üstündən xətt çəkilməsinə və korporativ səciyyəli strateji maraqların təmin edilməsi naminə milli-etnik identiklik faktorunun arxa plana keçirilməsinə dəlalət edirdi. Azərbaycanı federasiya ilə konfederasiyanın bir sıra xüsusiyyətlərindən təşkil edilmiş siyasi təsisatda periferiyaya çevirmək istəyən həmin qüvvələr, əslində, ölkəmizə qarşı yeni növ istismarçı müstəmləkə siyasəti yeridirdilər. Məhz bu cür siyasətin uzantısı kimi ölkəmizi "arxa bağça"ya çevirmək üçün "Cənubi Qafqaz şahmat taxtası"nda ardıcıl həmlələr edilir və ölkədaxili siyasi proseslərə xaotik və anarxik oriyentasiya verilməyə çalışılırdı.**

Amma "**Biz Azərbaycanı bu vəziyyətdən çıxarmağa qadi-**

**rik, çıxarmalıyıq və çıxaracağıq**" deyən Ulu öndər Heydər Əliyevin realist təfəkkürün fonunda etdiyi ardıcıl strateji və taktiki həmlələr sayəsində bölücü aktlar neytrallaşdırıldı və ölkə daxilindəki antaqonist qüvvələr arasında ümumi konsensusa nail olunmaqla siyasi sabitlik bərpa edildi. Bütün bu prosesləri və olayları rasional və praqmatik təfəkkürün fonunda dəyərləndirən Ulu öndər Heydər Əliyev deyirdi: "**Azərbaycan heç bir ölkənin təsiri altına düşməyəcəkdir. Azərbaycan öz müstəqilliyini qoruyacaqdır. Bu da bir Prezident kimi mənim siyasətimin əsas ana xəttidir. Bunun üçün də hamı bir yolla getməlidir. Burada başqa bir yol yoxdur. Burada başqa yolla gedən adam, demək, məqsəd daşıyır. O məqsədlərə bu gün Azərbaycanda yer yoxdur**".

1996-cı il aprel ayının 5-də və 6-da Respublika sarayında ölkəmizin ictimai-siyasi həyatının təhlilinə həsr edilmiş ümumxalq nümayəndələrinin toplantısında bütün bu proseslərin və olayların bir sıra məqamlarına bir daha aydınlıq gətirildi. Çıxışlar zamanı ifadə edilən faktlardan və aşkar olunan bir sıra reallıqlardan məlum oldu ki, 1990-cı il 20 Yanvar müsibəti ilə başlayan və 1995-ci ilin mart ayınadək davam edən, xalqımızın müstəqilliyi, azadlığı əleyhinə yönəldilmiş hadisələr arasında zəncirvarı bağlılıq olmuşdur. Toplantıda məhz bütün bu olayların mahiyyətini aşkar edən bir neçə istiqamətli məsələlərə toxunuldu. Bunlardan biri də həmin dağıdıcı, bölücü olaylara daxildən dəstək verilməsi və bir sıra antimilli qüvvələrin ölkəni parçalamaq niyyətlərini gerçəkləşdirmək istəmələri faktı oldu. Belə ki, ümumxalq toplantısında bəzi müxalifət qüvvələrinin 1995-ci il mart qiyamını dəstəkləməsi faktının səsləndirilməsi və bütün hüquq-mühafizə orqanlarının rəhbərləri tərəfindən bu faktın üzərində xüsusi şəkildə durulması bir daha onu göstərdi ki, cəmiyyətimizdə silah gücünə zor işlətməklə-uzurpasiya vasitəsilə hakimiyyətə gəlməyə çalışan dağıdıcı qüvvələr mövcuddur. Onların içərisində AXC və Müsavat partiyalarının bəzi liderlərinin olması faktı isə özlərini "demokratik" müxalifət adlandıran bu qüvvələrin əslində kim olmaları haqqında cəmiyyətdə geniş və aydın təsəvvür yaratdı. Bu məsələylə bağlı digər bir maraqlı fakt

isə ondan ibarət idi ki, bu zamanadək bir-birinə qarşı barışmaz mövqedə olan bir sıra siyasi qüvvələr təşkil edilən illeqal siyasi hərəkatların fonunda iqtidarı devirmək və ölkə prezidentini fiziki baxımdan məhv etmək məsələsində işbirliyi yaratmışdılar. Onların təməl məqsədi hakimiyyəti uzurpasiya vasitəsilə ələ keçirdikdən sonra Dövlət Şurası yaratmaq, Şuraya bütün eks-prezidentləri dəvət etmək, "demokrat" imici yaradılmış Əbülfəz Əliyevi isə bu quruma sədr seçmək idi. Əbülfəz Əliyev isə gizli məşvərət zamanı, hətta keçmiş baş nazir Surət Hüseynovun da Şuraya salınmasını istəmişdi. Məhz bütün bunlar və hadisələrin sonrakı inkişafı bir daha belə bir məqamı sübuta yetirdi ki, Azərbaycan siyasi palitrasında həmin zaman kəsiyində müxalifət statusunda təmsil olunan bir sıra subyektlər xarici güclərin avantürist geosiyasi layihələri və ssenariləri əsasında ölkədə xaos mühiti yaratmaq, daha sonra isə bu situasiyadan istifadə edərək özlərinin korporativ maraqlarını gerçəkləşdirməyə çalışırdılar. Məhz belə bir situasiyada milli maraqlar və milli dəyərlərin dəfələrlə zərbə altına qoyulması, ölkənin vətəndaş müharibəsinə sürüklənməsi kimi hallar və faktlar müşahidə edildi.

1996-cı il aprel ayının 5-də və 6-da Respublika Sarayında keçirilən ümumxalq toplantısında Ümummilli lider Heydər Əliyev yekun nitqində bu məsələyə məhz bu cür birmənalı qiymət verdi: "**Əgər 1992-ci ildə hakimiyyətə gəlmiş Xalq Cəbhəsi həqiqətən xalqın cəbhəsi idisə, nə üçün 1993-cü ilin may-iyun aylarında xalq onu müdafiə etmədi? Deməli, onlar bir il müddətində xalqın inamını itirdilər və hesab edirəm ki, artıq Xalq Cəbhəsi adını daşımaq hüququnu da itiriblər... O vaxt Azərbaycan cəmiyyətinə düşmüş həmin yoluxucu xəstəlik – xalqı, ölkəni, idarə etmək üçün yox, öz şəxsi məqsədlərinə nail olmaq, şəxsi imtiyazlar əldə etmək üçün hakimiyyət, vəzifə hərisliyi Azərbaycanı belə ağır vəziyyətə gətirib çıxardı**".

Beləliklə, ölkə daxilində olduqca mürəkkəb kataklizmlərin hökm sürməsinə və siyasi böhranın pik nöqtəyə çatmasına baxmayaraq, Ulu öndər Heydər Əliyevin rasional və praqmatik tədbirləri sayəsində siyasi sabitliyin təmin olunması missiyasına nail olundu.

Siyasət nəzəriyyəsində siyasi sabitlik "siyasi sistemin daxili və xarici ətraf-mühitin təsiri altında özünün strukturunu və ictimai dəyişikliklər prosesinə nəzarət etmək qabiliyyətini saxlamaqla səmərəli işləməyə və inkişaf etməyə imkan verən davamlı durumu" kimi səciyyələndirilir. Araşdırmaçı Seymur Lipset bildirir ki, siyasi sabitlik hakimiyyətin səmərəliliyi və legitimliyi ilə müəyyən olunur. Onun qənaətincə, hər iki göstəricinin olmaması siyasi sistemin qeyri-sabitliyini şərtləndirir, onlardan birinin olması isə nisbi sabitliyə imkan yaradır. Məhz bu təsbitdən yola çıxaraq qeyd edə bilərik ki, 1991-1993-cü illərdə hakimiyyətin fəaliyyət mexanizminin səmərəsizliyi və qeyri-legitimliyi siyasi sabitliyin təmin edilməsini mümkün etmədi. Amma 1993-cü ildən – Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra hakimiyyətin fəaliyyət mexanizminin effektivliyinin artırılması və sürətli legitimləşdirmə tendensiyası ictimai-siyasi müstəvidə sabitliyin təmin edilməsini şərtləndirdi.

Bununla yanaşı, S.Lipset bildirir ki, qeyri-sabitlik mənbəyi qismində çıxış edən problemlərin aradan qaldırılması siyasi sabitliyin təmin edilməsində başlıca strateji faktor kimi səciyyələndirilməlidir. O, qeyri-sabitlik mənbəyi kimi çıxış edən amillərə məhz bunları aid edir: hakimiyyətin delegitimasiyası və fərdiləşdirilməsi, dövlətin siyasətində hakim elitanın korporativ maraqlarının fundamental faktor kimi çıxış etməsi, milli-etnik zəmində qarşıdurma meyilləri və hallarının mövcud olması, siyasi hakimiyyətin varisliyinin təmin edilməsi ilə bağlı çətinlikləri, müxalif qüvvələrin silahlı müqavimət və hücum kimi qeyri-leqal mübarizə üsullarından istifadə etməsi və sair. Araşdırmaçı belə bir qənaət ifadə edir ki, hakimiyyətin fəaliyyət mexanizminin effektivliyi də bilavasitə yuxarıda əks olunmuş problemlərin həll edilməsi səviyyəsindən asılıdır. Dolayısıyla, siyasi sabitliyin təmin edilməsi hakimiyyətin effektivliyinin başlıca göstəricisi və şərtidir.

Bunlarla yanaşı, empirik faktlarla təsbit edilmiş siyasət nəzəriyyəsində sabitlik daxili siyasət nöqteyi-nəzərindən dövlətin və iqtidarın zorakılığa və təhlükəyə məruz qaldığı zaman özünü qoruya

bilmək qabiliyyəti kimi təsvir edilir. Bir sıra araşdırmaçılar isə sabitliyi effektiv fəaliyyət mexanizminə malik olan hakimiyyətin uzunmüddətli fəaliyyəti kimi səciyyələndirirlər. Politoloq Samuel Hantinqton "konstitusiya nizamı+varislik" formulu ilə ifadə etdiyi sabitliyi qanunlar tərəfindən təsbit olunan səlahiyyətlər çərçivəsində hökumətin fəaliyyəti kimi nəzərdən keçirir: "**Demokratik idarəetmə sisteminin fonunda hər hansı bir siyasi institutun illeqal surətdə digərləri üzərində hegemonluq qurması siyasi-hüquqi əsaslara və normalara uyğun deyil. Siyasi institutlararası mübarizə, ilk növbədə, rəqabətə əsaslanmalıdır. Hakim siyasi subyektlərin fəaliyyət mexanizminin səmərəliliyini göstərən amillərdən biri də onun siyasi palitrada təmsil olunan institutlarla apardığı mübarizə formasıdır. Amma bütün bunlarla yanaşı, hakim qüvvələr özlərinin bütün resurslarından istifadə etməklə özlərinin hakimiyyətlərini mühafizə etməyi bacarmalı və bununla da təmin edilmiş siyasi sabitliyin davamlı xarakter almasına nail olmalıdırlar... Demokratiyada siyasi proseslərin iştirakçıları öz maraqlarını qoruya bilməli və leqal surətdə hakimiyyəti ələ keçirmək üçün yetərincə siyasi-hüquqi resurslara malik olmalıdırlar. Məhz belə bir şəraitin fonunda siyasi rəqabətə əsaslanan qüvvələrarası leqal mübarizədən bəhs etmək mümkündür**".

S.Hantinqtonun qənaətincə, sabitlik müvəqqəti və daimi olmaq etibarilə iki istiqamətdə dəyərləndirilməlidir: "**Siyasi sabitlik hakimiyyətin fəaliyyət mexanizminin səmərəlilik səviyyəsini göstərən başlıca amillərdəndir. Hakimiyyət mövcud resurslarının fonunda sabitliyin təmin edilməsi üçün müxtəlif vasitə və metodlara istinad etməklə siyasi sabitliyə nail ola bilər. Ancaq istifadə edilən metodların xarakterinə və mahiyyətinə görə siyasi sabitlik müvəqqəti və ya uzunmüddətli olur. Başqa sözlə, siyasi sabitliyin dayanıqlılığı hakimiyyətin istinad etdiyi resurslar və vasitələrin səciyyəsindən asılıdır. Mütəmadi surətdə zorakı metodlara istinad edilən, tez-tez konstitusiyası formal surətdə dəyişdirilən, fövqəladə vəziyyət elan edilən, parlamenti buraxı-**

**lan, dövlət başçısı və ya hökumətləri istefaya göndərilən, hərbçiləri mülki və inzibati vəzifələri həyata keçirən, dini, etnik və irqi zəmində qarşıdurmalar yaranan ölkələrdə siyasi sabitlik uzurpasiya metodları vasitəsilə təmin edilir ki, bu da uzunmüddətli ola bilməz. Amma siyasi-hüquqi islahatların davamlı şəkildə aparıldığı, siyasi qüvvələrarası münasibətlərin rəqabət əsasında formalaşdırıldığı və hakimiyyətin effektivliyinin maksimum səviyyədə təmin edildiyi ölkələrdə uzunmüddətli sabitliyə nail olunması mümkündür. Bunların əsasında isə siyasi idarəetmənin səmərəliliyi və lider faktoru dayanır. Başqa sözlə, praqmatik fəaliyyət mexanizminə malik olan siyasi liderin həyata keçirdiyi effektiv idarəetmə siyasi sabitliyin təmin olunmasının əsasını təşkil edir**”.

Beləliklə, bütün bu təsbitlərin fonunda bir daha məlum olur ki, Ulu öndər Heydər Əliyevin praqmatik strateji kursunun fonunda yuxarıda sadalanan problemlərin həll edilməsi və təməl strateji vəzifələrə nail olunması, yəni, sürətli legitimləşdirmə tendensiyasının əsasının qoyulması, milli siyasətdə ümummilli maraqların və mənafeyin əsas götürülməsi, milli-etnik zəmində qarşıdurma meyilləri və hallarının qarşısının alınması kimi fundamental işlər siyasi sabitliyin əldə edilməsini şərtləndirmiş oldu.

Məhz belə bir təsbitin fonunda qeyd edə bilərik ki, bütün bu strateji vəzifələrin yerinə yetirilməsinə müvəffəq olmaq qısa zaman kəsiyində həyata keçirilən struktur islahatlarının fonunda hakimiyyətin effektivliyinin təmin edilməsi sayəsində mümkün oldu. Siyasət nəzəriyyəsində hakimiyyətin effektivliyi dedikdə, ilk növbədə, hakimiyyətin öz vəzifə və funksiyalarını yerinə yetirmə səviyyəsini göstərən inteqral xüsusiyyətlərdən biri nəzərdə tutulur. Hakimiyyətin effektivliyinin meyarlarına isə məhz bunlar aid edilir: hakimiyyətin legitimliyi və onun resurslarından səmərəli istifadə edilməsi, şaquli və üfüqi hakimiyyət strukturlarının simmetrik koordinasiyası və fəaliyyət mexanizminin səmərəliliyi, hakimiyyət sərəncamlarının analizinin aparılmasının təşkilati-texniki və kadr təminatı, hakimiyyət əmrlərinin yerinə yetirilmədiyi halda haki-

miyyət obyektlərinə tətbiq edilərək daimi sanksiyalar sisteminin olması, hakimiyyətin effektiv özünənəzarət sisteminin mövcudluğu və sair.

Bütün bu meyarlara nəzər yetirdikdə məlum olur ki, 1991-1993-cü illər arasındakı zaman kəsiyindən fərqli olaraq Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsindən sonra görülən sistematik və kompleks strateji tədbirlərin sayəsində hakimiyyətin effektivliyi təmin edildi və qeyri-formal milli dövlət quruculuğu prosesinin mərhələli surətdə həyata keçirilməsi mümkün oldu.

Əlbəttə, ölkəmizdə hökm sürən xaotik və anarxik meyillərin neytrallaşdırılmasında, mürəkkəb siyasi-hüquqi kataklizmlərin qarşısının alınmasında və ictimai-siyasi sabitliyin əldə edilməsində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin liderlik keyfiyyətləri birinci dərəcəli amil kimi xüsusi rol oynadı. Məhz o cür mürəkkəb situasiyanın fonunda milli-etnik və subyektlərarası barışmaz ziddiyyətləri aradan qaldırmaq, simmetrik sosial inteqrasiyanı və onun davamlılığını təmin etmək, xalqla hakimiyyətin kommunikasiyasını və milli ideoloji həmrəyliyi təmin etmək kimi zəruri strateji funksiyaları müvəffəqiyyətlə yerinə yetirən Heydər Əliyev Azərbaycan xalqının Ümummilli lideri olmasını ölkəmizin müstəqilliyini qoruyub saxlamaqla və yeni inkişaf üfüqləri açmaqla bir daha sübut etdi.

Siyasətşünaslıq elmində siyasi liderlər müxtəlif meyarlar əsasında bir neçə qrupda təsnif edilir. İlk növbədə, təsdiqinə görə siyasi liderlər formal və qeyri-formal olmaq etibarilə iki qrupda təsnif edilir. Formal liderlər inzibati qayda və resurslarla müəyyən quruma rəhbərlik edən şəxslərdir ki, onların rəhbərliyi rəsmi xarakter daşıyır və nüfuz-təsir imkanları bilavasitə rəsmi, inzibati resursların fonunda müəyyən edilir. Qeyri-formal liderlərin isə rəsmi, inzibati resurslarla quruma rəhbərlik etməsi şərt deyil. Onlar şəxsi keyfiyyətləri və nüfuzları, xarizmatik xüsusiyyətləri ilə müəyyən qurum və qrup tərəfindən lider kimi qəbul edilirlər. Bəzən bir şəxs həm formal, həm də qeyri-formal lider statusu daşıya bilir.

Məsələn, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra 1993-cü ildə ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyev formal və qeyri-formal lider statusu daşımağa başladı. Əgər müstəqilliyin ilk iki ilində O, ölkəyə rəhbərlik etmədiyi zaman kəsiyində şəxsi nüfuzu, keyfiyyətləri və xarizması ilə qeyri-formal lider idisə, 1993-cü ildən sonra xalqın seçimi nəticəsində həm formal, həm də qeyri-formal lider statusu daşımağa başladı.

Bundan başqa, funksiyalarına görə siyasi liderlər "bayraqdar", "təmsilçi", "yanğınsöndürən", "faydalı", "sahibkar" "aktyor", "tacir" rəhbərlər kimi səciyyələndirilərək təsnif edilir. "Bayraqdar" lider cəmiyyətdə ali, nəcib şəxsi keyfiyyətlərə malik olan əsl rəhbər kimi qəbul və müdafiə edilir. Onun uğurlarının əsasında həmin şəxsə qarşı olan yüksək dəstək amili dayanır. Məhz bu cür siyasi liderlər olduqca realist, rasional və praqmatik təfəkkürə malik olurlar və qarşılarına qoyduqları dərk edilmiş məqsədlərə uğurla çata bilirlər. Bir sözlə, "bayraqdar" liderlər sözün əsl mənasında yeganə və əsas aparıcı qüvvə qismində çıxış edirlər.

"Yanğınsöndürən" liderlər isə mürəkkəb situasiyanın fonunda xüsusi fəaliyyətləri ilə milli həmrəylik və bütövlüyün təmin olunmasına nail ola bilən, birləşdirici və xilasedici rəhbər qismində çıxış edirlər. Bir çox liderlərdən fərqli olaraq onlar ən mürəkkəb situasiyalarda özlərinin şəxsi təcrübə və keyfiyyətlərindən xüsusi məharətlə yararlanırlar və xalqın ali mənafeyinin təmin edilməsi missiyasını uğurla yerinə yetirirlər.

"Sahibkar" imicli liderlər isə özlərinə bənzərlik effektinə xüsusi diqqət yetirir və öz davamçılarını məhz bənzərlik əsasında müəyyən edirlər. Siyasət nəzəriyyəsində bu cür liderlər irrasional xüsusiyyətlərin məcmusu kimi təsvir edilsə də, bir çox situasiyalarda onların fəaliyyət mexanizmi inkişaf mənbəyi kimi çıxış edir.

"Faydalı" liderlər özlərində xüsusi keyfiyyətləri cəmləşdirmiş və bir çox lider modellərinin xüsusiyyətlərini sintez etmiş rəhbər qismində səciyyələndirilir. Məhz bu cür siyasi liderlər ictimai-siyasi proseslərin dərinliklərinə nüfuz edir və sözün əsl mənasında sabitləşdirici və inkişafetdirici qüvvə önəmi kəsb edirlər. Rasional

liderlər qrupuna aid edilən bu şəxslər zaman və məkanın bütövlüyünü lokal surətdə təmin edərək cəmiyyətin və xalqın ali maraqlarının ifadəedicisi qismində çıxış edirlər.

"Təmsilçi" liderlərin isə fəaliyyət mexanizminin əsasında təmsil etdiyi qrup və subyektlərin maraqlarının təmin edilməsi prinsipi dayanır. Onlar sahib olduqları bütün resurslardan xalqın mənafeyinin təmin edilməsi və tələbatlarının ödənilməsi istiqamətində istifadə etməyi zəruri strateji prinsip kimi qəbul edir və fəaliyyət fəlsəfələrini məhz bu nöqteyi-nəzərdən müəyyən edirlər.

Beləliklə, bütün bu liderlik növləri və modellərinə nəzər yetirdikdə məlum olur ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev fəaliyyət mexanizminin substratlarına görə "bayraqdar", "təmsilçi", "yanğınsöndürən", "faydalı" lider kimi səciyyələndirilməlidir.

Bunlarla yanaşı, hakimiyyətin legitimliyinə və fərdi xüsusiyyətlərinə görə siyasi liderlər xarizmatik, rasional-leqal və ənənəvi liderlər kimi təsnif edilirlər. Xarizmatik liderlər təsir imkanları və ətrafdakılarda sosial fəaliyyətə yönəlmiş enerji doğurmaq bacarıqları, natiqlik və ünsiyyətcillik məharətləri ilə fərqlənirlər. Onlar özlərinin ekstraordinar keyfiyyətləri ilə digərlərindən fərqlənirlər. Araşdırmaçı A.N.Qanter xarizmatik liderə xas xüsusiyyətləri aşağıdakı kimi təsnif edir:

*1. Enerji mübadiləsi və ya insanlara emosional təsir bacarığı, başqalarına mənəvi baxımdan müsbət təsir bağışlamaqla ruhlandırmaq qabiliyyəti;*

*2. Fiziki və psixi bütünlük təsiri bağışlayan obrazı ilə insanlarda simpatiya yaradan şəxsiyyət surəti;*

*3. Ritorik və kommunikativ qabiliyyət;*

*4. Xarakterin bütövlüyü və müstəqilliyi, özünəinam hissi;*

*5. Ali məqsədlərə çatmaq iqtidarında olan güclü insan imici.*

Rasional-leqal liderlər isə legitim şərait və şəkildə fəaliyyət göstərən, ümumi maraqlar əsasında müxtəlif qrupların təmsilçisi

qismində çıxış edirlər.

Ənənəvi liderlər isə fəaliyyət mexanizmini müəyyən ənənələr əsasında quran, rasionallıq və legitimliyi ikinici planda tutan, kütləlləri ənənələr əsasında idarə edən və istiqamətləndirən rəhbər şəxslərdir.

Beləliklə, sadalanan lider tiplərinə nəzər saldıqda məlum olur ki, Ulu öndər Heydər Əliyev həm də rasional-leqal və xarizmatik liderlər qismində dəyərləndirilməlidir. Təsadüfi deyil ki, bütün bu xüsusiyyətlərin daşıyıcısı kimi çıxış etmiş Heydər Əliyev xalqımız tərəfindən Ümummilli lider statusu ilə qiymətləndirilib.

### 3.2. Siyasi sistemin struktur elementlərinin təşəkkül tapması və təkmilləşdirilməsi: konstitusiyanın qəbulu, parlament seçkilərinin keçirilməsi və ictimai-siyasi institutlaşma prosesinin əsasının qoyulması

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən sistematik strategiyanın fonunda milli təhlükəsizliyə real və potensial təhdid yaradan ünsürlərin neytrallaşdırılması, münasibətləri sürüşkən müstəvidə cərəyan edən qüvvələrarası antaqonist əlaqələrə son qoyularaq ümumi konsensusun əldə edilməsi, parlament və hökumət böhranı şəklində təzahür edən və mürəkkəb siyasi-hüquqi kataklizmlərlə müşayiət edilən daxili siyasi böhranın aradan qaldırılması və ümumilikdə ictimai-siyasi sabitliyin təmin edilməsi artıq qeyri-formal milli dövlət və modern cəmiyyət quruculuğu vəzifəsinin fonunda növbəti strateji istiqamətlərin müəyyən edilməsini diktə edirdi. Bu istiqamətlər sırasına siyasi sistemin təməl atributları və struktur elementlərinin dirçəldilməsi və təkmilləşdirilməsi, ictimai-siyasi institutlaşma prosesinin sürətləndirilməsi, inzibati səciyyə daşıyan struktur islahatlarının həyata keçirilməsi, legitimləşdirmə tendensiyasının sürətləndirilməsi fonunda siyasi plüralizmin təmin edilməsi və bütün bunların əsasında demokratik transformasiyanın milli dəyərlərə və maraqlara müvafiq surətdə baş tutması kimi

fundamental strateji vəzifələr aid idi. Zəngin dövlətçilik təcrübəsinə, rasional təfəkkürə və praqmatik fəaliyyət mexanizminə malik olan Ümummilli lider Heydər Əliyev tətbiq etdiyi strategiya sayəsində mərhələli şəkildə bütün bu vəzifələrin həllinə nail ola bildi.

İlk növbədə, inzibati səciyyəli struktur islahatları həyata keçirildi. Öncə icra hakimiyyəti strukturlarının və bütövlükdə dövlət sektorunun işinin səmərəliliyinin artırılması, onların fəaliyyətinin cəmiyyətin tələbatlarına və sosial qrupların maraqlarına uyğunlaşdırılması üçün ictimai inzibatçılıq sisteminin dəyişdirilməsi prinsipləri, vasitələri və mexanizmləri müəyyənləşdirildi və bu, islahatların davamlı xarakter almasında özünəməxsus rol oynadı. Hakimiyyət strukturları arasında koordinasiya və əməkdaşlığın simmetrik surətdə təmin edilməsi, vəzifə və səlahiyyət bölgüsünün dəqiq həyata keçirilməsi struktur islahatlarında ilk həyata keçirilənlər oldu. İnzibati islahatların səmərəlilik səviyyəsinin artırılması və əhatə dairəsinin genişləndirilməsi üçün qanunvericilik bazasının zənginləşdirilməsi lazım idi ki, bunun üçün də Ana Qanun önəmi kəsb edən yeni konstitusiyanın qəbul edilməsi lazım idi.

Yeni Konstitusiyanın qəbul olunmasını şərtləndirən zəruri strateji faktorlar sırasında aşağıdakıları qeyd etməliyik:

*1) suverenlik, müstəqillik və ərazi bütövlüyünün qorunmasının hüquqi substratlarının formalaşdırılması zərurəti;*

*2) konstitusiya çərçivəsində demokratik siyasi sistemin formalaşdırılması və demokratik transformasiya zərurəti;*

*3) vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu vəzifəsi;*

*4) milli inkişafın konstitusion əsaslarının yaradılması zərurəti.*

Beləliklə, milli iqtidarın gərgin əməyi sayəsində 1995-ci il noyabr ayının 12-də xalq referenduma gələrək öz dövlətçiliyinin əsas hüquqi istiqamətlərini müəyyənləşdirəcək başlıca siyasi-hüquqi sənəd olan Azərbaycan Respublikasının Konstitusiyasını qəbul etdi. Prinsip etibarilə bu tarixi müstəqil Azərbaycan dövlətçiliyində ilk

konstitusiyanın qəbulu günü kimi qeyd etmək olar. Çünki bu zamanadək istər 1921, istər 1937, istərsə də 1978-ci ildə qəbul edilmiş konstitusiyalar keçmiş SSRİ konstitusiyalarının müəyyən maddələrlə məhdudlaşdırılmış surəti olmaqla yanaşı, həm də tamamilə başqa bir ictimai-siyasi quruluşu əks etdirirdi.

Yeni Konstitusiya dövrün tələbləri, reallıqları və qanunauyğunluqlarına görə mükəmməl və təkmil siyasi-hüquqi sənəd idi. Konstitusiyanın hazırlanmasında dünya dövlətlərinin konstitusiya təcrübəsindən geniş istifadə edilməsi ilə yanaşı, respublikamızın tarixi ənənələri, spesifik özəllikləri və xalqımızın mentaliteti də nəzərə alınmışdı. Ana Qanunda bütün demokratik prosedurlar və prinsiplər öz əksini tapmış, eləcə də, insan və vətəndaş hüquq və azadlıqları geniş surətdə təsbit edilmişdi (konstitusiyanın 48 maddəsi, yəni, üçdəbiri insan və vətəndaş hüquq və azadlıqlarına həsr edilmişdi). Hakimiyyət bölgüsünün (qanunverici, icraedici və məhkəmə hakimiyyəti) təsbit edilməsi isə hakimiyyətin effektivliyinin artırılmasına xüsusi şərait və zəmin yaradan hüquqi substrat idi.

Amma bütün bu demokratik prinsiplərin Ana Qanunda əks olunmasına baxmayaraq, bəzi siyasi qüvvələr iddia edirdilər ki, konstitusiyada Azərbaycan Respublikasının Prezidentinə həddindən artıq səlahiyyətlər verilib. Əslində isə, Avropanın demokratik siyasi sistemə malik olan ölkələrinin konstitusiyalarına nəzər saldıqda məlum olurdu ki, prezidentə verilmiş səlahiyyətlər nəinki həddindən artıq deyil, hətta onlarla müqayisədə daha məhduddur. Müqayisəyə keçid almamışdan öncə ölkə prezidentinin konstitusiyada əks olunmuş bir sıra səlahiyyətlərinə nəzər yetirmək məqsədəmüvafiqdir. Beləliklə, konstitusiyanın 99-cu maddəsində göstərilirdi ki, Azərbaycan Respublikasının icra hakimiyyəti prezidentə məxsusdur. Respublika Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir. Bir sıra dövlətlərdən fərqli olaraq konstitusiyada prezidentə parlamenti buraxmaq səlahiyyəti verilmir. Bundan başqa, prezident ona tabe olan Nazirlər Kabinetinin başçısını Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə təyin edir. Eyni

zamanda, Konstitusiya Məhkəməsinin hakimlərini də prezidentin təqdimatı ilə Milli Məclis təyin edir.

Beləliklə, bütün bu faktların fonunda İtaliya və Fransa kimi demokratik siyasi sistemə malik olan ölkələrin konstitusiyası ilə Azərbaycanın konstitusiyasında müvafiq məsələylə bağlı əks olunmuş maddələr arasında müqayisələr aparaq. Əvvəla, baş nazirin təyin edilməsi ilə bağlı maddəyə diqqət yetirək. Azərbaycan Respublikasının Konstitusiyasının 118-ci maddəsində göstərilirdi ki, baş naziri Milli Məclisin razılığı ilə respublika prezidenti təyin edir. Fransanın konstitusiyasının 8-ci maddəsində isə təsbit olunub ki, baş nazir bilavasitə respublika prezidenti tərəfindən təyin olunur. İtaliya konstitusiyasinin 92-ci maddəsində göstərilir ki, respublika prezidenti baş naziri və onun təklifləri ilə nazirləri təyin edir.

Bunlardan başqa, Fransa və İtaliya konstitusiyalarında parlamentə prezidentə impicment tətbiqetmə hüquqi verilməsi ilə yanaşı, prezidentə də parlamenti buraxmaq hüququ verilir. Qeyd etdiyimiz kimi, Azərbaycan Respublikası prezidentinə konstitusiyada belə bir hüquq verilməyib.

Bundan başqa, Fransa konstitusiyasinin 12-ci maddəsində qeyd edilir ki, prezident baş naziri və parlament palatalarının sədrləri ilə məsləhətləşdikdən sonra Milli Məclisi buraxa bilər. İtaliya konstitusiyasının isə 88-ci maddəsində göstərilir ki, respublika prezidenti hər iki palatanı, yaxud onlardan yalnız birini sədrlərin mövqeyini öyrəndikdən sonra buraxa bilər. Prezident bu hüquqdan ancaq öz səlahiyyət müddətinin son altı ayı ərzində istifadə edə bilməz.

Beləliklə, müqayisələrin sayını istənilən qədər artırmaq olar. Amma təkcə bunlar da deməyə əsas verir ki, konstitusiyada hakimiyyət bölgüsü prinsipinə dəqiq surətdə əməl edilməklə yanaşı, səlahiyyət bölgüsü də demokratik prinsiplər və meyarlar əsasında təsbit edilmişdi. Bütün bunların fonunda isə deyə bilərik ki, bəhs edilən Ana Qanunun qəbul edilməsi ilə mərkəzi və yerli hakimiyyət orqanlarının təşkilinin hüquqi əsaslarının, onların səlahiyyətləri və qarşılıqlı münasibətlərinin, dövlətlə vətəndaş arasında simmet-

rik münasibətlərin substratlarının müəyyənləşdirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi kimi strateji vəzifələrə nail olunması yönündə siyasi-hüquqi nöqteyi-nəzərdən əhəmiyyətli zəmin formalaşdırıldı. Nəzərə alsaq ki, konstitusiya demokratik siyasi sistemin ən mühüm siyasi-hüquqi təsisatlarından biridir, məhz bu zaman belə bir nəticəyə gələ bilərik ki, onun qəbul edilməsi milli dəyərlərə və maraqlara müvafiq surətdə həyata keçirilən demokratik transformasiyanı sürətləndirən və möhkəmləndirən fundamental faktor oldu.

Siyasətşünaslıq elmində konstitusiyalar formalarına görə kodifikasiya olunmuş, kodifikasiya olunmamış və qarışıq tiplərə bölünürlər. Kodifikasiya olunmuş konstitusiyalar vahid yazılı akt olub, konstitusional xarakterli bütün məsələləri özündə ehtiva edir və tənzimləyir. Əgər eyni məsələlər bir neçə yazılı akt vasitəsilə tənzimlənirsə, bu cür konstitusiyalar kodifikasiya olunmamış hesab edilir. Qarışıq tipli konstitusiyalar isə yalnız parlament qanunlarını və məhkəmə presedentlərini deyil, eyni zamanda, adətləri və doktrinal şərhləri də ehtiva edir. Müddətinə görə isə konstitusiyalar daimi və müvəqqəti olur. Beləliklə, 12 noyabr 1995-ci il tarixində qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası formasına görə kodifikasiya olunmuş, müddətinə görə isə daimi (eyni zamanda, dəyişikliklərə açıq) xarakterli idi.

Beləliklə, ümumxalq səsverməsi – referendum əsasında ölkə konstitusiyasının qəbul edilməsindən sonra qarşıda duran ictimai-siyasi institutlaşma vəzifəsinin fonunda parlament seçkilərinin keçirilməsi istiqamətində strateji addımlar atıldı. Hələ Konstitusiya qəbul edilməmişdən öncə Milli Məclisin 18 avqust 1995-ci il tarixli qərarı ilə 15 nəfərdən ibarət Mərkəzi Seçki Komissiyası (MSK) yaradılmışdı. Bundan sonra 12 noyabr 1995-ci il tarixində Milli Məclisə seçkilər keçirildi. Seçkilər qarışıq seçki sistemi əsasında baş tutdu. Belə ki, 25 nəfər proporsional, 100 nəfər isə majoritar seçki sistemi əsasında parlamentdə təmsilçilik hüququ qazandı. Proporsional seçki sistemi əsasında deputat mandatı uğrunda 8 siyasi partiyadan 200 namizəd mübarizə aparsa da, Milli Məclisdə 3

partiyanın nümayəndələri təmsilçilik hüququ qazandı. Proporsional seçki sistemi əsasında hakim Yeni Azərbaycan Partiyasından (YAP) 19, Azərbaycan Xalq Cəbhəsi Partiyasından (AXCP) və Azərbaycan Milli İstiqlal Partiyasından 3 nəfər Milli Məclisdə deputat mandatı qazandılar. Majoritar seçki sistemi əsasında isə birmandatlı 100 seçki dairəsi üzrə 1094 şəxs millət vəkili mandatı uğrunda mübarizəyə qatılmaq istəsə də, "Milli Məclisə seçkilər haqqında" qanuna (12 avqust 1995) əsasən, bu say azaldılaraq 383-ə endirildi. Beləliklə, Milli Məclisin tərkibi 3 mərhələdə baş tutan qarışıq seçki sistemi əsasında formalaşdı.

Aktiv seçki hüququna (seçmək hüququ) malik olan vətəndaşların siyasi iştirakçılığı baxımından parlament seçkilərində mütləq və ya nisbi absenteizm qeydə alınmadı. Demokratikləşmə mərhələsi və strategiyasının fundamental struktur elementi olan parlament seçkilərində vətəndaşlar özlərini hüquq və azadlıqlarından mütləq mənada yararlandılar və ümumi iştirakçılıq səviyyəsi müsbət rəy aldı. Belə ki, seçkilərdə aktiv seçki hüququna malik olan şəxslərin 86,05 faizi iştirak etdi. Bu da növbəti dəfə onu göstərdi ki, müstəqilliyin ilk iki ilində vətəndaşlar arasında siyasi proseslərə münasibətdə yaranmış apatiya və siyasi submədəniyyət normalarına yönəlik mövqe həyata keçirilən demokratik transformasiyanın fonunda sıradan çıxmaqdadır. Müstəqilliyin ilk iki ilində vətəndaşların mövqeyi və dünyagörüşündə absenteizmi şərtləndirən təməl səbəblərə bunları aid edə bilərik: hakimiyyətdə olan subyektlərin korporativ maraqlar üzərindən hərəkət etmələri və özlərinin fəaliyyət mexanizmlərini məhdud dairələrin antimilli mənafeləri üzərində qurmaları, siyasi institutların öz funksiyalarını normal qaydada yerinə yetirə bilməmələri, siyasi mədəniyyətin təşəkkül tapmaması və bunun fonunda siyasi şüurun səviyyəsində durğunluğun müşahidə edilməsi, siyasi subyektlər arasında hökm sürən antaqonist münasibətlərin daha da kəskinləşməsi və siyasi palitrada plüralist fəaliyyət mexanizminə süni maneələrin olması, siyasi sistemin qapalı səciyyə daşıması və sair. Amma 1993-cü ildən sonra Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə hə-

yata keçirilən demokratikləşmə strategiyasının fonunda vətəndaş cəmiyyətinin və hüquqi dövlətin mütləq komponentlərinin bərqərar olunması yönündə görülən tədbirlər siyasi apatiya və absenteizmin aradan qaldırılmasını şərtləndirdi.

Məhz bütün bunların fonunda parlament seçkilərinin demokratik surətdə keçirilməsi bir neçə istiqamətdə xüsusi önəm kəsb etdi. İlk növbədə, bu, parlament təsisatının funksionallığının təmin edilməsinin fonunda demokratikləşmə strategiyasının sürətlə və ardıcıllıqla həyata keçirilməsinə xüsusi strateji zəmin yaratdı. Çünki öz funksiyalarını normal surətdə həyata keçirən parlament təsisatının formalaşdırılması siyasi plüralizmin, siyasi inteqrasiya və rəqabətin təmin olunmasını şərtləndirməklə yanaşı, siyasi institutların fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılması baxımından da xüsusi əhəmiyyət kəsb etdi. Fikrimizi əsaslandırmaq üçün, sadəcə, parlamentin yerinə yetirdiyi funksiyalara nəzər yetirmək kifayət edir. Belə ki, demokratik cəmiyyətlərdə fəaliyyət göstərən parlamentlər, ilk növbədə, qanunvericilik funksiyasını yerinə yetirirlər. Məhz bu funksiyanın fonunda müxtəlif sahələrə və məsələlərə aid qanun layihələri hazırlanır və onlar spesifik prosedurlar əsasında qəbul edilir. Milli maraqlara və dəyərlərə müvafiq surətdə tərtib və təsdiq edilmiş qanunlar müxtəlif sahələrdə ictimai, siyasi institutların fəaliyyət mexanizmi  üçün qanunvericilk bazası yaradır ki, bu da hüquqi dövlətdə başlıca istinad substratı hesab edilir. Bu amilin özü hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunması baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Digər funksiyalara hökumətin fəaliyyətinə hüquqi norma və prosedurlar əsasında nəzarət etmək, icra hakimiyyəti orqanlarının formalaşdırılması istiqamətində müəyyən səlahiyyətlər çərçivəsində müvafiq qərarlar qəbul etmək, dövlət vəzifələrinə müəyyən təyinatların həyata keçirilməsi (bir sıra parlamentli respublikalarda baş nazirin seçilməsi və ya təyin edilməsi), ölkə başçısına qarşı impicmentin tətbiq edilməsi, büdcəyə nəzarət edilməsi və s. daxildir. Bütün bunlara nəzər yetirdikdə belə bir nəticəyə gəlmək olur ki, 12 noyabr 1995-ci il tarixində de-

mokratik səviyyədə keçirilmiş parlament seçkiləri ölkəmizdə ictimai-siyasi institutların fəaliyyət mexanizminin effektivliyinin yüksəldilməsi, strukturlararası koordinasiyanın təmin edilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi və bütün bunların fonunda demokratik transformasiyanın sürətləndirilməsi baxımından əhəmiyyətli tarixi hadisə oldu.

Bunlarla yanaşı, parlament seçkilərində qarışıq seçki sisteminin tətbiq edilməsi yeni müstəqillik əldə etmiş və demokratik transformasiya strategiyası həyata keçirən bir ölkə üçün məqbul variant idi. Bildiyimiz kimi, qarışıq seçki sistemi özündə majoritar və proporsional seçki sistemlərinin ünsürlərini ehtiva edir. Majoritar seçki sistemində hər seçki dairəsindən bir nəfər deputat seçilir və seçkilər birmandatlı dairələr üzrə təşkil edilir. Bu sistemdə "daha çox səs toplayan qalibdir" prinsipi tətbiq edilir. Səs çoxluğu iki növdə təsnif və təsbit edilir. Birincisi "mütləq çoxluq" növüdür ki, burada seçicilərin səsinin 50+1 faizini toplamış şəxs qalib gəlir. Əgər heç kəs seçici səslərinin 50+1 faizini toplaya bilmirsə, məhz bu zaman iki daha çox səs toplamış namizəd ikinci turda rəqabəti davam etdirir. İkinci turda daha çox səs toplayan şəxs qalib hesab edilir. İkincisi isə "nisbi çoxluq" növüdür ki, burada ən çox səs toplayan namizəd qalib şəxs sayılır.

Proporsional seçki sistemində isə hər seçki dairəsindən bir deyil, bir neçə şəxs deputat seçilir ki, onlar da müxtəlif siyasi partiyaları təmsil edirlər. Siyasi partiyalar parlamentdə seçkilərin fonunda ümumi səslərin nisbətində qazandıqları faizə görə təmsilçilik hüququ əldə edirlər. Bu seçki sistemində daha güclü partiyaların parlamentdə təmsil olunması məqsədilə seçki bariyeri tətbiq edilir. Müxtəlif ölkələrin təcrübi nümunəsində seçki bariyerləri 1-18 faiz həddində olur.

Beləliklə, qarışıq seçki sisteminin mahiyyəti və substratlarına nəzər yetirməklə bir daha belə bir qənaətə gəlmək mümkün oldu ki, dövrün reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə qarışıq seçki sisteminin tətbiq edilməsi ən məqbul variant idi və seçkilərin nəticələri bir daha bunu sübut etdi. Sonrakı

mərhələdə cəmiyyətin və hüquqi sistemin dinamik inkişafı, siyasi mədəniyyətin və dünyagörüşün yüksəlməsi seçki sistemində rasional dəyişikliklərin baş verməsi zərurətini yaratdı. Sonrakı illərdə Seçki Məcəlləsinə əlavə və dəyişikliklər edilməklə qarışıq seçki sistemindən imtina edildi. Bunun əvəzində birbaşa demokratiyanın tələblərinə daha dəqiq cavab verən majoritar seçki sistemi tətbiq edilməyə başlandı ki, bu da özlüyündə siyasi sistemin təkmilləşməsinə yeni töhfələr vermiş oldu.

Beləliklə, yeni konstitusiyanın qəbul edilməsi və parlament seçkilərinin keçirilməsi həyata keçirilən demokratik transformasiyanın fonunda ölkədə siyasi plüralizmin, siyasi inteqrasiyanın təmin və bərqərar olunması, genişmiqyaslı islahatların reallaşdırılması və digər bu kimi strateji vəzifələrin nail olunmasına əlverişli zəmin və şərait yaratdı. Belə ki, qəbul edilmiş yeni konstitusiyanın fonunda hakimiyyət bölgüsü təmin edildi, siyasi partiyalar başda olmaqla subyektlərin fəaliyyətinə hüquqi zəmində əlverişli şərait yarandı və təsisatlar arasında rəqabətə əsaslanan simmetrik və rasional münasibətlər sistemi formalaşdı. Bütün bunların fonunda isə həyata keçirilən islahatların davamlılığını təmin etmək mümkün oldu. Belə ki, həyata keçirilən islahatların fonunda ölkədə sosial tərəqqini, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsini təmin etməyə qadir olan səmərəli idarəçilik sisteminin formalaşdırılması istiqamətində xüsusi strateji uğurlar əldə edildi. Qısa zaman kəsiyində dövlət tənzimləməsinin metodlarında ciddi, kardinal reformativ dəyişikliklər edildi, plüralizm şəraitində rəqabət mühiti təmin edildi, icra hakimiyyəti orqanları və bütövlükdə dövlət sektorunun işinin səmərəliliyi artırıldı, dövlət idarəçiliyinin qanunvericilik və normativ-hüquqi bazası inkişaf etdirildi, dövlət hakimiyyəti orqanları üzərində nəzarət, onların işinin dəyərləndirilməsi metodları sistemi təkmilləşdirildi.

Bütün bunların fonunda siyasi sistemin struktur formalaşmasına nail olundu və onun struktur elementlərinin təkmilləşdirilməsi istiqamətində çox əhəmiyyətli nailiyyətlər əldə edildi. Məhz bu, siyasi sistemin komponentlərinin mütəmadi inkişafının davamlı-

lığının təmin edilməsi vəzifəsinə xüsusi töhfə oldu.

## 3.3. Siyasi partiyalar plüralist siyasi sistemin başlıca ünsürləri kimi: Yeni Azərbaycan Partiyası

Müstəqillik əldə etdikdən sonra xaotik və antaqonist siyasi proseslərin fonunda ölkəmizin qarşısında duran başlıca strateji vəzifələrdən biri də ictimai-siyasi institutlaşma prosesinin həyata keçirilməsi idi. Bunun başlıca istiqamətlərindən biri də plüralist prinsiplər əsasında müxtəlif oriyentasiyalara malik olan siyasi partiyaların təsis edilməsi və onların fəaliyyət mexanizmlərinin milli maraqlar və dəyərlər əsasında təşkil edilməsi idi. Amma 1991-1993-cü illərdə hakimiyyətdə olan qüvvələrin bu məsələyə və vəzifəyə lazımi diqqət göstərməməsi, onların totalitar təfəkkürlə çıxış edərək çoxpartiyalılığı qəbul edə bilməmələri və siyasi palitrada təmsil olunan bir çox subyektlərin partiyalaşma strategiyasına rasional surətdə yanaşa bilməmələri ictimai-siyasi institutlaşma prosesinin kompleks və sistematik surətdə baş tutmasını mümkün etmədi.

Amma bütün bunlara baxmayaraq, siyasi palitrada rasional təfəkkürə, praqmatik fəaliyyət mexanizminə və zəngin idarəetmə potensialına malik olan lider siyasətçinin olması siyasi partiyalar nöqteyi-nəzərindən ictimai-siyasi institutlaşma vəzifəsinin yerinə yetirilməsi işinə mühüm töhfələr verdi. Yaranmış mürəkkəb situasiyanın fonunda 1992-ci ilin oktyabr ayının 16-da 91 nəfər ziyalı Heydər Əliyevə müraciət etdi: "**Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir**".

Ümummilli lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 ok-

tyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi: "**Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər**".

Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. YAP-ın yaranması, Ümummilli lider Heydər Əliyevin bu partiyaya Sədr seçilməsi respublikanın o zamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət oldu. O zamankı hakimiyyət dairələrinin Yeni Azərbaycan Partiyasının yaranmasına göstərdikləri maneələr, ardıcıl təzyiqlər bu yola qədəm qoyan insanları özlərinin ali məqsədlərindən döndərə bilmədi. Çünki bütün uzaqgörən insanlar Heydər Əliyevin rəhbəri olduğu bu qurumun xilaskar bir missiya üçün yarandığını anlayır və Yeni Azərbaycan Partiyasına dəstəklərini əsirgəmirdilər. Həmin tarixi hadisələri dəyərləndirən Heydər Əliyev deyirdi: "**Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə böyük təqiblər şəraitində yaranmış bir partiyadır**".

Xalqın Ümummilli lider Heydər Əliyevə olan inamı isə tez bir zamanda siyasi səhnədə parlayan Yeni Azərbaycan Partiyasının tarixi məsuliyyəti öz üzərinə götürməsinə imkan verdi. Ümummilli liderimizin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi misilsiz etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və

1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Yeni Azərbaycan Partiyası dünyada analoqu olmayan bir siyasi təşkilat kimi yarandığı müddətdən 6 ay sonra siyasi hakimiyyətə gəldi.

1999-cu il dekabrın 20-də YAP-ın birinci qurultayında çıxış edən Ulu öndər Heydər Əliyev Azərbaycan dövlətinin, hökumətinin 1993-1999-cu illərdə gördüyü işlərin, əldə etdiyi nailiyyətlərin hakim partiyanın fəaliyyəti ilə vəhdət təşkil etdiyini bildirmişdi. Ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, bu dövr ərzində Yeni Azərbaycan Partiyası daim inkişaf edib: "**Yeni Azərbaycan Partiyası addım-addım irəliləyib, inkişaf edib, genişlənib və böyük bir partiyaya çevrilibdir. Ona görə də, bugünkü qurultay partiyanın nə qədər güclü, nə qədər əzəmətli və nə qədər dərin fikirlərə malik olduğunu sübut edir və Azərbaycanın bütün vətəndaşlarına, dünya ictimaiyyətinə nümayiş etdirir. Qurultay Yeni Azərbaycan Partiyası üzvlərinin yüksək əqidəyə malik, partiyaya sədaqətli olduqlarını nümayiş etdirir. Qurultay Yeni Azərbaycan Partiyası üzvlərinin yüksək intellektual səviyyəsini əks etdirir. Düşünürəm ki, ötən illərdə partiyanın inkişafı bir çox sahələri əhatə etmişdisə də, ən böyük sahə partiya üzvlərinin yetkinləşməsi, mətinləşməsi, cəsurlaşması və intellektual səviyyəsinin yüksəlməsi olmuşdur. Qurultay artıq göstərir ki, Yeni Azərbaycan Partiyası yarandığı dövrdən indiyə qədər Azərbaycanın ictimai-siyasi həyatında özünün dəyərli yerini tutubdur və bu yeri heç kəsə verməyəcəkdir və get-gedə öz yerini möhkəmlədəcəkdir**".

Ulu öndər Heydər Əliyevin verdiyi bu qiymət, eyni zamanda, partiya üzvlərinin gələcək fəaliyyət proqramı da sayıla bilərdi. Bu konsepsiya Yeni Azərbaycan Partiyasının üzvlərinin daimi inkişafını, təkmilləşməsini özündə ehtiva edirdi. Bu baxımdan Ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasını 3-cü minilliyin partiyası adlandırırdı: "**Yeni Azərbaycan Partiyası Azərbaycanın həyatında ən güclü, ən böyük intellektual səviyyəyə malik, ən böyük hörmətə malik olan siyasi partiyadır. Yeni Azərbaycan Partiyası Azərbaycanın bu gününün partiyasıdır,**

**Azərbaycanın sabahının partiyasıdır, XXI əsrin partiyasıdır, üçüncü minilliyin partiyasıdır. Yeni Azərbaycan Partiyası qurultayının bu qədər məzmunlu, mənalı, mütəşəkkil və nikbin əhval-ruhiyyədə keçməsi partiyanın cəmiyyətimizdə hörmətini daha da yüksəklərə qaldırır və qaldıracaqdır, Yeni Azərbaycan Partiyasının ətrafında Azərbaycanın daha da çox vətəndaşları toplaşacaqdır**".

1999-cu il qurultayı partiyanın inkişaf tarixində həm də digər keyfiyyətlərinə görə mühüm bir məqam kimi xarakterizə olunmalıdır. O baxımdan ki, artıq fəaliyyət göstərdiyi 7 il ərzində Yeni Azərbaycan Partiyası öz sıralarını kəmiyyət və keyfiyyət etibarilə daha da artıra bilmişdi. YAP-a fərqli mənafelər, maraqlar və məqsədlər baxımından üz tutan bir sıra subyektlər partiyadan kənarlaşdırılmışdı. Bu da Yeni Azərbaycan Partiyasına öz fəaliyyətinin ikinci mərhələsində yeni keyfiyyət çalarları bəxş edirdi. Ulu öndər Heydər Əliyev bu məsələlərə toxunaraq demişdi: **"Ən təhlükəlisi odur ki, Yeni Azərbaycan Partiyasına əqidəsi olmayan adamlar qatılmasın. Ötən dövr bu barədə bir çox nümunələr verdi. Ancaq bunu da dramatikləşdirmək lazım deyildir. Bu, təbii prosesdir. Cəmiyyətdə konyunktur məqsədlər güdən insanlar həmişə olubdur. Hər bir partiyada, hər bir yerdə olubdur – bundan xilas olmaq mümkün deyildir. Buna görə də, kim Yeni Azərbaycan Partiyasına hansısa şəxsi məqsəd, təmənna, hansısa konyunktur məqsədlər üçün gəlmişdisə, onlar partiyadan kənarlaşdılar. Əgər bu gün belələri varsa, mən güman edirəm, dərk etməlidirlər ki, onların yolu partiyanın yolu ilə düz gəlmir. Partiyada əqidə adamları olmalıdır. Partiyaya xidmət etmək vətənə xidmət etmək, millətə xidmət etmək, müstəqil Azərbaycan dövlətinə xidmət etmək deməkdir. Ona görə də, partiyamız məhz bu cür əqidəli insanlarla böyüməli, inkişaf etməli və genişlənməlidir".**

Qeyd olunduğu kimi, 1999-cu il Yeni Azərbaycan Partiyasının inkişafında mühüm bir səhifə açdı. Ulu öndər Heydər Əliyev YAP üzvlərinin yeni mərhələdə əsas vəzifələrini və istiqamətlərini mü-

əyyənləşdirdi. Ən mühüm amil isə partiyada Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılan gəncləşdirmə siyasəti oldu. Partiyanın rəhbərliyində Azərbaycan gənclərinin lideri olaraq İlham Əliyevin təmsilçiliyi bu mənada xüsusilə qeyd olunmalıdır. Məhz 1999-cu ildə keçirilən qurultayda o zaman ARDNŞ-in birinci vitse-prezidenti və Milli Olimpiya Komitəsinin prezidenti olan İlham Əliyev partiyanın rəhbər strukturuna seçildi. Əgər nəzərə alsaq ki, cənab İlham Əliyev həmin dövrdə həm də Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri idi, onda qeyd edə bilərik ki, bu, partiyanın yeni mərhələdə qazanacağı uğurların başlanğıc nöqtəsi də sayıla bilərdi. Ulu öndər Heydər Əliyevin siyasi varisi olaraq İlham Əliyev Yeni Azərbaycan Partiyasının gələcək fəaliyyətinin daha geniş beynəlxalq müstəvilərə daşımaq məqsədini uğurla həyata keçirdi.

1999-cu ildən sonra Yeni Azərbaycan Partiyası dünyanın bir sıra ölkələrinin siyasi təşkilatları ilə ikitərəfli əlaqələr qurdu, beynəlxalq təşkilatlarda təmsilçilik hüququ qazandı. Buna isə yeni dövrün yeni lideri olan Prezident İlham Əliyevin xüsusi xidmətləri sayəsində nail olundu. Bu amil həm də Yeni Azərbaycan Partiyasına gənclərin marağına və axınına səbəb olmuşdu. Məhz gənc kadrlara verilən yüksək qiymət, yeni mərhələdə gənclərə etimad məsələsi Yeni Azərbaycan Partiyasının üzvlərinin arasında gənclərin sırasını daha da genişləndirdi. Bu isə yenicə müstəqillik əldə etmiş, gənc Azərbaycan Respublikasının gələcək inkişafında mühüm bir addım sayıla bilərdi.

Əgər YAP-ın 2001-ci ildə keçirilmiş 2-ci qurultayı zamanı partiya üzvlərinin sayı 230 min nəfər idisə, 3-cü qurultaya qədər bu göstərici 360 min nəfərə yüksəlmişdi. Özündə yüksək intellektual potensialı birləşdirən YAP-ın sıralarında artıq gənclər də böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti də gənclərdən ibarətdir.

3-cü qurultaydakı çıxışı zamanı cənab İlham Əliyev gənclərin YAP sıralarına qoşulmasını xüsusi olaraq vurğulamışdı: "**Gənclər-**

**lə bizim əlaqələrimiz həmişə yüksək səviyyədə olubdur, mən özüm şəxsən daim gənclərlə ünsiyyətdə olmuşam, indi də əlaqə saxlayıram. Çox şadam ki, ikinci qurultaydan sonra partiyamıza müşahidə olunan güclü axının böyük əksəriyyəti gənclərin hesabına baş veribdir. Bu da təbiidir. Çünki Azərbaycan gəncləri ölkəmizdə gedən prosesləri çox gözəl bilirlər və ümumiyyətlə, dünyada gedən prosesləri çox gözəl bilirlər. Dünyada gedən proseslərin hansı istiqamətdə inkişaf etməsi haqqında onların çox yaxşı təsəvvürü vardır. Görürlər ki, bugünkü iqtidar, Azərbaycanın rəhbərliyi öz siyasətini dünyada gedən proseslərlə paralel şəkildə aparır. Çünki bu, bizim milli maraqlarımıza uyğundur. Bizim milli maraqlarımıza uyğundur ki, Azərbaycanda demokratik, sivilizasiyalı, müasir dövlət yaransın**".

2003-cü il prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevin uğurlu qələbəsi Heydər Əliyev ideyalarına xalqın böyük etimadını, Heydər Əliyev yoluna yüksək inamını nümayiş etdirdi. Növbəti prezident seçkiləri isə 2008-ci il oktyabrın 15-də keçirildi. Həmin il avqustun 2-də 4-cü qurultayını keçirən Yeni Azərbaycan Partiyası 450 minlik üzvləri adından yekdilliklə bu seçkilərdə cənab İlham Əliyevin namizədliyini irəli sürdü və YAP Sədri cənab İlham Əliyev möhtəşəm qələbə qazandı. Bu fakt Azərbaycanda Heydər Əliyev siyasətinin alternativsiz olduğunu bir daha təsdiq etdi.

Bütün bunlarla yanaşı, ötən dövr ərzində Yeni Azərbaycan Partiyası sosial sifarişə əsaslanaraq bir sıra ciddi təşəbbüslərlə də çıxış edib. Belə ki, 2008-ci ilin dekabr ayında YAP Azərbaycan Konstitusiyasında dəyişikliklər təşəbbüsü ilə çıxış edərək bununla bağlı ümumxalq səsverməsinin-referendumun keçirilməsini təklif etdi. Konstitusiya Məhkəməsi bu təkliflərə müsbət rəy verdikdən sonra Milli Məclis 2009-cu il martın 18-də Konstitusiya dəyişikliklərinin edilməsi ilə bağlı ölkədə referendum keçirilməsi haqqında qərar qəbul etdi. Referendumun nəticələri isə xalqın YAP-a olan inamını bir daha təsdiqlədi. Nəticələrə müvafiq olaraq, ölkədə qanunve-

ricilik bazası daha da zənginləşdirildi, insan və vətəndaş hüquq və azadlıqlarının mühafizəsi üçün təməl hüquqi prosedurlar təsbit edildi, ictimai-siyasi institutların fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılmasına yönəlik yaradılan əlverişli mühit hüquqi əsasda daha da təkmilləşdirildi və sair.

YAP bütün bu uğurları və qələbələri 2004-cü və 2009-cu illərdə keçirilmiş bələdiyyə seçkilərində də təkrarladı. Əlbəttə, Yeni Azərbaycan Partiyasının uğurları bunlarla bitmədi. YAP-ın əzəmətli qələbələri parlament seçkilərində də özünü göstərməkdədir. 2005-ci ildə 3-cü çağırış Milli Məclisə seçkilərdə 64 deputat mandatı qazanmaqla YAP öz rəqiblərini xeyli geridə qoydu. 2010-cu il noyabrın 7-də Azərbaycanda 4-cü çağırış Milli Məclisə seçkilər keçirildi. Mütəşəkkil qaydada iştirak edən, güclü seçki kampaniyası aparan YAP bu seçkilərdə də əhəmiyyətli qələbə qazandı. Mərkəzi Seçki Komissiyasının açıqladığı nəticələrə görə, YAP parlamentdə 71 deputat mandatı qazandı.

**Əminliklə qeyd etmək olar ki, Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyev cari ildə keçiriləcək prezident seçkilərində də növbəti möhtəşəm qələbə əldə edəcək. 7 iyun tarixində keçirilən Yeni Azərbaycan Partiyasının V Qurultayı YAP-ın avanqard siyasi qüvvə olduğunu, Heydər Əliyev ideyalarının və Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin cəmiyyət tərəfindən inam və rəğbətlə qarşılandığını bir daha sübut etdi.**

Bütün bunların fonunda qeyd etməliyik ki, Prezident İlham Əliyevin vurğuladığı kimi, Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanda, bütövlükdə Cənubi Qafqaz regionunda ən böyük siyasi qüvvədir.

Beləliklə, yuxarıda sadalanan faktlar və mövcud reallıqlar tərəddüdsüz deməyə əsas verir ki, YAP sahib olduğu resurslara, ictimai-siyasi nüfuzuna, özünün fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinə və siyasi sistemdəki avanqard yerinə görə Azərbaycan siyasi palitrasının ən güclü və nüfuzlu siyasi partiyasıdır. YAP-ın siyasi sistemdəki mövqeyini və fəaliyyətinin əsaslarını statik və di-

namik detallar əsasında analitik tədqiqatların obyektinə çevirdikdə məlum olur ki, sözügedən siyasi institut təmsil etdiyi qrupların ali mənafeyini və dövlətçilik maraqlarını özünün Məramnamə və Nizamnaməsində əks etdirən, həmçinin, bunları praktik müstəvidə yüksək səviyyədə reallaşdıran ümumxalq partiyasıdır. "Ümumxalq partiyası" ifadəsini YAP-ın timsalında təsadüfən işlətmədik. Çünki konkret faktlar deməyə əsas verir ki, **Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə siyasi sistemin dinamikliyinə və onun elementlərinin təkmilləşməsinə xüsusi təkan verən elit institutdur**. Söylədiyimiz tezisi daha da aydınlaşdırmaq üçün YAP-ın fəaliyyət substratlarının əsasında aşağıdakı siyasi ümumiləşdirmələri aparmaq lazımdır:

*– Yeni Azərbaycan Partiyası Azərbaycan siyasi palitrasında ən güclü və fundamental resurslara malik sosial-siyasi təsisatdır: Partiyanın fundamental resursları sırasına onun öz ətrafında cəmiyyətin ən nüfuzlu ictimai-siyasi fiqurlarını birləşdirməsi, üzvlərinin sayının 520 mindən çox olması, güclü siyasi idarəçilik təcrübəsinə malik olması kimi kəmiyyət və keyfiyyət göstəriciləri daxildir;*

*– Yeni Azərbaycan Partiyası siyasi sistemdəki yerinə və fəaliyyət mexanizminə görə rəqabət partiyası (başqa sözlə, səfərbəredici partiya) kimi səciyyələndirilir. Belə ki, YAP öz fəaliyyəti ilə rəqiblərini aktiv siyasi mübarizəyə və rəqabətə cəlb edən, sosial konsensusu və siyasi sistemin rəqabətlilik qabiliyyətini təmin edən təsisatdır. Qısacası, Yeni Azərbaycan Partiyası siyasi plüralizmin yüksək səviyyədə təmin olunmasına və sistemin komponentlərinin tərəqqisinə xüsusi təkan və töhfələr verməkdədir;*

*– Yeni Azərbaycan Partiyası ideoloji xarakteristikasına görə islahatçı, praqmatik və mütərəqqi siyasi institutdur. Partiyanın fundamental ideoloji prinsipləri azərbaycançılıq, güclü və müstəqil dövlətçilik, yüksək rifah, varislik, yaradıcı təkamül, konstruktiv əməkdaşlıq, milli həmrəylik, sosial ədalət, sağlam rəqabətə əsaslanan siyasi mübarizə kimi təməl dəyərləri özündə ehtiva edir. Bu da nəticə etibarilə sözügedən siyasi institutun siyasi palitrada mövqeyini möhkəmləndirməyə və fəaliyyət sahəsini daha da genişləndir-*

*məyə imkan verir;*

*– Yeni Azərbaycan Partiyası daxili təşkilati strukturuna görə antreprener (açıq) sistemə malikdir. Belə ki, təşkilati strukturuna görə YAP mərkəzləşdirilmiş partiya intizamının yüksək səviyyədə təmin olunduğu, cəmiyyətin bütün qruplarının, əhalinin ən müxtəlif təbəqələrinin maraqlarının ifadə olunduğu siyasi təsnifatdır. Digər tərəfdən, sözügedən kriteriyaya görə, partiya müxtəlif sahələrə yararlı, yüksək səviyyəli kadr potensialı hazırlayan daxili fəaliyyət mexanizminə malikdir. Dolayısıyla, bütün bu xüsusiyyətlərin fonunda Yeni Azərbaycan Partiyası nəzəri-konseptual, proqram-siyasi və aktual-praktik səviyyədə üzvlərinin – təmsil etdiyi qrupların ali maraqlarını yüksək səviyyədə ifadə və təmin etməkdədir;*

*– Yeni Azərbaycan Partiyası siyasi sistemdəki mövqeyinə müvafiq olaraq leqal və demokratik ictimai-siyasi təsisatdır. Belə ki, partiyanın qatıldığı ümummilli və lokal səciyyəli bütün seçkilərdə rəqibləri ilə sağlam mübarizə aparması faktı sübut edir ki, sözügedən siyasi təsisat legitim fəaliyyət mexanizminə və substratlarına malikdir.*

Beləliklə, yuxarıda sadalanan fundamental faktlar və reallıqlar YAP-ın ictimai-siyasi mövqeyini və nüfuzunu gücləndirməkdədir. Partiyanın potensialını, gücünü və nüfuzunu əsaslandırmaq üçün sadəcə, iki faktı diqqətə çatdırmaq kifayət edir:

Birincisi, YAP öz ətrafında 520 mindən çox üzvü birləşdirməkdədir. Eyni zamanda, hakim partiya öz sıralarında cəmiyyətin təhsil, səhiyyə, sosial sahələrində təmsil olunan ən nüfuzlu nümayəndələrini birləşdirib;

İkincisi, Yeni Azərbaycan Partiyası qatıldığı bütün seçkilərdə xalqın dəstəyilə qalib gəlib. Bu isə ona dəlalət edir ki, partiya ölkənin bütün bölgələrində yüksək sosial-siyasi reytinqə və dəstəyə malikdir.

Sadalananları və deyilənləri ümumiləşdirsək, yekun olaraq qeyd edə bilərik ki, xalqın yüksək inamı, etimadı və dəstəyi ilə 17 ildir ki, hakimiyyətdə olan Yeni Azərbaycan Partiyası daşıdığı dəyərlərə və səmərəli fəaliyyət mexanizminə görə vətəndaşların siya-

si iştirakçılıq və sosiallaşma səviyyəsini artıran, siyasi subyektlərarası inteqrasiya prosesinə xüsusi təkan və töhfə verən, müsbət və sağlam ictimai rəyin formalaşmasında mühüm rol oynayan aparıcı, avanqard sosial-siyasi təsisatdır.

## 3.4. Azərbaycançılıq ideologiyası: milli həmrəylik və bütövlüyü təmin edən universal ideoloji formula, yaxud neokonservatizmin milli modeli kimi

Müstəqillikdən sonra yeni cəmiyyət və qeyri-formal milli dövlət quruculuğu prosesinin fonunda ölkəmizin qarşısında duran növbəti vəzifə milli həmrəylik və bütövlüyü təmin edəcək fundamental mənəvi faktor olan milli ideologiyanın müəyyən edilməsi və ondan milli siyasətin tərkib hissəsi kimi səmərəli istifadə mexanizminin həyata keçirilməsi idi. Amma müstəqilliyin ilk illərində (1991-1993) hakimiyyətdə olan "marionetka"ların irrasional səciyyəli antimilli mövqe sərgiləmələri və korporativ maraqlardan çıxış etmələri bütün sahələrdə olduğu kimi, milli ideoloji siyasət sahəsində də güclü "mərkəzdənqaçma" meyillərinin müşahidə olunmasına və nəticə etibarilə bu sferada ciddi boşluqların yaranmasına səbəb oldu. Məhz belə bir mürəkkəb situasiyanın fonunda siyasi palitrada təmsil olunan qüvvələr özlərinin qrup mənafeləri naminə müxtəlif ideoloji cərəyanlara (milliyyətçilik, türkçülük, liberal, neoliberal cərəyanlar və sair) istinad etməyə çalışırdılar və pərakəndə səciyyə daşıyan, milli xüsusiyyətlərimizə heç bir halda cavab verməyən bu cür ideologiya nümunələrini cəmiyyətə zorla da olsa, təqdim etməyə cəhd edirdilər. Amma milli mentalitetə və xarakterə, ictimai-siyasi dünyagörüşünə və şüura yad olan bu ideologiya növləri cəmiyyət tərəfindən fərdi və ümumi mənada qəbul edilmir, müxtəlif səviyyə və formalarda müqavimətlərə rast gəlirdi. Belə olduqda isə konstruktivlik və milli həmrəylik naminə mövqelərin yaxınlaşdırılması əvəzinə, maksimalistlik meyilləri artır, bir-birini inkar formulu aksiomaya çevrilirdi. Həmin ərəfədə siyasi palitra təmsilçiləri öz maraq dairələri və dünyagörüşlərinə gö-

rə əks qütblərdə qərar tutduqlarından nə ümummilli ideologiyanın yaradılmasından, nə də məqbul bir cəmiyyət strukturunun formalaşdırılmasından bəhs etmək olardı. Belə bir şəraitdə bütün bu olaylar cəmiyyəti mənəvi-ideoloji iflasa sürükləyir, idarəetmə və onun strukturlarının yenidən formalaşdırılmasını mürəkkəbləşdirirdi.

Milli həmrəylik və bütövlük yarada biləcək ideologiya isə yalnız 1993-cü ildəki siyasi dönümdən sonra müəyyənləşdirildi. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası özündə ümumbəşəri səciyyə daşıyan və milli dəyərlərə cavab verən prinsipləri ehtiva etməklə milli həmrəyliyi təmin edən milli-mənəvi mexanizm oldu. Azərbaycançılıq təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edərək dünya azərbaycanlılarının milli istinad mənbəyinə çevrildi. Bundan sonra görülən davamlı tədbirlər sayəsində xalqın, milli dövlətimizin məfkurəsinə çevrilən azərbaycançılıq ideologiyası mənəvi-ideoloji müstəvidə milli inkişafın praktik modelinə çevrildi.

Beləliklə, azərbaycançılıq real tarixi keçmişimizlə, milli mentalitetimizlə və mövcud dəyərlərlə sıx bağlı olduğundan qısa zaman kəsiyində cəmiyyət tərəfindən qəbul olundu. Digər tərəfdən, bu ideologiya siyasi mənsubiyyətindən və dini əqidəsindən asılı olmayaraq bütün etnik qrupların, milli azlıqların hüquqlarını paritet əsasda təsbit etdiyindən milli həmrəylik mənbəyinə çevrildi. Başqa sözlə, ictimai şüurun spesifik səviyyəsi kimi müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilən və dünya azərbaycanlılarını birləşdirən milli məfkurəyə çevrilən azərbaycançılıq ideologiyası ölkədəki bütün konfessiya və etnosların həmrəylik və qarşılıqlı anlaşma mühitində yaşamasını təmin edən mənəvi mexanizm səciyyəsi daşıdı.

Azərbaycançılıq ideologiyasına mənəvi sərvət kimi yanaşan Ümummilli lider Heydər Əliyev deyirdi: “**Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mə-**

**nəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq... azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq daim öz milli, mənəvi dəyərlərinə, milli köklərinə sadiq olmalıdırlar. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövləti müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan bütün azərbaycanlılar üçün əsas ideya olub. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir**".

Universal ideoloji formula olan azərbaycançılıq ideologiyasının önəmi və funksionallıq nöqteyi-nəzərindən səmərəlilik səviyyəsini daha da aydınlaşdırmaq üçün onunla analoji dəyərlərə və prinsiplərə malik olan ideoloji cərəyanlara nəzər yetirmək məqsədəmüvafiqdir. Elmi ədəbiyyatda ideologiya sosial qrupların və ya bütün cəmiyyətin mənafelərini müdafiə və ifadə edən, sosial reallığı bu mənafelər prizmasından izah edən və əməli fəaliyyət direktivləri, oriyentasiyaları olan nəzəriyyələr, ideyalar və məlumatlar sistemi kimi müəyyənləşdirilir. Milli ideologiya öz funksiyalarına görə milli həmrəylik və bütövlüyü təmin edən, mənəvi müstəvidə ahəngdarlığın davamlılığına xidmət edən ümummilli baxışlar sistemi səciyyəsi daşıyır. Bunu isbat etmək üçün ideologiyaların nəzəri-empirik surətdə təsbit edilmiş funksiyalarına nəzər yetirmək kifayətdir. Siyasi ideologiyaların ilk funksiyası yönləndirmədir. Bu funksiya müxtəlif sahələrdə, bütövlükdə cəmiyyətdə insan fəaliyyətinin mənəvi əsaslarını və istiqamətlərini müəyyənləşdirir. Yönləndirmə funksiyası müəyyən resurslarla təmin olunmuş subyektlərin fəaliyyət və baxışlar oriyentasiyasını müəyyən edən fundamental mənəvi faktor qismində çıxış edir. Növbəti-səfərbəredici funksiya isə siyasi fəaliyyətin ideoloji motivi və stimulu qismində çıxış edir. Məhz bu funksiyanın fonunda müəyyən edilmiş siyasi-ideoloji məqsədlərin təmin edilməsi naminə resurslar

və subyektlər vahid mərkəzdə cəmləşdirilir və məqsədlərə yönəlik fəaliyyətə səfərbər edilir. İnteqrativ funksiya isə ümumi maraqlar və baxışlar sistemini üstün tutur və fərdlərin fəaliyyətini ümumi maraqlar kontekstində stimullaşdırır. Birləşdirici səciyyə daşıyan bu funksiya müxtəlif qrupları və fərdləri bir mərkəzdə birləşdirə bilir və milli həmrəyliyin təmin olunması işinə birinci dərəcəli töhfələr bəxş edir. Deməli, ideologiya səfərbəredici, maarifləndirici, tərbiyəedici, inteqrativ, kommunikativ səciyyə daşıyır və mənəvi substrat qismində çıxış edir.

Bunlarla yanaşı, fəaliyyətin mənəvi substratı qismində çıxış edən ideologiya gerçəkliyin xüsusi obrazının yaradılması, ictimai şüurun yönləndirilməsi, ümumi ideya və çağırışlar əsasında insanların birləşdirilməsi, siyasi inkişafın istiqamətləri və aparıcı qüvvələrinin müəyyənləşdirilməsi kimi strateji funksiyaları da yerinə yetirir.

Bundan başqa, ideologiyalar bir çox meyarlara görə bir neçə qrupda təsnif edilir:

*– sosial mənafeyə münasibətə görə: mütərəqqi, mühafizəkar, mürtəce, liberal, radikal, millətçi, beynəlmiləl;*

*– sosial bazasına görə: milli, sinfi qrup və irqi;*

*– daxili strukturuna görə: dini, dünyəvi, rasional, irrasional, universal, partikulyar;*

*– Nüfuz dairəsinə görə: milli və ümumbəşəri.*

Başlıca siyasi ideoloji cərəyanlar sırasına isə liberalizm, neoliberalizm, konservatizm (mühafizəkarlıq), neokonservatizm və sosializm daxildir.

Elmi ədəbiyyatda liberalizm (latınca liberalis-azad) dar mənada adət-ənənələrə, vərdişlərə münasibətdə tam müstəqil olan, öz müqəddəratını və fəaliyyətini müstəqil surətdə müəyyənləşdirməklə xarakterizə edilən fəaliyyət və düşüncə tərzi kimi səciyyələndirilir. Ümumilikdə isə liberal səciyyəli doktrina və konsepsiyaların mərkəzində "fərdin azadlığı" ideyası və məfhumu dayanır. Bu ideoloji cərəyanın əsas struktur elementləri və prinsipləri müxtəlif xarakterli nəzəriyyə və konsepsiyalarda əks olunmuşdur. Onların hamısına aid olan ortaq nöqtə isə qanunlarla nizamlanmış və müəy-

yən hüquqi substratlarla təsbit edilmiş müstəqillik və azadlıq ideyalarıdır. Məhz bu mərkəzi ideyanın fonunda bəhs edilən ideoloji cərəyana xas olan digər struktur elementləri – anlayışlar isə tolerantlıq, humanizm, fərdiyyətçilik və digərləridir.

Liberalizm ideologiyasının fonunda meydana gəlmiş siyasi-iqtisadi konsepsiya və doktrinaların təməlində duran dəyərlər isə bunlardır: hakimiyyətin bölünməsi prinsipi, fəaliyyətdə və münasibətlərdə rəqabət azadlığı, şəxsi təşəbbüsə qarşı total məhdudiyyətlərin ləğv edilməsi, xüsusi mülkiyyətə və sərbəst iqtisadi fəaliyyətə lazımi imkan və şəraitin yaradılması, fərdin mülki və siyasi hüquqlarının qorunması, inzibati tənzimləmələrin səviyyəsinin azaldılması və sair.

Amma zaman keçdikcə məlum oldu ki, nəzəri cəhətdən təsbit edilmiş liberal dəyərlər təcrübi müstəvidə özünü doğrultmadı və mütləq surətdə gerçəkləşdirilmədiyindən ideallıq kimi təsvir edilməyə başlandı. Bir sıra araşdırmaçılar isə liberalizm ideologiyasını özündə daşıdığı dəyərlərə görə real olanla ideal arasında aralıq cərəyan kimi dəyərləndirdilər. Məhz belə bir durumun fonunda özündə liberalizmlə mühafizəkarlığın bir sıra prinsiplərini ehtiva edən neoliberalizm (yeni liberalizm) cərəyanı meydana gəldi.

XX əsrin ikinci yarısında meydana gələn neoliberalizmdə liberalizmdən fərqli olaraq milli dövlət anlayışı istinad kateqoriyalarından birinə çevrildi və dövlət tənzimləyici subyekt qismində səciyyələndirildi. "Dövlətin funksiyalarının gücləndirilməsi" prinsipindən çıxış edən neoliberalizmdə təsbit olundu ki, dövlətin liberal dəyərlərə əsaslanan funksiyaları universallaşdırılmalı və onun əhatə dairəsi daha da genişləndirilməlidir. Buradan çıxış edərək neoliberalistlər plüralist demokratiya konsepsiyasını mərkəzi istinad nöqtəsinə çevirdilər və dövlət hakimiyyətinin təşkilində və hakimiyyətin fəaliyyətində plüralist prinsiplərə üstünlük verdilər.

Bütün bunların fonunda liberal proqram və doktrinalarda idarəolunanlarla idarəedənlər arasında konsensusun yaradılması və ümumi razılıq əsasında idarəetmənin həyata keçirilməsi prinsipi əsas götürüldü.

Bunlarla yanaşı, XVIII əsrdə meydana gələn mühafizəkarlıq ideoloji cərəyanı da özündə ehtiva etdiyi bir sıra xüsusiyyətlərə görə fərqlənir. Mühafizəkarlıqda mərkəzi prinsip qismində adətlər, ənənələr və varisliyə sadiqlik çıxış edir. Bu ideoloji cərəyanın təməl prinsiplərindən biri də budur ki, dəyişikliklər tədrici surətdə həyata keçirilməli və islahatlara üstünlük verilməlidir. Dəyişikliklərdə təkamül yolunu üstün tutan mühafizəkarlar güclü dövlət tərəfdarı kimi çıxış edirlər və bildirirlər ki, milli inkişafın əsasında milli dövlətin universal səciyyə daşıyan funksional fəaliyyəti dayanır. Mühafizəkarlar belə bir prinsipi əsas tuturlar ki, keçmişdən bu günədək qorunmuş ənənələr mütəmadi surətdə mühafizə edilməli və cəmiyyətdə, idarəetmədə, fəaliyyətdə əsas istinad nöqtəsi qismində qəbul edilməlidir.

Mühafizəkarlar "rasional siyasətçi kimdir" sualı ətrafında belə bir mövqedən çıxış edirlər ki, praqmatik təfəkkürə malik olan siyasətçi uzunmüddətli effektiv nəticələr qazanmaq uğrunda mübarizə aparır: "Siyasətçinin bütün fəaliyyəti müvəqqəti üstünlük və ya populyarlıq prizmasından deyil, əldə edilmiş uzunmüddətli nəticələr nöqteyi-nəzərindən dəyərləndirilməlidir".

Bunlarla yanaşı, ənənəvi proqram, konsepsiya və doktrinalarda mühafizəkarlıq ideologiyasının digər təməl prinsipləri məhz bu cür əks olunub: **"Cəmiyyətdə ənənəvi təsisatların mövcudluğuna və fəaliyyətinə geniş şərait yaradılmalıdır. Bundan başqa, ictimai ahəngdarlığın və nizamın təmin olunması üçün həyata keçiriləcək dəyişikliklər təkamül yolu ilə baş tutmalıdır. Kardinal dəyişikliklər cəmiyyətlərə nizamsızlıq, xaos və dağıntı gətirər ki, bunlar da nəticə etibarilə ənənəvi təsisatların işini iflic vəziyyətinə salar. Məhz buna görə də, milli dövlətin mərkəzində durduğu güclü tənzimləmə mexanizmi lazımdır ki, ictimai ahəngdarlıq pozulmasın və cəmiyyətin inkişafı təmin edilsin".**

Mühafizəkarlıq ideologiyasını dəyərləndirən ingilis tədqiqatçısı M.Oukşot qeyd edir: **"Mühafizəkar olmaq bilinməyənə yox, bilinənə, təcrübədə təsdiq edilməyənə deyil, sınaqdan keçmişə,**

**ehtimal olunana deyil, mövcud olana, uzağa deyil, yaxına, bol olana deyil, kifayət edənə, utopikə deyil, reallığa üstünlük verməkdir".**

Azərbaycançılıq ideologiyası isə özündə ehtiva etdiyi təməl prinsiplərə görə liberalizmlə mühafizəkarlığın bir sıra prinsiplərindən ibarət olan neokonservatizm ilə sıx bağlıdır. Akademik Ramiz Mehdiyev "Yeni siyasət: inkişafa doğru" kitabında yazır ki, azərbaycançılıq coğrafi məkan baxımından neokonservatizmin milli variantı, onun prinsip və ideyalarının Azərbaycanın konkret şəraitində təcəssümüdür: "**Metodoloji prinsip baxımından-ümuminin və xüsusinin, yəni, birincinin və ikincinin nisbəti baxımından azərbaycançılıq ikinci kimi çıxış edir. Azərbaycançılıq və neokonservatizm bir-birini zənginləşdirərək vahid tam kimi çıxış edirlər. Buna görə də, azərbaycançılığın milli ideologiya kimi qəbul edilməsi ölkəmizin sivilizasiyalı dövlətlər sırasına daxil olması, ümumdünya oriyentirləri və meyilləri kontekstində daha uğurlu inkişafı üçün möhkəm zəmin yaradır. Neokonservatizm və azərbaycançılıq öz ləyaqətini itirməmiş xalqın sağlam düşüncəsinə, zəkasına eyni dərəcədə söykənir. Bu mənada vətənpərvərlik öz vətəninə, ölkəsinə, xalqına məhəbbət deməkdir və onun şovinizm ilə, milli müstəsnalıq və etnoeqoizm ilə heç bir əlaqəsi yoxdur. Əsrlərin, minilliklərin dərinliklərindən gələn ənənəyə mənsubluq bizim mədəniyyətimiz kimi qədim mədəniyyət üçün dövlətçiliyin əsasını, bütün vətəndaşların rifahı naminə dövlətin mövcudluğunun və inkişafının əsasını təşkil edir. Məhz buna görə zəngin keçmişi olan dövlət fərdi və ya qrup mənafelərinin mexaniki məcmusunun ifadəsi deyildir, əksinə, bütün cəmiyyətin ali mənafelərinin təcəssümüdür. O mənafelərin ki, vətəndaş onların naminə təkcə öz mülkiyyətini deyil, həm də həyatını qurban verməyi bacarmalıdır**".

Neokonservatizmin mahiyyətini daha da dəqiqləşdirmək üçün onun əsas prinsiplərini sadalamaq məqsədəmüvafiqdir. Qeyd etdiyimiz kimi, neokonservatizm liberalizmlə mühafizəkarlığın təməl prinsiplərini özündə birləşdirən ideoloji cərəyandır. Ümumiləşdir-

şək, qeyd edə bilərik ki, bəhs edilən ideoloji cərəyanın əsas prinsipləri aşağıdakılardan ibarətdir:

*– dövlət və vətəndaşın qarşılıqlı mənəvi məsuliyyəti gücləndirilməlidir;*

*– fərdin hüquq və azadlıqlarının təmin edilməsinə yönəlik xüsusi hüquqi, ictimai şərait yaradılmalı və fərdin ictimai həyatda rolunun artırılmasına qarşı bütün məhdudiyyətlər aradan qaldırılmalı və bu istiqamətdə əhəmiyyətli tədbirlər görülməlidir;*

*– milli maraqların həyata keçirilməsində və milli həmrəyliyin təmin edilməsində əsas aktor qismində dövlət çıxış etməli və o, cəmiyyətin birləşdirici, təşkiledici başlanğıcı qismində fəaliyyət göstərməlidir;*

*– dövlət milli maraqları və dəyərləri nəzərə almaqla hüquqi müstəvidə davamlı siyasi islahatlar həyata keçirməli və fərdlərin müstəqil fəaliyyətinə geniş şərait yaratmalıdır;*

*– dövlət demokratik şəraitdə insan və vətəndaş hüquq və azadlıqlarının bərqərar olunmasının başlıca təminatçısı olmalıdır;*

*– sosial ədalət təmin edilməlidir. Məhz bu zaman əsas prinsip kimi insanların bərabərliyinin inzibati yollarla təmin edilməsi deyil, fərdlərə bərabər imkanların yaradılması götürülməlidir;*

*– inkişaf kardinal dəyişikliklər və dağıdıcı üsullarla yox, tədrici təkamül vasitəsilə baş tutmalıdır. Məhz bu zaman dövlət öz üzərinə düşən bütün vəzifə və öhdəlikləri yerinə yetirməli, eyni zamanda, fərd – dövlət birliyi bu missiyanın həyata keçirilməsində təməl mexanizm olmalıdır.*

Beləliklə, ən müxtəlif nəzəri-konseptual mənbələrdə və tətbiqi araşdırmalarda belə bir yekun qənaət ifadə edilir ki, universal səciyyəli, milli dəyərlərin və rasional ənənələrin ehtiva olunduğu və adekvat surətdə əks edildiyi ideologiya milli gücün keyfiyyət ünsürü kimi dəyərləndirilməlidir. Başqa sözlə, bir milləti və ya xalqı digərindən fərqləndirən, onun mənəvi potensialını ehtiva edən, həmçinin, milli mövcudluğunun mənəvi əsasını təşkil edən milli ideologiya ümummilli inkişafı təmin edən keyfiyyət ünsürü kimi səciyyələndirilir. Çünki özündə ehtiva etdiyi ümumi prinsiplərə və

dəyərlərə müvafiq olaraq monist yox, universal səciyyəli milli ideologiya normativ-semantik strukturuna görə fərdi və ictimai şüurun struktur elementlərini təkmilləşdirən və onun bütövlüyünü təmin edən mənəvi mexanizm qismində çıxış etməklə yanaşı, ümummilli inkişafın da təkanverici keyfiyyət ünsürü və fundamental faktoru önəmi daşıyır.

Bu, bir faktdır ki, universal səciyyə daşıyan və özündə mütərəqqi dəyərləri ehtiva edən milli ideologiyalar onun daşıyıcıları və tərəfdarlarını bir mərkəzdə birləşdirməklə yanaşı, ümummilli həmrəyliyi – bütövlüyü təmin edən, ictimai şüuru milli inkişaf mənbəyinə çevirən komponent kimi çıxış edir. Bu baxımdan, bir millətin və ya xalqın mənəvi potensialı əsasında təşəkkül tapmış milli ideologiya qeyri-formal komponent kimi milli dövlətin sistematik inkişafını və bütövlüyünü təmin etməklə yanaşı, perspektiv birlik və fəaliyyət konturlarını müəyyənləşdirən amil kimi səciyyələndirilir...

Qeyd etdiyimiz kimi, milli ideoloji sistem həm də milli inkişafın təminatçısı qismində çıxış edir. Çünki milli ənənələrlə müasir mənəvi potensialı uzlaşdıran, rasional prinsipləri özündə ehtiva edən milli ideologiya fərdi və ictimai şüurun bütövlüyünü təmin etməklə yanaşı, insanların sağlam ideoloji oriyentirlərini müəyyənləşdirən və mənəvi şüurda rasional korreksiyalar edən inkişaf mənbəyi kimi səciyyələndirilir. Eyni zamanda, səfərbəredici, inteqrasiyaetdirici, maarifləndirici, tərbiyəedici və təbliğati funksiyaları özündə ehtiva edən ideologiya ümumi ideya-siyasi çağırışlar əsasında ümummilli birliyi, bütövlüyü və həmrəyliyi təmin etməklə yanaşı, ictimai şüura yeni – mütərəqqi dəyərlərin transformasiya olunması, ictimai-siyasi şüurun sağlam komponentlər əsasında formalaşması və dəyərlər sisteminin zənginləşməsi baxımından xüsusi önəm kəsb edir. Bu isə nəticə etibarilə insanların ictimai-siyasi təfəkkürünü gücləndirməklə ümummilli inkişafın mənəvi substratını təşkil etmiş olur...

Məhz bu nöqteyi-nəzərdən yanaşdıqda təsbit etmək olur ki, universal ideoloji formula olmaq etibarilə azərbaycançılıq ideologiyası zamanın tələblərinə müvafiq olaraq dünya azərbaycanlıları-

nı birləşdirən milli məfkurə, müstəqil Azərbaycan dövlətinin ideya əsası kimi çıxış etməkdədir. Bu, eyni zamanda, ölkədəki bütün dinlərin nümayəndələrinin və etnosların həmrəylik və qarşılıqlı anlaşma içində yaşayışını təmin edən mənəvi mexanizm önəmi kəsb edir. Bununla əlaqədar Ulu öndər Heydər Əliyev bildirirdi ki, **azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir.**

Bundan başqa, azərbaycançılıq ideologiyası çərçivəsində diqqət yetirilən mühüm strateji istiqamətlərdən biri də ana dilimizin qorunmasıdır. Məlum olduğu kimi, dil təkcə insanlar arasında ünsiyyət vasitəsi deyil. Hər nə qədər bu fikir yayğın olsa belə, reallıqda dilin çoxsaylı funksiyası və cəhətləri vardır. Əlbəttə ki, dilin başlıca xüsusiyyəti insanlar arasında ünsiyyəti saxlamaqdır. Lakin dilin ən az bunun qədər əhəmiyyətli olan millətin millət kimi, xalqın xalq kimi formalaşmasını təmin etmək, insanların fikirlərini ifadə etməsi ilə təkamülü şərtləndirmək, eyni zamanda, dövlətin formalaşmasını, cəmiyyətin sosial-siyasi strukturunu, həmçinin, sosial-siyasi institutların funksionallığını təmin etmək və s. kimi çoxsaylı funksiyaları vardır. Bu mənada hər bir xalqın dili o xalqı birləşdirən başlıca faktor, dəyər kimi çıxış etməklə bərabər, eyni zamanda, xalqın təşkilatlanmasını təmin edərək dövlət qurmasına qədər gətirib çıxaran, bu sosial-siyasi hadisəni təmin edən başlıca faktordur. Ona görə də uzun əsrlərdən bəri ayrı-ayrı hegemon güclər hər hansı bir xalqı məhv etmək, assimilyasiya etmək istədikdə həmin xalqın dilini əlindən almağa cəhd etmişlər. Dilini itirən xalq artıq xalq deyil. Tarixdə biz çoxsaylı hadisələrin şahidiyik ki, məhz xalq dilini itirdikdən sonra sürətlə milli kimliyini də itirmişdir. Məsələn, latınlar, hetlər, lidiyalılar, britlər, qallar və digər çoxsaylı müxtəlif xalqlar var ki, onlar dilini itirdikdən sonra xalq kimi də tarixin səhnəsindən silinmişlər.

Bunun ən bariz nümunəsini Herodot "Tarix" əsərində verir. Əsərdə qeyd edilir ki, Əhəməni hökmdarı Kir Lidiya çarı Krezi əsir götürdükdən sonra onun həyatını bir şərtlə bağışlayır: Çar

Krez Lidiya xalqını elə bir şəkildə idarə etməlidir ki, lidiyalılar farslara qarşı üsyan etməsin. Ancaq bir qədər sonra lidiyalılar fars hegemoniyasına qarşı üsyan edirlər. Bu cür üsyanlar bir neçə dəfə təkrar olunduqdan sonra Kir Krezi çağıraraq "əgər bu üsyan bir daha təkrar olunsa, o zaman həyatınla vidalaşmalı olacaqsan" deyir. Krez isə cavabında Kirə məsləhət verir: "Sən mənim xalqıma "lira" (qədim musiqi alətidir) çalmaq, axşamlar rəqs etmək, hündürdaban ayaqqabı geyinmək və kiçik alış-verişlə məşğul olmaq haqqında göstəriş ver. Əgər Lidiya xalqını bunlara alışdırsan, onlar bir daha üsyan etməyəcəklər". Doğrudan da, Lidiya xalqı ilk baxışdan cəlbedici və əyləncəli görünən bu vərdişləri mənimsədikdən sonra artıq onların həm dili, həm də xalq kimi özləri tarixin səhnəsindən silinmişdir. Tarixdə olan bu faktlar dilin bir xalqın, millətin taleyində nə qədər böyük rola sahib olduğunun sübutudur.

Azərbaycan dili də bu mənada istisna deyil. Azərbaycan xalqını yaşadan, onun ortaq dəyərlərini formalaşdıran, onun sosial-siyasi institutlaşmasını təmin edən, onu xalqlararası mübarizədə önə çəkən və varlığını qoruyub saxlamasını təmin edən başlıca ünsür dildir. Bu mənada biz millət olaraq, xalq olaraq inkişafımızın bütün mərhələlərində dilimiz və onun inkişafına borcluyuq. Dil inkişaf etdikcə xalq da inkişaf edir. Hansı xalqın dili zəngindirsə, demək, o xalqın mədəniyyəti, musiqisi, mənəviyyatı, söz ehtiyatı, ən nəhayət, fikir və təxəyyül dünyası da zəngindir. Bütün bunlardan çıxış edərək dilin nə qədər əhəmiyyətli olduğunu biz özümüz üçün aydınlaşdırmış oluruq.

Azərbaycan dili zaman-zaman böyük bir etnocoğrafiyada hegemon dil olaraq öz varlığını sürdürmüş, başqa dillərlə ünsiyyətdə olaraq o dillərdən müxtəlif sözlər qəbul etmiş, eyni zamanda, fərqli-fərqli dillərə, necə deyərlər, öz potensialına uyğun olaraq söz ixrac etmişdir. Bütün bu prosesdə Azərbaycan dili mükəmməl, axıcı, insana bütün düşündüklərini və duyğularını ifadə edəcək qədər imkan verən zəngin bir dilə çevrilmişdir. Amma dil tariximizin inkişaf mərhələlərində elə dövrlər də olmuşdur ki, Azərbaycan dili artıq arxa plana keçmişdir. Onun yerini müxtəlif dillər – fars dili, rus

dili və s. bu kimi dillər tutmağa başlamışdır. Bu isə, əlbəttə ki, dilin inkişafı ilə bağlı təhlükəli tendensiyaların və sindromların formalaşmasına gətirib çıxara bilərdi. Belə bir dövrü də, əlbəttə, biz rus işğalından, 1828-ci ildən sonra yaşamağa başladıq və Azərbaycan dili rus dilinin təsiri altına düşərək get-gedə məhəlli dil səviyyəsinə enməyə başladı. Amma buna baxmayaraq, Azərbaycan xalqının zəngin potensialı və zəngin dil ənənəsi, əlbəttə ki, bu dilin tamamilə küncə sıxışdırılmasına imkan vermədi.

Bu ənənə eynilə çar Rusiyası dövründə olduğu kimi, Sovet dövründə də davam etməyə başladı. Sovet dövründə artıq Azərbaycan dilinin tam zənginliyini, gözəlliyini qoruyub saxlayan, o dildən ədəbi vasitə kimi istifadə edən, düşünən beyinlər Sovet dövrünün repressiya maşını tərəfindən sıradan çıxarılmağa başladı. Beləliklə, artıq Azərbaycan dilinin yenidən məhəlli dil olmasına doğru addımlar atıldı və müəyyən mənada artıq bu dilin bir növ əyalətin dilinə çevrilməsi prosesi başlandı.

Belə bir təhlükəli dövrdə Azərbaycan dilinin tam küncə sıxışdırıldığı, məhəlli dillər qrupuna itələndiyi bir vaxtda məhz Azərbaycanın siyasi tarixində olduğu kimi, dil tarixində də böyük bir hadisə baş verdi. 1967-ci ildə Ulu öndərimiz Heydər Əliyev Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri təyin olunduqdan sonra artıq Azərbaycan dili ilə bağlı yeni ümidlər yaranmağa başladı. Məlum olduğu kimi, 1967-ci ilə qədər Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi Azərbaycanın daxilində olan antiazərbaycançı qüvvələrin mərkəzi idi. Və həmin tarixə qədər Azərbaycan xalqının, Azərbaycanın düşünən insanlarının, ziyalılarımızın düşməni kimi formalaşmış bir struktur olmaqla bərabər, eyni zamanda, Azərbaycan dilinin və mədəniyyətinin də düşməni rolunda çıxış edən bir qurum idi. 1967-ci ildə Ulu öndər Heydər Əliyevin bu vəzifəyə təyinatından sonra dərhal burada münasibətlər dəyişməyə başladı. Bir çox digər əhəmiyyətli məsələlərlə bərabər, dilimizə qarşı mənəvi terrorun da qarşısı alındı. Bundan sonra isə Azərbaycan dilinin inkişaf mərhələsi başlandı.

Azərbaycan dilinin inkişaf tarixində ən parlaq səhifələrdən, həmçinin, dilimizin ən şanslı tarixi məqamlarından biri budur ki, Ulu öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra məhz Azərbaycan dili siyasi elitanın dilinə çevrilməyə başladı. Çünki Sovet dövründə 1969-cu ilə qədər Azərbaycana rəhbərlik etmiş heç bir şəxs Azərbaycan dilini ictimai-siyasi lider səviyyəsinə qaldırmamışdı. Yalnız və yalnız 1969-cu il Ulu öndərin hakimiyyətə gəlişindən sonra Onun Azərbaycan KP MK-nın birinci katibi kimi Azərbaycan dilində mükəmməl, zəngin nitqləri səslənməyə, beləliklə də, Azərbaycan dili artıq məhəlli dil statusundan çıxaraq siyasi elitanın, rəhbər elitanın dilinə çevrilməyə başladı. Bu isə Azərbaycan dilinin inkişafını şərtləndirən əsas məqamlardan biridir. Düzdür, əlbəttə ki, həmin vaxta qədər Azərbaycanda mükəmməl ədəbi nümunələr yaranırdı, Azərbaycan ədəbiyyatında dil problemi demək olar ki, yox idi. Yəni dilimiz ədəbi cəhətdən zənginləşir, inkişaf edirdi. Amma təəssüf ki, ədəbi-bədii sahədə olan dil inkişafı sosial-siyasi sahəyə paralel olmurdu. Bunlar arasında proporsiya itmişdi. Bu isə yenə də dilin inkişaf potensialını məhdudlaşdıran əsas faktora çevrilmişdi. Məhz böyük dövlət xadimi Heydər Əliyevin azərbaycanca söylədiyi mükəmməl nitqlərindən sonra Azərbaycan dilinin sosial-siyasi tərəfi də onun bədii tərəfi qədər inkişaf etməyə başladı ki, bu da Azərbaycan dili tarixində böyük hadisə idi. Maraqlı və başlıca cəhətlərdən biri də bu idi ki, Ulu öndər Heydər Əliyevin həm rusca, həm də azərbaycanca olan nitqləri və məruzələri xüsusi ali məktəblərdə nümunə olaraq öyrədilirdi.

Beləliklə, artıq Azərbaycanda yetişən yeni nəsil məhz anladı ki, hələ Sovet dövründə, rus işğalı altında olsaq belə, Azərbaycan dilində danışaraq lider olmaq mümkündür. Bu, əslində, mənəvi dəyərlərin dirçəldilməsi idi. Bu, Azərbaycan dilinin dirçəldilməsi idi və bu, böyük mənada azərbaycançılığın dirçəldilməsi idi. Ona görə də, bu tarixi hadisənin sonrakı mərhələdə inkişafı o yerə gətirib çıxardı ki, artıq paytaxt Bakıda Azərbaycan dilində nitqlər eşidildi.

Eyni zamanda, Azərbaycan dilinin hüquqi status qazanması üçün də zəmin formalaşdırılmağa başlandı. Əlbəttə ki, həmin vaxt əyalətlərdə, kəndlərdə dillə bağlı problem yox idi. Ancaq Bakıya gələn hər bir gənc hiss edirdi ki, rus dili qat-qat üstün dildir və kim özünə siyasi karyera qurmaq istəyirsə, kim cəmiyyətdə bir az irəli çıxmaq istəyirsə, mütləq rus dilini öyrənməlidir. Bununla yanaşı, eyni zamanda, rus dilini öyrənməklə yanaşı, Azərbaycan dilində danışarkən də qeyri-rusların vərdiş etdiyi dil üslubundan istifadə edərək göstərməliydi ki, Azərbaycan dili bu şəxsə yad dildir. Bunlar olmasa, azərbaycandilli bir şəxsin inkişafı olduqca çətin idi. Bu da totalitar Sovet imperiyası rejiminin məhz dil basqısı olmaqla millətimizə qarşı məxsusi sosial-psixoloji aşağılama siyasəti idi.

Ancaq Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra, demək olar ki, bu buxovların hamısı qırıldı. Azərbaycan dili sosial-siyasi çevrələrdə məhəlli dil kimi qəbul olunmaqdan çıxaraq siyasi elitanın dilinə çevrilməyə başladı. Lakin Ümummilli liderimizin vaxtilə qeyd etdiyi kimi bütün bunlara heç də asanlıqla nail olunmadı. Ulu öndərimiz bu yolda çoxsaylı maneələrlə, təzyiqlərlə baş-başa qaldı. Ancaq usta siyasətçi özünəməxsus məharət və siyasi manevrlərlə bütün bu təzyiq və maneələri dəf edərək prosesi uğurla başa çatdırdı. Belə ki, 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasına dəyişikliklər edildi və bu zaman Azərbaycan dilinin Konstitusiyaya dövlət dili kimi salınması ilə bağlı gərgin mücadiləyə start verildi. Ulu öndər buna nail olmaq üçün həmin dövrdə mövcud və məqbul olan bütün metodlardan istifadə etdi.

Doğrudan da, özünün şəxsi siyasi nüfuzundan istifadə edərək Ulu öndər Heydər Əliyev Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunmasına nail oldu. Bundan sonrakı mərhələdə artıq Azərbaycan dili ədəbi-bədii dil olmaqdan çıxaraq, eyni zamanda, sözün həqiqi mənasında respublikanın rəsmi dili statusunu qazandı. Bu, əlbəttə ki, tarixi bir hadisə idi. Sonrakı dövrlərdə dilin inkişafını şərtləndirən elmi-texniki tərəqqi baş verdikcə, ədəbiyyatda yeni cərəyanlar və üslublar yaran-

dıqca Azərbaycan dili də bu prosesə qoşularaq möhkəmlənməyə və inkişaf etməyə başladı.

Onu da vurğulamaq lazımdır ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra da ölkəmizdə dil və əlifba problemi yaşanmağa başladı. Çünki həmin dövrdə müzakirə olunan başlıca məsələlərdən biri əlifbanın dəyişdirilməsi məsələsi idi. O zaman baxmayaraq ki, bunu arzu edənlər vardı, amma bunu necə həyata keçirmək, buna necə nail olmaq məsələsi ciddi bir sual kimi həmin şəxslərin qarşısında durmuşdu.

Məlum olduğu kimi, 1991-1992-ci illərdə Azərbaycanın siyasi elitası və Azərbaycana rəhbərlik edən şəxslər Azərbaycan dilini bilmirdilər. Bilməməklə yanaşı, hətta onlar bu dilə nifrət edirdilər. Çünki Azərbaycan dilində danışarkən xalq tərəfindən gülünc hədəfinə çevrilirdilər. Belə insanlardan dil vətənpərvərliyi, mənəvi vətənpərvərlik, millət və xalq vətənpərvərliyi gözləmək, əlbəttə ki, doğru deyildi. Və biz bunun şahidi olduq ki, Ə.Vəzirov Azərbaycan dilində necə danışırdı. Onun hər kəlməsi insanlarda gülüş doğurur, Azərbaycan xalqının ironiyasına səbəb olurdu.

Amma bir də bunun əksi gəldikdə, yəni AXC-Müsavat cütlüyü hakimiyyətə gəldikdə də real addımlar atılmadı. Azərbaycan dili onlara yaxın dil olmasına baxmayaraq, həmin iqtidar bu dilin inkişafını təmin edəcək siyasətə malik deyildi. Onlar çarəsiz idilər. Çünki həmin iqtidar o qədər iqtidarsız bir iqtidar idi ki, verilən sərəncamlar və fərmanlar belə icra olunmurdu. Bununla da Azərbaycan dili yenidən iki od arasında qalmışdı. Ya kiril qrafikalı əlifbaya söykənərək bu istiqamətdə inkişafı davam etdirməli, ya da yeni əlifbaya keçməklə yenidən türk dilləri ailəsində öz yerini tutmalı. Yəni, o dövrün iqtidarı olan AXC-Müsavat cütlüyü bu keçidi reallaşdıra bilmədi. Buna görə də, dilin, əlifbamızın necə olacağı həm dilçilərdə, həm ədəbiyyatçılarda, həm də gənc nəsildə çox böyük narahatçılıq yaradırdı.

Nəhayət, 2001-ci il avqust ayının 1-də Ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanda latın qrafikalı əlifbaya keçməklə bağlı sərəncam imzalandı. Bu isə Azərbaycanın dil tarixində yeni

bir hadisə idi. Bundan sonra Azərbaycanda istər dövlət müəssisələrində, istər icra hakimiyyəti orqanları arasında, istərsə də ali təhsil müəssisələrində latın qrafikalı Azərbaycan əlifbası sürətlə tətbiq olunmağa başladı. Dövlət tərəfindən rəsmi şəkildə latın qrafikalı əlifbanın qəbul olunması Azərbaycan dilinin inkişafında keyfiyyətcə yeni mərhələ açmış oldu. Ancaq bununla bərabər, əlbəttə ki, bütün ziyalılarımızı düşündürən bir sual vardı: bəs görəsən, 70 ildə kiril qrafikalı əlifba ilə çap olunan Azərbaycan ədəbiyyatının, elmi kitabların, bədii kitabların və s. taleyi necə olacaq? Məlum olduğu kimi, bunlar da Ulu öndərin uzaqgörən siyasəti nəticəsində öz həllini tapmağa başladı və sonrakı mərhələdə artıq Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev tərəfindən bütün klassiklərimizin, demək olar ki, bütün ədəbi və elmi-kütləvi məhsullarımızın hamısının dövlət hesabına latın qrafikalı Azərbaycan əlifbasında çap olunmasına dair fərman imzalandı. Beləliklə, Azərbaycan dili sürətlə inkişaf etməyə başladı.

Eyni zamanda, bu dövrdə postmodernist cəmiyyət qurulduqca bu cəmiyyətin dil tələblərinə uyğun olaraq ayrı-ayrı istiqamətlərdən leksikonumuza müxtəlif səpkili yeni sözlər gəlirdi. Bütün bunların hamısının dilimizə qəbul olunması, yaxud onun tərcümə olunaraq Azərbaycanın leksik fondunda öz əksini tapması maraqlı bir proses kimi bu gün də davam etməkdədir.

Amma bu proses artıq daha rahat gedir. Ona görə ki, latın qrafikalı əlifbanın verdiyi imkanlar həm bizə Avropadan, Qərbdən gələn sözlərin orijinalını oxumağa və həmin sözü orijinala daha yaxın şəkildə səsləndirməyə imkan verir, eyni zamanda, onu yazılış formasında ifadə etməyimizi də asanlaşdırır. Həmçinin, latın qrafikalı əlifba Azərbaycan dilinin yenidən formalaşdırılması Türkiyə-Azərbaycan münasibətlərinin də bugünkü səviyyəyə çatmasında böyük rol oynayıb. Biz latın qrafikalı Azərbaycan əlifbasına keçdikdən sonra Türkiyədə yaranan ədəbi məhsulları çox rahat şəkildə oxuya bilirik. Eyni zamanda, Türkiyə Cümhuriyyəti vətəndaşları da Azərbaycan ədəbiyyatını maneəsiz oxuya bilirlər. Yəni, dolayısı ilə, burada dilin inteqrasiya prosesi başladı. Azərbaycan və Türki-

yə arasında olan bu inteqrasiya isə özlüyündə digər türkdilli dövlətlər arasındakı inteqrasiyanı da şərtləndirməyə rəvac verdi.

Əlbəttə, bütün bunlar üçün biz digər başqa sahələrdə olduğu kimi, dil sahəsində də Ulu öndərimizin fəaliyyətini qiymətləndirməklə, Ona şükran borcumuzun olduğunu ifadə etməliyik.

Eyni zamanda, Prezident İlham Əliyevin dilimizin mühafizəsi və inkişafına göstərdiyi yüksək səviyyəli diqqət və qayğı bu sahədə əldə edilən nailiyyətlərin davamlılığını təmin edən fundamental faktor və mexanizm oldu. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli siyasətin mühüm strateji istiqaməti kimi Azərbaycan dilinin mühafizəsi və təbliği yönündə reallaşdırılan fundamental tədbirlər milli ideologiyanın – azərbaycançılığın daha da möhkəmlənməsini və kütləvilik səviyyəsinin daha da artmasını şərtləndirdi.

Bunlarla yanaşı, Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar milli dilimizin mühafizəsi və inkişafı yönündə mühüm hüquqi substrat olmaqla yanaşı, eyni zamanda, milli identikliyi də gücləndirən əhəmiyyətli mexanizm oldu. “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli Sərəncamı və “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli fərmanı bu sahədə xüsusi önəm kəsb edən substrat səciyyəsi daşıdı.

Beləliklə, Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu milli siyasətin fonunda milli dilimizin – Azərbaycan dilinin mühafizəsi və inkişafı yönündə həyata keçirilən operativ və effektiv işlərin Prezident İlham Əliyev tərəfindən dövrün aktual çağırışlarına və qanunauyğunluqlarına müvafiq surətdə uğurla davam etdirilməsi Azərbaycan dilinin milli həmrəylik, bütövlük və identikliyi təmin edən substrat kimi çıxış etməsini şərtləndirmiş oldu.

Beləliklə, sadaladıqlarımız deməyə əsas verir ki, milli inkişafın mənəvi-ideoloji əsaslarının təmin olunması, milli həmrəylik və bütövlüyə nail olunması baxımından neokonservativ səciyyə daşı-

yan azərbaycançılıq ideologiyasının seçimi ən məqbul variant idi və ötən zamanda ideoloji müstəvidə əldə edilən nəticələr bunu bir daha sübut etdi.

*Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir.*

**_Ulu öndər Heydər Əliyev_**

***

*Müstəqil Azərbaycanda demokratiya cəmiyyət və dövlət həyatının bütün sahələrini əhatə etməlidir. Siyasi plüralizmə geniş yer verilməli, qanunların pozulmasının qarşısı alınmalı, ölkə demokratik prinsiplər əsasında idarə olunmalıdır. Əmin olmalısınız ki, mən bu yola həmişə sadiq qalacağam*

**_Ulu öndər Heydər Əliyev_**

***

*Biz ölkəmizdə demokratiyanın, insan hüquqlarının inkişafına və qorunmasına çox böyük əhəmiyyət veririk... Biz, əlbəttə, gələcək fəaliyyətimizdə də Azərbaycanda həm siyasi, həm iqtisadi, həm də sosial islahatları davam etdirəcəyik, insan hüquqlarının qorunması üçün bütün lazımi tədbirləri görəcəyik*

**_Prezident İlham Əliyev_**

***

*Biz Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi demokratik prinsiplərə daim sadiqlik nümayiş etdirməklə Azərbaycanın daha böyük nailiyyətlər qazanmasına nail olacağıq*

**_Prezident İlham Əliyev_**

# IV FƏSİL

# DEMOKRATİK TRANZİT PROBLEMİ: NƏZƏRİ-KONSEPTUAL MƏSƏLƏLƏR, TƏCRÜBİ GERÇƏKLİKLƏR VƏ AZƏRBAYCAN TƏCRÜBƏSİ

## 4.1. Demokratiya institutu: mahiyyəti, nəzəri və təcrübi əsasları

Müasir elmi-nəzəri mənbələrdə və empirik araşdırmalarda ən çox rast gəldiyimiz anlayışlardan biri də demokratiya məfhumudur. İdeoloji oriyentasiyasından və strateji substratlarından asılı olaraq bir çox nəzəri mənbələrdə və empirik araşdırmalarda demokratiya anlayışı müxtəlif mənalarda işlədilir və bu məfhuma münasibətdə fərqli yanaşmalar müşahidə edilir. Bir çoxları demokratiyanı mütləq mənada "xalq hakimiyyəti" kimi təsvir edir, bəziləri onu "xalqın iradəsinin təzahürü" adlandırır, digərləri isə utopik idarəetmə sistemi kimi səciyyələndirirlər. Bir çox araşdırmaçılar demokratiyanı siyasi rejim növlərindən biri kimi diqqətlərə təqdim edir, bəziləri onu siyasi fəaliyyət tərzi kimi xarakterizə edir, digərləri isə fəaliyyətin ideoloji prinsipləri və meyarları kimi təsvir edirlər. Bəzilərinə görə demokratiya siyasi sistemin xarakteristikasıdır, digərlərinə görə, bu, ictimai quruluşun idealıdır, bir qisim araşdırmaçılara görə isə, dünyagörüşü formasıdır.

Araşdırmaçı alim Cozef Şumpeter yazır ki, demokratiya dedikdə, ilk növbədə, xalqın ali və ümumi iradəsinin bilavasitə gerçəkləşdirilməsi (xalqın özü tərəfindən) nəzərdə tutulmamalıdır: "Bəziləri demokratiyanı xalqın idarəetməsi kimi təsvir edir və buradan da yanlış nəticələrə gəlinir. Əslində, təcrübi gerçəkliklər sübut edir ki, demokratiya xalqın idarəçiliyi ola bilməz. Xalqın idarəetməsi praktik mənada real və məntiqli deyil. Xalq yalnız ona verilmiş hüquqlar çərçivəsində seçim edə bilər və hakimiyyətin hüquqi mənbəyi qismində çıxış edə bilər. Məhz belə bir durumun fonunda bir neçə meyara və tələbə cavab verilməlidir ki, həqiqi

mənada xalqın iradəsinə əsaslanan demokratik idarəetmə sistemi formalaşdırılsın. İlk növbədə, xalqın dövlət vəzifələrinə və idarəetmə sisteminə seçilmək üçün layiqli nümayəndələri olmalıdır. Məhz bu amil xalqın iradəsinin ən yüksək səviyyədə təsbit və təmin edilməsi və səmərəli idarəetmə sisteminin formalaşdırılması üçün təməl meyar və prinsip qismində çıxış edir. İkincisi, idarəetməni həyata keçirən subyektlər açıq dəyərlərə əsaslanan qərarlar qəbul etməli və bu qərarlar ümumi maraqlara adekvat olmalıdır. Şübhəsiz, demokratiyanı mühafizə edən və təkmilləşdirən amillərdən biri də qərar qəbulu mexanizmi və prosedurlarıdır. Məhz buna görə də, bu amil demokratik idarəetmə sistemini formalaşdıran və onun davamlılığını təmin edən təməl kimi qəbul edilməlidir. Üçüncüsü, institusional və qeyri-institusional formada səmərəli özünənəzarət formalaşdırılmalıdır ki, demokratik idarəetmə sistemi mümkün olsun".

Plüralist demokratiya tərəfdarı və nəzəriyyəçisi olan Çarlz Medison isə hesab edir ki, demokratiya praktik mənada təmin edilməsi mümkün olan siyasi rejim kimi dəyərləndirilə bilər: **"Demokratiyanı siyasi rejim kimi təsvir etsək, ilk növbədə, belə bir qənaətə gəlməliyik ki, onun səviyyəsi siyasi proseslərdə iştirak edən qrupların miqdarından və təmsilçilik xüsusiyyətlərindən, formalarından asılıdır. Siyasi plüralizmin təmin edilməsi vəzifəsinin fonunda siyasi arenada təmsil olunan qruplar nə qədər çox olarsa, rəqabət də bir o qədər güclü olar".**

Ç.Medison yazır ki, siyasi rejimin xarakteristikası və formasından asılı olmayaraq xalq iradəsi anlayışı nisbi səciyyə daşıyır və ona dəqiq müəyyənləşdirmələr əsasında yanaşmaq lazımdır: **"Xalq iradəsi anlayışı bəzən xalqın idarəetməsi kimi təsvir edilir, bu isə praktik proseslər və reallıqları əks etdirmədiyindən ideal və ya qeyri-real bir yanaşma təsiri bağışlayır. Əslində, siyasi səhnənin aktoru xalqın iradəsi əsasında müəyyən resurslar və imtiyazlar əldə edir və idarəetməni həyata keçirir ki, məhz bunu xalqın iradəsi adlandırmaq olar".**

Adam Pşerovski isə qeyd edir ki, demokratiya siyasi hakimiy-

yətin elə təşkilidir ki, o müxtəlif qrupların öz səciyyəvi maraqlarını gerçəkləşdirmək qabiliyyətini müəyyən edir.

Xuan Lints isə bildirir ki, demokratiya bütün səmərəli siyasi təsisatların iştirakçılığına geniş şəraitin yaradılmasıdır. Digər tərəfdən qeyd edə bilərik ki, demokratiya siyasi fəallığın artırılması üçün yaradılmış geniş şəraitin fonunda ictimai-siyasi təsisatlanmanın operativ və effektiv surətdə həyata keçirilməsinə real zəmin yaradır. Ən əsası, demokratik idarəetmə sisteminin fonunda inkişaf radikal dəyişikliklər vasitəsilə deyil, siyasi-hüquqi islahatlarla müşayiət edilən tədrici təkamül yolu ilə baş tutur.

Maks Veber isə qeyd edir ki, demokratiya liderlərin legitim surətdə seçilməsi və leqal şəkildə fəaliyyət göstərməsi, hakimiyyətin formalaşdırılması və əhalinin sosial-siyasi təmsilçiliyinin təmin olunması üçün ən ideal vasitədir.

Fəlsəfi anlayışlar ensiklopediyasında demokratiyaya bu cür tərif verilir: **"Demokratiya elə bir idarəetmə formasıdır ki, burada xalq azlığın legitim və leqal hakimiyyətinə razılıq verir, başqa sözlə, idarəetmənin həmin azlıq tərəfindən həyata keçirilməsinə razılığını ifadə edir. Amma nəzarət hüququ və imkanları xalqın özündə saxlanılır".**

Bütün bu yanaşmalara və nəzəri-empirik təsbitlərə baxmayaraq, demokratiyanın real mahiyyətini anlamaq üçün müxtəlif məsələlərə münasibətdə meydana gəlmiş demokratiya nəzəriyyələrinin hər birinə nəzər yetirmək lazımdır.

Araşdırmaçılar K.Makferson və D.Held demokratiya nəzəriyyələrinin fonunda aşağıdakı demokratik modelləri fərqləndirirlər:

– *klassik-antik demokratiya;*
– *mühafizəçi (protektiv) demokratiya;*
– *rəqabətə əsaslanan elitizim (elitar demokratiya);*
– *plüralist demokratiya;*
– *leqal demokratiya;*
– *partisipiator (iştirakçı) demokratiya;*
– *plebisit demokratiyası;*
– *nümayəndəli demokratiya.*

Müasir mənada demokratiya məfhumunun mahiyyətini anlamaq və onu təcrübi məsələlərlə əlaqələndirə bilmək üçün plebisit, partisipiator, leqal, elitar, plüralist və nümayəndəli demokratiya modelləri və konsepsiyalarına nəzər yetirmək məqsədəmüvafiqdir.

Beləliklə, öncə plüralist demokratiya modelinə nəzər yetirək. Plüralist demokratiya modelini səciyyələndirərkən, ilk növbədə, bu prinsip önə çəkilir: *"Xalq hakimiyyəti ideyasından azlığın mənafeyinin leqal surətdə təmin və mühafizə edilməsinə keçid"*. Plüralist demokratiya modelində başlıca hərəkətverici subyekt qismində qruplar götürülür. Buradan da belə bir mövqe ifadə edilir ki, demokratiya insanlara qruplarda birləşmək və fəaliyyət göstərmək imkanı yaratmalıdır. Beləliklə, formalaşan qruplar siyasi mübarizə meydanında avanqard aktor qismində çıxış edirlər və rəqabət qruplararası mübarizənin fonunda meydana gəlir. Mübarizə prosesində ayrı-ayrı qruplar bir-birini neytrallaşdırır və hansısa qrupun hakimiyyəti inhisara almasına imkan verilmir. Belə bir şəraitdə dövlət özünəməxsus funksiya daşıyır və müxtəlif qrupların maraqlarını uzlaşdıran təməl aktor qismində çıxış edir.

Bundan başqa, plüralist demokratiya modelində əks olunur ki, maraqlar uğrunda mübarizə aparan qruplar (mənafe qrupları) siyasi sistemin başlıca ünsürləridir. Siyasi proseslərdə hərəkətverici faktor qrup mənafeyidir. Belə bir situasiyada şəxsiyyətin fərdi maraqları qrup mənafeyinin fonunda ikinci plana keçir. Amma nəzərə almaq lazımdır ki, qrupların yaranmasının əsasında duran təməl faktor fərdlərin spesifik maraqlarıdır. Fərdlər öz maraqlarını təkbaşına gerçəkləşdirə bilmədiklərindən qruplarda birləşirlər və öz maraqlarının inteqrativ surətdə uzlaşdıraraq qrup mənafeyi halına salırlar. Digər tərəfdən, demokratik şəraitdə legitim hakimiyyətin sosial əsaslarını və real gücünü mənafe qrupları arasındakı strateji rəqabət və qüvvələrarası münasibətlər balansı təşkil edir. Məhz bu amil siyasi səhnədə təmsilçilik və münasibətlər sistemini formalaşdıran mexanizm qismində çıxış edir. Bununla yanaşı, belə bir şəraitin fonunda ictimai nizamın təmin və mühafizə edilməsi zərurəti də ortaya çıxır ki, burada əsas məsuliyyət və öhdəlik dövlətin üzərinə

düşür. Dövlət öz funksionallığı çərçivəsində ictimai ahəngi təmin edən mexanizm qismində çıxış edir və qruplararası mübarizənin dağıdıcı nəticələrinin cəmiyyətə mənfi təsir etməsinə imkan vermir. Konsepsiyada bildirilir ki, mənafe qruplarının üzərinə düşən əsas vəzifə və öhdəlik onu təşkil edən şəxslərin maraqlarının inteqrativ surətdə təmin edilməsi səviyyəsidir.

Nümayəndəli demokratiya modelində isə belə bir konseptual maddə əks olunur ki, xalqın iradəsinin həyata keçirilməsi onun özünün bilavasitə aktiv təmsilçiliyi əsasında mümkün olmur. Real demokratiya xalq təmsilçiliyi hökumətinin formalaşdırılması ilə təmin edilə bilər. Bu hökumət isə xalqın passiv iştirakı (aktiv seçki hüququndan istifadə etməklə) sayəsində formalaşdırılır. Daha da dəqiqləşdirsək, hökumət xalqın iradəsi əsasında formalaşır, amma xalqın özü bilavasitə idarəetmədə iştirak etmir. Təmsilçilər isə öz fəaliyyətlərində xalqın ali maraqlarını rəhbər tutmağa söz verir. Amma bu vədlərin yerinə yetirilməsi səviyyəsi sistemin spesifik xüsusiyyətlərindən asılıdır.

Politoloq Gilyermo Donnel yazır ki, nümayəndəli demokratiya modeli daha az liberaldır: **“Bu modeldə ictimai-siyasi institutlaşma xüsusi zəruri strateji missiya kimi səciyyələndirilir. Təsisatların fəaliyyətinin legitimliyi sistemin effektivlik səviyyəsini artırır... Bu modeldə güclü prezident hakimiyyətinə xüsusi ehtiyac duyulur və prezident millətin siyasi təcəssümü, maraqların ifadəçisi qismində dəyərləndirilir... Nümayəndəli demokratiyada qərarların qəbulu ləng, icrası isə operativ surətdə baş tutur”.**

Leqal demokratiya modelində legitimlik və leqallıq anlayışları mərkəzi məfhumlar qismində nəzərdən keçirilir. Bildirilir ki, qanunlar və xalqın iradəsi demokratik idarəetmə sisteminin əsasını təşkil edir: **“Hər iki məfhum bir-birilə bağlı olsa da, qanunlar xalqın iradəsindən üstündür. Hər bir idarəetmə subyekti öz fəaliyyətində təməl dəyər kimi qanunlara əsaslanmalıdır”.**

Bu modeldə vətəndaş cəmiyyətinə xüsusi diqqət yetirilir və bildirilir ki, vətəndaş cəmiyyəti ictimai-siyasi institutlaşmada özünə-

məxsus funksionallığa malikdir: **"Dövlət vətəndaş cəmiyyətinin formalaşmasında maraqlı olmalı və meydana çıxan maneələri aradan qaldırmalıdır. Bunun fonunda liberallaşmaya xüsusi diqqət göstərilməli və legitimləşdirmə ilə liberallaşma paralel surətdə həyata keçirilməlidir".**

Nikos Pulantsas, Kerol Peytmen, Benjamin Barber, Artur Şlezinger kimi nəzəriyyəçi alimlərin təmsil etdiyi partisipator (iştirakçı) demokratiya nəzəriyyəsində isə liberalist prinsiplər üstünlük təşkil edir. Bir çox nəzəriyyəçilər onu liberal demokratiya ilə eyniləşdirirlər və bəhs edilən modelə bu xüsusiyyətləri aid edirlər: fərdlərin azadlığı və bərabərliyi, demokratik təsisatların formalaşmasında seçkilərin əsas olması və çoxpartiyalı plüralist sistemin formalaşdırılması, aktorlara siyasi fəaliyyət azadlığının yaradılması, qanunların aliliyi, çoxluğun iradəsi və sair. Bundan başqa, bu modeldə fərdlərin qərar qəbulunda iştirakına geniş şəraitin yaradılması xüsusi vurğulanır. Bunula əlaqədar olaraq Artur Şlezinger yazır: **"Siyasi qərarların qəbul edilməsi prosesində cəmiyyətin əsas maraqları diqqətlə nəzərə alınmalıdır ki, buna da yalnız həmin maraqların təmsilçilərinin və ya tərəfdarlarının hakimiyyət sistemində hakim mövqe tutduqları halda nail olmaq mümkündür".**

Bu modelə əsaslanan nəzəri-konseptual mənbələrdə "sosial inqilab" məfhumundan istifadə edilir ki, bu ifadənin mənası klassik semantikadan uzaqdır. Belə ki, bəhs edilən anlayış müxtəlif vasitələrlə hakimiyyətin devrilməsi və qəsb edilməsi mənasında yox, sivil vasitə və metodlarla demokratikləşməsi anlamında işlədilir. Nəzərdə tutulur ki, demokratikləşmənin fundamental meyarı qüvvələrarası konsensusdur.

Partisipator demokratiya modelində təsbit edilir ki, xalq irrasional toplum deyil və səmərəli idarəetmənin əsasında dayanmaq iqtidarındadır: **"Fərdlər ictimai-siyasi proseslərdə təmsil olunmaqla idarəetmənin təkmilləşməsinə xüsusi töhfələr bəxş etmək gücündədirlər. Beləliklə, xalq bütün proseslər və münasibətlərin fonunda mərkəzi subyekt qismində dəyərləndirilməlidir".**

Elitar demokratiya modelində isə əks olunur ki, siyasi idarəetmə peşəkar azlıq tərəfindən həyata keçirilməlidir. Xalq idarəetmədə iştirak etməməlidir, çünki idarəetmə nəcib keyfiyyətlərə malik olan azlıq tərəfindən həyata keçirilə bilər. Siyasi qərarların məhdud peşəkar qrup tərəfindən qəbul edilməsi obyektiv strateji zərurətdir. Məhz belə bir təsbitin fonunda demokratik idarəetmə ilə bağlı başlıca məsələ həmin peşəkar qrupların necə formalaşdırılmasıdır. Beləliklə, demokratiya xalqın razılığı və iradəsi ilə elitanın leqal və legitim idarəetməsidir. Bütün bunların fonunda hər bir cəmiyyətdə iyerarxik strukturların formalaşması obyektiv zərurətə çevrilir. İqtisadi, siyasi, hərbi, maliyyə elitaları yaranır və ayrı-ayrı sahələrdə idarəetmə funksiyasını yerinə yetirirlər.

Beləliklə, yuxarıda nəzərdən keçirdiyimiz demokratiya modellərinin hər biri təcrübi gerçəklik baxımından müəyyən üstünlüklərə və çatışmazlıqlara malikdir. Ən əsası, hər bir model və onun əsasında yaradılmış nəzəriyyə və konsepsiyalar özündə bir və ya bir neçə strateji istiqaməti ehtiva etdiyindən bütövlükdə kompleks məsələləri əhatə etmir və demokratiyanın total mahiyyətini aşkar etməyə yetərli hesab olunmur. Məhz buna görə də, bir çox araşdırmaçılar belə bir mövqedən çıxış edirlər ki, mövcud modellərin siyasi reallığa adekvat surətdə cavab verən əsas prinsipləri və xüsusiyyətlərini seçməklə yeni və daha təkmil model yaradılsın. Bu, elə bir model olmalıdır ki, orada təcrübi gerçəkliklərə müvafiq nəzəri təsbitlər və məsələlər yer alsın və utopik baxışlar sistemi səciyyəsi daşımasın. Məhz belə bir model siyasi praqmatizm nöqteyi-nəzərindən rasional prinsiplər, qanunauyğunluqlar və mental xüsusiyyətlər əsas götürülməklə hazırlana və təcrübi müstəviyə transfer edilə bilinər.

Demokratiya haqqında mövcud fikir və mülahizələrin hamısı bir-birindən elmi, məntiqli, maraqlı və cəlbedici görünsə də, bütün hallarda nəzəriyyəçilərin ya qeyri-səmimiliyi, ya da sonunadək izah edə bilməmələri açıq görünür. Bizim qənaətimizcə, demokratiya haqqında ən kütləvi və ən ümumiləşmiş fikir olan "demokratiya xalqın hakimiyyətidir, yaxud insan hüquqları ilə məhdudlaşdı-

rılmış hakimiyyətidir" tezisi o qədər də doğru deyil. Xalqın hamısının eyni vaxtda hakimiyyətdə olması praktik baxımdan gülüncdür. Belə olduqda, görəsən, hakimiyyət altında olanlar kim olacaq?

Ona görə də, bu tezis daha çox ictimai ahəngdarlığı və hormoniyanı qorumaq və azlığın (bir qrupun) hakimiyyətini təmin etmək üçün düşünülmüş təbliğata bənzəyir. Demokratiya bütün digər növ cəmiyyət quruluşu modelləri kimi, cəmiyyətin təbii tələbatı olan qrup hakimiyyətini təmin edir. Digər deyilənlər isə siyasi aksesuarlardan başqa bir şey deyil. Üstün cəhət isə, sadəcə, vaxtında seçkilərə getməklə hakim qrupun təzələnməsidir. Hakimiyyətin mütləq məzmunu isə hökm etməkdir. Bu, bütün cəmiyyətlərin yazılmamış ali qanunudur.

Ancaq demokratiya üstün dəyər kimi bu gün daha çox siyasi spekulyasiya vasitəsinə, hətta qlobal güc mərkəzlərinin imperiya maraqlarının reallaşdırılmasına xidmət edən alətə çevrilib. "Demokratiya" mərkəzlərindən ixrac edilən bu cür "genetik modifikasiya olunmuş demokratiya" isə heç də həqiqi demokratiya istəyən xalqların milli maraqlarına uyğun gəlmir. Ancaq "demokratiya bazarı" imperialist "demokratlar"ın inhisarında olduğu üçün "bazar"da başqa "mal", alternativ yoxdur. Biz mütləq demokratiya adı altında bizə sırınanları almalıyıq. Ona görə də, nəzəriyyəyə çox da aludə olmadan bütün hallarda milli və dövlət maraqları ilə uzlaşmayan demokratiyadan imtina etmək lazımdır. Bizcə, qloballaşan, hamının bir-birinə bənzədilməsinə çalışdırılan dünyada milli-mənəvi dəyərlərin qorunmasının ən düzgün yolu budur.

## 4.2. Demokratik tranzit problemi: modellər, mərhələlər və reallıqlar

Siyasət nəzəriyyəsində siyasi rejimlər, siyasi idarəetmə xüsusiyyətləri, formaları və metodlarından bəhs edərkən ən çox istinad edilən nəzəri, empirik məsələlərdən biri də demokratik tranzit problemidir. Demokratik tranzit legitimlik elementlərinin az olduğu bir rejimdən, idarəetmə sistemindən digərinə keçid kimi səciyyələndirilir. Daha da dəqiqləşdirsək, formalaşmış tarixi situasiya-

nın fonunda əsasları zəifləmiş, məhdud xarakterli legitimliyə malik olan siyasi rejimdən digərinə transformasiya şəraitində ortaya çıxan vəzifələr, problemlər və bu transformasiyanın həyata keçirilməsi formaları demokratik tranzit problemində nəzərə alınan və araşdırma obyektinə çevrilən başlıca məsələlərdir.

Demokratik tranzit probleminin əks olunduğu əksər nəzəri-konseptual mənbələrdə tranzitin avtoritarizmdən demokratiyaya transformasiya formasında baş tutduğu bildirilir. Amma bəzi araşdırmaçılar totalitarizmdən avtoritarizmə, avtoritarizmdənsə demokratiyaya keçiddən də bəhs edirlər və bu tendensiyanı XX əsrin transformasiya dalğası kimi səciyyələndirirlər. Amma təcrübi gerçəkliklərə nəzər yetirdikdə məlum olur ki, totalitarizmdən avtoritarizmə keçid məsələsi bir neçə fundamental faktora görə formal səciyyə daşıyır. Əvvəla, totalitar rejimlərdə hakim elita və kontrelita özlərinin qarşısına avtoritarizmə keçid kimi strateji missiya qoymurlar və bu yöndə hər hansı bir addımlar atmırlar. İkincisi, totalitar idarəetmə sistemində mövcud münasibətlər və proseslər tranzit üçün əlverişli deyil. Ümumiyyətlə, totalitar idarəetmə sisteminin hökm sürdüyü cəmiyyətlər dəyişikliklərə açıq deyil, müəyyən dəyişikliklər baş tutsa belə, bunlar kardinal səviyyədə olmur və daha çox dağıdıcı nəticələrə gətirib çıxarır. Məsələn, uzurpasiya vasitəsilə hakimiyyətin qəsb edilməsi, silahlı toqquşmaların baş verməsi, qüvvələrarası konfrantasiyaların meydana gəlməsi dəyişiklik vasitələri kimi təzahür edir, bütün bunlar isə cəmiyyətdə parçalanma və deviasiyalar meydana gətirən destruktiv faktor qismində çıxış edir. Üçüncüsü, XX əsrdə dünya miqyasında baş verən lokal, regional miqyaslı, qlobal xarakterli dəyişikliklər, transformasiyalar onu göstərir ki, demokratik tranzit heç də totalitarizm – avtoritarizm-demokratiya istiqamətinə deyil, avtoritarizmdən demokratiyaya keçid formasında baş tutur. Belə ki, ötən əsrin 70-ci və 90-cı illərində Portuqaliya, Yunanıstan, İspaniya, Latın Amerikası, Şərqi Avropa və SSRİ məkanında baş tutan transformasiyalar bunu sübut edir.

Empirik göstərici və faktlarla təsbit edilmiş nəzəri-konseptual

mənbələrdə demokratik tranzitin müxtəlif yolları göstərilir:

– **Transformasiya yolu**: keçid hakim qüvvələrin və bütövlükdə cəmiyyətin istəyi ilə baş tutur və yuxarıdan həyata keçirilən islahatlar transformasiyanı sürətləndirən fundamental faktor qismində çıxış edir. Məhz belə bir mövqenin fonunda həyata keçirilən siyasi-hüquqi islahatlar demokratik tranzitin effektiv və operativ surətdə baş tutmasını təmin edir ki, bu da qısa zaman kəsiyində milli inkişaf strategiyasının tətbiqini mümkün edir. Beləliklə, transformasiya yolu adlandırılan keçid formasında radikal metod və vasitələrə yox, təkamül yoluna istinad edilir;

– **Radikal tranzit**: keçid əsasən dağıdıcı vasitə və metodlardan istifadə edilməklə baş tutur. Bu zaman uzurpasiya başlıca istinad metoduna çevrilir və inqilablar, çevrilişlərlə müşayiət edilən destruktiv proseslər cəmiyyətdə xaos və anarxiyanın meydana gəlməsini şərtləndirir. Belə bir şəraitdə hakimiyyətin qəsb edilməsi qüvvələrarası münasibətləri daha da kəskinləşdirir və sərt mərkəzləşmələrin fonunda tranzit cəhdləri edilir. Amma radikal formada edilən tranzit cəhdləri təqlidi xarakter daşıyır və sabitliyin, təhlükəsizliyin təmin olunmasına xidmət etmədiyindən siyasi sistemin struktur elementlərinin təkmilləşdirilməsi missiyasına nail olunmur;

– **Uzurpasiya və ya hərbi istila vasitəsilə:** hərbi metodlarla hakimiyyətin devrilməsi yeni siyasi rejimin və idarəetmə formasının yaradılmasına imkan yaratsa da, siyasi subyektlərin ənənəvi metodlara istinad etmələri və korporativ maraqlardan çıxış etmələri demokratik tranzitin sözün əsl mənasında formal xarakter daşımasına səbəb olur. Belə şəraitdə təqlidi tranzit baş tutur, amma mütəmadi qaydada uzurpasiya və çevriliş cəhdləri müşahidə edilir. Bu da qeyri-sabitlik və antaqonist ziddiyyətlərin dövri şəkildə davamlı xarakter almasına səbəb olur.

Politoloq Samuel Hantinqton demokratikləşmənin 3 modelini göstərir:

**1. Ənənəvi model**: demokratik tranzit mütləqiyyətin zəifləməsi, vətəndaşların, qanunverici orqanın hüquqlarının genişlənməsi

şəraitində baş tutur. Tranzit ərəfəsində və tranzitdən sonra vətəndaşlara geniş hüquq və azadlıqlar verilir, mövcud məhdudiyyətlər aradan qaldırılır və qanunverici orqanın səlahiyyətləri daha da artırılır. Hökumətin fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılması üçün parlamentin hökumətə nəzarət funksiyası bərqərar olunur;

**2. Dövri model (**Latın Amerikası və bir sıra Asiya ölkələri**):** yetişmiş tarixi şəraitin fonunda hakimiyyət demokratik tranzitə müsbət münasibət bəsləyir, amma fundamental siyasi-hüquqi islahatların aparılmaması, demokratikləşməyə mühüm töhfələr bəxş edən təsisatlanma səviyyəsinin aşağı olması, subyektlərarası münasibətlərdə və siyasi proseslərdə rəqabətin istənilən səviyyədə olmaması kimi faktorlar tranzitin nisbi və təqlidi səciyyə daşımasına səbəb olur. Bütün bu boşluqların fonunda hakimiyyətin effektivliyi səviyyəsi aşağı düşür və onun əsasları asanlıqla sarsılır. Məhz elə buna görə də, xalq tərəfindən seçilmiş hakimiyyət tez-tez hərbçilər tərəfindən devrilir və ya siyasi səhnənin digər təmsilçiləri uzurpasiya vasitəsilə hakimiyyəti qəsb edirlər. Bütün bunların fonunda mütəmadi sabitlik və təkmilləşməyə nail oluna bilinmir. Belə bir şəraitdə siyasi şüur və siyasi mədəniyyət səviyyəsi də olduqca aşağı olur və onun yeni keyfiyyət çalarları ilə zənginləşməsi prosesi olduqca ləng gedir;

**3. Dialektik model (İspaniya, Portuqaliya və Yunanıstan):** Bir sıra təbii avantajlar (üstünlüklər) tranzitin baş tutmasını və müsbət nəticələr gətirməsini təmin edir. Belə ki, siyasi şüur və siyasi mədəniyyətin yüksək olması, operativ və effektiv təsisatlanmanın mövcudluğu demokratik tranzitin tezliyi və səmərəliliyini şərtləndirir.

Siyasət nəzəriyyəsində demokratik tranzitin bir neçə mərhələsi

göstərilir:

**1. Avtoritar rejimin böhranı və tranzitə ilkin zəmin**: bu mərhələdə ənənəvi idarəetmə metodları ilə mövcudluğu mühafizə edilən avtoritar rejimin əsasları sarsılır və rejimin funksionallığı dəyişən şərtlərin və qanunauyğunluqların fonunda zəifləməyə başlayır. Bu şəraitdə ictimai-siyasi institutların fəaliyyət mexanizminin səmərəlilik səviyyəsi mütləq surətdə aşağı düşür, sistem böhranı müşahidə edilir. Hakim elita daxilində artan ziddiyyətlərin fonunda parçalanmalar başlayır və bu, tendensiya halını alır. Məhz belə bir situasiyanın fonunda hakim elita və idarəetmə subyektləri mövqe və yanaşmaları baxımından iki fərqli qütbdə dayanırlar:

**A. "Sərt xətt" tərəfdarları ("dəmir yumruqlular"):** onlar ənənəvi dəyərlərin qorunub saxlanması tərəfdarı kimi çıxış edirlər və sərt, zorakı metodlara istinad edirlər. Məhz bu xəttin tərəfdarları dəyişikliklərin uzurpasiya vasitəsilə həyata keçirilməsinə üstünlük verirlər. Məhz buna görə də, konfrantasiya və antaqonist ziddiyyətlərlə müşayiət edilən proseslər cəmiyyətdə qeyri-müəyyənlik və qeyri-sabitlik uzunmüddətli qaydada hökm sürür;

**B. "Yumşaq xətt" tərəfdarları:** onlar liberallaşma və müasir çağırışlara cavab vermə xəttini seçirlər, eyni zamanda, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasını siyasi-hüquqi islahatların əsası hesab edirlər. Liberallaşma vəzifəsinin fonunda vətəndaş cəmiyyətinin formalaşması, onun mütləq komponentlərinin bərqərar olunması, ictimai-siyasi təsisatlanma prosesinin əsasının qoyulması və onun davamlılığının təmin edilməsi başlıca strateji istiqamətlər kimi dəyərləndirilir. Məhz bu cür situasiyanın fonunda siyasi müxalifətin formalaşmasına geniş şərait yaranır və subyektlərarası münasibətlərdə rəqabət elementləri artır. Artıq avtoritar təfəkkürlü elita irrasional elitaya doğru transfer olunur, subyektlərin

fəaliyyətinə münasibətdə plüralizm təmin olunur;

**2. Demokratiyanın mütləq surətdə bərqərar olunması mərhələsi**: bu mərhələdə rəqabətli partiya sistemi formalaşır və hakimiyyətin fəaliyyət mexanizminin demokratiklik səviyyəsi mütləq surətdə artır. Hakimiyyət bölgüsü təcrübi surətdə baş tutur və icraedici hakimiyyətin səlahiyyətləri və funksiyaları hakimiyyətin digər qollarına münasibətdə daha çox olur. Qanunvericilik bazasının zənginləşdirilməsi, hüquqi nihilizm və siyasi maksimalizmin aradan qaldırılması ictimai-siyasi münasibətlər sistemində yeni keyfiyyət dəyişikliklərinə intensivlik qazandırır və milli münasibətlər zəminində konsensusa nail olunur. Bütün bunlar isə nəticə etibarilə hakim elitanın və siyasi partiyada təmsil olunan aktorların fəaliyyət mexanizminin effektivlik səviyyəsini artırmağa maksimum imkan və şərait yaradır;

**3. Demokratiyanın konsolidasiyası mərhələsi**: bu mərhələ tranzit baş tutmuş cəmiyyətlərdə yeni sosial-siyasi şəraitə və mexanizmə uyğunlaşmanı əks etdirir. Köhnə təsisatların yeniləri ilə əvəz olunması, idarəetmədə kardinal reformativ dəyişikliklərin baş verməsi, loyallığın və legitimliyin təmin edilməsi istər-istəməz cəmiyyətdə bəhs edilən innovasiyalara münasibətdə təfəkkür dəyişikliklərinin baş tutmasını zəruri edir. Məhz belə bir strateji missiyanın fonunda mərhələli surətdə demokratiyanın konsolidasiyası, yəni, yeni dəyərlərə uyğunlaşmanın baş tutması üçün sistematik tədbirlər həyata keçirilir.

Nəzəriyyəçi alim U.Rostou isə demokratik tranzitin 4 mərhələsini göstərir:

**1.** Milli birlik, barış və uzlaşmanın əldə edilməsi və konsensusa əsaslanan münasibətlər sisteminin bərqərar olunması;

**2.** Dövlət idarəetməsinin səciyyəvi xüsusiyyətlərinin və başlıca

oriyentasiyalarının dəyişilməsi, idarəetmə metodlarının təkmilləşməsi və inteqrasiyanın sürətlənməsi;

**3.** İctimai-siyasi təsisatlanmanın sürətlənməsi, effektiv qərar qəbuletmə sisteminin formalaşdırılması və rasional liderin rəhbərliyi ilə siyasi sistemin struktur elementlərinin təkmilləşdirilməsi;

**4.** Tranzitdən sonra bərqərar olunmuş dəyərlərin mənimsənilməsi və milli münasibətlərin yeni keyfiyyət çalarları ilə zənginləşməsi.

Beləliklə, nəzərdən keçirdiyimiz demokratik tranzit formaları, modelləri və konsepsiyalarının səciyyəvi xüsusiyyətlərini ümumiləşdirərək belə bir nəticəyə gələ bilərik ki, özündə mürəkkəb mərhələlər və prosedurları ehtiva edən demokratik tranzit müvafiq ölkənin siyasi sisteminə, milli mental xüsusiyyətlərinə və cari situativ durumuna görə spesifik səciyyə daşıyır. Digər tərəfdən, mərhələli transformasiya səciyyəsi daşıyan demokratik tranzit uzunmüddətli proses olmaq etibarilə milli zəmində ictimai-siyasi ahəngdarlıq, dinamizm və inteqrativ-simmetrik tərəqqini təmin edən tarixi mərhələ önəmi kəsb edir.

Amma müxtəlif ölkələrin nümunəsində toplanılan empirik faktlar belə bir nəticəyə gəlməyə əsas verir ki, modern cəmiyyət və qeyri-formal milli dövlət quruculuğu vəzifəsinin fonunda həyata keçirilən demokratik tranzit heç də xətti sabitlik və dinamik inkişafın zəmanət altına alınması mənasına gəlmir. Belə ki, mürəkkəb tarixi situasiyanın fonunda əsası qoyulan tranzit prosesinin milli münasibətlər zəminində davamlılığının təmin edilməsi lazımdır ki, ictimai-siyasi müstəvidə sabitlik, ahəngdarlıq və dinamizm təmin edilsin və reallaşdırılan siyasi-hüquqi islahatlar vasitəsilə milli inkişaf strategiyası mərhələli surətdə həyata keçirilsin. Məhz bundan sonra demokratik tranzitin bütün mərhələlərini reallaşdırmaq mümkündür. Lakin demokratik tranzit ərəfəsində olan bəzi ölkələrdə sistematik strateji tədbirlərin müvafiq tələblərə, qanunauyğunluqlara və reallıqlara adekvat surətdə həyata keçirilməməsi transformasiyanın natamam xarakter almasına səbəb olur. Məhz

belə bir situasiyanın fonunda həmin cəmiyyətlərdə demokratik tranzit baş tutmur və transformasiya avtoritarizmdən neoavtoritarizmə keçid formasında təzahür olunur.

## 4.3. “Demokratiya” “silah”ı geosiyasi oyunlar və siyasi manipulyasiya vasitəsi kimi

Beynəlxalq münasibətlər sisteminin təcrübi məsələlərlə təsbit edilmiş mühüm nəzəri-empirik gerçəkliklərindən biri də millətlərarası münasibətlərdə ideoloji, siyasi və iqtisadi müstəvidə cərəyan edən proseslərdə ümumbəşəri dəyərlərin nisbəti və təsiri məsələsidir. Bu, bir faktdır ki, beynəlxalq münasibətlərin tərəddüdsüz qəbul edilən aktorlarından biri olan milli dövlətlərarası münasibətlərdə müəyyən proseslər və olaylarla bağlı sövdələşmə predmeti kimi istifadə edilən vasitələrdən biri də ümumbəşəri səciyyə daşımaq etibarilə demokratiya və onun fundamental prinsipləridir. Ümumiyyətlə, demokratik idarəetmə və düşüncə tərzi daha çox ayrı-ayrı ölkələrə spesifik surətdə aid edilsə də, başqa sözlə, demokratiyaya bir ölkənin daxili idarəetmə səviyyəsi və səciyyəsini xarakterizə etmək üçün istinad edilsə də, beynəlxalq münasibətlər sistemində mütləq mənada demokratiyanın təməl prinsiplərindən bəhs etmək olmaz. Çünki beynəlxalq münasibətlər sistemi və dünya siyasətində aktorların davranışını şərtləndirən, motiv və stimul qismində çıxış edən təməl kateqoriya milli maraq və mənafe anlayışıdır. Qısacası, milli dövlətlərin strateji aktlarının və müvafiq davranış formalarının əsasında daimi və aralıq səciyyə daşıyan milli maraqlar durur.

Amma bütün bunlarla yanaşı, millətlərarası münasibətləri tənzimləyəcək, münasibətlərə dinamizm və ahəngdarlıq bəxş edəcək təməl prinsiplər mövcuddur ki, onlara nisbi və mütləq mənada istinad və əməl edilməsi beynəlxalq münasibətlərin paritet, simmetrik əsasda nizamlanmasına mühüm töhfələr bəxş edir. Bunlara dövlətlərin, millətlərin maraqlarına hörmət edilməsi, onların daxili işlərinə qarışılmaması, milli strategiyaların qarşı tərəfin təhlükəsizliyinə

təhdid yaratmasına yol verilməməsi və sair kimi müddəalar aiddir.

Lakin beynəlxalq münasibətlərin modern səciyyəvi xüsusiyyətlərinə nəzər saldıqda müşahidə etmək olur ki, sahib olduqları resurslara və potensial ünsürlərinə görə dünya siyasətinin başlıca tendensiyalarını formalaşdırmaq və yönləndirmək iqtidarında olan bəzi güc mərkəzləri ümumbəşəri səciyyə daşıyan bir sıra dəyərlərdən təzyiq, təsir və müdaxilə vasitəsi kimi istifadə edirlər. Bunların başında isə demokratiya və insan haqları məfhumları gəlir.

II Dünya müharibəsindən sonra beynəlxalq münasibətlər sistemində özlərinin milli və transmilli maraqlarını həyata keçirmək üçün ümumi nizamlama formulları ortaya çıxaran imperialist güclər müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində beynəlxalq hüquq normalarına istinad edilməsi məsələsini aktuallaşdırdılar və bütün bəşəriyyətə aid edilən ümumi normalardan istifadə etməklə özlərinin geostrateji maraqlarını mərhələli surətdə həyata keçirməyə başladılar. Məhz belə bir strateji aktın və niyyətin fonunda imperialist güclər nəzəri cəhətdən ümumbəşəri səciyyə daşıyan dəyərlərlə müəyyən edilmiş beynəlxalq hüquq normalarını monopoliyaya aldılar və bu normalardan geostrateji hədəflərlə şərtlənmiş imperialist ekspansiyanın ideoloji substratları qismində istifadə etməyə başladılar. Artıq bəhs edilən güc mərkəzləri müxtəlif ölkələrə münasibətdə özlərinin transmilli maraqlarını gerçəkləşdirə bilmədikləri hallarda demokratiya və insan haqları məsələlərindən təzyiq silahı kimi istifadə taktikasına müraciət edirdilər. Başqa sözlə, ümumbəşəri dəyərlər imperialist güclərin timsalında "qılınc" və "qalxan" qismində istifadə edilirdi. Məhz bunun qanunauyğun nəticəsidir ki, XX əsrin 60-70-ci illərində "demokratiyanın təmin olunması", "insan haqlarının bərqərar olunması" adları altında müxtəlif ölkələrdə bu və ya digər səviyyəli çevrilişlər edildi və bir sıra ölkələr sözün əsl mənasında xaos və anarxiya meydanına çevrildi. Bundan sonra isə müxtəlif geosiyasi məkanlarda "demokratiya dalğaları" kimi təsvir edilən "demokratik tranzit" proseslərinə start verildi və bu olayların fonunda qazananlar ixrac demokratiyasının bərqərar olunduğu ölkələr – idxalçılar yox, özlərinin geostra-

teji maraqları əsasında “demokratiya dalğaları”nı hərəkətə gətirənlər-“ixracatçı”lar oldular. Başqa sözlə, əsasında xarici faktorların dayandığı məlum keçidlər nəhəng güc mərkəzlərinin geosiyasi oyunlarının struktur elementi, tərkib hissəsi səciyyəsi daşıdı.

Nəhəng geosiyasi vahidlərdən biri olan SSRİ-nin iflasından sonra yaranmış təkqütblü dünya nizamının fonunda da analoji oyunlar, ssenarilər və planlar davam etdi və demokratiya, insan haqları kimi özündə ümumbəşəri dəyərləri ehtiva edən institusional məfhumlardan müdaxilə və istismar vasitəsi qismində istifadə edildi. Artıq Qərb “Yeni Dünya Düzəni” (“Le Nouvel Ordre Mondial”), “Mondializm” kimi mədəni imperializmə xidmət edən konsepsiyalar meydana gətirməklə geostrateji ekspansiyaları yeni keyfiyyətdə davam etdirdi. Bundan sonra “demokratiya” oyunları ən müxtəlif ölkələrin nümunəsində təzahür etdi.

Beləliklə, Qərbin ifa etdiyi “demokratiya nəğməsi”nin sivil insanların qətlinə, ölkələrin xaosa, böhrana və anarxiyaya sürüklənməsi ilə nəticələnməsi faktı növbəti dəfə sübut etdi ki, dünyanı idarə edən Atlantik aktorları “demokratiya”, “insan haqları” kimi formal institusional məfhumlardan özünün transmilli maraqlarını təmin etmək üçün təsir vasitəsi kimi istifadə etməkdədirlər.

## 4.4. Demokratik tranzitin milli modeli – Azərbaycan nümunəsi: reallıqlar və perspektivlər

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın qarşısında duran fundamental strateji vəzifələrdən biri də modern cəmiyyət və qeyri-formal milli dövlət quruculuğu prosesinin əsasının qoyulması idi. Bunun  üçünsə, ilk növbədə, ictimai-siyasi müstəvidə sabitlik təmin edilməli, əlaqələri sürüşkən müstəvidə cərəyan edən subyektlərarası antaqonist meyillər aradan qaldırılmalı, ictimai-siyasi təsisatlanmanın operativ və effektiv surətdə həyata keçirilməsini şərtləndirən struktur elementləri və real zəmin bərqərar olunmalı və sistematik strategiyanın fonunda mərhələli surətdə demokratik tranzit həyata keçirilməli idi. Bütün bunları reallaşdırmaq üçünsə

ilk növbədə, rasional təfəkkürə və praqmatik fəaliyyət mexanizminə malik olan LİDER SİYASƏTÇİ lazım idi.

Ancaq müstəqilliyin ilk iki ilində (1991-1993) ölkəyə səriştəsiz və irrasional təfəkkürə sahib olan təcrübəsiz şəxslərin rəhbərlik etməsi sadalanan vəzifələrin yerinə yetirilməsini mümkün etmədi. Hətta həmin ərəfədə çox ciddi institusional kataklizmlərlə müşayiət edilən xaotik proseslərin hökm sürməsi üfüqi və şaquli münaqişələrin, milli münasibətlər zəminində subyektlərarası dissonanslar və antaqonist əlaqələrin daha da kəskinləşməsinə və ictimai-siyasi müstəvidə kəskin qarşıdurma meyillərinin təzahür olunmasına səbəb oldu.

Akademik Ramiz Mehdiyev "Demokratiya yolunda: irs haqqında düşünərkən" adlı kitabında yazır ki, demokratiyanın 3 ilkin şərti mövcuddur:

**1.** Milli birliyin və müvafiq eyniyyətin (indentikliyin) əldə edilməsi;

**2.** İqtisadi inkişafın yüksək səviyyəsi;

**3.** Demokratik prinsiplərin tanınmasını nəzərdə tutan mədəni norma və dəyərlərin kütləvi surətdə yayılması.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsindən sonra həyata keçirilən sistematik və kompleks tədbirlər sayəsində ictimai-siyasi sabitlik təmin edildi və demokratik tranzit prosesinin həyata keçirilməsinə əlverişli zəmin yaradıldı. Demokratik tranzit prosesinin fonunda, ilk növbədə, Konstitusiyanın qəbul edilməsi milli inkişaf strategiyasının hüquqi substratlarının bərqərar olunmasını şərtləndirdi və bundan sonra mərhələli surətdə demokratik transformasiya prosesi həyata keçirilməyə başlandı.

Həmin ərəfədə Ümummilli lider Heydər Əliyev demokratik tranzitlə bağlı ölkənin qarşısında duran strateji vəzifələri məhz bu cür səciyyələndirirdi: "**Biz Azərbaycanda demokratik respublika quraraq sivilizasiyalararası cəmiyyət uğrunda mübarizə apararaq ümumi dünyəvi, bəşəri dəyərlərin hamısından istifa-**

**də etməliyik. Çalışmalıyıq ki, Azərbaycan uzun illərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilsin. Azərbaycan xalqının bu barədə həm tarixi, həm də müasir potensialı olduqca böyükdür. Bunların hamısından istifadə olunsa, Azərbaycan həm tam müstəqil dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik-hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan demokratik bir cəmiyyət olacaq**".

"**Azərbaycan Respublikasında demokratik-hüquqi dövlət qurulmalıdır. Azərbaycan Respublikası demokratiya yolu ilə getməlidir, heç vaxt totalitar sistemə, kommunizm rejiminə qayıtmamalıdır. Azərbaycan Respublikasında siyasi plüralizm hökm sürməlidir. İnsan, söz, din, dil azadlığı – bunların hamısı bərqərar edilməlidir. İnsan hüquqlarının qorunması bizim əsas məqsədlərimizdən biri, dövlət orqanlarının, hüquq-mühafizə orqanlarının əsas vəzifələrindən biri olmalıdır. Dövlətin hüquqları da qorunmalıdır. Biz iqtisadiyyatda köklü islahatlar aparıb, bazar iqtisadiyyatına keçməliyik. Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişməkdir, Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməkdir, Azərbaycan vətəndaşlarının gələcək həyatını azadlıq, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq, bu yolla da gedəcəyik. Bu yol xalq yoludur**".

Demokratik transformasiya prosesinin fonunda dövrün və şəraitin qanunauyğunluqlarına, reallıqlarına və çağırışlarına müvafiq surətdə siyasi-hüquqi islahatların həyata keçirilməsi, ictimai-siyasi təsisatlanmanın davamlılığının təmin edilməsi, ictimai-siyasi münasibətləri yeni şəraitə uyğun formada tənzimləmək üçün sosial strukturlar və siyasi təsisatların fəaliyyətinə legitim şəraitin yaradılması, sosial stratifikasiyalararası ictimai münasibətlərin sağlam dəyərlər əsasında təşkil edilməsi nəticə etibarilə özündə yeni və daha təkmil struktur elementlərini, sağlam milli münasibətləri və dəyərləri birləşdirən, ehtiva edən siyasi sistemin təşəkkül tapmasını şərtləndirdi ki, bu da bəhs edilən prosesin effektivliyini təmin

etmiş oldu.

Azərbaycanda demokratik transformasiyanın səmərəliliyini və tamlığını təmin edən digər təməl faktor bu prosesin radikal surətdə yox, təkamül yolu ilə baş tutması oldu. Bununla bağlı Azərbaycan xalqının Ümummilli lideri, Ulu öndər Heydər Əliyev deyirdi: "**Demokratiya daim inkişafda olan bir prosesdir. Bu, bir mərhələdən o birinə qədər təkmilləşmə yolu ilə getməlidir. Bu təkmilləşmə inqilabi yolla yox, təkamül yolu ilə olmalıdır. Çünki hər bir şeyə tezliklə nail olmaq çətindir**".

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu demokratik tranzit prosesi təkmil struktur elementləri ilə özündə bir neçə xüsusi və fundamental səciyyəvi xüsusiyyətləri cəmləşdirdi. Belə ki, tranzit prosesinin başlanğıcında və onun müxtəlif mərhələlərində vətəndaşlara geniş hüquq və azadlıqlar verildi, mövcud məhdudiyyətlər aradan qaldırıldı və formalaşmış siyasi plüralizm rəqabətə əsaslanan münasibətlər və proseslərin konstruktivliyini təmin etdi. Köhnə təsisatların yeniləri ilə əvəz olunması, idarəetmədə kardinal reformativ dəyişikliklərin baş verməsi, loyallığın və legitimliyin təmin edilməsi istər-istəməz cəmiyyətdə bəhs edilən innovasiyalara münasibətdə təfəkkür dəyişikliklərinin baş tutmasını zəruri etdi. Məhz belə bir strateji missiyanın fonunda mərhələli surətdə demokratiyanın konsolidasiyası, yəni, yeni dəyərlərə uyğunlaşmanın baş tutması üçün sistematik tədbirlər görüldü. Milli birlik, barış və uzlaşmanın əldə edilməsi və konsensusa əsaslanan münasibətlər sisteminin bərqərar olunması, dövlət idarəetməsinin səciyyəvi xüsusiyyətlərinin və başlıca oriyentasiyalarının dəyişilməsi, idarəetmə metodlarının təkmilləşməsi və inteqrasiyanın sürətlənməsi, ictimai-siyasi təsisatlanmanın sürətlənməsi, effektiv qərar qəbuletmə sisteminin formalaşdırılması və rasional liderin rəhbərliyi ilə siyasi sistemin struktur elementlərinin təkmilləşdirilməsi, tranzitdən sonra bərqərar olunmuş dəyərlərin mənimsənilməsi və milli münasibətlərin yeni keyfiyyət çalarları ilə zənginləşməsi prosesin səmərəliliyini və davamlılığını təmin etmiş oldu.

Beləliklə, Ulu öndər Heydər Əliyevin sistematik surətdə baş-

latdığı demokratik transformasiya prosesi Prezident İlham Əliyev tərəfindən dövrün və şəraitin çağırışlarına, qanunauyğunluqlarına adekvat surətdə davam etdirildi. Prezident İlham Əliyev bəhs edilən strateji vəzifələri məhz bu cür dəyərləndirirdi: "Vətəndaş cəmiyyəti quruculuğu, demokratik proseslərin möhkəmlənməsi, hüquqi dövlətin formalaşması heç də şüar və arzu deyil, Azərbaycanın hərtərəfli inkişafının başlıca şərtidir. Bizim təcrübəmiz göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur".

Modernləşmə strategiyasının yeni keyfiyyətdə davam etdirilməsi, siyasi mədəniyyətin yeni keyfiyyət ünsürləri ilə zənginləşdirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının təkmillik səviyyəsinin artırılması istiqamətində təməl strateji tədbirlərin görülməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, subyektlərarası simmetrik münasibətlərə real əlverişli zəmin yaradan plüralist mühitin möhkəmləndirilməsi kimi strateji səciyyə daşıyan faktorlar təkmil və mükəmməl struktur elementlərinə malik olan siyasi sistemin tamlığını təmin etdi. Məhz bunun da qanunauyğun nəticəsi kimi, demokratik transformasiya yeni keyfiyyətdə davam etdirildi və onun mütləq komponentləri bərqərar oldu.

Sadalananları sübut edən başlıca faktlardan biri də ölkədə hüquqi dövlət və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin təşəkkül tapması oldu. Belə ki, hüququn aliliyi, ictimai həyatın bütün sahələrində qanunun hökmranlığı prinsiplərinin mühafizə olunması dövlətin və vətəndaşların qarşılıqlı mənəvi məsuliyyətinin güclənməsini təmin etməklə yanaşı, hüquqi dövlətin təməllərini də möhkəmlətmiş oldu.

Bunlarla yanaşı, milli iqtisadi strategiyanın rasional və praqmatik surətdə reallaşdırılması, sosial rifahın yüksək səviyyədə təmin edilməsi, bunun müqabilində siyasi və iqtisadi islahatların paralel şəkildə həyata keçirilməsi kimi faktorlar demokratikləşmə strategiyasının effektivliyinin təmin olunmasına fundamental töhfələr bəxş etdi. Məhz bu amilə xüsusi önəm verən Prezident İlham Əliyev bildirmişdi: "**Əsl açıq demokratik cəmiyyəti ancaq maddi rifah əsasında qurmaq mümkündür. İqtisadi cəhətdən geri-**

**də qalmış ölkələrdə demokratik proseslər də geridə qalır. O ölkələr ki, onlar iqtisadi cəhətdən güclüdürlər, orada sahibkarlıq inkişaf edibdir və azad sahibkarlıq böyük uğurlar qazanıbdır, – o ölkələrdə demokratiyanın inkişafı da çox yüksək zirvədədir. Ona görə iqtisadi islahatların davam etdirilməsi xalqın maddi rifahının yaxşılaşması demokratik cəmiyyətin qurulması və formalaşdırılması üçün başlıca şərtdir**”.

“**Ancaq bununla bərabər, əgər sadəcə olaraq, iqtisadi məsələlərə diqqətimizi yönəltsək və siyasi islahatlarda hansısa bir yubanma olarsa, bu da Azərbaycanın qarşısında duran vəzifələrin həlli üçün bizə imkan yaratmayacaqdır. Siyasi islahatlar mütləq aparılmalı və Azərbaycan müasir ölkəyə çevrilməlidir**”.

Beləliklə, 1993-cü ildən başlayaraq milli inkişaf strategiyasının təməl prinsip və müddəaları əsasında həyata keçirilən sistematik strateji kurs sayəsində demokratik tranzitin effektivliyi və tamlığı bərqərar olundu. Məhz bunun qanunauyğun nəticəsi kimi, demokratik transformasiyanın milli modelinin – Azərbaycan modelinin əsası qoyulmuş oldu.

Bəzi araşdırmaçılar bildirirlər ki, demokratiya özündə ümumbəşəri dəyərləri ehtiva etdiyindən universal mahiyyətə malikdir. Amma müxtəlif ölkələrin nümunəsində aşkar görünür ki, özündə ümumbəşəri dəyərləri ehtiva edən demokratiyanın milli modelini yaratmaq və onun davamlılığını təmin etmək mümkündür. Milli demokratiya modeli dedikdə isə ümumbəşəri dəyərlərin milli mental xüsusiyyətlərlə uzlaşdırılması fonunda ortaya çıxmış ümumi və xüsusi dəyərlər sistemi nəzərdə tutulur. Odur ki, milli demokratiya modeli özündə milli mental xüsusiyyətləri və xalqın özünəməxsus keyfiyyətlərini ehtiva etdiyindən ümummilli inkişafın təmin edilməsinin ən ideal vasitəsi kimi çıxış edir. Dünya təcrübəsindən məlumdur ki, müxtəlif geosiyasi məqsədlər və planlar əsasında ixrac edilən demokratiya modelləri, ilk növbədə, həmin xalqın milli mental xüsusiyyətlərinə və müvafiq dəyərlər sisteminə zidd olduğundan ziddiyyətlər mənbəyi kimi çıxış edir və milli zəmində assimilyasiyaya real zəmin yaratmış olur. Odur ki, ümummilli

inkişafın strateji substratlarının formalaşdırılması və onun davamlılığının təmin edilməsi üçün özündə milli dəyərlər sistemini ehtiva edən inkişaf və transformasiya modelinə istinad etmək zəruridir.

Bütün bunların fonunda bir daha belə bir nəticəyə gəlmək olur ki, Ulu öndər Heydər Əliyevin milli mental xüsusiyyətlərə və dəyərlərə müvafiq surətdə  başlatdığı demokratik transformasiyanın milli modelinin Prezident İlham Əliyev tərəfindən dövrün reallıqlarına və qanunauyğunluqlarına müvafiq surətdə yeni keyfiyyətdə davam etdirilməsi siyasi sistemin təməl struktur elementlərinin təkmilləşməsinə təkan verməklə yanaşı, hüquqi dövlət və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunmasını da şərtləndirmiş oldu. Nəticə etibarilə, milli demokratiya modelinin fonunda siyasi və iqtisadi islahatların paralel surətdə effektiv və operativ şəkildə aparılması milli inkişafın fundamental determinantı qismində çıxış etmiş oldu.

*Biz demokratiya yolu seçmişik, demokratiyanı da inkişaf etdiririk. İnsan haqlarını təmin etmişik. Azərbaycanda mətbuat azadlığı, vicdan azadlığı, söz azadlığı tamamilə təmin olunubdur. Siyasi plüralizm hökm sürür. Hər şey demokratik prinsiplər əsasındadır*

***Ulu öndər Heydər Əliyev***

***

*Azərbaycan dövləti müasirliyə, inkişafa sadiq olduğunu islahatların davam etdirilməsində nümayiş etdirir... Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması prosesi uğurla gedir, xalqla iqtidar arasında birlik vardır. Bütün təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir, əks təqdirdə biz bu inkişafa nail ola bilməzdik*

***Prezident İlham Əliyev***

# V FƏSİL

# HÜQUQİ DÖVLƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ QURUCULUĞU MİLLİ İNKİŞAF STRATEGİYASININ BAŞLICA İSTİQAMƏTİ KİMİ: NƏZƏRİ-EMPİRİK MƏSƏLƏLƏR VƏ AZƏRBAYCAN NÜMUNƏSİ

## 5.1. Hüquqi dövlət anlayışı: tarixi kökləri, təşəkkülü xüsusiyyətləri və modern səciyyəsi

Müasir siyasi-hüquqi leksikonda ən çox istifadə və istinad edilən anlayışlardan biri də hüquqi dövlət məfhumudur. Təsadüfi deyil ki, demokratik transformasiya nəzəriyyələrində və modern cəmiyyət quruculuğuna dair sistematik konsepsiyalarda hüquqi dövlət quruculuğu demokratikləşmə strategiyası və prosesinin birinci dərəcəli struktur elementi kimi səciyyələndirilir.

Bəs hüquqi dövlət nədir, bu anlayış özündə hansı səciyyəvi xüsusiyyətləri və struktur elementlərini ehtiva edir? Bir çox nəzəriyyəçilər və araşdırmaçılar hüquqi dövlət məfhumunu legitim hakimiyyət anlayışı ilə eyniləşdirsələr də, bunlar tamamilə fərqli kateqoriyalar kimi səciyyələndirilməlidir. Əslində, legitim hakimiyyət hüquqi dövlətin bir göstəricisi və ya təməl struktur elementidir. Elmi ədəbiyyatda isə hüquqi dövlətə məhz bu cür tərif verilir: “**Hüquqi dövlət siyasi hakimiyyətin daşıyıcısı və hüququn subyekti kimi onun fərdlərlə qarşılıqlı münasibətlərinin təşkili və idarə olunmasının qanuni, leqal formasıdır**”.

Ümumiyyətlə, antik dövrdən başlayaraq bir çox siyasi-hüquqi təlimlərdə hüquqi dövlətin təməl xüsusiyyətləri və elementləri təsvir edilsə də, bu anlayış XVIII əsrin sonu-XIX əsrin əvvəllərində meydana gələn müvafiq sistematik konsepsiyalarda əks olunmuşdur. XIX əsrin əvvəllərində nəzəriyyəçi-alimlər K.Velker və R. fon Mol tərəfindən işlədilən hüquqi dövlət məfhumu zaman keçdikcə hüququn aliliyinin və qanunların hökmranlığının təsbit olunduğu dövlət forması kimi səciyyələndirilməyə başlandı. Bu sahədə bir

çox nəzəriyyələr və konsepsiyalar yaradıldı və hüquqi dövlət məfhumu daha çox real olanla ideal arasındakı aralıq mövqedə qərarlaşdırıldı.

İlk əvvəllər hüquqi dövlət forması nəzəri mənbələrdə həddən artıq-ifrat şəkildə ideal məfhum kimi səciyyələndirilirdi, amma zaman keçdikcə praktik müstəvidə müşahidə edilən reallıqlar hüquqi dövlət anlayışına yanaşmanı dəyişdirdi. Artıq hüquqi dövlət dedikdə hüququn aliliyinin, qanunların hökmranlığının təsbit edildiyi, insan və vətəndaş hüquq və azadlıqlarının mütləq surətdə təmin və müdafiə olunduğu idarəetmə forması nəzərdə tutulur. Bunlarla yanaşı, hüquqi dövlətə xas olan spesifik, səciyyəvi xüsusiyyətlər sırasına hakimiyyət bölgüsü (qanunverici, icraedici və məhkəmə hakimiyyəti), konstitusion idarəetmə sistemi, dövlətlə vətəndaşların qarşılıqlı məsuliyyətinə əsaslanan leqal münasibətlər sistemi kimi fundamental hüquqi substratlarla təsbit edilmiş əlamətlər aid edilir.

Eyni zamanda, hüquqi dövlət forması və məfhumundan bəhs edərkən **“xalq suverenliyi”** və **“milli suverenlik”** anlayışları da diqqət mərkəzinə çəkilir. “Xalq suverenliyi” dedikdə mütləq substrat kimi xalqın iradəsinin təsbit edilməsi nəzərdə tutulur. Amma bu yanaşma özündə mütləq surətdə reallığa əsaslanan elementləri ehtiva etmir. Çünki ictimai-siyasi proseslərin subyekti qismində bütöv xalq deyil, ayrı-ayrı aktorlar çıxış etdiyindən xalqın iradəsinin mütləq substrat qismində qəbul edilməsi düzgün deyil. Doğrudur, xalqın iradəsi hüquqi dövlətin mütləq komponentidir, amma onu vahid substrat qismində səciyyələndirmək real proseslərin, statik və dinamik durumun məntiqinə müvafiq deyil. Bununla yanaşı, “milli suverenlik” anlayışı da özünün mahiyyəti və əlamətləri ilə hüquqi dövlət formasının struktur elementi kimi səciyyələndirilir. “Milli suverenlik” dedikdə, ilk növbədə, milli iradə anlayışı ön plana çəkilir və milli münasibətlər sistemində idarəetmə subyektlərinin iradəsi təməl substrat qismində qəbul edilir. Məhz bu faktor hüquqi dövlətin fonunda milli iradənin legitim və leqal forması kimi səciyyələndirilir.

Beləliklə, hüquqi dövlət dedikdə, ilk növbədə, qanunların aliliyi, hüquqi norma və qaydaların üstünlüyünün təsbit olunduğu, mütəmadi siyasi-hüquqi islahatların reallaşdırıldığı, subyektlərin fəaliyyətinə legitim və leqal surətdə rəqabətə əsaslanan plüralist mühitin yaradıldığı, ictimai-siyasi təsisatlanmanın hüquqi substratlarının formalaşdırıldığı ali sosial-siyasi təsisat nəzərdə tutulur. Məhz bu cür dövlətin idarəetmə sistemi və fəaliyyət mexanizminin əsasını hüquqi normalar, qaydalar və substratlar təşkil edir.

## 5.2. Vətəndaş cəmiyyəti: ideya əsasları və səciyyəvi xüsusiyyətləri

Siyasi-hüquqi leksikonda ən çox istifadə və istinad edilən növbəti anlayışlardan biri də vətəndaş cəmiyyəti məfhumudur. Vətəndaş cəmiyyəti anlayışı elmi ədəbiyyatda müxtəlif təriflərlə səciyyələndirilsə də, ən müxtəlif yanaşmalarda mahiyyət etibarilə eyni nəticə və qənaətlər əldə edilməkdədir. Bir çox mənbələrdə vətəndaş cəmiyyəti sosial ideal və real ictimai vəziyyət arasındakı nisbəti ifadə edən anlayış kimi səciyyələndirilir. Ümumiyyətlə, vətəndaş cəmiyyəti siyasi sistemin struktur elementi olsa da, qeyri-siyasi təmayülü və xarakteri ilə fərqlənir. Belə ki, vətəndaş cəmiyyəti dövlətdən asılı olmayan, amma dövlətlə əlaqəsi olan, inzibati deyil, könüllü qaydada yaradılan sosial birlikdir. Başqa sözlə, vətəndaş cəmiyyəti mülki şəxslərin könüllü birləşməsi nəticəsində yaranan, özünütənzimləmə və özünüidarə mexanizminə malik olan, qeyri-siyasi səciyyəsi ilə sivil şəxslər və münasibətlər sistemini ehtiva edən ictimai birlik kimi səciyyələndirilir.

Jan Jak Russo qeyd edir ki, insanın başlıca sosial tələbatlarından biri də birlikdə yaşamaqdır. Məhz buna görə sosial varlıq olmaq etibarilə insan daim yeni birliklərə can atır. J.J.Russonun qənaətincə, cəmiyyət təkmilləşdikcə insanlar yeni sosial birlik formasında yaşayırlar. Məhz bu cür sosial birliyi Russo vətəndaş cəmiyyəti adlandırır.

Q.F.Slesarov isə qeyd edir ki, vətəndaş cəmiyyəti hüquqi dövlətdə formalaşan sosial birlikdir. O, vətəndaş cəmiyyətini məhz bu cür təsvir edir: **"Vətəndaş cəmiyyəti sosiumun nümayəndələrinin könüllü surətdə birləşdiyi, münasibətləri ümumi şəkildə qəbul edilən norma və dəyərlərlə tənzimlənən və qeyri-siyasi səciyyəsi ilə fərqlənən ümumi ictimai birlikdir".**

Q.F.Slesarov bildirir ki, vətəndaş cəmiyyəti cəmiyyət həyatının bütün sahələrində könüllü yaranan qeyri-dövlət strukturlarını (birliklər, ictimai təşkilatlar, assosiasiyalar və s.) özündə ifadə etməklə yanaşı, bir çox istiqamətləri (sosial, mədəni, iqtisadi, hüquqi) ehtiva edən münasibətlər məcmusu kimi dəyərləndirilməlidir.

Y.İ.Averyanovun elmi redaktorluğu ilə nəşr edilən politologiyaya dair ensiklopedik lüğətdə isə qeyd olunur ki, vətəndaş cəmiyyəti dövlətdən asılı olmayan, inzibati qayda və normalarla tənzim və idarə edilməyən, fəaliyyət mexanizmini sivil qarşılıqlı maraqlar əsasında formalaşdıran, üzvləri arasında iqtisadi, mədəni, sosial və hüquqi münasibətlərin mərkəzi qismində çıxış edən ictimai təsisatdır.

Vətəndaş cəmiyyəti özünün spesifik funksiyaları ilə cəmiyyətdə üzvi bütövlük, ahəngdarlıq və ümumi inkişafı təmin edən mexanizm kimi çıxış edir. Bunu təsdiq etmək üçün vətəndaş cəmiyyətinin bir neçə funksiyasına nəzər yetirmək məqsədəmüvafiqdir:

*– Sosiallaş(dır)ma funksiyası: vətəndaş cəmiyyəti könüllü nümayəndələri özündə birləşdirən birlik olduğundan həm üzvlərinin, həm də münasibətdə olduğu subyektlərin sosiallaşma səviyyəsinə müsbət təsir edən sosium qismində çıxış edir. Belə ki, eyni təsisat daxilində mədəni, iqtisadi, sosial və hüquqi münasibətlərdə olan subyektlər qarşılıqlı surətdə bir-birilərinin sosiallaşmasına təsir etməklə yanaşı, yeni münasibətlər sisteminin formalaşmasını da şərtləndirirlər. Məhz bunun nəticəsi kimi, subyektlərin iştirakçılıq səviyyəsi artır və münasibətlərin əhatə dairəsi genişlənir;*

*– Kommunikativ (əlaqələndirici) funksiya: vətəndaş cəmiyyəti-*

*nin nümayəndələri arasındakı sosial, iqtisadi, hüquqi və mədəni münasibətlər sisteminin formalaşdırılması və inkişaf etdirilməsi üçün xüsusi önəm kəsb edir;*

*– İnteqrasiya funksiyası: bu, ümumi sosiumun tərkibində "mərkəzdənqaçma" meyillərini neytrallaşdırmaqla yanaşı, sosial, hüquqi, mədəni və iqtisadi münasibətlər sisteminin aktorları arasında qarşılıqlı əlaqələri təmin və mühafizə edən mexanizm qismində çıxış edir. İnteqrativ funksiya münasibətlər sistemini tənzimləyən və ahəngdarlığı təmin edən mühüm vasitə kimi də dəyərləndirilə bilər;*

Beləliklə, yuxarıda sadalanan funksiyalar da deməyə əsas verir ki, vətəndaş cəmiyyəti öz funksionallığı etibarilə sosiumda inteqrasiya, kommunikasiya, həmrəylik, bütövlük və ahəngdarlığı təmin edən mexanizm kimi dəyərləndirilə bilər. Bu baxımdan, qeyri-formal milli dövlət və modern cəmiyyət quruculuğunun mühüm strateji istiqamətlərindən biri olmaq etibarilə vətəndaş cəmiyyəti quruculuğu hər bir demokratik və hüquqi dövlətin qarşısında duran fundamental vəzifələrdən biri hesab edilir.

## 5.3. Azərbaycanda hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunması: mərhələləri, spesifikası və nəticəsi

Qeyd etdiyimiz kimi, müstəqillik əldə etdikdən sonra Azərbaycanın qarşısında duran təməl strateji vəzifələrdən biri və birincisi qeyri-formal milli dövlət və modern cəmiyyət quruculuğu prosesinin əsasının qoyulması və onun davamlılığının təmin edilməsi idi. Bunun üçünsə siyasi, iqtisadi, hüquqi və digər sahələrdə sabitləşdirici mexanizmlər yaradılmalı və bunun ardınca bəhs edilən istiqamətlərdə fundamental struktur islahatları həyata keçirilməli idi. Amma müstəqilliyin ilk iki ilində (1991-1993-cü illər) ölkəyə rəh-

bərlik edən səriştəsiz qüvvələrin antimilli mövqe əsasında yaratdıqları xaos və kataklizmlər nəinki bəhs edilən vəzifələrin həyata keçirilməsini mümkün etmədi, hətta Azərbaycanı mürəkkəb siyasi-iqtisadi problemlərin fonunda öz müstəqilliyini itirmək təhlükəsi qarşısında qoydu.

Ancaq Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra bəhs edilən vəzifələrin yerinə yetirilməsi mümkün oldu. Belə ki, ilk növbədə, ictimai-siyasi sabitlik təmin edildi, təsisatlar və strukturların fəaliyyətinə normal şərait yaradıldı, bunun ardınca bütün sahələrdə təməl struktur islahatlarının həyata keçirilməsi tendensiyasının əsası qoyuldu. Bununla da hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin əsasını qoymaq üçün real əlverişli şərait yarandı.

Beləliklə, 1995-ci ilin 12 noyabr tarixində Konstitusiyanın qəbul edilməsi ilə ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunması istiqamətində təməl strateji tədbirlər görülməyə başlandı. Bəhs edilən strateji səciyyəli vəzifənin yerinə yetirilməsi üçün konstitusion-hüquqi substratların yaradılması bu sahədə ardıcıl və mütəmadi islahatların həyata keçirilməsini mümkün etməklə yanaşı, qanunların aliliyinin, hüquqi norma və qaydaların üstünlüyünün təsbit olunduğu, mütəmadi siyasi-hüquqi islahatların reallaşdırıldığı, subyektlərin fəaliyyətinə legitim və leqal surətdə rəqabətə əsaslanan plüralist mühitin yaradıldığı, ictimai-siyasi təsisatlanmanın hüquqi substratlarının formalaşdırıldığı siyasi sistemin bərqərar olunması işinə fundamental töhfələr bəxş etdi. Məhz bundan sonra hüquqi dövlət və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunması istiqamətində həyata keçirilən ardıcıl və sistematik tədbirlər bəhs edilən sahədə əhəmiyyətli nailiyyətlərin əldə olunmasını şərtləndirdi.

Hüquqi dövlətin təməl atributlarından və əlamətlərindən biri kimi ilk növbədə, insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə olunması istiqamətində kompleks tədbirlər görüldü. Belə ki, bəhs edilən sahədə fundamental institusional

mexanizmlərin formalaşdırılması və mövcud resurslardan səmərəli şəkildə istifadə edilməsi insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi işinə birmənalı şəkildə mühüm töhfələr bəxş etdi. Bununla yanaşı, bəhs edilən istiqamətdə Konstitusiyaya müvafiq surətdə normativ hüquqi aktların qəbul edilməsi, müvafiq Sərəncam və Fərmanların verilməsi, ölkəmizin milli maraqlar və dəyərlər əsasında beynəlxalq konvensiyalara və müqavilələrə qoşulması insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi mexanizminin səmərəliliyini təmin edən növbəti strateji faktor kimi dəyərləndirilməlidir. Bu sıraya Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində müəyyən olunmuş tədbirlərin əsaslı və məqsədyönlü şəkildə həyata keçirilməsi məqsədilə Ulu öndər Heydər Əliyevin 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edilməsini, məhz bu cür ali və humanist mövqeyin qanunauyğun nəticəsi kimi, Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamına əsasən, 18 iyunun Azərbaycanda İnsan hüquqları günü elan edilməsini və bundan sonra da bu sahədə əhəmiyyətli strateji tədbirlərin görülməsini, 24 avqust 2002-ci il və 18 mart 2009-cu il tarixlərində keçirilmiş ümumxalq səsverməsini – referendumlar nəticəsində insan və vətəndaş hüquq və azadlıqları istiqamətində qanunvericilik bazasının zənginləşdirilməsini və digərlərini aid etmək olar.

Bundan başqa, siyasi sistemin struktur elementlərinin təkmilləşdirilməsi məqsədilə həyata keçirilən siyasi-hüquqi islahatlar da hüquqi dövlət və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunması işinə fundamental töhfələr bəxş etdi. Belə ki, bu sıraya ictimai-siyasi institutlaşma tendensiyasının əsasının qoyulmasını, təsisatların leqal və legitim fəaliyyətinə əlverişli şəraitin yaradılmasını, hakimiyyətin hər üç müstəqil qolunun suveren və leqal substratlarla təsbit olunmuş fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılması yönündə hüquqi mexanizmlərin təkmilləşdirilməsini, dövlətlə vətəndaşların qarşılıqlı məsuliyyətinə əsaslanan leqal münasibətlər sisteminin formalaşdırılmasını və s. aid

etmək olar.

Beləliklə, bütün bunlar mülki şəxslərin könüllü birləşməsi nəticəsində yaranan, özünütənzimləmə və özünüidarə mexanizminə malik olan, qeyri-siyasi səciyyəsi ilə sivil şəxslər və münasibətlər sistemini ehtiva edən ictimai birlik kimi səciyyələndirilən vətəndaş cəmiyyətinin də formalaşdırılması üçün xüsusi önəm kəsb edən təməl strateji substratlar oldu. Məhz bütün bu tədbirlər və nailiyyətlərin fonunda vətəndaş cəmiyyəti özünün spesifik funksiyaları ilə cəmiyyətdə üzvi bütövlük, ahəngdarlıq və ümumi inkişafı təmin edən mexanizm kimi çıxış etdi. Odur ki, məhz bu cür funksionallığın fonunda eyni təsisat daxilində mədəni, iqtisadi, sosial və hüquqi münasibətlərdə olan subyektlər qarşılıqlı surətdə bir-birilərinin sosiallaşmasına təsir etməklə yanaşı, yeni münasibətlər sisteminin formalaşmasını da şərtləndirdilər. Bu isə ümumi sosiumun tərkibində "mərkəzdənqaçma" meyillərini neytrallaşdırmaqla yanaşı, sosial, hüquqi, mədəni və iqtisadi münasibətlər sisteminin aktorları arasında qarşılıqlı əlaqələri təmin və mühafizə edən mexanizm qismində çıxış etmiş oldu.

Məhz bütün bu nailiyyətlərin önəminə toxunan Prezident İlham Əliyev qeyd etmişdir: "**Biz müasir dövlət qururuq. Dövlət quruculuğu Azərbaycanda, əslində, 1993-cü ildən sonra başlamışdır. Dövlətçiliyin əsasları qoyulmuşdur, Azərbaycanda hüquqi dövlətin yaradılması istiqamətində çox önəmli addımlar atılmışdır, islahatlar aparılmışdır. Bu gün bu islahatlar davam etdirilir. İstər siyasi sahədə, istərsə də iqtisadi sahədə islahatların davam etdirilməsi hər bir cəmiyyət üçün inkişafa gedən yoldur. Azərbaycan dövləti müasirliyə, inkişafa sadiq olduğunu islahatların davam etdirilməsində nümayiş etdirir... Ancaq əldə edilmiş uğurlar, sadəcə, bizim üçün gələcək addımların atılması üzrə bir stimul olmalıdır. Həyat yerində durmur, ölkə qarşısında yeni vəzifələr çıxır, yeni çağırışlarla üzləşirik və biz hazır olmalıyıq. Bunu etmək üçün güclü iqtisadiyyat və güclü siyasi sistem olmalıdır... Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması prosesi uğurla**

**gedir, xalqla iqtidar arasında birlik vardır. Bütün təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir, əks təqdirdə biz bu inkişafa nail ola bilməzdik**”.

*Prezident kimi mənim üçün hər bir Azərbaycan vətəndaşının hüququnun qorunması vacibdir... Azərbaycan Respublikası öz həyatını demokratik prinsiplər əsasında quraraq daim çalışacaqdır ki, insan hüquqlarının qorunmasına əməl edilsin... İnsan hüquqlarının qorunması Azərbaycan dövlətinin əsas prinsiplərindən biridir*

***Ulu öndər Heydər Əliyev***

***

*Biz ölkəmizdə demokratiyanın, insan hüquqlarının inkişafına və qorunmasına çox böyük əhəmiyyət veririk... Əlbəttə, çox vacibdir ki, bu sahədə həm beynəlxalq təşkilatlar tərəfindən, eyni zamanda, bu sahə ilə bilavasitə məşğul olan qurumlar tərəfindən vahid meyarlar tətbiq olunsun. Biz, əlbəttə, gələcək fəaliyyətimizdə də Azərbaycanda həm siyasi, həm iqtisadi, həm də sosial islahatları davam etdirəcəyik, insan hüquqlarının qorunması üçün bütün lazımi tədbirləri görəcəyik*

***Prezident İlham Əliyev***

# VI FƏSİL

# İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQ VƏ AZADLIQLARI: TARİXİ TƏKAMÜLÜ, SİYASİ-HÜQUQİ, BEYNƏLXALQ ASPEKTLƏRİ VƏ AZƏRBAYCAN TƏCRÜBƏSİ

## 6.1. İnsan və vətəndaş hüquq və azadlıqlarının təşəkkülü, inkişafı və siyasi mahiyyəti: nəzəri əsaslar və təcrübi gerçəkliklər

Hər bir insanın hakimiyyətin mənbəyi, siyasətin əsas və ilkin statusuna, hər bir vətəndaşın siyasətin və bütövlükdə ictimai həyatın real və potensial iştirakçısına çevrilməsinə təminat verən nəzəri institusional mexanizm insan hüquqlarıdır. İstənilən modern cəmiyyətin demokratikliyi və vətəndaşların konstitusiya hüquqlarının qorunması, ilk növbədə, insan hüquqlarının müdafiəsi səviyyəsi ilə ölçülür. Demokratiya və insan hüquqlarının birbaşa və əks əlaqəsi olduqca sadədir: insan hüquqlarına əməl və hörmət edilmədən demokratiyanın mövcudluğu və təsir mexanizmi təmin edilə bilməz və əksinə, əsl demokratiyanın bərqərar olunması insan hüquqlarının təmin edilməsi üçün fundamental zəmindir.

İnsan hüquqlarının dövlətin konstitusiyasına daxil edilməsi konsensusun və siyasi stabilliyin təmin olunması prosesinin başlanğıc nöqtəsidir. Onların konstitusiya səviyyəsində təsbit edilməsi ayrı-ayrı hakimiyyət strukturları və bütövlükdə dövlət hakimiyyəti tərəfindən hakimiyyətdən və inzibati resurslardan sui-istifadə imkanlarını məhdudlaşdırır. İnsan hüquqlarının nəzəri cəhətdən konstitusion əsasda təsbit edilməsi sosial-siyasi münasibətlər sisteminin hüquqi substratlar əsasında tənzimlənməsini təmin etməklə yanaşı, idarəetmənin institusional səviyyəsinin səmərəliliyini də şərtləndirmiş olur.

Müasir demokratik cəmiyyətlərdə milli hüquq müdafiə mexanizmlərinin səmərəliliyi, ilk növbədə, dövlətin bu sahədəki fəaliy-

yətindən və onun müvafiq istiqamətdə həyata keçirdiyi siyasətdən asılıdır. Hakimiyyət strukturlarının konstitusion əsasda təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarına institusional münasibəti, onların təmin və mühafizə edilməsi istiqamətində gördüyü sistematik tədbirlər bəhs edilən hüquq və azadlıqların təcrübi müstəvidə tətbiqinin səmərəlilik səviyyəsini müəyyən edir. Məhz buna görə də, bir çox nəzəri mənbələrdə bildirilir ki, milli dövlət insan və vətəndaş hüquq və azadlıqlarının başlıca təminatçısı və mühafizəçisidir.

İnsan hüquqları müxtəlif iqtisadi və siyasi sistemlərin, ideologiya və mədəniyyətlərin mövcud olduğu müasir dünyamızda insanları və cəmiyyətləri birləşdirən, onların qarşılıqlı inteqrasiyasını təmin edən təməl substratdır. "İnsan hüquqları haqqında Ümumi Bəyannamə"də qeyd edildiyi kimi, insanın ləyaqəti ümumi sülhün, ədalətin və azadlığın əsasıdır.

İnsan hüquqları ideyası məhdud inkişafetmə təsəvvürlərindən müasir dövrədək təkamül yolu keçərək nəticədə sosial və hüquqi statusundan asılı olmayaraq, bütün insanlara aid olan vahid prinsip və normalar konsepsiyasına çevrilmişdir. Bu konsepsiyalarda bir çox xalqların dosktrinalarından, fəlsəfi, siyasi, hüquqi təlimlərindən irəli gələn, müxtəlif əsrlərdə və dövrlərdə formalaşan fikirlə öz ifadəsini tapmışdır.

Bütövlükdə insan hüquqlarının formalaşması və inkişafı uzun müddət bu və ya digər ölkəyə məxsus olan dokstrinalar və ənənələrin mübarizəsi ilə müşayiət olunmuşdur. Müasir dövrdə insan və vətəndaş hüquq və azadlıqları konsepsiyalarının əsas ideyaları kimi dövlət və şəxsiyyətin ümumi maraqlar əsasında tənzimlənmiş qarşılıqlı münasibəti, şəxsiyyətin sosial müdafiəsi, hüquq və vəzifələrin vəhdəti və s. göstərmək olar. Müasir mərhələdə əsas istiqamət kimi bütün siyasətin və təcrübənin insana yönəlməsi ideyası əsas tutulmalı, nəzəriyyə və təcrübədə fərdi və kollektiv hüquqların izah və təfsir edilməsində insan tələbatı və maraqları, sosial-siyasi, mənəvi inkişafda şəxsiyyət başlanğıcının formalaşdırılması aparıcı prinsiplər olmalıdır.

İnsan hüquqları dövlət və onun vətəndaşları arasında fərdə qanunlar çərçivəsində sərbəst hərəkət etmək (hüquqların bu forması azadlıq adlandırılır), yaxud müəyyən rifah və nemətlər əldə etmək imkanı verən qarşılıqlı münasibətlərin fundamental norma və prinsipləridir. Eyni zamanda, insan hüquqları fərdin azadlığının digər şəxslərin azadlığı, cəmiyyət və dövlətin funksionallığının təmin edilməsi ilə uzlaşdırılması əsasında insanların qarşılıqlı münasibətlərinin əlaqələndirilməsinin, ziddiyyətlər, konfrantasiyalar və münaqişələrin qarşısının alınmasının normativ formasıdır.

Bu və ya digər formada ifadə olunan insan hüquqları problemi tarixin bütün mərhələlərində mövcud olmuş və fərdin hakimiyyətlə qarşılıqlı münasibətləri məsələsinin izahı və müzakirə predmeti kimi çıxış etmişdir. Elmi ədəbiyyatda ümumi şəkildə fərdlə hakimiyyətin qarşılıqlı münasibətlərinin əsasən üç modeli göstərilir. Birincisi, bu münasibətlərin totalitar modeli cəmiyyət və dövlətin eyniləşdirilməsindən, bütöv hissə üzərində üstünlüyü və fərdin dövlətə tam tabe olmasından çıxış edir. Bu model insan hüquqları probleminin qoyuluşunu istisna edir, çünki fərdə burada bütövün üzvi və ayrılmaz hissəsi kimi baxılır.

İkinci model kimi fərdiyyətçi yanaşma dövlətlə münasibətdə fərdin üstünlüyünə əsaslanır. Daha da dəqiqləşdirsək, bu model "azad şəxsiyyətin hakimiyyətin, o cümlədən dövlətin özünün son mənbəyidir" tezisindən çıxış edən liberalizmdə təmsil olunur. Qeyd olunur ki, dövlət isə azad fərdlərin razılığı, müqaviləsinin nəticəsidir. O, xalqa hesabat verməli və yalnız ciddi surətdə məhdudlaşdırılan funksiyaları – vətəndaşların təhlükəsizliyi və azadlığının təmin edilməsi, ictimai qayda-qanunun təmin və mühafizə olunmasını yerinə yetirməlidir. Qeyri-siyasi sahələrdə isə fərd və hakimiyyətin qarşılıqlı münasibətləri və bu sferalarda şəxsiyyət azadlığı və ləyaqətinin təsdiq edilməsi liberalizm ideoloji cərəyanında nəzərdən keçirilmir. Bunun nəticəsində insan hüquqları problemi əsasən hakimiyyətin qəsdlərindən mühafizə edən hüquqlar formasında təsbit edilir.

Müasir siyasi elmdə üçüncü model – fərd və hakimiyyət müna-

sibətlərinə partisipator (iştiraklı) yanaşma üstünlük təşkil edir. Bu yanaşma şəxsiyyətə fərdlərlə ittifaqda dövlət yaradıb və müəyyən məsələlərdə ona tabe olmaq məcburiyyətində cəmiyyətdən ayrı və müstəqil olan fərd kimi baxmır, şəxsiyyət, cəmiyyət və dövlət arasında münasibətlərin ziddiyyətliliyi və ayrılmazlığından çıxış edir. Bu halda insan hüquqları probleminin təsbit edilməsinə sırf fərdin dövlət müdaxiləsindən qorunması kimi deyil, dövlətdən şəxsiyyətin azad yaşaması və inkişafı üçün ən məqbul şəraitin istifadə olunması kimi baxılır.

Bundan başqa, insan və vətəndaş hüquq və azadlıqlarına əsaslanan demokratiya konsepsiyası çərçivəsində daha bir neçə model hazırlanmışdır. Qənaətimizcə, onlardan araşdırmaçılar tərəfindən insan hüquqları, azadlıq və demokratiyanın inkişafı səviyyəsinin analizi üçün geniş istifadə olunan "liberal demokratiya" və "inteqrativ demokratiya" modelləri daha çox diqqəti cəlb edir. Məsələn, "inteqrativ demokratiya" modelinin tərkib hissəsi olan hüquqlar konsepsiyasına görə, insan hüquqları siyasi təsisatların dəyərləndirilməsinə xidmət edir, sosial-siyasi inanclar sisteminin vacib elementləri, insanların birliyi, ümumi ləyaqət və humanizmin ifadəsi kimi çıxış edir.

Demokratik cəmiyyətlərdə insan hüquqlarının təmin və mühafizə olunması ali dəyər və məqsəd hesab edilir. Məhz buna görə insan və vətəndaş hüquq və azadlıqlarının konstitusiyada və qanunlarda təsbit edilməsi dövlət idarəçiliyinin təməl strateji prinsipi kimi çıxış edir. Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlar şəxsiyyətin fərdi fəallıq potensialının ölçüsü qismində çıxış edir. Məhz bu cür cəmiyyətlərdə vətəndaşların konstitusion əsasda təsbit edilmiş hüquq və azadlıqlarının müdafiəsi məqsədilə yaradılmış mexanizmlər səmərəli surətdə işləyir.

Bir çox araşdırmaçılar qeyd edirlər ki, insan hüquqları ictimai inkişafın ən dəyərli oriyentasiyalarından biri olmaqla dövlətin xarakterinə və fəaliyyət mexanizminə əhəmiyyətli təsir etmişdir, çünki onlar dövlət hakimiyyətini məhdudlaşdıraraq onunla fərd arasında demokratik səciyyəli qarşılıqlı münasibətlərin qurulmasına sə-

bəb olmuşdur.

F.M.Rudinski bildirir ki, insan hüquqları onun azadlığının ölçüsü, şəxsiyyətin beynəlxalq və dövlətdaxili hüquq normalarında əks olunmuş ayrılmaz xüsusiyyətləridir: **"Onlar insanın inkişafı, onun mənafelərinin müdafiəsi üçün daha vacib imkanları təmin edir, bununla yanaşı, insan hüquqları bütün bəşəriyyətə təhdid yaradan təhlükələrin qarşısının alınması vasitəsidir".**

İnsan və vətəndaş hüquqları təkcə fərdin fəaliyyət göstərdiyi ictimai münasibətlərin xarakteri ilə deyil, həm də bio-sosial varlıq kimi insanın təbiəti ilə müəyyən olunur. Məhz insanın bioloji və ictimai tələbatı şəxsiyyətin hüquq və azadlıqlarının əsasında durur. Həm beynəlxalq, həm də dövlətdaxili ictimai münasibətlərin inkişafı bu tələbatın təzahürünə, onların hüquqi nöqteyi-nəzərdən təsbit olunmuş hüquq və azadlıqlarda ifadə edilməsinə və bu hüquq və azadlıqlar sisteminin təkmilləşməsinə şərait yaradır. Cəmiyyətin hər bir üzvünə təbii hüquq və azadlıqlar xasdır ki, onları da təmin etmədən onun sosial və ya siyasi subyekt kimi fəaliyyətini normal surətdə təmin etmək olmaz. Bu hüquqlardan yaşamaq hüququnu insan doğulduğu gündən əldə edir, digər təbii hüquq və azadlıqları isə o, sosial subyekt kimi qazanmış olur.

İngilis alimi Con Lokk (1632-1704) "Dövlət idarəetməsi haqqında iki traktat" (1690) əsərində yazır ki, azadlığın etibarlı təminatçısı hakimiyyət bölgüsüdür və azadlıq rejiminə dövlətdə hakimiyyət səlahiyyətlərinin bərabər bölüşdürülməsi yolu ilə nail olmaq olar.

Fransız filosof Şarl Moneskye (1689-1755) "Qanunların ruhu haqqında" əsərində bununla bağlı yazır: **"Elə ola bilər ki, azad dövlət quruluşunda da vətəndaş azad olmasın, yaxud vətəndaşın azadlığı olsa da, quruluşu azad adlandırmaq olmaz... Qanunlar olan dövlətdə... azadlıq qanunlarla icazə verilmiş hər şeyi etmək hüququdur. Əgər vətəndaş bu qanunlarla qadağan edilənləri edə bilsə idi, onda onun azadlığı olmazdı, çünki onları digər vətəndaşlar da edərdi".**

Bizim fikrimizcə, liberalizmin nümayəndələrinin insan hüquqları sahəsindəki nəzəri fikirləri və baxışlarının tarixi əhəmiyyəti

təkcə insan hüquqlarının əsas humanist məqsədlər kimi nəzəri cəhətdən əsaslandırılmasından deyil, həm də onların reallaşdırılması yollarının axtarılmasından ibarətdir.

Fransız filosof Jan Jak Russo (1712-1778) "İnsanlar arasında bərabərsizliyin mənşəyi və əsasları haqqında düşüncələr" adlı əsərində yazır ki, o siyasi quruluş qanunidir ki, orada adamlar öz hüquq və azadlıqlarını qoruya bilirlər.

Klassik alman fəlsəfəsinin görkəmli nümayəndələrindən olan Fridrix Hegel isə "Hüquq fəlsəfəsi" adlı əsərində dövləti fərd və cəmiyyət üzərinə qaldırır, şəxsiyyətin hüquq və azadlıqlarının dəyərini inkar edir, dövləti hüquq ideyası kimi, hüquqi subyekt kimi təsvir edir və hesab edir ki, dövlət vətəndaş cəmiyyətinin ziddiyyətlərini aradan qaldırır, onun birliyini təmin edir və qayda-qanunların mühafizəçisi qismində çıxış edir.

İnsan və vətəndaş hüquq və azadlıqlarının təsbit edildiyi əksər bəyannamə və konsepsiyalarda bəyan edilir ki, bütün insanlar azad və bərabərhüquqlu doğulur, hər bir siyasi ittifaqın məqsədi insanın təbii və ayrılmaz hüquqlarının təmin olunmasından ibarətdir.

Bütün bunlara müvafiq surətdə alman filosofu Artur Şopenhauer (1788-1860) "İradə azadlığı və əxlaqın əsasları" adlı əsərində qeyd edir ki, azadlıq yalnız hər hansı bir maneənin olmaması kimi başa düşülməlidir. O bildirir ki, bu maneələrin xüsusiyyətlərinə müvafiq olaraq azadlığın 3 növü fərqləndirilir: fiziki, intellektual və mənəvi azadlıq. Onun fikrincə, fiziki azadlıq dedikdə müxtəlif maddi maneələrin olmaması nəzərdə tutulur: "Fiziki mənada azadlıq anlayışının mahiyyəti bundan ibarətdir ki, insanların hərəkətləri onların iradələrinə müvafiq surətdə baş tutur və bu hərəkətlərə heç bir fiziki, maddi maneələr mənfi təsir etmir".

A.Şopenhauer bildirir ki, intellekt və ya dərketmə qabiliyyəti motivlər mühitidir ki, onun da vasitəsilə motivlər insanın iradəsinə təsir edir: **"Bu mühit normal vəziyyətdə olduqda öz funksiyalarını düzgün yerinə yetirir və ona görə də, motivləri iradəyə seçim üçün olduğu kimi təqdim edir. Bu zaman insan intellektual cəhətdən azad subyekti qismində çıxış edir. İntellektual**

**azadlıq insanın hərəkətlərinin, onun iradəsinin reallıqdan irəli gələn motivlərə reaksiyasının təmiz nəticəsidir".**

İngilis filosofu və dövlət xadimi Con Stüart Mill isə "Azadlıq haqqında" adlı əsərində məsələyə maraqlı yanaşma nümayiş etdirir: **"Heç kəsin fərdi nəyisə etməyə, yaxud etməməyə məcbur etmək hüququ yoxdur. Fərdi hansısa hərəkəti edib-etməməklə inandırmaq, ona məsləhət vermək olar, lakin məcbur etmək və ya onu buna görə qəsd etmək olmaz. Bu cür müdaxiləyə yalnız o halda yol vermək olar ki, fərdin hərəkətləri artıq digər şəxslərə zərər yetirir".**

C.S.Mill yazır ki, hansı idarəetmə forması olursa olsun, cəmiyyət o vaxt azad ola bilər ki, burada fərd söz və fikir, istədiyi kimi yaşamaq azadlığına malik olsun: **"Yalnız o cəmiyyət azaddır ki, burada fərdi azadlığın bütün növləri onun üzvlərinin hamısı üçün eynidir".**

Bunlarla yanaşı, insan və vətəndaş hüquq və azadlıqları məsələsində vətəndaş-dövlət münasibətlərinə yanaşma nöqteyi-nəzərindən bir sıra siyasi-hüquqi və ideoloji səciyyəli cərəyanlar fərqlənir. Bunlar sırasında pozitivistlər və liberalların baxışları və yanaşmaları daha çox diqqəti çəkir.

Pozitivistlər insan hüquqlarının hər hansı qeyri-dövlət mənşəyini inkar edirlər. Bu cərəyanın tərəfdarlarının qənaətincə, hüquq (insan hüququ) qanundan (dövlətin qanunu) fərqləndirmək olmaz və fərdlərin hüquqları dövlətin hüquqlarından üstün deyil: **"Dövlət insana hüquqlar verir, onların həcmi və məzmununu isə özü reqlamentləşdirir".**

Liberallar isə pozitivistlərdən fərqli olaraq bildirirlər ki, insan üçün müqəddəs olan hüquqlar dövlətdən asılı olmadan mövcuddur və hakimiyyət institutu kimi dövlət fərdin hüquqlarına qarşı olan təhlükənin başlıca daşıyıcısıdır. Onlar fərdin sosial-iqtisadi imkanlarına xüsusi əhəmiyyət vermədən onun siyasi və vətəndaş hüquqlarını ön plana çəkirlər. Beləliklə, liberallar hədsiz dərəcədə fərdi cəmiyyətdən və dövlətdən təcrid edirlər.

İnsan hüquqlarının inkişafında nəzərdən keçirilən hər iki ya-

naşmada öz əksini tapmış müxtəlif məsələ və prinsiplər müasir təcrübədə də mövcuddur. Məsələn, ABŞ, Fransa, İtaliya və İspaniya kimi ölkələrin konstitusiyalarının əsasını təbii hüquqlara əsaslanan konsepsiya təşkil edirsə, Avstriya və Almaniyanın konstitusiyalarının əsasında pozitivist konsepsiya durur. Beləliklə, təcrübə belə bir nəticəyə gəlməyə imkan verir ki, əhalisi milli-psixoloji nöqteyi-nəzərdən daha intizamlı olan dövlətlərdə pozotovost yanaşma üstünlük təşkil edir.

Beləliklə, əgər təbii hüquq nəzəriyyəsinə görə insan və vətəndaş hüquq və azadlıqları ayrılmaz, şüurdan, ilahi iradədən və ya insanın dəyişməz təbiətindən irəli gəlirsə, pozitivist istiqamət onlara dövlət tərəfindən müəyyən olunmuş kateqoriyalar kimi yanaşır.

Müasir insan hüquqları və azadlıqları konsepsiyaları çərçivəsində də onların ayrılmaz və universal xarakteri təsdiq edilir. Ancaq bu konsepsiyalarda fərd və dövlətin münasibətlərinin ziddiyyətliliyi qəbul olunsa da, hüquq və azadlıqların məzmununda qismən dəyişikliklərin edilməsinə yol verilir. Ümumiyyətlə, əksər konsepsiyalarda hüquqların təminatı və istifadə olunmasında vətəndaşla dövlətin qarşılıqlı məsuliyyəti məsələsi mərkəzi istinad nöqtəsi kimi qəbul olunur.

Beləliklə, sadalananları ümumiləşdirərək qeyd edə bilərik ki, müasir dövrdə insan hüquqları və azadlıqları konsepsiyasının əsas prinsipləri kimi aşağıdakıları müəyyən etmək olar:

– *dövlət və vətəndaşın qarşılıqlı məsuliyyəti;*

– *şəxsiyyətin sosial müdafiəsi (sosial-iqtisadi hüquqların təsbit edilməsi və təminatı, əmək, istirahət, mənzil, pensiya təminatı hüquqları və s.);*

– *hüquq və vəzifələrin vəhdəti;*

– *insan və vətəndaş hüquq və azadlıqlarının bütün növlərinin birbirini tamamlaması, qarşılıqlı əlaqədə və paritet dəyərdə olması;*

– *şəxsiyyətin ayrılmaz rifahları və dəyərlərinin, onun hüquq və azadlıqlarının hərtərəfli hüquqi müdafiəsi.*

## 6.2. Demokratik cəmiyyətlərdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə edilməsi vasitələri və mexanizmləri

İnsanın cəmiyyətdə vəziyyətinin beynəlxalq-hüquqi tənzimlənməsinin nəticələrinin pozitiv olması həmin cəmiyyətin daxili mühiti və bütövlükdə siyasi sistemindən, dövlətin suveren iradəsindən, sosial-siyasi, hüquqi, iqtisadi və mədəni xüsusiyyətlərindən və durumundan asılıdır. Dövlətin sosial təcrübəsində insan hüquqları və azadlıqlarına dair müvafiq beynəlxalq sazişlərdəki bu və ya digər hüquqi normaların reallaşdırılması üçün təkcə onların məzmununu ölkənin qanunvericiliyinə transformasiya etmək deyil, həm də ilk növbədə, onlardakı şəraitin yaradılmasına yönələn müvafiq sosial-iqtisadi siyasətin həyata keçirilməsi zəruridir. Bu baxımdan, yalnız demokratik cəmiyyətdə insan və vətəndaş hüquq və azadlıqlarının reallaşdırılması üçün əlverişli şərait yaranır və onlara tam təminat verilir. ABŞ politoloqu Şapiro yazır ki, demokratiya azadlığı qoruyan nemət və rifahdır. Məhz buna görə də, bu məqsəd və prinsip əsasında siyasi strategiyanı reallaşdırmaq lazımdır.

İnsan hüquqları probleminə ictimai mənafelər və dəyərlərin üstünlüyünü nəzərə almaqla daha ədalətli və humanist yanaşmanın işlənilməsi və inkişaf etdirilməsi nöqteyi-nəzərindən, bir tərəfdən dəyişən maraqların, digər tərəfdən isə mənəvi dəyərlər və imperativlərin sabitliyinin dəyişməz əhəmiyyəti vardır. Bizim fikrimizcə, bu faktorların birləşdirilməsi bəşəriyyətin hüquqi və sosial inkişafının əsas tələbatı, insan hüquqları nəzəriyyəsi və təcrübəsinin, milli dövlətlərin daxili və xarici siyasətinin prinsipial məsələsidir.

İnsan hüquqları ideyasına əsaslanan demokratiya konsepsiyası geniş şəkildə politoloq Larri Daymond tərəfindən işlənmişdir. Onun fikrincə, insan hüquqlarının nəzərə alınmaması demokratiya konsepsiyasını zəiflədir, insan hüquqlarına əsaslanan liberal demokratiya modeli demokratik fikir və təcrübəni zənginləşdirir. Bu model fərdi və qrup azadlığı ilə yanaşı, siyasi plüralizmin təmin

olunmasını da nəzərdə tutur.

L.Daymond insan hüquqlarının demokratik modelinin əsas əlamətlərinə aşağıdakıları aid edir:

*– real hakimiyyət konstitusion əsasda faktiki surətdə seçilmiş şəxslərə və onların təyin etdiyi şəxslərə mənsubdur;*

*– icra hakimiyyətinin səlahiyyətləri konstitusiya və ona müvafiq qəbul edilmiş normativ aktlarla məhdudlaşdırılır. Müstəqil məhkəmə, parlament, insan hüquqları üzrə Müvəkkil-ombudsman təsisatı digər institutlar qarşısında məsuldur;*

*– seçkilərin nəticələri əvvəlcədən müəyyən olunmur, müxalifət mövcuddur və alternativ qüvvələrin fəaliyyətinə imkan və şərait vardır;*

*– vətəndaşların partiyalar və müntəzəm seçkilərdən başqa öz maraqlarını və dəyərlərini ifadə və təmsil etməsi üçün çoxlu kanallar və vasitələrin olması, o cümlədən onların yarada biləcəyi müxtəlif muxtar assosiasiyalar, hərəkat və qruplar;*

*– assosiasiyalar azadlığına və plüralizmə əlavə olaraq vətəndaşların siyasi cəhətdən azad əlaqəsi vasitəsi olan kütləvi informasiya vasitələri də daxil olmaqla alternativ informasiya mənbələrinin mövcud olması;*

*– fərdlər əsas azadlıqlara – etiqad, fikir, mətbuat, toplaşma və s. azadlıqlara malik olmalıdır;*

*– vətəndaşlar siyasi cəhətdən qanun qarşısında bərabərdirlər və onların azadlıqlarını qərarları digər hakimiyyət mərkəzləri tərəfindən hörmətlə qarşılanan və dəstəklənən məhkəmə sistemi müdafiə edir;*

*– legitim idarəetmə vətəndaşları ədalətsiz həbslərdən, sürgündən, terrordan, işgəncələrdən və digər bu kimi mənfi müdaxilələrdən qoruyur.*

Ceyms Marş və İohan Olsen "inteqrativ demokratiya"da insan və vətəndaş hüquq və azadlıqlarına münasibəti açıqlayaraq qeyd edirlər ki, birincisi, insan hüquqları pozulmazdır, yəni onlara mütləq surətdə təminat verilməlidir; ikincisi, insan hüquqları ayrılmazdır, yəni, onlar bir dəfə müəyyən olunduqdan sonra ləğv oluna bil-

məzlər; üçüncüsü, hüquqlar qanunların yenidən baxılması yolu ilə deyil, daha çox onların interpretasiyası vasitəsilə dəyişdirilir.

Modern cəmiyyətlərdə insan hüquqlarının təsnifatı müxtəlifdir. Onların daha ümumi təsnifatına görə bütün hüquqlar neqativ və pozitiv hüquqlara bölünür. Hüquqların təsnifat əsasında bölgüsü onlarda azadlığın neqativ və pozitiv aspektlərinin fərqləndirilməsinə əsaslanır. Neqativ hüquqlar fərdin azadlığını mühafizə edir və cəmiyyətin, dövlətin, digər şəxslərin ona qarşı münasibətdə bu və ya digər neqativ hərəkətlərə yol vermək vəzifələri kimi qeyd olunur. Bu hüquqlar fərdi dövlətin onun azadlığını pozan, digər şəxslərin müdaxiləsindən və məhdudiyyətlərindən qoruyur. Onların həyata keçirilməsi isə dövlətin ehtiyatlarından, ölkənin sosial-iqtisadi inkişaf səviyyəsindən asılı deyil.

Neqativ hüquqların legitim təsdiqinə və bütövlükdə insan hüquqlarına neqativ (və liberal) münasibətə misal olaraq ABŞ Konstitusiyasının "Hüquqlar haqqında Bill"ini – ABŞ Konstitusiyasına dəyişiklikləri göstərmək olar.

Bu sənədin birinci maddəsində yazılır: **"Konqres hər hansı bir dinin bərqərar olunması və ya sərbəst etiqadı qadağan edən, söz və mətbuat azadlığını, həmçinin, vətəndaşların dinc toplaşma və sui-istifadə hallarını aradan qaldırmaq tələbləri ilə öz şikayətlərini hökumətə bildirmək üçün müraciət etmək hüququnu məhdudlaşdıran qanun verə bilməz".**

Neqativ hüquqlar fərdi dövlətin onun sərbəst hərəkət etməsinə mane olan məhdudiyyətləri və məcburiyyətlərindən qoruyan hüquqlar hesab olunur. Rusiya politoloqu A.İ.Solovyev bu hüquqlara praktiki olaraq bütün liberal səciyyəli insan hüquqlarını aid edir. O hesab edir ki, bu hüquqlar mütləqdir və konkret ölkənin inkişaf səviyyəsindən asılı deyil, yalnız insan şəxsiyyətinin suverenliyini və onun sərbəst seçiminə dövlət tərəfindən hörmətli münasibəti nəzərdə tutur.

Bu hüquqlar yalnız fərdin işləri və maraqlarına ədalətsiz müdaxilə, onun azad seçiminə qəsd istisna olmaqla dövlətdən maddi və digər ehtiyatların toplanması və bölüşdürülməsini, ümumiyyətlə, hər

hansı bir xüsusi quruculuq, yaradıcılıq hərəkətlərini tələb etmir.

Pozitiv hüquqlar dövlətin, cəmiyyətin insana müəyyən rifahın (əmək, təhsil, istirahət, sosial yardım və s. hüquqlar) təqdim olunması vəzifəsi kimi izah olunur. Bu halda bu hüquqların təminatı bilavasitə dövlətin sosial-iqtisadi inkişaf səviyyəsindən, siyasi sistemin demokratikliyindən, hakim dairələrin müvafiq dövlət siyasətinin real surətdə həyata keçirilməsində maraqlı olmasından və cəmiyyətin idarəetməsinin bu xarakterini təmin edə bilən dövlət qulluqçularının peşəkarlığından asılıdır.

Araşdırmaçılar tərəfindən fərdin hüquq və azadlıqlarının daha konkret təsnifatı verilir: onlar vətəndaş (şəxsi), siyasi, iqtisadi, sosial və mədəni hüquqlar formasında təsnif edilir.

Vətəndaş (şəxsi) hüquqları, əsasən, neqativ hüquq səciyyəsi daşıyan təbii, əsas və ayrılmaz insan hüquqlarıdır. Onlar insanın dünyaya gəldiyi andan etibarən əldə etdiyi yaşamaq və təbii azadlıq kimi təməl hüquqlardan törəyir və şəxsiyyətin fərdi azadlığı və muxtariyyatını, onun dövlətin və başqa adamların təzyiqindən müdafiə edilməsinə yönəlir.

Fərdin birinci dərəcəli hüquqlarına azadlıq və şəxsi toxunulmazlıq (fiziki və psixi mənada) aid edilir. Bununla yanaşı, fərd ciddi qanun pozuntusuna yol verdikdə məhkəmənin hökmü ilə azadlıqdan məhrumetmə cəzasına məruz qalır. Şəxsiyyət azadlığı insanın onun haqqında dövlət müəssisələrindəki informasiyanı əldə etmək və ona düzəliş etmək hüququ ilə bağlıdır. Şəxsi hüquqlara şəxsiyyət ləyaqəti, vicdan azadlığı, mənzil toxunulmazlığı, gizli yazışma, şərəf və ləyaqətin müdafiəsi, ölkə ərazisində yerdəyişmə və yaşayış yerinin seçimi azadlığı, emiqrasiya etmək və s. hüquqlar aiddir.

Siyasi hüquqlar vətəndaşların dövlətin idarə olunmasında və ictimai həyatda fəal iştirak etmək imkanlarını müəyyən edir. Onlara seçib-seçilmək hüququ, ittifaq və assosiasiyaların, nümayiş və iclasların azadlığı, söz, fikir, özünüifadə və mətbuat azadlıqları və digərləri aiddir.

Vətəndaşların siyasi hüquq və azadlıqlarının sosial məzmunu-

nu dövlət hakimiyyəti tərəfindən tanınan və hüquqi normalarda təsbit olunan siyasi azadlıqlar təşkil edir. Siyasi azadlıq cəmiyyətdə mövcud olan şəxsiyyətin sosial azadlığının bir növü (forması) olmaqla, ilk növbədə, bütövlükdə cəmiyyətin, həmçinin, təmsil etdiyi sosial birliyin azadlığı ilə müəyyən olunur.

Siyasi azadlıq xalq hakimiyyətinin həyata keçirilməsində, dövlətin və cəmiyyətin idarə olunmasında faktiki sosial imkanların (azadlıqların) məcmusundan ibarətdir. Şəxsiyyətin siyasi hüquq və azadlıqları vəhdət təşkil etməklə cəmiyyətin siyasi azadlığının səviyyəsini səciyyələndirir və onların reallaşması dərəcəsi cəmiyyətin iqtisadi rifah halından, siyasi rejimin xarakteristikasından, siyasi mədəniyyət və mədəni həyat tərzindən asılıdır. Bununla belə, fransız politoloqu R.Aron özünün "Azadlıq haqqında esse" əsərində A.Tokvilin "müasir cəmiyyətin şəraitlərinin bərabərliyi və demokratiya vasitəsilə qiymətləndirilməsi"nə dair yanaşması ilə razılaşaraq texniki sivilizasiyanın tələbatları və sözün əsl mənasında siyasi azadlığın bir-biri ilə nə dərəcədə uzlaşması probleminin olduğunu əsaslandırmağa çalışır.

Araşdırmaçıların fikrincə, siyasi azadlığın hər bir azadlıq kimi obyektiv mövcud olan sərhədləri var. Eyni zamanda, dövlət də şəxsiyyətin siyasi sahədə azadlıqlarını məhdudlaşdıra bilir. Lakin dövlətin vətəndaşlarının siyasi tələbatı və maraqlarının ödənilməsinə şərait yaratmaq sahəsində vacib vəzifələri vardır. Dövlət siyasəti və təcrübəsinin qanunauyğunluğundan hər hansı bir formada kənara çıxılması dövlətin və hüququn demokratik xarakterinin deformasiya olunmasına gətirib çıxarır.

Araşdırmaçı N.Vitruk siyasi hüquq və azadlıqların onların əsasında duran faydanın növünə görə aşağıdakı təsnifatını verir:

***1)*** *vətəndaşlıq vasitəsilə şəxsin dövlətə mənsubiyyəti ifadə olunan hüquqlar – vətəndaşlıq və onu dəyişmək hüququ, sığınacaq hüququ;*

***2)*** *vətəndaşların qanun qarşısında bərabərliyi prinsipindən irəli gələn hüquqlar;*

***3)** seçki vasitəsilə xalq hakimiyyətinin formalaşdırılması, cəmiyyət və dövlətin idarə edilməsi ifadə edilən hüquqlar: seçki hüquqları, referendumda iştirak etmək hüququ, dövlət aparatında seçkili vəzifə tutmaq hüququ, dövlət orqanlarına müraciət etmək, əmək kollektivlərinin yığıncaqlarında iştirak etmək hüquqları və s.;*

***4)** ictimai həyatın hər hansı sahəsində fikir, əqidə azadlığı;*

***5)** birləşmək azadlığı;*

***6)** vətəndaşların hüquqları və qanuni maraqlarının müdafiəsinə yönələn hüquqlar.*

Əksər dövlətlərin konstitusiyalarında vətəndaş hüquqları siyasi hüquqlarla bir qrupda birləşdirilir. Buna səbəb onların hər ikisinin, əsasən neqativ xarakter daşıması, həmçinin, bəhs edilən hər iki növ hüquqların fərdi və ictimai təzahürlərdə şəxsiyyətin azadlığının təmin olunmasına yönəlməsidir. Totalitar idarəetmə sisteminin hökm sürdüyü dövlətlərdə siyasi hüquqların təmin olunması formal xarakter daşıyır. Beləliklə, konstitusion əsasda bəhs edilən hüquq və azadlıqlar təsbit edilsə də, təcrübi müstəvidə onların reallaşdırılması mümkün olmur. Avtoritar rejimlərdə siyasi hüquq və azadlıqlar konstitusion əsasda təsbit olunur, amma hakim qüvvələrin mütləq zorakı iradəsi vətəndaşları bu hüquq və azadlıqlardan istifadə etməkdən məhrum edir.

İqtisadi hüquqlar fərdlər tərəfindən təsərrüfat fəaliyyətinin əsas faktorlarından, yəni mülkiyyət və əməkdən azad istifadə, həmçinin, bu sahədə təşəbbüskarlıq azadlığın təmin olunması ilə bağlıdır. Bu hüquqlar arasında xüsusi yeri şəxsi mülkiyyət hüququ tutur. Bir çox konsepsiyalarda insan və vətəndaş hüquqlarından bəhs edərkən, ilk növbədə, şəxsi mülkiyyət hüququ ön plana çəkilir. Bu hüququn qanuni yolla tanınması və həyata keçirilməsi müasir bazar iqtisadiyyatının hüquqi əsaslarını təşkil edir. Şəxsi mülkiyyət hüququ tarixən sahibkarlıq fəaliyyəti azadlığını və azad əmək hüququnu nəzərdə tutur.

Sosial, mədəni və pozitiv mənada başa düşülən bəzi iqtisadi

hüquqlar dövlətin hər bir vətəndaşa yaşamaq üçün minimum vasitəni təmin etmək vəzifəsini müəyyən edir. Sosial hüquqlar insanın layiqli həyat səviyyəsinin və sosial müdafiəsinin təmin olunması ilə bağlıdır.

Mədəni hüquqlar insanın mənəvi inkişafını təmin etməyə yönəlir. Onlara təhsil, mədəni dəyərlərə yol tapmaq hüququ, bədii və texniki yaradıcılıq azadlığı və başqaları aiddir.

V.Y.Çirkin fərdin və vətəndaşın konstitusion hüquq və azadlıqlarının dörd qrupa bölündüyünü göstərir:

***1)** bərabərlik prinsipini ifadə və ehtiva edən hüquq və azadlıqlar (məsələn, vətəndaşların qanun qarşısında bərabərliyi);*

***2)** fərdin azadlığına, toxunulmazlığına, ləyaqətinə təminat verən şəxsi hüquq və azadlıqlar;*

***3)** vətəndaşların cəmiyyətin siyasi həyatında iştirakı ilə əlaqədar olan siyasi hüquqlar və azadlıqlar. Bu hüquq və azadlıqlar vətəndaşlara cəmiyyətin və dövlətin idarə olunmasında iştirak etməyə imkan verir (məsələn, birləşmək azadlığı, bu isə həm də dövlət hakimiyyətinə təzyiq etmək üçün də istifadə olunur);*

***4)** sosial-iqtisadi və mədəni hüquqlar: bu hüquqlar fərdin cəmiyyətin sosial-iqtisadi və mədəni həyatında fəal iştirakı üçün hüquqi şərait yaradır (məsələn, əmək hüququ və əməyin azadlığı, mədəni nailiyyətlərdən istifadə etmək hüququ və s.).*

Beləliklə, göründüyü kimi, insan hüquqları, onların söykəndiyi prinsiplər (azadlıq, suverenlik, qanunçuluq, bərabərlik, təhlükəsizlik, dözümlülük və s.), bu hüquqları bəyan edən sənədlər, müvafiq konseptual müddəa və yanaşmalar tarixi inkişafın fonunda daha da zənginləşmiş və yeni keyfiyyət çalarları əldə etmişdir. “Birinci nəsil hüquqlar” kimi səciyyələndirilən vətəndaş hüquqları və siyasi hüquqlar sonralar “ikinci nəsil hüquqlar”la – iqtisadi və sosial hüquqlarla tamamlanmış, daha sonra isə “üçüncü nəsil hüquqlar” adlandırılan hüquqlar haqqında ideyalar irəli sürülmüş və bu hüquqlara dinc, sağlam ətraf mühitdə və təhlükəsiz yaşamaq və s. hüquqlar aid edilir.

Fərdin siyasi hüquqları və azadlıqları vəhdət təşkil etməklə cə-

miyyətin siyasi azadlığının səviyyəsini səciyyələndirir. Onların reallıq dərəcəsi və məzmunu cəmiyyətin iqtisadi rifah halından, siyasi rejimdən, siyasi mədəniyyətindən, mənəvi həyatından, digər amillər və şəraitdən asılıdır.

Hər bir azadlığın, həmçinin, siyasi azadlığın obyektiv surətdə mövcud olan sərhədləri vardır. Siyasi sahədə şəxsiyyətin hüquqi azadlığı sosial (faktiki) və siyasi azadlıqdan geniş ola bilməz. Eyni zamanda, dövlət siyasi sferada hüquqi azadlığı məhdudlaşdıra bilər. Digər tərəfdən, vətəndaşlar qarşısında dövlət onların siyasi tələbatlar və mənafelərinin ödənilməsi, siyasi fəallığın inkişaf etdirilməsi üçün məsuliyyət daşıyır. Dövlət siyasətinin bu prinsiplərindən geri çəkilmək hüququn və dövlətin demokratik xarakterinin deformasiyaya uğramasına gətirib çıxarar.

Siyasi hüquq və azadlıqlar şəxsiyyətin siyasi vəzifələri ilə birlikdə vətəndaşın ümumi konstitusiya statusunun yarımsistemi olan siyasi-hüquqi statusunu təşkil edir. Onu da qeyd etmək lazımdır ki, fərdin siyasi azadlığı, ilk növbədə, bütövlükdə cəmiyyətin azadlığı, həmçinin, şəxsiyyətin təmsil etdiyi sosial birliyin (qrupun, kollektivin, təşkilatın) siyasi azadlığı ilə müəyyən edilir.

Şəxsiyyətin siyasi və hüquqi statusunun müəyyən olunmasında vətəndaşlıq anlayışı da mühüm əhəmiyyət kəsb edir. Elmi ədəbiyyatda vətəndaşlıq şəxs və vətəndaş arasında hər iki tərəfdən müəyyən hüquq və vəzifələr törədən qarşılıqlı əlaqələr kimi təsbit edilir. Bu baxımdan, həmin dövlətin vətəndaşları həm geniş hüquqlardan istifadə edir, həm də onların üzərinə daha çox vəzifələr düşür.

Demokratik cəmiyyətlərdə azadlıq insan hüquqları vasitəsilə təsbit edilir və reallaşdırılır. İnsan hüquqları demokratiyanın mühüm elementi kimi tam, bütöv sistem yaradır və vəhdət təşkil edir. A.Tokvil "Amerikada demokratiya" əsərində qeyd edir ki, demokratiya siyasi hüquqlar anlayışını hər bir vətəndaşın şüuruna çatdırır və bu da onun əsas üstünlüklərindən biridir: "Əlbəttə, hamıya siyasi hüquqlardan istifadə etməyi öyrətmək asan deyil, amma bu məqsədə nail olmaq müsbət nəticələr verir".

Beləliklə, insan hüquqları ideyası qədim köklərə malik olsa da,

yalnız demokratiya, azadlıq, ədalət və formal bərabərlik prinsipləri əsasında əsl məna kəsb etmişdir. Müasir dünyada insan hüquqlarına dair mühüm universal beynəlxalq normaların artıq formalaşdığı bir vaxtda bu prinsiplərin reallaşmasına, hamının hüquq və azadlıqlarının təmin edilməsi üçün əlverişli şəraitin yaradılması yalnız demokratik cəmiyyətdə mümkündür. Belə ki, demokratik cəmiyyətdə insana qayğı yüksək və ali məqsəd sayılır və müvafiq olaraq insan hüquqları və azadlıqlarının konstitusiya və qanunlarda təsbit edilməsi dövlət idarəçiliyinin əsas məqsədi kimi çıxış edir. Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlar şəxsiyyətin fərdi fəallıq potensialının ölçüsü kimi çıxış edir. Məhz bu cür cəmiyyətlərdə vətəndaşların konstitusion hüquq və azadlıqlarının müdafiəsi məqsədilə yaradılmış mexanizmlər səmərəli şəkildə işləyir.

### 6.3. Ombudsman təsisatı – insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin xüsusi mexanizmi

Demokratik cəmiyyətdə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi mexanizmində ombudsman təsisatının xüsusi yeri və rolu araşdırmaçılar tərəfindən önə çəkilir. Modern cəmiyyətlərin inkişaf səviyyəsi insanların həyatının bütün sahələrinə idarəetmə fəaliyyətinin ekspansiyasının getdikcə artdığını göstərir. Bu da insanları idarəetmə orqanlarında, demək olar ki, tamamilə asılı vəziyyətə salır. Bunun nəticəsində isə ombudsman kimi bir təsisatın fəaliyyət mexanizminə zərurət yaranır ki, onun da vəzifələrinə idarəetmə orqanlarının işindən qənaətlənməyən vətəndaşların şikayətlərinə baxmaq və onların hüquq və azadlıqlarını müdafiə etmək daxildir. Bu cür təsisata tələbat, həqiqətən də, çox yüksəkdir, xüsusilə də əgər nəzərə alınsa ki, ombudsmana müraciət proseduru ciddi qaydaları və yüksək xərcləri nəzərdə tutmur. Bundan fərqli olaraq məhkəməyə müraciət prosedurları uzunmüddətli olur və əvvəlcədən müəyyən olunmuş sərt çərçivələrdə baş verir.

Bundan başqa, bəzi müəlliflər ombudsman təsisatının fəaliyyətinin psixoloji tərəfini də ön plana çəkirlər. Araşdırmaçı A.Pavslovska

– Daneva qeyd edir ki, ombudsman təsisatının fəaliyyətinin vacib və əhəmiyyətli psixoloji tərəfi ondan ibarətdir ki, şikayətçi onun müvafiq müraciətinə heç baxılmasa da, özünü incidilmiş hiss etmir, çünki anlayır ki, o dinlənildi, ona diqqət yetirildi, kimsə də onun problemləri ilə məşğul oldu və bu zaman yüksək xərclər olmadı.

İdarəetmə orqanına münasibətdə ombudsman preventiv funksiyanın müəyyən növünü yerinə yetirir ki, bu da idarəetmə orqanları və onların işçiləri tərəfindən qanunların pozulmasının ədalət prinsipi və inzibati standartlar vasitəsilə qarşısının alınmasından ibarətdir.

Ombudsman müəyyən mənada dövlət orqanları və vətəndaşlar arasında təmas vasitəsi kimi çıxış edir. Ombudsman heç cür vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi üçün mövcud olan hüquqi vasitələri əvəz etməməlidir; əksinə, bu hüquqi vasitələr zəruridir, ancaq onlar ombudsman işi ilə möhkəmləndirilir.

Elmi ədəbiyyatda ombudsmana çoxsaylı təriflər verilir. D.Roveyt bildirir ki, ombudsman qanunverici orqanın konstitusiya ilə nəzərdə tutulan müstəqil və bitərəf xidmətçisidir. O, dövlət orqanlarının fəaliyyəti üzərində nəzarəti həyata keçirir, vətəndaşların inzibati özbaşınalıqlar və qeyri-qənaətbəxş rəhbərliklə əlaqədar şikayətlərinə baxır, göstərilən orqanların aktlarını tədqiq, tənqid və elan etmək (lakin onları ləğv etməmək) səlahiyyətindədir. Müəllifin verdiyi digər tərifə görə, ombudsman-qanunverici orqan tərəfindən vətəndaşların müdiriyyətinin və məhkəmənin işinə dair şikayətlərinə baxmaq məqsədilə seçilmiş və özünü onların fəaliyyəti üzərində nəzarətçi aparan qulluqçudur.

Alvaro Laborinqo Lukionun yanaşması isə bu cürdür: **"Ombudsmanlar haqqında demək olmaz ki, onlar rəsmi, yaxud yarımrəsmi şəxslərdirlər, çünki onların ikili təbiəti var: bir tərəfdən onlar öz orqanının nümayəndələridir, digər tərəfdən isə onlar adi vətəndaşdırlar. Və bu institutun təsis edilməsi hazırda əsl demokratiyanın bərqərar olunmasının mühüm faktoru və ya vasitəsi ola bilər".**

P.İmbert isə bildirir ki, ombudsman institutunun təsis edilməsi

mühüm nailiyyətdir, ona görə ki, o, vətəndaşların hüquqlarının məhkəmədənkənar müdafiəsi mexanizminə olan tələbatı ödəyir. Ombudsman təsisatı insan hüquqlarının daha səmərəli müdafiəsinə nail olmaq məqsədilə hüquq müəssisələrini təmsil edənlərlə müqayisədə daha tez və daha az formal tədbirlər görmək iqtidarındadır.

"İnsan haqlarına dair Britaniya ensiklopediyası"nda isə qeyd edilir ki, ombudsman qanunverici orqanın müvəkkili olmaqla vətəndaşların bürokratik aparatının sui-istifadə hərəkətlərindən verdiyi şikayətləri araşdırmaq məqsədilə yaradılmışdır.

Beynəlxalq Hüquqşünaslar Assosiasiyası isə ombudsman təsisatına məhz bu cür tərif verir: **"Ombudsman yüksək ranqlı vəzifəli və müstəqil ictimai şəxs tərəfindən rəhbərlik edilən, aktında nəzərdə tutulmuş və bu orqanları, məmurlar və işəgötürənlər tərəfindən zərər çəkmiş şəxslərin təqdim etdikləri şikayətlər və ya öz mülahizələri ilə təhqiqatlar aparan, tənzimləyici fəaliyyət tövsiyə edən və hesabat təqdim edən xidmətdir".**

Beləliklə, yuxarıdakı tərifləri ümumiləşdirərək bu təsisata belə bir tərif vermək olar: ombudsman əsas vəzifəsi vətəndaşların şikayətlərinin həll edilməsindən ibarət olan və şəxsi təşəbbüsü ilə insan hüquqları və azadlıqlarının pozulması ilə nəticələnən və onların müdafiəsinə dair bütün hüquqi vasitələrin tükəndiyi halda idarəetmə orqanları tərəfindən qanunlara riayət edilməməsinə həmişə müvafiq reaksiya verən institusional parlament nümayəndəsidir.

Bizim fikrimizcə, təklif olunan bu tərif ombudsman təsisatının həm vətəndaşların hüquq və azadlıqlarının təmin olunmasına xidmət edən dövlət orqanlarının fəaliyyətinə nəzarət üsulu kimi, həm də onun fəaliyyət göstərdiyi dövlətlərdə vətəndaşların hüquqlarının, qanunçuluğun müdafiəsi vasitəsi kimi çıxış etdiyini əks etdirir.

Beləliklə, ombudsman institutunun ikili rolunu qeyd etmək olar: bir tərəfdən vətəndaşların şikayətlərinə reaksiya vermək, digər tərəfdən isə dövlət idarəçiliyi orqanlarının fəaliyyətinə onu yaxşılaşdırmaq məqsədilə nəzarəti həyata keçirmək.

Ombudsman təsisatının tədqiqində onu səciyyələndirən xüsusiyyətlərin müəyyən edilməsinə də diqqət yetirdikdə təxmin et-

mək olur ki, verilən təriflərin fərqli formalarda olmasına baxmayaraq, bu təsisatın fəaliyyət mexanizminə xas olan vacib və ümumi razılıqla qəbul edilən xüsusiyyət ondan ibarətdir ki, ombudsman məcburetmə tədbirlərinə istinad etmədən, özünün nüfuzundan istifadə edərək dövlət orqanlarının işində düzəliş etmək imkanına malikdir. Bu nüfuz və imkanın əsasında isə bəhs edilən təsisatın qanunverici və icraedici hakimiyyətlərdən asılı olmaması, ikincisi isə, onun siyasi cəhətdən neytral olmasıdır.

Təcrübə göstərir ki, ombudsman təsisatının daha səmərəli fəaliyyət göstərməsi üçün ilk növbədə, dövlət idarəetmə orqanlarının özlərinin təşkili və dəqiq işləməsi, onların fəaliyyəti üçün optimal şəraitin yaradılması problemlərinin həlli zəruridir. Yalnız bundan sonra ombudsman təsisatının fəaliyyət mexanizminin səmərəliliyini təmin etmək olar.

Skandinaviya ombudsmanları Şərqi Avropa ölkələrindəki ombudsmanlardan fərqli olaraq elə bir sistem çərçivəsində fəaliyyət göstərir ki, burada onların partnyoru və opponenti kimi yüksək dərəcəli təşkilatlanma, peşə səmərəliliyi və yüksək məsuliyyət hissi ilə səciyyələnən dövlət idarəetmə orqanları çıxış edir. Belə bir şəraitdə ombudsman təsisatı rəhbərliyin işi üzərindəki ümumi nəzarət mexanizminin bir hissəsi kimi qəbul olunur və qanunçuluğun, vətəndaşların hüquqları və azadlıqlarının müdafiəsinin təmin edilməsində müəyyən rol oynayır. Onun müvəffəqiyyəti bir sıra amillərdən asılıdır ki, onlara da tədqiqatçılar demokratik ənənələri, dövlət orqanları qulluqçularının inkişaf etmiş peşə etikasını və yüksək mənəvi keyfiyyətlərini aid edirlər. Bütün bu amillər ombudsman institutunun fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılması istiqamətində zəruri strateji önəm kəsb edir.

## 6.4. İnsan hüquqları probleminin beynəlxalq hüquqi tənzimlənməsinin siyasi aspektləri

XX əsrdə insan və vətəndaş hüquq və azadlıqları əsas dəyər kimi tanınaraq beynəlxalq səviyyəyə çıxarılmış və müxtəlif normativ

sənədlərdə təsbit edilmişdir. Beləliklə, beynəlxalq siyasətdə bu ideyanın bütün dünyanın sosial təcrübəsi sferasına keçirilməsi tendensiyaları açıq müəyyən olunmuşdur. İnsan ləyaqəti hər kəs üçün və hər bir cəmiyyətdə onun sosial-iqtisadi və siyasi təşkilinin xüsusiyyətlərindən asılı olmayaraq, azad inkişafı və mövcudluğuna minimal tələbatların təmin edilməsi zərurəti ilə əlaqələndirilmiş, həmçinin, dövlətlər və xalqlara istiqamətlənən müvafiq tələblərin formalaşmasında ifadə olunmuşdur.

Məhz bu cür siyasətin vacib nəticəsi 26 iyun 1945-ci il tarixində milli dövlətlər tərəfindən əsas insan və vətəndaş hüquq və azadlıqlarına hörmət prinsipini ifadə edən sənəd – Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsi qəbul olunmuşdur. 24 oktyabr 1945-ci ildə qüvvəyə minmiş bu sənəd mahiyyətinə görə insan şəxsiyyətinin hüquqları və azadlıqları sahəsində suveren dövlətlər və xalqların bundan sonrakı əməkdaşlığı üçün əsas siyasi, ideoloji və hüquqi bünövrə olmuşdur. Beləliklə, "insan hüquqları" anlayışı 1945-ci ildən, BMT Nizamnaməsinin qəbul olunduğu vaxtdan beynəlxalq siyasi leksikonda işlənməyə başlanmışdır.

Nizamnamənin birinci maddəsində BMT-nin məqsədlərindən biri kimi iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllində, irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, hamı üçün insan hüquqları və əsas azadlıqlara rəğbətin həvəsləndirilməsi və inkişafında beynəlxalq əməkdaşlığı həyata keçirmək müəyyən olunmuşdur.

BMT Nizamnaməsi təkcə insan hüquqları və əsas azadlıqlara hörmətin (rəğbətin) həvəsləndirilməsi və inkişafına istinadla məhdudlaşmır. Onun 55-ci maddəsinin "s" bəndində irqinə, cinsinə, dili və dininə fərq qoymayaraq hamı üçün insan hüquqları və əsas azadlıqlara ümumi hörmət göstərilməsinə təsir etmək məqsədilə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi dövlətlər qarşısında vəzifə kimi qoyulur.

Göründüyü kimi, BMT Nizamnaməsi fundamental beynəlxalq müqavilə olaraq müasir beynəlxalq hüquqda insan hüquqlarına hörmət və onlara riayət olunması prinsipini təsbit etmiş və dövlət-

lər üzərinə müvafiq hüquqi vəzifələr qoymuşdur.

Beləliklə, BMT Nizamnaməsinin qəbul olunması insan hüquqları sahəsində beynəlxalq münasibətlərin keyfiyyətcə yeni mərhələsinin başlanğıcı olmuş və beynəlxalq münasibətlər tarixində dövlətlərin insan hüquqları üzrə əməkdaşlığının inkişafının əsasını qoyan çoxtərəfli müqavilə olmuşdur.

BMT Nizamnaməsi hazırlanarkən onda ümumi rəğbət və riayət olunacaq əsas hüquqlar və azadlıqların siyahısının verilməsi təklifləri irəli sürülmüşdür. Lakin Nizamnamənin qəbul olunması üçün əsas olan 1945-ci il San-Fransisko Konfransı bu məsələni insan hüquqları haqqında Beynəlxalq Billi işləmək məqsədilə BMT-nin səlahiyyətli orqanlarının müzakirəsinə vermişdir.

1946-cı ildə BMT-nin İqtisadi və Sosial Şurası özünün köməkçi orqanı kimi İnsan hüquqları üzrə Komissiyanı təsis etmiş, ona 16 fevral 1946-cı il tarixli 5 (1) saylı qətnaməsi ilə insan hüquqları üzrə Beynəlxalq Billi barədə öz mülahizələrini təqdim etməyi tapşırmışdır. Hazırda İnsan hüquqları haqqında Bill aşağıdakı beynəlxalq müqavilələri özündə birləşdirir:

*– İnsan hüquqları haqqında Ümumi Bəyannamə;*

*– İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq pakt;*

*– Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq pakt;*

*– Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq pakta aid qeyri-məcburi protokol.*

Araşdırmaçıların fikrincə, Ümumi Bəyannamə BMT Baş Assambleyasının qətnaməsi kimi qəbul olunmuşdur və ona görə də, yalnız tövsiyə xarakteri daşıyır. Dünyanın bir çox ölkələrinin konstitusiyaları bilavasitə bu sənədə istinad edir və onlara Bəyannamənin bir sıra müddəaları daxil edilir.

1948-ci ildə “standart” kimi qəbul olunmuş Ümumi Bəyannamə bu gün bir çox ölkələr tərəfindən konstitusiyaların, insan hüquqlarına aid olan müxtəlif qanunlar və sənədlərin ayrı-ayrı müddəalarının işlənilməsində geniş istifadə olunan modeldir. 1948-ci ildən sonra qəbul olunmuş 90-dan artıq milli konstitusiyaya Bə-

yannamənin müddəalarının təsiri altında fundamental hüquqlar siyahısı daxil edilmişdir.

İnsan hüquqları və azadlıqları probleminin beynəlxalq aspektləri tədqiq edilərkən məlum edilmişdir ki, bu sahədə mövcud olan beynəlxalq sənədlər elmi ədəbiyyatda onların xarakterinə görə bir neçə istiqamət üzrə qruplaşdırılır. Belə ki, bu baxımdan əsas qrupu universal xarakterli beynəlxalq sənədlər təşkil edir. Onlar insan hüquqlarına ümumi hörmət və onlara riayət edilməsi prinsipini ifadə edən, hüquq və azadlıqlara üstünlük verməklə onları dövlətlər və vəzifəli şəxslərin qanunsuzluqlarından müdafiə edən beynəlxalq sənədlərdir. Bundan başqa, bu qrup sənədlərə tədqiqatçılar beynəlxalq konfransların müvafiq qərarlarını, xalqların hüquqlarını təsbit edən, bütün növ diskriminasiyaların qarşısının alınmasına yönələn, qadın və uşaqların hüquqlarını müdafiə edən sənədləri aid edirlər.

V.A.Kartaşkin insan hüquqlarına aid olan beynəlxalq sənədləri üç qrupa bölür. Birinci qrupa əsasən sülh şəraitində insan hüquqları sahəsində təməl prinsip və normaları özündə əks etdirən beynəlxalq sənədlər daxil edilir ki, onlara da insan hüquqlarına dair Ümumi Bəyannamə, insan hüquqları haqqında Beynəlxalq Paktlar və s. aid edilir.

İkinci qrupa hərbi münaqişələr dövründə insan hüquqlarının müdafiəsi haqqında beynəlxalq konvensiyalar daxil olunur. Buraya müharibənin qanunları və adətləri haqqında 1899 və 1907-ci illər Haaqa konvensiyalarının ayrı-ayrı müddəaları, həmçinin, müharibə qurbanları haqqında 1949-cu il dörd Cenevrə konvensiyası və 1977-ci ildə qəbul olunmuş onlara Əlavə protokollar aid olunur.

Nəhayət, üçüncü qrupu həm dinc vaxtda, həm də hərbi münaqişələr dövründə insan hüquqlarının cinayətkarcasına pozulmasına görə məsuliyyəti tənzimləyən beynəlxalq sənədlər təşkil edir. Bu qrupa əsasən Nyunberq nizamnaməsi, Nyunberq və Tokioda Beynəlxalq hərbi tribunalların hökmləri, genosid cinayətinin qarşısının alınması və ona görə cəza haqqında Konvensiya, hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə görə köhnəlik müddətinin tətbiq edilməməsi haqqında Konvensiya və aparteid cinayətinin qarşısı-

nın alınması və ona görə cəza haqqında Konvensiya, Beynəlxalq cinayət Məhkəməsinin statusu daxil edilir.

Bunlarla yanaşı, insan hüquq və azadlıqları probleminin beynəlxalq aspektlərinin tədqiqi göstərir ki, elmi ədəbiyyatda bu sahədə mövcud olan beynəlxalq sənədlərin xarakterinə görə onların iki qrupunu göstərmək olar:

*1) universal xarakterli beynəlxalq sənədlər;*

*2) regional (məhəlli) xarakterli beynəlxalq sənədlər.*

Universal xarakterli beynəlxalq sənədlər insan hüquqlarına ümumi hörmət və riayət olunması prinsipini ifadə edən, hüquq və azadlıqlara üstünlük verməklə onları dövlətlər və vəzifəli şəxslərin özbaşınalıqlarından müdafiə edən beynəlxalq sənədlərdir. Bu qrupa BMT Nizamnaməsi, İnsan hüquqları haqqında Beynəlxalq Bill, beynəlxalq konfransların müvafiq qərarları, xalqların hüquqlarını təsbit edən, bütün növ diskriminasiyaların qarşısının alınmasına yönələn, qadın və uşaqların hüquqlarını müdafiə edən və s. sənədlər aid edilir.

BMT sistemi ilə yanaşı, insan hüquqlarının müdafiəsində regional mexanizmlər də əhəmiyyətli rol oynayır. Burada əsas məqsəd regional səviyyədə insan hüquqları və azadlıqlarının müdafiəsindən ibarətdir. Bu məqsədlə yaradılmış və fəaliyyət göstərən təşkilatların qəbul etdiyi sənədlərə Avropa Şurasının, ATƏT-in, MDB-nin müvafiq sənədləri, insan hüquqları haqqında Amerika konvensiyası, Afrika insan hüquqlarının müdafiəsi Xartiyası daxildir.

## 6.5. Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının konstitusiya əsasları

Demokratik, hüquqi dövlətdə və vətəndaş cəmiyyətində ümumən qəbul olunmuş insan və vətəndaş hüquq və azadlıqları haqqında normaların səmərəliliyi və reallaşdırılması səviyyəsi bir çox amillərdən asılıdır. Məhz bu amillərə dövlət hakimiyyəti orqanları

sistemində demokratik təsisatların qanunvericiliyinin inkişaf səviyyəsi, iqtisadi durum, cəmiyyətin mədəni-mənəvi potensialı, maddi və qeyri-maddi resurslar və s. aid edilir. Bununla yanaşı, hüquqi dövlətin mütləq komponenti qismində səciyyələndirilən biri kimi səciyyələndirilən təsisatlanma səviyyəsi də insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə olunmasına təsir edən birinci dərəcəli amil qismində dəyərləndirilir. Digər tərəfdən, "yuxarı"dan həyata keçirilən siyasi-hüquqi islahatlar da bəhs edilən vəzifənin yerinə yetirilməsinə təsir edən xüsusi amildir. Bu cür islahatlara daha çox inzibati resurslardan istifadə etməklə siyasi sistemin struktur elementlərinin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər aid edilir. Bu isə insan və vətəndaş hüquq və azadlıqlarının kompleks şəkildə təmin edilməsinə fundamental töhfələr bəxş edən amil qismində dəyərləndirilir.

İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin və mühafizə edilməsi demokratiya yolunda qəti və ardıcıl surətdə irəliləyən Azərbaycan Respublikasının milli inkişaf strategiyasının prioritet istiqamətlərindəndir. Bu, Azərbaycan Respublikasının Konstitusiyasında da ən yüksək səviyyədə təsbit olunub. Konstitusiyada insan və vətəndaş hüquq və azadlıqlarının təminatı və müdafiəsi mexanizmləri də müəyyənləşdirilmişdir. Konstitusiyanın insan və vətəndaş hüquq və azadlıqları, vəzifələrinə həsr olunmuş ikinci bölməsinin 3-cü fəsli "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanır. Bu fəslin bütün mətni insana, onun ləyaqəti və hüquqlarına hörmət ruhunda yazılmışdır. Bəşər sivilizasiyasının iki mütərəqqi ideyasının-konstitusionalizm və insan hüquqlarının müdafiəsi ideyalarının üzvi surətdə bağlılığı Azərbaycan Respublikasının Konstitusiyasında özünün geniş ifadəsini tapmışdır. Konstitusiyaya görə, insan və vətəndaş hüquq və azadlıqlarının əsas prinsipi hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqlarının olması, hüquqlar və azadlıqların hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə etməsidir.

Göründüyü kimi, Konstitusiyada insan və vətəndaş hüquq və

azadlıqları insanın mövcudluq faktı və onun təbiəti ilə şərtlənən azadlıq ölçüsü kimi götürülmüşdür. Bu da onu göstərir ki, insan və vətəndaş hüquq və azadlıqlarının təsbiti və müdafiəsi təbii hüquq üzərində qurulmuşdur. Bu baxımdan, 24-cü maddənin I bəndində "hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları vardır" müddəasının əsaslandığı fəlsəfi substrata görə, insan hüquqlarının qanunvericilikdə, xüsusilə Konstitusiya qaydasında pozitivləşdirilməsi onların dəqiq hüquqi prosedurlar vasitəsilə lazımi müdafiəsi üçün prinsipial əhəmiyyət kəsb edir.

Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının Konstitusiya təsbitinin əsasında duran mühüm prinsiplərdən biri də Konstitusiyanın 25-ci maddəsində əks olunmuş "hamının qanun qarşısında bərabərliyi" prinsipidir. Bu müddəanın prinsipial əhəmiyyəti ondan ibarətdir ki, fəaliyyətdə bərabərlik hüququnu təmin etmədən insanın bütün digər hüquq və azadlıqlarının real surətdə təmin və müdafiə olunmasına nail olmaq mümkün deyil. Həmin maddədə xüsusi əhəmiyyət kəsb edən belə bir təsbit də əks olunmuşdur: **"Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətinə görə məhdudlaşdırmaq qadağandır".**

Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqları sistemində əsas qruplardan birini şəxsi (vətəndaş) hüquq və azadlıqlar təşkil edir. Konstitusiyada məhz bu cür hüquq və azadlıqlar ön plana çəkilib və şəxsi hüquq və azadlıqların prioritetliyi təsdiq edilib. Belə yanaşma isə şəxsiyyətin muxtariyyatını təmin etmək məqsədi və onun inkişaf istiqamətləri ilə şərtlənir. Şəxsi hüquq və azadlıqlar formal surətdə insanı onun şəxsi azadlığı sferasına hər hansı müdaxilədən, o cümlədən dövlətin müdaxiləsindən müdafiə etmək iqtidarındadır.

Azərbaycan Respublikasının Konstitusiyasında aşağıdakı şəxsi hüquq və azadlıqlar təsbit edilmişdir:

– *yaşamaq hüququ (maddə 27);*

– *azadlıq hüququ (maddə 28);*

– *şəxsi toxunulmazlıq hüququ (maddə 32);*

– *şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ (maddə 32);*

– *mənzil toxunulmazlığı hüququ (maddə 33);*

– *təhlükəsiz yaşamaq hüququ (maddə31);*

– *milli mənsubiyyət hüququ (maddə 44);*

– *ana dilindən istifadə hüququ (maddə 45);*

– *şərəf və ləyaqətin müdafiəsi hüququ (maddə 46);*

– *nikah hüququ (maddə 34);*

– *fikir və söz azadlığı (maddə 47);*

– *vicdan azadlığı (maddə 48).*

İnsanın şəxsi hüquq və azadlıqlarını Azərbaycan Respublikasının Konstitusiyası hüquqi dövlətin tələblərinə müvafiq surətdə təsbit etməklə yanaşı, bütün dövlət orqanları qarşısında onların müdafiəsini bir vəzifə kimi qoyur. İnsan müxtəlif keyfiyyətlərə malik ola bilər, lakin onlar onun statusuna və dövlət orqanları ilə qarşılıqlı münasibətlərinə təsir etməməlidir. Digər tərəfdən, insan əmin olmalıdır ki, öz taleyini onun özü müəyyən edir və bu zaman özünün şəxsi qərarlarına görə məsuliyyət daşıdığını da unutmamalıdır. Eyni zamanda, şəxsi hüquq və azadlıqların inkişaf etdirilməsində və həyata keçirilməsində obyektiv olaraq bütün cəmiyyət maraqlıdır.

İnsanın ölkə həyatında, cəmiyyət və dövlətin işlərinin idarə olunmasında iştirak etməyə fəal surətdə qoşulmasına siyasi hüquq və azadlıqlar yönəlmişdir. Bu hüquqlar insan və cəmiyyət, vətəndaş və cəmiyyət, eləcə də vətəndaşla dövlət arasında əlaqələrin yaradılması və möhkəmləndirilməsi üçün şərait yaradır və onların real surətdə təmin olunmasından konstitusion quruluşun əsasları, onun demokratikliyinin möhkəmliyi, əhalinin geniş təbəqələrinin siyasi mədəniyyət səviyyəsi, onların siyasi proseslərdə iştirak et-

məkdə maraqlı olması çox asılıdır.

Azərbaycan Respublikası Konstitusiyasında aşağıdakı siyasi hüquq və azadlıqlar təsbit olunmuşdur:

– *sərbəst toplaşmaq azadlığı (maddə 49);*

– *cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ (maddə 54);*

– *dövlətin idarə olunmasında iştirak etmək hüququ (maddə 55);*

– *seçki hüququ (maddə 56);*

– *referendumda iştirak etmək hüququ (maddə 56);*

– *müraciət etmək hüququ (maddə 57);*

– *birləşmək hüququ (maddə 58);*

– *siyasi sığınacaq hüququ (maddə 70) və s.*

Bununla yanaşı, Azərbaycan Respublikasının Konstitusiyasında aşağıdakı iqtisadi, sosial və mədəni hüquqlar təsbit olunmuşdur:

– *mülkiyyət hüququ (maddə 29 );*

– *azad sahibkarlıq hüququ (maddə59);*

– *əqli mülkiyyət hüququ (maddə 30);*

– *əmək hüququ (maddə 35);*

– *tətil hüququ (maddə 36);*

– *istirahət hüququ (maddə 37);*

– *mənzil hüququ (maddə 43);*

– *mənzil toxunulmazlığı hüququ (maddə 33);*

– *sosial təminat hüququ (maddə 37);*

– *sağlam ətraf-mühitdə yaşamaq hüququ (maddə 41);*

– *nikah hüququ (maddə 34);*

– *mədəniyyət hüququ (maddə 40);*

– *təhsil hüququ (maddə 42);*

– *yaradıcılıq azadlığı (maddə 43) və s.*

Təhlillər əsasında onu qeyd etmək olar ki, əgər Konstitusiyada təsbit edilmiş siyasi hüquqların əksəriyyəti yalnız vətəndaşlara aid edilirsə, şəxsi və sosial-iqtisadi hüquqların bir çoxu Azərbaycan

Respublikası ərazisində olan şəxslərin hüquqları kimi təsbit edilir. İkincisi, insan və vətəndaşların hüquqları ayrılıqda verilir ki, bu da insan və vətəndaş kateqoriyalarının bir-birindən pozitiv çalarlar əsasında fərqləndirildiyini göstərir. Bu isə vətəndaş cəmiyyəti ilə dövlətin bir-birindən fərqləndirilməsi məntiqinə uyğun gəlir. Bununla da Azərbaycan Respublikasının Konstitusiyası insana yalnız onun dövlətlə əlaqəsi ilə birtərəfli baxılmasını aradan qaldırır və insanın öz müqəddəratını təyinetmə sahəsini xeyli genişləndirir. Əgər vətəndaş cəmiyyətində hamının tanıdığı insan hüquqları əsasında şəxsiyyətin muxtariyyatı və hər hansı bir qanunsuz təsirdən müstəqilliyinin təmin olunması üçün şərait yaradılırsa, vətəndaş hüquqları fərdin dövlətlə qarşılıqlı münasibətləri sahəsini əhatə edir və onun hüquqlarına qanunsuz müdaxilədən müdafiə olunması ilə yanaşı, həm də bu hüquqların reallaşdırılmasına dövlətin köməyini də nəzərdə tutur.

Azərbaycan Respublikasının Konstitusiyası hər kəsin doğulduğu andan malik olduğu ayrılmaz hüquqlarını tanıyır və hamının tanıdığı hüquq və azadlıqların təbii təbiətini təsbit edir. Demokratik cəmiyyət quruculuğunu səciyyələndirən əsas göstəricilərə vətəndaşların konkret vəzifələri və məsuliyyətlərinin olması aid edilir. Beləliklə, buradan belə bir nəticəyə gəlmək olur ki, insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə olunması məsələsində mütləq vəzifə yalnız dövlətin üzərinə düşmür. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunduğu kimi, hər bir vətəndaş ona verilən hüquqlardan istifadə etməklə üzərinə qoyulan vəzifələri yerinə yetirməklə başqalarının da hüquq və azadlıqlarına hörmət etməlidir.

Bununla yanaşı, Konstitusiyaya görə, insan və vətəndaş hüquq və azadlıqları Azərbaycan Respublikasının ərazisində birbaşa qüvvədədir və onların pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir. Beləliklə, bu mütərəqqi müddəa cəmiyyətdə bəhs edilən hüquq və azadlıqların real müdafiəsi üçün geniş imkanlar yaradır. İnsan və vətəndaş hüquq və azadlıqlarının üstünlüyünü və ölkə ərazisində birbaşa qüvvəsini elan etməklə onların təmin

olunmasını Azərbaycan dövlətinin ali məqsədi olduğunu bəyan etməklə Konstitusiya müəyyən edir ki, məhz dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir və bu müdafiənin məhkəmə orqanlarında həyata keçirilməsinə imkanlar yaradır.

Bütövlükdə, Azərbaycan Respublikasının Konstitusiyasında insan və vətəndaş hüquq və azadlıqları tam həcmdə təsbit olunur. Konstitusiyanın maddələrini insan hüquqları sahəsində əsas beynəlxalq hüquqi sənədlərin müddəaları ilə müqayisə edərək belə bir nəticəyə gəlmək olar ki, onların ümumi yanaşmaları və konkret normalarında oxşarlıq mövcuddur. Bu isə təsadüfi deyil. Azərbaycanda insanın konstitusion statusunu müəyyən edən prinsiplər mühüm beynəlxalq sənədlərdə təsbit olunmuş normaların ümumdünya səviyyəsini əks etdirir. Bu isə, ilk növbədə, onunla izah olunur ki, Azərbaycan dünya birliyinin bir hissəsi olmaqla bəşər sivilizasiyasının dəyərlərini tanıyır və qəbul edir. Demokratik inkişaf yolunu seçmiş Azərbaycan Respublikası Ümumdünya insan hüquqları Bəyannaməsində, BMT Nizamnaməsində, Mülki və siyasi hüquqlar haqqında, iqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq-hüquqi sənədlərdə təsbit olunmuş insan hüquqlarına riayət olunması prinsiplərini tanıyır və Azərbaycan Respublikasının Konstitusiyasında, müvafiq dövlətdaxili hüquqi sənədlərdə insan və vətəndaş hüquq və azadlıqlarının təsbit edilməsi bu prinsiplərə təminat veriləcəyinin ifadəsidir.

Beləliklə, Azərbaycan Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarını dünya təcrübəsinin nəzərə alınması fonunda geniş şəkildə təsbit edir, onların və insanın ən ali dəyər olmasından çıxış edir. Bütün bunlar isə demokratik, hüquqi dövlətin ən əsas və ayrılmaz əlamətlərindən biri olmaqla bütün dövlət hakimiyyəti orqanlarının fəaliyyətində insan hüquq və azadlıqlarının prioritet yer tutmasından xəbər verir.

Konstitusiyada insan hüquq və azadlıqlarının həyata keçirilməsi üçün zəruri təminatlar da göstərilmişdir. Konstitusiyanın müddəalarına müvafiq olaraq bu sahədə ümumdövlət təminatına insan hüquq və azadlıqlarının prioritetliyini, Konstitusiyanın və qanunla-

rın aliliyini, hakimiyyətin bölgüsü prinsipinə əsaslanan demokratik, hüquqi dövlətçilik təsisatları sisteminin formalaşdırılmasını, insan hüquqlarının müdafiəsinin hüquqi əsaslarının yaradılmasını, bu sahədə milli təsisat və mexanizmlərin yaradılmasını və s. aid etmək olar.

## 6.6. Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi siyasətinin əsas istiqamətləri

İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə edilməsi daim dövlətin diqqət mərkəzində olan başlıca məsələlərdəndir. Çünki vətəndaş cəmiyyətinin formalaşdırılması, demokratik, hüquqi dövlət quruculuğu bilavasitə insan və vətəndaş hüquq və azadlıqlarının möhkəm təminatının yaradılması problemi ilə bağlıdır.

Ümumi rəydir ki, insan və vətəndaş hüquq və azadlıqlarının reallaşdırılması mexanizmi insanın bütün hüquq və azadlıqlarına hörmət üçün zəruri şəraiti təmin edən, insan şəxsiyyətinə xas olan ləyaqətdən irəli gələn, onun tam və azad inkişafı üçün əhəmiyyətli olan vasitə və amillərin müəyyən sistemidir. Bu mexanizmin strukturuna daxil olan elementlərə ictimai normalar, insan və vətəndaş hüquq və azadlıqlarının subyektlərinin fəaliyyəti, ictimai rəy, ümumi, xüsusi və təşkilati prosedurlar, məsuliyyət və s. aid edilir. Ümumiyyətlə, insan hüquqlarının reallaşdırılması mexanizminin vəzifələrinə pozulmuş hüquqların qorunması, müdafiəsi və bərpası daxildir. Beləliklə, həmin mexanizmin yarımsistemləri kimi pozulmuş subyektiv hüquqların "qorunması mexanizmi", "müdafiəsi mexanizmi", həmçinin, "tərbiyəsi mexanizmi" çıxış edirlər.

İnsan hüquqlarının müdafiə və təmin edilməsi sahəsində xarici təcrübəni tədqiq edən araşdırmaçıların ümumi rəyinə görə, heç də bütün ölkələrdə insan və vətəndaş hüquq və azadlıqlarını təmin edən dövlətdaxili mexanizmlər (təminatlar) yaradılmır. O.E.Kutafin qeyd edir ki, təminatlar fiziki şəxs tərəfindən ona məxsus

hüquq və azadlıqların həyata keçirilməsi imkanlarını təmin edən tədbirlərdir.

M.V.Baqlay hüquq və azadlıqların konstitusion təminatlarını nəzərdən keçirir və onların təsnifatının aşağıdakı kimi verilməsini təklif edir:

– *insan və vətəndaş hüquq və azadlıqlarının ümumi təminatları;*
– *hüquq və azadlıqların müdafiəsi;*
– *məhkəmə müdafiəsi;*
– *beynəlxalq müdafiə;*
– *təzminat məsələsi üzrə müdafiə;*
– *ədalət mühakiməsinin konstitusion təminatları;*
– *hüquqi yardım almaq hüququ;*
– *qanunsuz yolla əldə edilmiş sübut və dəlillərin qeyri-qanuniliyi;*
– *hökmə yenidən baxılması hüququ;*
– *cinayətdən zərər çəkənlərin hüquqları;*
– *qanunun əks qüvvəsinin qadağan edilməsi.*

İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, onların tam həcmdə həyata keçirilməsi dövlət qarşısında müəyyən vəzifələr qoyur. Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarını təsbit və bəyan edərək həm də müəyyən edir ki, onlara riayət olunması dövlətin nəzarətində və məsuliyyətindədir. Bu hüquq və azadlıqların müdafiəsi və təmin olunması üçün zəruri olan əsas mexanizmlər də müəyyən olunmuşdur. Ölkədə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi və təmin olunmasına görə üzərinə məsuliyyət qoyulan təsisatlar sırasına dövlət hakimiyyətinin hər üç qolu aid edilir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinə əsasən, insan hüquqlarını qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.

Göründüyü kimi, Konstitusiyada mütərəqqi amillərdən biri kimi təsbit olunmuş hakimiyyətin bölgüsü prinsipinə əsasən, hakimiyyətin hər üç qolu öz fəaliyyətində insan və vətəndaş hüquq və azadlıqlarını hər bir halda qorumalı, bu, onların ümdə vəzifələrindən biri və əsas olmalıdır. Ona görə ki, insan və vətəndaş hüquqla-

rı və azadlıqları ali dəyərə malikdir və bu hüquqlar hər hansı bir normativ hüquqi aktla və ya vəzifəli şəxs tərəfindən ləğv edilə, yaxud məhdudlaşdırıla bilməz. Bu baxımdan ilk növbədə, Azərbaycanda qanunvericilik hakimiyyətini həyata keçirən orqan kimi Milli Məclis ölkə konstitusiyasının insan və vətəndaş hüquq və azadlıqlarına dair müddəalarını qəbul etdiyi qanunlarda əks etdirir və onların həyata keçirilməsini təmin etmək üçün mexanizmlər müəyyənləşdirir.

24 avqust 2002-ci il tarixində qəbul olunmuş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya Qanunu tənzim etdiyi məsələlərin əhatə dairəsinə görə olduqca mühüm əhəmiyyət kəsb edir. Bu Qanun Azərbaycanda insan hüquq və azadlıqlarının həyata keçirilməsini "İnsan hüquq və azadlıqlarının müdafiəsi haqqında" Konstitusiyaya uyğunlaşdırmaq məqsədi daşıyır.

Konstitusiya Qanunu hər kəsin onun hüquqlarını və azadlıqlarını pozan qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının qərarlarından, bələdiyyə aktlarından şikayət vermək hüququnu və məhkəmlərin insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı Konstitusiyanın və qanunların şərh edilməsi haqqında Konstitusiya Məhkəməsinə müraciət edə bilmək hüquqlarını təsbit etmiş və bununla da qeyd olunan Konvensiyanın tələblərinə uyğun surətdə tərtib olunmaqla insanların hüquq və azadlıqlarının qorunması, məhkəmənin nüfuzunun və ədalət mühakiməsinin qərəzsizliyinin təmin edilməsi üçün real hüquqi baza yaratmışdır.

Bütövlükdə, hakimiyyətin üç qolu Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının dövlətdaxili müdafiəsi və təmin edilməsi mexanizmlərinin əsasını təşkil edir və insan hüquqlarının reallaşmasının təmin edilməsi metodları, prosedur və vasitələrini müəyyən edir. Dövlətdaxili milli mexanizmlər sırasına xüsusi olaraq ölkə Prezidenti tərəfindən insan və vətəndaş hüquq və azadlıqlarının konstitusion təminatçısı kimi müdafiəsini aid etmək olar. Məhz bununla əlaqədar olaraq Azərbaycan xalqının Ümummilli

lideri qeyd etmişdir: "**Prezident kimi mənim üçün hər bir Azərbaycan vətəndaşının hüququnun qorunması vacibdir... Azərbaycan Respublikası öz həyatını demokratik prinsiplər əsasında quraraq daim çalışacaqdır ki, insan hüquqlarının qorunmasına əməl edilsin... İnsan hüquqlarının qorunması Azərbaycan dövlətinin əsas prinsiplərindən biridir**...".

Ümumiyyətlə, bütün mərhələlərdə Ulu öndər Heydər Əliyevin rəhbərliyinin mahiyyətini əks etdirən dəyərlər sırasında insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, humanizm, ədalət prinsipləri həmişə üstün yer tutur. Ölkəmizdə həyata keçirilən genişmiqyaslı hüquqi islahatlar, məhkəmə sisteminin təkmilləşdirilməsi məhz bu prinsiplərə xidmət edir.

Bütün bu hüquqi islahatların mahiyyəti və dövlətin bu sahədə yerinə yetirməli olduğu funksiyalardan bəhs edən Ulu öndər Heydər Əliyev qeyd etmişdir: **"...Biz demokratiya yolu seçmişik, demokratiyanı da inkişaf etdiririk. İnsan haqlarını təmin etmişik. Azərbaycanda mətbuat azadlığı, vicdan azadlığı, söz azadlığı tamamilə təmin olunubdur. Siyasi plüralizm hökm sürür. Hər şey demokratik prinsiplər əsasındadır".**

Bunlarla yanaşı, *"İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında"* 22 fevral 1998-ci il tarixli Fərman bəhs edilən məsələlər baxımından xüsusi əhəmiyyət kəsb edir. Həmin Fərmanda qeyd olunur ki, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Beynəlxalq Dövlətlər Birliyinin tamhüquqlu üzvü kimi əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu özünün inkişaf yolunu seçmişdir.

Ulu öndərin həmin Fərmanında 80-ci illərin axırlarında 90-cı illərin əvvəllərində Azərbaycanda insan hüquqlarının kütləvi surətdə pozulmasına gətirib çıxarmış hallara və faktlara siyasi qiymət verilib. Burada insan hüquqlarının, qadınların, uşaqların, milli azlıqların müdafiəsinə dair dövlət proqramlarının layihələrinin işlənib hazırlanması, qaçqınların və məcburi köçkünlərin, əlillərin, müharibə iştirakçılarının, aztəminatlı ailələrin iqtisadi və sosial hü-

quqlarının daha səmərəli təmin edilməsi, insan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli Müvəkkili təsisatının, habelə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsini həyata keçirən digər qurumların yaradılması, hüquqi islahatların həyata keçirilməsi ilə əlaqədar normativ hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, insan hüquqlarının qorunması sahəsində hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları üzrə elmi-tədqiqat institutunun yaradılması və digər məsələlərə dair təkliflərin hazırlanması və lazımi tədbirlərin görülməsi müvafiq dövlət strukturlarına tapşırılmışdır.

Demokratiya yolunda qəti və ardıcıl addımlarla irəliləyən Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində müəyyən olunmuş tədbirlərin əsaslı və məqsədyönlü şəkildə həyata keçirilməsi məqsədilə Ulu öndər Heydər Əliyevin 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilmişdir.

Ölkəmzidə insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə olunması istiqamətində görülən fundamental tədbirlərdən biri də ölüm cəzasının ləğvi olmuşdur. Qeyd etmək lazımdır ki, ölüm hökmü Azərbaycanın Cinayət Məcəlləsində hər zaman olmuşdur və statistikaya görə, 1988-1993-cü illər ərzində 32 şəxs haqqında icra olunmuşdur. Onlardan 8 nəfər haqqında hökm 1993-cü ildə Prezident fərmanları əsasında icra edilmişdir. Amma 1993-cü ilin iyun ayından isə ölkə rəhbərliyinə qayıtmış Ümummilli lider Heydər Əliyevin humanist siyasətinin təzahürü kimi Azərbaycanda ölüm hökmünün icrasına faktiki moratorium qoyulmuş, bu müstəsna cəza növü 10 fevral 1998-ci il tarixli Qanunla tamamilə ləğv edilmişdir. Bu addım Azərbaycan dövlətinin humanist və demokratik mahiyyətini, ölkədə insan hüquqlarının təmin və mühafizə edilməsinə verilən önəmi bir daha sübut etmişdir.

Azərbaycanda vətəndaşların dövlət orqanlarına müraciət etmək hüququnun həyata keçirilməsi sahəsində aparılan siyasət sistemli və ardıcıl xarakter daşıyır. Bu da icra hakimiyyəti orqanlarının bəhs edilən istiqamətdəki fəaliyyətinin getdikcə daha da yaxşılaş-

dırılmasına xidmət edir. Təkcə 2002-ci il ərzində Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına vətəndaşlardan 54141 təklif, ərizə və şikayət daxil olmuşdur. Yerli icra hakimiyyəti başçılarının aparatına gəldikdə isə, 2002-ci ildə vətəndaşlardan təkcə Goranboy rayonunda 665, Masallıda 540, Yardımlıda 403 müraciət daxil olmuşdur.

Bunlardan başqa, Azərbaycan Respublikasında son illər məhkəmə sistemində aparılan islahatlar hər bir insanın, vətəndaşın öz hüquqlarının bərpa olunması üçün bütün imkanlardan istifadə edilməsinə təminatın verilməsinə yönəldilmişdir. İnsan və vətəndaş hüquqlarının pozulması ilə əlaqədar mübahisələr yarandığı təqdirdə onları məhkəmələr həll edir. Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə əsasən, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəs dövlət orqanının, siyasi partiyaların, ictimai birliklərin və ya vəzifəli şəxslərin qərar və hərəkətlərindən, yaxud hərəkətsizliklərindən məhkəməyə şikayət edə bilər. Bu isə məhkəmələrin "tarazlama" sisteminə daxil olmasından irəli gəlir.

Bütün bunlarla yanaşı, demokratik, hüquqi dövlət quruculuğunun fonunda Azərbaycan cəmiyyətində dövlət orqanları və vəzifəli şəxslər qarşısına vətəndaşlara öz konstitusion hüquqlarını həyata keçirməkdə köməklik etmək vəzifəsi qoyulur ki, bunun da konkret formaları xüsusi qanunlarla müəyyən olunur. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş vətəndaşların seçki hüququnun reallaşdırılması və seçki kampaniyasının həyata keçirilməsi Azərbaycan Respublikasının seçki qanunvericiliyinə əsasən, dövlət kütləvi informasiya vasitələrində seçkilərdə iştirak edən siyasi partiyalara və hər bir namizədə pulsuz çıxış etmək imkanı verilir. İkincisi, seçkilərin hazırlanmasına və keçirilməsinə, seçki komissiyalarının səlahiyyət müddətində onların fəaliyyətinin təmin edilməsinə çəkilən xərclər dövlət hesabına ödənilir.

Azərbaycanda dövlət orqanlarının vətəndaşların hüquq və azadlıqlarının həyata keçirilməsinə köməyi icazə verilmiş siyasi nümayiş və mitinqlərin polis tərəfindən mühafizə olunmasında, öl-

kədə məşğulluq problemi üzrə xüsusi dövlət strukturlarının yaradılmasında (əmək hüququnun reallaşdırılması), dövlətin fəaliyyətinin bir çox digər istiqamətlərində təzahür olunur və bütün bu məsələlər qanunla tənzimlənir.

Bundan başqa, Ulu öndər Heydər Əliyevin insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə edilməsi ilə bağlı həyata keçirdiyi humanist siyasət Prezident İlham Əliyevin dövründə xüsusi diqqət və qayğı göstərilən prioritet istiqamət olmuşdur. “**Biz ölkəmizdə demokratiyanın, insan hüquqlarının inkişafına və qorunmasına çox böyük əhəmiyyət veririk” – deyən Prezident İlham Əliyevin birbaşa tövsiyə və göstərişləri əsasında görülən sistematik işlər insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində xüsusi əhəmiyyət kəsb etmişdir. Prezident İlham Əliyev bununla bağlı demişdir: “Biz ölkəmizdə demokratiyanın, insan hüquqlarının inkişafına və qorunmasına çox böyük əhəmiyyət veririk... Əlbəttə, çox vacibdir ki, bu sahədə həm beynəlxalq təşkilatlar tərəfindən, eyni zamanda, bu sahə ilə bilavasitə məşğul olan qurumlar tərəfindən vahid meyarlar tətbiq olunsun. Biz, əlbəttə, gələcək fəaliyyətimizdə də Azərbaycanda həm siyasi, həm iqtisadi, həm də sosial islahatları davam etdirəcəyik, insan hüquqlarının qorunması üçün bütün lazımi tədbirləri görəcəyik**”.

Məhz bu cür ali və humanist mövqeyin qanunauyğun nəticəsi kimi, Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamına əsasən, 18 iyun Azərbaycanda İnsan hüquqları günü elan edilib. Sərəncamda Ulu öndər Heydər Əliyevin 1998-ci il iyunun 18-də Azərbaycanda ilk *“İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı”*nı təsdiq etdiyi xatırladılır və bildirilir ki, Heydər Əliyev insan hüquqlarının təmin olunmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edib. Məhz bunun əsasında 18 iyun tarixi Azərbaycanda insan hüquqları günü elan olunub. Sərəncama görə, hər il iyunun 18-i Azərbaycanda İnsan hüquqları günü kimi qeyd olunmalıdır.

Beləliklə, yuxarıda istinad edilən məsələ və məqamları ümumi-

ləşdirərək belə bir nəticəyə gəlmək olar ki, Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi istiqamətində 1993-cü ildən – Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra sistematik və ardıcıl tədbirlər görülməyə başlanmışdır. Və bu gün bütün sahə və istiqamətlərdə insan və vətəndaş hüquq və azadlıqları ən yüksək səviyyədə təmin və müdafiə edilməkdədir.

## 6.7. Azərbaycan cəmiyyətinin demokratikləşməsi şəraitində ombudsman təsisatının təşəkkülü xüsusiyyətləri

Demokratik, hüquqi dövlət quruculuğu yolunu tutmuş Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması şəraitində insan və vətəndaş hüquq və azadlıqlarının konstitusiya təminatlarının formalaşdırılması mexanizmində insan hüquqları üzrə Müvəkkil (ombudsman) təsisatı xüsusi yer tutur və səmərəli dövlətdaxili vasitə kimi çıxış edir.

Ölkəmizdə məhz bu cür demokratik təsisatın yaradılması Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 22 fevral 1998-ci il tarixli Fərmanında mühüm vəzifə kimi müəyyən edilmişdir. Bu istiqamətdə aparılan məqsədyönlü hazırlıq işi baxımından 2001-ci il mayın 14-də Azərbaycan Respublikasının Milli Məclisi, BMT-nin İnkişaf proqramı və Azərbaycan Milli Elmlər Akademiyasının İnsan hüquqları İnstitutunun "Azərbaycanda ombudsman təsisatının yaradılması" mövzusunda birgə keçirdikləri beynəlxalq elmi-praktik seminar xüsusi önəm kəsb etmişdir.

Modern cəmiyyətlərdə demokratiyanın təmin edilməsi müxtəlif formalarda təzahür edir. Qloballaşan dünyada baş verən inteqrasiya prosesləri getdikcə demokratiyanın Qərb və Şərq modellərinin daha ümumi və bənzər şəkildə gerçəkləşməsinə gətirib çıxaracaqdır. Bunun təzahürü kimi 2001-ci il yanvar ayının 25-də Avropa Şurasının üzvü olan Azərbaycan Respublikasının bir sıra Avropa Konvensiyalarına qoşulması və ölkədə onlardan irəli gələn öhdə-

liklərə müvafiq milli təsisatların yaradılmasıdır. Belə ki, Azərbaycan Respublikası 25 dekabr 2001-ci il tarixində "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" və "İşgəncələrin və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftarların və ya cəzaların qarşısının alınması haqqında" Avropa konvensiyalarına qoşularaq milli qanunvericiliyin beynəlxalq, Avropa standartlarına uyğun təkmilləşdirilməsi öhdəliyini qəbul etmişdir. Bu baxımdan qeyd etmək lazımdır ki, Azərbaycanda ombudsman təsisatının yaradılması da bunlardan biri olmuşdur.

"Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu 28 dekabr 2001-ci il tarixində qəbul olunmuşdur. Həmin qanunda İnsan Hüquqları üzrə Müvəkkilin fəaliyyətinin əsasları müəyyən edilərək qeyd edilir ki, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili vəzifəsi Azərbaycan Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi üçün təsis edilir.

Qanuna görə, Müvəkkilin fəaliyyəti insan hüquqlarının müdafiəsini, pozulmuş insan hüquq və azadlıqlarının bərpasını təmin edən digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmır və əvəz etmir. Müvəkkilin səlahiyyətlərinə Azərbaycan Respublikası hakimlərinin fəaliyyətinin yoxlanılması aid deyil.

Qanun İnsan Hüquqları üzrə Müvəkkilin səlahiyyətlərinə bir sıra məsələlərlə bağlı təkliflərin verilməsini daxil edir:

*– Əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi barədə Azərbaycan Respublikası Prezidentinə təkliflərin verilməsi;*

*– İnsan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına dair Azərbaycan Respublikasının Milli Məclisinə təkliflərin verilməsi;*

*– Amnistiya elan edilməsi barədə Milli Məclisə təklifin verilməsi.*

Azərbaycan Respublikasında İnsan Hüquqları üzrə Müvəkkili-

nin (ombudsman) seçilməsi bir sıra postsovet ölkələrindən fərqlənir. Belə ki, qonşu Gürcüstanda həmin vəzifəyə ölkə prezidenti ilə yanaşı, parlament fraksiyaları və müstəqil deputat qrupları da namizəd irəli sürə bilərlər. Azərbaycan parlamentinin isə ombudsman postuna namizəd irəli sürmək hüququ yoxdur. Həmin vəzifəyə namizədləri Azərbaycan Respublikasının Prezidenti təqdim edir. Milli Məclis yalnız Prezident tərəfindən təqdim olunmuş üç namizəddən birini seçmək səlahiyyətinə malikdir. Əlbəttə, Milli Məclis Prezidentin təqdim etdiyi namizədlərin heç birinə səs verməyə bilər. Bu halda həmin prosedur yenidən həyata keçirilir. 15 gün müddətində Prezident digər üç namizədi Milli Məclisə təqdim edir. Təqdim olunan üç namizəd arasından Müvəkkil 83 səs çoxluğu ilə seçilir.

Qanunda Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili seçilmək üçün bir sıra ciddi tələblər qoyulur və bu da, bizim fikrimizcə, müsbət hal kimi qiymətləndirilməlidir. Belə ki, Qanunun 3-cü maddəsinə görə, yaşı 30-dan aşağı olmayan, ali təhsilli, insan hüquqlarının müdafiəsi sahəsində təcrübəyə və yüksək əxlaqi keyfiyyətlərə malik olan Azərbaycan Respublikasının vətəndaşı Müvəkkil vəzifəsinə seçilə bilər. Göründüyü kimi, Müvəkkil olmaq üçün təkcə hüquqi deyil, həm də mənəvi tələblər də irəli sürülür. Bundan başqa, kimlərin Müvəkkil ola bilməməsi də konkret təsbit edilir: **"İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla digər ödənişli fəaliyyət növləri ilə məşğul olan, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır və xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxs Müvəkkil seçilə bilməz".** Eyni zamanda, Müvəkkil siyasi fəaliyyətlə məşğul olmamalı və heç bir siyasi partiyanın üzvü və qeyri-hökumət təşkilatının rəhbərliyində təmsil olunmamalıdır. Belə bir tələb də qoyulur ki, Müvəkkil vəzifəyə seçildiyi vaxtdan 5 gün ərzində onun statusuna uyğun gəlməyən fəaliyyət növlərinə xitam verməlidir.

Müvəkkil vəzifəyə seçildiyi gün Azərbaycan Respublikası Milli Məclisinin iclasında həmin vəzifədə səlahiyyətlərini şərəf və ləyaqətlə yerinə yetirəcəyinə, Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına əməl edəcəyinə, müstəqil və qərəzsiz fəaliyyət göstərəcəyinə and içir.

Qanunun ikinci fəslində insan hüquqlarının pozulmasına dair şikayətlərə baxılması mexanizmi müəyyən olunmuşdur. Belə ki, 8-ci maddədə Müvəkkilə şikayətlərlə kimlərin müraciət edə biləcəyi müəyyən olunur və onlara Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və hüquqi şəxslər aid edilir. Şikayətləri, həmçinin, hüquqları pozulmuş şəxsin razılığı ilə üçüncü şəxslər, o cümlədən qeyri-hökumət təşkilatları da verə bilər. İnsan hüquqları pozulmuş şəxsin razılığını almaq mümkün olmadıqda (həmin şəxs vəfat etdikdə, fəaliyyət qabiliyyətini itirdikdə və s.) şikayəti üçüncü şəxslər və ya qeyri-hökumət təşkilatları razılıq olmadan da verə bilərlər. Dövlət orqanlarına isə Müvəkkilə şikayət vermək hüquq verilmir.

Qanuna görə, Müvəkkil öz təşəbbüsü ilə də araşdırma apara bilər. Əgər araşdırma zamanı Müvəkkil müəyyən etsə ki, araşdırma onun səlahiyyətinə daxil olmayan məsələlərə aiddir, onda o materialları araşdırmaq üçün digər dövlət orqanlarına göndərir.

Qanunda şikayətin baxılma müddəti 30 gün müəyyən edilmiş, onun nəticələri ilə bağlı məlumatın isə ərizəçiyə 5 gün müddətində yazılı surətdə verilməsi nəzərdə tutulur. Müvəkkil şikayətin araşdırılması zamanı insan hüquqlarının pozulması hallarını aşkar etdikdə aşağıdakı tədbirləri həyata keçirə bilər:

*– qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində insan hüquqlarını pozmuş, dövlət və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən həmin hüquqların bərpasını tələb etmək;*

*– cinayət əlamətləri aşkar edildikdə müvafiq orqanlara cinayət işinin başlanması barədə müraciət etmək;*

*– əlavə kassasiya qaydasında şikayət etmək hüququna malik olan subyektlərə müraciət etmək;*

*– qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində insan hüquqlarını pozmuş vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi barəsində müvafiq orqanlara təkliflər vermək;*

*– insan hüquqlarının pozulması ilə əlaqədar aparılmış yoxlamaların nəticələri ilə kütləvi informasiya vasitələrini tanış etmək;*

*– insan hüquqlarının pozulması xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda onların bərpası üçün Müvəkkilin səlahiyyətində olan təsir imkanları kifayət etmədikdə Azərbaycan Respublikası Prezidentinə müraciət etmək, Azərbaycan Respublikasının Milli Məclisi qarşısında məruzə ilə çıxış etmək;*

*– dövlət və ya özünüidarə orqanlarının, vəzifəli şəxsin qərarı və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində pozulmuş hüquqların bərpası üçün məhkəməyə müraciət etmək;*

*– şəxsin hüquqları qüvvədə olan normativ aktlarla pozulduqda Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək.*

Bütün bunlarla yanaşı, Müvəkkil öz fəaliyyətində bir təsir vasitəsindən də istifadə edə bilər ki, bu da onun Azərbaycan Respublikası Prezidentinə təqdim etmək üçün hazırladığı illik məruzəsidir. O, həmin məruzə ilə, həmçinin, Milli Məclisdə də çıxış etməlidir. İllik məruzədə insan hüquqlarını pozan, Müvəkkilin tələbləri ilə hesablaşmayan dövlət və yerli özünüidarə orqanlarının, vəzifəli şəxslərin adları çəkilən və bununla əlaqədar görülmüş tədbirlər barədə məlumat verilir. Həmin məruzədə ölkədə insan hüquqlarının təmin edilməsi ilə əlaqədar ümumi fikir, rəy və tövsiyələr öz əksini tapmalıdır.

Qanuna görə, Müvəkkilin illik məruzəsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə, Ali Məhkəməsinə və Baş prokuroruna göndərilməli və rəsmi dərc olunmalıdır.

Qanunda Müvəkkilin fəaliyyətinin həyata keçirilməsinin təmin

edilməsi üçün aparatın yaradılması nəzərdə tutulur və aparat Müvəkkil tərəfindən təsdiq olunan "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin aparatı haqqında" Əsasnaməyə uyğun fəaliyyət göstərir. Müvəkkilin və onun aparatının fəaliyyəti Dövlət Büdcəsi hesabına maliyyələşdirilir.

Beləliklə, bütün bu sadalananları ümumiləşdirərək belə bir nəticəyə gələ bilərik ki, Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə olunması istiqamətində ombudsman təsisatının fəaliyyət mexanizmi xüsusi önəm kəsb edir. Bu isə belə bir yekun qənaətə gəlməyə imkan verir ki, Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmin və mühafizə olunması istiqamətində fundamental institusional mexanizmlər mövcuddur və onlardan səmərəli surətdə istifadə edilməkdədir. Bunun nəticəsidir ki, sadalanan vəzifələrin yerinə yetirilməsi nöqteyi-nəzərindən ombudsman təsisatının fəaliyyətinə real əlverişli şərait vardır və bəhs edilən institutun öz səlahiyyətləri çərçivəsində spesifik funksionallığı müşahidə edilməkdədir. Nəticə etibarilə, hər bir demokratik ölkədə olduğu kimi Azərbaycanda da ombudsman təsisatı insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, bir sıra qurumların fəaliyyət mexanizminin tənzimlənməsi və vətəndaşlarla qurumlar arasındakı münasibətlərdə ahəngdarlığın təmin olunması baxımından xüsusi önəm kəsb edir.

*Azərbaycan xalqının milli sərvəti onun intellektual potensialıdır, mədəniyyətidir, ədəbiyyatıdır. Biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışdıq. Bizim iqtisadi potensialımız kimi, başqa bir sərvətimiz – intellektual potensialımız da var. Bunu yaradanlar var. Bu dahi insanlar Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar*

***Ulu öndər Heydər Əliyev***

***

*Qara qızılın insan kapitalına çevrilməsi bizim təcrübəmizdə, sadəcə, şüar deyil, real vəziyyətdir*

***Prezident İlham Əliyev***

# VII FƏSİL

# MİLLİ ELİTA MƏSƏLƏSİ: NƏZƏRİ-KONSEPTUAL ƏSASLAR, ELİTAR TRANSFORMASİYALAR VƏ AZƏRBAYCAN TƏCRÜBƏSİ

## 7.1. Elita problemi nəzəri-konseptual və analitik-empirik tədqiqat obyekti kimi

Müasir siyasi-hüquqi leksikonda ən çox istinad edilən anlayışlardan biri də elita məfhumudur. Politoloji sözlüklərdə elita məfhumu klassik mənada sosial-siyasi iyerarxiya sisteminin yuxarı təbəqəsi kimi səciyyələndirilsə də, araşdırmaçılar bu məfhuma müxtəlif təriflər verməkdədirlər. V.Pareto qeyd edir ki, elita peşə fəaliyyəti sahəsində ən yüksək maddi və mənəvi göstəricilərlə digər subyektlərdən fərqlənən avanqard şəxs və ya institut kimi səciyyələndirilməlidir. Q.Moska isə bildirir ki, elita siyasi baxımdan olduqca fəal və rasional, hakimiyyətə istiqamətlənmiş və təşkilatlanmış azlıqdır. M.Veber isə belə bir yanaşma ilə çıxış edir ki, elita özünün şəxsi və mənəvi keyfiyyətləri ilə cəmiyyətin digər subyektlərindən fərqlənən şəxslərdir. O, elitanı xarizmatik şəxslərin məcmusu kimi təsvir edir. H.Lassuel isə elitanı özlərinin şəxsi keyfiyyətləri sayəsində cəmiyyətdə yüksək status və nüfuz qazanan və onların davamlılığını təmin etməyi bacaran aristokratik şəxslərin məcmusu kimi səciyyələndirir.

Bir çox politoloji konsepsiyalara görə, elita dövlətin mədəni və sosial-iqtisadi siyasətini işləyib hazırlayan və həyata keçirən üstün ictimai qruplardır. Elita istənilən tipli sosiumun fəaliyyəti üçün zəruri və həyati əhəmiyyətli struktur elementidir. 1823-cü ildə buraxılmış Oksford lüğətində "elita" termini yüksək əyanlar, "seçmə" insanlar kateqoriyalarının sinonimi kimi işlədilib.

Beləliklə, elitaya verilən təriflər forma etibarilə fərqli olsa da, mahiyyətcə oxşar və ya eynidir. Belə ki, verilən tərifləri ümumiləş-

dirərək elitaya belə bir ümumi və yekun tərif vermək olar: **Elita sahib olduğu yüksək şəxsi keyfiyyətlərinə, intellektual potensialına və rasional, praqmatik fəaliyyət mexanizminə görə sosial piramidanın zirvəsində qərar tutan institusional aktorlardır.**

Ümumiyyətlə, elitanın tədqiqində iki üsul (və ya yanaşma) ön plana çəkilir: meritokratik və amiranə yanaşma. Meritokratik yanaşmanın fonunda elitanı dəyərləndirərkən fərdi keyfiyyətlər, bilik və bacarıqlar, nailiyyətlər əsas götürülür. Amiranə yanaşmada isə varislik prinsipi əsas götürülməklə müvafiq sahə üzrə ən layiqli şəxslərin seçilməsinə üstünlük verilir. Məhz bu iki yanaşmanın fonunda elitanın seçilməsi məsələsi də gündəmə gəlir. Empirik-təcrübi proseslərin fonunda meydana gəlmiş nəzəri-konseptual mənbələrdə elitanın seçimi və formalaşmasının iki üsulu və ya forması göstərilir.

Birinci üsul antreprener sistem adlanır və aşağıdakı təməl prinsiplər və xüsusiyyətləri özündə ehtiva edir:

*– cəmiyyətin bütün qrupları elitada təmsil olunmaq imkanına malik olmasa da, bu hüquqa malikdir;*

*– elitanın formalaşması prosesində plüralist rəqabət şəraiti yaradılmalı və əsas götürülməlidir;*

*– idarəetmə strukturlarına seçim kampaniyası müsabiqə əsasında təşkil edilməli və seçim zamanı mənəvi keyfiyyətlər, təcrübi qabiliyyətlər və intellektual potensial əsas götürülməlidir;*

*– elitanın seçimi zamanı inzibati maneələrə yol verilməməli və formal tələblər aradan qaldırılmalıdır.*

Göründüyü kimi, antreprener sistem olduqca demokratik səciyyəlidir və onun tətbiq edilməsi kadr siyasətinin effektivliyini təmin etməklə yanaşı, cəmiyyətin total inkişafını da şərtləndirmiş olur.

Gildiya sistemi isə antreprener sistemin tam əksi qismində səciyyələndirilir və qeyri-təkmil üsul kimi çıxış edir. Gildiya sisteminin mahiyyətini anlamaq üçün onun təməl xüsusiyyətlərinə nəzər yetirmək məqsədəmüvafiqdir:

*– elita seçimi qapalı səciyyə daşıyır və nümayəndələr artıq elita qismində çıxış edən aktorların təyin etdikləri şəxslərdən formalaşır;*

*– seçim zamanı mənəvi keyfiyyətlər, idarəetmə bacarığı, təcrübi qabiliyyətlər və intellektual potensial aşağı səviyyədə nəzərə alınır. Əsasən namizədlər qarşısında formal tələblər qoyulur və kadr yetişdirilməsi işi düzgün təşkil edilmir;*

*– elitanın seçilməsi və formalaşdırılması prosesində selektoratın (seçənlər) təmsilçilik dairəsi məhdud xarakterli olur ki, bu da seçim zamanı rasionallıq və praqmatiklik səviyyəsinin olduqca aşağı düşməsinə səbəb olur.*

Beləliklə, elitanın seçimi və formalaşdırılması istinad edilən yanaşmalara və üsullara görə bir-birindən fərqlənsə də, onlardan heç biri mütləq surətdə üstünlük təşkil etmir. Belə ki, sosial stratifikasiyalaşma baxımından yetkin və inkişaf etmiş cəmiyyətlərdə belə, elitanın seçimi və formalaşdırılması nöqteyi-nəzərindən həm antreprener, həm də gildiya sisteminin bir sıra xüsusiyyətləri yanaşı surətdə mövcuddur.

Bunlarla yanaşı, elitanın təsnifatı məsələsi də siyasi elmin mərkəzi problemlərindən birini təşkil etməkdədir. Elitanın təsnifatı dedikdə fəaliyyət mexanizminə və funksionallıq səviyyəsinə görə elita subyektlərinin təmsil olunduqları sahəyə müvafiq surətdə onların qruplaşdırılması və ya təsnif edilməsi nəzərdə tutulur. Empiriktəcrübi faktlarla təsbit edilmiş nəzəri-konseptual mənbələrdə fəaliyyət sahəsinə görə elitanın təsnifatı məhz aşağıdakı kimi təsvir edilir:

– ***Siyasi elita***: *hakimiyyətin qollarından birində təmsil olunmaqla siyasi idarəetməni həyata keçirən rəsmi şəxslərin məcmusu nəzərdə tutulur;*

– ***İqtisadi elita***: *hakimiyyətin tərkibində iqtisadi idarəetməni həyata keçirən şəxslərlə yanaşı, kifayət qədər maddi resurslara sahib olan iri mülkiyyətçilər, bank sahibləri və s. bu qrupa aid edilir;*

– ***İdeoloji elita****: bu qrupa ölkə həyatının mənəvi-ideoloji müstəvisində əhəmiyyətli dərəcədə təsir və nüfuz imkanlarına malik olan elm, təhsil, mədəniyyət, media nümayəndələri aiddir.*

Bundan başqa, elita probleminin fonunda nəzərdən keçirilən xüsusi məsələlərdən biri də formalaşma mənbələrinə görə elitanın təsnifatıdır. Formalaşma mənbələrinə görə elita məhz bu cür təsnif edilir:

– ***İrsi elita****: bu, elmi ədəbiyyatda aristokratiya və meritokratiya anlayışları ilə səciyyələndirilir. İrsi elita dedikdə varislik prinsipi əsasında özündə nəcib keyfiyyətləri, dərin intellektual potensialı və seçilən sahəyə müvafiq spesifik idarəetmə bacarığı və qabiliyyətini birləşdirən ali şəxslərin məcmusu nəzərdə tutulur. Bu qrupa daxil olan şəxslər sözün əsl mənasında idarəetmə subyektləridir və onlara spesifik genetik və xarizmatik xüsusiyyətlər xasdır;*

– ***Nüfuz elitası****: bu qrupa özlərinin şəxsi keyfiyyətlərinə və nailiyyətlərinə görə cəmiyyətdə yüksək nüfuz qazanmış şəxslər aid edilir. Məsələyə geniş mənada yanaşdıqda belə bir nəticəyə gəlmək olur ki, irsi elita məfhumunun potensial və real xüsusiyyətlərinə görə nüfuz elitası kateqoriyasına da aid edilməsi mümkündür. Belə ki, irsi elita nəcib keyfiyyətləri, dərin intellektual potensialı və seçilən sahəyə müvafiq spesifik idarəetmə bacarığı və qabiliyyəti ilə cəmiyyətdə yüksək nüfuz və reytinq qazandığından nüfuz elitası sırasında səciyyələndirilə bilər;*

– ***Hakimiyyət elitası****: buraya hakimiyyət strukturlarında təmsil olunan yüksək vəzifəli şəxslər aid edilir. Amma bu, o demək deyil ki, hakimiyyət strukturunda təmsil olunan bütün subyektlər elita qismində səciyyələndirilməlidir. Məsələyə qeyri-formal yanaşmanın fonunda qeyd edə bilərik ki, özlərinin şəxsi keyfiyyətləri və xüsusiyyətləri ilə fərqlənən, fəaliyyət göstərdiyi sahəyə müvafiq surətdə əhəmiyyətli idarəetmə bacarığına malik olan şəxs və qruplar*

*elitaya aid edildiyindən hakimiyyət elitası da, ilk növbədə, bu parametr və meyarlar baxımından dəyərləndirilməlidir. Qısacası, yüksək idarəetmə potensialı və bacarığına malik olan hakimiyyət subyektləri elita qismində səciyyələndirilir.*

## 7.2. Elita nəzəriyyələri: institusional və differensial yanaşmalar

Siyasi elmin mərkəzi kateqoriya və problemlərindən biri olan elita məsələsinə dair müxtəlif səciyyəli və təmayüllü nəzəriyyələr mövcuddur. Ümumiyyətlə, elita nəzəriyyələri XX əsrin 40-cı illərindən etibarən İtaliya, Almaniya, Fransa, ABŞ kimi ölkələrdə dövrün qanunauyğunluqları və reallıqları nəzərə alınmaqla hazırlanmış və ən müxtəlif nəzəri-empirik problemlərin həlli zamanı başlıca istinad mənbəyi kimi çıxış etmişdir.

Elitanın klassik və müasir nəzəriyyələrinin ideya sələfləri Platon, T.Karleyl, F.Nitsşe, italyan mütəfəkkiri Vulfredo Pareto, italyan sosioloqu Qaetano Moska, alman politoloqu Robert Mixels, ispan filosofu Jose Orteqa Qasset və başqaları olub. Onlar cəmiyyəti idarə edən təbəqənin siyasi prosesdə xüsusi rolu ilə bağlı məsələləri ayırmağa və sistemləşdirməyə cəhd göstərib, bu təbəqəni xüsusi tədqiqat obyektinə çeviriblər.

İtaliyalı alim Vilfredo Pareto elitalar nəzəriyyəsinin banilərindən biri hesab edilir. O, elitanı cəmiyyətin öz fəaliyyətində başqalarından daha çox uğur qazanan fərdlərinin daxil olduğu sinif kimi səciyyələndirilib. V.Pareto elitanın tərifinə öz yanaşmasını belə ifadə edib: **"Fərz edək ki, fəaliyyətin bütün sahələrində hər bir fərd öz qabiliyyətlərinin təxminən imtahanda qiymət verilən şəkildə indeksini alır... Beləliklə, biz öz fəaliyyət sahələrində ən yüksək indekslərə malik olanlar sinfini tərtib edəcək və onu elita adlandıracağıq".**

Pareto *"...fəaliyyətin bütün sahələrində"* ifadəsini tərifin əsası kimi götürməklə, elitaya universallıq və ensiklopediklik xarakteri

verir, bu da öz növbəsində elitanı azsaylı sinfə, azlığa çevirir. Eyni zamanda, Paretoya görə, fərdlərin nailiyyətləri onların statusunu müəyyənləşdirir, bununla da, o, fərz edir ki, sosial iyerarxiyanın əsasında həmişə fərdlərin qabiliyyətlərinin rəqabəti dayanır.

V.Pareto "Elitanın yüksəlişi və süqutu" əsərində "**elitanın dövranı**" nəzəriyyəsini irəli sürür və onu bu cür ifadə edir: **"Bəşəriyyət tarixi daim elitanın dəyişməsi və dövr etməsi proseslərini özündə ehtiva etmişdir. Məhz bütün bunların fonunda elitaların bir qismi yüksəlir, digərləri isə süquta uğrayaraq yerini növbəti qrupa təhvil verir".**

Paretonun qənaətincə, bu nəzəriyyə cəmiyyətin sosial dinamikasını izah edir: **"Sosial-siyasi sistem tarazlığa can atır və tarazlığını itirsə belə, bir müddətdən sonra yenidən ona qayıdır. Sistemin bu cür tərəddüdü və normal vəziyyətə gəlməsi prosesi sosial tsikl təşkil edir. Bu tsiklin müddəti, ilk növbədə, elitaların bir-birini əvəzləməsindən asılıdır. Bir elitanın müntəzəm olaraq digəri ilə əvəz edilməsi elitaların hər bir tipinin müəyyən üstünlüyünün olmasının nəticəsidir. Lakin zaman keçdikcə həmin üstünlük cəmiyyətə rəhbərlik etmək prinsiplərinə uyğun gəlmir. Buna görə də, sosial və siyasi sistemin tarazlığının saxlanması elitanın daim yeniləşməsini tələb edir".**

Pareto müxtəlif ölkələrin nümunəsində topladığı faktlara müvafiq surətdə elitanın iki əsas tipini müəyyən etmişdir:

**1. "Pələng" elitası**: bu qrup ideoloji oriyentasiyasına görə mühafizəkardır və idarəetmə sistemi güc məfhumu üzərində qurulmuşdur. "Pələng" elitasının hakim olduğu ölkələrdə siyasi sistem öz sabitliyi ilə fərqlənir. Məhz bu cür elitaların hakim olduğu cəmiyyətlərdə tənzimləmə mexanizmi qismində daha çox inzibati resurslardan istifadə edilir;

**2. "Tülkü" elitası**: bu cür təsnifata aid edilən elita subyektləri dəyişkən ideoloji oriyentasiyaya malik olur və siyasi fəaliyyətində rasional taktiki manevrlərə daha çox istinad edir. Pareto "tülkü"

elitasını mütəmadi surətdə demaqogiyadan istifadə edən, siyasi fəaliyyətdən çox təbliğati substratlara üstünlük verən və dinamik fəaliyyət mexanizminə malik olan subyekt qismində səciyyələndirilir. O bildirir ki, "tülkü" elitasının hakim olduğu cəmiyyətlərdə siyasi sistem dinamikliyinə və dəyişkənliyinə görə fərqlənir və təsirlərə açıq olur.

Bunlarla yanaşı, V.Pareto elitaların transformasiyası məsələsini də elita probleminin tərkibində nəzərdən keçirir. Araşdırmaçıya görə, cəmiyyətin siyasi dinamikası, ilk növbədə, elitaların transformasiyasıdır. O bildirir ki, nüfuzuna, intellektual potensialına və ən əsası sosial iyerarxiyadakı mövqeyinə görə elita iki qrupa ayrılır: hakim elita və kontrelita: **"Həqiqətən, elitanın xarakteri və tərkibi, onun siyasi oriyentasiyaları və ideoloji əqidələri siyasi sistemin mühüm tərkib hissələridir. İstənilən ölkədə baş verən dəyişikliklər, siyasi sistemin struktur elementlərinin təkmilləşməsi hökmən siyasi elitaların dəyişməsini nəzərdə tutur".**

Elitalar nəzəriyyəsinin digər banisi, italyan Qaetano Moska isə "Hakim sinif" kitabında yazıb ki, kiçik qruplar müvafiq qaydada təşkil olunduqda çoxluğun siyasi əqidələrinə birbaşa və ya dolayı şəkildə təsir edə bilər və bu cür azlıq istənilən cəmiyyətin səciyyəvi xüsusiyyətidir: **"Sivilizasiyaya hələ yenicə yaxınlaşmaqda olan cəmiyyətlərdən tutmuş müasir mütərəqqi və güclü cəmiyyətlərə qədər bütün sosiumlarda həmişə insanların iki sinfi yaranır – idarə edən sinif və idarə olunan sinif... İdarə edən və ya siyasi sinif dövlət idarəçiliyini təmərküzləşdirir, çünki "siyasi şüur"a malik olan fərdləri birləşdirir. Azlığın hökmranlığı labüddür, çünki bu, mütəşəkkil azlığın qeyri-mütəşəkkil çoxluq üzərində üstünlüyüdür".**

Q.Moska qeyd edir ki, ictimai inkişafın özülünü iqtisadiyyat deyil, siyasət təşkil edir. Onun fikrincə, elita qrupuna daxil olmağın başlıca meyarı idarəetmə qabiliyyəti və bacarığının olmasıdır.

Elita nəzəriyyəçiləri sırasında Robert Mixelsi və onun *"oliqarxiya meyillərinin polad qanunu"*nu da qeyd etmək lazımdır. Onun

konsepsiyasının mahiyyəti bundan ibarətdir ki, **demokratiya özünü qoruyub saxlamaq və müəyyən sabitliyə nail olmaq üçün təşkilat yaratmağa məcburdur. Bu isə elitanın – kütlənin öz taleyini etibar etməli olduğu fəal azlığın ayrılması ilə bağlıdır:** **“**Elitanın formalaşmasında insanların təşkilatçılığı və cəmiyyətin siyasi təşkili xüsusi əhəmiyyət kəsb edir... Demokratiyanın və sabitliyin təmin və mühafizə olunması üçün xüsusi təsisat yaradılması zəruridir. Bu təsisatın yaradılması isə elitanın bərqərar olunması deməkdir. Kütlə böyük təsisatlar və təşkilatlar üzərində nəzarət funksiyasını həyata keçirmək imkanlarına malik olmadığından onu elitaya etibar və həvalə edir. Bu proses və mübadilə olduqca “incə” şəkildə həyata keçirilməlidir. Əks təqdirdə natamam demokratiyadan oliqarxiyaya transformasiya baş tutar ki, bu da sosiumun yetkinləşməsi və inkişafına olduqca ciddi surətdə mənfi təsir edər. Məhz belə bir situasiyanın fonunda tədricən ixtisaslaşan elita sadə üzvlərin – fərdlərin nəzarətindən çıxır və elita sosiumu əhatə və əlaqədar edən siyasəti kiçik bir qrupun mənafeyinə müvafiq surətdə həyata keçirməyə başlayır. Nəticə etibarilə, nə qədər demokratik görünsə də, elita təsisatının funksionallığı və fəaliyyət mexanizmində oliqarxiya meyilləri üstünlük təşkil edir**”.**

Digər bir nəzəriyyəçi Jose Orteqa Qasset isə özünün *“Dəyərlər nəzəriyyəsi”*ndə qeyd edir ki, tarixi inkişafın fonunda təkamül nəticəsində köhnə dəyərlər tədricən zəifləyir və sıradan çıxır, bunun müqabilində yeniləri meydana gəlir və yeni dəyərlərin daşıyıcısı qismində yeni elita təbəqəsi formalaşır: **“Elitanın formalaşması hakimiyyət uğrunda mübarizənin deyil, cəmiyyətin ən nəcib nümayəndələrinin təbii surətdə seçilməsinin nəticəsidir. Elitanın rəhbər rolu və funksiyası onun hakim mövqeləri əlində cəmləşdirməsi ilə yox, idarəetmə sahəsindəki bacarığı və səriştəsi ilə şərtlənir. Elita-kütlə münasibətləri mütləq mənada ağalıq-tabelik xarakteri daşımır, kütlə könüllü surətdə elitanın üstünlüyünü qəbul edir. Çünki elita subyektləri yüksək intellektual potensiala, ali mənəvi keyfiyyətlərə və idarəetmə səriştəsi-**

**nə malik olduğundan kütlə ona inam və etimad göstərir".**

Elitar plüralizm konsepsiyasında isə əks olunur ki, cəmiyyətin elita və kütləyə bölünməsi şərti səciyyə daşıyır. Elita yeganə imtiyazlı, üstün və daxilən monolit qrup deyil. Hər bir cəmiyyətdə bir çox elita qrupları mövcuddur və onların hər biri özünəməxsus-spesifik funksionallığa malikdir. Elita müxtəlif sahələrdə idarəetmə funksiyasını icra etdiyindən ona hər bir qabiliyyətli subyektin daxilolma imkanı olmalıdır.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev «Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalılıq» məqaləsində yazır ki, elita cəmiyyətin o hissəsidir ki, dövlətin inkişaf yolları və mexanizmlərinin aşkar edilməsində ona həlledici yer ayrılır. Akademik vurğulayır ki, elita o şəxslər qrupudur ki, taleyin qismətindən onlara millətin aqibətinin müəyyən edilməsində tarixi rol ayrılıb.

## 7.3. Milli elitanın Azərbaycan nümunəsi: formalaşma və təşəkkül mərhələləri, transformasiya forması və modern səciyyəsi

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın qarşısında duran başlıca vəzifə və problemlərdən biri də yeni münasibətlər sisteminə müvafiq surətdə milli elitanın formalaşdırılması və bu istiqamətdə milli münasibətlər zəminində təkamül xarakterli yeni keyfiyyət dəyişikliklərinə nail olmaq idi. Milli elitanın formalaşdırılması üçünsə bir sıra strateji səciyyəli zəruri tədbirlər görmək lazım idi ki, bütün bunların fonunda gərəkli şərait və resurslar təmin edilsin:

*– ilk növbəd,ə müstəqillik əldə etmiş dövlətə milli münasibətlər sistemini rasional surətdə tənzimləyəcək, ictimai-siyasi ahəngdarlıq və tərəqqini təmin edəcək və ümummilli inkişaf strategiyasını müəyyən və tətbiq edə biləcək güclü siyasi hakimiyyət lazım idi. Hakimiyyətin effektivliyi milli tərəqqiyə mane olan mövcud prob-*

*lemlərin həll edilməsi və milli inkişaf strategiyasının müəyyən və icra olunmasını mümkün edəcəkdi. Amma qeyd etdiyimiz kimi, müstəqilliyin ilk iki ilində ölkəyə səriştəsiz və irrasional şəxslərin rəhbərlik etməsi nəinki milli inkişaf strategiyasının müəyyən və icra edilməsini mümkün etmədi, eləcə də həmin subyektlərin disfunksionallığı yeni müstəqillik əldə etmiş ölkə üçün çox ciddi təhdid və risklər yaratmış oldu. Məhz bu cür kəskin situasiyanın fonunda milli elitanın formalaşdırılması mümkün olmadı və institusional aktorların bərqərar oluna bilməməsi ölkə miqyasında kataklizmlərin dərinləşməsini şərtləndirdi. Yalnız 1993-cü ildən – Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsindən sonra bəhs edilən vəzifələrin yerinə yetirilməsi üçün əlverişli şərait yaradıldı və bu istiqamətdə milli resurslardan səmərəli surətdə istifadə edildi. Nəticə etibarilə, bütün bunlar milli elitanın da formalaşmasını təmin etdi və elita transformasiyasının əsası mövcud dəyərlərə, qanunauyğunluqlara və tələblərə müvafiq surətdə qoyuldu. Qısacası, milli elitanın formalaşdırılması və mütəmadi yenilənməsi üçün zəruri şərtlərdən biri olan hakimiyyətin effektivliyi prinsipi məhz 1993-cü ildən sonra – Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu milli inkişaf strategiyası sayəsində mümkün oldu;*

*– ikincisi, milli elitanın formalaşdırılması, transformasiyası və yenilənməsi üçün xüsusi əhəmiyyət kəsb edən faktorlardan biri də milli dəyərlərin və maraqların nəzərə alınması ilə həyata keçiriləcək hüquqi və ictimai-siyasi təsisatlanmadır. Hüquqi təsisatlanma dedikdə subyektlərin fəaliyyət mexanizmini tənzimləyəcək qanunlar və qaydalar sisteminin məcmusundan ibarət bazanın formalaşdırılması (buraya konstitusiyanın və ona müvafiq surətdə sahəvi və funksional səciyyəli normativ hüquqi aktların qəbul olunması və*

*onlara nəzarət edilməsi aiddir) və onun işləkliyinin təmin edilməsi nəzərdə tutulur. Hüquqi təsisatlanmanın təmin edilməsi nəticə etibarilə ictimai-siyasi institutlaşmanı mümkün edir ki, bu da institusional aktorların bərqərar olunmasını və funksionallığını şərtləndirən strateji səciyyəli fundamental faktorlardan biridir. Bu məsələnin Azərbaycan təcrübəsinə gəldikdə isə qeyd edə bilərik ki, hüquqi və ictimai-siyasi təsisatlanma vəzifəsinə sistematik surətdə Konstitusiyanın qəbul olunmasından sonra (12 noyabr 1995) nail olundu. Ana Qanunun qəbul olunması və ona müvafiq surətdə bütün sahələri əhatə edən qanunvericilik bazasının zənginləşdirilməsi institusional aktorların funksionallığı və fəaliyyət mexanizminə əlverişli zəmin yaratdı. Bu isə siyasi sistemin struktur elementlərini təkmilləşdirməklə yanaşı, milli elitanın transformasiyasını da mümkün etdi;*

*– Milli elitanın formalaşdırılması üçün sosiomədəni transformasiyaya start verilməsi, buna müvafiq və paralel surətdə struktur islahatlarının həyata keçirilməsi və institusional bazisin formalaşdırılması vəzifələrinin də həyata keçirilməsi strateji səciyyəli fundamental vəzifələr sırasında idi. Sosiomədəni transformasiyaya nail olmaq cəmiyyətdə yetkin stratifikasiyalaşma vəzifəsinin təmin olunmasını mümkün edəcəkdi ki, bu da nəticə etibarilə təkmil sosial-siyasi sistemin bərqərar olunmasını şərtləndirirdi. 1993-cü ildən başlamaq etibarilə Ulu öndər Heydər Əliyevin rasional və praqmatik strateji tədbirləri sayəsində ictimai-siyasi sabitlik təmin edildikdən, bölücü meyillər və mərkəzdənqaçma tendensiyaları neytrallaşdırıldıqdan sonra sosiomədəni transformasiya prosesinin əsası qoyuldu və bütün sahələri əhatə edən partikulyar və universal struktur islahatları həyata keçirildi.*

Beləliklə, ölkəmizdə milli elitanın formalaşması, transformasi-

yası və yenilənməsi Ümummilli lider Heydər Əliyevin milli inkişaf strategiyasının fonunda həyata keçirdiyi kompleks strateji tədbirlərin fonunda mümkün oldu. Ulu öndər Heydər Əliyevin sabitləşdirici mexanizmlərdən məharətlə istifadə edərək "mərkəzdənqaçma" meyillərini neytrallaşdırması və siyasi, hüquqi, sosial, iqtisadi, mədəni və digər sahələri əhatə edən milli inkişaf strategiyasını həyata keçirməsi elita transformasiyasının milli maraqlara və dəyərlərə müvafiq surətdə başlanmasını şərtləndirdi. Kadr siyasətində tədrici dəyişikliklər edildi və ümummilli inkişafa fundamental töhfələr bəxş edəcək cəmiyyətdaxili dinamik subyektlərlə xüsusi iş həyata keçirildi. Bu istiqamətdə həyata keçirilən gənclər siyasəti xüsusi əhəmiyyət kəsb etdi. Gənclərə dövlət səviyyəsində yüksək diqqət və qayğının göstərilməsi, onların ölkə həyatının bütün sahələrində iştirakına əlverişli şəraitin yaradılması, müxtəlif sahələr üzrə xarici ölkələrdə təhsil almalarının təmin edilməsi kimi strateji önəm kəsb edən tədbirlər elitanın transformasiyası və yenilənməsi işinə əhəmiyyətli töhfələr verdi. Bu, sosial stratifikasiyalaşma prosesində yeni – daha dinamik intellektual təbəqənin formalaşmasını təmin etməklə yanaşı, cəmiyyətin inkişafının yeni ideya əsaslarının və konseptual substratlarının formalaşmasına və ictimai şüurun yenilənməsinə də da yardımçı oldu. Bunlarla yanaşı, ictimai-siyasi və hüquqi təsisatlanma milli aktorların funksionallığına və fəaliyyət mexanizminə əlverişli şərait yaratdı və institusional subyektlərin ictimai-siyasi palitrada normal təmsilçiliyi elita təsisatının transformasiyasına bilavasitə müsbət təsir etdi. Nəticə etibarilə, bütün bunlar milli elitanın formalaşması və transformasiyasını təmin etməklə yanaşı, modern cəmiyyət quruculuğunu da sürətləndirmiş oldu. Bununla bağlı Ulu öndər Heydər Əliyev demişdir: "**Azərbaycan xalqının milli sərvəti onun intellektual potensialıdır, mədəniyyətidir, ədəbiyyatıdır. Biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışdıq. Bizim iqtisadi potensialımız kimi, başqa bir sərvətimiz – intellektual potensialımız da var. Bunu yaradanlar var. Bu dahi insanlar Azərbaycanın böyük**

**intellektual potensialını, mülkiyyətini yaradıblar**".

Prezident İlham Əliyevin ölkə başçısı kimi fəaliyyətə başlaması ilə milli elitanın transformasiyasında keyfiyyətcə yeni mərhələ başlandı. Prezident İlham Əliyevin bu sahədəki rasional fəaliyyəti özündə Ulu öndər Heydər Əliyevin praqmatik fəaliyyətində əsas tutduğu prinsip və meyarları ehtiva etməklə dövrün və şəraitin qanunauyğunluqlarına və tələblərinə tam adekvat idi və bu gün də həmin kurs uğurla davam etdirilməkdədir. "**Qara qızıl"ın insan kapitalına çevrilməsi bizim təcrübəmizdə, sadəcə, şüar deyil, real vəziyyətdir**" tezisindən çıxış edən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli kadr siyasəti sosiumda yeni keyfiyyət dəyişikliklərini şərtləndirməklə yanaşı, intellektual stratifikasiyalaşma işini də sürətləndirdi. Bunun ardınca bəhs edilən sahədə elitanın transformasiyası işinə mühüm töhfələr bəxş edəcək yeni dövlət proqramları qəbul edildi ("Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı" (2006-2010), "Gənclərin xaricdə təhsil alması, "Avropa təhsil məkanına inteqrasiya", "Elektron Azərbaycan" və s.) və milli intellektual inkişafın yeni oriyentirləri müəyyənləşdirildi. Nəticə etibarilə, rasional kadr siyasətinin həyata keçirilməsi, milli intellektual təbəqənin formalaşdırılması istiqamətində keyfiyyət etibarilə fundamental strateji tədbirlərin görülməsi milli elitanın transformasiyasına önəmli töhfələr verdi.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev "**Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalılıq**" məqaləsində yazır ki, postsovet dövrü siyasi elitasının formalaşması mərhələləri Azərbaycanda elitaların transformasiyasının altı əsas dövrü kontekstində təsəvvür edilir:

**1. "Yenidənqurma" dövrü (1985-1988)**: ictimai-siyasi xarakterli tədrici dəyişikliklər Sovet elitasının, nomenklaturasının onun üçün yeni fəaliyyət növlərinə qoşulmasına şərait yaradır. Bu, kooperasiya hərəkatı, iqtisadi sahədə xəlvəti kapitalın nisbi payının

ilk dəfə qiymətləndirilməsi dövrü idi və s. Ölkədə ictimai həyatın demokratikləşməsi deyilən istiqamətdə nəzərəçarpan ilk "hərəkət"lər baş verir, əslində isə, bütün bunlar siyasi, iqtisadi və sosiomədəni həyatın daha güclü deformasiyasına kömək edir;

**2. Dəyişikliklər dövrü (1988-1991)**: Partiya-təsərrüfat nomenklaturası ölkənin inkişafının institusional, iqtisadi və siyasi şəraitinin dəyişməsində fəal iştirak etməyə çalışır. Bu, yeni oyun qaydalarının müəyyən edildiyi, aktorlar qismində yeni oyunçuların çıxış etdiyi dövrdür. Ümumi siyasətin və biznesin yeni sahələrinin meydana çıxması elitanın kadr korpusunun toplanması üçün əvvəllər məlum olmayan kanallar açır. Dövlət hakimiyyətinin ali təbəqələrinin düşünülməmiş, bir çox cəhətdən səhv olan yeniləşməsi, sonra isə kadrların "küçədən gələn adamlar" hesabına tamamlanması məhz bu dövrə təsadüf edir. Ölkəni iflic vəziyyətinə salmış iqtisadi böhranın davamı və elita mühitində ixtilafların nəticəsi kimi SSRİ-nin dağılması başlayır, bu isə sonda siyasi elitanın köhnə və yeni təbəqələrində çox mühüm dəyişikliyə səbəb olur;

**3. Qarşıdurma dövrü (1991-1993)**: Bazar münasibətlərinə açıq keçid, dövlət hakimiyyəti orqanlarının islahatı və intensiv siyasi natamamlıq şəraitində dövlət idarəetmə sisteminin əsas qolları: prezident administrasiyası, hökumət, parlament, biznes elitası formalaşır. Bu mərhələnin əsas xarakteristikası sistem daxilində sərt qarşıdurmanın olmasıdır. Qüvvələrin dəqiq qütbləşməsi baş verir, elita qruplaşmalarının yeni konfiqurasiyası yaranır;

**4. Sabitləşmə dövrü-intensiv transformasiya vaxtı (1993-2003)**: Bu mərhələnin siyasi proseslərini iki əsas meyil müəyyənləşdirir. Bunlardan birincisi, sabitliyi möhkəmlətmək istiqamətində hərəkət, səmərəli dövlətçilik yaradılması, regionda iqtisadi dominant kimi ölkənin daxili imkanlarının formalaşması idi. Digər

meyil intensiv transformasiya dövründə xüsusi əhəmiyyəti olan bir sıra məsələlərə dair ictimai konsolidasiyanı təmin etmək səyləridir;

**5. Demokratik konsolidasiya prosesinin başlanması (2003-2008)**: Sabitləşmə və qərarların qəbul olunması fazaları başa çatdıqdan sonra siyasi proseslər yeni xüsusiyyətlər kəsb edir, ölkədə tədricən siyasi məkan formalaşır və ön səhəyə yeni aktorlar çıxır. Dövlətin iqtisadi inkişafı sosium daxilində yeni qarşılıqlı münasibətlərin bazisini yaratmağa imkan verir, yeni stereotip və normalarını doğurur, vətəndaş cəmiyyətinin əsasını qoyur;

**6. Kadrları cəlbetmə fazası (2008-ci ildən başlayaraq):** Qarşıdakı illərdə əsas vəzifə gənc nəslin nümayəndələri sırasında yeni siyasi, iqtisadi, elmi və yaradıcı elita formalaşdırmaqdır.

Bununla yanaşı, akademik Ramiz Mehdiyev Azərbaycanda elitanın dəyişməsini üç formada təsnif edir:

*– "yuxarı"dan: Bu, Moskvanın Ə.Vəzirovu ölkə rəhbəri təyin etməsi və bunun nəticəsində yeni elitanın toplanmasıdır. Əvvəlki elitanı onun "zəifləməsi"nə görə deyil, "yeni" siyasətin həyata keçirilməsi məqsədilə əvəz edirdilər və bu siyasət ölkəni fəlakətə gətirib çıxardı. Yenə də Moskvanın təyin etdiyi A.Mütəllibov faktiki olaraq Ə.Vəzirov ilə eyni sxem üzrə hərəkət edirdi;*

*– "aşağı"dan: Ə.Əliyevin (Elçibəyin) xalq çıxışları və nəticə etibarilə dövlət çevrilişi nəticəsində hakimiyyətə gəlməsi: bu rejim praktik olaraq ölkə miqyasında hər yerdə elitanın dəyişdirilməsi ilə səciyyəvi idi. Heydər Əliyev də hakimiyyətə kütləvi xalq çıxışları nəticəsində və ölkə parlamenti deputatlarının tələbi ilə gəlmişdi. Bütün bunlar Ə.Elçibəyi və onun komandasını hakimiyyəti Heydər Əliyevə təhvil verməyə məcbur etdi;*

*– elitanın "rəvan" əvəz edilməsi Prezident İlham Əliyev ilə bağlıdır. Onun kadr siyasəti, yəni elitanın dəyişdirilməsi varisliklə*

*səciyyələnir. Bu, o deməkdir ki, elitanın yeniləşməsi zəruri hallarda yeni nəsil insanların hesabına baş verir.*

Bütün bu mərhələlərin və təşəkkül xüsusiyyətlərinin fonunda akademik Ramiz Mehdiyev məhz belə bir qənaət ifadə edir: *"Tarixi təcrübə göstərir ki, müxtəlif dövrlərdə elitanın rolu cəmiyyətin vəziyyətini, onun transformasiya dinamikasını müəyyənləşdirir, cəmiyyətin daxili və xarici dəyişikliklərinin əsas elementləri elitanın fəaliyyəti ilə bağlıdır. 1993-cü ildən 2003-cü ilə qədər milli elitanın rolu ölkəni tam parçalanmaqdan qorumaq məqsədi ilə mürəkkəb, qeyri-standart qərarlar qəbul etməkdən, inkişaf strategiyasını işləyib hazırlamaqdan, sabitliyə nail olmaqdan, ümumi maliyyə kollapsını aradan qaldırmaqdan, asayişi və qanunçuluğu bərpa etməkdən, ölkənin idarə olunmasında dövlət təsisatlarının rolunu artırmaqdan, cəmiyyətin siyasi konsolidasiyasını təmin etməkdən ibarət idisə, bu gün elitanın rolu yeni tələblərin və şəraitin təsiri altında əhəmiyyətli dərəcədə yeniləşmiş, transformasiya etmişdir. Buna müvafiq olaraq, o dövrdə milli elitanın, – təkcə siyasi elitanın yox, – formalaşması da məhz bu taleyüklü və məsul vəzifələrin həlli nəzərə alınmaqla baş verir, bunun üçün bəzən hədsiz səylər, siyasi iradə, çeviklik, həssaslıq, yüksək məsuliyyət duyumu, müdriklik və istedad tələb olunurdu".*

Beləliklə, yuxarıda sadalanan fundamental vəzifələrin və öhdəliklərin yerinə yetirilməsi, transformasiya mərhələlərinin müvəffəqiyyətlə baş tutması nəticə etibarilə ümummilli inkişafın sağlam təməlini qoymaqla yanaşı, sosiomədəni münasibətlərin yeni keyfiyyətdə formalaşmasına xüsusi zəmin yaratdı və cəmiyyətdaxili simmetrik stratifikasiyalaşma prosesini şərtləndirdi. İctimai-siyasi sabitliyin və tarazlı münasibətlər sisteminin bərqərar olunması, ideoloji boşluğun və "mərkəzdənqaçma" meyillərinin aradan qaldırılması, siyasi-hüquqi islahatların cəmiyyətin aktual tələbatlarına müvafiq surətdə həyata keçirilməsi, iqtisadi inkişafın daha da sürətləndirilməsi kimi dərin strateji tədbirlərin iqtisadi, siyasi, sosial və mədəni münasibətlərə yeni keyfiyyət çalarları bəxş etməsi nəti-

cə etibarilə yeni cəmiyyət quruculuğu prosesində təməl faktorlar qismində çıxış etdi. Bütün bunların fonunda isə ictimai, sosiomədəni münasibətlər və cəmiyyətin sosial piramidasında tarixi transformasiyaların reallaşması prosesinin əsası qoyuldu. Bu sırada tarixi önəm kəsb edən əsas amil cəmiyyətin strukturunda kardinal keyfiyyət dəyişikliyi kimi səciyyələndirilən "kratiya transformasiyası"nın baş verməsi oldu.

Belə ki, 1990-cı illərin əvvəllərində ictimai-siyasi münasibətlər sistemində hakim təbəqə statusunda çıxış edən oliqarxiya tədricən öz yerini aristokratik təbəqəyə verməyə başladı. Bu isə həm yeni cəmiyyət quruculuğu prosesində kardinal keyfiyyət dəyişikliyi, həm də milli münasibətlər sistemində tarixi dönüş kimi səciyyələndirilməlidir. Çünki nəzəri və təcrübi baxımdan bəllidir ki, oliqarxiya bir qrup hakim şəxslərin müəyyən milli resursları (maddi resurslar, hakimiyyət resursları, güc resursları və s.) öz əllərində cəmləşdirmələri fonunda ortaya çıxan təbəqədir. Sözügedən təbəqə "ilkin kapital sahibi" qismində çıxış etməklə ya istismarçı mövqedə durur, ya da ümummilli inkişaf konsepsiyası və məramına zidd olan "qrup mənafeyi" prinsipindən çıxış etməklə fəaliyyət göstərir. Bu isə nəticə etibarilə mütəmadi və ardıcıl səciyyə daşıyan cəmiyyət quruculuğu prosesinin əsaslarını sarsıdan və ümummilli inkişafın qarşısında duran destruktiv faktor qismində çıxış edir. Məhz buna görə də, oliqarxiya "özündə nəcib keyfiyyətləri və xüsusiyyətləri ehtiva edən, cəmləşdirən hakim zümrə" kimi deyil, "maliyyə resurslarının sahibi olan, qrup mənafeyinin təmin olunmasını fəaliyyət fəlsəfəsi kimi qəbul edən və assimmetrik münasibətlərin hakimi qismində çıxış edən" təbəqə kimi səciyyələndirilir... Amma "ən yaxşıların hakimiyyəti" kimi səciyyələndirilən aristokratiya sözün əsl mənasında milli inkişaf və tərəqqinin mənbəyi, qarantı qismində çıxış edir. Çünki sözügedən təbəqə yalnız "maliyyə hakimləri" mövqeyində durmurlar, onlar mənəvi-mədəni müstəvidə ən nəcib keyfiyyətləri və xüsusiyyətləri özlərində cəmləşdirirlər. Bunun da qanunauyğun nəticəsi kimi, "nəciblər" cəmiyyətin mütəşəkkilliyi, həmrəyliyi, bütövlüyü və inkişafına xüsusi töhfələr

verən islahatlar və dəyişikliklər simvolu qismində çıxış edirlər...

Beləliklə, bütün bu sadalananların fonunda qeyd edə bilərik ki, Ulu öndər Heydər Əliyevin yeni cəmiyyət quruculuğu prosesi çərçivəsində həyata keçirdiyi konstruktiv strategiyanın qanunauyğun nəticəsi kimi, oliqarxiyanın aristokratiyaya transfer olunması missiyasının reallaşdırılması bir neçə nöqteyi-nəzərdən xüsusi önəm kəsb edir.

Bu, ilk növbədə, imkanlar və qabiliyyətlərin iyerarxik dəyərləndirilməsi prinsipi əsasında sosial ədalətin təmin olunması və onun davamlı xarakter alması missiyasının təmin olunmasına xüsusi təkan və töhfə verir. Çünki ölkənin və dövlətin nəcib xüsusiyyətlərə malik olan, milli mənafeyi təməl faktor kimi əsas tutan elit zümrə tərəfindən idarə edilməsi təbəqələrarası münasibətlərin və onun balansının sağlam inteqrativ dəyərlər və substratlar əsasında formalaşması və inkişafını təmin edir. Bu isə nəticə etibarilə cəmiyyətin ahəngdarlığını təmin edən ümumi mexanizm rolunu oynamaqla, eyni zamanda, milli dövlətimizin milli maraqlar və dəyərlər əsasında inkişafını təmin etdi. Məlum olduğu kimi, oliqarxiyanın hakim zümrə olduğu milli dövlətlərin sahələrarası hormoniyaya əsaslanan inkişafından bəhs etmək olmaz. Görüntü səciyyəsi daşıyan “inkişaf” isə qrup mənafeyinin və “hakimlərin transmilli maraqlarının təmin olunması” fonunda ortaya çıxan təzahürdür. Daha da dəqiqləşdirsək, deyə bilərik ki, “kapital maşını” qismində çıxış edən oliqarxlar (təsadüfi deyil ki, bu zümrə bəzən “maliyyə oliqarxiyası” adlandırılır) milli zəmində ümummilli sərvətlərin inhisarçısı qismində çıxış edir və assimmetrik əlaqələrin daha da dərinləşməsinə şərait yaradan fəaliyyət mexanizminə malik olurlar. Amma aristokratiyanın “nəcib siyasət”i sayəsində əldə edilən inkişaf ümummilli səciyyə daşıyır və xalqın, millətin milli sərvəti kimi dəyərləndirilir. Bütün bunların fonunda qeyd etmək mümkündür ki, Azərbaycanda aristokratik təbəqənin mütləq mənada təşəkkül tapmasının ideoloji, mədəni, sosial, hüquqi, siyasi sahələrdə hormoniyaya əsaslanan əlaqələr balansının formalaşmasına və tərəqqinin qeydə alınmasına gətirib çıxarması nəticə etibarilə milli zəmində yüksəlişin daha operativ və effektiv xa-

rakter almasını şərtləndirib. Belə ki, həyata keçirilən iqtisadi, siyasi, hüquqi islahatların cəmiyyət quruculuğu prosesində effektiv nəticələr verməsi və ictimai münasibətlər sisteminin əsasını daha da gücləndirməsi yuxarıda əks olunan tezisin əsaslılığını növbəti dəfə sübut edir.

Nəticə etibarilə sadalanan faktlarda təsbit edildiyi kimi, Azərbaycanda oliqarxiyadan milli sərvət kimi dəyərləndirilən aristokratiyaya, yaxud milli elitaya transformasiya olunması missiyasının operativ və effektiv surətdə reallaşdırılması ümummilli inkişafa xidmət edən tarixi hadisədir. Bu, eyni zamanda, yeni cəmiyyət quruculuğu prosesinin fundamental vəzifəsinin yerinə yetirilməsinə dəlalət edən göstəricidir...

Beləliklə, cəmiyyətin və dövlətçiliyin inkişaf tendensiyaları üzrə aparılan tədqiqat paralellərinin nəticəsi olaraq belə bir fikir ifadə etmək olar ki, 1993-cü ildən başlayaraq həyata keçirilən yeni cəmiyyət quruculuğu prosesində kifayət qədər ciddi məsafə qət edilmişdir. Bu nailiyyəti təmin edən başlıca əsas isə Ulu öndər Heydər Əliyevin dövlətçilik strategiyası və bu təməl üzərində Prezident İlham Əliyevin iqtisadi, ideoloji və sosial-mədəni faktorları modern cəmiyyət quruculuğu prosesinə düzgün istiqamətləndirməsi və tətbiq etməsi olmuşdur.

*Kim müxalifətdə durursa dursun, ancaq vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın*

**Ulu öndər Heydər Əliyev**

***

*Azərbaycan dövləti o qədər güclüdür, Azərbaycanda ictimai-siyasi sabitlik o qədər möhkəmdir ki, bizim işimizə mane olmaq, Azərbaycanın uğurlu inkişafına zərbə vurmaq istəyən, bəzi hallarda xarici dairələrdən göstərişlər alan ünsürlərə Azərbaycan xalqı çoxdan yox deyib*

**Prezident İlham Əliyev**

# VIII FƏSİL

# MÜXALİFƏT İNSTİTUTU: NƏZƏRİ-KONSEPTUAL ƏSASLAR, SİYASİ TƏMAYÜLLƏR VƏ AZƏRBAYCAN TƏCRÜBƏSİ

## 8.1. Demokratik cəmiyyətdə müxalifət institutu: mahiyyəti və spesifik funksionallıq məsələsi

Demokratik cəmiyyətlərdə fəaliyyyət göstərən əsas siyasi institusional aktorlardan biri də müxalifət təsisatıdır. Məhdud mənada müxalifət institutu siyasi fəaliyyətə verilən sosial qiymətin nəticəsi kimi dəyərləndirilməkdədir. Məlum olduğu kimi, demokratik cəmiyyətlərdə təmsilçilik funksiyası baxımından fəaliyyət göstərən orqanlar seçkilər vasitəsilə formalaşdırılır və bu zaman xalqın ümumi iradəsi əsas götürülür. Səs çoxluğu ilə qələbə qazanmış aktorlar iqtidar statusu əldə edir və xalq təmsilçisi kimi fəaliyyət göstərirlər. Seçkilərin nəticələrinə müvafiq olaraq qalib statusu əldə edə bilməmiş – məğlubiyyətə düçar olmuş subyektlər isə növbəti seçki müddətinədək müxalifət qismində siyasi palitrada təmsil olunurlar. Beləliklə, xalqın rəyi və iradəsinə əsaslanan seçkilərin nəticələri əsasında formalaşan müxalifət institutu özünün sosial-siyasi statusuna və spesifik səciyyəli fəaliyyət mexanizminə, funksionallığına görə siyasi palitranın aktoruna çevrilir.

Amma bütün bu sadalananlardan yanlış nəticə çıxarıb, demək olmaz ki, müxalifət peşə və ya ştat vahididir. Müxalifətçilik peşə deyil, siyasi ideologiya və ya  siyasi düşüncə tərzidir. Daha da dəqiqləşdirsək, o, ideologiyalar və düşüncələr sistemidir. Eyni zamanda, müxalifətçilik mövcud siyasi sistemin ictimai, siyasi, dövlətçilik və hakimiyyət institutları ilə vətəndaşlar arasında bir körpü rolunu oynayan ötürücü ictimai mexanizmdir. Müxalifətçilik, həmçinin, ayrı-ayrı fərdlərin qruplaşmış, sistemləşmiş siyasi dünyagörüşlərinin konkret ideologiya kontekstində birləşməsi deməkdir.

Eyni zamanda, qeyd edə bilərik ki, müxalifətçilik uyğun siyasi əqidəni, siyasi mədəniyyəti və siyasi ideologiyanı mənimsəmiş fərdlərin ümumi maraqlarını təmin edəcək formuladır. Əlbəttə ki, ayrı-ayrı fərdlər siyasi fəaliyyət prosesində bu maraqların hansının prioritet olduğunu özü müəyyənləşdirir. Həmin maraqların hansının ardınca getməsi də yalnız o fərdə, yaxud da konkret qruplara aid olan məsələdir. Ancaq başlıca prinsip bu maraqların ümummilli və dövlətçilik maraqları ilə uzlaşmasıdır. Bu sistem demokratik cəmiyyətin başlıca ünsürü olmaqla, cəmiyyətin ictimai-siyasi strukturunu formalaşdıran və cəmiyyətdaxili münasibətlərdə təkcə rəqabət deyil, eyni zamanda, harmoniya yaradan bir ünsürdür. Sadaladığımız bu ənənələr əsas etibarilə demokratik cəmiyyətdə və tarixən demokratiya ənənəsi formalaşmış cəmiyyətlərdə daha bariz şəkildə özünü büruzə verir. Eyni zamanda, bu cür sistem fərdlərin və qrupların, ictimai institutların təşəbbüskar rolunda çıxış etməsini təmin etməklə yanaşı, nəticə etibarilə ayrı-ayrı fərdlərin intellektual resurslarının cəmiyyətin ümumi inkişafı naminə istifadəsinə kömək göstərir. Dolayısı ilə, bu, cəmiyyətə bir dinamizm verməklə cəmiyyətdaxili dinamiklərin resurslarının ümummilli maraqlar istiqamətində fəaliyyətini şərtləndirir.

Elmi ədəbiyyatda müxalifət institutuna məhz bu cür ümumi tərif verilir: müxalifət-siyasi çoxluğa, həyata keçirilən milli siyasətə, dövlət hakimiyyətinin həyata keçirilməsinin məqsəd və metodlarına qarşı çıxan siyasi azlıqdır. Amma bu tərif müxalifət institutunun mahiyyətini dar çərçivədə izah edir. Belə ki, yuxarıda qeyd etdiyimiz fikirlərin məntiqi nəticəsi kimi qeyd edə bilərik ki, müxalifətçilik peşə və ya ştat vahidi olmamaq etibarilə sosial statusdan irəli gələn siyasi dünyagörüşüdür.

Demokratik cəmiyyətlərdə siyasi sistemin struktur elementi olmaq etibarilə müxalifət institutunun fəaliyyətinə əlverişli şərait yaradılır və onun funksionallığı bəhs edilən təsisatın öz fəaliyyətində əsas tutduğu norma və dəyərlərə müvafiq surətdə təşəkkül tapır. Müxalifət institutunun fəaliyyət mexanizminin səmərəlilik səviyyəsi bəhs edilən sosial status daşıyıcılarının peşə keyfiyyətlərindən

və öz fəaliyyətlərində milli maraqlara əsaslanma dərəcələrindən asılıdır. Belə ki, öz fəaliyyətində normativ surətdə milli maraqları əsas götürən müxalifət subyektləri radikal yox, konstruktuv şəkildə siyasi palitrada təmsil olunur. Milli maraqlara istinad etməyən, hətta onu ayaqlar altına alan radikal subyektlər isə antaqonizm və ziddiyyət mənbəyi kimi çıxış edir və qüvvələrarası münasibətlərdə ahəngdarlığın pozulmasını şərtləndirir. Bu isə siyasi palitraya funksionallıq yox, disfunksionallıq gətirir və ictimai-siyasi sabitlik, bütövlük, həmrəylik və ahəngdarlıq üçün potensial və real təhlükə mənbəyi kimi çıxış edir.

Bəhs edilən mövzu ətrafında mövcud olan başlıca məsələlərdən biri də müxalifət subyektlərinin siyasi palitrada təmsilçilik və ya iştirak formalarıdır. Təcrübədən göründüyü kimi, demokratik cəmiyyətlərdə müxalifət siyasi palitrada seçki fəaliyyəti (təmsilçiliyi), hökumətin və onun fəaliyyətinin tənqidi, qərar qəbulu prosesinə təsir, hakimiyyət strukturunda iştiraketmə və s. formalarda təmsil olunur. Demokratik cəmiyyətlərdə bəhs edilən sahə və istiqamətlərdə müxalifətin fəaliyyətinə və təmsilçiliyinə geniş şərait yaradılsa da, bəzən bu şərait və imkanlardan sui-istifadə halları da müşahidə edilir. Xüsusilə də müxalifət statusu ilə siyasi səhnəyə daxil olan, amma funksionallıq etibarilə müxalifət institutuna xas olan heç bir normativ xüsusiyyətin daşıyıcısı olmayan bir sıra aktorlar, sadəcə, korporativ maraqların təmsil olunması naminə fəaliyyət göstərirlər, bir sıra hallarda isə xarici qüvvələr tərəfindən hakimi qüvvələrə – iqtidara qarşı təzyiq vasitəsi kimi istifadə edilirlər.

## 8.2. Müxalifət institutunun fəaliyyət mexanizmi və funksionallığı məsələsi: radikal və konstruktiv meyillər

Adətən təcrübədə müxalifət subyektlərinin funksionallıq forması və fəaliyyət mexanizminə müvafiq surətdə iki başlıca təmayül müşahidə edilir: radikal və konstruktiv meyillər. Radikal fəaliyyət mexanizminə malik olan müxalifət subyektləri siyasi pa-

litranın dağıdıcı ünsürü kimi səciyyələndirilir. Çünki radikalizm korporativ maraqların substansional faktor kimi qəbul edildiyi və çıxış etdiyi fəaliyyət forması olmaq etibarilə mövcud sistemin əsaslarının sarsılmasına və ictimai-siyasi ahəngdarlığın pozulmasına yönəlmiş eksses aktı kimi çıxış edir. Bu isə yalnız ziddiyyət və xaos mənbəyi qismində səciyyələndirilə bilər.

Qeyd etdik ki, dağıdıcı müxalifət öz fəaliyyətində siyasi radikalizmin təməl prinsiplərini əsas götürməkdə və fəaliyyət mexanizmini radikal, anarxist niyyətlər üzərində qurmaqdadır. Bu isə cəmiyyətdə dağıdıcı meyillərin meydana gəlməsinə səbəb olmaqla yanaşı, bəhsləşmə-rəqabət şəraitində normal sosial-siyasi münasibətlərin mütəmadi inkişafına mane olmaqla bu münasibətləri şəxsi və qrup düşmənçiliyi müstəvisinə sürükləyir. Bütün bunlar isə nəticə etibarilə siyasi sistemin struktur elementlərinin daha da təkmilləşməsinin qarşısını alan destruktiv faktor kimi çıxış etməkdədir.

Radikal müxalifətin niyyət, məqsəd və fəaliyyətinin əsaslarını daha yaxşı anlamaq və anlatmaq üçün radikalizm və anarxizmin təməl prinsiplərinə və onun müxtəlif ölkələrin nümunəsində yol açdığı nəticələrə nəzər yetirmək məqsədəmüvafiqdir.

Beləliklə, XVIII əsrdən etibarən siyasi leksikonda işlənməyə başlayan radikalizm mövcud sistemin əsaslı dəyişdirilməsini nəzərdə tutan və cari durumu qəbul etməyən ideoloji baxışlar sistemi kimi səciyyələndirilir. Radikal ideologiyanın əsasında atılan addımların fonunda mövcud sistemin əsasları və qanunauyğunluqları nəzərə alınmadığından sonunda ciddi kataklizmlərin təzahür etməsi gözlənilən haldır. Bəzi araşdırmaçılar radikalist baxışlar sistemini mürtəce ideologiya kimi səciyyələndirir və qeyd edirlər ki, radikal xarakterli ideoloji xətt sonu bəlli olmayan xaotik meyillərin əsasını qoyan və antaqonist tendensiyaları kəskinləşdirən amil kimi dəyərləndirilməlidir. Siyasi radikalizmin tədqiqatçılarından biri olan Ceyms Mill qeyd edir ki, radikalizm, əslində, mövcud məqsədlərin fonunda, ayrı-ayrı ideologiyalardan sui-istifadənin fonunda ortaya çıxmış baxışlar sistemidir: **“Klassik mənada radikal siyasi fəaliyyətə malik olanlar heç vaxt islahat tərəfdarı ola bil-**

**məzlər. Onlar qurucu deyillər. Mövcud status-kvonun dəyişdirilməsi və ümumi nizamın alt-üst edilməsi niyyətinin fonunda hərəkət edən radikal siyasətçilər daim inqilabi dəyişikliklər istəyirlər. Amma bu dəyişikliklərin ümumi rifaha və sosial ədalətə nə qədər faydalı olacağını bilməmələri onların fəaliyyətinin qeyri-müəyyənliyini aşkar edir".**

Araşdırmaçı Erriko Malatesta isə qeyd edir ki, siyasi radikalizm ümumi qəbul edilmiş təməl baxışların və prinsiplərin dəyişdirilməsini nəzərdə tutduğundan cəmiyyətdə deviasiyaları sürətləndirən və ayrılmaları təmin edən qeyri-maddi faktor kimi çıxış edir.

Həqiqətən, siyasi radikalizmin fonunda cəmiyyətdə xaotik durumun yaranmasına zəmin yaradan köklü dəyişikliklərin baş tutması üçün ən müxtəlif metodlara istinad edildiyindən ciddi kataklizmlərlə müşayiət edilən deviasiyaların yaranması qaçılmaz olur. Məsələn, tarixi təcrübədən bəllidir ki, radikallar dağıdıcı niyyətlərini həyata keçirmək üçün ən müxtəlif zaman kəsiklərində fərdi və kütləvi terrora, təxribat və iğtişaşlara baş vurublar. Hətta şovinizm, irqçilik, amoralizm (əxlaq tələblərinə və cəmiyyətdə qəbul edilmiş ümumi normalara etinasız, saymazyana yanaşma) kimi bəşəriyyətə ciddi bəlalar gətirmiş dağıdıcı meyillər də radikalizmin fonunda ortaya çıxıb. Bütün bunların fonunda maksimalist, nihilist davranış formaları sərgiləyən radikalizm tərəfdarlarının qeyri-müəyyən məqsədlər naminə zorakı metodlara istinad etməsi onların sosial tərəqqinin təkamül amillərinin imkanlarını düzgün qiymətləndirə bilməmələrindən irəli gəlir.

Bunlarla yanaşı, radikalizmin sol qanadının təzahür formalarından və ideoloji xətlərindən biri olan anarxizm də cəmiyyətdə ümumi həmrəyliyə mənfi təsir edən, dağıdıcı meyillərə səbəb olan, xaos və destabilliyin yaranmasına təkan verən sosial bəla qismində çıxış edir. "Suveren milli dövlətlərin sıradan çıxması" və "ümumi normalarla təsbit edilmiş qanunların ləğv edilməsi" prinsiplərindən çıxış edən anarxistlər sadalanan məqsədlərin həyata keçirilməsi naminə inqilab etməyə və müxtəlif stratifikasiyalar arasında antaqonizm yaratmağa cəhd edirlər. Onların ən çox istifadə və istinad et-

diyi vasitə isə sui-qəsd metodudur. Peter Kropotkin, Emman Goldman, Aleksandr Berkman, Pier-Cozef Prudon, Benjamin Tuker, Uilyam Grin kimi anarxizm cərəyanının tərəfdarları da etiraf edirlər ki, anarxistlərin təməl prinsipi "sərhədsizlik"dir və onlar qanunların qəsdində durmağı təməl vəzifə hesab edirlər. Onlar bildirirlər ki, ümumi normalarla təsbit edilmiş qanunlardan hər bir fərd və cəmiyyət imtina etməlidir və dövlət onlar üçün başlıca tənəzzül və təhlükə mənbəyidir.

Göründüyü kimi, radikalizm və anarxizm zamanından və məkanından asılı olmayaraq disfunksionallıq gətirən milli tənəzzül mənbəyidir. Məhz elə buna görə də, hər bir cəmiyyətin rasional düşüncəli fərdləri bu cür dağıdıcı meyillər və əməllərə qarşı birmənalı şəkildə müqavimətçi mövqeyində durur. Başqa sözlə, sağlam düşüncəli cəmiyyətlərdə radikalizm və anarxizmə birmənalı şəkildə “yox” deyilir.

Bununla yanaşı, bir sıra müxalifət subyektlərinin fəaliyyətində uzlaşma meyilləri və normativ funksionallıq da müşahidə edilir ki, həmin aktorlar konstruktiv qüvvələr kimi səciyyələndirilir. Konstruktiv müxalifət siyasi palitrada normal surətdə təmsil olunan, öz fəaliyyətində ifrat surətdə xarici və ya hər hansı transmilli qüvvələrin maraqlarını rəhbər tutaraq fəaliyyət göstərməyən və funksionallıq etibarilə cəmiyyətin institusional aktoru kimi təmsil olunan qüvvə qismində səciyyələndirilir. Demokratik cəmiyyətdə iqtidar-müxalifət dialoqu dedikdə daha çox müxalifət qismində konstruktiv müxalifət subyektləri nəzərdən keçirilir, çünki radikal subyektlər barışmaz və dağıdıcı fəaliyyət mexanizminə malik olduqlarından uzlaşma deyil, ziddiyyət mənbəyi kimi çıxış edirlər.

### 8.3. Milli müxalifətin Azərbaycan nümunəsi: təmayüllər, reallıqlar və nəticələr

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın qarşısında duran strateji səciyyəli fundamental vəzifələrdən biri də yeni dövr və şəraitin qanunauyğunluqlarına, reallıqlarına və tələblərinə müvafiq

surətdə yeni siyasi sistem formalaşdırmaq və mütəmadi surətdə həyata keçirilən siyasi-hüquqi islahatlar vasitəsilə onun struktur elementlərinin təkmilləşməsinə nail olmaq idi. Məhz belə bir strateji vəzifəyə nail olmaq nəticə etibarilə ictimai-siyasi müstəvidə ahəngdarlıq və tərəqqini təmin edəcək institutlaşma prosesinin əsasını qoymaq üçün əlverişli zəmin hesab edilirdi. Belə bir situasiyanın fonunda xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri də siyasi palitrada aktorların təmsilçiliyi idi. Məlum olduğu kimi, müstəqilliyin ilk iki ilində ölkəyə xarici imperialist güclərdən asılı olan səriştəsiz subyektlərin rəhbərlik etməsi bəhs edilən vəzifələrin yerinə yetirilməsini mümkün etməməklə yanaşı, siyasi palitrada aktorların institutlaşması və normal təmsilçiliyinə də mane oldu. Həmin ərəfədə iqtidar komandası irrasional fəaliyyət mexanizminin fonunda öz funksiyasını normal surətdə yerinə yetirə bilmədiyindən subyektlərarası münasibətlər də olduqca ziddiyyətli və disfunksional səciyyə daşıyırdı. Belə bir situasiyanın fonunda diqqətçəkən başlıca məsələlərdən biri də ölkədə müxalifət institutunun formalaşması və funksionallığının bərqərar olunması idi. Amma xaotik və antaqonist proseslərin fonunda hakimiyyətdə olan o zamankı səriştəsiz qüvvələrin irrasional mövqeyi və qeyri-praqmatik fəaliyyəti sayəsində bu sahədə də çox ciddi kataklizm səciyyəli problemlər hökm sürürdü. Odur ki, iqtidar öz funksiyasını normal surətdə yerinə yetirə bilmədiyindən müxalifət institutunun da fəaliyyətində ciddi maneələr var idi. Məhz bunun da qanunauyğun nəticəsi kimi, bəhs edilən sahədə disfunksionallıq hökm sürürdü.

Amma həmin ərəfədə ümumxalq maraqları əsasında çıxış edən bir təsisat mövcud idi ki, o öz funksionallığının fonunda siyasi sistemin dinamikliyinə fundamental töhfələr bəxş edən aktor kimi səciyyələndirilirdi. Bu, öz fəaliyyətində ümumxalq maraqlarını təməl prinsip kimi götürən Yeni Azərbaycan Partiyası idi. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu Yeni Azərbaycan Partiyası müxalifətdə olduğu qısa zaman kəsiyində xalqın ali maraqlarını ifadə edən mövqedən çıxış etdi və rasional müxalifət institutu kimi yüksək funksionallıq nümayiş et-

dirdi. Bunun da qanunauyğun və məntiqi nəticəsi kimi, Ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası qısa zaman kəsiyində xalqın dərin etimadı və dəstəyi ilə hakimiyyətə gəlməyi bacardı. Bu, xalqımızın Yeni Azərbaycan Partiyasının rasional və praqmatik fəaliyyət mexanizminə verdiyi qiymətin bariz təzahürü idi.

Beləliklə, 1993-cü ildə xalqın tələbləri ilə Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi ilə siyasi münasibətlər sistemində kardinal keyfiyyət dəyişiklikləri baş verdi. Qısa zaman ərzində ölkədə xaos və anarxiya yaratmağa hesablanmış bölücü aktların qarşısının alınması və sabitliyin təmin edilməsi qeyri-formal milli dövlət quruculuğunun həyata keçirilməsinə real zəmin yaradan ilk substrat oldu. Bundan sonra siyasi-hüquqi münasibətlər və proseslərin qanuni əsasda tənzimlənməsi, ölkədə siyasi fəaliyyətə əlverişli plüralist mühitin yaradılması və rəqabət mühitinin təmin edilməsi siyasi subyektlərin çoxşaxəli fəaliyyətinə xüsusi zəmin və imkan yaratdı. Bütün bunlar isə ölkədə praqmatik fəaliyyət mexanizminə malik olan təkmil müxalifət institutunun bərqərar olunmasına əlverişli şəraitin yaradılmasına dəlalət edirdi. Amma AXC(P), Müsavat kimi radikal qüvvələr yaranmış münbit şəraitdən istifadə edə bilmədilər. Onlar yenə də ənənəvi qaydada dağıdıcı tələblər və fəaliyyətin fonunda radikal mövqedən çıxış etdilər və özlərinin destruktiv əməlləri ilə ölkədə barışmaz ziddiyyətlər yaratmağa cəhd etdilər. Müxtəlif zaman müddətlərində xarici maraq qruplarının tapşırıqları ilə ölkədə xaos və kataklizmlər yaratmağa çalışan anarxistlər ölkənin siyasi tarixinə yalnız dağıdıcı funksiyalar icra edən və destabillik gətirən disfunksional subyektlər kimi daxil oldular.

Ümumiyyətlə, Azərbaycan müstəqillik əldə etdikdən sonra siyasi palitrada təmsil olunan subyektlərdən birinə çevrilən bugünkü radikal qüvvələr hələ o zaman özlərinin siyasi səbatsızlığını və dağıdıcı mövqelərini nümayiş etdirmişdilər. Belə ki, AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu 1992-1993-cü illər ərzində ölkə sözün əsl mənasında xaos və kataklizmlər meydanına çevrildi. Onlar

özlərinin düşünülməmiş, irrasional siyasi fəaliyyətləri və xəyanətkar addımları sayəsində ölkəni ən müxtəlif xarici kəşfiyyat orqanlarının mübarizə meydanına və ideoloji qarşıdurma poliqonuna çevirdirlər. Bunun nəticəsində isə Azərbaycan mütləq mənada “forpost”a çevrilmək təhlükəsi qarşısında idi. Bununla yanaşı, AXC-Müsavat cütlüyünün qeyri-praqmatik və irrasional fəaliyyətinin məntiqi nəticəsi kimi, ölkədə müxtəlif qruplar arasında ciddi qarşıdurmalar yarandı və Azərbaycan vətəndaş müharibəsinin astanasında idi. Belə ki, hakimiyyətdə olan bugünkü radikallar və anarxistlər öz ətraflarından çıxan bölücülərin qarşısında aciz qalaraq ölkəni parçalamaq astanasına gətirdilər. Bir-birilərini silahlı hücumlarla neytrallaşdırmağa çalışan sözügedən radikal qüvvələr ölkədə “marginal qrupların qarşıdurma tamaşası”nı sonadək davam etdirdilər…Bir sözlə, AXC-Müsavat cütlüyü Azərbaycana xaos, dağıntı, kataklizm, destruktivlik, marginallıq və radikallıq miras qoydu.

Beləliklə, Azərbaycan siyasi palitrasında funksionallığını çoxdan itirmiş və xaos mənbəyi qismində çıxış edən radikal müxalifətin bugünkü fəaliyyət mexanizmi belə bir məqamı da aşkar etdi ki, dağıdıcılar hələ də siyasi palitranın qanunauyğun reallıqlarını qəbul etmək istəmir və özlərinin siyasi "mübarizə"lərini (oxu: xarici havadarlarının dağıdıcı maraqlarını təmin etmək missiyasını-H.B.) illeqal müstəvidə radikal və anarxist meyillərlə davam etdirmək niyyətlərindən vaz keçmirlər. Bu, əslində, həmin qüvvələrin acizliyini və siyasi səbatsızlığını göstərən növbəti faktdır. Çünki sosial dəstəyi və reytinqi olmayan, cəmiyyətdə qəbul edilməyən radikal müxalifət son çarəni xarici maraq qruplarının "piyada"sına çevrilməkdə görür və aldığı maliyyə vəsaitləri qarşılığında antimilli mövqedən çıxış edərək Azərbaycanda möhkəm təməllərə söykənən sabitliyi pozmağa çalışır. Bununla da onlar “siyasi karyera”larını davam etdirmək və xaricdən gələn maliyyə axınının davamlılığını təmin etməyə nail olmaq istəyirlər…

Beləliklə, sadaladıqlarımızın fonunda qeyd edə bilərik ki, radikalizmi siyasi fəaliyyət mexanizminin ideoloji əsası kimi götürən dağıdıcı müxalifətin mütəmadi məğlubiyyətinin əsasında məhz hə-

min qüvvələrin özlərinin destruktiv niyyətləri və əməlləri durur.

Nəticə etibarilə, radikal müxalifət bu günədək mövcud olan əlverişli şəraitdən heç cür istifadə edə bilmədi. Onlar plüralist mühitin fonunda rəqabət əvəzinə dağıdıcı təxribatları, ictimai-siyasi münasibətlər sisteminə qarşı yönəlmiş qəsdləri, eksess aktlarını (cəmiyyətdə kəskin ziddiyyətlərlə müşayiət edilən toqquşmaların yaranmasına və ictimai asayişin pozulmasına yönəlmiş hərəkətlər) seçməklə "autsayder"ə çevrildilər. Konstruktiv siyasi subyektə çevrilə bilməyən radikal müxalifət ictimai-siyasi zərurət kimi alternativ ideya istehsal edə bilmədi və sağlam fəaliyyət mexanizmindən məhrum oldu. Bununla yanaşı, radikallar "marginal burulğan"lar yaratmaqla cəmiyyətin ən dinamik təbəqəsi olan gəncləri manipulyasiyaya məruz qoymaqla onları ən müxtəlif təxribatlarda iştirak etməyə sövq etdilər. Bir sözlə, dağıdıcı müxalifət normal siyasi mübarizə imkanlarını qiymətləndirə bilmədi və cəmiyyəti ən müxtəlif dissonanslarla (qarışıqlıq, ictimai asayişin pozulması ilə təzahür edən xaotik durum) qarşı-qarşıya qoymaq metodunu seçdi. Bu isə nəticə etibarilə onların özləri üçün "bumeranq" zərbəsi oldu.

Bütün bunların fonunda qeyd edə bilərik ki, radikal müxalifətin ideoloji-siyasi oriyentasiyası da bəhs edilən qüvvələrin disfunksionallığını və dağıdıcılığını şərtləndirən növbəti faktor oldu. Xüsusilə də həmin subyektlərin dağıdıcı ideoloji meyillərə istinad etmələri ilə yanaşı, bir sıra avanqard ideologiyaları da istismar etmələri nəzərdən qaçırılmamalıdır. Bu mənada qeyd edə bilərik ki, bu gün biz Azərbaycanın siyasi palitrasını təsnifatlandırmağa çalışsaq, o zaman görəcəyik ki, nə klassik demokratiyada, nə də müasir demokratik cəmiyyətdə müşahidə olunan ideologiyalar rəqabəti bəzi qruplar tərəfindən hələ də mənimsənilə bilmir. Çünki bu siyasi qruplarda həmin ideologiyaları mənimsəyəcək siyasi idrak və təfəkkür yoxdur. Başlıca problem budur ki, bu cür qruplar geniş mənada siyasi arenaya çıxmağı bacarmadıqları üçün onların daxili enerjisi anarxist meyillərə istiqamətlənir və dağıdıcı faktora çevrilir.

Fikrimizi bir az daha geniş şəkildə izah etmək üçün müasir demokratik cəmiyyətlərdə mövcud olan siyasi-ideoloji bölgüləri təh-

lil edək. Məsələn, hər bir demokratik cəmiyyətdə ideologiyaların və yaxud siyasi partiyaların adı onun fəaliyyətini, siyasi hədəflərini və məqsədini şərtləndirir. Tutaq ki, Qərb ölkələrində sosial-demokratlar deyildiyində bunun hədəfi də, siyasi istiqamətləri də, həmçinin hansı ideologiyanın və dünyagörüşünün daşıyıcısı olması da bəlli olur. Bunu xristian-demokratlar, liberalistlər, mühafizəkarlar və s. üçün də demək olar. Yəni, siyasi partiyanın adı onun siyasi sistemdəki yerini və rolunu şərtləndirməklə, eyni zamanda, hansı ideyanın və ideologiyanın daşıyıcısı olduğu haqqında aydın təsəvvür yaradır. Azərbaycanda bu, geniş mənada cəmiyyətdə bərqərar olsa da, təəssüf ki, bəzi qruplar hələ də müəyyən sahələri öz inhisarlarında saxlayırlar. Buna görə də, Azərbaycanda həmin partiyaları təsnifatlandırıb, onların təhlilini aparmaq mümkün olmur. Sadəcə, bir neçə aparıcı partiya, daha doğrusu, Yeni Azərbaycan Partiyası və digər bir neçə partiya istisna olmaqla, qalan partiyalar partiyalaşmadan qurucu deyil, dağıdıcı faktor kimi istifadə edirlər. Və dəfələrlə Azərbaycan cəmiyyətində xalqın qərarlar qəbuletmə mərhələsində biz bunun şahidi olmuşuq. Məsələ ondadır ki, bu cür dağıdıcı ünsürlər nə siyasi partiyaya çevrilib, partiyalaşıb, geniş mənada ümumazərbaycan miqyasında təşkilatlanmağı bacarıblar, nə də siyasi səhnədən getmirlər. Bu isə geniş, ümumazərbaycan miqyasında olmasa da, siyasi palitrada bəzi lokal problemlər yaradır. Əlbəttə, Azərbaycanın siyasi sistemi o qədər dinamik və plüralist şəkildə strukturlaşıb ki, bu lokal problemlər daha geniş müstəviyə yayılaraq, ciddi problemlər yaratmır. Eyni zamanda, təəssüf ki, bəzi hallarda "arabanın beşinci təkəri" rolunu oynayır, bəzi hallarda isə tormozlayıcı funksiyanı həyata keçirir. Ona görə də, hesab edirik ki, bu cür siyasi təşkilatlanmaya cəhd göstərən qrupların içərisində modern cəmiyyətin tələblərini və müasir təkmil siyasi sistemin hüquqi əsaslarını əxz etmiş, mənimsəmiş yeni gəncliyin fəaliyyətinə ehtiyac var. Əgər belə olarsa, bu, həm bütövlükdə cəmiyyətin siyasi sisteminin inkişafına xidmət göstərmiş, həm də Azərbaycan siyasətinə yeni dinamizm gətirmiş olar.

Bu mənada Azərbaycan siyasi sisteminin və cəmiyyətinin istər

siyasi mədəniyyət, istər iqtidar-müxalifət münasibətləri anlayışında, istərsə də cəmiyyətdaxili dinamiklərin ümumi ictimai münasibətləri anlayışında bəzi hallarda müəyyən təzadlar və mövcud prinsiplərdən sapmalar müşahidə olunmaqdadır. Məsələ ondadır ki, Azərbaycanın siyasi palitrasını müşahidə edən zaman qarşımıza çıxan ilk anormallıqlardan biri bəzi müxalif qrupların müxalifətçiliyi bir siyasi dünyagörüşü, demokratiya təzahürü, fikir, düşüncə axını deyil, peşə kimi qavramalarıdır. Bu cür qruplar müxalifətçiliyə peşə və ya ştat vahidi kimi baxırlar. Çox təəssüf ki, Azərbaycanın dövlət müstəqilliyini əldə etməsindən 20 il keçməsinə baxmayaraq, bu zərərli tendensiya bu gün də qalmaqdadır.

Bunu yaradan səbəbləri izah etməyə çalışsaq, müəyyən edəcəyik ki, bu, ötən əsrin 90-cı illərinin əvvəllərində yaranan ekstraordinar siyasi münasibətlərdən meydana gəlmiş zərərli bir tendensiyadır. Ekstremal şəraitdə baş verən bu proseslər, çox təəssüf ki, Azərbaycanda demokratiyanın təməlinin qoyulduğu illərə təsadüf etdi və burada bəzi zərərli, neqativ təmayüllər və meyillər yaranmağa başladı. Sonrakı mərhələdə cəmiyyətimizin və demokratiyanın inkişafı prosesində o dövrdə yaranmış qüsurlu ənənələrin böyük əksəriyyəti cəmiyyət və siyasi sistem tərəfindən filtrizasiya edilərək sıradan çıxarıldı. Lakin çox təəssüf ki, bu sıradan çıxarılma tam olaraq baş tutmadı. Yəni, geniş mənada bu tamamilə Azərbaycanın siyasi sistemindən çıxsa da, bəzi hallarda lokal şəkildə siyasi sistemimizin daxili konyukturasında hələ də qalmaqdadır. Bir daha vurğulamaq yerinə düşər ki, bunun da başlıca səbəbi bəzi müxalifət qrupları tərəfindən müxalifətçiliyin bir siyasi dünyagörüşü kimi hələ də qəbul olunmamasındadır.

Bütün bunlarla yanaşı, həmin dağıdıcı qüvvələrin timsalında bir sıra milli ideologiyaların da istismarı müşahidə edilir. Bu sıraya ölkəmizdə müsavatçılıq ideologiyasının bir sıra disfunksional səciyyə daşıyan dağıdıcı qüvvələr tərəfindən istismarını aid edə bilərik. Bunu konkret olaraq ayrı-ayrı siyasi partiyaların timsalında əsaslandırmağa çalışaq. Məsələn, Azərbaycanda fəaliyyət göstərən Müsavat Partiyasını götürək. Məlum olduğu kimi, müsavatçılığın

Azərbaycanda çox böyük tarixi ənənəsi var. Təəssüf ki, bu gün Azərbaycanda müsavatçılıq ideologiyası bir qrup tərəfindən istismar olunur və daha çox marginal maraqlara xidmət edən silaha çevrilir. Amma bu ideyanın vaxtilə Azərbaycanda ciddi şəkildə kökləri olduğu üçün onun siyasi kapitalı bu gün də müsavatçılığı istismar edən siyasi qruplaşmalar tərəfindən xərclənir. Lakin bu da artıq tükənib. Çünki Azərbaycan cəmiyyətinin bir hissəsi müsavatçılıq ideyası ilə Sovet İttifaqı dağılan zaman tanış oldu və həmin ərəfədə müsavatçılığı Sovet ideologiyasına qarşı olan milli ideologiya kimi qəbul etdi. Çox təəssüf ki, bir qrup naşı siyasətçi tərəfindən istismar olunan bu ideologiya sonda elə bir vəziyyətə gətirildi ki, artıq bu, müasir gənclər tərəfindən milli deyil, antimilli ideologiya kimi qəbul edilir. Qənaətimizcə, həmin siyasi marginal qruplar bunu dərk edərək müsavatçılığı istismardan əl çəkməlidirlər. Əslində, müsavatçılıq konkret tarixi dövrdə yaranmış və qarşısına konkret məqsəd qoymuş bir siyasi ideologiya idi. XX əsrin əvvəllərində yaranmış müsavatçılığın hədəfi heç də müstəqillik deyildi. Müsavatçılığın hədəfi çar Rusiyası tərkibində yaşayan bütün təəbələrin bərabər hüquqlarda, bərabər əsaslarda fəaliyyətinin təmin olunması idi. Sonrakı mərhələdə baş verən tarixi proseslərin nəticəsində müsavatçılıq 1918-ci ildə yaranmış Azərbaycan Demokratik Cümhuriyyətinin aparıcı ideologiyalarından birinə çevrildi. Məqsədimiz müsavatçılıq ideologiyasının tarixini araşdırmaq olmadığı üçün onun tarixi aspektlərinə toxunmuruq. Amma düşünürük ki, bu gün istismar olunan müsavatçılıq ideologiyası Azərbaycanın milli, siyasi fikir tarixinin, düşüncəsinin bir təzahürü kimi yenidən Azərbaycan xalqına qaytarılmalıdır. Yəni bir qrup inhisarçı siyasətçinin siyasi demaqogiyası üçün silah kimi deyil, Azərbaycan xalqının fikir istehsalının və Azərbaycan xalqının siyasi dünyagörüşünün bir həlqəsi kimi xalqın xidmətlərinə qaytarılmalıdır. Ona görə də, əgər bu gün müsavatçılığı istismar edən qüvvələr doğrudan da vətənpərvərdirlərsə və bu ideologiyanı mənimsəyiblərsə, o zaman sakit şəkildə Azərbaycanın siyasi səhnəsində kənara çəkilsinlər. Onların müsavatçılıq qarşısında ən böyük xid-

məti bu ola bilər.

Təəssüf ki, Azərbaycanda Xalq Cəbhəsi də buna bənzər, amma daha gənc bir tarixə sahib olan bir qruplaşmanın mənafeyinə xidmət edir. Məlum olduğu kimi, Xalq Cəbhəsi xalq hərəkatı dövründə yaranmışdı və xalq hərəkatı Sovet imperiyasına qarşı formalaşmışdı. Xalq hərəkatı, o cümlədən Xalq Cəbhəsinin yaranması XX əsrin sonunda dünyada baş verən qlobal proseslərin nəticəsi olaraq bir zərurət kimi meydana çıxmışdı. O təkcə Azərbaycanda deyil, ilkin mərhələdə Baltikyanı respublikalarda, ondan sonra isə bütün postsovet məkanında yaranmışdı. Ümumiyyətlə, tarixdən də bəlli olduğu kimi, xalq hərəkatı hər zaman ekspansiyalara qarşı yaranıb. Və bu hərəkat öz missiyasını həyata keçirdikdən (yəni xarici işğal başa çatdıqdan) sonra öz yerini yeni siyasi sistemə verir... Ümumxalq hərəkatının partiyalaşması nümunəsi isə anormal bir haldır. Heç bir postsovet ölkəsində bu olmasa da, Azərbaycanda bu siyasi anormallıq da baş verdi. Əgər doğrudan da o dövrdə xalq hərəkatından çıxmış ayrı-ayrı fərdlər yetkin siyasətçi kimi praqmatik seçim və davranış forması seçməyi bacarsaydılar, o zaman özlərinə partiya yaradar və ona konkret ideologiyanı və siyasi dünyagörüşünü özündə ehtiva edən bir ad qoyardılar. Amma təəssüf ki, nə xarizması, nə də liderlik keyfiyyəti olan ayrı-ayrı şəxslər hərəkatın siyasi kapitalını mənimsəməyə başladılar. Dolayısı ilə, müsavatçılıqda olduğu kimi, burada da Xalq Cəbhəsinin siyasi kapitalı istismar olunmağa başlandı. Və çox təəssüf ki, onlar Xalq Cəbhəsini bir siyasi partiya kimi qeydiyyata aldıra bildilər. Halbuki dünyanın heç bir ölkəsinin heç bir siyasi sistemində bu cür deviant hal, anormallıq yoxdur. Bir daha qeyd etmək lazımdır ki, burada insanları birləşdirəcək heç bir konkret ideologiya və siyasi dünyagörüş yoxdur. Çünki xalq hərəkatının tarixi missiyası siyasi partiyaya çevrilmək deyil. Müəyyən bir mərhələdə işğalçılara qarşı xalqı təşkilatlandırmaqdır (əlbəttə ki, normal şərtlərdə-H.B).

Bir sözlə, cılız, xarizması və liderlik keyfiyyətləri olmayan şəxslər xalq arasında vaxtı ilə populyar olmuş və konkret məqsədə xidmət etmiş ayrı-ayrı təşkilatları istismar alətinə çevirməyi bacar-

dılar. Bununla yanaşı, istər Müsavatın, istərsə də AXCP-nin daxilində olan, həmçinin, yeni yetişən və yeni cəmiyyət quruculuğunun siyasi-hüquqi əsaslarını mənimsəyən gənclər modern cəmiyyətdə siyasi partiyaların fəaliyyətini və sistem strukturunu mənimsəyən kimi, adını partiya qoyan bu ümumi ictimai və siyasi qruplardan ayrılaraq, məhz Azərbaycanın gerçək siyasi səhnəsinə qədəm qoydular. Bundan dərhal sonra isə artıq müəyyən uğurlar da əldə etməyə, parlamentdə təmsil olunmağa başladılar. Onlar modern cəmiyyətin yeni siyasi sisteminə adaptasiya olunaraq demokratiyaya müəyyən töhfə verməyə başladılar və siyasi palitraya yeni rənglər gətirdilər. Və sözün həqiqi mənasında Azərbaycanda artıq siyasi partiyalaşmanın yeni keyfiyyət qazanmasına səbəb oldular.

Beləliklə, bütün bunların fonunda qeyd edə bilərik ki, AXCP və Müsavatda olan ambisioz, lakin intellekti və siyasi fəaliyyəti ambisiyasının arxasında, əqli hirsinin və iddiasının arxasında qalan bəzi şəxslər və onların ətrafında olan qruplar hələ də yeni cəmiyyətə və yeni tələblərə uyğunlaşa bilmirlər. Çox təəssüf ki, hələ də XX əsrin sonlarında qalan kiçik dağıdıcı nüvə daxilindən yeniləşə bilmədiyi üçün ötən əsrin 90-cı illərində imperiyaya qarşı formalaşmış qəzəbi və kini bu gün müstəqil Azərbaycan dövlətinə doğru istiqamətləndirirlər. Lakin bir məqamı dərk etmək lazımdır ki, ötən əsrin 80-ci illərinin sonu və 90-cı illərin əvvəllərində bu enerjinin hədəfi doğru idi, yəni imperiya dağılmalıydı. Bu gün isə həmin dağıdıcı faktor Azərbaycan dövlətinə qarşı yönəldilməyə çalışılır. Və təqdirəlayiq haldır ki, bunu dərk edən gənclər və bəhs edilən qrupların ətrafında olan insanlar bu gün fərdi və kütləvi qaydada istefalar verirlər. Düşünürük ki, bu olduqca qanunauyğun haldır və Azərbaycan cəmiyyəti tamamilə bu dağıdıcı qrupların siyasi ambisiyalarından xilas olmalıdır. Ona görə də, düşünürük ki, Azərbaycan cəmiyyətində fərdi və ictimai şüur çox yüksəkdir. Eyni zamanda, cəmiyyətimizdə baş verən bu dəyişikliklər Azərbaycanda yeni ictimai dəyərlər və təşəbbüslər axını nəticə etibarilə modern düşüncəyə sahib yeni gənclik formalaşdırıb. Onların məqsədi Azərbaycan dövlətini və cəmiyyətini daha da irəliyə aparmaqdır. Ona

görə də, birmənalı şəkildə qeyd edə bilərik ki, Azərbaycanın siyasi palitrasında mövcud olan bu destruktiv, lokal siyasi qruplaşmaların iki yolu var: ya daxildən gələn yeniləşmə dalğasına tabe olaraq siyasi səhnədən getməlidirlər ki, onların hazırda istismar etdiyi siyasi təşkilatlar yenilənsin; ya da bütövlükdə həmin siyasi təşkilatlar faciəvi şəkildə öz daxilindən iflasa uğrayacaq. Ona görə də, bu gün həmin siyasi təşkilatların qarşısında duran başlıca məqsəd məhz bu olmalıdır ki, gənclərə yol versinlər və yeni gələn qüvvələr yeni status və keyfiyyətdə Azərbaycanın siyasi palitrasına və sisteminə inteqrasiya olunsunlar. Əks təqdirdə qurultayların vaxtını dəyişməklə, müxtəlif xarici anti-azərbaycançı qüvvələrin məqsədlərinə uyğun şəkildə antimilli subyektə çevrilməklə həm özləri üçün arzuolunmaz aqibət hazırlayırlar, həm də Azərbaycan cəmiyyətinə və dövlətinə qarşı çıxmış olurlar. Əlbəttə ki, Azərbaycan dövləti güclü dövlət, Azərbaycan xalqı kamil xalqdır. Xalq bu oyunları dərk etdiyi üçün radikal müxalifətdən birdəfəlik imtina edir.

Məhz bütün bunların fonunda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev "Azərbaycan" qəzetinə müsahibəsində radikal müxalifətin fəaliyyət mexanizmini və funksionallıq səviyyəsini bu cür dəyərləndirir: **"Biz müxalifətin (dağıdıcı, radikal müxalifəti nəzərdə tuturam) hansısa bir ümummilli proses, yaxud da adi bir məsələ barədə konstruktiv təklifini, əsaslandırılmış təşəbbüsünü, problemlərdən çıxış yolu barədə layihəsini görməmişik. Müxalifət Azərbaycanda gedən hüquqi dövlət quruculuğu prosesinə, demokratik islahatlara zərrə qədər də olsun, töhfə verməyib, əksinə, daim bu dəyərlərə mane olmağa cəhd göstərib, özünü ölkə həyatının müsbət gedişindən tam təcrid edib. Müxalifət düşərgəsi bu gün yeknəsəq deyil. Müxalifət qrupları fərqli mənafeləri əks etdirir. Lakin bu qrupların əksəriyyəti, zorən özünü aparıcı qüvvə kimi sınayan hissə köhnə təfəkkürlü, meydan illərinin düşüncə və mübarizə tərzinin daşıyıcılarıdır. Onlar təşkilatlarının daxilində yeniləşmə ilə bağlı təşəbbüslərə necə müqavimət göstərirlərsə, ölkə həyatında baş verən modernləşmə pro-**

**sesinə qarşı çıxmağa da cəhd edirlər. Ümumiyyətlə, bu gün radikal müxalifət ciddi uğursuzluq zolağında, böyük böhran məngənəsindədir**”.

Məhz bütün bunların nəticəsidir ki, cəmiyyətdə heç bir sosial dəstəyə və reytinqə malik olmayan radikal müxalifət sivil mübarizə ilə heç nəyə nail ola bilmədiyindən deviant metodlara istinad edir və ümidini transmilli maraqlara malik olan imperialist güclərə bağlayır. Bu da onların antimilli mövqelərini növbəti dəfə sübut edir. Məhz belə bir antimilli mövqeyin fonunda radikallar imperialist güclərin ssenarilərinin – tamaşalarının aktyoruna çevrilməyə çalışır və “rəngli”, “çiçəkli” inqilablar arzusuyla yaşayırlar. Bununla bağlı Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev “Azərbaycan” qəzetinə müsahibəsində bildirir ki, Azərbaycan daxilində “rəngli” inqilaba ehtiyac duyan bir qüvvə var ki, o da radikal “kvazipartiya”ların özləridir: “**Bu təşkilatlar da öz daxilindəki totalitar üsul-idarəni, “hamı rəhbərin fikir və mövqeyini bölüşməyə məhkumdur” avtoritar prinsipini, “kiçik padşah”ların böyük ambisiyalarını aradan qaldırmağın yolu məhz müxtəlif partiyaların “narıncı inqilab”larından keçir”**.

Nəticə etibarilə, bəhs edilən radikal qruplar özlərinin illeqal hakimiyyət iddialarını çevrilişlər vasitəsilə reallaşdırmaq həvəsindədirlər. Belə ki, ümummilli səciyyəli seçkilərdə xalqın etimadını və dəstəyini qazana bilməyənlər özlərinin və xidmət etdikləri imperialist güclərin korporativ maraqlarının reallaşması naminə dövləti və xalqı zərbə altında qoymaqdan çəkinmirlər. Amma kifayət qədər aydındır ki, Azərbaycan artıq xarici imperialist güclərin korporativ maraqları naminə reallaşdırılan inqilab poliqonu deyil. Belə ki, 1995-ci ilin mart çevrilişi cəhdlərinin qarşısının Ulu öndər Heydər Əliyev tərəfindən məharətlə alınmasından sonra artıq Azərbaycan hər hansı “rəngli”, “çiçəkli” inqilablar məkanı olmaqdan çıxıb. Çünki möhkəm təməllərə söykənən ictimai-siyasi sabitlik və iqtisadi inkişaf öz növbəsində ölkəmizi xarici güclərin maraqlarının toqquşduğu deyil, uzlaşdığı geosiyasi məkana çevirib.

*Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir*

***Ulu öndər Heydər Əliyev***

***

*Modernləşmə xətti, Azərbaycanda həyat meyarlarının dünyada mövcud olan ən yüksək standartlara çatdırılması xəttidir. Bu məqsədlərə nail olmağın təməli isə Azərbaycan tarixinin, Azərbaycan ənənələrinin möhkəm kökləridir. Başqa sözlə desək, biz milli dəyərlər əsasında müasir dövlət qururuq*

***Prezident İlham Əliyev***

# IX FƏSİL

# SİYASİ MƏDƏNİYYƏTİN VƏ MODERNLƏŞMƏNİN AZƏRBAYCAN TƏCRÜBƏSİ: TƏŞƏKKÜL MƏRHƏLƏLƏRİ VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

## 9.1. Siyasi mədəniyyət: funksiyaları, növləri və struktur elementləri

Müxtəlif ölkələrin inkişaf səviyyəsini qiymətləndirərkən əsas götürülən fundamental meyarlardan biri kimi siyasi mədəniyyət amili ön plana çəkilir. Son zamanlar müxtəlif strateji araşdırma mərkəzləri milli dövlətlərin daxili potensialı və gücünü, perspektiv inkişaf istiqamətlərini dəyərləndirmək üçün siyasi sistemin mühüm struktur elementlərindən olan siyasi mədəniyyəti xüsusi tədqiqat obyekti kimi nəzərdən keçirirlər. Bu baxımdan, digər ölkələr kimi Azərbaycanın da müstəqillik əldə etməsindən bu günədək keçdiyi yolun səciyyəvi əlamətlərini bir daha aşkar etmək və qiymətləndirmək, eləcə də, ölkəmizin inkişaf istiqamətləri və səviyyəsini dəyərləndirmək üçün siyasi mədəniyyət faktorunu analitik əsasda araşdırmaq məqsədəmüvafiqdir. Amma ilk növbədə, siyasi mədəniyyətin özünün nə olmasını, onun birinci və ikinci dərəcəli elementlərini müəyyən etmək və ona təsir edən, eləcə də siyasi mədəniyyətin təsir etdiyi obyekt və subyektləri aydınlaşdırmaq zəruri şərtdir.

Ümumiyyətlə, bəzi araşdırmaçılar siyasi mədəniyyəti milli mənəviyyat kimi dəyərləndirirlər. Amma bu mövqe məsələyə dar çərçivədən yanaşmanın fonunda ortaya çıxıb. Məsələyə geniş rakursdan yanaşsaq, qeyd edə bilərik ki, siyasi mədəniyyət vətəndaşların hakimiyyətlə qarşılıqlı münasibətlərinə aid olan mövqe və davranışların əsasını təşkil edən dəyərlərin, eyni zamanda, siyasi sistemin iştirakçıları arasında təzahür edən fərdi mövqe və meyillərin kompleks məcmusudur. Bir çox araşdırmaçılar isə siyasi mədəniyyəti siyasi sistemin aktorlarının mövqe və meyillərinin, davranış

formalarının məcmusu kimi səciyyələndirirdilər. Bu baxımdan, bir ölkənin siyasi sisteminin hüquqi əsaslara söykəndiyini, özündə təkmil struktur elementlərini ehtiva etdiyini, başqa sözlə, həmin ölkədə demokratik prinsiplərin hökm sürdüyünü göstərən başlıca indikatorlardan biri siyasi mədəniyyətdir. Çünki siyasi mədəniyyət demokratiyanın səviyyəsini müəyyən etməyə imkan verən aşağıdakı elementlərin daşıyıcısıdır:

*1) vətəndaşların siyasi hakimiyyətə münasibəti onların davranış və rəylərində öz əksini tapır. Siyasi mədəniyyət isə məhz bu cür davranış və rəylər əsasında formalaşır, inkişaf edir;*

*2) siyasi hakimiyyətin ölkə vətəndaşlarına münasibəti də siyasi mədəniyyətdə öz əksini tapır. Məsələn, hakimiyyət cəmiyyət üzvlərinə münasibətdə ya onları siyasi həyatda iştirak etməyə sövq edir, fərdlərin demokratik prinsip və normalara əsaslanan fəaliyyətinə mane olmur, ya da hər bir vasitə ilə fərdlərin siyasi iştirakçılığı və sosiallaşmasının qarşısını alır. Bu da, nəticə etibarilə, fərdlərin siyasi iştirakçılıq səviyyəsi və dolayısıyla, siyasi mədəniyyətinə təsir edir;*

*3) siyasi mədəniyyətin inkişaf etməsi vətəndaşların siyasi idarəetməyə təsirini artırır. Eyni zamanda, cəmiyyətin fəal üzvləri qərar qəbulu və icrası prosesinə də təsir göstərir. Bu isə hakimiyyət-cəmiyyət münasibətlərinə birmənalı şəkildə müsbət təsir göstərir;*

*4) siyasi mədəniyyət idarəetmədə iştirak edən və etməyən fərdlərin mənəvi-psixoloji yönümlərini və dəyərlərini müəyyən edir. Bu da ölkə daxilindəki siyasi davranış və mövqeləri formalaşdıran amil kimi çıxış edir. Bəhs edilən faktor bir ölkənin perspektiv inkişaf səviyyəsini müəyyənləşdirən kontur qismində dəyərləndirilir.*

Beləliklə, siyasi mədəniyyət milli gücün mühüm potensial ünsürü olmaq etibarilə daşıdığı struktur elementləri ilə milli inkişaf strategiyasının icra edilməsini təmin və mümkün edən qeyri-maddi faktor qismində çıxış edir. Siyasi sistemin struktur elementlərinə siyasi təcrübə, siyasi təsisatlara yönəlmə və iştirak, siyasi stereotiplər, siyasi simvol, siyasi sosiallaşma, siyasi davranış modelləri və formaları və s. daxildir.

Politoloq Y.Vyatr siyasi sistemin struktur elementlərini daha

geniş kontekstdən müəyyən edir və ona aşağıdakı komponentlərin daxil olduğunu bildirir:

***A)** siyasət haqqında nəzəri, empirik və təcrübi biliklər;*

***B)** ictimai-siyasi rəy: buraya siyasi hadisə və proseslərin dəyərləndirilməsi, onlara qiymət verilməsi, siyasi mövqe və rəylərin hüquqi və institusional səviyyədə bildirilməsi və s. aiddir;*

***C)** siyasi davranış formaları və modelləri: buraya siyasi dəyərlər və normaların daşıyıcısı olan subyektlərin fərdi və qrup mövqeyi əsasında sərgilədikləri davranış formaları, modelləri aid edilir;*

***D)** siyasi sosiallaşma və iştirakçılıq: alimin qənaətincə, buraya ictimai-siyasi proseslərin fonunda sosial aktorların müəyyən norma və dəyərləri mənimsəyərək sosial-siyasi həyatda təmsil olunması və ümumi proseslərin formalaşması və cərəyan etməsinə təsir göstərməsi aiddir.*

Bununla yanaşı, Q.Almond və S.Verba "Vətəndaş mədəniyyəti" adlı əsərlərində ABŞ, Böyük Britaniya, Almaniya, Hindistan kimi ölkələrin timsalında topladıqları empirik faktlara müvafiq surətdə siyasi mədəniyyətin 3 növünü müəyyən edirlər:

***1)** patriarxal siyasi mədəniyyət: siyasi mədəniyyətin bu növünün mövcud və hakim olduğu cəmiyyətlərdə vətəndaşlar siyasi proseslərə etinasız yanaşırlar, siyasi absenteizm hökm sürür, vətəndaşların siyasi sosiallaşması və iştirakçılıq səviyyəsi olduqca aşağı olur. Bu isə ictimai-siyasi institutlaşma prosesinə mane olmaqla yanaşı, siyasi sistemin struktur elementlərinin təkmilləşməsi vəzifəsinin də yerinə yetirilməsinin qarşısını almış olur. Bu cür siyasi mədəniyyətin bu və ya digər cəmiyyətdə hökm sürməsinin başlıca səbəblərinə cəmiyyətin ümumi yetkinlik səviyyəsinin və siyasi idarəetmənin səmərəlilik dərəcəsinin aşağı olması aid edilir;*

***2)** təbəəçi siyasi mədəniyyət: bu cür siyasi mədəniyyətin mövcud olduğu cəmiyyətlərdə vətəndaşlar siyasi proseslərə etinasız yanaşmasalar da, ümumi siyasi absenteizm hökm sürməsə də, siyasi fəallıq və dinamik fəaliyyət mexanizmi aşağı səviyyədə olur. Başqa sözlə, insanlar özlərinin aktiv seçki hüquqlarından tam olaraq istifadə edirlər, siyasi proseslərlə bağlı empirik faktlara və biliklərə*

*malik olurlar, amma siyasi aktor kimi ictimai-siyasi palitrada aktiv mövqedən çıxış etmirlər. Nəticə etibarilə, siyasi sosiallaşma yüksək səviyyədə olsa da, siyasi iştirakçılıq qənaətbəxş hesab edilmir;*

***3)** aktiv siyasi mədəniyyət: siyasi mədəniyyətin bu növünün hakim olduğu cəmiyyətlərdə vətəndaşların siyasi sosiallaşması və iştirakçılığı yüksək səviyyədə olur. Belə ki, vətəndaşlar siyasi proseslərlə bağlı yüksək biliklərə malik olur, siyasi maariflənmə səviyyəsi cəmiyyətin inkişafına təkan və töhfə verən mühüm institusional faktor qismində çıxış edir. Bununla yanaşı, sosial aktorlar olmaq etibarilə fərdlərin siyasi proseslərdə aktiv təmsilçilik göstəricisi də olduqca yüksək olur.*

Y.Vyatr "Siyasi münasibətlərin sosiologiyası" əsərində isə siyasi mədəniyyət formalarının tarixi təkamülündən bəhs edir və tarixi təşəkkül xüsusiyyətlərinə görə aşağıdakı siyasi mədəniyyət formalarını nəzərdən keçirir:

***1)** ənənəvi siyasi mədəniyyət: hakimiyyətə və hakim mədəniyyətə münasibətdə fərdlər irrasional mövqe sərgiləyir və ənənəvi dəyərlərə istinad edirlər. Ənənəvi siyasi mədəniyyət sırf ənənəvi dəyərlərin və normaların fonunda bərqərar olunur və kütləvi mədəniyyət formasında təzahür olunur;*

***2)** kütləvi siyasi mədəniyyət (araşdırmaçı bunu modern siyasi mədəniyyət kimi səciyyələndirir): kütləvi siyasi mədəniyyətin liberal-demokratik növünün hökm sürdüyü cəmiyyətlərdə dəyərlərin inteqrasiyası və transformasiyası subyektlərin adaptasiyasına fundamental töhfələr bəxş edir. Məhz bunun fonunda subyektlərin siyasi sosiallaşma və iştirakçılıq səviyyəsi qənaətbəxş olur və siyasi sistemin struktur elementlərinin mütəmadi surətdə təkmilləşməsinə əlverişli şərait mövcud olur. Kütləvi siyasi mədəniyyətin avtokratik növünün hökm sürdüyü cəmiyyətlərdə isə hakim ideologiya siyasi mədəniyyətin tərkib hissəsi olan siyasi şüuru manipulyasiyaya məruz qoyur və doqmatik dünyagörüşü hökm sürür.*

Elmi ədəbiyyatda siyasi mədəniyyətin müxtəlif meyarlara əsasən təsnifatı verilir:

*– ümummilli əhatə dərəcəsinə görə: ümumi və fərqli submədə-*

*niyyətlər;*

*– hakimiyyətə və hakim mədəniyyətə görə: hakim və kontrmədəniyyət.*

Ümumi siyasi mədəniyyət vətəndaşların əsas kütləsinin siyasi şüurunu və siyasi davranışını səciyyələndirən sabit və statik normalar sistemidir. Siyasi submədəniyyət isə cəmiyyətdə hakim siyasi yönümlərdən fərqlənən, özündə lokal norma və xüsusiyyətləri ehtiva edən yönümlərin məcmusudur. Kontrmədəniyyət isə submədəniyyətin xüsusi növü olmaq etibarilə daşıdığı normalara və dəyərlərə görə hakim siyasi mədəniyyətdən fərqlənən və müəyyən mənada ona zidd olan normalar sistemi kimi səciyyələndirilir.

Nəticə etibarilə sadalananlar onu deməyə əsas verir ki, siyasi mədəniyyət siyasi sistemin önəmli komponentlərindən biri olmaqla ölkənin siyasi inkişafını təmin edən fundamental faktor qismində çıxış edir. Eyni zamanda, yüksək siyasi mədəniyyətin formalaşması üçün cəmiyyətdə güclü siyasi liderlərin mövcudluğu zəruri amil kimi dəyərləndirilir. Ona görə ki, yetkin idarəetmə təcrübəsi və potensialına sahib olan liderlər legitim siyasi mühit yaratmaqla siyasi mədəniyyətin yüksək səviyyəsini təmin etmiş olur, bu da nəticə etibarilə, ümummilli inkişafın əldə edilməsi işinə fundamental töhfələr bəxş edir.

## 9.2. Siyasi mədəniyyətin Azərbaycan təcrübəsi: reallıqlar, nailiyyətlər və perspektivlər

Qeyd etdiyimiz kimi, yüksək siyasi mədəniyyətin formalaşması və inkişafı üçün lider fenomeni, amili olduqca önəmlidir. Azərbaycanda siyasi mədəniyyətin formalaşması və inkişaf etməsi məsələsinə nəzər salsaq, tərəddüdsüz qeyd edə bilərik ki, ölkəmizdə siyasi mədəniyyətin formalaşması və inkişaf etməsi bir neçə mərhələdən keçib.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanda ictimai-siyasi durum xaosla müşayiət edilirdi. 1993-cü ilə kimi nə müstəqilliyin struktur elementləri hiss edilirdi, nə də ki, hakimiyyət-vətəndaş

münasibətləri legitim qaydada hökm sürürdü. Siyasi idarəetməni "həyata keçirən" qüvvələr ölkə daxilində disbalans formalaşdırmışdılar və siyasi davranış normaları korporativ maraqlar üzərindən müəyyənləşdirilirdi. Ona görə də, belə bir situasiyanın fonunda ölkədə siyasi mədəniyyətin formalaşmasından bəhs etmək belə mümkün deyildi.

Amma Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişindən sonra ölkənin siyasi sistemində və həyatında müsbət mənada əsaslı dəyişikliklər oldu. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi siyasi mədəniyyətin formalaşması və inkişafına şərait yaradan fundamental hüquqi substrat qismində çıxış etdi. Bundan sonra siyasi həyatın legitimləşdirilməsi yönündə mühüm irəliləyişlər qeydə alındı. Belə ki, vətəndaş cəmiyyətinin qurulması prosesinə start verildi və fərdlərin siyasi həyatda müstəqil inkişafı üçün geniş şərait yaradıldı. Hakimiyyət cəmiyyət üzvlərinə münasibətdə fərdlərin demokratik prinsip və normalara əsaslanan fəaliyyətini stimullaşdırdı, eləcə də cəmiyyət üzvlərinin demokratik prinsip və normalara əsaslanan siyasi iştirakçılığında mühüm keyfiyyət dəyişiklikləri qeydə alındı. Ən əsası isə odur ki, Ulu öndər Heydər Əliyev siyasi sistemin komponentləri olan ayrı-ayrı institutları legitimləşdirməklə açıq-demokratik cəmiyyət qurdu. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin edildi. Bunlar isə öz növbəsində siyasi sosiallaşma və mədəniyyətin inkişafına yol açdı.

Bunlarla yanaşı, Ulu öndər Heydər Əliyev özünün yüksək səviyyəli siyasi fəaliyyəti və davranışı ilə milli siyasi mədəniyyətin inkişafını stimullaşdırdı. "**Millət dövlət üçün yox, dövlət millət üçün olmalıdır**", – deyən Ümummilli lider Heydər Əliyev siyasi həyatda yüksək davranış normaları və prinsipləri formalaşdırmaqla Azərbaycan cəmiyyətini müasir siyasi mədəniyyətə malik olan inkişaf etmiş cəmiyyətlər sırasına daxil etdi. Beləliklə, ölkəmizin ümummilli inkişafını təmin edən yüksək siyasi mədəniyyətin formalaşması Azərbaycan xalqının Ümummilli lideri, Ulu öndər Hey-

dər Əliyevin adı ilə bağlı oldu.

Bu gün isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli siyasət sayəsində Azərbaycan Respublikasının siyasi həyatının və sisteminin mütəmadi təkmilləşdirilməsi tendensiyası davam edir. Heydər Əliyevin əsasını qoyduğu strateji səciyyəli ənənələri müasir dövrün tələblərinə və qanunauyğunluqlarına müvafiq qaydada davam etdirən Prezident İlham Əliyevin siyasi-strateji kursu dövlət-vətəndaş birliyini daha da möhkəmləndirir. Bu da ölkəmizdə fərdlərin siyasi iştirakçılıq səviyyəsini artırmaqla yüksək siyasi mədəniyyətin daha da inkişaf etməsinə təkan və stimul verir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli inkişaf strategiyasının fonunda ictimai-siyasi institutlaşma prosesinin sürətləndirilməsi vətəndaşların siyasi iştirakçılıq və sosiallaşma səviyyəsini artırmaqla yanaşı, siyasi sistemin təməl komponentlərinin təkmilləşməsinə də önəmli töhfələr bəxş etməkdədir. Bütün bu uğurların təminatçısı qismində çıxış edən növbəti strateji faktor demokratik transformasiya vəzifəsinin siyasi sistemin qanunauyğunluqlarına və tələblərinə müvafiq surətdə həyata keçirilməsidir. Belə ki, demokratik transformasiya prosesinin milli maraqlara və dəyərlərə müvafiq surətdə davam etdirilməsi vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunması işini sürətləndirməklə yetkin siyasi mədəniyyətin təməl xüsusiyyətlərinin formalaşmasını şərtləndirir. Məhz bütün bu strateji tədbirlərin və praqmatik fəaliyyət mexanizminin fonunda siyasi-hüquqi islahatların həyata keçirilməsi, ictimai-siyasi təsisatlanmanın davamlılığının təmin edilməsi, ictimai-siyasi münasibətləri yeni şəraitə uyğun formada tənzimləmək üçün sosial strukturlar və siyasi təsisatların fəaliyyətinə legitim şəraitin yaradılması, sosial stratifikasiyalararası ictimai münasibətlərin sağlam dəyərlər əsasında təşkil edilməsi nəticə etibarilə özündə yeni və daha təkmil struktur elementlərini, sağlam milli münasibətləri və dəyərləri birləşdirən, ehtiva edən siyasi sistemin təşəkkül tapmasını şərtləndirdi ki, bu da yetkin siyasi mədəniyyətin formalaşması və inkişafına bilavasitə mühüm töhfələr bəxş etmiş oldu. Beləliklə, vətəndaş cəmiyyəti və hüquqi dövlət

quruculuğu vəzifəsinin fonunda görülən tədbirlər siyasi mədəniyyətin tərəqqisinə əhəmiyyətli töhfələr verməklə milli inkişaf strategiyasının fonunda mühüm nailiyyətlərin əldə edilməsini təmin etdi. Prezident İlham Əliyev bununla bağlı demişdir: "**Vətəndaş cəmiyyəti quruculuğu, demokratik proseslərin möhkəmlənməsi, hüquqi dövlətin formalaşması heç də şüar və arzu deyil, Azərbaycanın hərtərəfli inkişafının başlıca şərtidir. Bizim təcrübəmiz göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur**".

Beləliklə, Ulu öndər Heydər Əliyevin sistematik surətdə başlatdığı milli inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə və siyasi sistemin qanunauyğunluqlarına müvafiq surətdə davam etdirilməsi bir çox sahələrdə kompleks uğurların qazanılmasını təmin etməklə yanaşı, milli gücün mühüm keyfiyyət ünsürü olan siyasi mədəniyyətin də milli dəyərlərə adekvat şəkildə bərqərar olunması və inkişafını şərtləndirmişdir.

## 9.3. Siyasi modernləşmə kursu milli inkişaf strategiyasının fundamental istiqaməti kimi: nəzəri-konseptual məsələlər və Azərbaycan təcrübəsi

Siyasi modernləşmə kursu milli inkişaf strategiyasının fundamental istiqamətlərindən biri kimi səciyyələndirilir. Siyasi modernləşmə prosesi dedikdə siyasi sistemin yeni dəyərlər əsasında formalaşdırılması və struktur elementlərinin təkmilləşdirilməsi ilə ənənəvi sistemdən müasir sistemə keçidlə səciyyələnən sosial-siyasi transformasiya nəzərdə tutulur. Elmi ədəbiyyatda siyasi modernləşmənin 2 əsas mərhələsi göstərilir:

***1)*** *təcrübi olaraq XX əsrin 50-60-cı illərindən başlanan "modernləşmə dalğası": bu, özündə daha çox modernləşmə adı altında irrasional formada Qərbləşməni (vesternizasiya) ehtiva və ifadə edən proses kimi səciyyələndirilir. Belə ki, məhz bu cür modernləşmə növü milli dəyərlərin və xüsusiyyətlərin nəzərə alınmaması formasında "Qərb dəyərləri" kimi səciyyələndirilən standart (şablon)*

*normaların irrasional formada "özününküləşdirilməsi" ilə təzahür olunur ki, bu da modernləşmədən daha çox asimilyasiyaya dəlalət edir. Bu cür modernləşmə kursu milli dəyərlərin və xüsusiyyətlərin asimilyasiyaya uğramasına səbəb olmaqla yanaşı, milli həmrəylik və bütövlüyə də ciddi surətdə mənfi təsir etmiş olur. Nəticə etibarilə, kənardan qəbul edilən dəyərlər və normalar stereotip formasında təzahür edir və mill-mənəvi dəyərlərin aşınması tendensiyası ardıcıl səciyyə alır;*

***2)** XX əsrin 70-90-cı illərindən başlamaq etibarilə "rasional modernləşmə" kursu aktuallaşmağa başladı. Bu kursun əsasında belə bir tezis dururdu: "modernləşmə inkişafın başlıca şərti yox, əsas funksiyası və istiqamətidir". Məhz bu modernləşmə modeli irrasional formada "özgə" dəyərlərin qəbul edilməsini yox, milli dəyərlərin və xüsusiyyətlərin mühafizə edilməsi ilə milli inkişaf strategiyasının reallaşdırılmasını özündə ehtiva edir. Burada sosial, iqtisadi və siyasi təsisatların yenilənməsi və strukturların modernləşdirilməsi, ictimai-siyasi institutlaşmanın sürətləndirilməsi kimi istiqamətlər xüsusi strateji əhəmiyyət kəsb edən vəzifələr kimi səciyyələndirilir. Nəticə etibarilə, bu cür modernləşmə kursunun müəyyən və tətbiq edilməsi milli inkişaf strategiyasının uğurla icra edilməsinə fundamental töhfələr bəxş edən faktor qismində çıxış edir.*

Siyasi modernləşmənin Azərbaycan təcrübəsinə gəldikdə isə qeyd edə bilərik ki, bu prosesə ölkəmizdə 1995-ci ildən sonra start verilmişdir. Ölkə miqyasında ictimai-siyasi sabitlik təmin edildikdən, "mərkəzdənqaçma" meyilləri neytrallaşdırıldıqdan sonra ümumxalq səsverməsi – referendum vasitəsilə yeni Konstitusiyanın qəbul edilməsinin ardınca ictimai-siyasi təsisatlanma tendensiyasının əsasının qoyulması, təsisatların legitimliyinin təmin edilməsi və subyektlərin fəaliyyət mexanizminə əlverişli şəraitin yaradılması ictimai-siyasi münasibətlər sistemində yeni norma və dəyərlərin bərqərar olunmasını şərtləndirməklə yanaşı, aktual çağırışlara müvafiq surətdə siyasi modernləşmə vəzifəsinin də yerinə yetirilməsini təmin etmiş oldu.

Ölkəmizdə siyasi modernləşməni təmin edən və sürətləndirən

təməl faktorlar sırasına mütəmadi surətdə siyasi-hüquqi islahatların həyata keçirilməsi, ictimai-siyasi və hüquqi institutlaşma tendensiyasının intensivliyinin təmin olunması, siyasi subyektlərin fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılmasına yönəlik struktur isalahatlarının reallaşdırılması və s. aiddir. Xüsusilə də ictimai-siyasi institutlaşma və mütəmadi surətdə həyata keçirilən siyasi-hüquqi islahatlar siyasi sistemin təkmilliyini təmin etməklə yanaşı, siyasi modernləşmə prosesinin də operativlik və effektivliyini təmin edən faktorlar kimi səciyyələndirilir. Bu baxımdan, ölkə miqyasında ictimai-siyasi təsisatların və geniş mənada siyasi partiyaların fəaliyyətinə hüquqi və ictimai-siyasi qaydada əlverişli şəraitin yaradılması institutlaşma tendensiyasının səmərəliliyinə fundamental töhfələr bəxş etməkdədir. Konstitusiyamızda da göstərildiyi kimi, hər kəsin istənilən birlik, eləcə də siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai qurumlar yaratmaq və ya mövcud təşkilata daxil olmaq hüququ var. Siyasi təsisatların spesifik növü kimi siyasi partiyaların mövcudluğu demokratik siyasi sistemin mühüm tərkib elementidir. Lakin geniş siyasi azadlıqların əlamətlərindən biri olan müxtəlif siyasi təmayüllü partiyaların təşəkkülü prosesi 90-cı illərin əvvəllərində xaotik və ifrat hal almışdı. Belə ki, çox qısa bir müddətdə, yəni, iki ilə yaxın vaxt ərzində Azərbaycanda onlarla siyasi partiyanın yaranması nəticəsində meydana çıxan ifrat çoxpartiyalılıq demokratik prinsiplərin bərqərar olmasından daha çox cəmiyyətdaxili parçalanmalardan, o zamankı iqtidarın fəaliyyətindən yaranan kütləvi narazılıqdan xəbər verirdi. Bu məqamda bir vacib məqamı da vurğulamaq lazımdır ki, bu da Yeni Azərbaycan Partiyasının (YAP) yaradılması ilə bağlıdır. Belə ki, digər siyasi partiyalardan fərqli olaraq ölkənin ictimai-siyasi həyatında mühüm hadisə-fenomen olan Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan geniş xalq kütlələrinin iradəsinin ifadəçisinə çevrilməklə cəmiyyətdə mənəvi-ideoloji birliyin təşəkkül tapmasında həlledici rol oynadı. Respublikanın əksər ziyalılarının ciddi dəstəyini qazanan YAP ölkənin ən çətin dövrlərində Azərbaycanın ictimai-siyasi məsələlərinə münasibətdə tutduğu mövqeyi və fəaliyyəti ilə

xalqın maraq və mənafelərinin ifadəçisinə çevrilərək böyük sosial baza toplamaqla nümunəvi siyasi partiya keyfiyyətlərinə sahib oldu.

1993-cü ilin ikinci yarısından etibarən ölkədə sabitliyin yaradılması səylərinin müsbət nəticələr verməsi, cəmiyyətdə siyasi-psixoloji mühitin stabilləşməsi siyasi partiyaların balanslı artımına, prosesin ölkədaxili reallıqlara uyğun, sosial sifariş əsasında gedişatına önəmli təsir göstərdi. Hələ də davam edən bu prosesin indiki mərhələsi barəsində isə onu deyə bilərik ki, Azərbaycanda böyük nüfuza malik aparıcı qüvvə olan bir partiyanın üstünlük qazandığı çoxpartiyalı sistem formalaşıb. Sosial dayağı olmayan, üzvlərinin əksəriyyətini təsisçilərin özlərinin təşkil etdiyi partiyaların isə dünya təcrübəsində də olduğu kimi, siyasi mübarizə şəraitində zamanın süzgəcindən keçə bilməyərək siyasi səhnədən uzaqlaşması tədricən gerçəkləşən qanunauyğun prosesdir.

Bunlarla yanaşı, vətəndaş cəmiyyətinin struktur elementi kimi səciyyələndirilən ictimai birliklərin fəaliyyətinə əlverişli şəraitin yaradılması və bu sahədə kardinal keyfiyyət dəyişikliklərinə nail olunması da siyasi modernləşmə kursunun başlıca strateji istiqamətlərindən biri kimi səciyyələndirilir. Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu istiqamətində bu sahəyə xüsusi qayğı göstərilməkdə və mühüm nailiyyətlər əldə edilməkdədir. Ölkəmizdə demokratik cəmiyyətin mühüm atributlarından biri kimi çıxış edən, vətəndaş cəmiyyətinin formalaşmasında təsirli rola malik olan qeyri-hökumət təşkilatlarının (QHT) yaranması və inkişafına dövlət xüsusi diqqət ayırır. Dövlət qeydiyyatından keçmiş minlərlə QHT-nin mövcudluğu ölkədə sərbəst ictimai fəaliyyətin təmin olduğunu göstərən faktorlardandır. Vətəndaşların hüquqi, siyasi, peşə və digər sahələrdə məlumatlanmasında, maariflənməsində, cəmiyyəti narahat edən müxtəlif problemlərin aradan qaldırılmasında QHT-lərin potensialını düzgün dəyərləndirən dövlət bu sektorun inkişafı üçün lazım olan hüquqi baza və maliyyə dəstəyini təmin edir. Gənclər, uşaq, insan hüquqları, təhsil, xeyriyyə, mədəni, ekologiya, idman və digər sferalarda fəaliyyət göstərən QHT-lərin gördüyü işlərə sıravi vətəndaşların cəlb olunması sosial nəzarət, cəmiy-

yətin ictimai məsələlərdə aktiv iştirakı mexanizmlərini təkmilləşdirir. QHT-lərin ictimai proseslərdə iştirakında maraqlı olan dövlət ictimai birliklərin fəaliyyətinə hər cür şərait yaradır, eyni zamanda, QHT-lər tərəfindən irəli sürülən bir çox layihələri maliyyələşdirir. Təsadüfi deyil ki, ölkədə son illərdə bir sıra dövlət orqanları öz fəaliyyətini ictimai birliklərlə sıx əlaqəli şəkildə qurub. Demokratik inkişaf yolunu seçən bir ölkə kimi Azərbaycanda müxtəlif yönümlü, təmayüllü  siyasi partiyaların, ictimai təşkilatların azad fəaliyyəti, senzuranın ləğvi və digər istiqamətlərdə mütərəqqi addımlar sayəsində yeni dövrün tələblərinə uyğun ictimai-siyasi institutlaşma uğurla həyata keçirilir.

Beləliklə, 1993-cü ildən bu günədək görülən rasional və praqmatik işlərin nəticəsi kimi qeyd edə bilərik ki, həyata keçirilən islahatlar nəticəsində ictimai-siyasi münasibətlər sistemində mühüm keyfiyyət dəyişiklikləri baş verdi. Məhz bu cür kardinal keyfiyyət dəyişiklikləri və sistematik təşəkkülün fonunda siyasi plüralizm, fikir və söz azadlığının təmin olunması siyasi sistemin elementlərinin təkmilləşməsinə təkan verdi. Daim demokratik normalarla təsbit edilmiş hüquq və azadlıqların təmin olunması, siyasi plüralizm, söz, fikir və özünüifadə azadlığının təşəkkül tapması yönündə yorulmaz fəaliyyət göstərən Ulu öndər Heydər Əliyev bununla əlaqədar demişdir: **"Müstəqil Azərbaycanda demokratiya cəmiyyət və dövlət həyatının bütün sahələrini əhatə etməlidir. Siyasi plüralizmə geniş yer verilməli, qanunların pozulmasının qarşısı alınmalı, ölkə demokratik prinsiplər əsasında idarə olunmalıdır. Əmin olmalısınız ki, mən bu yola həmişə sadiq qalacağam".**

Nəticə etibarilə,  1993-cü ilin iyunundan sonra başlayan struktur islahatlarla əsası qoyulan ictimai-siyasi institutlaşma və siyasi sistemin mütəmadi təkmilləşdirilməsi prosesinin bu günədək uğurla davam etdirilməsi bərqərar olunmuş siyasi plüralizmin və demokratik azadlıqların davamlı xarakter almasını şərtləndirdi. Siyasi qurumların legitimləşdirilməsi və müxtəlif ideoloji oriyentasiyalara malik olan siyasi subyektlər arasında konstruktiv münasibətlərin formalaşmasına xüsusi şərait yaradan əlverişli mühitin yaradıl-

ması siyasi plüralizmin əsaslarının möhkəmlənməsinə təkan verən ilk amil oldu. Daha sonra siyasi səhnədə təmsil olunan aktorlara bərabər imkanların yaradılması – real mübarizə imkanlarının formalaşdırılması siyasi plüralizmin ardıcıl səciyyə daşımasına mühüm töhfələr bəxş etdi. Bütün bunlar isə nəticə etibarilə siyasi sosiallaşma və siyasi iştirakçılığı artırmaqla yanaşı, subyektlərarası inteqrasiya, rəqabət və uzlaşmanı gücləndirən təməl faktorlar qismində çıxış etdi. Təbii ki, belə bir mühitdə siyasi aktorların funksionallığı daha da artdı və rasional münasibətlər şəbəkəsi təşəkkül tapdı.

Siyasi plüralizmin bərqərar olunması digər demokratik hüquq və azadlıqların da təmin edilməsinə xüsusi şərait və imkan yaratdı. Ən başlıcası isə, söz və özünüifadə azadlığının təşəkkül tapması və mütəmadi olaraq, təmin edilməsi bu baxımdan xüsusi dəyərə malikdir. Mövcud azadlıqların fonunda siyasi mənsubiyyətindən asılı olmayaraq bütün subyektlərə söz, fikir və özünüifadə azadlığının verilməsi və onun qanuni əsasda mühafizə edilməsi ictimai-siyasi tarazlıq, inkişaf və bütövlüyü təmin edən təməl ideoloji faktor qismində çıxış etdi. Məhz bütün bunların fonunda ideoloji-siyasi oriyentasiyasından asılı olmayaraq, bütün media qurumlarına sağlam rəqabət şəraitində sərbəst fəaliyyət imkanının yaradılması söz, fikir və özünüifadə azadlığının yeni ictimai dəyərlər yaradan faktorlar rolunda çıxış etməsini şərtləndirdi.

Nəticədə, görülən rasional və praqmatik tədbirlərin fonunda əldə edilən əhəmiyyətli nailiyyətlər yüksək siyasi mədəniyyətin formalaşmasına və tərəqqisinə fundamental töhfələr bəxş etmiş oldu.

Beləliklə, Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən müasir tələblərə, reallıqlara və qanunauyğunluqlara müvafiq surətdə davam etdirilən mütəmadi demokratikləşmə kursunun effektiv nəticəsi kimi, bu gün Azərbaycanda təmin edilmiş siyasi plüralizm şəraiti cəmiyyətdə kardinal keyfiyyət dəyişikliklərini təmin edən xüsusi mexanizm kimi dəyərləndirilir. Bütün bunlar isə onu deməyə əsas verir ki, Azərbaycan demokratiya yolunda inamla irəliləyir. Prezident İlham Əliyevin

qeyd etdiyi kimi: **“Biz Ulu öndərin müəyyən etdiyi demokratik prinsiplərə daim sadiqlik nümayiş etdirməklə Azərbaycanın daha böyük nailiyyətlər qazanmasına nail olacağıq”.**

Bütün bunlarla yanaşı, milli-mənəvi dəyərlərin mühafizə edilməsi və təkmil normalarla zənginləşdirilməsi də milli inkişaf strategiyasının uğurluluğunu təmin etməklə yanaşı, modernləşmə kursunun da səmərəlilik səviyyəsini artırmış oldu. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev "Modernləşmə xətti yenə də gündəlikdədir" sərlövhəli yazısında bu məsələni əhatəli şəkildə təhlil edib. Müəllif yazır ki, geosiyasi oriyentirlərin dəyişməsi nəticəsində transformasiya cəmiyyətlərində kommunizmin ideoloji baxışlarını inkişaf etmiş cəmiyyətlərin Qərbdə işlənib hazırlanmış və sürətlə tətbiq edilən ideoloji konsepsiyaları – konservatizm, liberalizm, sosial-demokratiya, onların ən yeni versiyaları və birləşmələri əvəzləməyə başladı: "**Bəzi cəmiyyətlərdə həmin konsepsiyalar asanlıqla mənimsənilir, digərlərində isə ictimai, siyasi və iqtisadi zəmin tapmayaraq, bu və ya digər sosiumun ənənəvi qaydalarına müvafiq olaraq əriyib itirdi. Hətta belə fikirlər də yaranmağa başlamışdı ki, Qərbin ideoloji konseptləri ənənəvi cəmiyyətlərə yabançıdır və bu cəmiyyətlər yalnız özlərinin xüsusi, ənənəvi inkişaf yolları əsasında tərəqqi edəcəkdir. Bizdə isə Azərbaycan mühiti üçün hələ də yabançı olan sosial-demokratik, konservativ və liberal ideyaları dərhal milli siyasi məkanda tətbiq etməyə cəhd göstərməyə başladılar. Lakin təcrübədə çox tez aydın oldu ki, dağılmaq həddinə çatmaq, iqtisadiyyatında durğunluq hökm sürən, siyasi hərc-mərclik şəraitində olan dövlət üçün idxal edilən ideoloji konsept barədə müəyyən qərara gəlmək çətindir, xüsusən ona görə ki, bu dövlət özünün çox uğursuz ideoloji zorakılıq təcrübəsindən yenicə ayrılmışdır. Bu və ya digər ideoloji konsepsiyanın milli məkanda işləyə bilməsi, Azərbaycanda bu və ya başqa konseptlərin və ideyaların tətbiq edilməsinə minimum imkan yaranması üçün illərlə vaxt lazım idi**".

Yeni cəmiyyətlərdə analoji problemlərin yaşandığını bilən

Ümummilli lider Heydər Əliyev demişdir: "**Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir**".

Nəticə etibarilə, milli inkişafın mənəvi və ideoloji substratlarına dərindən bələd olan Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi praqmatik strategiya sayəsində milli-mənəvi dəyərlərin mühafizəsi və mütərəqqi normalarla zənginləşməsinə nail olundu. Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə bu missiyanın reallaşdırılması yönündə strategiya hazırlandı və onun sistemli şəkildə reallaşdırılması prosesi uğurla həyata keçirildi. Milli-mənəvi dəyərlərimizin daha geniş miqyasda təbliği, ölkəmizin iştirakçısı olduğu sivilizasiyalararası dialoqun formalaşdırılması və inkişaf etdirilməsi, Azərbaycandakı milli azlıqların – müxtəlif xalqların nümayəndələrinin milli həmrəylik şəraitində inteqrasiyaya cəlb olunması mövcud strategiyanın praktik olaraq ana ünsürlərini təşkil edirdi.

Bu gün isə məlum strategiya və siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə, qanunauyğunluqlarına və reallıqlarına müvafiq surətdə modernləşdirilmiş formada davam etdirilir. Hakimiyyətin həyata keçirdiyi iqtisadi, sosial, hüquqi və mədəni siyasətin səmərəli nəticələri bütövlükdə milli-mənəvi dəyərlərimizin də inkişafına, qorunmasına, təbliğinə xüsusi stimul və təkan verir. Xüsusilə də, uzaqgörənliklə müəyyənləşdirilmiş dərin iqtisadi strategiyanın uğurla reallaşdırılmasının mənəvi-ideoloji sahənin inkişafına verdiyi töhfələr strateji mənada yüksək səviyyədə dəyərləndirilməlidir. Yəni bu iki sahə bir-birinin inkişafını təmin edən və tamamlayan vahidin ayrılmaz hissələri kimi çıxış edir. Prezident İlham Əliyevin milli həmrəylik və bütövlüyə yönəlik həyata keçirdiyi rasional ideoloji kurs milli-mənəvi dəyərlərin mühafizəsinə və zənginləşməsinə mühüm töhfələr bəxş etməklə yanaşı, modernləşmə kursunun da effektivlik səviyyəsini artırmış oldu. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: “**Bizim bütün bu tarixi keçmişimiz və milli dəyərlərimiz lazımi səviyyədə qorunur və bununla bərabər, müasir şərait, müasir infrastruktur yaradılır**”.

*Mən bir prezident kimi bu gün həm bizim qanunun tətbiq olunmasının təminatçısı kimi çıxış edirəm, həm də hər bir vətəndaşın hüquqlarının, xüsusən seçki prosesində onların hüquqlarının təmin olunmasının təminatçısı kimi çıxış edirəm*

***Ulu öndər Heydər Əliyev***

***

*Rəyin başlıca meyarı xalqdır. Əgər xalq ölkədəki vəziyyətdən razıdırsa, o, həyata keçirilən siyasəti dəstəkləyirsə, deməli, bu siyasət düzgündür. Bəlkə də, bir qədər sadə yanaşmadır, ancaq hesab edirəm ki, bu, bütün mövcud və mümkün olan meyarlardan ən düzgünüdür. Prezident kimi mənim üçün məhz xalqın nə düşündüyü daha vacibdir*

***Prezident İlham Əliyev***

# X FƏSİL

# MÜSTƏQİL AZƏRBAYCANDA SEÇKİ TƏCRÜBƏSİ: HÜQUQİ-SİYASİ ƏSASLARI, GÖSTƏRİCİLƏR, MÜQAYİSƏLƏR VƏ NƏTİCƏLƏR

## 10.1. Seçki institutu demokratik siyasi sistemin mühüm struktur elementi kimi: nəzəri-empirik əsaslar və təcrübi göstəricilər

Demokratik idarəetmə sisteminin mühüm institutlarından və institusional mexanizmlərindən biri də seçkilərdir. Siyasi sistemin struktur elementi kimi səciyyələndirilən seçkilər xalqın ümumi iradəsinin ifadə forması olmaq etibarilə nümayəndəli orqanların formalaşmasını, bir sıra ali dövlət vəzifələrinin tutulmasını təmin edən  və sosiumda siyasi iştirakçılıq və sosiallaşma səviyyəsini kəmiyyət və keyfiyyət etibarilə artıran institusional mexanizm qismində çıxış edir. Dünya təcrübəsindən bəllidir ki, siyasi idarəetmənin səciyyəsindən və rejimin tipindən asılı olmayaraq, demək olar ki, bütün ölkələrdə və cəmiyyətlərdə bu və ya digər strukturlara seçki təcrübəsi və proseduru mövcuddur. Amma təkmil siyasi sistemin mövcud olmadığı, yəni rəqabətə əsaslanan siyasi plüralizmin və yüksək siyasi iştirakçılığın, sosiallaşmanın hökm sürmədiyi cəmiyyətlərdə seçki institutu formal mexanizm kimi çıxış edir və siyasi sistemin struktur elementlərinin təkmilləşməsinə heç bir töhfə bəxş etmir. Demokratik idarəetmə sisteminin və rasional münasibətlərin mövcud olduğu cəmiyyətlərdə isə seçkilər milli münasibətlər zəminində ümumi iradənin təzahür forması olmaq etibarilə institusional təşəkkül mənbəyi kimi çıxış edir. Daha da dəqiqləşdirsək, seçki institutu sosiumda nümayəndəli orqanların formalaşmasını təmin edən, ümumi iradənin obyektiv təzahürü kimi çıxış edən və institusional müstəvidə müəyyən qədər tənzimləmə funksiyasını yerinə yetirən təsisat səciyyəsi daşıyır.

Elmi ədəbiyyatda seçkilərin demokratikliyini təmin edən 2 baş-

lıca meyar fərqləndirilir:

– ***Alternativlik***: *aktiv seçki hüququna malik olanlar – seçicilər seçkilər prosesində siyasi mübarizə aparan namizədlərdən istədiklərinə səs verə və öz mövqelərini azad formada ifadə edə bilərlər. Daha da dəqiqləşdirsək, siyasi plüralizmin hökm sürdüyü cəmiyyətlərdə siyasi iştirakçılıq və aktivlik yüksək səviyyədə olduğundan vətəndaşlar səsvermə prosesində müxtəlif təmsilçilər arasında sərbəst seçim edə bilirlər;*

– ***Seçki kampaniyasının mövcud qanunvericiliyə müvafiq surətdə keçirilməsi***: *bunun üçün ilk növbədə, təkmil və zəngin qanunvericilik bazasının formalaşdırılması, daha sonra isə seçkilərin demokratikliyini təmin edəcək institusional aktorların bərqərar olunmasını təmin etmək lazımdır. Əgər seçki qanunvericiliyi tam və adekvatdırsa, eyni zamanda, qanunvericilikdə öz əksini tapmış məsələ və vəzifələr aidiyyəti strukturlar tərəfindən yüksək səviyyədə yerinə yetirilibsə, bu zaman seçkilərin demokratikliyindən bəhs etmək və onu ümumi iradənin ifadəsi kimi səciyyələndirmək olar.*

Təcrübədə seçkilər əhatə dairəsi və təsir səviyyəsinə görə ümummilli və lokal olmaq etibarilə iki qrupda təsnif edilir. Ümummilli seçkilərə daha çox prezident və parlament seçkiləri aid edilir ki, bunların da mövcud çağırışlara, qanunauyğunluqlara və reallıqlara müvafiq surətdə baş tutması siyasi sistemin başlıca komponenti və təkmilləşmə mənbəyi kimi səciyyələndirilir. Bundan başqa, bir sıra yerli nümayəndəliklərə (məsələn, bələdiyyələrə) keçirilən seçkiləri də qeyd etmək olar ki, bunlar da lokal seçki kateqoriyasına aid edilir.

Bunlarla yanaşı, seçki praktikasında baş tutma səciyyəsi və keçirilmə mərhələlərinə görə seçkilər növbəti, növbədənkənar və əlavə olmaqla üç qrupda təsnif edilir. Növbəti seçkilər müvafiq qanunlar və qanunverici aktlarla təsbit edilmiş müddətdə konkret nümayəndəliklərə keçirilir və onun nəticələri ümummilli səciyyə daşımaqla ən yüksək səviyyədə təsbit edilir. Növbədənkənar seçkilər isə fəaliyyətində mövcud qanunvericiliyə və siyasi sistemə münasibətdə ciddi çatışmazlıqların yarandığı və funksionallığını davam

etdirə bilməyən nümayəndəliklərə öz səlahiyyət müddətini başa vurmadan keçirilir və onun nəticələri həmin qurumları yenidən formalaşdırır.

Müasir konstitusiyalarda və buna müvafiq surətdə qəbul edilmiş seçki qanunlarında vətəndaşların ümumi və bərabər qaydada gizli səsvermə yolu ilə seçkilərdə iştirak hüququ təsbit edilir. Ümumi seçki hüququ dedikdə qanunla müəyyən edilmiş yaşa çatmış şəxsin – vətəndaşın özünün aktiv və passiv seçki hüququndan istifadə etmək hüququnun olması nəzərdə tutulur. Seçkilərdə bərabərlik prinsipi isə vahid təmsilçilik normasının təmin edilməsi ilə səciyyələndirilir. Bütövlükdə seçki hüququ nümayəndəli dövlət orqanlarının və strukturların formalaşma və təşkili qaydalarını tənzimləyən hüquqi normalar sistemi kimi səciyyələndirilir.

Bunlardan başqa, seçki institutunun mühüm komponentlərindən birini də seçki sistemləri təşkil edir. Seçki sistemi seçkilərin keçirilmə qaydası və formasını özündə ehtiva və təsbit etməklə siyasi sistemin seçki təsisatının texnoloji əsasını təşkil edir. Dünya təcrübəsində seçki sistemlərinin 3 forması fərqləndirilir:

– **Majoritar seçki sistemi**: təkmil siyasi sistemə sahib olan bir çox inkişaf etmiş ölkələrdə majoritar seçki sistemindən istifadə edilməkdədir. Bu sistem çərçivəsində keçirilən seçkilər ərəfəsində ölkənin inzibati ərazi vahidləri üzrə birmandatlı seçki dairələri təşkil edilir və hər seçki dairəsindən bir namizədin təmsilçi hüququ və statusu qazanması nəzərdə tutulur. Qısacası, majoritar seçki sistemində səs çoxluğu prinsipi əsas götürülməklə səsvermənin nəticələrinə müvafiq olaraq daha çox səs toplayan qalib hesab edilir. Səs çoxluğu isə mütləq və nisbi olmaq etibarilə iki kateqoriyada təsnif edilir. Mütləq səs çoxluğu dedikdə qalib statusu əldə etmək üçün seçicilərin səsinin yarıdan çoxunun (50+1) toplandığı sistem nəzərdə tutulur. “Mütləq səs çoxluğu” prinsipinə əsaslanan majoritar seçki sistemində seçkilərin nəticəsində heç bir namizəd səslərin “50+1” faizini toplaya bilmirsə, bu zaman seçkilərin ikinci mərhələsi təşkil edilir ki, bu mərhələyə ilk mərhələdə ən çox səs toplamış iki namizəd buraxılır. Bu mərhələdə ən çox səs toplamış namizəd

qalib statusu əldə edir. “Nisbi səs çoxluğu”na əsaslanan sistemdə isə ən çox səs toplamış şəxs nümayəndəli orqanda təmsilçilik hüququ qazanır. Majoritar seçki sistemində aktiv seçki hüququndan istifadə edənlər – seçicilər səs verdikləri və seçdikləri namizədi bilavasitə tanıyır və onunla seçki prosesinin müxtəlif mərhələlərində təmasda olurlar. Nəticə etibarilə, seçicilər majoritar seçki sisteminin fonunda həm rasional seçim edirlər, həm də sonradan problemlərin həllinə, qanunvericilik prosesinin praqmatik surətdə təşkil edilməsinə mühüm töhfələr bəxş edirlər;

– **Proporsional seçki sistemi**: bu seçki sistemində ölkədə inzibati ərazi vahidləri üzrə çoxmandatlı seçki dairələri təşkil edilir və hər seçki dairəsindən müxtəlif partiyalardan olan bir neçə namizəd nümayəndəli orqanda təmsil olunmaq hüququ qazanır. Başqa sözlə, seçicilər konkret şəxsə yox, siyasi partiyaların namizədlər siyahısına səs verirlər. Siyasi partiyalar seçkilərin nəticələrinə müvafiq olaraq ümumi səslərin proporsiyasında qazandıqları faizlərə müvafiq olaraq nümayəndəli orqanda yer qazanırlar. Proporsional seçki sistemində parlamentdə keyfiyyət tərkibinin formalaşdırılması üçün “seçki səddi”ndən istifadə edilir. “Seçki səddi” dedikdə partiyaların topladıqları səs faizləri nəzərdə tutulur. “Seçki səddi” müxtəlif ölkələrdə 1-20 faiz arasında olur;

– **Qarışıq seçki sistemi**: bu sistemdə həm majoritar, həm də proporsional seçki sisteminin bəzi komponentləri əks olunmuşdur. Qarışıq seçki sistemində yuxarıda sadalanan hər iki sistemdən hansılarının komponentlərindən daha çox istifadə edilməsi ölkədən ölkəyə fərqli formada təzahür olunur.

## 10.2. Azərbaycanda seçki institutu: hüquqi əsasları, spesifikası və struktur elementləri

Müasir, müstəqil Azərbaycan Respublikasının demokratik transformasiya probleminin mühüm struktur elementlərindən biri də seçki institutu, onun formalaşma və təşəkkül mərhələləri və

spesifik səciyyəsidir. Müstəqillik əldə etdikdən sonra ölkəmizin qarşısında duran qeyri-formal milli dövlət və modern cəmiyyət quruculuğu vəzifəsinin fonunda xüsusi önəm kəsb edən məsələlərdən biri də demokratik transformasiya prosesinin əsasının qoyulması və buna paralel olaraq siyasi sistemin formalaşdırılması idi. Amma müstəqilliyin ilk iki ilində (1991-1993) ölkəyə rəhbərlik edən səriştəsiz qüvvələrin irrasional təfəkkürü və qeyri-praqmatik fəaliyyəti nəticəsində nəinki siyasi sistemin bərqərar olunmasına nail olmaq mümkün olmadı, hətta ölkədə sabitlik belə təmin edilə bilinmədi. Nəticə etibarilə, demokratik transformasiya probleminin əsası qoyulmadığından və siyasi sistemin struktur elementləri bərqərar olunmadığından təkmil seçki institutunun da formalaşdırılması mümkün olmadı. Belə ki, 1991-ci il sentyabrın 8-də və 1992-ci il iyunun 7-də formal surətdə baş tutmuş prezident seçkiləri təyinat xarakteri daşıdı və demokratik səciyyəli seçki institutunun formalaşması işinə heç bir töhfə bəxş etmədi.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlişindən sonra əsası qoyulan qeyri-formal milli dövlət və modern cəmiyyət quruculuğu prosesinin fonunda demokratik transformasiya vəzifəsinin yerinə yetirilməsi istiqamətində fundamental strateji tədbirlər görüldü ki, bunlardan biri də demokratik seçki institutunun formalaşdırılması oldu. 3 oktyabr 1993-cü il tarixində keçirilən növbədənkənar prezident seçkiləri baş tutma səviyyəsi və ehtiva etdiyi təməl komponentləri ilə demokratik seçki institutunun formalaşmasının başlanğıcı oldu. Bununla da demokratik seçki ənənəsinin əsası qoyuldu və zaman keçdikcə seçki institutunun sürətlə və mütəmadi qaydada təkmilləşməsi müşahidə edildi. Doğrudur, həmin ərəfə olduqca mürəkkəb siyasi-hüquqi kataklizmlərlə müşahidə olunurdu və müstəqilliyin ilk iki ilində ölkəyə rəhbərlik etmiş şəxslərin irrasional fəaliyyəti fonunda ortaya çıxmış dağıdıcı proseslər demokratik seçki institutunun formalaşmasına böyük əngəl idi. Amma Ulu öndər Heydər Əliyevin praqmatik strategiyası sayəsində bölücü meyillərin, “mərkəzdənqaçma” tendensiyalarının neytrallaşdırılması yönündə əhə-

miyyətli tədbirlərin görülməsi, subyektlərarası sürüşkən müstəvidə cərəyan edən antaqonist əlaqələrin ortaya çıxardığı kataklizmlərin və milli münasibətlər zəminində ortaya çıxmış deviasiyaların aradan qaldırılması kimi faktorlar demokratik seçki institutu və ənənəsinin formalaşmasını təmin edən real zəmin oldu.

Bütün bu strateji tədbirlərin və nailiyyətlərin fonunda demokratik seçki institutunun formalaşmasının hüquqi substratlarının bərqərar olunması yönündə də fundamental tədbirlər görüldü. Belə ki, 12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi – referendum vasitəsilə qəbul edilmiş Konstitusiya hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu vəzifəsinin hüquqi əsaslarını təşkil etməklə yanaşı, demokratik transformasiya vəzifəsinə müvafiq olaraq seçki institutunun da qeyri-formal surətdə təşəkkül tapması işinə mühüm töhfələr bəxş etdi. **Bundan sonra ardıcıl olaraq siyasi-hüquqi islahatların həyata keçirilməsi, zəngin qanunvericilik bazasının formalaşdırılması istiqamətində fundamental tədbirlərin görülməsi, beynəlxalq təşkilatlarla müvafiq sahədə əməkdaşlığın həyata keçirilməsi və beynəlxalq standartlara uyğun milli seçki sisteminin formalaşdırılması demokratik seçki təsisatının təkmilləşməsi işinin operativliyini və effektivliyini təmin etmiş oldu.** Belə ki, 1997-ci ildən başlayaraq seçki qanunvericiliyinin təsis edilməsi məqsədilə ölkəmiz milli maraqlar və dəyərlər əsasında ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu ilə əməkdaşlıq etməyə başladı. Bundan sonra müvafiq məsələ və prosedurlar üzrə beynəlxalq təşkilatlarla mütəmadi qaydada əməkdaşlıq edildi. Qarşılıqlı-faydalı maraqlara və əsaslara söykənən əməkdaşlıq münasibətləri beynəlxalq standartlara cavab verən milli qanunvericiliyin formalaşdırılması və təkmilləşdirilməsi işinə əhəmiyyətli töhfələr verdi.

Beləliklə, siyasi sistemin mühüm struktur elementi kimi səciyyələndirilən seçki institutunun təkmilləşməsi məsələsi özündə hüquqi substratları ehtiva edən qanunvericilikdə də əks olundu. Konstitusiyaya müvafiq surətdə 27 may 2003-cü il tarixində Azərbaycan Respublikasının Seçki Məcəlləsinin qəbul edilməsi bəhs

edilən vəzifələrin yerinə yetirilməsində əhəmiyyətli amil kimi çıxış etdi. Bununla da seçki prosedurunun hüquqi substratları möhkəmlənmiş oldu.

Seçki Məcəlləsində qeyd edilir ki, Azərbaycan Respublikasının dövlət hakimiyyətinin əsasını Azərbaycan xalqının iradəsi təşkil edir. **Azərbaycan xalqının iradəsi ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə azad və mütəmadi keçirilən seçkilərdə, habelə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə keçirilən ümumxalq səsverməsində – referendumda öz təzahürünü tapır. Azərbaycan dövləti Azərbaycan Respublikası vətəndaşlarının iradəsinin azad ifadə edilməsinə seçki hüququnun prinsip və normalarının müdafiə edilməsi yolu ilə təminat verir**. Bu Məcəllə Azərbaycan Respublikası parlamentinin – Milli Məclisin deputatlarının, Azərbaycan Respublikası Prezidentinin və bələdiyyə seçkilərinin, həmçinin, ümumxalq səsverməsinin – referendumun təşkili və keçirilməsi qaydalarını müəyyən edir.

Seçki Məcəlləsi özündə ehtiva etdiyi prinsip və müddəalar baxımından seçki təsisatının təkmilləşməsini təmin edən hüquqi institut qismində çıxış edir. Məcəllədə seçki hüququ (aktiv və passiv seçki hüququ), seçki hüququnun təminatı və məhdudiyyətlər, namizədlərin irəli sürülməsi zamanı onların bərabər statusunun təmin edilməsi, namizədlərin müdafiəsi üçün seçici imzalarının toplanması şərtləri, seçkilərin keçirilmə mexanizmləri, təşkili qaydaları və vasitələri, prezident və parlament institutuna və yerli idarəetmə orqanına (bələdiyyələrə) keçirilən seçkilərin təşkili qaydaları, spesifikası kimi məsələlər əks olunmuşdur.

Məcəllədə seçki hüququ kateqoriyası altında bunlar nəzərdə tutulur: Azərbaycan Respublikası Milli Məclisinin deputatlarını, Azərbaycan Respublikasının Prezidentini, bələdiyyələrə üzvləri seçmək və həmin orqanlara, Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilmək hüququ, o cümlədən namizədlərin irəli sürülməsində, seçkiqabağı (referendumqabağı) təşviqatda, seçki (referendum) komissiyalarının işində, seçkilərin (referendumun)

keçirilməsinin müşahidəsində (seçkilərin (referendumun) nəticələrinin müəyyən edilməsi də daxil olmaqla), səsvermədə, digər seçki (referendum) hərəkətlərinin həyata keçirilməsində iştirak etmək; Azərbaycan Respublikası vətəndaşlarının seçkilərdə və referendumda iştirakı azad və könüllüdür. Seçkilərdə və ya referendumda iştirak edib-etməməyə məcbur etmək məqsədi ilə heç kəsin Azərbaycan Respublikası vətəndaşına təzyiq göstərmək hüququ yoxdur və heç kəs onun öz iradəsini azad ifadə etməsinə mane ola bilməz. **İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və ya digər statusundan asılı olmayaraq Azərbaycan Respublikası vətəndaşlarının seçmək, seçilmək və referendumda iştirak etmək hüququ vardır**.

Seçki Məcəlləsinə müvafiq olaraq, ümummilli və lokal səciyyəli seçkilər Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən təşkil edilir. MSK-nın tərkibi 18 üzvdən ibarətdir və onlar Milli Məclis tərəfindən seçilir. Mərkəzi Seçki Komissiyasının 6 üzvü deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı, 6 üzvü heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) və onların namizədliklərini təqdim edən deputatları, 6 üzvü deputatları Milli Məclisdə azlıq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyaları təmsil edir. Müstəqil deputatları Mərkəzi Seçki Komissiyasında namizədlikləri onlar tərəfindən irəli sürülmüş müstəqil, dövlət qulluğunda olmayan, bir qayda olaraq, hüquqşünaslar təmsil edirlər. 2 namizəd maraqlı tərəflərlə razılaşdırılır: bir namizəd Milli Məclisdə çoxluq təşkil edən siyasi partiyanın nümayəndələri ilə, digər namizəd isə deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaların nümayəndələri ilə razılaşdırılır. Mərkəzi Seçki Komissiyasının üzvləri ali təhsilli olmalıdırlar.

Beləliklə, nəzər saldığımız məsələ, müddəa və prinsiplər deməyə əsas verir ki, Azərbaycanda seçki institutu mükəmməl və təkmil

qanunvericilik bazasına və hüquqi substratlara söykənir. Eyni zamanda, mütəmadi surətdə mövcud qanunauyğunluqlara və tələblərə müvafiq olaraq qanunvericilik bazasının zənginləşdirilməsi yönündə görülən tədbirlər – Seçki Məcəlləsinə əlavə və dəyişikliklərin edilməsi, müvafiq normativ hüquqi aktların qəbul edilməsi və s. seçki institutunun təkmillik səviyyəsini artıran faktor qismində çıxış edir.

Müstəqillikdən sonra Azərbaycanda seçki təcrübəsini araşdırarkən toxunulmalı olan xüsusi məsələ və istiqamətlərdən biri də ölkəmizdə tətbiq edilən seçki sistemləridir. Seçki sisteminin səciyyəsi bu institutun təkmillik səviyyəsini göstərən institusional mexanizm qismində çıxış edir. Məlum olduğu kimi, müstəqillikdən sonra ölkəmizdə qarışıq seçki sistemindən istifadə olunurdu. Bu, 12 noyabr 1995-ci il konstitusiyasında təsbit edilmişdi. 12 noyabr 1995-ci il tarixində Milli Məclisə keçirilən seçkilər 100 nəfərin majoritar, 25 nəfərinsə proporsional qaydada təmsilçilik statusu qazanması proporsiyasında baş tutdu. Amma 24 avqust 2002-ci il tarixində keçirilmiş ümumxalq səsverməsi – referendum nəticəsində qarışıq seçki sistemindən imtina edildi və ümummilli və lokal səciyyəli seçkilərdə majoritar sistemin tətbiqi variantı yekdilliklə qəbul olundu. Sonradan baş tutmuş seçkilərin səciyyəsi və əldə olunan nəticələrin spesifikası göstərdi ki, majoritar seçki sisteminin tətbiqi seçki institutunun təkmilləşməsinə mühüm töhfələr verdi. Bu sistemin tətbiq edilməsi sayəsində ölkədə qüvvələr nisbətində balans yaradıldı, parlamentdə sosial bazası daha geniş olan və daha praqmatik fəaliyyət mexanizminə malik olan siyasi partiyalar təmsil olundu və üstünlük qazandı, siyasi palitrada əhəmiyyətli təsir və nüfuz imkanlarına malik olmayan siyasi partiyalar sosial reytinqlərinin aşağı olması səbəbilə qanunverici orqanda təmsil oluna bilmədilər və s.

**Dünya təcrübəsindən də bəllidir ki, majoritar seçki sistemi siyasi palitrada qüvvələrarası rəqabəti gücləndirən institusional faktor qismində çıxış edir. Belə ki, daha sabit siyasi siste-**

**min formalaşdırıldığı demokratik ölkələrdə majoritar seçki sistemindən istifadə edilməkdədir. ABŞ və Böyük Britaniyanın siyasi sistemi buna nümunə kimi göstərilə bilər. Nəticə etibarilə, majoritar seçki sisteminə istinad siyasi sistemin struktur elementlərini təkmilləşdirməklə yanaşı, təsisatların demokratikliyinin təmin olunmasına və siyasi palitrada təmsil olunan subyektlərin fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılmasına fundamental töhfələr bəxş edən strateji seçimdir. Bu baxımdan, Azərbaycan siyasi palitrasında rəqabətə əsaslanan plüralist mühitin davamlılığının təmin olunması, siyasi subyektlərin fəaliyyət mexanizminin effektivliyinin artırılması, siyasi sistemin komponentlərinin mütəmadi qaydada təkmilləşdirilməsi üçün majoritar seçki sisteminin tətbiqi ən məqbul variantdır**.

### 10.3. Müstəqillikdən sonra Azərbaycanda prezident seçkiləri təcrübəsi analitik tədqiqat obyekti kimi: reallıqlar və nəticələr

Müstəqillikdən sonrakı siyasi tariximizin mühüm səhifələrindən birini əks etdirən seçki təcrübəsinin istiqamət və göstəricilərindən birini də Konstitusion əsasda təsbit olunmuş və dövri aralıqla 5 dəfə baş tutmuş prezident seçkiləri təşkil edir. Məlum olduğu kimi, Konstitusiyada (6-cı fəsil, 100-cü maddə) Azərbaycan Respublikasının Prezidentliyinə namizədlərə aid tələblər dəqiq surətdə müəyyənləşdirilmişdir. Konstitusiyaya əsasən, yaşı 35-dən aşağı olmayan, Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, o cümlədən ağır cinayətə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikasının Prezidenti seçilə bilər. Konstitusiyanın 101-ci maddəsində ehtiva olunan 6 bənd Azərbaycan Respublikası Prezidenti seçkilərinin əsaslarını təsbit edir:

**I.** Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında, sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir;

**II.** Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir;

**III.** Bu səs çoxluğu səsvermənin birinci dövrəsində toplanmayıbsa, səsvermə günündən sonra ikinci bazar günü səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə ancaq birinci dövrədə ən çox səs toplamış iki namizəd, yaxud ən çox səs toplamış və öz namizədliyini geri götürmüş namizədlərdən sonra gələn iki namizəd iştirak edir;

**IV.** Səsvermənin ikinci dövrəsində səs çoxluğu toplayan namizəd Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır;

**V.** Müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsini mümkün etmədikdə, Azərbaycan Respublikası Prezidentinin səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə qərar seçkilərin (referendumun) keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilir;

**VI.** Bu maddənin tətbiqi qaydası qanunla müəyyən edilir.

Göründüyü kimi, Konstitusiyada Azərbaycan Respublikası Prezident seçkilərinin hüquqi əsasları dəqiqliklə müəyyən olunub və bunlar demokratik seçkilərin keçirilməsini təmin edən hüquqi substrat səciyyəsi daşıyır. Bunun nəticəsidir ki, Prezident seçkilərinin demokratikliyini təmin edən hüquqi mexanizm olmaq etibarilə zəngin qanunvericilik bazasının formalaşdırılması və onun təkmillik səviyyəsinin artırılması siyasi sistemin komponentlərinin inkişafına təkan verməklə yanaşı, seçki institutunu da təkmilləşdirən faktor kimi çıxış edib.

Ümumiyyətlə, dünya ölkələrinin təcrübəsində prezident seçkilərinin müxtəlif formaları və prosedurları təşəkkül tapmışdır. Əsasən, prezidentin seçilmə formaları 3 qrupda təsnif edilir:

**1. Birbaşa seçkilər vasitəsilə**: bu sistem çərçivəsində ölkənin inzibati-ərazi vahidləri üzrə birmandatlı və çoxmandatlı seçki dairələri təşkil edilir və seçicilərin verdikləri səslər əsasında səs çoxluğu qazanmış namizəd qalib statusu əldə edir. Birbaşa seçki sistemi Fransa, Rusiya, İrlandiya, Avstriya, Braziliya, Meksika, Azərbaycan və digər bir sıra ölkələrdə tətbiq edilir;

**2. Dolayı seçkilər vasitəsilə**: bu sistem çərçivəsində təşkil edilən səsvermə əsasında əhali seçkiçiləri seçir, onlar isə seçkilərdə namizəd qismində iştirak edən şəxslərə səs verirlər. Bunun fonunda səs çoxluğu ilə üstünlük əldə etmiş şəxs qalib statusu əldə edir;

**3. Çoxpilləli seçkilər vasitəsilə**: bu sistem çərçivəsində prezident çoxpilləli seçkilər vasitəsilə seçilir. Bəhs olunan sistemin müxtəlif ölkələrin nümunəsində bir neçə növü təsnif edilir.

*– Yunanıstan, İsrail kimi ölkələrdə prezident parlamentdə seçilir. Seçkilərin birinci və ikinci mərhələsində mütləq səs çoxluğu (üçdə iki səs çoxluğu) prinsipinə istinad edilir. Əgər ilk iki mərhələdə namizədlərin heç biri lazımi səs çoxluğunu qazana bilmirsə, məhz bu zaman nisbi səs çoxluğu əsasında üçüncü və dördüncü mərhələlər təşkil edilir. Bu mərhələlərdə də nəticə əldə olunmazsa, parlament buraxılır və qanunverici orqana növbədənkənar seçkilər keçirilir;*

*– Prezidentin seçki kollegiyası vasitəsilə seçilməsi (İtaliya): parlament deputatlarından və iri inzibati-ərazi vahidlərinin yerli özünüidarəetmə orqanlarının nümayəndələrindən ibarət seçki kollegiyası təşkil edilir. Seçki kollegiyasının səsverməsinin nəticələrinə müvafiq olaraq ən çox səs toplamış namizəd qalib statusu əldə etmiş olur;*

*– Federasiya dövlət quruluşuna malik olan bir sıra ölkələrdə prezidentin seçilməsi üçün ittifaq parlamentinin deputatlarından və federasiya subyektlərinin nümayəndələrindən ibarət xüsusi kollegiya təşkil edilir. Xüsusi kollegiyanın səsverməsinə müvafiq surətdə dövlət başçısı seçilir.*

Bunlarla yanaşı,

Müstəqillikdən sonra Azərbaycan Respublikasının Prezidentliyinə 6 dəfə ümummilli seçkilər keçirilmişdir. İlk Prezident seçkiləri 1991-ci il sentyabr ayının 8-də baş tutmuşdur. Daha çox formal kampaniya səciyyəsi daşıyan bu seçkilər təyinat xarakterli olmuş və vahid namizəd Ayaz Mütəllibov 98,5 faiz "səs"lə Mərkəz tərəfindən təyin olunmuşdur. Sayca ikinci prezident seçkiləri də xalqın iradəsini və rəyini ifadə etmədiyindən birincidən mahiyyət etibarilə fərqlənməyib. Belə ki, Ayaz Mütəllibovun istefa verməsindən sonra 1992-ci ilin iyun ayının 7-də keçirilən növbədənkənar prezident seçkisi kütləvi saxtalaşdırmalar və xalqın iradəsinin "boğulması" ilə yadda qalıb. Məhz bu cür deviasiya metodlarının tətbiq edildiyi bəhs edilən seçkilərdə Əbülfəz Əliyev 59,4 faiz "səs"lə prezident postuna yiyələnib. Amma hakimiyyətə yiyələnmiş AXC-Müsavat tandeminin irrasional və qeyri-praqmatik fəaliyyəti sayəsində ölkədə qısa zamanda xaos və anarxiya meyilləri yaranıb, "mərkəzdənqaçma" meyilləri daha da güclənib və ölkə müxtəlif dağıdıcı, transmilli maraqlara sahib olan imperialist güclərin siyasi, ideoloji mübarizə poliqonuna çevrilib. Bunun da qanunauyğun nəticəsi kimi ortaya çıxan hakimiyyət böhranının fonunda 1993-cü ildə Əbülfəz Əliyev istefaya gedib.

1993-cü ilin oktyabr ayının 3-də baş tutmuş növbədənkənar prezident seçkilərində böyük dövlət xadimi namizədi Heydər Əliyev 98,8 faiz səslə qalib gəldi. Ekspertlərin və müşahidəçilərin qənaətincə, bu seçki müstəqillikdən sonrakı siyasi tariximizdə ilk demokratik prezident seçkisi kimi səciyyələndirilməlidir. Eyni zamanda, sözügedən seçki absenteizmin qeydə alınmadığı və siyasi iştirakçılığın olduqca yüksək səviyyədə olduğu ümummilli kampaniya kimi qeydə alındı. Belə ki, seçici siyahılarına daxil edilmiş seçicilərin ümumi sayının 97,6 faizi səsvermədə iştirak etdi. Beləliklə, 1993-cü ilin oktyabr ayının 3-də baş tutmuş növbədənkənar prezident seçkiləri ölkəmizin siyasi tarixində demokratik seçki ənənəsinin əsasını qoymaqla yanaşı, siyasi sistemin və siyasi mədəniyyətin struktur elementi kimi səciyyələndirilən seçki institutu-

nun təşəkkülünü şərtləndirmiş oldu.

Müstəqil Azərbaycan Respublikasının siyasi tarixinin növbəti prezident seçkiləri 1998-ci ilin oktyabr ayının 11-də baş tutdu. Bu seçkilərdə də Yeni Azərbaycan Partiyasının namizədi Heydər Əliyev 76,11 faiz səslə qalib gəldi. Ekspertlərin qənaətincə, bəhs edilən seçkilərin nəticəsi xalqın Ümummilli lider Heydər Əliyevin rasional və praqmatik fəaliyyətinə verdiyi dəyərin göstəricisi kimi səciyyələndirilməlidir. Belə ki, son prezident seçkilərindən ötən 5 il ərzində həyata keçirilən siyasi-hüquqi islahatlar, sosial tərəqqini təmin edən fundamental tədbirlərin nəticələri, milli iqtisadi inkişaf strategiyasının uğurla tətbiq edilməsi kimi real göstəricilər Ulu öndər Heydər Əliyevin qələbəsini şərtləndirən amillər qismində çıxış etdi. Seçkilərin azad, şəffaf və ədalətli şəkildə baş tutması siyasi sistemin demokratikliyinə mühüm töhfələr verdi. Beləliklə, 1998-ci ilin oktyabr ayının 11-də baş tutmuş prezident seçkiləri Azərbaycan siyasi tarixinin demokratiya səhifəsinə qızıl hərflərlə yazıldı.

Ölkəmizdə sayca 5-ci prezident seçkiləri 15 oktyabr 2003-cü il tarixində baş tutdu. Prezident seçkiləri kampaniyası Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 14 iyun tarixli iclasında 2003-cü il oktyabr ayının 15-nin rəsmi olaraq seçki günü elan edilməsi ilə başlandı. Həmin iclasda Mərkəzi Seçki Komissiyası prezident seçkilərinin hazırlanıb, keçirilməsi üzrə əsas hərəkətlərin və tədbirlərin Təqvim planını təsdiq etdi. İcra hakimiyyəti orqanlarının bələdiyyə qurumları ilə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim etdikləri məlumatlar əsasında ölkə üzrə müvafiq ərazi vahidlərini əhatə edən 125 seçki dairəsi yaradıldı.

Ərazisi Ermənistanın silahlı qüvvələri tərəfindən işğal edilmiş 122 saylı Xankəndi seçki dairəsi istisna olunmaqla, 124 seçki dairəsində dairə seçki komissiyaları təşkil edildi. Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş müddətlərdə 5146 seçki məntəqəsi yaradıldı və məntəqə seçki komissiyaları formalaşdırıldı.

Siyasi partiyalar, seçicilərin təşəbbüs qrupları, həmçinin, seçil-

mək hüququ olan vətəndaşların özləri tərəfindən 30 iddiaçının namizədliyi irəli sürüldü. MSK bunlardan 19-nun təqdim edilmiş sənədlərinin qanunauyğun tərtib olunduğunu müəyyən etdi və onların namizədliyini təsdiqlədi. İmza vərəqələri götürən bu şəxslərin 13-ü siyasi partiyalar, 6-sı isə təşəbbüs qrupları tərəfindən namizəd göstərilmişdi. Qanunda nəzərdə tutulan müddətdə 18 iddiaçı imza vərəqələrini qeydiyyat üçün tələb olunan sənədlərlə birlikdə MSK-ya təqdim etdi ki, bunlardan bir nəfər həmin ərəfədə vəfat etdi. Nəticədə MSK-da 17 namizədin sənədləri araşdırılaraq müəyyən edilmişdi ki, onlardan yalnız 9-u Seçki Məcəlləsinin tələblərinə cavab verən qaydada və sayda imza toplaya bilmişdi. Həmin 9 nəfərin prezidentliyə namizədliyi MSK qərarı ilə qeydə alındı. İddiaçılardan daha 3 nəfəri Seçki Məcəlləsinə uyğun surətdə depozit qoymaq şərtilə prezidentliyə namizədliklərinin qeydə alınması barədə Mərkəzi Seçki Komissiyasına müraciət etdi. Sorğuya müsbət cavab verildi və mübarizəyə qeydə alınmış 12 namizəd qatıldı. Sonradan onlardan 4-ü namizədliyini geri götürmək barədə rəsmi müraciət etdi və Mərkəzi Seçki Komissiyası həmin şəxslərin namizədliklərinin ləğv olunması haqqında qərar çıxardı. Prezident seçkiləri üzrə seçki bülleteninə 8 namizədin adları daxil edildi.

2003-cü il avqustun 16-dan – səsvermə gününə 60 gün qalmış, seçkilərə hazırlığın ən mühüm mərhələlərindən biri – qeydə alınmış prezidentliyə namizədlərin seçkiqabağı təşviqatı başlandı.

Seçki məntəqələrində səsvermə zamanı şəffaf seçki qutularından istifadə edilirdi. İFES təşkilatının vasitəçiliyi və Almaniya, Niderland, ABŞ və Böyük Britaniya dövlətlərinin köməyi ilə nömrəli plastik kilidli 7500 ədəd daşınmayan, 4 950 ədəd daşınan şəffaf seçki qutusu hazırlanıb ölkəmizə gətirilmişdir.

Bu seçkilər bir sıra yeniliklər və ilklərlə də yadda qaldı. Seçki təcrübəsində ilk dəfə olaraq gözdən əlil seçicilərin sərbəst səs vermələrindən ötrü xüsusi əlifba ilə trafaretlər hazırlandı və bütün seçki məntəqələrinə gətirildi. Bütün bu yeniliklərin çoxu nəinki Azərbaycanın, hətta region dövlətlərinin seçki praktikasında ilk dəfə tətbiq olunurdu. Seçkilərin gedişini izləmək üçün 1000 nəfərə

yaxın beynəlxalq müşahidəçi ölkəmizə gəlmişdi. Bunlar arasında Avropa Şurasının və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, Müstəqil Dövlətlər Birliyi, MDB Parlamentlərarası Assambleyası, İslam Konfransı Təşkilatı, ABŞ-ın Respublikaçılar İnstitutu, İFES kimi beynəlxalq qurumların, Fransa Milli Assambleyasının, Özbəkistan Ali Məclisinin, Bolqarıstan parlamentinin və başqa dövlətlərin Azərbaycandakı səfirliklərinin nümayəndələri var idi. Seçkilərdə hazırlığı və səsvermənin gedişini 43 minə yaxın yerli müşahidəçi izlədi. Seçkiləri izləmək üçün Associated Press, BBC, Reuter, Frans-Press, İTAR-TASS, Anadolu Ajansı, "Washington Post" və digər aparıcı beynəlxalq kütləvi informasiya vasitələrinin nümayəndələri Mərkəzi Seçki Komissiyasında akkreditə olunmuşdular.

Səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyalarının protokolları əsasında dairə seçki komissiyaları tərəfindən tərtib olunmuş protokollar 48 saat müddətində Mərkəzi Seçki Komissiyasına təqdim edildi. Seçkilərin yekunu göstərir ki, 15 oktyabr 2003-cü il Azərbaycan Respublikası prezidenti seçkilərində seçici siyahılarındakı 4 442 338 seçicidən 3 164 348 nəfəri, yəni 71,23 faizi səsvermədə iştirak etmişdir. Etibarlı hesab edilmiş 2 421 061 səsdən 1 860 346-sı, başqa sözlə, 76,84 faizi İlham Heydər oğlu Əliyevin lehinə verilmiş və o, prezidentliyə səkkiz iddiaçı arasında gedən kəskin mübarizədə böyük üstünlüklə qələbə qazanmışdır.

Beləliklə, 15 oktyabr 2003-cü il tarixində baş tutmuş Prezident seçkiləri demokratik prosedurların tətbiqi və işləklik səviyyəsinə görə olduqca yüksək səviyyədə dəyərləndirildi. Müşahidəçi qismində iştirak etmiş beynəlxalq təşkilatlar və nümayəndələr öz bəyanatlarında seçkilərin tam demokratik, şəffaf və ədalətli şəkildə baş tutduğunu bildirdilər.

Müstəqil Azərbaycan Respublikasının siyasi tarixinin növbəti Prezident seçkiləri 2008-ci ilin 15 oktyabr tarixində baş tutdu. Hələ seçkidən öncə seçki qanunvericiliyi sahəsində əhəmiyyətli dəyişikliklər və təkmilləşmələr qeydə alındı. Bununla yanaşı, icti-

mai-siyasi müstəvidə sabitliyin təmin edilməsi plüralist rəqabətə əsaslanan siyasi mühitin əlverişliliyini daha da artırmaqla yanaşı, siyasi subyektlərin iştirakçılıq səviyyəsinə də müsbət təsir etmiş oldu.

Seçkidən öncə seçki qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində də bir sıra işlər həyata keçirildi. Azərbaycan Respublikası Milli Məclisi Venesiya Komissiyasından, bir sıra yerli və beynəlxalq təşkilatlardan verilən tövsiyələri nəzərə alaraq Secki Məcəlləsinin 2 iyun 2008-ci il tarixdə 145 maddəsinə 91 dəyişiklik etdi. Dəyişikliyə əsasən, seçki kampaniyası müddəti dörd aydan 75 günə endirilib, namizədlərin pul depoziti hesabına qeydiyyata alınması ləğv edilib, namizədlərin qeydiyyata alınması üçün tələb olunan imzalar 45 mindən 40 minə endirilib, dövlətdən maliyyələşən televiziya, radio və qəzetlərdə namizdlərin pullu və pulsuz təbliğat aparması qadağan olunub, prezidentliyə namizədlərin seçki fondu bir milyon manatdan on milyon manata, deputatlığa namizədlər üçünsə 85 min manatdan 500 min manata qədər artırılıb, hərbi hissələrdə seçki məntəqələrinin yaradılması ləğv edilib, adı seçici siyahısına düşməyən şəxslərin seçki günü siyahıya daxil edilməsi səlahiyyəti məhkəmələrdən alınaraq məntəqə seçki komissiyasına verilib, seçkilərdə «exit-poll» keçirən təşkilatların Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməsi tələbi irəli sürülüb. Seçki Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər seçki institutlarının daha səmərəli fəaliyyət göstərməsinə, seçki prosesi ilə bağlı şikayətlərin daha operativ araşdırılmasına, seçici siyahılarının dəqiqləşdirilməsinə, seçkiləri müşahidə prosesinin asanlaşdırılmasına, seçkilərin daha şəffaf, demokratik şəraitdə keçirilməsinə, seçkilərin monitorinqi, namizədlərin təbliğat-təşviqat, vətəndaşların seçki hüququnun realizəsi imkanlarını yaxşılaşdırmağa xidmət etmişdir.

Seçkiqabağı təşviqat və təbliğat kampaniyası müddətində prezidentliyə namizədlər ciddi maneə və əngəllərlə üzləşməyiblər. Qanunvericiliyə uyğun olaraq İTV-də prezidentliyə namizədlər üçün pulsuz efir vaxtı ayrılıb. Bunlarla yanaşı, namizədlərin möv-

cud qanunlar və hüquqi tələblər əsasında öz təbliğatlarını sərbəst surətdə aparmaları üçün tam əlverişli şərait yaradılıb.

Seçkilərin gedişinə qanunsuz müdaxilənin yolverilməzliyi, seçki bülletenlərinin zərflərə qoyulmaması, müşahidəçiləri digər şəxslərdən fərqləndirən vəsiqələrin verilməsi, seçici siyahılarında seçicilərin ünvanlarının göstərilməsi, seçicilərin barmaqlarının mürəkkəblə işarələnməsi ilə bağlı Venesiya Komissiyasının təklifləri Seçki Məcəlləsinə daxil edilib.

Hələ seçkilərdən öncə bir sıra beynəlxalq qurumlar seçkilərin demokratik və şəffaf şəkildə baş tutacaqlarına əmin olduqlarını bildiriblər. Avropa Şurası Parlament Assambleyasının sədri Luis Maria de Puçun 2008-ci ilin iyul ayının 1-3-də Azərbaycana səfəri ilə bağlı qurumun internet saytında "Qarşıdakı prezident seçkiləri Azərbaycanın demokratiyaya sadiqliyini nümayiş etdirməlidir" başlığı altında məlumat yayıb. Məlumatda bildirilir ki, Azərbaycanda rəsmi səfərdə olmuş Luis Maria de Puç ölkəmizdə keçiriləcək prezident seçkilərinin demokratik islahatlar sahəsində Azərbaycanın götürdüyü öhdəliklərin yerinə yetirilməsini nümayiş etdirəcəyinə əminlik bəslədiyini bəyan edib. AŞPA sədri Azərbaycanın yüksək rəsmilərinin – ölkə prezidentinin, Milli Məclis sədrinin və Baş nazirin respublikamızın Avropa dəyərlərinə və ölkənin demokratikləşməsinə hörmətlə yanaşmalarını, demokratik islahatların Avropa Şurası standartlarına uyğun inkişaf etdirmək barədəki bəyanatlarını yüksək qiymətləndirdiyini qeyd edib. Sədr ölkə rəsmilərinin bu bəyanatlarının onları Azərbaycanda qarşıdakı prezident seçkilərinin azad və demokratik keçiriləcəyinə əminlik yaratdığını bildirib. Luis Maria de Puç rəhbərlik etdiyi təşkilatın 2008-ci il iyunun 24-də Azərbaycanla bağlı 1614 saylı qətnaməsinin yerinə yetirilməsi ilə əlaqədar keçirilmiş müzakirələr zamanı deputatlar tərəfindən irəli sürülmüş müddəaların yerinə yetirilməsi barədə çağırışlar səsləndirib. AŞPA sədri seçki prosesi ilə əlaqədar qurum tərəfindən irəli sürülmüş tövsiyələrə seçkilərdən əvvəl əməl ediləcəyinə əmin olduğunu qeyd edib. Luis Maria de Puç söz və mətbuat azadlığını özünün əsas prioritetlərindən biri hesab edən Avro-

pa Şurasının bütün üzv dövlətlərdə jurnalistlərin sərbəst fəaliyyəti üçün şərait yaradılmasını zəruri hesab etdiyini vurğulayıb.

Beləliklə, bütün bu tədbirlər prezident seçkilərinin demokratik, azad, şəffaf və ədalətli surətdə baş tutmasını şərtləndirib. Seçkilərin rəsmi nəticələrinə görə, Yeni Azərbaycan Partiyasının namizədi İlham Heydər oğlu Əliyev 88,73 faiz səs çoxluğu ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

Müşahidəçilər və ekspertlərin qənaətincə, seçkilərdə siyasi absenteizm müşahidə olunmayıb və siyasi iştirakçılığın səviyyəsi yüksək qiymətləndirilib. Belə ki, seçicilərin fəallığı 75,12 faiz nisbətində olub.

Bütün bunların fonunda müşahidəçi qismində iştirak etmiş beynəlxalq təşkilatların nümayəndələri də seçkilərin demokratik norma və prinsiplərə tam cavab verdiyini bildiriblər.

Milli Məclisin dəvəti ilə ölkəmizdəki prezident seçkilərini müşahidə etməyə gəlmiş bir qrup Avropa parlamentariləri seçkinin nəticələrinə dair mətbuat konfransı keçiriblər. Öncə Almaniyanın keçmiş dövlət katibi Otto Hauzer bildirib ki, 20-ə qədər seçki məntəqəsində müşahidələr aparıb: **“Müşahidələrim nəticəsində deyə bilərəm ki, Azərbaycanda prezident seçkiləri azad, ədalətli və demokratik qaydada keçirilib. Seçki prosesində beynəlxalq qaydalara tam əməl olunub. Azərbaycan tərəfi bu seçkiləri izləmək üçün mindən artıq beynəlxalq müşahidəçini dəvət edib. Yəni görünür ki, hakimiyyət seçkilərin şəffaflığına maraqlıdır. Bu sayda beynəlxalq müşahidəçilərin qarşısında seçkiləri saxtalaşdırmaq cəhdləri ola bilməz. Əgər hər hansı beynəlxalq müşahidəçilər bu seçkiləri tənqid etmək istəsələr, öncə öz ölkələrinə nəzər salsınlar ki, orada Azərbaycandakı kimi seçki keçirilibmi?”**

İndiyədək dünyada xeyli sayda seçki müşahidə etdiyini deyən almaniyalı müşahidəçi Ukrayna və Gürcüstandakı son seçkilərə də toxunub. Onun sözlərinə görə, beynəlxalq təşkilatlar həmin seçkiləri demokratik adlandırıb. Əgər o seçkilər demokratik olubsa, beynəlxalq qurumlar həmin kriteriyaları Azərbaycana da aid etmə-

lidirlər.

Böyük Britaniyanın Lordlar Palatasının üzvü Baronessa Okkahen də seçkilərin normal keçirildiyini bildirib. O, bəzi müxalifət partiyalarının seçkiləri boykot etmək qərarından təəssüfləndiyini qeyd edib: **"Siyasi partiyaların fəaliyyəti cəmiyyətin həyatında iştirak etməkdir".**

Onun fikrincə, Azərbaycandakı bəzi seçki təcrübəsini digər Avropa ölkələrində də tətbiq etmək lazımdır. Burada seçki məntəqələrində seçici siyahılarının hazırlanması, namizədlər haqqında məlumatların verilməsi və digər məsələlər xüsusi olaraq vurğulanmalıdır. **"Səsvermə ilə əlaqədar pulsuz telefon danışıqlarına imkan yaradılması isə unikal haldır. Bu sıraya "qaynar xətt"in yaradılmasını da aid etmək olar. Bu təcrübədən demokratik dövlətlərdə model kimi istifadə oluna bilər".**

Bolqarıstan Milli Assambleyasının üzvü Salomon Passi əvvəllər Azərbaycana səfər etdiyini xatırladıb. O deyib ki, Azərbaycanda əsaslı inkişaf müşahidə olunur. S.Passi qeyd edib ki, bu müddət ərzində beynəlxalq təşkilatlar da inkişaf edib: **"Bəzi təşkilatlar əvvəllər seçkini müşahidə etməyə gələrkən öncədən hesabatları hazır olurdu. Amma indi vəziyyət dəyişib".**

Almaniya Bundestaqının üzvü Eksl Fişer də müşahidələri zamanı heç bir qanun pozuntusuna rast gəlmədiyini bildirib. Onun fikrincə, prezident seçkiləri beynəlxalq standartlara tam cavab verib. Alman parlamentari məntəqələrə veb-kameraların yerləşdirilməsini mühüm yenilik kimi qiymətləndirib.

Latviya Seyminin sədr müavini Vnetta Mujniça da çıxışında seçkilərin azad və şəffaf keçirildiyini vurğulayıb.

Ümumiyyətlə, beynəlxalq müşahidəçilər seçki qanunvericiliyinə edilmiş dəyişiklikləri də müsbət qiymətləndirib və bunu seçkilərin demokratik keçirilməsində başlıca amillərdən biri kimi dəyərləndiriblər.

Bunlarla yanaşı, beynəlxalq müşahidə missiyalarının rəylərini ayrı-ayrılıqda təqdim etmək məqsədəmüvafiqdir:

**MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedev:** Yüksək

seçici aktivliyi müşahidə olunur. Məntəqələrdə seçicilər səs vermək üçün növbəyə dururlar. Ümumilikdə seçkilər çox sakit şəraitdə keçir. Seçki çox sakit və tam təşkil olunmuş halda keçir. Çoxları, hətta uşaqlarla gəlirdilər. Mən deyərdim ki, seçicilərdə əsl bayram əhval-ruhiyyəsi vardı.

**MDB Müşahidə Missiyasının üzvü Valeri Fyodorov:** Seçki məntəqələrinin açılmasını və səsvermənin başlaması prosesini müşahidə etdik. Seçkinin gedişi ilə bağlı hər hansı qanun pozuntusuna rast gəlməmişik. Məntəqələrdə seçicilərin sərbəst şəkildə səs verməsi üçün hər cür şərait yaradılıb, seçici fəallığı yüksək olub.

**MDB Müşahidə Missiyasının Ukrayna Regionlar Partiyasından olan üzvü İvan Popesku:** Azərbaycanda keçirilən prezident seçkiləri olduqca yaxşı təşkil olunub. Bir neçə müsbət məqamı xüsusi vurğulamaq istərdim. Məntəqələrdə veb-kameraların quraşdırılması, seçicilərin barmaqlarının mürəkkəblə boyanması və s. amillər ölkədə ədalətli seçkilərin keçirilməsini göstərib.

**MDB-nin Parlamentlərarası Assambleyası Şurasının baş katibi Mixail Krotov:** Azərbaycandakı seçkilər çox şəffafdır, proses olduqca sakit gedir. Bu sakitlik ölkə üçün yalnız müsbət bir amildir, buradakı sabitliyin göstəricisidir. Seçkilər azad və ədalətli keçirilir. Bu gün Azərbaycan, hətta digər ölkələrə demokratiya dərsi keçə bilər.

**MDB-dən olan müşahidəçi Aftandil Andamov:** Məntəqələrdə ideal şərait yaradılmışdır. Seçicilərin fəallığı yüksəkdir. Heç bir qayda pozuntusuna rast gəlməmişəm.

**MDB müşahidə missiyasının üzvü Vladimir İzotov:** Azərbaycan seçiciləri həm seçki prosesi, həm də namizədlər haqqında daha çox məlumatlandırılıb. Səsvermə çox sakit şəraitdə, hər hansı insidentə yol verilmədən keçib, müşahidəçilərə hər cür şərait yaradılıb. İnsanlar erkəndən kütlə halında məntəqələrə gəlirdi. Mən belə növbələri daha əvvəl yalnız mağazalarda görmüşəm.

**MDB Müşahidə Missiyasının Rusiyadan olan nümayəndəsi İqor Andruşenko:** Seçkilərin gedişini yüksək qiymətləndirirəm. Bizim ölkəmizdə belə bir seçkiyə rast gəlmək mümkün deyil. Səs-

vermənin gedişində hər hansı qanun pozuntusuna rast gəlməmişəm. Səsverməyə gələnlərdən də hər hansı şikayət almamışıq. Seçkilərin təşkilatçılığı və seçicilərin fəallığı yüksək səviyyədədir.

**MDB Müşahidə Missiyasının üzvü Nikolay Şumski:** Səsvermə başlanandan qanun pozuntularına rast gəlməmişəm.

**MDB Müşahidə Missiyasının üzvü Anatoli Raxanski:** Altıncı dəfədir ki, Azərbaycanda keçirilən seçkiləri müşahidə edirəm. Hazırlıq işləri bu dəfə daha yaxşı aparılıb. Seçicilər daha aktiv və məlumatlıdır.

**MDB Müşahidə Missiyasının üzvü Mixail Veliqodski:** Bəzi ölkələrdən fərqli olaraq, Azərbaycanın dəqiq və yaxşı yazılmış seçki qanunu prosesin çoxsaylı müşahidəçilər tərəfindən izlənilməsinə şərait yaradır. Sadə dildə yazılmış qanun seçki zamanı çirkli texnologiyalardan istifadə olunmasına imkan vermir. Ukraynada keçirilən seçkilərdən fərqli olaraq Azərbaycandakı seçkilər daha şəffaf və mütərəqqidir.

**MDB Müşahidə Missiyasının üzvü, Belarusun Azərbaycandakı səfiri Nikolay Paskeviç:** Səhər saat 10-da məntəqələrin qarşısına gələndə o qədər seçici gördüm ki, zənn etdim ki, mitinqdir. Seçkilərə hazırlıq, təşkilatçılıq yüksək səviyyədədir.

**Müstəqil müşahidəçilər**

**Bakıdakı 8 saylı Binəqədi I seçki dairəsinin 21-ci məntəqəsində səsverməni müşahidə edən amerikalı müşahidəçi, VNEO təşkilatının təmsilçisi Maykl Rankin:** Heç bir qanun pozuntusuna rast gəlməmişəm, seçki prosesi tam demokratik şəkildə baş tutub.

**Seçkiləri müşahidə üzrə beynəlxalq İşçi Qrupun üzvü Jacob Kuitvard:** Heç bir qanun pozuntusu ilə rastlaşmamışam. Seçici fəallığı yüksək olub. Açığı, mən fəallığın və əhval-ruhiyyənin bu qədər yüksək olacağını gözləmirdim.

**ATƏT-in sabiq sədri, Bolqarıstanın keçmiş xarici işlər naziri Solomon Passi:** Azərbaycanda keçirilən seçkilər bütün Avropa dövlətlərində keçirilən seçkilərə bənzəyir. Baş çəkdiyim məntəqələrdə səsvermənin təşkili və seçkilərin gedişi ilə bağlı heç bir problemə rast gəlməmişəm. Seçkilər son dərəcə yüksək səviyyədə

keçirilib.

**Fransa parlamentinin üzvü Həsən Fuda:** Mən əvvəllər bir neçə Şərq ölkəsində seçkilərin gedişini izləmişəm. Azərbaycan xalqı da Şərq xalqıdır, amma müqayisə etsək, görərik ki, burada seçki təşkilatları Avropa dəyərlərinə uyğun və yüksək səviyyədə formalaşdırılıb. Mən xüsusi olaraq komissiyaların texniki təchizatı ilə maraqlandım. Bu sahədə hər şey çox yüksək səviyyədə təşkil olunub. Azərbaycanda seçki təşkilatları Avropa dəyərlərinə uyğun səviyyədə formalaşdırılıb.

**Estoniya qeyri-hökumət təşkilatının üzvü, hüquq müdafiəçisi Tomas Alatolu:** Azərbaycanda seçicilər öz vəzifələri barədə daha çox məlumatlıdırlar. Prezident seçkiləri demokratik norma və prinsiplərə müvafiq surətdə baş tutub.

**Bolqarıstan parlamentinin deputatı Peter Mratsov:** Bir çox postsovet ölkələri ilə müqayisədə Azərbaycanda seçkilərin təşkili səviyyəsi çox yüksəkdir. Təşkilati işləri xüsusilə bəyəndim. Seçici aktivliyinin yüksək olmasını da qeyd etmək istərdim. Yaşlı, ahıl və xəstə insanların öz evlərində səs vermələrinə şərait yaradılması müsbət haldır. Ümumilikdə, seçkilər sakit şəraitdə və demokratik keçir.

**Ceymstaun fondunun şərhçisi Vladimir Sokor:** Azərbaycanda seçkilər aktiv iqtisadi yüksəliş fonunda keçirilir.

**Amerika Birləşmiş Ştatlarının Azərbaycanda Vətəndaş Cəmiyyəti Assosiasiyasının işçi qrupunun rəhbəri Cudi Lamans:** Seçkinin qaydalara uyğun formada baş tutduğunu müşahidə etmişik. Bu, bizim ABŞ-da gördüyümüz seçkiyə çox oxşayır.

Seçkilərin izlənilməsi üzrə Dünya Müşahidəçilər Şəbəkəsində təmsil olunan ABŞ-ın nümayəndələri Azərbaycanda seçki prosesinin gedişində pozuntuların olmadığını qeyd ediblər.

**ABŞ-ın missiyasının üzvü Belkoq Qvann:** Azərbaycanda prezident seçkisi qüsursuz şəraitdə keçirilib. Seçkilərin izlənilməsi üzrə Dünya Müşahidəçilər Şəbəkəsinin üzvləri heç bir problem qeydə almayıblar. Seçicilərin fəallığını yüksək qiymətləndirirəm.

**Türkiyəli müşahidəçi Gəray Dəyərli:** Seçkilər gözlənildiyin-

dən də şəffaf keçirilib. Təşkilatçılıq isə yüksək səviyyədə dəyərləndirilə bilər. Bu seçkilərlə Azərbaycan hökumətini yalnız təbrik etmək olar. Azərbaycan vətəndaşları seçkilərdə çox fəal surətdə iştirak edib.

**Almaniyadan olan müstəqil müşahidəçi, Almaniyanın keçmiş Baş naziri Verner Myunh:** Seçkilər çox yüksək səviyyədə təşkil edilib. Seçkilərdə kifayət qədər beynəlxalq müşahidəçilər iştirak edib ki, bu da seçkinin demokratikliyinə sübutdur. Mən siyasi həyatım boyu çoxlu seçkilər müşahidə etmişəm və demək istəyirəm ki, bu seçkilər beynəlxalq səciyyəli demokratik standartlara tam uyğundur.

**Sloveniyadan olan müşahidəçi Tadej Dubrovnik:** Seçki prosesi tam demokratik şəraitdə keçirilib. Seçicilərin səsvermə zamanı mobil telefonlardan təcrid olunması faktını xüsusi dəyərləndirirəm. Bu qabaqcıl təcrübənin Azərbaycanın Quba rayonunda tətbiq olunmasına çox şadam. Səsvermənin gedişatını normal hesab edirəm.

**Şimali Kipr Türk Cümhuriyyətinin parlamentinin deputatı, doktor Akan Dağlı:** Səsvermənin gedişindən çox razı qaldım. Səsvermə proseduru Avropa ölkələrində keçirilən səsvermədən fərqlənmir. Seçicilər sərbəst şəkildə səs veriblər, onlara heç kim təzyiq etməyib.

**İranlı müşahidəçilərin rəhbəri Əhəd Qəzai:** Seçkilər yaxşı təşkil olunub, hər hansı problem müşahidə edilməyib.

**Qazaxıstan MSK-nın sədri Kuandik Turqnakulov:** Azərbaycanda prezident seçkisinə yaxşı hazırlıq görülüb.

**Bolqarıstan Mərkəzi Seçki Komissiyasının nümayəndəsi Viktor Paparazov:** Seçici fəallığı yüksəkdir, hər hansı pozuntuya rast gəlinməyib. Azərbaycanda seçkilərin təşkili və keçirilməsində ciddi irəliləyişlər var.

**Litvalı müşahidəçi Vastis Kudaytis:** Seçicilər fəallığı müşahidə edilib. Hər hansı qanun pozuntusu müşahidə edilməyib.

Norveçin Azərbaycandakı səfirinin müavini Riçard Sjarbora Naxçıvan şəhərində fəaliyyət göstərən məntəqələrdə seçki prosesinə hazırlığın yüksək səviyyədə təşkil olunduğunu deyib. Diplomat

seçkilərlə bağlı təəssüratların müsbət olduğunu bildirib.

AŞPA

**AŞPA-nın Müşahidə Missiyasının üzvü, Böyük Britaniyalı deputat Mayk Hənqok:** Seçki prosesinin gedişini müsbət dəyərləndirmək olar. Seçki komissiyalarının üzvlərinin fəaliyyətini müsbət qiymətləndirirəm. Müşahidə olunur ki, onlar seçkilərin təşkilinə dair təlimləri tam mənimsəyiblər. Eyni zamanda, seçicilər də yaxşı maarifləndirilib. Müxalifət bu seçkilərdə qeyri-demokratik davranış forması seçib. Qafqaz ölkələrində keçirilən son prezident seçkiləri ilə müqayisə etsək, Azərbaycanda seçkilərin daha yaxşı təşkil olunduğunu görərik. Ermənistanda prezident seçkiləri keçirilən gün ilk qurbanlar qeydə alınmışdı. Gürcüstanda keçirilən prezident seçkiləri isə texniki və təşkilati baxımdan zəif idi. Ümumilikdə, seçki prosesini və seçkilər günü səsvermənin təşkilini müqayisə etsək, Azərbaycanda vəziyyət müqayisə olunanlardan 10 dəfə yaxşıdır.

**23 saylı Nəsimi-Səbail Seçki Dairəsinin 25 saylı seçki məntəqəsində Avropa Şurasından müşahidəçi qismində iştirak edən Yevgeniya Jivkova:** Məntəqə seçkilər üçün vaxtında açılıb və prosesin gedişində neqativ hal qeydə alınmayıb. 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 27 saylı seçki məntəqəsində də qanun pozuntusu müşahidə edilməyib.

**AŞPA Müşahidə Missiyasının üzvü, türkiyəli deputat Mövlud Çavuşoğlu:** Ötən seçkilərlə müqayisədə builki prezident seçkilərinə hazırlıq və seçkiöncəsi məsələdə irəliləyişlər var. Seçkilərin təşkilində də irəliləyişlər var. Müxalifətin seçkidə iştirak etməməsi yaxşı hal deyil, xalqın iradəsinə hörmətsizlikdir və səhv addımdır.

ATƏT

**6 saylı Culfa-Babək Seçki Dairəsinin 22 saylı Bənəniyar seçki məntəqəsində müşahidə aparan ATƏT təmsilçiləri Vrane Antije və Martin Veyluel:** Seçkilər çox yaxşı təşkil edilib, seçici fəallığı yüksəkdir. Səsvermə normal keçirilib, hər bir seçiciyə öz münasibətini bildirmək üçün şərait yaradılıb.

16 saylı Yasamal seçki dairəsinin 1 saylı seçki məntəqəsində müşahidə aparan ATƏT-in Fransadan olan müşahidəçiləri Anna Quliy və Kristian Premaks seçki prosesini müsbət qiymətləndiriblər. K.Premaks səsvermənin yüksək səviyyədə təşkil olunduğunu, seçicilərin mövqelərini sərbəst bildirmələri üçün tam şərait yaradıldığını deyib.

ATƏT müşahidəçiləri Musabəy Pelin, Xose Luis Merenat, Botagöz Əbilova səsvermə prosesinin normal keçdiyini deyiblər.

**ATƏT Müşahidə Missiyasının Böyük Britaniyadan olan üzvü Lord Kirkloney:** Mən dördüncü dəfədir ki, Azərbaycanda seçki prosesini müşahidə edirəm. Budəfəki seçkiləri xüsusi qiymətləndirərəm. Bütün namizədlərin seçki məntəqələrindəki nümayəndələri ilə rastlaşdım və onlar da seçki prosesindən razılığını bildirdilər. Bu isə səsvermə prosesinin demokratik şəkildə keçirilməsindən xəbər verir.

**GUAM**

**GUAM-ın baş katibi Valeri Çeçelaşvili:** Azərbaycanda prezident seçkiləri yüksək səviyyədə təşkil olunub. Seçkilər demokratik keçir, yüksək seçici fəallığı müşahidə olunur. Müşahidə apardığım məntəqələrdə ciddi problemə rast gəlmədim. Pozitiv məqamlardan biri də budur ki, seçicilərin fəallığı müşahidə olunur.

**Avropa İttifaqı**

**Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebi:** Təşkilatçılıq yüksək səviyyədədir. Avropa İttifaqı bu seçkilərin azad və demokratik keçirilməsinə inanır və bunda maraqlıdır.

Beləliklə, yuxarıda istinad edilən faktlar və nəzər yetirilən proseslərin spesifik səciyyəsi deməyə əsas verir ki, 1993-cü ildən etibarən baş tutan prezident seçkiləri ölkəmizdə siyasi sistemin struktur elementlərindən biri olan seçki institutunun təkmilləşməsinə, demokratik ənənələrin bərqərar olunmasına, hakimiyyətin effektivliyinin artmasına və konstitusion substratların tərəqqisinə fundamental töhfələr verdi. Eyni zamanda, mütəmadi surətdə həyata keçirilən siyasi, hüquqi islahatlar qanunvericilik bazasını zənginləş-

dirməklə seçki institutunun effektivlik səviyyəsinin artırılmasını şərtləndirib. Nəticə etibarilə, milli inkişaf strategiyasının tərkib hissəsi olmaq etibarilə davamlı surətdə reallaşdırılan demokratik islahatlar və hakimiyyət institutunun səmərəli fəaliyyəti bəhs edilən institusional nailiyyətlərin əldə olunmasını şərtləndirdi.

## 10.4. Müstəqillikdən sonra Azərbaycanda parlament seçkiləri təcrübəsi analitik tədqiqat obyekti kimi: reallıqlar və nəticələr

Müstəqillikdən sonra Azərbaycan siyasi tarixinin seçki təcrübəsinin mühüm komponentlərindən birini də parlament seçkiləri təşkil edir. Parlament seçkiləri ümummilli seçkilər kateqoriyasına aid edilir və bu, hakimiyyətin müstəqil qollarından birini təşkil edən qanunverici orqanın tərkibinin formalaşdırılması funksiyasını yerinə yetirir. Qeyd etdiyimiz kimi, parlament seçkiləri müxtəlif ölkələrin nümunəsində majoritar, proporsional və qarışıq seçki sistemləri əsasında baş tutur (bax.).

Müstəqillik əldə etdikdən sonra Azərbaycanda ilk parlament seçkiləri 12 noyabr 1995-ci il tarixində qarışıq seçki sistemi əsasında keçirilmişdir. Hələ Konstitusiya qəbul edilməmişdən öncə Milli Məclisin 18 avqust 1995-ci il tarixli qərarı ilə 15 nəfərdən ibarət Mərkəzi Seçki Komissiyası (MSK) yaradılmışdı. Bundan sonra 12 noyabr 1995-ci il tarixində Milli Məclisə seçkilər keçirildi. Seçkilər qarışıq seçki sistemi əsasında baş tutdu. Belə ki, 25 nəfər proporsional, 100 nəfər isə majoritar seçki sistemi əsasında parlamentdə təmsilçilik hüququ qazandı. Proporsional seçki sistemi əsasında deputat mandatı uğrunda 8 siyasi partiyadan 200 namizəd mübarizə aparsa da, Milli Məclisdə 3 partiyanın nümayəndələri təmsilçilik hüququ qazandı. Proporsional seçki sistemi əsasında hakim Yeni Azərbaycan Partiyasından (YAP) 19, Azərbaycan Xalq Cəbhəsi Partiyasından (AXCP) və Azərbaycan Milli İstiqlal Partiyasından (AMİP) 3 nəfər Milli Məclisdə deputat mandatı qazandılar. Majoritar seçki sistemi əsasında isə birmandatlı 100 seçki dairəsi üzrə 1094 şəxs millət vəkili mandatı uğrunda mübarizəyə

qatılmaq istəsə də, “Milli Məclisə seçkilər haqqında” qanuna (12 avqust 1995) əsasən, bu say azaldılaraq 383-ə endirildi. Beləliklə, Milli Məclisin tərkibi 3 mərhələdə baş tutan qarışıq seçki sistemi əsasında formalaşdı.

Aktiv seçki hüququna (seçmək hüququ) malik olan vətəndaşların siyasi iştirakçılığı baxımından parlament seçkilərində mütləq və ya nisbi absenteizm qeydə alınmadı. Demokratikləşmə mərhələsi və strategiyasının fundamental struktur elementi olan parlament seçkilərində vətəndaşlar özlərini hüquq və azadlıqlarından mütləq mənada yararlandılar və ümumi iştirakçılıq səviyyəsi müsbət rəy aldı. Belə ki, seçkilərdə aktiv seçki hüququna malik olan şəxslərin 86,05 faizi iştirak etdi. Bu da növbəti dəfə onu göstərdi ki, müstəqilliyin ilk iki ilində vətəndaşlar arasında siyasi proseslərə münasibətdə yaranmış apatiya və siyasi submədəniyyət normalarına yönəlik mövqe həyata keçirilən demokratik transformasiyanın fonunda sıradan çıxmaqdadır. Ümumiyyətlə, müstəqilliyin ilk iki ilində vətəndaşların mövqeyi və dünyagörüşündə absenteizmi şərtləndirən təməl səbəblərə bunları aid edə bilərik: hakimiyyətdə olan subyektlərin korporativ maraqlar üzərindən hərəkət etmələri və özlərinin fəaliyyət mexanizmlərini məhdud dairələrin antimilli mənafeləri üzərində qurmaları, siyasi institutların öz funksiyalarını normal qaydada yerinə yetirə bilməmələri, siyasi mədəniyyətin təşəkkül tapmaması və bunun fonunda siyasi şüurun səviyyəsində durğunluğun müşahidə edilməsi, siyasi subyektlər arasında hökm sürən antaqonist münasibətlərin daha da kəskinləşməsi və siyasi palitrada plüralist fəaliyyət mexanizminə süni maneələrin olması, siyasi sistemin qapalı səciyyə daşıması və sair. Amma 1993-cü ildən sonra Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən demokratikləşmə strategiyasının fonunda vətəndaş cəmiyyətinin və hüquqi dövlətin mütləq komponentlərinin bərqərar olunması yönündə görülən tədbirlər siyasi apatiya və absenteizmin aradan qaldırılmasını şərtləndirdi.

Məhz bütün bunların fonunda parlament seçkilərinin demokratik surətdə keçirilməsi bir neçə istiqamətdə xüsusi önəm kəsb etdi.

İlk növbədə, bu, parlament təsisatının funksionallığının təmin edilməsinin fonunda demokratikləşmə strategiyasının sürətlə və ardıcıllıqla həyata keçirilməsinə xüsusi strateji zəmin yaratdı. Çünki öz funksiyalarını normal surətdə həyata keçirən parlament təsisatının formalaşdırılması siyasi plüralizmin, siyasi inteqrasiya və rəqabətin təmin olunmasını şərtləndirməklə yanaşı, siyasi institutların fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılması baxımından da xüsusi əhəmiyyət kəsb etdi. Fikrimizi əsaslandırmaq üçün, sadəcə, parlamentin yerinə yetirdiyi funksiyalara nəzər yetirmək kifayət edir. Belə ki, demokratik cəmiyyətlərdə fəaliyyət göstərən parlamentlər, ilk növbədə, qanunvericilik funksiyasını yerinə yetirirlər. Məhz bu funksiyanın fonunda müxtəlif sahələrə və məsələlərə aid qanun layihələri hazırlanır və onlar spesifik prosedurlar əsasında qəbul edilir. Milli maraqlara və dəyərlərə müvafiq surətdə tərtib və təsdiq edilmiş qanunlar müxtəlif sahələrdə ictimai, siyasi institutların fəaliyyət mexanizmi  üçün qanunvericilik bazası yaradır ki, bu da hüquqi dövlətdə başlıca istinad substratı hesab edilir. Bu amilin özü hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunması baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Digər funksiyalara hökumətin fəaliyyətinə hüquqi norma və prosedurlar əsasında nəzarət etmək, icra hakimiyyəti orqanlarının formalaşdırılması istiqamətində müəyyən səlahiyyətlər çərçivəsində müvafiq qərarlar qəbul etmək, dövlət vəzifələrinə müəyyən təyinatların həyata keçirilməsi (bir sıra parlamentli respublikalarda baş nazirin seçilməsi və ya təyin edilməsi), ölkə başçısına qarşı impicmentin tətbiq edilməsi, büdcəyə nəzarət edilməsi və s. daxildir. Bütün bunlara nəzər yetirdikdə belə bir nəticəyə gəlmək olur ki, 12 noyabr 1995-ci il tarixində demokratik səviyyədə keçirilmiş parlament seçkiləri ölkəmizdə ictimai-siyasi institutların fəaliyyət mexanizminin effektivliyinin yüksəldilməsi, strukturlararası koordinasiyanın təmin edilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi və bütün bunların fonunda demokratik transformasiyanın sürətləndirilməsi baxımından əhəmiyyətli tarixi hadisə oldu.

Bunlarla yanaşı, parlament seçkilərində qarışıq seçki sisteminin tətbiq edilməsi yeni müstəqillik əldə etmiş və demokratik transformasiya strategiyası həyata keçirən bir ölkə üçün məqbul variant idi. Bildiyimiz kimi, qarışıq seçki sistemi özündə majoritar və proporsional seçki sistemlərinin ünsürlərini ehtiva edir. Qeyd etdiyimiz kimi, majoritar seçki sistemində hər seçki dairəsindən bir nəfər deputat seçilir və seçkilər birmandatlı dairələr üzrə təşkil edilir. Bu sistemdə "daha çox səs toplayan qalibdir" prinsipi tətbiq edilir. Səs çoxluğu iki növdə təsnif və təsbit edilir. Birincisi, "mütləq çoxluq" növüdür ki, burada seçicilərin səsinin 50+1 faizini toplamış şəxs qalib gəlir. Əgər heç kəs seçici səslərinin 50+1 faizini toplaya bilmirsə, məhz bu zaman iki daha çox səs toplamış namizəd ikinci turda rəqabəti davam etdirir. İkinci turda daha çox səs toplayan şəxs qalib hesab edilir. İkincisi isə "nisbi çoxluq" növüdür ki, burada ən çox səs toplayan namizəd qalib şəxs sayılır.

Bildirdiyimiz kimi, proporsional seçki sistemində isə hər seçki dairəsindən bir deyil, bir neçə şəxs deputat seçilir ki, onlar da müxtəlif siyasi partiyaları təmsil edirlər. Siyasi partiyalar parlamentdə seçkilərin fonunda ümumi səslərin nisbətində qazandıqları faizə görə təmsilçilik hüququ əldə edirlər. Bu seçki sistemində daha güclü partiyaların parlamentdə təmsil olunması məqsədilə seçki baryeri tətbiq edilir. Müxtəlif ölkələrin təcrübi nümunəsində seçki baryerləri 1-18 faiz həddində olur.

Beləliklə, qarışıq seçki sisteminin mahiyyəti və substratlarına nəzər yetirməklə bir daha belə bir qənaətə gəlmək mümkün oldu ki, dövrün reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə qarışıq seçki sisteminin tətbiq edilməsi ən məqbul variant idi və seçkilərin nəticələri bir daha bunu sübut etdi.

Qanunauyğun hal kimi, növbəti parlament seçkiləri 5 il sonra-2000-ci ilin 5 noyabr tarixində keçirildi. Bu seçkilər Azərbaycanda seçki texnologiyalarının daha da təkmilləşməsi ilə səciyyələndirildi. Seçkilərin hüquqi bazasında edilmiş əsaslı dəyişikliklər, seçkiqabağı kampaniyaların hazırlanması və keçirilməsi mexanizmlərindəki fərqlər, seçkilərin təşkili, keçirilməsi və yekun səslərin

sayılması prosedurlarında qeydə alınan təkmilləşmələr bəhs edilən ümummilli aksiyanın demokratikliyini göstərən fundamental indikatorlar oldu.

Bəhs edilən seçkilərin hüquqi bazası 12 noyabr 1995-ci il tarixində baş tutmuş parlament seçkilərinin bazası əsasında təşkil olunsa da, bu sahədə əhəmiyyətli təkmilləşmə və irəliləyişlər də qeydə alındı. Belə ki, 1995-ci ildəkindən fərqli olaraq 2000-ci ildə Mərkəzi Seçki Komissiyası (MSK), habelə dairə seçki komissiyaları 1/3 proporsiya əsasında, yəni 1/3 hissəsi vahid çoxmandatlı seçki dairəsi üzrə seçilmiş deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı, 1/3 hissəsi isə heç bir siyasi partiya mənsubiyyəti olmayan deputatların nümayəndələrindən təşkil olunmuşdu.

Onu da qeyd etmək lazımdır ki, MSK-nın bu prinsip əsasında təşkil olunması Azərbaycanda keçirilən seçkilərin nə dərəcədə demokratik olmasının başlıca göstəricilərindən biridir. Belə ki, Qərbin bir sıra demokratik idarəetmə sisteminə malik olan dövlətlərinin təcrübəsindən fərqli olaraq Azərbaycanda MSK-nın formalaşdırılması zamanı siyasi qüvvələrin cəmiyyətdə və Milli Məclisdə mövcud olan proporsiyası nəzərə alındı. O zamankı mövcud reallıqlara nəzər yetirdikdə belə bir nəticəyə gəlmək olar ki, bu addım sözün əsl mənasında tam demokratik bir addım idi. Belə ki, Azərbaycanda mövcud siyasi qüvvələrin sosial bazasını müəyyən etdikdə hazırda iqtidar partiyası olan və qanunda göstərildiyi kimi, Milli Məclisdə proporsional qaydada seçilmiş deputatların böyük əksəriyyətinin təmsil etdiyi Yeni Azərbaycan Partiyası ilə sosial bazası və reytinq səviyyəsi aşağı olan müxalifət partiyalarına MSK-nın tərkibinin təşkilində eyni proporsiya (pay) ayrılması, hətta demokratik normaların bərqərar olunduğu ən qabaqcıl ölkələrdə belə qeydə alınmamışdır.

Digər tərəfdən, MSK-da 1/3 paya sahib olan bitərəf qüvvələrin nümayəndələrinin ikisinin Milli Məclisdə çoxluq təşkil edən, ikisinin isə azlıq təşkil edən partiyalarla razılaşdırılması prinsipi də seçkilərin demokratiklik səviyyəsinin daha da artırılması, müxalifət

partiyalarına daha geniş imkanlar vermək istəyindən yaranmışdı.

Doğrudur, müxalifət onlara verilmiş bu imkandan sui-istifadə edərək MSK-nın yaradılmasını əngəlləmək və bununla da parlament seçkilərinin baş tutmamasına nail olmaq, təmin edilmiş siyasi sabitliyi pozmaq niyyəti ilə məsələni qəsdən gecikdirmək istəyirdi. Milli Məclis dəfələrlə müxalifət nümayəndələrinə müraciət edərək məsələnin həll olunmasını təklif etsə də bu təklif yerinə yetirmədiyindən qanunun bu müddəasını ləğv etmək məcburiyyətində qaldı. Lakin bu addım heç də qanunun sərtləşdirilməsi və demokratik idarəetmə sisteminin müəyyən elementlərindən imtina etmək mənasına gəlmirdi. Bu, sadəcə olaraq, situasiyaya müvafiq addım idi. Belə ki, müxalifət əldə etdiyi imkandan sui-istifadə edərək seçkilərin təyin olunmuş vaxtda baş tutmamasına çalışırdı və Milli Məclis seçkilərin baş tutması üçün bu addımı atmaq məcburiyyətində qaldı.

Azərbaycan Milli Məclisinə seçkilər haqqında qanunun ilkin variantında nəzərdə tutulmuş Milli Məclis deputatlığına namizədin girovu məsələsi də sonradan aradan qaldırıldı. Baxmayaraq ki, təkmil siyasi sistemə malik olan avanqard ölkələrdə deputatlığa namizədliyini vermiş şəxsin məsuliyyətinin artırılması, seçkilərin baş tutmayacağı təqdirdə onun keçirilməsinə xərclənmiş vəsaitin ödənilməsi məqsədilə bu tədbir görülür və tələb olunan girovun miqdarı kifayət qədər böyükdür. Bu seçkilər ərəfəsində Azərbaycanda isə namizədlərə maksimum şərait yaratmaq naminə dünyada geniş istifadə olunan bu təcrübədən yararlanmadı.

Bütün bu göstərdiyimiz məsələlər bir daha əyani şəkildə sübut etdi ki, Azərbaycanda keçirilmiş 5 noyabr 2000-ci il seçkiləri demokratik qanun və prosedurlar əsasında baş tutmuşdur.

Milli Məclis deputatlığına namizədlərə maksimum şərait yaradılması, ölkədə siyasi qüvvələrə mübarizə üçün tam bərabər hüquq və imkanlar verilməsi, habelə seçkilərin açıq demokratik şəraitdə keçirilməsi prinsipi özünü bütün seçki kampaniyasının aparılması zamanı və seçkilərin keçirilməsində də aydın büruzə verdi. Belə ki, proporsional seçki sistemində öz qüvvələrini sınamaq istəyən par-

tiyaların əksəriyyəti ilkin imza toplanması prosesində minimum həddi keçə bilməsələr də, Ümummilli lider Heydər Əliyev bu partiyaların qeydə alınması haqqında xüsusi fərman imzaladı ki, bu da, əslində, heç bir sosial dayaq olmayan siyasi partiya və təşkilatlara seçkilərdə iştirak etmək imkanı qazandırdı. Halbuki bütün dünya praktikasında öz tətbiqi və təsdiqini tapmış minimum hədd prinsipi məhz onun üçün tətbiq olunur ki, ictimaiyyət arasında heç bir sosial dayağı, bazası olmayan, deməli, seçkilərdə hər hansı bir nailiyyət qazanmaq şansı da olmayan siyasi təşkilatlar havayı yerə seçkilərdə iştirak edərək seçkilər prosesinə əlavə mürəkkəblik gətirməsinlər. Lakin Ulu öndər Heydər Əliyev hər bir siyasi təşkilata bərabər imkanlar yaradılması prinsipini əsas tutaraq bu addımı atdı.

Bundan əlavə, hər bir siyasi təşkilata və namizədə seçki kampaniyasının aparılması zamanı qanun çərçivəsində təbliğat üçün bərabər imkanlar yaradıldı. Rəsmi dövlət televiziyası vasitəsilə xalqla bilavasitə təmasda olmaq üçün kimliyindən və siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir namizədə bərabər imkanlar verildi. Baxmayaraq ki, bəziləri bu imkandan seçki kampaniyasını aparmaq əvəzinə, böhtan və şayiələr yamaq, təhqir xarakterli informasiyalar vermək, xalqı dövlətə, hakimiyyətə qarşı itaətsizliyə çağırmaq məqsədləri üçün istifadə etdilər. Yenə də onlara heç bir maneə yaradılmadı və onlar bu imkanlardan istədikləri şəkildə sui-istifadə etdilər.

Digər tərəfdən, seçkilər 1995-ci il seçkilərindən daha artıq ictimai nəzarət altında keçirildi. Belə ki, dairə seçki komissiyalarının yuxarıda göstərdiyimiz əsasla formalaşması, bu seçkilərin 1995-ci ildəkindən daha artıq həm daxili, həm də xarici müşahidəçi və nəzarətçilərin ciddi nəzarəti altında keçirilməsi, onların nəticələrindən şübhələnməyə əsas vermir. Bu, parlament seçkilərini kifayət qədər əlverişli şəraitdə müşahidə etmiş beynəlxalq institutların, habelə ATƏT, Avropa Şurası kimi qurumların bəyanatlarında da öz əksini tapmışdır.

Eyni zamanda, seçkilər zamanı modern kompyuter texnologi-

yaları əsasında yaradılmış MSK yanında avtomatlaşdırılmış Hesablama Mərkəzi də Azərbaycanda seçki texnologiyasının getdikcə mükəmməlləşməsi, onun dünya standartları səviyyəsinə çatdırılmasının ən bariz göstəricilərindən biridir.

Belə ki, seçki dairələrinin kompyuterləşdirilməsi, ən yeni avadanlıqlarla təchiz edilməsi, nəticələrin operativ, dəqiq və etibarlı şəkildə mərkəzə ötürülməsinə, səslərin tez və dəqiq hesablanaraq müəyyənləşdirilməsində müstəsna rol oynadı.

Bu seçkiləri əvvəlkilərdən fərqləndirən əsas xüsusiyyətlərdən biri də seçki kampaniyalarının aparılmasında yüksək ixtisaslı peşəkarların təşkil etdiyi qeyri-hökumət təşkilatlarının yaxından iştirak etməsi, seçki kampaniyalarının aparılmasında, kompyuter texnologiyalarının nailiyyətlərindən istifadə olunması idi.

Nəticə etibarilə, 2000-ci il noyabr ayının 5-də keçirilmiş seçkilərin nəticələri həmin ayın 22-də Konstitusiya Məhkəməsinin iclasında müzakirə olundu. Konstitusiya Məhkəməsi vahid çoxmandatlı seçki dairəsi üzrə seçkilərin nəticələri və siyasi partiyalar, siyasi partiyalar bloku arasında deputat mandatlarının anlaşılması haqqında Mərkəzi Seçki Komissiyasının 14 noyabr 2000-ci il tarixli protokolu ilə aşağıdakılar müəyyənləşdirir:

YAP – 62,3 faiz, AXCP – 10,95 faiz, VHP – 6,43, AKP – 6,33, Müsavat – 4,85, AMİP – 3,89, ALP – 1,29, ADP – 1,06, ANAP – 0,95, Milli Konqres Partiyası-0,51, "Demokratik Azərbaycan" siyasi partiyalar bloku-0,40, Az Xalq Demokratik Partiyası-0,28, DADP- 0,26 faiz.

Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasının Milli Məclisinə noyabrın 5-də keçirilmiş seçkilərdə vahid çoxmandatlı seçki dairəsi və 88 birmandatlı seçki dairəsi üzrə seçkilərin nəticələrini etibarlı hesab edib. Beləliklə, həmin dairələr üzrə səsvermədə 2 milyon 783 min 205 seçici iştirak edib ki, bu da seçici siyahılarındakı vətəndaşların ümumi sayının 71,33 faizini təşkil edib. Nəticədə birmandatlı seçki dairələri üzrə 88, vahid çoxmandatlı seçki dairəsi üzrə isə 25 deputat olmaqla Milli Məclisə cəmi 113 deputat seçilməsi təsdiq olunur.

Mərkəzi Seçki Komissiyası seçkilər zamanı və bundan sonra alınan ərizələrlə əlaqədar 4 seçki dairəsində – 10 saylı Xətai ikinci, 38 saylı Sumqayıt birinci, 51 saylı Ağsu-Kürdəmir və 68 saylı İmişli seçki dairələrində seçkilərin nəticələrini etibarsız hesab edir, səsvermənin yekunları ilə əlaqədar bir sıra şikayətlərin araşdırılması, bunlara adekvat tədbirlər görülməsi üçün müvafiq dairə seçki komissiyalarına və prokurorluq orqanlarına göndərib. Konstitusiya Məhkəməsi tərəfindən ciddi qanun pozuntuları aşkar olunan 3 seçki dairəsi, yəni 9 saylı Xətai birinci, 53 saylı Astara və 99 saylı Şəmkir şəhər seçki dairələri üzrə seçkilərin nəticələri təsdiq olunmur.

Beləliklə, Konstitusiya Məhkəməsi 2000-ci il noyabrın 5-də seçkilər keçirilmiş birmandatlı 99 seçki dairəsindən 88-i üzrə seçkilərin nəticələrini təsdiq edib.

Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 noyabr tarixli Sərəncamı ilə Milli Məclisə seçkilər üzrə qalan 11 seçki dairəsində 2001-ci il yanvarın 4-nə təkrar seçkilər təyin olunur. Azərbaycan Respublikasının Milli Məclisinə təkrar seçkilərdə səsvermədə 11 seçki dairəsinin 544 seçki məntəqəsi üzrə seçici siyahılarına daxil edilmiş 480 min 185 vətəndaşın 71,33 faizi iştirak edib.

Ümumiyyətlə, ikinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə birmandatlı 99 seçki dairəsi üzrə 5 noyabr 2000-ci ildə və 7 yanvar 2001-ci ildə keçirilmiş seçkilərdə 4964 seçki məntəqəsində seçici siyahılarında olan seçicilərin 68,93 faizi iştirak edib. 2 milyon 926 min 904 seçki bülleteni etibarlı hesab edilib, adları seçki bülletenlərində olan namizədlərin lehinə 2 milyon 888 min 813 nəfər, əleyhinə isə 38 min 091 nəfər səs verib. Birmandatlı seçki dairələri üzrə Azərbaycan Respublikasının Milli Məclisinə seçilmiş deputatların 27 faizini bitərəflər, 73 faizini partiya üzvləri təşkil edib.

Beləliklə, 5 noyabr 2000-ci il tarixində baş tutmuş parlament seçkiləri ölkəmizdə seçki institutunun daha da təkmilləşdirilməsi, qanunverici orqanın fəaliyyət mexanizminin səmərəlilik səviyyəsi-

nin daha da artırılması, ümumilikdə isə, siyasi sistemin struktur elementlərinin təkmillik səviyyəsinin yüksəldilməsi baxımından önəmli mərhələ səciyyəsi daşıdı. Nəticə etibarilə, geniş sosial bazaya malik olan Yeni Azərbaycan Partiyası (YAP) Milli Məclisdə 75 millət vəkili ilə təmsil olunmaq hüququ qazandı. Bu, YAP-ın cəmiyyətdəki nüfuzu və gücünü göstərən növbəti fakt qismində çıxış etdi.

Növbəti parlament seçkiləri 6 noyabr 2005-ci il tarixində keçirildi. Seçkilər 24 avqust 2002-ci il tarixində keçirilmiş ümumxalq səsverməsi – referendumun nəticələrinə müvafiq olaraq qəbul edilmiş majoritar sistem əsasında baş tutdu. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" 11 may 2005-ci il tarixli və "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər" haqqında 25 oktyabr 2005-ci il tarixli Sərəncamlarına müvafiq olaraq seçki praktikasının beynəlxaq standartlara uyğunlaşdırılması, icra orqanlarının Seçki Məcəlləsində müəyyən olunmuş hallardan kənar seçki prosesinə müdaxiləsinin qarşısının alınması üçün zəruri tədbirlər görüldü, bütün namizədlər üçün bərabər şərait yaradıldı, seçkilərin ədalətli, obyektiv və şəffaf keçirilməsini təmin edən addımlar atıldı. Belə ki, namizədlərin qanunvericiliyin tələblərinə müvafiq surətdə ayrı-seçkilik olmadan qeydə alınması, onlara öz təşviqat kampaniyalarını sərbəst surətdə təşkil etmələri üçün tam əlverişli şərait yaradılıb. Eyni zamanda, mövcud qanunvericilik bazası seçkilərin hüquqi substratlara söykənməsini, demokratik səciyyə daşımasını təmin edən institusional mexanizm qismində çıxış edib. Qanunvericilik bazasına Azərbaycan Respublikasının Konstitusiyası, Seçki Məcəlləsi, Sərbəst Toplaşmaq Azadlığı haqqında Qanun, Televiziya və Radio Yayımı haqqında Qanun və digər qanunvericilik sənədləri aiddir. Bəhs edilən sənədlərin bir qisminə edilən düzəliş və əlavələr nəticəsində seçkilərin hüquqi bazası zənginləşdirilib və milli seçki standartları beynəlxalq qanunvericiliyə uyğunlaşdırılıb. Beləliklə, Azərbaycanda növbəti parlament seçkiləri təkmil qanunvericilik

bazası əsasında baş tutdu.

Seçkiləri müşahidə etmiş ATƏT-in Demokratik təsisatlar və İnsan Haqları Bürosunun Seçkiləri Müşahidə Missiyası özünün Yekun hesabatında seçki qanunvericiliyini yüksək səviyyədə qiymətləndirdilər. Hesabatda Seçki Məcəlləsi başlıca qiymətləndirmə obyektinə çevrildi. Qeyd olundu ki, Seçki Məcəlləsinin müsbət cəhətləri aşağıdakılardır:

– *Namizədlərin qeydə alınması üçün təkmilləşməmiş müddəalar;*

– *Bütün səviyyədə olan seçki komissiyalarının müstəqil olması barədə tələblər;*

– *Vəzifəli şəxslərin və prosesin digər iştirakçılarının təfsilatlı hüquq və məsuliyyətləri;*

– *Artırılmış şəffaflıq, xüsusən proses zamanı müşahidəçilərin seçki komissiyalarının işini müşahidəetmə imkanları ilə bağlı.*

Seçkilər ölkənin inzibati ərazi vahidlərinə müvafiq surətdə birmandatlı seçki dairələri üzrə keçirildi. Seçki prosesi ümumilikdə demokratik və şəffaf surətdə baş tutsa da, bir sıra dairə seçki komissiyalarında və məntəqələrində qanun pozuntuları müşahidə olundu. Ekspertlərin və müşahidəçilərin qənaətincə, qanun pozuntularının əsasında seçki məntəqələrində təmsil olunmuş bir sıra şəxslərin deviant davranışları, pozuntuya yol verəcək qanunazidd hərəkətləri, eyni zamanda, bir qisim yerli icra hakimiyyəti orqanlarının yol verdikləri qeyri-qanuni hallar dayanıb. Bunun da nəticəsidir ki, 423 seçki məntəqəsində və 20 seçki dairəsində nəticələr ləğv olundu və təkrar seçkilər keçirildi. Prezidentin seçkilərlə bağlı məlum sərəncamlarının müddəalarını yerinə yetirmədiklərinə və seçkilər zamanı səslərin hesablanması proseslərinə müdaxilə etdiklərinə görə 18 nəfər cinayət məsuliyyətinə cəlb olundu və barələrində müvafiq tədbirlər görüldü. Seçki Məcəlləsində əks olunmuş müddəaları pozduqlarına görə 3 rayonun icra hakimiyyəti başçısı, 1 rayonun icra hakimiyyəti başçısının müavini və icra hakimiyyəti başçısının 6 ərazi nümayəndəsi intizam qaydasında məsuliyyətə

cəlb edilərək tutduqları vəzifələrindən azad olundular.

Respublika Prokurorluğu və MSK-nın mətbuat xidmətlərinin 2005-ci il noyabrın 6-da keçirilən parlament seçkiləri zamanı baş verən qanun pozuntularının araşdırılması və aradan qaldırılması ilə bağlı məlumatında prezidentin tapşırığına əsasən hakimiyyət və məhkəmə orqanlarının müvafiq tədbirlər gördüyü bildirilib. Qeyd olunub ki, parlament seçkilərindən sonra seçki hüquqlarının pozulması ilə bağlı hərəkətlərdən (hərəkətsizliklərdən) və seçki komissiyalarının qərarlarından şikayətlərlə bağlı Apellyasiya Məhkəməsinə 71 iş daxil olub. Həmin işlərin hamısına baxılaraq müvafiq qərarlar qəbul edilib. MSK-nın yekun qərarından Apellyasiya Məhkəməsinə 57 şikayət daxil olub ki, həmin şikayətlər araşdırılıb və əsassız olduğu üçün təmin edilməyib. Ali Məhkəmə tərəfindən kassasiya qaydasında 38 işə baxılıb, həmin işlər üzrə Apellyasiya Məhkəməsinin qətnamələri dəyişdirilmədən saxlanılıb: **“2005-ci il noyabrın 6-dan 2006-cı ilin martına qədər Respublika Prokurorluğuna seçkilərlə bağlı 351 müraciət, o cümlədən MSK-dan 99, dairə seçki komissiyalarından 34, seçki bloklarından 4, hüquq-mühafizə orqanlarından 31 və vətəndaşlardan 183 müraciət daxil olub. 3 halda Respublika Prokurorluğu tərəfindən deputatlığa namizədin cinayət məsuliyyətinə, 1 halda isə inzibati məsuliyyətə cəlb edilməsinə razılıq verilib. 18 cinayət işi başlayıb, həmin işlərdən 6-sı seçiciləri ələalma, 5-i sənədlərin saxtalaşdırılması, 3-ü xuliqanlıq, 1-i hakimiyyət nümayəndələrinə zor göstərmək, 2-si seçki komissiyasının işinə müdaxiləetmə və təsir göstərmə, 1-i vəzifə səlahiyyətlərindən sui-istifadə ilə bağlıdır”.**

Məlumatda bildirilir ki, yol verilən qanun pozuntuları ilə əlaqədar MSK və dairə seçki komissiyaları 460 seçki məntəqəsində səsvermənin nəticələrini ləğv edib. MSK 4, Konstitusiya Məhkəməsi isə 6 seçki dairəsində səsvermənin nəticələrini ləğv edib və həmin dairələrdə təkrar seçkilər təyin edilib.

Beləliklə, qanun pozuntularına yol verəcək amillərin aradan qaldırılması nəticələrin ləğv olunduğu dairələrdə keçirilən təkrar

seçkilərin demokratikliyini və şəffaflığını təmin etdi. Bütün bunların fonunda parlament seçkiləri qanunvericiliyin tələblərinə müvafiq surətdə demokratik, şəffaf və ədalətli surətdə baş tutdu. Nəticə etibarilə, yüksək sosial reytinqə malik olan Yeni Azərbaycan Partiyası növbəti dəfə qələbə qazanaraq 62 deputat mandatı əldə etdi.

Müstəqillikdən sonrakı siyasi tariximizin sayca 4-cü parlament seçkisi 7 noyabr 2010-cu il tarixində baş tutdu. Ümummilli aksiya səciyyəsi daşıyan bu seçkilər təşkili və keçirilməsi səviyyəsinə görə ekspertlər tərəfindən olduqca yüksək səviyyədə qiymətləndirildi. Bu isə təsadüfi deyildi.

Bu proses ümummilli seçkilər kateqoriyasına aid edildiyindən onun hər bir mərhələsi və nəticəsi ölkə üçün sosial-siyasi baxımdan xüsusi önəm kəsb etdi. Çünki parlament seçkilərinin nəticəsi və onun keçirilmə səviyyəsi siyasi sistemi təkmilləşdirən fundamental faktor kimi çıxış edir. Yəni demokratik şəkildə baş tutan seçkilər siyasi sistemin elementlərinin təkmilləşməsinə, vətəndaşların siyasi iştirak və sosiallaşması səviyyəsinin artmasına, onların öz aktiv və passiv seçki hüquqlarından (seçmək və seçilmək hüququ) sərbəst şəkildə istifadə etməsinə, nəhayət, qanunverici orqanın fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artmasına real zəmin yaradır. Bütün bunlar isə kompleks şəkildə ölkənin siyasi sisteminin demokratikləşdirilməsi prosesinə mühüm töhfələr verməklə yanaşı, siyasi subyektlərin sağlam rəqabətini də əsaslı müstəvidə təmin etmiş olur. Qısacası, parlament seçkiləri mahiyyətinə görə siyasi fəallığı və iştirakçılığı artıran, siyasi sistemin rəqabətlilik qabiliyyəti və demokratiklik səviyyəsini yüksəldən, siyasi mədəniyyət və davranışa yeni keyfiyyət çalarları əlavə edən və siyasi sistemin komponentlərini təkmilləşdirən ümummilli aksiya önəmi kəsb edir. Məhz buna görə də, siyasi sistemin və reallığın tələblərinə, qanunauyğunluqlarına müvafiq surətdə demokratiya yolunda addımlayan ölkələr, o cümlədən Azərbaycan üçün bu seçkilərin legitim və demokratik şəkildə keçirilməsi müstəsna əhəmiyyət kəsb etdi.

Əlbəttə ki, parlament seçkilərinin demokratik şəkildə keçiril-

məsini bir neçə amil şərtləndirdi. Bunlara siyasi sistemin demokratiklik səviyyəsi, təkmil Seçki Məcəlləsinin mövcudluğu, siyasi subyektlərin legitim fəaliyyət imkanı və ölkədə hökm sürən sosial-siyasi sabitliyin səviyyəsi aiddir. Bütün bunlar kompleks xarakter daşıdığından hər birinin təmin olunması xüsusi önəm kəsb edir.

İlk növbədə, seçkilərin demokratikliyi təmin edən fundamental faktorlardan biri ölkədə hökm sürən siyasi sabitlik oldu. Seçkiqabağı sosial-siyasi şəraitə nəzər yetirdikdə aydın olur ki, yuxarıda sadalanan fundamental faktorlar ölkəmizdə yüksək səviyyədə təmin olunub. Yəni Azərbaycan növbəti parlament seçkilərinə də təkmil Seçki Məcəlləsi və zəngin qanunvericilik bazası ilə getdi, eləcə də, siyasi sistemin demokratiklik səviyyəsi olduqca yüksək şəkildə təmin olundu. Bütün bunlar isə siyasi subyektlərin legitim fəaliyyətinə xüsusi stimulverici zəmin yaratmış oldu. Ən əsası isə odur ki, seçkiqabağı siyasi sabitlik ənənəvi qaydada – hər zaman olduğu kimi, ən yüksək səviyyədə təmin edildi. Bu faktorun özü Milli Məclisə keçiriləcək seçkilərin tam şəffaf və ədalətli şəkildə baş tutmasının əsas təminatçılarından biri qismində çıxış etdi.

Beləliklə, Azərbaycanda seçkiqabağı siyasi sabitliyi göstərən bir neçə faktı diqqətə çatdırmaq xüsusi önəm kəsb edir. Birincisi, hakimiyyətin müstəsna xidmətləri sayəsində seçkilərdə iştirak edəcək bütün subyektlərə öz platformalarını təbliğ etmək üçün tam ədalətli və demokratik şərait yaradıldı. Bütün aidiyyəti strukturlar mümkün resurslardan istifadə edərək bərabər rəqabət şəraiti yaratmaqla seçkiöncəsi şəraitin demokratiklik və sabitlik səviyyəsini daha da gücləndirdi. İkincisi, ümummilli aksiya önəmi kəsb edən parlament seçkilərinin demokratiklik səviyyəsinə kölgə sala biləcək dağıdıcı hallara və faktorlara qarşı öncədən lazımi tədbirlər görüldü. Bu, inzibati qaydada bütün demokratik ölkələrin üzərinə düşən ali vəzifə xarakteri kəsb etdiyindən Azərbaycan üçün də vətəndaşları qarşısında mövcud olan fundamental missiya önəmi kəsb edir. Dövlətimiz isə bu missiyanın uğurla reallaşdırılması yönündə məxsusi fəaliyyət göstərdi və qanunauyğun nəticə əldə olundu.

Digər tərəfdən, hakimiyyətin uğurlu daxili siyasəti seçkiöncəsi

mərhələdə də sosial-siyasi sabitliyi təmin edən başlıca mexanizm qismində çıxış etmiş oldu. Qısacası, hakimiyyət parlament seçkiləri öncəsi öz üzərinə düşən bütün öhdəlikləri yerinə yetirməklə sahib olduğu resurslardan maksimum səviyyədə istifadə edərək sosial-siyasi sabitliyi yüksək şəkildə təmin etdi.

Seçkilərin demokratik, şəffaf və azad surətdə keçirilməsini şərtləndirən növbəti fundamental faktor seçki qanunvericiliyinin təkmillik səviyyəsi oldu. Qanunvericilik bazası daha da zənginləşdirildi və hüquqi substratlar dəqiq surətdə müəyyənləşdirildi. Məlum olduğu kimi, Azərbaycanın Seçki Məcəlləsi hazırlanarkən beynəlxalq təcrübə əsas götürülüb və bu sənəd Avropa Şurasının Venesiya Komissiyasının müsbət rəyini alıb. Bununla belə, qəbul olunduğu zamandan indiyə qədər də Seçki Məcəlləsinin üzərində təkmilləşdirmə işləri aparılıb. 5 noyabr  2010-cu il parlament seçkiləri ərəfəsində Məcəlləyə edilmiş dəyişikliklər isə seçki müddəti ilə bağlı oldu.

Xatırladaq ki, 2003-cü ildə Seçki Məcəlləsi qəbul edildiyi zaman seçki kampaniyasının müddəti 120 gün nəzərdə tutulurdu. Amma vaxt keçdikcə, seçki orqanlarında təcrübə artdıqca qanunvericilikdə də təkmilləşdirmənin aparılması zərurətə çevrildi. Məcəllənin qəbul edildiyi zamandan hər seçki ərəfəsində bu sənədə dəyişikliklərin edilməsi buna başlıca sübutdur. Konkret olaraq müddət məsələsinə gəlincə, hələ 2008-ci il prezident seçkiləri ərəfəsində YAP tərəfindən seçki müddətinin 120 gündən 60 günə endirilməsi təklifi irəli sürülmüşdü. Amma o zaman həmin müddətin 75 gün olması qərara alındı. Təbii ki, ötən iki il ərzində seçki təcrübəsi artdıqca beynəlxalq praktikanın daha geniş surətdə tətbiqinə imkan yarandı.

Seçkilərin demokratik, şəffaf keçirilməsi məqsədilə MSK tərəfindən də vacib sənədlər qəbul olunub ki, bütün bunlar beynəlxalq seçki təcrübəsinə və Azərbaycanın Seçki Məcəlləsinin tələblərinə əsaslanır. Bu sənədlər sırasına “Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə xüsusi seçki hesablarının açılması qaydaları haqqında”, “Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər-

də kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında", "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı təsdiq edilmiş deputatlığa namizədin müdafiəsi üçün seçici imzalarının toplanması və dairə seçki komissiyasına təqdim edilməsi qaydaları haqqında" təlimatlar, "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi Qaydaları" və s. daxildir.

Bütün görülən işlər isə ölkə vətəndaşlarının seçki hüququnun təmin edilməsinə xidmət edir. Birmənalı şəkildə qeyd etmək olar ki, bu gün Azərbaycanda hər bir seçicinin öz iradəsini sərbəst şəkildə ifadə etməsi üçün bütün imkanlar var. Xatırladaq ki, seçki ərəfəsində vətəndaşların müddəti keçmiş şəxsiyyət vəsiqələri də dəyişdirilib və bu da həmin insanların seçkilərdə iştirakına xidmət edib. Statistik məlumatlara görə, kampaniya dövründə 130 min nəfər vətəndaşın şəxsiyyət vəsiqələri dəyişdirilib. Eyni zamanda, MSK-nın qərarı ilə vaxtı keçmiş vəsiqələrlə də səsvermə mümkün olub. Bütün bunlar isə seçici aktivliyini və yüksək siyasi iştirakçılığı təmin edən xüsusi mexanizm səciyyəsi daşıdı.

Bunlarla yanaşı, qanunvericiliklə təsbit edilmiş prosedurların dəqiq və yüksək surətdə yerinə yetirilməsi də seçkilərin demokratikliyini təmin edən növbəti faktor kimi çıxış etdi. Buraya, ilk növbədə, seçici siyahılarının yüksək səviyyədə hazırlanması aid edilməlidir. Məlum olduğu kimi, hər bir seçkinin hazırlanıb keçirilməsində əsas məsələlərdən biri də seçici siyahılarının lazımi səviyyədə hazırlanmasıdır. Məhz bu baxımdan, Azərbaycan kifayət qədər ciddi və beynəlxalq praktikaya əsaslanmış tədbirlər həyata keçirir. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" 11 may 2005-ci il və "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" 25 oktyabr 2005-ci il tarixli sə-

rəncamlarda Mərkəzi Seçki Komissiyasına və aşağı seçki komissiyalarına hər bir seçiciyə seçici vəsiqəsinin çatdırılmasının təmin olunması, seçici siyahılarının dəqiq və dürüst tərtib edilməsi üçün Seçki Məcəlləsinə uyğun olaraq lazımi tədbirlərin görülməsi tövsiyə edilib, yerli icra hakimiyyəti orqanlarına Seçki Məcəlləsinə uyğun olaraq öz səlahiyyətləri çərçivəsində seçki siyahılarının dəqiq tərtib edilməsinin və məntəqə seçki komissiyalarında seçicilərin ünvanlarının tam göstərildiyi seçici siyahıları ilə bütün maraqlı şəxslərin tanış olmaları üçün müvafiq şərait yaradılmasının təmin olunması tapşırılıb. Qeyd edək ki, Seçki Məcəlləsinin tələblərinə görə, Azərbaycanda seçici siyahıları hər il dəqiqləşdirilir. Yəni seçkilərin keçirilib-keçirilməməsindən asılı olmayaraq, bu proses həyata keçirilir.

Məlum olduğu kimi, seçici siyahıları daimi və müvəqqəti siyahılardan ibarət olur. Daimi seçici siyahılarına müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumu başçılarının, həmçinin, hərbi hissə komandirlərinin aktiv seçki hüququna malik olan (18 yaşından yuxarı) seçicilər haqqında təqdim etdikləri məlumatlar daxil olunur. Müvəqqəti seçici siyahılarına isə diplomatik nümayəndəliklərin və konsul idarələri rəhbərlərinin, eləcə də, seçicilərin müvəqqəti olduqları müəssisələrin (xəstəxanalar, sanatoriyalar, istirahət evləri) rəhbərlərinin aktiv seçki hüququna malik vətəndaşlar haqqında təqdim etdikləri məlumatlar salınır.

Seçki Məcəlləsinə uyğun olaraq seçki məntəqəsi üzrə tərtib olunmuş ilkin seçici siyahılarının birinci nüsxəsi akt tərtib edilməklə məntəqə seçki komissiyasında saxlanılır, siyahının ikinci nüsxəsi hər il fevral ayının 5-dən gec olmayaraq, lakin səsvermə gününə azı 25 gün qalmış dairə seçki komissiyasına verilir. Seçki dairəsi üzrə ilkin seçici siyahıları hər il martın 5-dən gec olmayaraq iki nüsxədə tərtib edilməklə dairə seçki komissiyasının sədri və katibləri tərəfindən imzalanır, komissiyanın möhürü ilə təsdiq olunur və aprelin 5-dək Mərkəzi Seçki Komissiyasına təqdim edilir. Mərkəzi Seçki Komissiyası tərəfindən siyahılarda uyğunsuzluqlar aşkar edilərsə, bunlar düzəldilərək və sonradan

may ayının 25-dək məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiqlənir.

Seçici siyahılarının tərtibi işində müxtəlif praktikalar mövcuddur. Məsələn, dünyanın 50-dən artıq ölkəsində seçicilərin siyahıları fasiləsiz olaraq yenilənir. Rumıniyada, Fransada və dünyanın iyirmiyə yaxın ölkəsində seçicilərin siyahıları hər il, İngiltərədə isə ildə iki dəfə yenilənir. Azərbaycan Seçki Məcəlləsinə əsasən, seçici siyahıları tərtib edilərkən dövlət avtomatlaşdırılmış informasiya sistemindən istifadə edilməsi nəzərdə tutulub. Seçki Məcəlləsinin 47.2-ci maddəsinə görə, vətəndaşın seçki məntəqəsi üzrə seçicilər siyahısına daxil edilməsi üçün onun yaşayış yeri və ya olduğu yer üzrə qeydiyyatını aparan orqanın müəyyənləşdirdiyi müvafiq seçki məntəqəsinin ərazisində daimi yaşaması (seçkilərin elan olunması günündən əvvəlki 12 ayın azı 6 ayı ərzində seçki məntəqəsinin ərazisində yaşaması) faktı əsas götürülür.

Seçici siyahıları məntəqələrdə səsvermə gününə qədər qanunvericilikdə nəzərdə tutulmuş vaxtda asılır və bununla da hər bir seçiciyə həmin siyahı ilə tanış olmaq imkanı yaradılır. Əgər seçici öz adını tapa bilmirsə və ya hansısa səhv aşkarlayırsa, onun müraciəti əsasında məntəqə tərəfindən problem aradan qaldırılır. Seçici siyahılarının hazırlanması qaydalarının daha bir üstünlüyü ondan ibarətdir ki, hətta səsvermə günü seçici öz adını siyahıda tapmırsa, şəxsiyyət vəsiqəsini təqdim etməklə problem dərhal həll olunur. Ümumiyyətlə, bu məsələdə Azərbaycanın təcrübəsi beynəlxalq müstəvidə də təqdir olunur. Xatırladaq ki, ATƏT-in müşahidə missiyasının seçkilərdən öncə açıqlanmış aralıq hesabatında da seçici siyahıları ilə bağlı görülən işlər yüksək qiymətləndirilib.

Beləliklə, sadalananlar onu göstərir ki, 7 noyabr 2010-cu il parlament seçkiləri olduqca zəngin qanunvericilik bazası əsasında keçirilib və hüquqi substratların təkmilliyi seçkilərin demokratikliyini və legitimliyini təmin edib.

Eyni zamanda, müvafiq qurumlar və strukturlar tərəfindən namizədlərə öz təbliğat-təşviqat prosesini sərbəst surətdə təşkil etməyə əlverişli şəraitin yaradılması da seçkilərin demokratiklik səviy-

yəsinin göstəricilərindən biri kimi dəyərləndirilməlidir. Təbliğat-təşviqat mərhələsi seçki kampaniyasında xüsusi yer tutur. Çünki seçkilərdə iştirak edənlər məhz bu mərhələdə özünün platformasını seçicilərə təqdim edir, qələbə qazanmaq üçün ideoloji səciyyə daşıyan sistemli iş aparır. Empirik faktlar təsdiq edir ki, məhz cəmiyyətdə yaxşı tanınan, fəal təşviqat aparan subyektlərin seçkilərdə qələbə qazanmaq şansı daha yüksəkdir. Ölkəmizdə də seçki təşviqatının aparılması qaydaları və prosedurları demokratik qanunvericiliyə uyğun olaraq müəyyənləşdirilib. Qeyd edək ki, Azərbaycan Seçki Məcəlləsinin 13-cü fəsli bütünlükdə seçki təşviqatının aparılması qaydalarına həsr olunub. Eyni zamanda, Mərkəzi Seçki Komissiyası tərəfindən bu məqsədlə "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat" qəbul olunub ki, burada əsasən KİV-lərdə namizədlər üçün bərabər təbliğat aparmaq imkanı təsbit olunub.

Xatırladaq ki, Milli Məclisə seçkilərlə bağlı seçkiqabağı təşviqat səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır. Səsvermə günü və ondan əvvəlki gün saat 8.00-dan başlayaraq hər hansı formada seçkiqabağı təşviqatın aparılması qadağandır. Seçkiqabağı təşviqat aparmaq hüququna malik olan subyektlər isə qeydə alınmış namizədlər, namizədləri qeydə alınmış siyasi partiyalar və seçki blokları, namizədlərin səlahiyyətli nümayəndələri və onlara vəkil edilmiş şəxslərdir.

Bəhs edilən seçkilər ərəfəsində təşviqat prosesinin də qanunvericiliyə uyğun şəkildə keçirilməsi üçün dövlətin müvafiq strukturları tərəfindən lazım olan bütün imkanlar yaradılıb. Namizədlərin bərabər şəkildə mübarizə aparması üçün görülən işlər sırasında müvafiq icra hakimiyyətləri tərəfindən hər bir dairə üzrə açıq və qapalı yerlər ayrılıb. Sadəcə, görüş keçirmək istəyən namizəd müvafiq DSK-ya müraciət etməlidir. Eyni zamanda, seçicilərlə görüş zamanı təhlükəsizliyi polis təmin edir.

Reallıq ondan ibarətdir ki, namizədlərin təşviqat işləri aparma-

sı üçün heç bir məhdudiyyət yoxdur və hamı üçün bu mübarizədə bərabər imkanlar yaradılıb. Amma bu başqa məsələdir ki, bu bərabər imkanlardan tərəflər necə yararlanıb. Təşviqat dövrünün keçən günlərini xatırlasaq, Yeni Azərbaycan Partiyasının namizədlərinin mütəşəkkil kampaniya apardığını əminliklə söyləmək olar. Həm partiyanın mətbu orqanında, həm də ödənişli əsaslarla digər KİV-lərdə təşviqat xarakterli tədbirlər işıqlandırılıb və bütün bunların fonunda YAP-ın əzəmətli təbliğat kampaniyası aparması müşahidə olunub. YAP-dan fərqli olaraq digər partiyaların, o cümlədən seçki bloklarının təşviqat kampaniyası isə sönük keçib. Onların müxalifəti təmsil etməsini nəzərə alsaq, qeyd edə bilərik ki, sosial bazanın azlığı bu düşərgə üçün başlıca problemdir. Xüsusilə, "AXCP-Müsavat" seçki blokunun rəhbərlərinin bəzi qəzetlərdə təqdim olunan görüşlərində bunu aşkar şəkildə görmək mümkündür. Onlar hansısa çayxanada, dayanacaqlarda şəkillər çəkdirib öz qəzetlərində verməklə bunu guya seçicilərlə görüş keçirmək kimi təqdim ediblər. Bu blokun rəhbərliyindən savayı digər namizədlərin görüşləri haqqında isə heç bir məlumat verilməyib. Bu namizədlər yalnız MSK-nın qərarı ilə İctimai Televiziyanın efirində 4 dəqiqəlik pulsuz efir vaxtından istifadə etməklə kifayətləniblər. Yeri gəlmişkən qeyd edək ki, bütün namizədlərə 4 dəqiqəlik pulsuz efir vaxtının verilməsi Azərbaycanda yenilikdir və dünya ölkələrinin belə bir təcrübəsi yoxdur. Bu faktı beynəlxalq müşahidəçilər də təqdir və təsdiq edirlər.

Seçkilərin demokratik surətdə baş tutmasını şərtləndirən və göstərən növbəti fakt ölkə miqyasında müşahidəçilərə əlverişli şəraitin yaradılması olub. Məlum olduğu kimi, Azərbaycan dövləti keçirilən seçkilərin daim geniş beynəlxalq müşahidəçilərin missiyaları tərəfindən izlənilməsinə maraqlıdır. Məhz buna görə də, mütəmadi surətdə müvafiq strukturlar tərəfindən bir sıra beynəlxalq təşkilatlara, ölkə parlamentlərinə və digər qurumlara seçkiləri izləmək üçün dəvətlər göndərilməkdədir. Ümumiyyətlə, Azərbaycanda seçkiləri müşahidə etmək üçün prosedurlar çox sadədir. Bunun nəticəsində də hər seçkini minlərlə müşahidəçi izləmək imkanı qa-

zanır.

Noyabrın 7-də keçirilmiş seçkilərə gəlincə, MSK-nın məlumatına görə, bu prosesi 48 ölkədən olan 1000 nəfərdən artıq beynəlxalq müşahidəçi izləyib. Ümumilikdə isə, ölkə üzrə seçkiləri izləmək üçün 3400-dən çox müşahidəçi qeydiyyatdan keçib. Dairələr üzrə seçkiləri müşahidə etmək üçün 32 min 300-dən çox müşahidəçi qeydə alınıb. Seçki prosesinin izlənilməsində KİV-lər də heç bir problemlə üzləşməyib. Hər bir KİV nümayəndəsi iş vəsiqəsini təqdim etməklə istənilən seçki məntəqəsində səsvermənin gedişini izləyə bilib. Onu da xatırladaq ki, Azərbaycanda parlament seçkilərini işıqlandırmaq üçün 11 xarici KİV nümayəndəsi də MSK-da qeydiyyatdan keçib.

Seçkilərin demokratikliyini təmin edən növbəti fundamental faktor ölkə rəhbərliyinin qəti və güclü siyasi iradəsi olub. Seçkiöncəsi mərhələdə yaradılmış demokratik şəraitin və əsaslı sosial-siyasi sabitliyin əsasında, əlbəttə ki, güclü siyasi iradə durub. Bu siyasi iradə isə ölkə rəhbərliyinin parlament seçkilərinə və demokratikləşmənin daha da sürətlənməsinə verdiyi önəmin bariz təzahürünü təşkil edir. Başqa sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə mütəmadi surətdə prinsipiallıqla davam etdirilən demokratikləşmə siyasəti  Milli Məclisə keçiriləcək seçkilərdə də özünü ən yüksək səviyyədə təcəssüm etdirib. Belə ki, seçkilərin demokratik, azad, şəffaf və ədalətli şəkildə keçirilməsinin vacibliyini və əhəmiyyətini xüsusi şəkildə önə çəkən hakimiyyətin səmərəli fəaliyyəti və yüksək siyasi iradəsi bu məsələdə təməl mexanizm və faktor kimi çıxış edib. Prezident İlham Əliyevin timsalında ən yüksək səviyyədə dəfələrlə bəyan edilib ki, Azərbaycanda vətəndaş cəmiyyətinin mütləq surətdə bərqərar olması və hüquqi dövlətin elementlərinin formalaşdırılması üçün bütün zəruri tədbirlər görülməkdədir. Buna uyğun olaraq isə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasında seçki prosesinin təkmilləşdirilməsinə dair" 11 may 2005 tarixli və "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" 25 oktyabr 2005

tarixli sərəncamlar imzalanıb. Bu göstərişlərə müvafiq surətdə isə seçkilərin mövcud qanunlar çərçivəsində və demokratik şəraitdə keçirilməsi yönündə lazımi tədbirlərin görülməsi üçün spesifik addımlar atılıb.

Sadalananlar onu deməyə əsas verir ki, dövlət başçısının güclü və qəti siyasi iradəsi ölkəmizin demokratiya yolunda irəliləməsini təmin edən fundamental mexanizm qismində çıxış edir. Bu iradə Milli Məclisə keçiriləcək seçkilər ərəfəsində özünü ən yüksək səviyyədə göstərib. Buradan da belə bir nəticə çıxarmaq və proqnoz vermək olur ki, ölkə rəhbərliyinin güclü siyasi iradəsi sayəsində Azərbaycan perspektivdə də demokratiyanı təkmilləşdirən avanqard ölkələr sırasında özünün məxsusi yerini tutacaq.

Bütün bu müsbət faktlarla yanaşı, seçkiöncəsi mərhələdə siyasi arenada bir sıra arzuolunmaz hallar və çatışmazlıqlar da müşahidə olunub. Bu kimi mənfi hallar isə, ilk növbədə, ideoloji-siyasi müstəvidə cərəyan edib. Parlament seçkilərinin ədalətli, demokratik, şəffaf və azad şəkildə keçirilməsi üçün ölkə rəhbərliyi və aidiyyəti strukturlar öz üzərlərinə düşən bütün öhdəlikləri uğurla, yüksək səviyyədə yerinə yetirdikləri halda, bəzi siyasi subyektlər növbəti dəfə dağıdıcı-destruktiv fəaliyyət göstərməkdən çəkinməyiblər. Belə ki, stereotipləşmiş siyasi ideologiya və təfəkkürlə mübarizə meydanına atılan sözügedən qüvvələr öz mövqeləri ilə demokratik seçkilərin üzərinə kölgə salmağa çalışıblar. Bu qüvvələrin başında isə radikal müxalifət nümayəndələri gəlib. Daha dəqiq desək, AXCP, Müsavat kimi yaradılmış demokratik şəraitdən sui-istifadə edən dağıdıcı qüvvələr özlərinin ideoloji-siyasi fəaliyyətləri ilə seçkiöncəsi mərhələdə süni problemlər yaratmağa çalışıblar. Başqa sözlə, siyasi savadsızlıq, köhnə-qəlibləşmiş ideoloji təfəkkür, aşağı səviyyəli siyasi mədəniyyət sözügedən müxalif qrupların başlıca xüsusiyyətlərini təşkil etdiyindən bəhs edilən aktorlar seçki ərəfəsində öz fəaliyyətini yalnız təxribat və təbliğat təmayülləri üzərində qurublar. Bu da nəticə etibarilə müasir şəraitdə Azərbaycan siyasi palitrasında fəaliyyət göstərən aktorların bir qisminin siyasi sistemin ali qanunauyğunluqlarına adaptasiya oluna bilməməsin-

dən xəbər verir. Daha da dəqiqləşdirsək, bu cür qüvvələr ölkənin təkmil siyasi sisteminin dağıdıcı və "autsayder" elementləri qismində çıxış edirlər. Onların fəaliyyətləri vətəndaşların ictimai şüurunu manipulyasiya etmək, böhtan, şantaj, qara piar kimi vasitələrdən istifadə etməklə mövcudluqlarını qoruyub saxlamaq kimi primitiv metodları özündə ehtiva edir. Məhz buna görə də, Azərbaycan xalqı parlament seçkilərində bu cür qüvvələrə birmənalı şəkildə etimadsızlıq göstərərək "yox" deyib. Bütün bunların fonunda mövcud siyasi sistemin qanunauyğunluqları və reallıqları isə qəti şəkildə sözügedən subyektlərin siyasi arenadan "təmizlənməsi"ni tələb edir. Xalq isə artıq bu kimi qüvvələri çoxdan siyasi seçim siyahısından çıxarıb.

Nəticə etibarilə bütün bunların fonunda 7 noyabr 2010-cu il tarixində baş tutmuş parlament seçkiləri tam demokratik səciyyə daşıyaraq siyasi sistemin struktur elementlərinin təkmilləşməsi işinə fundamental töhfələr bəxş etmiş oldu. Seçkilərin nəticələrinə müvafiq olaraq Yeni Azərbaycan Partiyası növbəti dəfə qələbə qazanaraq deputat mandatı əldə etdi.

Parlament seçkilərini müşahidə edən beynəlxalq müşahidə missiyalarının nümayəndələri seçkilərin demokratik standartlar baxımından tələblərə cavab verdiyini bildirdilər. Beynəlxalq müşahidəçilər MSK-nın qərarı ilə bütün namizədlərə pulsuz efir vaxtının ayrılmasını və bərabər hüquqların təmin olunmasını olduqca yüksək səviyyədə qiymətləndirdilər.

ATƏT, ATƏT-in Parlament Assambleyası, Avropa Şurası Parlament Assambleyası və Avropa Parlamentinin Azərbaycanda seçkiləri müşahidə etmiş missiyalarının birgə mətbuat konfransında ATƏT-in qısamüddətli missiyasının rəhbəri Volfhanq Qrossruk məhz bu cür dəyərləndirmə ilə çıxış etdi: **"Azərbaycanda parlament seçkiləri dinc şəraitdə keçirilib. Ölkədə seçkilərin keçirilməsində ciddi irəliləyiş əldə edildiyini söyləmək olar. Bir sıra seçki məntəqələrində səsvermə prosesində problemlər qeydə alınsa da, müsbət məqamlar kimi seçkinin sabitlik mühitində keçməsi, bütün siyasi partiyaların prosesdə iştirakını, MSK-**

**nın iclaslarının açıq olmasını, namizədlərə 4 dəqiqəlik efir vaxtının verilməsini və milli azlıqların da prosesdə təmsil olunmasını göstərmək olar".**

AŞPA-nın müşahidə missiyasının rəhbəri Pol Ville isə bunları deyib: **"Seçkiqabağı mərhələdə müəyyən problemlərin olmasına baxmayaraq, seçkilər əsasən ATƏT və Avropa Şurası standartlarına uyğun keçib. Əlverişli şərait yaradılıb, seçki administrasiyası şəffaf fəaliyyət göstərib".**

Avropa Birliyinin Xarici Siyasət İdarəsinin rəhbəri Ketrin Eşton isə deyib ki, Azərbaycanda parlament seçkiləri dinc şəraitdə baş tutub və bütün müxalifət partiyaları seçkilərdə iştirak edib.

Müstəqil Dövlətlər Birliyinin (MDB) müşahidə missiyasının isə yekun bəyanatında əks olunub ki, 2010-cu il noyabrın 7-də keçirilmiş parlament seçkiləri mövcud seçki qanunvericiliyinin tələblərinə və normalarına uyğun surətdə yüksək səviyyədə keçirilib.

Bundan başqa, noyabr ayının 16-da Avropa Şurasının Parisdəki ofisində Avropa Şurası Parlament Assambleyası (AŞPA) Monitorinq Komitəsinin yığıncağında AŞPA Monitorinq Komitəsinin parlament seçkilərini müşahidə etmiş Azərbaycan üzrə həmməruzəçiləri Pedro Aqramunt və Cozef Debano Qrex müşahidə etdikləri seçkilərin dəyərləndirilməsi səciyyəsi daşıyan məlumatlarla çıxış ediblər: **"Parlament seçkilərini müşahidə edən yerli və beynəlxalq missiyalara hər cür şərait yaradılıb: 2005-ci ildə keçirilmiş parlament seçkiləri ilə müqayisədə bu dəfə istər seçkilərə hazırlıq istiqamətində, istərsə də onun gedişində çox mühüm nailiyyətlər və irəliləyişlər qeydə alınıb. Seçkilərin beynəlxalq normalara müvafiq surətdə baş tutması üçün Mərkəzi Seçki Komissiyası məhsuldar çalışıb. Digər mühüm məqam budur ki, seçkilər sakit şəraitdə keçib. Bundan öncəkindən fərqli olaraq bu seçkidə ölkədəki bütün müxalifət partiyaları iştirak edib. Bu isə özlüyündə yaxşı hal və demokratiyanın inkişafı kimi dəyərləndirilməlidir".**

Beləliklə, seçkiləri izləmiş beynəlxalq müşahidə missiyaları öz hesabatlarında seçkilərin demokratikliyi və legitimliyini təsbit

ediblər. Bu isə bir daha ona dəlalət edib ki, Azərbaycan təkmil seçki institutuna malik olan avanqard demokratik ölkələr sırasında dəyərləndirilməkdədir.

*Respublikamız dövlət müstəqilliyi qazandıqdan sonra milli və bəşəri dəyərləri rəhbər tutan Azərbaycan mətbuatı demokratiya və aşkarlığın mühüm vasitəsi kimi xalqımıza öz ali məqsədlərini həyata keçirmək yolunda müstəsna xidmətlər göstərmişdir*

***Ulu öndər Heydər Əliyev***

***

*Bizim dövlət siyasətimizin əsas məqsədlərindən biri Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsi və müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, KİV-in maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarından respublikada hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması və inkişafı, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsindən ibarətdir*

***Ulu öndər Heydər Əliyev***

***

*Bütövlükdə söz azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir. Söz azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir*

***Prezident İlham Əliyev***

***

*Bizim ümumi məqsədimiz ondan ibarət olmalıdır ki, Azərbaycanı hərtərəfli şəkildə inkişaf etdirək, müasir dövlətə çevirək, dünyada mövcud olan bütün mütərəqqi təcrübəni tətbiq edək, insanların bütün azadlıqlarını təmin edək, hüquqi dövlət quruculuğu işində daha da böyük addımlar ataq*

***Prezident İlham Əliyev***

# XI FƏSİL

# AZƏRBAYCANDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN FORMALAŞMA VƏ TƏŞƏKKÜL MƏRHƏLƏLƏRİ, FƏALİYYƏT MEXANİZMİ VƏ FUNKSİONALLIQ SƏVİYYƏSİ

## 11.1. Media institutu: mahiyyəti, spesifikası və funksiyaları

XXI yüzillik informasiya əsri kimi səciyyələndirilir. Təsadüfi deyil ki, postmodern cəmiyyətlərdə informasiya başlıca idarəetmə vasitəsi kimi təsbit edildiyindən informasiya subyektləri kommunikasiya texnologiyalarının inkişafına xüsusi diqqət yetirir ki, bu da mütəmadi surətdə informasiya resurslarının artırılmasını və təkmilləşdirilməsini şərtləndirən faktor qismində çıxış edir. Xüsusi mübadilə və idarəetmə vasitəsi səciyyəsi daşıyan informasiya resurslarından səmərəli surətdə istifadə edilməsi üçün daim yeni mexanizmlər və texnologiyalara istinad edilir. Amma informasiya resurslarının idarə edilməsi və informasiya siyasətinin həyata keçirilməsi üçün klassik vasitə qismində media təsisatı çıxış edir.

Media təsisatı modern cəmiyyətlərdə başlıca məlumat mübadiləsi vasitəsi səciyyəsi daşıyır. Müasir dövrün qanunauyğunluqlarına və reallıqlarına müvafiq surətdə kütləvi informasiya vasitələri yerinə yetirdiyi funksiyalar etibarilə ictimai rəyi formalaşdıran, istiqamətləndirən, milli münasibətlər zəminində ideoloji substratların təşəkkül tapmasını təmin edən və mənəvi-ideoloji müstəvidə dinamikliyi şərtləndirən təsisat kimi səciyyələndirilir. Məhz buna görə də, politoloji leksikonda kütləvi informasiya vasitələri hakimiyyətin dördüncü qolu adlandırılır. Bu baxımdan, kommunikasiya vasitəsi kimi media təsisatından səmərəli surətdə istifadə edilməsi strateji önəm kəsb edən fundamental vəzifə qismində dəyərləndirilir.

Amma müasir dövrdə dialektik, bir o qədər də ahəngdar və ziddiyyətli proseslərin fonunda media təsisatından yararlanmaqla in-

formasiya resurslarından dinamik maraqlara müvafiq surətdə istifadə edilir. Xüsusilə də, strateji səciyyəli dəyişkən və diversifikasiya olunmuş siyasi maraqların fonunda kütləvi informasiya vasitələrindən bir neçə istiqamətdə istifadə edilir. Bir sıra media təsisatları, ilk növbədə, milli və dövlətçilik maraqlarını nəzərə alaraq məlumatlandırma, maarifləndirmə, səfərbəretmə, inteqrasiya, nəzarət və sosiallaşma kimi funksiyaları yerinə yetirərək cəmiyyəti obyektiv informasiya ilə təmin edir və sağlam ictimai rəy formalaşdırılması işinə mühüm töhfələr bəxş edir. Ancaq sosiumun bütövlüyü və ahəngdar inkişafı prinsipinə məhəl qoymayaraq məhdud dairələri əhatə edən korporativ maraqlar əsasında fəaliyyət göstərən media təsisatları öz funksiyalarından siyasi manipulyasiya vasitəsi kimi istifadə edir və ictimai rəyi konkret qrup mənafeyi əsasında formalaşdırmağa çalışırlar.

Ümumiyyətlə, siyasi manipulyasiya media institutlarının ən çox istinad və istifadə etdiyi metoddur. Elmi ədəbiyyatda siyasi manipulyasiya şüurların gizli surətdə idarə edilməsi metodu kimi təsvir edilir. Bunun fonunda siyasi manipulyasiyanın iki başlıca forması (modeli) fərqləndirilir. Bunlardan birincisi sensitiv modeldir. Manipulyasiyanın sensitiv modeli dedikdə obyekt kimi seçilən qruplara qarşı müxtəlif stimul mexanizmlərindən istifadə edilməsi və müvafiq reaksiyanın alınması nəzərdə tutulur. Nəticə etibarilə, müvafiq reaksiyaların alınması ilə sosial obyektlərin şüuru idarə olunur və yönləndirmə mexanizminin işləkliyi təmin edilir. Manipulyasiyanın rasional modelində daha çox aldadıcı informasiya resurslarından istifadə edilir. Ya tamamilə qara piar səciyyəli yalan məlumatlardan istifadə edilir, ya da doğru informasiyaların təhrif olunması ilə şüurlar manipulyasiya edilir. Rasional manipulyasiya metodunun struktur komponentlərinə bunlar aiddir: informasiyaların konkret maraqlara müvafiq surətdə təhrif edilməsi, informasiyanın qərəzli və yönləndirici detallarla doldurulması, rasional nəticəyə gəlməyə imkan verən informasiya elementlərinin sıradan çıxarılması və məlumata faktları pərdələyən komponentərin daxil edilməsi və s.

Beləliklə, media təsisatı ondan istifadə üsulu və səviyyəsinə görə faydalıdır. Əminliklə ifadə etmək olar ki, kütləvi informasiya vasitələrindən səmərəli surətdə istifadə etməklə cəmiyyətdə həmrəylik, bütövlük yaratmaq, sağlam ictimai rəy formalaşdırmaq və milli zəmində rasional münasibətlər sisteminin əsasını qoymaq, onun davamlılığını təmin etmək olar. Bunun üçün, sadəcə, informasiya resurslarından milli maraqlara müvafiq surətdə istifadə etmək lazımdır. Çünki media təsisatı olduqca əhəmiyyətli funksiyalar yerinə yetirən mexanizmdir. Bunu əsaslandırmaq üçün, sadəcə, bu institutunun yerinə yetirdiyi funksiyalara nəzər yetirmək lazımdır.

Kütləvi informasiya vasitələrinin ilk funksiyası məlumatlandırmadır. Media təsisatlarının fəaliyyətinin təməl prinsipini mövcud faktlar, informasiya resursları əsasında cəmiyyətin məlumatlandırılması təşkil edir. Bu zaman milli maraqlara müvafiq surətdə cəmiyyətdə funksionallıq və dinamikliyi təmin etmək, ictimai rəyi sağlam əsaslarla formalaşdırmaq və istiqamətləndirmək üçün obyektiv informasiyanın sosial obyektlərə çatdırılması strateji önəm kəsb edir.

KİV-in növbəti funksiyası maarifləndirmədir (bəzi ədəbiyyatlarda bunu təhsil funksiyası da adlandırırlar). Maarifləndirmənin bazisini məlumatlandırma təşkil edir və bu funksiya intellektual potensialın formalaşdırılması və zənginləşdirilməsi məramına xidmət edir. Maarifləndirmə funksiyası tam, dəqiq və relevant informasiyanın zamana və situasiyaya müvafiq surətdə çatdırılması sayəsində ictimai faydalı olur.

Medianın inteqrasiya funksiyası dedikdə informasiya resurslarından istifadə etməklə sosial qrupların həmrəyliyinin və ahəngdarlığının təmin edilməsi, sosiumda inteqrasiya meyillərinin gücləndirilməsi, sosial divergensiya tendensiyalarının neytrallaşdırılması və s. nəzərdə tutulur. İnteqrasiya relevant və obyektiv informasiya resurslarında istifadə etməklə təmin edilir və dinamik səciyyə daşıyır.

Səfərbəretmə funksiyası informasiya resurslarından və kommunikasiya texnologiyalarından istifadə etməklə sosial aktorların

müəyyən məsələ ətrafında cəmləşməsini təmin etməklə yanaşı, milli həmrəylik və bütövlüyün yaranmasını şərtləndirir. Milli maraqlara müvafiq surətdə fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin bu funksiyası milli münasibətlər zəminində birləşdirici, təşkiledici başlanğıc səciyyəsi daşıyır. Məhz buna görə də, kütləvi informasiya vasitələrinin bu funksiyası strateji önəm kəsb edən amil kimi dəyərləndirilir.

Sosiallaşdırma funksiyası fərdlərin və qrupların sosial norma və dəyərləri mənimsəməsi, möhkəmləndirməsi missiyasına xidmət edir və sosial aktivliyin şərtləndirici faktoru kimi çıxış edir. Kütləvi informasiya vasitələrinin cəmiyyətə təqdim etdiyi relevant məlumatlar informasiya qəbuledicilərində ümumi rəy formalaşdırır və bu rəy həmin aktorları müəyyən hərəkətlərə, fəaliyyətə sövq edir. Bunun nəticəsində fəaliyyətdə olan fərdlər müəyyən normaları və dəyərləri mənimsəməklə sosial-siyasi proseslərin aktoru qismində təmsil oluna bilirlər.

Nəticə etibarilə, yerinə yetirdiyi funksiyalar etibarilə media institutu cəmiyyətdə ideoloji, mənəvi həmrəyliyin substansional təminatçısı kimi çıxış etmək potensialına sahibdir. Sadəcə olaraq, bu təsisatdan zamana və situasiyaya müvafiq surətdə milli maraqlar əsasında istifadə etmək lazımdır. Məhz bu zaman kütləvi informasiya vasitələri ictimai faydalı mexanizm səciyyəsi daşıyar.

## 11.2. Müstəqillikdən sonra milli mətbuatın təşəkkülü prosesi və inkişaf səviyyəsi: faktlar, reallıqlar və nəticələr

Hər bir demokratik ölkənin əsas atributlarından biri söz, fikir və özünüifadə azadlığının bərqərar olunması, insanların öz düşüncələrini yazılı və elektron mətbuatda sərbəst şəkildə paylaşa bilməsi, cəmiyyətin ayrı-ayrı institutları ilə ünsiyyətdə özünüifadə özgürlüyünün təmin olunmasıdır. Bu baxımdan, modern cəmiyyət quruculuğu yoluna qədəm qoyaraq hüquqi dövlət və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunması istiqamətində sistematik milli inkişaf strategiyası həyata keçirən dövlətlər-

də mətbuatın inkişaf etdirilməsi xüsusi strateji önəm kəsb edən sahə səciyyəsi daşıyır. Məhz bu nöqteyi-nəzərdən, müstəqillikdən sonra qeyri-formal milli dövlət quruculuğu missiyasının fonunda Azərbaycanın qarşısında duran strateji səciyyəli vəzifələrdən biri də media təsisatının formalaşdırılması və təkmilləşdirilməsi idi. Amma müstəqilliyin ilk iki ilində (1991-1993) hakimiyyətdə olan səriştəsiz qüvvələrin irrasional təfəkkürü və qeyri-praqmatik fəaliyyət mexanizminin qanunauyğun nəticəsi kimi, bu sahədə də ciddi problemlər və böhran meyilləri müşahidə olundu. Ölkə miqyasında korporativ maraqlar uğrunda qüvvələrarası antaqonist əlaqələrin kəskinləşməsi, ölkəni imperialist güclərin transmilli maraqları naminə ideoloji mübarizə poliqonuna çevrilməsi, xaotik durumun fonunda bütün strukturlar və təsisatların iflic vəziyyətinə düşməsi media təsisatının da normal surətdə funksionallığının təmin olunmasına imkan vermədi. Bunlarla yanaşı, 1992-ci ildə hərbi senzuranın yaradılması, 1993-cü ildə senzuranın tətbiqinin miqyasının genişləndirilərək bütün informasiya yayımını əhatə etməsi haqqında verilən sərəncamlar mövcud durumu daha da kəskinləşdirdi. Nəticə etibarilə, media institutu dərin ideoloji-hüquqi kataklizmlərin fonunda formalaşa və təkmilləşə bilmədi.

Amma Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlməsindən sonra həyata keçirilən demokratik transformasiya və milli inkişaf strategiyasının fonunda media təsisatının təşəkkülü və inkişafına xüsusi diqqət göstərildi və bu sahədə strateji səciyyəli fundamental işlər görüldü. İlk növbədə, kütləvi informasiya vasitələrinin səmərəli fəaliyyəti üçün qanunvericilik bazası formalaşdırıldı və müvafiq hüquqi substratlar təsbit edildi.

Hələ 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi ərəfəsində onun memarı, yaradıcısı Ulu öndər Heydər Əliyevin səyləri ilə insan və vətəndaş hüquq və azadlıqlarının-sərbəst düşüncə və özünüifadə, dini etiqad və məslək azadlığının təmin olunması istiqamətində xüsusi maddələr Ana Qanuna salındı.

Təsadüfi deyil ki, Konstitusiyamızın məhz üçdəbiri insan və

vətəndaş hüquq və azadlıqlarına həsr edilib. Konstitusiyamızda təsbit edilmiş bu məsələlər Azərbaycanda ictimai münasibətlərin bərqərar olunmasında və ölkənin siyasi institutlaşması prosesində çox mühüm rol oynamışdır. Əlbəttə ki, Konstitusiya ümumi müddəalar toplusu olduğundan bilavasitə ondan doğan hüquqi əsasların tətbiq edilməsi məqsədilə sonradan kifayət qədər normativ aktlar, qanunvericilik aktları, fərmanlar və sərəncamlar qəbul olunmuşdur. Bütün bunlar isə nəticə etibarilə bu gün müşahidə etdiyimiz söz, fikir və özünüifadə azadlığının təşəkkül tapmasına real zəmin yaratmışdır. Azərbaycan Respublikasının Konstitusiyasının 47-ci maddəsində fikir azadlığı təsbit olunmuşdur:

**I.** Hər kəsin fikir və söz azadlığı vardır.

**II.** Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz.

**III.** İrqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqat və təbliğata yol verilmir.

Bundan başqa, Konstitusiyanın 50-ci maddəsində isə məlumat azadlığı təsbit edilmişdir:

**I.** Hər kəsin qanuni yolla istədiyi məlumatı axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır.

**II.** Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır.

**III.** Hər kəsin kütləvi informasiya vasitələrində dərc edilən və onun hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir.

Digər tərəfdən, Ulu öndər Heydər Əliyev Azərbaycan tarixində ilk dəfə olaraq mətbuat üzərində mövcud olan senzuranı ləğv edən dövlət başçısı kimi xatırlanır. Bununla yanaşı, qeyd etmək lazımdır ki, hələ o dövrdə – 1990-cı illərin ortalarında Azərbaycanda informasiya işinin təşkili və onun idarə edilməsi ilə bağlı xüsusi nazirlik yaradılmışdı. Sonrakı dövrdə Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə informasiya üzərində inzibatçılığı aradan qaldırmaq,

onun sərbəst şəkildə yayılmasını, vətəndaşların sərbəst surətdə informasiya almaq hüququnun bərqərar olunmasını təmin etmək üçün bir sıra addımlar atıldı və müvafiq nazirlik ləğv edildi. Bu, özlüyündə sözügedən icra institutunun tamamilə ictimailəşdirilməsi üçün çox ciddi addım oldu. Bundan başqa, 1998-ci ildə Ulu öndər Heydər Əliyev tərəfindən imzalanan "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmana müvafiq surətdə həyata keçirilən işlər kütləvi informasiya vasitələrinin fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılmasına fundamental şərait yaratdı. Həmin Fərmanla Nazirlər Kabineti yanında Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edildi, hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncam qüvvədən düşmüş hesab olundu.

1999-cu ilin sonunda "Kütləvi informasiya vasitələri haqqında" yeni Qanunun qəbulu media təsisatının inkişafını şərtləndirən, bəhs edilən sahəyə müvafiq surətdə sahəvi və ümummilli münasibətləri tənzimləyən hüquqi bazanın zənginləşdirilməsi işinə əhəmiyyətli töhfə oldu.

2000-ci ilin mart ayında Ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqamı" təsdiq olundu. İdarəçilik sisteminin islahatı çərçivəsində Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, kütləvi informasiya vasitələrinin yaranması və fəaliyyətinin hüquqi əsaslarının möhkəmləndirilməsi məqsədilə Milli Mətbuat, Teleradio və İnternet Şurası yaradıldı. Bir sıra qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borcları donduruldu, sonradan isə ləğv edildi. 2003-cü ilin mart ayında Azərbaycan jurnalistlərinin qurultayında media-ictimaiyyət, media-hakimiyyət münasibətlərini tənzimləyən qurum – Azərbaycan Mətbuat Şurası yaradıldı. Bütün bunlar öz növbəsində Azərbaycanda söz, fikir və mətbuat azadlığının bərqərar olunması üçün

əlamətdar tarixi hadisələr kimi qiymətləndirilməlidir.

2003-cü ildə Ümummilli liderimiz Heydər Əliyevin Çingiz Mustafayev Fondu tərəfindən "Jurnalistlərin dostu" adına layiq görülməsi bir daha onu göstərdi ki, milli mətbuatın inkişafına xüsusi diqqət və qayğı göstərən Ulu öndər Heydər Əliyev jurnalistlərin gerçək hamisidir.

2003-cü ildən – İlham Əliyev cənabları Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra bu sahəyə göstərilən diqqət və qayğı daha da artırıldı. Qeyd etmək lazımdır ki, həmin illərdə qarşıya çıxan başlıca problemlərdən biri ondan ibarət idi ki, Azərbaycan mətbuatında dərin bir tənəzzül baş verirdi. Bu isə öz növbəsində Azərbaycan cəmiyyətinin leksikonunda, hətta "reket jurnalistika" kimi öz əksini tapan söz birləşməsinin meydana gəlməsi ilə yadda qaldı. Eyni zamanda, həmin mərhələ obyektivliyin təhrif olunması, qərəzli fikirlərin həqiqət kimi yayılması mənfi tendensiyalarla səciyyələndirilirdi. Məhz bu cür situasiyada Prezident İlham Əliyev bütün baş verənləri dərin təhlil edərək belə bir doğru qənaətə gəlmişdi ki, mövcud mənfi tendensiyaların əsasında duran başlıca səbəb mətbuatın maddi əsaslarının zəif olması problemidir. Çünki həmin dövrdə mətbuat artıq ənənəvi missiyasından – informasiya ötürücüsü rolunu oynamaq missiyasından tamamilə kənara çıxmışdı. Belə ki, mətbuat ucuz yollarla – şantaj, böhtan, manipulyasiya və təhqir yolu ilə maddi qazanc vasitəsinə çevrilmişdi. Məhz belə bir şəraitdə Prezident İlham Əliyev Azərbaycan mətbuatının "xəstəliyi"nə düzgün diaqnoz qoyaraq mövcud problemlərin həlli ilə bağlı xüsusi addımlar atmağa başladı. Bunlardan biri, hətta birincisi jurnalistlərin peşə nüfuzunun artırılması ilə bağlı idi. Bu istiqamətdə fundamental önəm kəsb edən ciddi tədbirlər görüldü. Eyni zamanda, paralel olaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən rasional siyasət kursu nəticəsində iqtisadi qüdrətimiz artdıqca mətbuatın maddi probleminin həlli ilə bağlı çox ciddi addımlar atıldı və müvafiq tədbirlər görüldü. İlk növbədə, öz peşəsini dürüst və obyektiv surətdə yerinə yetirən, Azərbaycan mətbuatının inkişafına xüsusi xidmət edən ayrı-ayrı jurnalistlə-

rin müxtəlif problemlərinin həlli ilə bağlı fundamental addımlar atılmağa başlandı.

Bunun ardınca bütövlükdə mətbuatın maddi problemlərinin həlli istiqamətində xüsusi önəm kəsb edən bir tədbir görüldü. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında" Sərəncamı bəhs edilən missiyanın yerinə yetirilməsi üçün hüquqi substrat oldu. Kütləvi informasiya vasitələrinin (KİV) "Azərbaycan" nəşriyyatına olan borcları tamamilə ləğv edildi. Məlum olduğu kimi, bu borcların ödənilməsi prosesi Ulu öndər Heydər Əliyev tərəfindən dondurulmuşdu. Məhz cənab Prezident İlham Əliyevin göstərişi ilə məlum borcların ləğv edilməsi mətbuatın maddi problemlərinin aradan qaldırılması istiqamətində atılmış fundamental əhəmiyyətli tarixi bir addım idi. Buna paralel olaraq jurnalistlərin peşə nüfuzunun artırılması üçün jurnalist-məmur, jurnalist-vətəndaş, jurnalist-biznesmen çəkişmələrinə hüquqi müstəvidə son qoyulması üçün müxtəlif tədbirlər görüldü. Məhz bundan sonra KİV-in və ayrı-ayrı jurnalistlərin fəaliyyəti ilə bağlı məhkəmələrə müraciətetmə halları aradan qalxdı. Yəni sözügedən çəkişmələr tədricən bitməyə başladı və nəticə etibarilə özünə və peşə dəyərlərinə hörmət edən jurnalistlərin sayı artdı. Bu da mövcud jurnalistik meyillərin müsbətə doğru irəliləməsinə xüsusi töhfə və təkan verdi.

Məhz bu ərəfədə Azərbaycan mətbuatında ilk fundamental keyfiyyət dəyişiklikləri meydana gəlməyə başladı. Bu isə bütövlükdə müstəqil Azərbaycanın mətbuat tarixində keyfiyyət etibarilə yeni mərhələnin başlanmasını şərtləndirən əlamətdar bir hadisə idi. Hesab etmək olar ki, Prezident İlham Əliyev tərəfindən atılan bütün bu addımlar və görülən tədbirlər Azərbaycan mətbuatının inkişafına xüsusi töhfələr bəxş etdi. Belə ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən tədbirlər və həyata keçirilən islahatlar nəticəsində mətbuatda hökm sürən neqativ tendensiyaların tədricən sıradan çıxması müşahidə edilməyə başlandı. Beləliklə, konkret cinayətlər törətmiş və məsuliyyətə cəlb edilmiş – "KİV haqqında" Qa-

nunun tələblərini pozmuş, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə zidd hərəkətlərə yol vermiş jurnalistlərin hüquqi və ictimai-mənəvi müstəvidə cəzalarının yüngülləşdirilməsi üçün müvafiq addımlar atıldı. Nəticə etibarilə, Prezident İlham Əliyev tərəfindən atılan addımlar və görülən tədbirlər mətbuat nümayəndələri tərəfindən uyğun qiymətləndirildi və media sektorunun təmsilçilərinin adekvat addımlar atmasını şərtləndirdi. Məhz bunun sayəsində jurnalistikada özünə və peşə dəyərlərinə hörmət meyilləri artdı. Yəni senzuranın ləğvindən sonra yaranmış korporativ maraqlara xidmət edən, cəmiyyətin parçalanması yönündə dağıdıcı fəaliyyət göstərən "inqilabçı jurnalistika", yaxud "reket jurnalistikası" yavaş-yavaş sıradan çıxmağa başladı.

Bütün bunlardan sonra 2008-ci ildə Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Konsepsiyasının qəbul olunması ilə bağlı qərar qəbul edildi. Məhz bu Konsepsiyada mətbuatın inkişafını təmin edəcək, Azərbaycan dövlətinin və xalqının maraqlarına xidmət edəcək əsaslar öz əksini tapdı. Düşünürük ki, Konsepsiyanın qəbulu və Prezident İlham Əliyevin 3 aprel 2009-cu il tarixli sərəncamı ilə Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun (KİVDF) yaradılması müstəqil Azərbaycan mətbuatının inkişaf tarixində növbəti dönüş mərhələsi kimi dəyərləndirilməlidir. Onu da xüsusi vurğulamaq lazımdır ki, KİVDF-yə ayrılan büdcə Azərbaycan mətbuatının maddi əsaslarını formalaşdırmaqla media qurumlarını sadaladığımız neqativ tendensiyalardan müəyyən mənada ayırdı. Çünki Konsepsiyada əksini tapan şərtlər istər-istəməz jurnalistikanın özünün həqiqi məcrasına yönəlməsini və nəticə etibarilə qeyri-ənənəvi məcrasından uzaqlaşmasını tələb edirdi. Məsələn, Mətbuat Şurasının Reket Jurnalistika ilə Mübarizə Komissiyasının siyahısına düşmüş qəzetlər artıq maddi vəsaitlərdən faydalana bilmirdilər. Bu, jurnalistlərin mətbuata yeni yanaşmasını və baxışını formalaşdırdı. Nəticə etibarilə bütün bunlar jurnalistikada mənəvi atributların və dəyərlərin yenidən bərqərar olunmasını şərtləndirdi. Beləliklə, sadaladığımız tədbirlər və müsbət meyillər Azərbaycan mətbuatının inkişafı prosesinə önəmli töhfələr bəxş

edən əlamətdar tarixi hadisələr oldu.

Bundan başqa, jurnalistlərə fəxri adların verilməsi, obyektiv və qərəzsiz prinsiplər əsasında fəaliyyət göstərən media qurumlarının cəmiyyətin ictimai institutu kimi fəaliyyətinin təqdir edilməsi və sözügedən mətbuat subyektlərinin Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə qiymətləndirilməsi nəticə etibarilə jurnalist peşəsinin ictimai nüfuzunun artmasına gətirib çıxardı. Belə ki, Azərbaycan mətbuatının 135 illik yubileyində Prezident İlham Əliyevin "Azərbaycan milli mətbuatının 135 illiyi ilə əlaqədar tədbirlərin maliyyələşdirilməsi və Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımının göstərilməsi haqqında" Sərəncamı ilə ölkəmizin bir sıra bölgələrində silsilə tədbirlərin keçirilməsi, öz fəaliyyətində fərqlənən 38 jurnalistə "Əməkdar jurnalist" fəxri adının verilməsi, onlarla jurnalistin "Tərəqqi" ordeni ilə təltif edilməsi, qəzet redaksiyalarına, informasiya agentliklərinə birdəfəlik maliyyə yardımlarının edilməsi jurnalistlərin fəaliyyətinə stimullaşdırıcı təsir göstərməklə yanaşı, bu sahənin inkişafını daha da sürətləndirdi.

Beləliklə, bütün bunlar, eyni zamanda, cəmiyyətin digər institutlarının da diqqətini jurnalist peşəsinə yönəltmiş oldu. Bu isə jurnalistlərin peşə nüfuzunun artmasını şərtləndirən xüsusi amil oldu. Prezident İlham Əliyevin yüksəksəviyyəli qayğısını və diqqətini görən digər ictimai-siyasi institutlar bu peşə sahəsi ilə hesablaşmağın və ona hörmətlə yanaşmağın vacibliyini dərk etdilər. Beləliklə, Prezident İlham Əliyevin Sərəncamı həm fərdi qaydada jurnalistlərin müxtəlif problemlərinin həllinə yönəlmiş fundamental mexanizm oldu, həm də jurnalistlərin öz əməlləri nəticəsində itirdikləri ictimai status və nüfuzun yenidən qaytarılmasını təmin etdi. Məhz bu fakt öz növbəsində Azərbaycan mətbuatına münasibətdə böyük hamilik, qayğıkeşlik nümunəsi və ibrət dərsi idi.

Nəticə etibarilə, bu gün jurnalist peşəsini seçən hər bir şəxs bilir ki, onun arxasında özünün hamilik funksiyasını yüksək səviyyədə yerinə yetirən dövlət var, jurnalistlərin konkret maddi təminatı

var və onların problemləri ilə bilavasitə məşğul olan xüsusi qurumlar mövcuddur. Bu da cəmiyyətin ayrı-ayrı təbəqələrini təmsil edən nümayəndələrin bu sahəyə axınını şərtləndirən əhəmiyyətli faktordur. Çünki insanlar Dövlətin yüksək səviyyədə hamilik etdiyi bu sahənin parlaq perspektivini dərk edirlər. Ona görə də, atılan bu addımlar mətbuatın hazırkı maddi, mənəvi-əxlaqi vəziyyətinin və operativlik səviyyəsinin yaxşılaşdırılmasına xidmət edən tədbirlər olmaqla bərabər intellektual gənclərin də bu sahəyə axınını təmin edir.

Qeyd etdiyimiz kimi, Azərbaycan dövlətinin iqtisadi qüdrəti artdıqca KİV-in və jurnalistlərin problemlərinin həlli istiqamətində xüsusi tədbirlər görüldü. Amma 2010-cu ildən etibarən bu problem kütləvi surətdə həll edilməyə başlandı. **Qeyd etmək lazımdır ki, milli mətbuatımızın 138 illik yubileyində media sektorunda səmərəli fəaliyyət göstərmiş, öz fəaliyyəti ilə milli maraqların təmin və müdafiə olunmasına mühüm töhfələr vermiş jurnalistlərin mənzillə təmin olunması nəinki postsovet məkanında, bütövlükdə, dünya miqyasında analoqu olmayan mütərəqqi hadisə idi. Bir məqam xüsusilə vurğulanmalıdır ki, jurnalistlərin mənzil təminatında əsas götürülən kriteriyalardan biri bu sahədəki fəaliyyətin xarakteristikası oldu. Daha da dəqiqləşdirsək, siyasi baxışlarından və ya orientasiyasınan asılı olmayaraq milli maraqlara əsaslanan fəaliyyətlə çıxış edən və ehtiyacı olan jurnalistlər mənzillə təmin edildi. Prezident İlham Əliyev bununla bağlı qeyd etdi ki, mənzil alan jurnalistlərin arasında müxtəlif mətbu orqanların nümayəndələri, müxtəlif siyasi baxışlara malik olan insanlar vardır. Bu da təbiidir və bu təşəbbüs, burada aparılan bölgü bir daha göstərir ki, Azərbaycanda heç bir sahədə ayrı-seçkiliyə yol verilmir və yol verilməməlidir. Məhz buna görə hesab edirəm ki, cəmiyyətdə çox sağlam mühit, sağlam ab-hava vardır. Əlbəttə ki, jurnalistlərin peşəkarlığı, onların ictimai rəydəki fəaliyyəti bu sağlam ab-havanı daha da sağlam edəcəkdir"**

**Bunun ardınca mətbuat nümayəndələrinin sosial müdafiəsinin gücləndirilməsinə dair tədbirlər davam etdirildi. Belə ki,**

**Prezident İlham Əliyev imzaladığı Sərəncamla mətbuat işçilərinə növbəti yaşayış evinin tikintisi üçün ilkin olaraq 5 milyon manat vəsait ayırdı, həmçinin yeni binanın təməli atıldı.**

Bütün bunlar öz növbəsində jurnalistlərə münasibətdə yüksəksəviyyəli qayğının zirvəsi idi. Çünki Müstəqil Dövlətlər Birliyi məkanında heç bir dövlət başçısı tərəfindən mətbuata bu qədər yüksək qayğı və diqqət göstərilməyib. Təsadüfi deyil ki, ünsiyyətdə olduğumuz müxtəlif ölkələrin media təmsilçiləri də Azərbaycan Respublikasında dövlətin mətbuatın inkişafına göstərdiyi yüksəksəviyyəli dəstəyini dərin rəğbət və təəccüb hissi ilə qarşılayırlar. Azərbaycan jurnalistləri xarici ölkələrdə olarkən Dövlətin və Prezident İlham Əliyevin mətbuata yüksəksəviyyəli qayğısı, diqqəti və dəstəyindən fəxarət hissi ilə bəhs edir, eləcə də əksər ölkələrdə belə bir təcrübənin olmadığının şahidi olurlar.

Əlbəttə ki, Azərbaycan Mətbuat Şurasına xüsusi ofisin tikilməsi, onun açılışında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin şəxsən iştirak etməsi, Mətbuat Şurasının İdarə Heyətinin üzvlərini qəbul edərək onların və jurnalistlərin problemlərini dinləməsi, bu problemlərin xüsusi müzakirə obyektinə çevrilməsi, sonra isə onların həlli ilə bağlı real addımların atılması – əsaslı tədbirlərin görülməsi müstəqil Azərbaycan mətbuatının tarixində növbəti fundamental mahiyyət daşıyan əlamətdar hadisə idi. Bu, təkcə maddi problemlərin həlli demək deyildi, eyni zamanda, jurnalistlərin peşə nüfuzunun cəmiyyətdə artırılmasına xidmət edən növbəti mötəbər addım idi. Əslində, mətbuatın inkişafı yönündə Prezident İlham Əliyevin rəhbərliyi ilə qısa müddət ərzində xeyli sayda əhəmiyyətli addımların atılması, əsaslı islahatların həyata keçirilməsi mətbuat nümayəndələrindən məhz bu qayğıya layiq olmağı tələb edir. Yeri gəlmişkən, bir məqamı da xüsusi qeyd etmək lazımdır ki, dünyanın heç bir ölkəsində Azərbaycanda olduğu qədər mətbuata xüsusi diqqət və qayğı mövcud deyil. Məhz buna görə də, Prezident İlham Əliyevin mətbuata islahatçı yanaşmasına adekvat olaraq jurnalistlər də öz üzərinə düşən bütün öhdəlikləri ləyaqətlə yerinə yetirərək Azərbaycan mətbuatını ən azından MDB

məkanında ən inkişaf etmiş mətbuata çevirməyi bacarmalıdır. Çünki qayğı və dəstək etibarilə bu istiqamətdə dövlət öz üzərinə düşən bütün öhdəlikləri yüksək səviyyədə yerinə yetirir. Məhz buna görə də, jurnalistlər öz üzərlərinə düşən bütün məsuliyyəti ləyaqətlə yerinə yetirməklə Azərbaycan mətbuatını dünyanın inkişaf etmiş ölkələrinin mətbuatı səviyyəsinə qaldırmalıyıq.

Beləliklə, sadaladığımız amillərin qanunauyğun nəticəsi kimi, həm iqtidar, həm də müxalifət cəbhəsindəki mətbuat nümayəndələrinin mütləq əksəriyyəti Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2010-cu ildə "Jurnalistlərin dostu" seçilməsinə səs verdi. Sorğuda 30 gündəlik, 19 həftəlik qəzet, 2 jurnal, 11 informasiya agentliyi, 13 jurnalist təşkilatı, 8 informasiya portalı, 7 televiziya və 3 radio kanalı, ümumilikdə isə 93 KİV iştirak edib. Bu, mətbuat təmsilçilərinin qəbul etdiyi ən obyektiv və doğru qərardır. Eyni zamanda, bu, onun göstəricisidir ki, Azərbaycan mətbuatı obyektiv və qərəzsiz düşünməyi bacarır və Prezident İlham Əliyevin onlara göstərdiyi yüksək diqqət və qayğını anlayaraq qiymətləndirə bilir.

## 11.3. Modern informasiya cəmiyyətində milli maraqlar və jurnalistika

Hər bir xalqın milli mətbuatı daima milli və dövlət maraqlarına xidmət etməlidir. Əlbəttə ki, mətbuatın başlıca funksiyası cəmiyyəti obyektiv, tərəfsiz və qərəzsiz informasiya ilə təmin etməkdir. Bu prinsip yalnız o hallarda pozula bilər ki, ortada ümumi ictimai, milli və dövlətçilik maraqları olsun. Belə hallarda, ümumxalq maraqları naminə müəyyən məsələlərdə zərərli informasiyaları cəmiyyətin ali mənafeyinə uyğun şəkildə təqdim etmək olar. Amma bundan başqa, heç bir halda jurnalist öz prinsipiallığını heç bir siyasi qrupun maraqlarına və maraqlı xarici dairələrin tələblərinə və onların istəklərinə güzəştə getməməlidir. Yalnız bu halda mətbuatın milli inkişaf strategiyasına xidmət edən ideoloji institut kimi fəaliyyət mexanizminin səmərəlilik sə-

viyyəsini artırmaq mümkündür.

Əlbəttə ki, Azərbaycan mətbuatının zəngin tarixi ənənələri mövcuddur. Mərhələli surətdə formalaşmış milli mətbuat ənənələrimiz bu gün də mütəmadi qaydada təkmilləşməkdədir. Amma təəssüf ki, hazırkı dövrdə bəzi hallarda ayrı-ayrı həmkarlarımızın fəaliyyətlərində bu prinsipiallıqdan sapmalar, deviasiya meyilləri müşahidə olunur. Nəzərə almaq lazımdır ki, XXI əsr informasiya əsridir və bu əsrdə heç bir güc strukturunun, diplomatiyanın, hərbi sənaye komplekslərinin görə bilmədiyi iş informasiya resursları vasitəsilə görülür. Bu da aydındır ki, hazırda yenidən formalaşdırılan dünyanın ictimai-siyasi xəritəsində məhz informasiya silahının böyük rolu vardır. Beləliklə, informasiya əsri adlandırdığımız XXI əsrdə mətbuatın, informasiya ötürücülərinin, media nümayəndələrinin üzərinə daha artıq məsuliyyət düşür. Qeyd etmək lazımdır ki, bu, tarixi səciyyəli məsuliyyətdir. Ona görə də, jurnalistlər, media ictimaiyyəti bunu dərk etməli, fəaliyyətini də buna uyğun surətdə düzənləməlidir. Kooperativ, marginal maraqlara, bəzi hallarda təzahür edən siyasi ambisiyalara görə milli maraqlardan vaz keçilməməlidir.

Anlaşılandır ki, hər bir vətəndaşın cəmiyyətdə siyasi mövqeyinin olması – siyasi status daşıyıcısı kimi çıxış etməsi normaldır. Amma bu siyasi mövqe yalnız qanun çərçivəsində ifadə olunmalıdır. Özünüifadə hüququ qanunla təsbit olunub və bunun icrası da yalnız qanuni yollarla həyata keçirilməlidir. Əgər tələblər varsa və o tələblər, hətta siyasidirsə belə, bunlar yenə də qanun çərçivəsində olmalıdır. Bu halda hesab edirik ki, jurnalistlər 2 yoldan birini seçməlidirlər: ya aktiv siyasi fəaliyyətlə məşğul olaraq, siyasət yolunu tutmalı, ya da əgər jurnalist olmaq istəyirlərsə, tərəfsiz jurnalist olmalıdırlar. Onsuz da, indiki dövrdə jurnalistika ilə siyasət arasında çox nazik pərdə vardır. Bəzən bunlar arasında olan sərhədin haradan keçdiyinin fərqində ola bilmirik. Ona görə də, bu tarazlığı qorumaq üçün çox həssas olmalı və adekvat davranış forması, modeli seçməlidirlər.

Sirr deyil ki, bu gün bütün dünya mediası siyasiləşib. Bir sıra

Avropa təşkilatları bizim kimi ölkələrə medianı siyasiləşdirməməyi tövsiyə edir. Əslində, diqqətlə analiz etsək, görəcəyik ki, siyasiləşən, siyasi məqsədlərə, siyasi ideologiyaya xidmət edən dünyanın ən böyük transmilli media holdinqləri elə Qərbdədir. Bu holdinqlər konkret maraqlara, mənsub olduqları dövlətin və xalqın maraqlarına xidmət edirlər. Və onu da bilirik ki, fərqli maraqlar hər zaman toqquşur. Ola bilməz ki, iki müxtəlif xalqın maraqları tamamilə eyni olsun və üst-üstə düşsün. Deməli, əks tərəfin hər hansı marağı varsa, orada artıq bizim marağımız onların maraqları ilə toqquşacaq. Belə olan halda, necə olur ki, özünü demokratiyanın təbliğatçısı kimi tanıdan, ayrı-ayrı media strukturları və imperialist güclərin əlində təmərküzləşən media holdinqləri fəaliyyətlərini məhz o güclərin milli maraqlarının müdafiə olunması yönündə qururlar, amma biz öz milli maraqlarımızı qoruyanda, bu, söz azadlığının pozulması kimi qiymətləndirilir. Onların siyasiləşməsi və konkret siyasi maraqlara xidmət etməsi normal hal kimi qəbul olunur, bizim mətbuatda dövlət və milli maraqlarımızın qorunması isə antidemokratik sayılır. Əslində, mahiyyət etibarilə bunların hər ikisi eynidir: siz öz maraqlarınızı qoruyursunuz, biz də öz maraqlarımızı. Necə olur ki, onların mediası öz maraqlarını qoruyanda bu, demokratiya olur, biz öz maraqlarımızı, dövlətimizin, millətimizin, xalqımızın maraqlarını qoruyan zaman bu, medianın siyasiləşməsi olur? Çox təəssüf ki, bu və ya buna bənzər zərərli tendensiyalar davam etməkdədir. Azərbaycan jurnalistlərinin də bəziləri bilərəkdən, bəziləri isə bilməyərəkdən bu informasiya burulğanında, demokratiya-siyasət, siyasət-demokratiya, siyasət-media, media-siyasət oyunlarında o nazik pərdənin harasında – sağında və ya solunda qərar tutacaqlarını müəyyənləşdirə bilmirlər. Ona görə də, hesab edirik ki, jurnalistlər Azərbaycan cəmiyyətinin lokomotivlərindən, dinamik güclərindən biridir və Azərbaycanda demokratik təsisatların formalaşmasında, kamil bir cəmiyyətin yaranmasında çox böyük xidmətləri olan xüsusi bir zümrədir. Bu məxsusi zümrənin təmsilçiləri olmaq isə jurnalistlərin üzərinə yeni vəzifələr qoyur. Amma çox təəssüflər olsun ki, son dövrlərdə baş vermiş

hadisələr bir daha göstərdi ki, Azərbaycanda jurnalistlər heç də həmişə neytrallığını qoruya bilmirlər.

Çox hallarda biz Azərbaycan siyasi palitrasında mövcud olan ayrı-ayrı siyasi güclərdən, partiyalardan daha artıq siyasiləşmiş jurnalistlərə təsadüf edirik. Jurnalistlər bəzi hallarda heç bir siyasi subyektin səsləndirmədiyi, ifadə etmədiyi siyasi tələblər irəli sürürlər. Məsələn, son dövrlər Azərbaycanda müəyyən sosial problemlərlə bağlı müxtəlif siyasi qruplar mitinq keçirməyə cəhd göstərirlər. Mitinqləri təşkil edən qrupların səsləndirdikləri tezislər, fikirlər əslində, bəzi sosial məsələlərlə bağlı olmalıdır. Amma çox təəssüf ki, Azərbaycan mətbuatında ayrı-ayrı həmkarlarımız tərəfindən yazılan yazılarda bu sosial tələblər həddindən artıq siyasiləşdirilir. Yəni jurnalist necə deyərlər, "papanın özündən daha artıq papa olmağa", siyasətçilərdən daha çox siyasətçi olmağa çalışırlar. Ayrı-ayrı fikirləri qəzet səhifələrində o qədər kəskin və təhrif olunmuş şəkildə təqdim edirlər ki, siyasi mövqe jurnalistlərin fəaliyyətinin kölgəsində qalır. Bəzi qəzetlərdə "Azərbaycanda inqilab baş verdi", "Ərəb inqilabı Azərbaycana gəldi" və s. kimi manşetlər yer alır və bunların altında da jurnalistlərin imzaları var. Bu, hansı meyarlarla ölçüləsi jurnalist fəaliyyətidir? Həddindən artıq siyasiləşmiş bəzi həmkarlarımızın antidövlət, anarxist çağırışlarına qarşı müvafiq strukturlar fəaliyyətə keçəndə, onlara qarşı hüquqi əsaslara uyğun surətdə tədbirlər görüləndə həmin şəxslərin jurnalist olduqları dərhal yadlarına düşür və bir an içində çevrilib jurnalist olurlar. Axı onlar dağıdıcı anarxistlər olmaqla, siyasəti mətbuata, mətbuatı siyasətə qarşıdırırlar, dövlət, millət, xalq qarşısında cavab verməyə gələndə isə jurnalist olurlar. Sonra isə aləmə car çəkirlər ki, jurnalist kimi fəaliyyətimiz məhdudlaşdırıldı, söz azadlığı pozuldu və s. Hesab edirik ki, həmkarlarımız qəti şəkildə bu məsələlərə diqqətlə yanaşmalı, peşə qaydalarına istisnasız riayət etməlidirlər.

Elə burada başqa bir fakta da diqqət çəkmək, 2011-ci ilin aprel ayının 2-də təşkil olunmuş və fiaskoya uğramış mitinqdə şahidi olduğumuz bir epizodu xatırlatmaq istəyərdik. Azərbay-

canda fəaliyyət göstərən məşhur xarici radiostansiyalardan birinin nümayəndəsi mitinqdə iştirak edən bir vətəndaşdan soruşur ki, sizin tələbiniz nədir və bu aksiyaya niyə qoşulmusunuz? O isə cavab verir ki, yaxşı olardı ki, cənab Prezidentimiz pensiyamızı bir qədər də artırsın. Jurnalist dərhal soruşur ki, sizin başqa siyasi tələbiniz yoxdurmu? Vətəndaş da bildirir ki, onun başqa heç bir siyasi tələbi yoxdur. Bu dialoqdan da aydın görünür ki, xarici radiostansiyanın müxbiri Azərbaycanda sosial vəziyyətin daha da yaxşı olmasını istəyən bir vətəndaşın fikirlərində mütləq siyasət axtarır. Necə ola bilər ki, xarici radiostansiyanın müxbiri Azərbaycanda vətəndaşları siyasiləşməyə məcbur edir və dövlət əleyhinə siyasi şüarlar səsləndirməyə təşviq edir. Bu, jurnalistikadırmı, bu, jurnalistdirmi? Hesab edirik ki, bunun jurnalistika fəaliyyətinə heç bir aidiyyəti yoxdur.

Şahidi olduğumuz başqa bir epizoda nəzər yetirək. Yerli və ya xarici medianın təmsilçiləri vətəndaşların təhlükəsizliyini və sabitliyi qorumağa çalışan polisi görən kimi, onunla yaxın təmasa girməyə, polisi təxribata çəkməyə çalışır. Başqa bir həmkarı isə onun polislə şəklini çəkib yaymaqla ictimaiyyətdə yanlış fikir formalaşdırır. Dolayısıyla, bir teatr tamaşası yaradırlar. Ən faciəli məsələlərdən biri də odur ki, əyninə KİV nümayəndələri üçün nəzərdə tutulan gödəkcəni geymiş jurnalist qanunu pozan vətəndaş haqqında polis müvafiq tədbir görərkən polislə əlbəyaxa olub, qanunu pozan vətəndaşı müdafiə etməyə çalışır. Yəni jurnalistin peşəsi, vəzifəsi xəbər verməkdir, yoxsa qanunu pozan vətəndaş haqqında qəti tədbirlər görən polislə əlbəyaxa olmaq? Belə olanda, onun özünə də polisə müqavimətə görə qanunun tələbi tətbiq olunanda deyirlər ki, jurnalistlərin hüquqları pozulur. Axı biz bilirik ki, vətəndaş antidövlət, antimillət şüarları səsləndirir, ictimai nizamı pozur, təhqiramiz ifadələr işlədir və polis də müvafiq olaraq, ictimai qaydaları pozduğuna görə ona qarşı müvafiq cəza tədbirlərinin tətbiq edilməsini təmin etməyə çalışır. Jurnalistin vəzifəsi isə bu informasiyanı olduğu kimi cəmiyyətə çatdırmaqdır.

Düşünürük ki, bu tip hadisələr jurnalistlərin peşə nüfuzuna cid-

di ziyan vurur. Jurnalistlər peşə nüfuzlarını qorumaq üçün bu cür addımlardan, deviant davranış formalarından imtina etməlidir. Azərbaycanda jurnalist peşəsinin nüfuzunun özünə qaytarılması ilə bağlı dövlət tərəfindən çox mühüm addımlar atılıb. Prezident İlham Əliyev jurnalistləri nüfuzlu bir peşə sahibləri kimi qəbul edir və onların əməyini daim yüksək qiymətləndirir. Son dövrlər atılan addımlar da bir daha bunu sübuta yetirir. Prezident İlham Əliyevin Sərəncamı ilə KİV-in İnkişafına Dövlət Dəstəyi Fondu yaradılıb. Siyasi mövqeyindən, onun Prezidentə münasibətindən asılı olmayaraq, bütün mətbuat orqanlarına bərabər şəkildə maliyyə dəstəyi verilir, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması üçün fundamental tədbirlər görülür. Eyni zamanda, jurnalistlərin müvafiq icra strukturlarından asanlıqla informasiya əldə etmələri üçün vaxtaşırı bütün dövlət orqanlarına konkret göstərişlər verilir. Dövlət orqanlarında jurnalistlərin azad şəkildə informasiya əldə etmələri üçün xüsusi qurumlar yaradılıb. Amma bir çox jurnalistlər cidd-cəhdlə peşə nüfuzunu aşağı salan hərəkətlərə yol verməyə davam edir. Beləliklə, onlar həm özlərini cəmiyyət qarşısında nüfuzdan salır, həm də dövlətin imicinə ciddi zərbə vururlar. Bu cür deviant davranış formaları yolverilməzdir.

Düşünürük ki, siyasi məsələlərdə jurnalist tərəf olmamalı, siyasilərin özündən daha artıq siyasiləşməməlidir. Onların borcu nəinki siyasətə qoşulmamaq, hətta siyasilərin primitiv, qeyri-etik, radikal siyasi leksikonunu korrektə etmək, hər hansı siyasətçinin antidövlət çağırışının qarşısını almaqdan ibarətdir. Yalnız bu şəkildə onlar Azərbaycanda demokratiyanın daha da inkişafına, siyasi mədəniyyətin bərqərar olunmasına xidmət göstərə bilər.

*İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir*

***Ulu öndər Heydər Əliyev***

***

*Mən tam əminəm ki, əsl açıq demokratik cəmiyyəti ancaq maddi rifah əsasında qurmaq mümkündür. İqtisadi cəhətdən geridə qalmış ölkələrdə demokratik proseslər də geridə qalır. Ona görə iqtisadi islahatların davam etdirilməsi xalqın maddi rifah halının yaxşılaşması, demokratik cəmiyyətin qurulması və formalaşması üçün başlıca şərtdir*

***Prezident İlham Əliyev***

# XII FƏSİL

# MİLLİ İQTİSADİ İNKİŞAFİN SOSİAL-SİYASİ NƏTİCƏLƏRİ: AZƏRBAYCANDA YENİ İQTİSADİ MÜNASİBƏTLƏR SİSTEMİNİN FORMALAŞMASI MƏRHƏLƏLƏRİ

## 12.1. Müstəqilliyin ilk illərində sosial-iqtisadi durum: problemlər və vəzifələr

Hazırkı yüksək inkişaf və tərəqqi mərhələsinə qədəm qoymuş Azərbaycan bu tarixi mərhələyə heç də qısa zaman kəsiyində və asan yolla çatmayıb. Respublikamız qazandığı sosial-iqtisadi uğurlara və bu sahədə nümayiş etdirdiyi artım templərinə yerli resursların səmərəli istifadəsi və sosial ədalət prinsiplərinə uyğun bərabər bölüşdürülməsi, xüsusən də, düşünülmüş mükəmməl iqtisadi strategiyanın həyata keçirilməsi yolu ilə nail olub. Müstəqilliyini yenidən bərpa etmiş Azərbaycanın dinamik templərlə iqtisadi tərəqqisini özündə ehtiva edən inkişaf strategiyasının hazırlanaraq həyata keçirilməsi yalnız Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra mümkün olub. 1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikasında demokratik dövlət quruculuğu və kompleks institusional islahatların həyata keçirilməsi, azad bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılması, yeni iqtisadi dövrün tələblərinə uyğun təsərrüfat sisteminin yaradılması və digər köklü dəyişikliklər obyektiv zərurətə çevrilmişdi.

Yenicə müstəqilliyini bərpa etmiş bütün postsovet respublikaları kimi, Azərbaycanın da qarşısında yeni formasiyanın tələblərinə müvafiq mühüm zəruri siyasi, sosial, iqtisadi, hüquqi vəzifələr dururdu. İnkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, hər bir cəmiyyətin davamlı sosial-iqtisadi inkişafı və yeniləşməsi, dünya birliyinə inteqrasiyası, yeni iqtisadi münasibətlərin formalaşma-

sı yalnız çoxmülkiyyətli bazar iqtisadiyyatı, azad rəqabətin və liberal qiymətlərin üstünlük təşkil etdiyi şəraitdə mümkündür. Məhz bu nöqteyi-nəzərdən, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqil Azərbaycan dövləti həddindən artıq çətin bir vəziyyətlə üzləşmişdi və qeyd etdiyimiz sferalar üzrə əsaslı dəyişiklikləri həyata keçirmək əzmində olan siyasi rəhbərlik lazım idi.

Çox təəssüf ki, olduqca mürəkkəb siyasi və sosial-iqtisadi vəziyyətin səciyyəvi olduğu 90-cı illərin əvvəlində hakimiyyətə səriştəsiz qüvvələrin gəlməsi bu islahatların həyata keçirilməsini mümkün edə bilmədi, hətta Azərbaycanın demokratik dövlət quruculuğu istiqamətində geriləmə müşahidə olundu. İlk növbədə, hakimiyyəti uzurpasiya yolu ilə ələ keçirən siyasi rəhbərliyin səriştəsizliyi ucbatından milli dövlət quruculuğu istiqamətində heç bir iş görülmədi, əksinə, bütün sahələrdə dərin xaos meyilləri hökm sürdü.

Ümumiyyətlə, müstəqil Azərbaycanın azad və liberal bazar iqtisadiyyatına əsaslanan inkişaf yolunu həmin dövrdə, yəni 90-cı illərdə iki əsas mərhələyə ayırmaqla səciyyələndirmək olar: birinci, 1991-1993-cü illəri əhatə edən tənəzzül dövrü, ikinci, 1995-ci ildən başlayan bərpa və dinamik inkişaf dövrləri.

Birinci mərhələnin iqtisadi mənzərəsini həmin illərin makroiqtisadi göstəricilərinə nəzər salmaqla açıq şəkildə görmək olar. Belə ki, 1991-1993-cü illər ərzində ölkə iqtisadiyyatında milli inkişaf tempi hər gün aşağı düşür və ümumi daxili məhsulun (ÜDM) kəskin azalması baş verirdi. ÜDM hər il orta hesabla 16,5 faiz azalırdı. Tənəzzül meyilləri həmin dövrdə iqtisadiyyatın əsas aparıcı bölməsi olan sənayedə xüsusilə kəskin xarakter almışdı və bu sahədə daha dərin böhran tsiklləri nəzərə çarpırdı. Vaxtilə keçmiş ittifaqda aparıcı sənaye respublikası kimi tanınan Azərbaycanın sənaye sektoru yeni müstəqil dövlətlər içərisində ən ağır durumu ilə xarakterizə oluna bilərdi. Məsələn, 1985-ci ilə nisbətən sənaye istehsalının həcmi ölkəmizdə 1991-ci ildə 11 faiz, 1992-ci ildə 37,5 faiz, 1993-cü ildə isə 50,8 faiz azalmışdı. Bu, olduqca yüksək rəqəm idi və milli iqtisadiyyatın tamamilə tənəzzülə uğraması demək idi. Nəzərə alsaq ki, bu dövrdə Azərbaycanın milli iqtisadiyyatının

və milli gəlirlərinin 70 faizə yaxını məhz birbaşa sənaye sektoru ilə bağlı idi, onda mövcud situasiyanın nə dərəcədə ağır olması aydın olur.

1993-cü ildə Azərbaycan istehsal potensialının demək olar ki, 2/3-ni itirmişdi və milli gəlirin əldə olunması yox dərəcəsində idi. Ölkə üzrə istehsal sahələrinin böyük bir hissəsinin sıradan çıxması, digərlərinin isə xammal qıtlığı və satış bazarları problemi ilə üzləşməsi iqtisadiyyatı defolt həddinə çatdırmışdı. Belə bir dövrdə iqtisadi xaos sosial böhranı dərinləşdirirdi, işsizlik səviyyəsi artmışdı və ölkəni kütləvi işsizlik təhlükəsi gözləyirdi. 1992-1993-cü illərdə makroekonomik göstəricilər respublikamızın acınacaqlı vəziyyətini qabarıq şəkildə əks etdirirdi. 1992-ci ildə inflyasiya səviyyəsi 1012,3 faizə çatmışdı. Yəni ölkədə qiymət indeksinə və bazara nəzarət tamamilə itmişdi və maliyyə sistemi demək olar ki, sıradan çıxmışdı. Azərbaycan 1993-cü ildə hiperinflyasiya mərhələsinə qədəm qoymuş və bu dövrdə inflyasiya ən yüksək həddə, 1763,5 faizə çatmışdı. Büdcə kəsirinin ümumi daxili məhsula nisbəti 1991-ci ildəki 0,2 faizdən 1993-cü ildə 15 faizə qədər artmışdı.

Büdcə kəsiri bütövlükdə Milli Bank (indiki Mərkəzi Bank) tərəfindən maliyyələşdirilirdi. 1992-1994-cü illərdə xarici ticarət dövriyyəsinin həcmi 42 faiz azalmış, 1994-cü ilədək ölkə iqtisadiyyatına bir manat da olsun belə xarici sərmayə qoyulmamışdı. Həmin dövrdə Milli Bankın təyin etdiyi uçot dərəcəsi 250 faiz təşkil edirdi. Qeyd etdiyimiz kimi, sosial böhrana yol açan situasiya əhalinin ağır maddi vəziyyətinin yaranmasına səbəb olmuşdu və sosial güzəran daha da ağırlaşırdı. 1991-1994-cü illərdə əhalinin pul gəlirləri real ifadə ilə 3,5 dəfə, adambaşına düşən pul gəlirləri orta hesabla 3,7 dəfə aşağı düşmüşdü. 1991-ci ildən başlayaraq 4 il ərzində əhalinin əməkhaqqısı isə 5,7 dəfə azalmışdı. Bütün bunlar həmin dövrdəki Azərbaycan iqtisadiyyatının mənzərəsini əks etdirən makroiqtisadi göstəricilər idi. Yəni ölkə iqtisadiyyatı idarəolunmaz vəziyyətə düşmüşdü.

## 12.2. Milli iqtisadi inkişaf strategiyası: konseptual əsasları və real nəticələri

Məhz Ümummilli lider Heydər Əliyev 1993-cü ildə ikinci dəfə yenidən hakimiyyətə qayıtdıqdan sonra müstəqil Azərbaycan məhv olmaqdan xilas oldu, ölkədə dövlətçiliyin milli əsaslarının yaradılması istiqamətində köklü dəyişikliklər baş verdi. Onu da qeyd etmək lazımdır ki, həmin dövrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin davam etməsi, 1 milyondan artıq soydaşımızın doğma yurd-yuvasından didərgin düşməsi, Azərbaycanın iqtisadi, siyasi, informasiya blokadasına alınması, keçmiş ittifaqının süqutu nəticəsində respublikalardakı müəssisələr arasında mövcud əlaqələrin pozulması və digər amillər ölkəmizin sosial-iqtisadi həyatında xaosa gətirib çıxarmışdı. Ona görə də, belə bir vəziyyətdə köklü dəyişikliklərə nail olmaq olduqca çətin və ağır bir iş idi. Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi kompleks strateji tədbirlər sayəsində siyasi sabitlik bərqərar olundu, atəşkəs əldə edildi, irimiqyaslı iqtisadi islahatlara başlanıldı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı.

## 12.3. Ümummilli lider Heydər Əliyev ölkənin milli inkişaf konsepsiyasının banisidir

Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə öz həqiqi dövlət müstəqilliyinə qovuşmuş Azərbaycanın inkişaf strategiyası müəyyən edildi. Bu strateji konsepsiya ölkəmizin potensial imkanları, milli mənafeləri, qlobal iqtisadi meyillər, geosiyasi reallıqlar və bu qəbildən olan digər vacib amillər nəzərə alınmaqla hazırlandı. Ulu öndər, ilk növbədə, çoxmülkiyyətli bazar iqtisadiyyatının başlıca tələblərinin təmin olunması istiqamətində siyasi iradə nümayiş etdirdi və iqtisadi transformasiyanın qanunauyğunluqlarını nəzərə alaraq əsaslı islahatlara start verdi. Heydər Əliyev həmin

dövrdə müstəqil dövlətin yeni transformasiyaya keçid ilə islahatlar həyata keçirilməsinin olduqca çətin və mürəkkəb olduğunu bildirirdi: **"Azərbaycan istiqlaliyyət əldə etdiyi vaxtdan bəri öz həyatını, dövlətini, iqtisadiyyatını, öz milli mənafelərini əsas tutaraq demokratiya prinsipləri əsasında qurur. Bu da bütün iqtisadi sistemin ciddi şəkildə yenidən qurulmasını qarşıya bir şərt kimi qoyur. Bununla əlaqədar olaraq Azərbaycan azad iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri əsasında yenidənqurma strategiyasını elan etmişdir və bu yolla gedir. Təbiidir ki, 70 il ərzində başqa sosial-iqtisadi sistem şəraitində yaşamış olan respublika üçün bu yol son dərəcə çətin və mürəkkəbdir. Lakin bununla yanaşı, bu iqtisadiyyatdakı çətinlikləri aradan qaldırmaq, sosial-iqtisadi böhrandan çıxmaq və Azərbaycanı dünya iqtisadi sisteminə qoşmaqdan ötrü iqtisadiyyatın inkişafını beynəlxalq standartlara müvafiq surətdə təmin etmək üçün yeganə yoldur**".

Dünya iqtisadiyyatının başlıca tələblərindən biri iqtisadi transformasiya prosesinin təkamül yolu ilə düşünülmüş və təmkinli olaraq həyata keçirilməsindən ibarətdir. Davamlı və sistemli bir proses olan təkamül yolu bir qayda olaraq iqtisadi münasibətlərin bütün səviyyələrini əhatə edir. Məhz bu mənada təmkinli, uzaqgörən siyasi xətlə paralellik təşkil edən təkamül yolu Azərbaycanda bazar iqtisadiyyatının təməl prinsiplərinə çevrildi.

## 12.4. Çoxmülkiyyətli yeni iqtisadi sistemə keçidin başlıca komponentləri

Ulu öndər Heydər Əliyev həyata keçirilən sistemli və kompleks səciyyəli tədbirlərin fonunda yaxın müddətdə ölkəmizin inkişaf edəcəyinə, xalqın sosial rifah halının yaxşılaşacağına inandığını bəyan edirdi: **"Respublika iqtisadiyyatı, demək olar ki, tamamilə dağıdılıb, xalqın rifah halı aşağı düşüb. Lakin respublikanın böyük sosial-iqtisadi, elmi-texniki potensialı var. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər**

**boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Digər tərəfdən, yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik”.**

Ulu öndər Heydər Əliyev milli iqtisadiyyatın formalaşdırılmasını və ədalətli sosial cəmiyyətə keçidi məhz ilk növbədə, liberal iqtisadiyyatın təmin edilməsində görürdü. Bu məqsədlə, 1994-cü ildən planlı iqtisadi sistemdən liberal bazar iqtisadiyyatına keçid üçün strateji qərarlar qəbul edildi. Məlum olduğu kimi, iqtisadiyyatın liberallaşdırılması özündə çoxsistemli tədbirləri ehtiva edir və islahatların dinamikliyini təmin etmək üçün kompleks tədbirlər həyata keçirilməlidir. Bazar iqtisadiyyatına uyğun qanunvericiliyin, büdcə, vergi, bank-maliyyə sisteminin formalaşdırılması, torpaq və aqrar islahatların həyata keçirilməsi, dövlət əmlakının özəlləşdirilməsi, sahibkarlığın inkişafı üçün əlverişli biznes mühitinin təmin edilməsi reformaların əsas komponentləridir.

Liberal bazar iqtisadiyyatının bütün komponentlərini həyata keçirməyi islahatların başlıca hədəflərinə çevirən Azərbaycan hökuməti 1994-cü ildən başlayan bərpa və dinamik inkişaf dövrünün tələblərinə uyğun qətiyyətli addımlar atdı. Dövlətin tabeçiliyində olan torpaq mülkiyyəti kəndlilərə verildi ki, bu sahədə respublikamız MDB-də ilk islahat aparan ölkə hesab olunur. Digər sahələrdə də özəlləşdirmənin həyata keçirilməsi nəticəsində iqtisadiyyatın strukturunda ciddi keyfiyyət dəyişiklikləri baş verdi və liberal iqtisadiyyatın formalaşması üçün əlverişli zəmin yarandı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı. İqtisadi transformasiyanın sürətləndirilməsi sayəsində planlı iqtisadi sistemdən liberal bazar iqtisadiyyatına keçid üçün münbit şərait formalaşdı. İqtisadiyyatın əsasını təşkil edən neft sektoru ilə yanaşı, digər sahələrdə də genişmiqyaslı islahatlara başlanıldı. Bazar iqtisadiyyatına uyğun qanunvericiliyin, büdcə, vergi, bank sistemlərinin formalaşdırılması, aqrar islahatlarının həyata keçirilməsi, dövlət əmlakının özəlləşdirilməsi, sahib-

karlığın inkişafı üçün əlverişli biznes mühitinin yaradılması nəticəsində bazar iqtisadiyyatına keçidin əsası qoyuldu və sahibkarlıq sinfi formalaşdı.

## 12.5. Müstəqil Azərbaycanın ilk Konstitusiyası iqtisadi inkişafa fundamental hüquqi təminat idi

Çoxmülkiyyətli və liberal iqtisadiyyatı təmin etmək və kompleks islahatlar aparmaq üçün ilk növbədə, maliyyə resurslarının olması olduqca vacibdir. Həmin illərdə ölkəmizin maliyyə resurslarını formalaşdırmaq üçün zəngin xammal ehtiyatlarının istismarı və dünya bazarlarına çıxarılması zəruri idi. 1994-cü il sentyabrın 20-də dünyanın 8 ölkəsini təmsil edən 11 transmilli neft şirkəti ilə "Əsrin müqaviləsi"nin imzalanması və icrasına başlanması ilə Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu. "Əsrin müqaviləsi"ni imzalamaqla respublikamızın yaxın illər üçün güclü maliyyə resurslarının formalaşmasına baza yaratdı. Bir neçə ildən sonra əldə ediləcək mənfəət nefti ölkəmizin sosial-iqtisadi, ictimai-humanitar, elmi-mədəni həyatında əsaslı dönüş yaradacaqdı. Bu tarixi hadisə ilə həm də ölkəmizin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu. Eyni zamanda, Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə böyük miqyasda saziş imzalayan ilk dövlət olmaqla Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını da yaratdı.

Neft-qaz sektorunda həyata keçirilən genişmiqyaslı işlər iqtisadiyyatın digər sahələrinin inkişafında lokomotiv rolunu oynadı. Düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyə nail olundu və davamlı iqtisadi artımın əsası qoyuldu, iqtisadiyyatın bütün sahələrində islahatlara başlandı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı. İqtisadi islahatların və liberal bazar münasibətlərinin genişlənməsi və sürətlənməsi, ilk növbədə, bu sahədə müvafiq qanunların, baza sənədlərinin mövcudluğu, onların təkmilləşdirilməsi ilə sıx bağlıdır.

Buna görə də, Azərbaycan hökuməti iqtisadi qanunvericiliyin təkmilləşdirilməsi, yeni iqtisadi qanunların hazırlanması ilə bağlı bir sıra ciddi addımlar atdı. 1992-1997-ci illərdə "Sahibkarlıq fəaliyyəti haqqında", "Antiinhisar fəaliyyəti haqqında", "Haqsız rəqabət haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" və "Maliyyə sənaye qrupları haqqında" qanunlar qüvvəyə mindi. Bununla yanaşı, qanunvericilik bazasının genişləndirilməsi və təkmilləşdirilməsi ilə bağlı bir sıra işlər görüldü.

Həmin illərdə xarici investorların ölkəyə axınını sürətləndirmək, onlara iş fəaliyyəti üçün əlverişli şərait yaratmaq, xarici ticarəti sərbəstləşdirmək, sahibkarlığı inkişaf etdirmək üçün bir sıra qanunlar qəbul edildi, milli iqtisadiyyatın dünya iqtisadi sisteminə uyğunlaşdırılmasını təmin edən qanunvericilik bazası yaradıldı. Həmin dövrdə qəbul olunan "Sahibkarlıq haqqında" Qanun sahibkarlıq fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirməklə yanaşı, iqtisadiyyatın bazar iqtisadiyyatı yolu ilə inkişafı üçün əlverişli hüquqi zəmin demək idi. 1995-ci ildə qəbul olunan müstəqil Azərbaycanın ilk Konstitusiyası isə respublikamızın siyasi-iqtisadi, sosial-humanitar bölmələri ilə bağlı bütün təfərrüatları özündə əks etdirməklə strateji əhəmiyyətinə görə seçildi. Ulu öndər Heydər Əliyev müstəqil ölkənin ilk Konstitusiyasının iqtisadi və sosial islahatlara, milli inkişafa böyük təminat verdiyini bildirirdi: **“Ümumxalq səsverməsi – referendum nəticəsində müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olunubdur. Azad, demokratik seçkilər əsasında müstəqil Azərbaycan Respublikasının ilk demokratik parlamenti seçilibdir. Qəbul olunmuş Konstitusiya nəinki daxili siyasi sabitliyi təmin edir, həm də götürdüyümüz strateji xəttin həyata keçirilməsi üçün bütün şərait və imkanların yaradılmasını nəzərdə tutur, buna hər cür təminat verir. Təkrar edirəm, demokratik hüquqi dövlət qurulması, demokratik vətəndaş cəmiyyəti yaradılması, bazar iqtisadiyyatına uyğun dəyişikliklərin, iqtisadi islahatların həyata keçirilməsi, xarici investisiyalar, azad sahibkarlıq üçün şərait**

**yaradılması və onun mənafelərinin qorunması, xüsusi mülkiyyətin inkişafının təmin olunması, habelə, şəxsiyyətin, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi – bütün bunlar Konstitusiyamızın müvafiq maddələrində kifayət qədər dolğun və konkret təcəssümünü tapıbdır. Bununla yanaşı, Konstitusiya sahibkarlıq üçün, xarici investisiyalar üçün, xüsusi mülkiyyətin inkişafı üçün tam təminat verir, xüsusi sahibkarlığın mənafelərinin qorunmasını təmin edir".**

## 12.6. İqtisadiyyatın proporsionallığı və balanslaşdırılmış siyasət dinamik inkişafı sürətləndirən fundamental faktor kimi

Beləliklə, iqtisadi sahədə yeni qanunların qəbul olunması, Azərbaycanın iqtisadi qanunlarının Avropa standartlarına uyğunlaşdırılması və digər qanunvericilik təşəbbüsləri respublikamızın milli inkişafını təmin etməklə bərabər, dünya ölkələri ilə sıx inteqrasiyasını dərinləşdirdi, Avropa bazarlarına çıxışı üçün əlverişli imkanlar yaratdı. Bazar iqtisadiyyatının tənzimlənmə mexanizmləri və iqtisadi subyektlərin fəaliyyətinə dövlət nəzarət sisteminin gücləndirilməsi, yeni iqtisadi münasibətlərin fəlsəfi-hüquqi-iqtisadi əsaslarının möhkəmlənməsi, yeni iqtisadi təfəkkürün formalaşması milli iqtisadiyyatın inkişafını sürətləndirdi. 1995-ci ildən başlayaraq iqtisadiyyatın artım tempi hər il əhəmiyyətli dərəcədə yüksəlməyə başladı. 1996-cı ildə ümumi daxili məhsul istehsalının artım tempi 1,5 faiz, 1997-ci ildə həmin rəqəm 5,8 faiz, 1998-ci ildə isə 10 faiz təşkil etdi. İqtisadiyyatın aparıcı sahəsi olan sənayedə geriləmənin qarşısı alındı və bu bölmədə artım müşahidə edildi. Ümumilikdə, 1996-2002-ci illər ərzində sənaye məhsulu istehsalı 23,6 faiz, yaxud orta hesabla ildə 3,6 faiz artdı.

Sənayenin inkişafı ilə yanaşı, kənd təsərrüfatında da yüksək inkişaf meyilləri nəzərə çarpmağa başladı. Ulu öndər Heydər Əliyev milli sahibkarlığın inkişafına xüsusi diqqət yetirir və yerli sahibkarların daha fəal olması sayəsində bazar iqtisadiyyatının inkişafı-

nın sürətlənəcəyinə, özəl bölmənin xüsusi çəkisinin artacağına dərin inam bəsləyirdi: **"Azərbaycanın hər bir sahibkarı özünü respublika iqtisadiyyatının bir hissəsi bilməli və ölkənin iqtisadi tərəqqisi üçün səylər göstərməlidir. Məhz belə sahibkarlar uğurla fəaliyyət göstərə bilər, girişdikləri məsələlərlə sərbəst məşğul ola bilər, öz iqtisadi, intellektual potensialından heç bir məhdudiyyət olmadan istifadə etmək imkanına malik olar, eyni zamanda, Azərbaycanda sahibkarlığın, bazar iqtisadiyyatının inkişafına, böhranın aradan qaldırılmasına kömək göstərə bilərlər. Mən sahibkarlıq fəaliyyəti ilə məşğul olan hər bir Azərbaycan vətəndaşına məhz belə yanaşıram, onlara öz ehtiramımı bildirir, onların fəaliyyətinə səmimi münasibət göstərirəm".**

Ümummilli lider Heydər Əliyevin bu uzaqgörənliyi bir neçə ildən sonra tamamilə öz təsdiqini tapdı. İqtisadiyyatın real inkişaf templəri məhz özəl sektorun payının artması, milli sahibkarlığın aparıcı qüvvəyə çevrilməsi sayəsində mümkün oldu. 1999-cu ilin dekabrında Azərbaycanın mənfəət nefti ilə doldurulmuş ilk tankerinin dünya bazarlarına çıxarılması isə respublikamızın etibarlı maliyyə ehtiyatlarının formalaşmasının əsasını qoydu. Bununla da ölkəmizdə islahatların dinamikliyini daha da artırmaq, irimiqyaslı layihələr həyata keçirmək, əhalinin sosial vəziyyətini daha da yaxşılaşdırmaq üçün davamlı və etibarlı maliyyə rezervləri mənbəyi formalaşdı. Azərbaycan hökuməti mənfəət neftinin satışından daxil olan vəsaitlərin səmərəli idarə edilməsini, həmin vəsaitlərin prioritet sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini başlıca prioritetləri hesab etdiyini ilk gündən atdığı addımlarla sübut etdi.

İqtisadiyyatda aparılan islahatlar ölkənin maliyyə vəziyyətinin yaxşılaşmasını, dövlət büdcəsinin gəlirlərinin ildən-ilə artmasını təmin etdi. 2002-ci ildə dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü ilə nisbətən 85 dəfə artaraq 4,6 trilyon manata (köhnə manatla) çatdı. Beləliklə, tam əminliklə demək olar ki,

1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatı böhran və tənəzzül məngənəsindən çıxaraq, iqtisadi inkişaf və yüksəliş yoluna qədəm qoydu. Ulu öndər milli inkişaf modelinin əsas istiqaməti kimi iqtisadiyyatın sosialyönümlü olmasına mühüm əhəmiyyət verirdi. Məhz bu nöqteyi-nəzərdən, inkişaf edən ölkənin milli gəlirləri sosial proqramların təmin olunmasına yönəldilib.

## 12.7. Sosial ədalət prinsipi və milli gəlirlərin bölüşdürülməsi məsələsi milli inkişaf strategiyasının mühüm komponenti kimi

Milli gəlirlərin bölüşdürülməsini sosial ədalətin başlıca prinsipi hesab edən Azərbaycan hökuməti ölkəmizin maliyyə imkanları yaxşılaşdıqca bu vəsaitləri, ilk növbədə, insanların sosial həyat şəraitinin yaxşılaşmasına yönəltməyə başladı. Bunun nəticəsində respublikamızın ümumi sosial inkişaf göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşdı. 1995-2003-cü illər ərzində ölkəmizdə böyük sosial-iqtisadi dəyişikliklər müşahidə olunmağa başladı. Məsələn, 1994-cü ildə minimum pensiya məbləği təxminən 1 manat təşkil etdiyi halda, bu rəqəm 2003-cü ildə 20 manatı ötdü. Orta aylıq əməkhaqqı isə təxminən 5 dəfə artdı. 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 95 faiz, sənaye məhsulunun həcmi 25,7 faiz, kənd təsərrüfatı istehsalının həcmi 53,9 faiz, dövlət büdcəsinin gəlirləri 3 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, xarici ticarət dövriyyəsi 4 dəfə, orta aylıq real əməkhaqqı 5,1 dəfə artdı. İnflyasiya səviyyəsi isə 2-3 faizə endirildi. Büdcə gəlirləri 1995-ci ildə 500 milyon manat olduğu halda 2003-cü ildə 1,5 milyard manatı ötdü. 2003-cü ildə dövlət büdcəsinin gəlirləri 1,5 milyard manat, xərcləri isə 1,7 milyard manat təşkil etdi. Bu illər ərzində bütün maliyyə mənbələri hesabına iqtisadiyyata yönəlmiş investisiyaların ümumi həcmi 20 milyard ABŞ dollarını keçdi.

Ümumiyyətlə, iqtisadi və sosial islahatların həyata keçirilməsi idarəetmə modeli və onun səciyyəsi ilə sıx bağlıdır. İdarəetmənin doğru, elmi və hərtərəfli həyata keçirilməsini cəmiyyətin normal

və sabit inkişafının əsası hesab etmək olar. İnsanların sosial vəziyyətinin mütəmadi surətdə yaxşılaşdırılması, onların yaşam tərzlərindəki kəskin fərqlərin aradan qaldırılması isə ancaq sosial ədalət prinsipinin idarəetmədə əsas mövqe tutması ilə bərqərar oluna bilər. Azərbaycanın iqtisadi inkişafında hər zaman sosialyönümlülüyün gözlənilməsi ilə əlaqədar olaraq görülən məqsədyönlü tədbirlər hesabına ölkəmizdə beynəlxalq standartlara uyğun sosial müdafiə modeli təşəkkül tapıb. Hər bir ölkənin yüksək inkişafa nail olmasında və cəmiyyətin idarə olunmasında sosial ədalət və milli gəlirlərin ədalətli bölgüsü prinsipi mühüm yer tutur. Sosial ədalət, eyni zamanda, geniş sosial təminatlardır: işlə təmin olunma, təhsil, mədəniyyət, tibbi xidmət, mənzil əldə etmək, yaşlılara, qadınlara, uşaqlara qayğı, gender bərabərliyi deməkdir. Çünki sosial ədalət prinsipi insanların sosial rifah halının yaxşılaşdırılması deməkdir.

Azərbaycan hökuməti bütün bu komponentləri uğurla reallaşdırıb və yüksək nəticələr əldə edib. İqtisadiyyatın proporsional və balanslaşdırılmış inkişafının təmin olunması, həmçinin, effektivliyə doğru irəliləyişi, bazar iqtisadiyyatının intensivləşdirilməsi, liberal iqtisadiyyatın yeni mexanizmlərinin tətbiq olunması və digər islahatlar əhalinin maddi və mənəvi rifahının yüksəlməsinə, sosial ədalətin bərqərar olmasına şərait yaradıb. Bu prinsiplər Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin başlıca hədəflərini təşkil edib və dövlət başçısının rəhbərliyi ilə sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması prosesində mühüm uğurlara imza atılıb.

## 12.8. Milli iqtisadi inkişafın yeni mərhələsi: keçid iqtisadiyyatına son və yeni inkişaf mərhələsi

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasını aktual çağırışlara adekvat cavab verən yeni mütərəqqi çalarlarla zənginləşdirərək uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın tamamilə keçid iqtisadiyyatını arxada qoymasına

nail olub. Yeni inkişaf mərhələsi isə Azərbaycanın milli iqtisadi modelinin tətbiq olunması fonunda başlayıb. Davamlı, dinamik inkişaf məntiqinə əsaslanan bu modelin strateji istiqamətləri tamamilə liberal bazar münasibətlərinə əsaslanan, sosialyönümlü iqtisadi sistemin və milli iqtisadiyyatın formalaşdırılması, ölkədə mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunması, milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasından ibarətdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, liberal iqtisadiyyatın təmin olunması ölkəmizin dünya birliyinə sıx inteqrasiyasını dərinləşdirir: **"Biz tam şəkildə bazar iqtisadiyyatına keçmişik. Azərbaycan iqtisadiyyatı liberal iqtisadiyyatdır, müstəqil, dayanıqlı, öz resurslarına güvənən, dünya birliyinə sürətlə inteqrasiya edən iqtisadiyyatdır"**.

Azərbaycanın yeni iqtisadi modeli çoxşaxəli iqtisadiyyatın inkişafına və innovativ iqtisadiyyatın möhkəmlənməsinə əsaslanır. Bu modelin baza sütunları diversifikasiya siyasətinin dərinləşdirilməsi nəticəsində iqtisadiyyatda liberalizmin daha dərin xarakter almasından, innovasiyaların iqtisadi idarəetmədə möhkəmlənməsindən ibarətdir. Azərbaycan artıq XXI əsrin ikinci onilliyində daha çox neftdən kənar sahələrin inkişafını stimullaşdırmaqla yaxın illərdə qeyri-neft sektorunun tarazlı inkişafını təmin etməyi başlıca məqsəd hesab edir. Postneft mərhələsindən sonra iqtisadiyyatda dominantlığın qeyri-neft sektoruna keçəcəyi şübhəsizdir və artıq bunun təzahürləri açıq şəkildə hiss olunur.

## 12.9. Azərbaycanın yeni milli iqtisadi inkişaf modeli, yaxud milli inkişafın Azərbaycan nümunəsi: reallıqlar, nailiyyətlər və perspektivlər

Ümumiyyətlə, milli iqtisadi inkişaf modeli dedikdə cəmiyyətin məqsədi, inkişaf istiqamətləri və onlara nail olunmasının metod və vasitələri başa düşülür. Hər bir ölkənin özünəməxsus inkişaf yolu və konsepsiyası, eyni zamanda, onların iqtisadi inkişaf modellərini

fərqləndirən xüsusiyyətlər mövcuddur. Bu, iqtisadiyyatın tənzimlənməsində dövlətin iştirak səviyyəsi, iqtisadi inkişafın istiqamətləri, iqtisadi inkişafı təmin edən metod və mexanizmlərin tərkibi, onlardan istifadə səviyyəsi, bazar iqtisadiyyatına keçidi təmin edən iqtisadi islahatların tempidir. Hər bir ölkənin iqtisadi inkişaf səviyyəsini, sosial və milli şəraitini nəzərə alan hökumətin iqtisadi siyasəti əsasında milli inkişaf modeli formalaşdırılır. İqtisadi inkişaf modeli milli iqtisadiyyatın inkişaf yollarını ortaya qoyan baxış olmaqla hökumətin iqtisadi siyasətinin reallaşdırılmasını təmin edən vasitələrin və mexanizmlərin məcmusudur.

Ümumiyyətlə, yeni inkişaf modeli ölkənin mühüm makroiqtisadi göstəricilərinə, kredit reytinqinə, ölkənin valyuta ehtiyatlarına, xarici borc faktoruna, iqtisadi artımın dinamikasına və digər amillərə əsasən hazırlanır və həyata keçirilir. Burada dövlətin gəlirləri, maliyyə sistemi və maliyyə münasibətləri, dövlət büdcəsi, büdcənin gəlir və xərc hissəsinin artım dinamikası, vergi, kredit sistemi, banklar, qiymətli kağızlar bazarı, qloballaşma, struktur siyasəti və beynəlxalq idarəetmə, geoiqtisadiyyat, dünya iqtisadiyyatı və beynəlxalq bazar, kapitalın beynəlxalq hərəkəti, xarici ticarət dövriyyəsi, idxal və ixracın strukturu, nisbəti, dinamikası, sosial siyasət və əhalinin sosial müdafiə sistemi kimi seqmentlər əsas yer tutur. Bu konsepsiya, həmçinin, bazar iqtisadiyyatı və makroiqtisadi idarəetmənin müasir strukturunu, sosialyönümlü bazar iqtisadiyyatı modelini, iqtisadi artımın sürətlənməsində dövlət tənzimlənməsini, inflyasiyanın mahiyyətini, işsizliyin tənzimlənməsini, təhsil, səhiyyə, mədəniyyət, ekologiya digər sahələrin inkişaf meyillərini özündə ehtiva edir.

Son illərdə iqtisadiyyatın şaxələndirilməsi fonunda ölkəmizin makroiqtisadi mənzərəsi tam əminliklə deməyə əsas verir ki, Azərbaycan iqtisadiyyatı struktur baxımından tam modernləşmə mərhələsinə qədəm qoyub. Təbii ki, bu tendensiya birbaşa yeni iqtisadi inkişaf konsepsiyasının məntiqi nəticəsidir.

Diversifikasiya siyasəti ölkəmizin iqtisadi modernizasiyasına təkan verib. Modernləşmə isə iqtisadi-siyasi, ictimai-sosial, elmi-

mədəni bölmələrin struktur və məzmun baxımından dəyişməsi, sivilizasiyaların dinamikliyinə uyğun olaraq yeni dövrün tələblərinə transformasiyasının qanunauyğunluğudur. Bu, siyasi və iqtisadi islahatların sistemli və məntiqi ardıcıllıqla dialektikasıdır. Bu çoxsistemli proses çərçivəsində ictimai münasibətlərin bütün frazaları təkmilləşir, iqtisadiyyatın strukturunda tam yeniləşmə meyilləri müşayiət olunur, yeni qabaqcıl texnologiyalar tətbiq olunur, sosial sferada islahatlar həyata keçirilir, sosiumda rəqabətə əsaslanan dinamik münasibətlər mütəmadi eskalasiya vəziyyətində olur.

## 12.10. Sosialyönümlü iqtisadiyyatın təmin olunması və modernləşmə xətti: milli iqtisadi inkişaf strategiyasının substansional istiqaməti kimi

Azərbaycanın milli iqtisadi inkişafı modeli vahid iqtisadi siyasət strategiyasının fundamental prinsiplərinə əsaslanır. Yeni iqtisadi təfəkkürün formalaşmasında və yeni milli iqtisadiyyatın inkişafında Azərbaycan iqtisadi modeli mükəmməlliyi ilə seçilir. Ölkəmizin inkişaf modeli iqtisadi mahiyyətinə görə, həm də sosiallığı ilə seçilir. Yəni bu modelin alt qatı birbaşa sosialyönümlü liberal iqtisadiyyata bağlıdır. Bu siyasət ictimai münasibətlərin sosial ədalət ruhunda dəyişdirilməsinə, gəlirlərin bərabərləşdirilməsinə, insanlar arasında maddi bölgülərin istehlakında bərabərsizliyin aradan qaldırılmasına və son nəticədə sosial rifahın yüksəldilməsinə hesablanıb. Bu, eyni zamanda, dövlətin iqtisadi gücünün artımı əsasında yeni demokratik cəmiyyətinin qurulmasına kömək edir.

Yeni inkişaf dövrünün iqtisadi tələbləri hazırda ölkəmizin qarşısında tamamilə yeni iqtisadi meyarlar qoyur. XXI əsrin ikinci onilliyində meydana çıxan siyasi-sosial, iqtisadi islahatların dinamikası və yeni dövrün qlobal çağırışları tamamilə müasir iqtisadi modelə ehtiyac yaradır. Dövlət bunun üçün mühüm qanun və məcəllələrə, hüquqi aktlara dəyişiklik etməyi də islahatların əsas komponentləri hesab edir. Hətta güclü dövlət, iqtisadiyyatın inkişafı və yüksək rifah naminə konstitusion dəyişikliklərin edilməsi

də labüddür. Bu mənada 2009-cu ilin mart ayında ölkə Konstitusiyasına edilmiş dəyişiklikləri də pozitiv demokratik islahatların və yeni iqtisadi modelin, iqtisadiyyatın modernizasiyasının tələbləri kimi səciyyələndirmək tam məntiqəuyğundur. Bütün bunlar Konstitusiyanın 12-ci maddəsində geniş şəkildə öz təsbitini tapıb: **“Azərbaycan Respublikası vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir”.**

Eləcə də, Konstitusiyanın 15-ci bəndindəki dəyişikliyin əsas məzmunu sosialyönümlü iqtisadiyyatın təmin edilməsindən ibarətdir: **“Azərbaycan dövləti bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaradır”.** Göründüyü kimi, həm vətəndaşların layiqli həyat tərzinin təmin edilməsi, həm də sosialyönümlü bazar iqtisadiyyatı mexanizmlərinin genişləndirilməsi modernləşmənin, zamanın tələbidir və hökumət bu iqtisadi çağırışları zamanın axarına uyğun ardıcıllıqla həyata keçirmək əzmkarlığını nümayiş etdirir.

İqtisadi modelin uğurla nəticələnməsi həm də dövlətin siyasi qətiyyətindən, onun güclü iradəsindən asılıdır. Dünya dövlətlərinin ağır iqtisadi böhrana məruz qaldığı vaxtda ölkəmizin inkişaf templəri ilə fərqlənməsi mükəmməl iqtisadi modelin tətbiqinin əyani nümunəsi idi. İqtisadi inkişaf sahəsində Azərbaycan modelinin kifayət qədər uğurlu olduğunu son illərin qlobal maliyyə-iqtisadi böhranı da bir daha təsdiq etdi. Belə ki, qlobal maliyyə-iqtisadi böhran nəticəsində bir çox ölkələrdə resessiyaya baxmayaraq, Azərbaycanda makroiqtisadi sabitlik, iqtisadi artım, yoxsulluq səviyyəsinin azalması və əhalinin maddi rifah halının yüksəlməsi 2009-cu ildə də davam etdi və yuxarıda qeyd edildiyi kimi, ÜDM 9,3 faiz artdı. Şübhəsiz ki, bunun və ümumilikdə Azərbaycan iqtisadiyyatının qlobal maliyyə və iqtisadi böhrana qarşı dayanıqlılığının əsas səbəbi son illər Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu sosial-iqtisadi inkişaf və radikal islahatlar strategiyası, toplanmış maliyyə-valyuta ehtiyatları hesabına iqtisadiyyatda yüksək dayanıqlılıq potensialının yaradılması, dövlət başçısı tərəfindən vaxtında irəli sürülmüş səmərəli antiböhran təd-

birlərinin reallaşdırılması, o cümlədən, sahibkarlığa dövlət dəstəyi, real sektora investisiya qoyuluşları, manatın məzənnəsinin sabitliyinin qorunub saxlanılması və digər addımlarla bağlı olub.

## 12.11. İqtisadiyyatın şaxələndirilməsi – Azərbaycanın iqtisadi yüksəlişinə, zənginləşməyə aparan yol

Azərbaycan insan hüquq və azadlıqlarının qorunması, sistemli şəkildə demokratik islahatların miqyasının genişlənməsi, söz və fikir azadlığının inkişafı, vətəndaşların mənafeyinin qorunmasına xidmət edən davamlı tədbirlərin həyata keçirilməsi, bazar iqtisadiyyatının təmin edilməsi, sosial siyasətin dərinləşməsi və digər sahələrdə əhəmiyyətli dərəcədə irəliləyişlər əldə edib. Bütün bu faktorlar ümumilikdə, insan inkişafı indeksi üzrə göstəricilərin yaxşılaşmasına mühüm təsir göstərib.

Son illər Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu sosial-iqtisadi inkişaf və radikal islahatlar strategiyası sayəsində ölkəmizin maliyyə-valyuta ehtiyatları hesabına iqtisadiyyatda yüksək dayanıqlılıq potensialı yaradılıb, sahibkarlığa dövlət dəstəyi, real sektora investisiya qoyuluşları artıb, manatın məzənnəsinin sabitliyi qorunub saxlanılıb. Azərbaycanda makroiqtisadi sabitlik, iqtisadi artım, yoxsulluq səviyyəsinin azalması və əhalinin maddi rifah halının yüksəlməsi 2009 və 2010-cu illərdə davam edib və ÜDM-in bütün strukturunda artım qeydə alınıb.

Azərbaycanın perspektiv uğurlarının yaxın onillikdə müşahidə olunacağını beynəlxalq maliyyə institutları və nüfuzlu təşkilatlar da açıq şəkildə bəyan edir. Məsələn, BMT yanında İnkişaf və Artım Komissiyasının son məruzəsində qeyd olunur ki, “orta gəlirli ölkələr” qrupuna daxil olmaq qısa müddətdə mümkün olmur. 1950-ci ildən sonra belə bir inkişafa 13 ölkə nail olub. Azərbaycanın tam imkanı vardır ki, bu statusu qazanan 14-cü dövlət olsun. XXI əsrin ikinci onilliyini Azərbaycan üçün siyasi, iqtisadi, sosial sahədə tamamilə yeni bir inkişaf mərhələsi kimi qiymətləndirmək olar. Postneft erasından sonrakı dövrdə – yeni onillikdə makroiqti-

sadi sabitliyin qorunub saxlanılması, ölkənin enerji, ərzaq və ekoloji təhlükəsizliyinin gücləndirilməsi üçün sistemli tədbirlərin davam etdirilməsi, iqtisadiyyatın diversifikasiyası genişləndirilməklə neft sektorundan asılılığın minimuma endirilməsi, yeni aqrar sektorun inkişafında intensiv üsullara üstünlüyün verilməsi, iqtisadiyyatın klasterlər üzrə inkişafı, biznes mühitinin daha da təkmilləşdirilməsi, xüsusi iqtisadi zonaların, sənaye şəhərciklərinin, biznes-inkubatorların yaradılması, məsləhət, informasiya təminatının, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və işgüzar əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın iqtisadi modelinin növbəti strateji hədəflərini təşkil edəcək.

## 12.12. Keçid iqtisadiyyatına son və yeni inkişaf mərhələsi

Ulu öndərin əsasını qoyduğu inkişaf strategiyasını zamanın tələblərinə cavab verən yeni çalarlarla zənginləşdirərək uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın tamamilə keçid iqtisadiyyatını arxada qoymasına nail olub. Yeni inkişaf mərhələsi isə Azərbaycanın iqtisadi modelinin tətbiq olunması fonunda başlayıb. Davamlı, dinamik inkişaf məntiqinə əsaslanan bu modelin strateji istiqamətləri tamamilə liberal bazar münasibətlərinə əsaslanan, sosialyönümlü iqtisadi sistemin və milli iqtisadiyyatın formalaşdırılması, ölkədə mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunması, milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasından ibarətdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, liberal iqtisadiyyatın təmin olunması ölkəmizin dünya birliyinə sıx inteqrasiyasını dərinləşdirir: **“Biz tam şəkildə bazar iqtisadiyyatına keçmişik. Azərbaycan iqtisadiyyatı liberal iqtisadiyyatdır, müstəqil, dayanıqlı, öz resurslarına güvənən, dünya birliyinə sürətlə inteqrasiya edən iqtisadiyyatdır”.**

Azərbaycanın yeni iqtisadi modeli çoxşaxəli iqtisadiyyatın inkişafına və innovativ iqtisadiyyatın möhkəmlənməsinə əsaslanır. Bu modelin baza sütunları diversifikasiya siyasətinin dərinləşdiril-

məsi nəticəsində iqtisadiyyatda liberalizmin daha dərin xarakter almasından, innovasiyaların iqtisadi idarəetmədə möhkəmlənməsindən ibarətdir. Azərbaycan artıq XXI əsrin ikinci onilliyində daha çox neftdən kənar sahələrin inkişafını stimullaşdırmaqla yaxın illərdə qeyri-neft sektorunun tarazlı inkişafını təmin etməyi başlıca məqsəd hesab edir. Postneft mərhələsindən sonra iqtisadiyyatda dominantlığın qeyri-neft sektoruna keçəcəyi şübhəsizdir və artıq bunun təzahürləri açıq şəkildə hiss olunur.

### 12.13. Azərbaycanın yeni milli iqtisadi inkişaf modeli

Ümumiyyətlə, milli iqtisadi inkişaf modeli dedikdə cəmiyyətin məqsədi, inkişaf istiqamətləri və onlara nail olunmasının metod və vasitələri başa düşülür. Hər bir ölkənin özünəməxsus inkişaf yolu və konsepsiyası, eyni zamanda, onların iqtisadi inkişaf modellərini fərqləndirən xüsusiyyətlər mövcuddur. Bu, iqtisadiyyatın tənzimlənməsində dövlətin iştirak səviyyəsi, iqtisadi inkişafın istiqamətləri, iqtisadi inkişafı təmin edən metod və mexanizmlərin tərkibi, onlardan istifadə səviyyəsi, bazar iqtisadiyyatına keçidi təmin edən iqtisadi islahatların tempidir. Hər bir ölkənin iqtisadi inkişaf səviyyəsini, sosial və milli şəraitini nəzərə alan hökumətin iqtisadi siyasəti əsasında milli inkişaf modeli formalaşdırılır. İqtisadi inkişaf modeli milli iqtisadiyyatın inkişaf yollarını ortaya qoyan baxış olmaqla hökumətin iqtisadi siyasətinin reallaşdırılmasını təmin edən vasitələrin və mexanizmlərin toplamıdır.

Ümumiyyətlə, yeni inkişaf modeli ölkənin mühüm makroiqtisadi göstəricilərinə, kredit reytinqinə, ölkənin valyuta ehtiyatlarına, xarici borc faktoruna, iqtisadi artımın dinamikasına və digər amillərə əsasən hazırlanır və həyata keçirilir. Burada dövlətin gəlirləri, maliyyə sistemi və maliyyə münasibətləri, dövlət büdcəsi, büdcənin gəlir və xərc hissəsinin artım dinamikası, vergi, kredit sistemi, banklar, qiymətli kağızlar bazarı, qloballaşma, struktur siyasəti və beynəlxalq idarəetmə, geoiqtisadiyyat, dünya iqtisadiyyatı və beynəlxalq bazar, kapitalın beynəlxalq hərəkəti, xarici ticarət dövriy-

yəsi, idxal və ixracın strukturu, dinamikası, sosial siyasət və əhalinin sosial müdafiə sistemi kimi seqmentlər əsas yer tutur. Bu konsepsiya, həmçinin, bazar iqtisadiyyatı və makroiqtisadi idarəetmənin müasir strukturunu, sosialyönümlü bazar iqtisadiyyatı modelini, iqtisadi artımın sürətlənməsində dövlət tənzimlənməsini, inflyasiyanın mahiyyətini, işsizliyin tənzimlənməsini, təhsil, səhiyyə, mədəniyyət, ekologiya digər sahələrin inkişaf meyillərini özündə ehtiva edir.

Son illərin iqtisadiyyatın şaxələndirilməsi fonunda ölkəmizin makroiqtisadi mənzərəsi tam qətiyyətlə onu deməyə əsas verir ki, Azərbaycan iqtisadiyyatı struktur baxımından tam modernləşmə mərhələsinə qədəm qoyub və təbii ki, bu tendensiya birbaşa yeni iqtisadi inkişaf konsepsiyasının məntiqi nəticəsidir.

Diversifikasiya siyasəti ölkəmizin iqtisadi modernizasiyasına təkan verib. Modernləşmə isə iqtisadi-siyasi, ictimai-sosial, elmi-mədəni bölmələrin struktur və məzmun baxımından dəyişməsi, sivilizasiyaların dinamikliyinə uyğun olaraq yeni dövrün tələblərinə transformasiyasının qanunauyğunluğudur. Bu, siyasi və iqtisadi islahatların sistemli və məntiqi ardıcıllıqla dialektikasıdır. Bu çoxsistemli proses çərçivəsində ictimai münasibətlərin bütün frazaları təkmilləşir, iqtisadiyyatın strukturunda tam yeniləşmə meyilləri müşayiət olunur, yeni qabaqcıl texnologiyalar tətbiq olunur, sosial sferada reformalar həyata keçirilir, sosial rəqabətə əsaslanan dinamik cəmiyyət möhkəmlənir.

## 12.14. Sosialyönümlü iqtisadiyyatın təmin olunması və modernləşmə xətti

Azərbaycanın milli iqtisadi inkişafı modeli vahid iqtisadi siyasət strategiyasının fundamental prinsiplərinə əsaslanır. Yeni iqtisadi təfəkkürün formalaşmasında və yeni milli iqtisadiyyatın inkişafında Azərbaycan iqtisadi modeli mükəmməlliyi ilə seçilir. Ölkəmizin inkişaf modeli iqtisadi mahiyyətinə görə, həm də sosiallığı ilə seçilir. Yəni bu modelin alt qatı birbaşa sosialyönümlü liberal

iqtisadiyyata bağlıdır. Bu siyasət ictimai münasibətlərin sosial ədalət ruhunda dəyişdirilməsinə, gəlirlərin bərabərləşdirilməsinə, insanlar arasında maddi bölgülərin istehlakında bərabərsizliyin aradan qaldırılmasına və son nəticədə sosial rifahın yüksəldilməsinə hesablanıb. Bu, eyni zamanda, dövlətin iqtisadi gücünün artımı əsasında yeni demokratik cəmiyyətinin qurulmasına kömək edir.

Yeni inkişaf dövrünün iqtisadi tələbləri hazırda ölkəmizin qarşısında tamamilə yeni iqtisadi meyarlar qoyur. XXI əsrin ikinci onilliyində meydana çıxan siyasi-sosial, iqtisadi islahatların dinamikası və yeni dövrün qlobal çağırışları tamamilə müasir iqtisadi modelə ehtiyac yaradır. Dövlət bunun üçün mühüm qanun və məcəllələrə, hüquqi aktlara dəyişiklik etməyi də islahatların əsas komponentləri hesab edir. Hətta güclü dövlət, iqtisadiyyatın inkişafı və yüksək rifah naminə konstitusion dəyişikliklərin edilməsi də labüddür. Bu mənada 2009-cu ilin mart ayında ölkə Konstitusiyasına edilmiş dəyişiklikləri də pozitiv demokratik islahatların və yeni iqtisadi modelin, iqtisadiyyatın modernizasiyasının tələbləri kimi səciyyələndirmək tam məntiqəuyğundur. Bütün bunlar Konstitusiyanın 12-ci maddəsinə geniş şəkildə öz təsbitini tapıb: **"Azərbaycan Respublikası vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir".**

Eləcə də, Konstitusiyanın 15-ci bəndindəki dəyişikliyin əsas məzmunu sosialyönümlü iqtisadiyyatın təmin edilməsindən ibarətdir: **"Azərbaycan dövləti bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaradır".** Göründüyü kimi, həm vətəndaşların layiqli həyat tərzinin təmin edilməsi, həm də sosialyönümlü bazar iqtisadiyyatı mexanizmlərinin genişləndirilməsi modernləşmənin, zamanın tələbidir və hökumət bu iqtisadi çağırışları zamanın axarına uyğun ardıcıllıqla həyata keçirmək əzmkarlığını nümayiş etdirir.

İqtisadi modelin uğurla nəticələnməsi həm də dövlətin siyasi qətiyyətindən, onun güclü iradəsindən asılıdır. Dünya dövlətlərinin ağır iqtisadi böhrana məruz qaldığı vaxtda ölkəmizin inkişaf templəri ilə fərqlənməsi mükəmməl iqtisadi modelin tətbiqinin əyani

nümunəsi idi. İqtisadi inkişaf sahəsində Azərbaycan modelinin kifayət qədər uğurlu olduğunu son illərin qlobal maliyyə-iqtisadi böhranı da bir daha təsdiq etdi. Belə ki, qlobal maliyyə-iqtisadi böhran nəticəsində bir çox ölkələrdə resessiyaya (işgüzar aktivliyin kəskin azalması ilə müşayiət olunan iqtisadi tənəzzül meyilləri) baxmayaraq, Azərbaycanda makroiqtisadi sabitlik, iqtisadi artım, yoxsulluq səviyyəsinin azalması və əhalinin maddi rifah halının yüksəlməsi 2009-cu ildə də davam etdi və yuxarıda qeyd edildiyi kimi, ÜDM 9,3 faiz artdı. Şübhəsiz ki, bunun və ümumilikdə Azərbaycan iqtisadiyyatının qlobal maliyyə və iqtisadi böhrana qarşı dayanıqlığının əsas səbəbi son illər Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu sosial-iqtisadi inkişaf və radikal islahatlar strategiyası, toplanmış maliyyə-valyuta ehtiyatları hesabına iqtisadiyyatda yüksək dayanıqlıq potensialının yaradılması, dövlət başçısı tərəfindən vaxtında irəli sürülmüş səmərəli antiböhran tədbirlərinin reallaşdırılması, o cümlədən sahibkarlığa dövlət dəstəyi, real sektora investisiya qoyuluşları, manatın məzənnəsinin sabitliyinin qorunub saxlanılması və digər addımlarla bağlı olub.

## 12.15. İqtisadiyyatın şaxələndirilməsi – Azərbaycanın iqtisadi yüksəlişinə, zənginləşməyə aparan yol

Azərbaycan insan hüquq və azadlıqlarının qorunması, sistemli şəkildə demokratik islahatların miqyasının genişlənməsi, söz və fikir azadlığının inkişafı, vətəndaşların mənafeyinin qorunmasına xidmət edən davamlı tədbirlərin həyata keçirilməsi, bazar iqtisadiyyatının təmin edilməsi, sosial siyasətin dərinləşməsi və digər sahələrdə əhəmiyyətli dərəcədə irəliləyişlər əldə edib. Bütün bu faktorlar ümumilikdə, insan inkişafı indeksi üzrə göstəricilərin yaxşılaşmasına mühüm təsir göstərib.

Son illər Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu sosial-iqtisadi inkişaf və radikal islahatlar strategiyası sayəsində ölkəmizin maliyyə-valyuta ehtiyatları hesabına iqtisa-

diyyatda yüksək dayanıqlılıq potensialı yaradılıb, sahibkarlığa dövlət dəstəyi, real sektora investisiya qoyuluşları artıb, manatın məzənnəsinin sabitliyi qorunub saxlanılıb. Azərbaycanda makroiqtisadi sabitlik, iqtisadi artım, yoxsulluq səviyyəsinin azalması və əhalinin maddi rifah halının yüksəlməsi 2009 və 2010-cu illərdə davam edib və ÜDM-in bütün strukturunda artım qeydə alınıb.

Azərbaycanın perspektiv uğurlarının yaxın onillikdə müşahidə olunacağını beynəlxalq maliyyə institutları və nüfuzlu təşkilatlar da açıq şəkildə bəyan edir. Məsələn, BMT yanında İnkişaf və Artım Komissiyasının son məruzəsində qeyd olunur ki, "orta gəlirli ölkələr" qrupuna daxil olmaq qısa müddətdə mümkün olmur. 1950-ci ildən sonra belə bir inkişafa 13 ölkə nail olub. Azərbaycanın tam imkanı vardır ki, bu statusu qazanan 14-cü dövlət olsun. XXI əsrin ikinci onilliyini Azərbaycan üçün siyasi, iqtisadi, sosial sahədə tamamilə yeni bir inkişaf mərhələsi kimi qiymətləndirmək olar. Postneft erasından sonrakı dövrdə – yeni onillikdə makroiqtisadi sabitliyin qorunub saxlanılması, ölkənin enerji, ərzaq və ekoloji təhlükəsizliyinin gücləndirilməsi üçün sistemli tədbirlərin davam etdirilməsi, iqtisadiyyatın diversifikasiyası genişləndirilməklə neft sektorundan asılılığın minimuma endirilməsi, yeni aqrar sektorun inkişafında intensiv üsullara üstünlüyün verilməsi, iqtisadiyyatın klasterlər üzrə inkişafı, biznes mühitinin daha da təkmilləşdirilməsi, xüsusi iqtisadi zonaların, sənaye şəhərciklərinin, biznes-inkubatorların yaradılması, məsləhət, informasiya təminatının, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və işgüzar əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın iqtisadi modelinin növbəti strateji hədəflərini təşkil edəcək.

# II HİSSƏ

# Müstəqil Azərbaycan Respublikası müasir beynəlxalq münasibətlər sisteminin aktoru kimi. Azərbaycan Respublikasının xarici siyasət strategiyası: reallıqlar, nailiyyətlər, nəticələr və perspektivlər

*Respublika qarşısında duran əsas vəzifələrdən biri Azərbaycan mənafeyinin dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycan dövlət müstəqilliyini təmin etməyə yönəlməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikası beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir*

***Ulu öndər Heydər Əliyev***

***

*Biz müstəqil siyasət aparırıq, Azərbaycan xalqının maraqları əsasında bu siyasəti aparırıq və bundan sonra da bu siyasətə sadiq olacağıq*

***Prezident İlham Əliyev***

# XIII FƏSİL

# MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİ VƏ MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI

## 13.1. Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sisteminin müstəqil aktoruna çevrilməsi prosesi: reallıqlar, nailiyyətlər və nəticələr

1990-cı illərin əvvəlində mürəkkəb geosiyasi situasiyanın fonunda müstəqillik əldə etmiş Azərbaycan beynəlxalq münasibətlər sistemində olduqca ciddi və çətin strateji seçim qarşısında idi. Belə ki, beynəlxalq hüququn və beynəlxalq münasibətlər sisteminin tamhüquqlu və müstəqil subyektinə çevrilmiş Azərbaycan Respublikası dövlətlərarası münasibətlər müstəvisində öz mövcudluğunu – varlığını qoruyub saxlamaq üçün praqmatik, rasional və diversifikasiya olunmuş münasibətlər sisteminə əsaslanan xarici siyasət strategiyası həyata keçirməli idi. Bunun üçünsə zəngin dövlətçilik təcrübəsinə malik olan lider siyasətçinin rəhbərliyi ilə milli maraqlar və dəyərlər əsasında xarici siyasət konsepsiyası formalaşdırılmalı və mərhələli surətdə həyata keçirilməli idi.

Xarici siyasət konsepsiyasının təməl müddəaları sırasında Azərbaycanın xarici siyasət resursları, mexanizmləri və prioritetlərinin müəyyən edilməsi, bunlara müvafiq surətdə millətlərarası münasibətlərin aktorları qismində çıxış edən milli dövlətlərlə paritet əsaslı ikitərəfli və çoxtərəfli əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin formalaşdırılması istiqamətində strateji səciyyəli fundamental tədbirlərin görülməsi, milli maraqlar əsasında beynəlxalq təhlükəsizlik sisteminə inteqrasiya olunması, regional və beynəlxalq təşkilatlarla qarşılıqlı-faydalı işbirliyinin yaradılması və s. kimi təməl strateji vəzifələr yer almalı idi. Məhz bu vəzifələrə müvafiq surətdə həyata keçiriləcək praqmatik xarici siyasət strategiyası SSRİ-nin süqutundan sonra beynəlxalq münasibətlər sisteminin formal aktoruna çevrilmiş Azərbaycan Respublikasının beynəl-

xalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasına daxil olmasını və irəliləyişini təmin edəcəkdi.

Amma müstəqilliyin ilk iki ilində hakimiyyətdə olan səriştəsiz qüvvələrin irrasional təfəkkürü və qeyri-praqmatik fəaliyyəti nəticəsində Azərbaycan nəinki beynəlxalq münasibətlər sisteminin qeyri-formal aktoruna çevrilmədi, hətta mürəkkəb siyasi-hüquqi kataklizmlərin fonunda müxtəlif xarici güclərin mübarizə meydanına və ideoloji qarşıdurma poliqonuna çevrildi. Belə ki, hakimiyyətdə olan qüvvələrin "hami" axtarışı imperialist güclərin dağıdıcı maraqlar əsasında ölkəmizə yönəlməsinə təkan verdi. Nəticə etibarilə, yeni müstəqillik əldə etmiş Azərbaycan müəyyən nüfuz və təsir imkanlarına malik olan regional və qlobal aktorların ekspansionalist aktları ilə qarşı-qarşıya qaldı.

Məhz bu cür mürəkkəb situasiya özü ilə bərabər yeni problemlər və vəzifələr gətirdi. **Əgər müstəqillik əldə etdikdən sonra beynəlxalq hüququn tamhüquqlu subyekti statusu əldə etmiş Azərbaycanın qarşısında beynəlxalq münasibətlər sisteminin müstəqil aktoruna çevrilmək və sistemin nüfuz və güc iyerarxiyasında qərar tutmaqla irəliləyişi təmin etmək vəzifəsi dururdusa, artıq bu mərhələdə sadaladıqlarımızla yanaşı, yanlış və qeyri-praqmatik xarici siyasət strategiyasının fonunda ortaya çıxmış problemlər və kataklizmlərin aradan qaldırılması zərurəti mövcud id**i. Amma 1991-1993-cü illər ərəfəsində ölkəyə zəngin dövlətçilik təcrübəsinə malik olan lider siyasətçinin rəhbərlik etməməsi bu vəzifələrin yerinə yetirilməsini mümkün etmədi.

1993-cü ildə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra bütün bu vəzifələrin yerinə yetirilməsi və problemlərin həll edilməsi mümkün oldu. Belə ki, ilk növbədə, ölkədə ictimai-siyasi vəziyyəti kəskinləşdirən faktor kimi çıxış edən xarici güclərin müdaxiləsi aradan qaldırıldı və müxtəlif dövlətlərin həyata keçirməyə çalışdığı bölücülük meyilləri, "mərkəzdənqaçma" tendensiyaları neytrallaşdırıldı. Bununla da Azərbaycan imperialist güclərin geosiyasi oyunlar mərkəzi olmaq təhlükəsindən xilas oldu. Doğrudur, Ulu öndər

Heydər Əliyevin ictimai-siyasi sabitliyin təmin olunması yönündə həyata keçirdiyi praqmatik və rasional tədbirlərin fonunda imperialist güclər də əks reaksiya kimi bir sıra eksses aktlarına istinad etdilər. Amma Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin praqmatik fəaliyyət mexanizmi bəhs edilən həmlələrin və dissonansların neytrallaşdırılmasını təmin etdi.

Beləliklə, xarici faktorlar və aktlar neytrallaşdırıldıqdan sonra praqmatik xarici siyasət strategiyasının reallaşdırılması mümkün oldu. Bundan sonra milli maraqlara müvafiq surətdə beynəlxalq münasibətlərin aktoru kimi çıxış edən milli dövlətlərlə müxtəlif sahələrdə qarşılıqlı-faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətləri formalaşdırıldı. Beynəlxalq münasibətlər sisteminin təcrübi əsaslarından məlumdur ki, yeni müstəqillik əldə etmiş bir çox milli dövlətlər rasional xarici siyasət konsepsiyası formalaşdıra bilmir, əsasən, hansısa güc mərkəzinin milli və transmilli maraqlarına müvafiq prioritetlər müəyyənləşdirilir. Bunun fonunda isə müstəqil xarici siyasət kursu həyata keçirilə bilinmədiyindən milli maraqların təmin olunması və suveren təmsilçiliyin formalaşdırılması mümkün olmur. Beləliklə, müstəqillik formal səciyyə daşıyır və suverenlik səviyyəsi nisbi səciyyə daşıyır... Müstəqilliyin ilk iki ilində ölkəmiz bu problemlə üzləşsə də, Ulu öndər Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlişindən sonra həyata keçirilən praqmatik xarici siyasət strategiyası sayəsində Azərbaycan bu problemi arxada qoydu. Nəticə etibarilə, milli maraqlara adekvat olan müstəqil xarici siyasət strategiyası Azərbaycanın beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında irəliləyişini mümkün etdi.

Məhz həmin dövrdə ziddiyyətli və böhranlı durumun fonunda müstəqil Azərbaycan Respublikasının xarici siyasət vəzifələri, məqsədləri və öncəliklərini Ümummilli lider Heydər Əliyev bu cür səciyyələndirirdi: “**Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci**

**növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir**".

Beləliklə, Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi müstəqil, tarazlı və praqmatik xarici siyasət strategiyası sayəsində bütün bu vəzifələr mərhələli surətdə ardıcıllıqla yerinə yetirildi. İlk növbədə, milli dövlətimizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması istiqamətində əhəmiyyətli tədbirlər görüldü. Buna müvafiq olaraq xarici siyasət resursları formalaşdırıldı, mexanizm yaradıldı, prioritetlər müəyyənləşdirildi. Daha sonra daimi və aralıq səciyyə daşıyan milli maraqlara müvafiq surətdə beynəlxalq münasibətlər sisteminin aktorları (milli dövlətlər, regional və beynəlxalq təşkilatlar) ilə siyasi, iqtisadi, mədəni-humanitar və digər sahələrdə bərabərtərəfli, paritet əsaslı əməkdaşlıq münasibətləri formalaşdırıldı. Siyasi sahədə qarşılıqlı-faydalı maraqlara əsaslanan münasibətlər formalaşdırıldı, beynəlxalq müstəvidə ölkələrin bir-birini dəstəkləməsi üçün dinamik səciyyəli maraqların nəzərə alınması ilə möhkəm təməllərə söykənən ikitərəfli və çoxtərəfli təmaslar formalaşdırıldı. Daha sonra ümumi təhlükəsizlik balansına və milli maraqlara cavab verən beynəlxalq təşkilatlarda təmsilçilik üçün müvafiq tədbirlər görüldü. Eyni zamanda, Azərbaycanın əvvəllər üzv olduğu, amma formal surətdə təmsil olunduğu beynəlxalq təşkilatlarda (BMT, İKT və s.) mövqeyinin möhkəmləndirilməsi istiqamətində fundamental əməli tədbirlər görüldü. İqtisadi sahədə qarşılıqlı-faydalı maraqlar əsasında əməkdaşlıq münasibətləri formalaşdırıldı, müxtəlif layihələr gündəmə gəldi və görülən əməli tədbirlər sayəsində Azərbaycan iqtisadi baxımdan cəlbedici aktora çevrildi.

Nəticə etibarilə, konkret vəzifə və məqsədləri özündə ehtiva edən prinsipial, praqmatik və rasional xarici siyasət strategiyası sa-

yəsində nəhəng aktorların imperialist ekspansiyasının fonunda milli maraqlara müvafiq surətdə əhəmiyyətli geosiyasi manevrlər edildi və Azərbaycan müstəqil xarici siyasət kursu yeridən milli aktor kimi beynəlxalq münasibətlər sistemindəki təmsilçiliyini davam etdirdi. Bununla da formalaşdırılan ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətləri ölkəmizin beynəlxalq müstəvidə iqtisadi, siyasi mövqeyini gücləndirən amil olmaqla yanaşı, perspektiv tərəfdaşlıq münasibətləri üçün də xüsusi strateji önəm kəsb etmiş oldu. Qısacası, Şərqlə Qərbin qovuşuğunda olduqca mürəkkəb coğrafi regionda yerləşən Azərbaycan Ulu öndər Heydər Əliyevin praqmatik xarici siyasət strategiyası və çevik, dinamik taktikası sayəsində sahib olduğu potensial ünsürlərdən və strateji resurslardan səmərəli surətdə istifadə etməklə təhdid ünsürlərini neytrallaşdırdı və milli maraqlara müvafiq davranış modelini davam etdirmiş oldu. Bu sırada Azərbaycanın xarici siyasət strategiyasında davranış modeli-metodu kimi səciyyələndirilən balanslaşdırma siyasəti xüsusi rol oynadı. Belə ki, beynəlxalq münasibətlər sisteminin başlıca tendensiya və istiqamətlərini müəyyənləşdirən, onları çevik surətdə dəyişmək iqtidarında olan nəhəng güc mərkəzlərinə münasibətdə tarazlı və praqmatik siyasət yeridildi və bu sırada onların Cənubi Qafqaz regionuna təsir və nüfuz imkanları xüsusilə nəzərə alındı. Çünki yeni müstəqillik əldə etmiş bir milli dövlətin xarici siyasət strategiyasında nəzərə alınmalı olan başlıca amillər sırasında onun yerləşdiyi coğrafi regionda mövcud olan güc balansı, onun hazırkı durumu, perspektiv dinamikası və regiona təsir edə biləcək geosiyasi aktorların mövcudluğu və s. yer alır. Odur ki, regional və qlobal səciyyəli xarici siyasət kursunu müəyyən edərkən bu amillərdən çıxış edərək müvafiq oriyentasiyalar seçilməlidir. "Beynəlxalq tarazlıq nəzəriyyəsi"ndə əks olunur ki, milli dövlət öz maraqlarının təmin edilməsi və beynəlxalq tarazlığa nail olunması üçün təmas və münasibətlərdə olduğu aktorların mənafeyini də nəzərə almalıdır. Məhz bu zaman milli maraqlar qarşılıqlı surətdə təmin edildiyindən beynəlxalq tarazlığa nail olmaq mümkündür. Təmin edilmiş beynəlxalq tarazlıq hər bir milli dövlətin geostrateji

maraqlarının və təhlükəsizliyinin də təminatçısı qismində çıxış edir. Beləliklə, milli dövlətlər özlərinin xarici siyasət strategiyalarına müvafiq surətdə tarazlı siyasi kursuna istinad etməklə milli maraqların qarşılıqlı surətdə təmin edilməsinə nail olmaqla yanaşı, regional təhlükəsizliyin də təmin olunmasını şərtləndirirlər. Nəzəriyyədə əks olunur ki, beynəlxalq münasibətlər sistemi şəbəkə səciyyəsi daşıyır. Hər bir aktorun qəbul və icra etdiyi qərar digərlərinin maraqlarına müəyyən qədər təsir etdiyindən təsirə məruz qalan subyektlər də hərəkətə keçmiş olurlar. Beləliklə, aktorların maraqları və buna müvafiq strategiyaları bir-biri ilə əlaqədar səciyyə daşıyır. Ötən zaman göstərdi ki, Ümummilli lider Heydər Əliyevin seçdiyi model və kurs tamamilə özünü doğrultmaqla milli maraqların təmin edilməsi missiyasına tam xidmət etmiş oldu. Eyni zamanda, Azərbaycanın istinad etdiyi xarici siyasət kursu olduqca mürəkkəb situasiyanın fonunda olan Cənubi Qafqaz bölgəsində təhlükəsizlik sisteminin təşəkkül tapmasına mühüm töhfələr vermiş oldu. Region dövlətləri ilə qarşılıqlı-faydalı maraqlara əsaslanan münasibətlər sisteminin formalaşdırılması, regiondankənar milli aktorlarla paritet əsaslı əməkdaşlığın yaradılması və bölgədə yeni işbirliyi layihələrinin gündəmə gətirilməsi sadalananlar baxımından xüsusi önəm kəsb edir. Nəticə etibarilə, Azərbaycanın tarazlı və çoxtərəfli, diversifikasiya olunmuş xarici siyasət kursu müəyyən edilmiş maraqların təmin edilməsini şərtləndirməklə yanaşı, regional miqyasda tarazlı münasibətlər sistemi və işbirliyinin formalaşmasına fundamental töhfə oldu.

## 13.2. Milli potensial və güc dəyərləndirməsi Azərbaycan nümunəsində: meyarlar və göstəricilər

Müstəqil Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasındakı statik və dinamik durumunu müəyyənləşdirmək, mövcud imkanları dəyərləndirmək və perspektiv inkişaf istiqamətlərinə dair mümkün proqnozlar ifadə etmək üçün ölkəmizin milli gücünü təşkil edən potensial ünsürlərə

nəzər yetirmək və onu statik və dinamik komponentlər əsasında dəyərləndirmə obyektinə çevirmək lazımdır. Bunun üçünsə milli güc komponentinin özündə hansı potensial ünsürləri ifadə etməsini aydınlaşdırmaq və buna müvafiq surətdə dəyərləndirmə aparmaq lazımdır. Təbii ki, milli güc komponentinə daxil olan potensial ünsürləri dəyərləndirərkən empirik faktlarla təsbit edilmiş bir çox nəzəri-konseptual mənbələrə istinad etmək zərurəti yaranır. Bu cür nəzəri-konseptual mənbələr sırasında araşdırmaçı-alim Hans Morgentaunun "Siyasi realizm" nəzəriyyəsi xüsusi yer tutur. O öz nəzəriyyəsində əks olunmuş təməl prinsip və müddəalar əsasında yazdığı "Millətlər arasında münasibətlər. Hakimiyyət uğrunda mübarizə" adlı əsərində qeyd edir ki, beynəlxalq münasibətlərdə təməl yönləndirici faktor olmaq etibarilə başlıca təsir və tənzimetmə mexanizmi qismində güc amili çıxış edir. Araşdırmaçı bildirir ki, güc özündə kompleks potensial ünsürləri ehtiva edən məfhum kimi səciyyələndirilməlidir. Bununla belə, potensial ünsürlərin mövcud olması hələ güc kimi dəyərləndirilməməlidir. Odur ki, potensial ünsürlərdən məcmu halında səmərəli surətdə istifadə edilməsi və onun konkret maraqlara müvafiq şəkildə yönləndirilərək təsir və tənzimetmə vasitəsinə çevrilməsi güc kimi səciyyələndirilməlidir. Nəticə etibarilə, potensial ünsürlərin olması hələ güc kimi dəyərləndirilə bilməz. Güc mexanizminin ortaya çıxması üçün mövcud potensial ünsürlərdən səmərəli surətdə istifadə edilməli və bunlar konkret maraqların təmin edilməsinə istiqamətləndirilməlidir. Morgentau milli gücün potensial ünsürlərini maddi və qeyri-maddi (kəmiyyət və keyfiyyət) olmaq etibarilə iki yerə bölür. Milli gücün kəmiyyət ünsürlərini coğrafi şərait və xüsusiyyətlər, təbii ehtiyatlar, milli iqtisadiyyat, hərbi potensial, demoqrafik resurslar və s. aid edilir. Milli gücün kəmiyyət ünsürlərinə isə milli xüsusiyyət, milli mənəviyyat, milli diplomatiya təcrübəsi və milli hökumətin keyfiyyəti aid edilir.

Beləliklə, milli gücün xarakteristikasını və təməl komponentlərini müəyyən etmək üçün istinad ediləcək fundamental nəzəri-konseptual mənbə Hans Morgentaunun "Siyasi realizm" nəzəriyyəsi-

dir. Məhz bu nəzəriyyədə əks olunmuş təməl strateji prinsip və meyarlar əsasında mövcud reallıqlara müvafiq surətdə Azərbaycanın milli gücünün və potensialının dəyərləndirilməsi məqsədəmüvafiqdir.

Amma bundan öncə milli güc məfhumunun özünün nə olması və bu məfhuma müxtəlif araşdırmaçıların necə yanaşmasını diqqətə çatdırmaq xüsusi önəm kəsb edir.

Qeyd etdiyimiz kimi, müasir beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında milli dövlətlərin yeri, rolu və mövqeyini müəyyənləşdirərkən mütləq surətdə milli gücün qiymətləndirmə meyarları əsas götürülür. Milli gücün qiymətləndirmə meyarları dedikdə milli potensial ünsürlərinin ayrı-ayrı və məcmu halında nəzərdən keçirilməsi başa düşülür.

Müasir araşdırmaçıların bir çoxu isə güc anlayışını daha formal bir şəkildə qəbul edərək onu dövlətin sahib olduğu fiziki ünsür kimi ifadə edir və bunu əsas götürərək daha çox milli güc və onu meydana gətirən faktorlar üzərində dururlar. Onlar dövlətlər arasındakı real əlaqələri və gücdən istifadə edərək milli məqsədləri gerçəkləşdirmə üsullarını nəzərdən qaçırırlar.

Bəzi araşdırmaçılar gücün fiziki tərəfindən daha çox ondan istifadəetmənin formasına diqqəti çəkərək hüquqi gücün real istifadə mexanizminə sahib olmasını və başqa ölkələr üzərində təsiretmə imkanları yaradan güc olduğunu ifadə edirlər. Onlar istifadə edilməyən və digər ölkələr üzərində təsiri olmayan, yaxud bu məqsədə xidmət edəcək mexanizmi mövcud olmayan fiziki ünsürlərin güc kimi qiymətləndirilməsinin doğru olmadığını bildirirlər. Bu baxımdan, güclü dövlətin məhz bu ünsürləri digər dövlətlər üzərində təsir vasitəsi ola biləcək şəkildə istifadə edə bilən, yaxud bu qabiliyyətə sahib olan dövlətin olduğu bildirilir. Beləliklə, A dövlətinin B dövlətinə qarşı istifadə etdiyi və normal şərtlər çərçivəsində B dövlətinin qəbul etməyəcəyi bir məsələnin yerinə yetirilməsinə təsir edən vasitəyə güc adı verilir. Ancaq burada A dövlətinin sahib olduğu üstünlük fiziki nümayişlə müşahidə edilə də bilər, edilməyə də. Başqa sözlə, güc təsir və üstünlük kimi iki əsas ünsürdən iba-

rətdir. Məsələn, bankı soymaq üçün xəzinəyə yaxınlaşan, silahı olan, lakin onu göstərməyən bir adamın silahını görməyən xəzinədar soyğunçunun istəyini rədd edə bilər. Amma həmin soyğunçu silahını çəkərək içəri girsə, xəzinədar böyük ehtimalla onun istəyini yerinə yetirər. Burada hər iki halda silah var, amma ondan istifadə edilmədikdə, yaxud o, nümayiş etdirilmədikdə heç bir təsiri olmur, ancaq istifadə edildikdə dərhal təsirli olur. Başqa sözlə, üstünlüyün arzuolunan təsiri yarada bilməsi üçün ondan istifadə edilməsi və ya istifadə edilmə ehtimalının yüksək olmasının göstərilməsi lazımdır. Bu nümunəni eynilə dövlətlərin hərbi gücü məsələsinə də aid etmək olar. Bu yanaşmaya görə, dövlətin iqtisadi, siyasi beynəlxalq konyuktura və ya hər hansı başqa bir səbəbdən istifadə edilməyən, yaxud istifadəedilmə ehtimalı olmayan bir üstünlüyü güc olaraq qiymətləndirilmir. Ayrıca bu yanaşmaya görə, güc ibrətamiz bir anlayışdır və başqa ünsürü, üstünlüyün istifadə edilməsinin bir ünvanının, bir dövlətin olduğunu və həmin dövlətlə müəyyən əlaqələrin mövcudluğunu göstərir. Təbii ki, aralarında heç bir əlaqə olmayan iki ölkənin sahib olduqları üstünlüklərin onların heç biri üçün əhəmiyyəti yoxdur.

Beləliklə, əgər A dövləti B dövlətinə normal şərtlərdə qəbul etdirə bilmədiyini, sonda qəbul etdirə bilirsə və B dövləti A dövlətinin bu istəyinin qarşısını hər hansı vasitə ilə ala bilmirsə, deməli, A dövləti B dövlətindən daha güclüdür. Yox, əgər B dövləti bunu rədd edə bilirsə, A dövləti üzərində eyni təsir imkanlarına sahibdirsə, deməli, bu iki dövlətin bir-birilərinə qarşı güclərinin əhəmiyyəti yoxdur. Bu yanaşmaya görə, qısaca olaraq ibrət anlayışı olan gücün təsir, üstünlük və əlaqə kimi təməl ünsürləri olmalıdır.

Güc, sadəcə, A dövlətinin B dövlətini bir şeyi etdirməyə məcbur etməsi deyil, həm də bunun mütəmadi olmasını təmin etmək, eyni zamanda, nəyisə etməməyə qoymaması da ola bilər. Dolayısıyla, gücün bu mənada davamlılıq ifadə etdiyi də görünür. Bundan başqa, A dövlətinin təsiri ilə onun istədiyi kimi davranan B dövlətinin vəziyyəti, A dövlətinin davranışını da B dövlətinin mənafeyinə uyğun dəyişə bilər. Beləliklə, təsiretmə birtərəfli

olmaqdan çıxaraq qarşılıqlı ola bilər. Ayrıca, güc bir dövlətin beynəlxalq nüfuzu ilə də bağlıdır. Bir dövlətin beynəlxalq sistemdə nüfuzunun artdığı qədər digər dövlətlərə münasibətində də nüfuzu artacaq və başqa dövlətlər üzərində təsiri ilə artacaqdır. Güc anlayışı ilə əlaqədar başqa bir anlayış da dərketmədir.

Gücün gerçək miqdarının və ondan istifadə edilib, edilməyəcəyini dərk etmək olduqca əhəmiyyətlidir. Çünki bəzən şişirdilmiş məlumatlara söykənən rəqəmlər və ya istifadə ediləcəyi hesab olunduğu halda, istifadə edilməyən nüfuz yanlış təsəvvür yarada bilər. Məsələn, oyuncaq tapançanı həqiqi hesab edib xəzinəsini soyduran xəzinədar tapançanın zahiri görünüşünə aldanaraq onu gerçək hesab edir. Yəni tapançanın həqiqi olmadığını dərk etmir.

Araşdırmaçı Frankelin qənaətincə, güc başqalarının davranışlarına təsiretmə vasitəsidir. Güc dedikdə, ilk növbədə, hərbi güc başa düşülsə də, artıq müasir dövrdə hərbi gücün tətbiqetmə sahəsi məhdudlaşdırıldığından güc anlayışını daha geniş mənada başa düşmək lazımdır. Buna görə də, Frankel bildirir ki, güc maddi və qeyri-maddi ünsürlərdən ibarətdir. Amma buna baxmayaraq, yenə də güc dedikdə, ilk növbədə, maddi hərbi-texniki qüdrət nəzərə alındığından qeyri-maddi tərəf o qədər də qəbul edilmir.

K.J.Holsti və Frankel kimi bir çox araşdırmaçılar tərəfindən potensial kimi dəyərləndirilən, Morgentauya görə isə, bir milləti başqa millətlər qarşısında güc sahibi edən faktorlar və milli potensial olaraq qəbul edilən ünsürlər kəmiyyət və keyfiyyət ünsürlərinin cəmindən ibarətdir. Kəmiyyət ünsürlərinə coğrafiya, təbii ehtiyatlar, sənaye potensialı, hərbi hazırlıq dərəcəsi və demoqrafik resurslar, keyfiyyət ünsürlərinə isə milli xarakter, milli mənəviyyat, milli hökumətin keyfiyyəti və milli diplomatiya aid edilir.

Morgentau öz konsepsiyasında qeyd edir ki, bütün bu potensial ünsürlər milli dövlətin gücünü təşkil edir. O bildirir ki, potensial ünsürlər cəm olduqda və onlardan səmərəli surətdə istifadə edildikdə güc mexanizmi formalaşır. Qeyd olunur kimi, milli potensialın komponentlərindən hər hansı birinin ayrılıqda güclü olması ümumi potensialın güclü olduğu mənasına gəlmir. Məsələn,

sənaye potensialı, texnoloji səviyyə, iqtisadi vəziyyət və əhali sayı kimi komponentlərin aşağı olması halında ayrılıqda hərbi potensialın yüksək olması xüsusi əhəmiyyət daşımır. Əhali sayı baxımından çox güclü, digər potensial ünsürləri baxımından lazımi səviyyədə təminata malik olmamaq güclü olmaq demək deyil.

Bir dövlətin sahib olduğu potensialı təşkil edən ünsürlərdə müəyyən zaman müddətində dəyişiklik ola biləcəyi kimi, bir dövlətin başqa bir dövlətlə müqayisədə üstünlüyünü təmin edən ünsürdə də vaxt keçdikcə dəyişiklik ola bilər. Məsələn, neftin yerini qaz, yaxud uran tutduğu halda, neft istehsal edən ölkələrdən çox urana sahib olan ölkələr daha güclü görünə bilər. Eyni şəkildə nüvə gücünün istifadə edilməsi, yaxud zaman keçdikcə bəzi silahların modernliyini və dəyərini itirməsi ona sahib olan ölkələrin gücünə mənfi təsir göstərə bilər.

Bundan başqa, ölkənin sahib olduğu potensialın istifadəyə hazır olub-olmaması da mühüm əhəmiyyət daşıyır. Məsələn, hər hansı bir ölkənin hərbi potensialının dəyəri onun müharibəyə hazır olub-olmaması ilə ölçüldüyü kimi, ölkənin təbii ehtiyatlarının və digər resurslarının da qiyməti ondan səmərəli surətdə istifadənin təşkili ilə ölçülür.

Ancaq hər hansı bir dövlətin gücünün təkcə fiziki potensialla qiymətləndirilməsi heç də düzgün deyil. Bir dövlətin gücünə təsir edən keyfiyyət ünsürləri sırasında həmin ölkənin liderlik xüsusiyyətləri – reputasiya imkanları ikitərəfli və çoxtərəfli münasibətlər sistemi, milli xarakteri, beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasındakı statik və dinamik durumu və s. kimi faktorlar yer alır.

Beləliklə, çoxtərəfli beynəlxalq münasibətlər daxilində tək bir əlaqə və təsiri əsas götürərək dövlətin gücünü müəyyənləşdirməyə çalışmaq heç də həqiqəti ortaya çıxarmağa imkan verməz. Bunun üçün digər bütün faktorları və imkanları kompleks qiymətləndirməyi bacarmaq lazımdır.

Beləliklə, milli gücün potensial ünsürlərini müəyyən etmək üçün konkret ünsürlərə nəzər yetirmək lazım gəlir. Məhz bu ünsür-

lər əsasında Azərbaycan Respublikasının milli gücünü müəyyənləşdirməyə çalışacağıq.

Beləliklə, milli gücün kəmiyyət ünsürləri sırasında, ilk növbədə, coğrafiya və relyef xüsusiyyətləri gəlir. Coğrafiya və relyef xüsusiyyətləri bütün dövrlərdə hər hansı bir ölkənin güc ünsürü kimi həmişə diqqəti cəlb etmişdir. Ölkənin sahib olduğu ərazinin böyüklüyü, hansı coğrafi ərazidə yerləşdiyi, ərazinin dağlarla əhatə edilmiş olması, yaxud sıx meşəliklərlə əhatə olunması, adada, tranzit ərazidə yerləşməsi və s. həmin ölkənin üstünlükləri hesab edilir. Məsələn, ABŞ-ın bütün qitəni eni boyu əhatə edən torpaqlarının şərqdə 3 min, qərbdə isə 6 min mildən çox okeanla ayrılmış olması Amerikanın dünyadakı yeri və rolunu müəyyənləşdirən dəyişməz faktor kimi qəbul edilir. Hərçənd ki, coğrafiyanın rabitə, xəritəçəkmə, döyüş texnologiyasının sürətli inkişafından sonra əvvəlki əhəmiyyətini itirdiyi qənaəti irəli sürülür və buna görə də coğrafiyanın artıq 100 il bundan qabaq olduğu qədər əhəmiyyətli olmadığı söylənilir. Ancaq tutaq ki, Avropa və Asiya qitələri ilə okean suları vasitəsilə ayrılmış bir ABŞ-la, məsələn, Fransa, Çin, yaxud Rusiya ilə quru sərhədi olan bir ABŞ arasında, əlbəttə, fərq olacaq və bu gün də əhəmiyyət kəsb edəcəkdir. Eyni zamanda, İngiltərənin Manş dənizi ilə Avropadan ayrılması, üç yüz ilə yaxın dövrdə Avropa güc tarazlığı sistemində əsas tarazlayıcı dövlət rolunu uğurla oynamağa kifayət qədər kömək etmişdir. Eyni şəkildə, İtaliyanın Alp sıra dağları ilə Avropadan müəyyən mənada ayrılması bu dövləti bəzən Avropa dövlətlərinin işğalından qorumuş, bəzən də Avropada baş verən hadisələrdən kənarda qalmasına səbəb olmuşdur. Əlbəttə, bu cür misalların sayını daha da artırmaq olar. Ancaq bütün bunlara baxmayaraq, 3 milyon kvadrat mil torpağa sahib olan ABŞ-ın önündə 8,5 milyon kvadrat mil torpağa sahib olan SSRİ-nin öz mövcudluğunu qoruya bilməməsi, əlbəttə, sadəcə, coğrafiya faktoru ilə izah edilə bilməz. Bundan başqa, cəmisi 100 min kvadrat mil torpağa sahib olmasına baxmayaraq, İngiltərənin XVIII və XIX yüzilliklərdə demək olar ki, bütün dünyada üstün səviyyədə

olmasını əlbəttə ki, yenə təkcə coğrafiya amilinə bağlamaq olmaz. Başqa bir tərəfdən isə bəzən ərazi böyüklüyü avantaj deyil, dezavantaj yarada bilər. Bu mənada, az qala dünyanın yarısına sahib olan Osmanlı İmperatorluğunun çökməsində ərazi böyüklüyü ünsürünün mühüm rol oynadığı iddia edilir.

Bugünkü texniki tərəqqi hər hansı bir ölkənin sahib olduğu coğrafiya və relyef xüsusiyyətlərinin təmin etdiyi üstünlükləri azaltsa da, ümumilikdə ölkənin geopolitik yeri yenə də ölkənin potensialı üçün önəmli ünsür olaraq qalır. Beləliklə, coğrafiya faktını təkcə ərazi böyüklüyünə görə deyil, həm də bu coğrafiyanın dünya xəritəsinin hansı nöqtəsində yerləşməsinə görə əhəmiyyət daşıyır. Bu baxımdan, xarici siyasəti və ya beynəlxalq siyasəti coğrafiya faktoru ilə izah edən geopolitika nəzəriyyəçilərindən amerikalı admiral Alfred Men "Dəniz gücünün tarixə təsiri" ("The influence of sea power upon history") adlı əsərində böyük dənizlər və dəniz nəqliyyat yolları üzərində nəzarəti əlinə alan ölkənin dünya gücü ola biləcəyini və başqa dövlətlər üzərində üstünlük qazanacağını bildirir. İngiltərənin tarixdə əldə etdiyi üstünlüyü də bunula izah edilir. İngilis coğrafiyaçısı Hafford Makkinder isə quru gücünün əhəmiyyəti üzərində duraraq Almaniya və Rusiyanın dünya adasını, yəni Avropa, Asiya və Afrikanı ələ keçirə biləcək bir vəziyyətdə olduğunu irəli sürür.

Makkinderə görə, Şərqi Avropaya hakim olan Avroatlantikaya hakim olacaq, Avroatlantikaya hakim olan dünya adasına (Avropa, Asiya, Afrika) hakim olacaq, Dünya Adasına hakim olan isə Dünyaya hakim olacaq.

Coğrafi vəziyyətin xarici siyasətdə oynadığı rolla bağlı Türkiyə Cümhuriyyəti ilə bağlı çoxsaylı misallar mövcuddur. Məsələn, Türkiyə coğrafi mövqeyinə görə həmişə olduğu kimi II Dünya müharibəsindən sonra başlayan soyuq müharibə illərində də iki qütbün kəsişdiyi nöqtə kimi daima diqqət mərkəzində olmuşdur. Elə buna görə də, NATO-ya daxil olmaq məcburiyyətində qalmış və Qərb bloku içərisində yer almışdır. Hətta soyuq müharibə dövrü başa çatdıqdan sonra belə coğrafi mövqeyinə görə, Türkiyənin

strateji əhəmiyyəti azalmamış, əksinə Avropa, Orta Asiya və Yaxın Şərqin qovşağında olduğu üçün daha da artmışdır. Əgər Türkiyə indi mövcud olduğu coğrafiyada deyil, tutaq ki, Afrika qitəsində yerləşsəydi, təbii ki, onun aparacağı xarici siyasət də, ölkə kimi əhəmiyyəti də əlbəttə, tamamilə fərqli olacaqdı. Bu mənada, coğrafi mövqe baxımından, Azərbaycan Respublikasının da böyük üstünlükləri vardır. Respublikamız mədəniyyətlərin və dini ideologiyaların (üç xristian və dörd müsəlman ölkənin əhatəsində), eyni zamanda, şərq-qərb və şimal-cənub dəhlizlərinin kəsişdiyi coğrafiyada yerləşdiyi üçün bu faktor ölkəmizin xarici siyasətində, yəni başqa dövlətlərin bizə münasibətində və bizim onlara münasibətimizdə az rol oynamır.

Beləliklə, bütün bunların fonunda coğrafi potensial baxımından Azərbaycan Respublikasının milli gücü və potensialını dəyərləndirək. Məlum olduğu kimi, Azərbaycanın Qərblə Şərqin qovuşuğunda əlverişli tranzit bölgədə yerləşməsi, Avrasiyanın giriş qapısı kimi səciyyələndirilən Cənubi Qafqazda ən böyük əraziyə malik olması, Xəzər-Qara dəniz hövzəsinin təhlükəsizlik sisteminin təmin edilməsində əhəmiyyətli aktor kimi çıxış etməsi və s. daim ölkəmizin nəhəng güc mərkəzlərinin diqqətində olmasını şərtləndirmiş və buna müvafiq surətdə Azərbaycan ən müxtəlif geostrateji proseslərin mərkəzi qismində çıxış etmişdir. Müstəqillik əldə etdikdən sonra yeni substratlar əsasında təşəkkül tapmış beynəlxalq münasibətlər sistemi və dünya nizamının fonunda Azərbaycanın əlverişli geosiyasi mövqeyi bir daha aktual amilə çevrilmişdir. Amma 1991-1993-cü illərdə hakimiyyətdə olan qüvvələrin irrasional və qeyri-praqmatik fəaliyyəti nəticəsində milli potensial kimi çıxış edən coğrafiya amilindən nəinki səmərəli surətdə istifadəyə nail olunmadı, hətta bu faktor ölkəmizin əleyhinə çevrildi.

Amma Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi praqmatik tarazlı xarici siyasət strategiyası sayəsində Azərbaycan Cənubi Qafqaz bölgəsində transmilli səciyyəli strateji layihələrin həyata keçirilməsinə təkan vermək, regionun təhlükəsizlik balansını nizamlamaqla yanaşı, ölkəmizi Şərq-Qərb kommunikasiya dəh-

lizinin sentralist aktoruna çevirdi. Azərbaycanın bu potensialdan səmərəli surətdə istifadə etməsi nəticəsində Cənubi Qafqazda müxtəlif aktorları birləşdirən və qlobal güc mərkəzlərinin dəstəklədiyi geostrateji layihələr reallaşdırıldı. Bu layihələrin hər birində mərkəzi aktor qismində çıxış edən Azərbaycan əhəmiyyətli siyasi və iqtisadi dividendlər qazandı.

Bununla yanaşı, milli gücün digər kəmiyyət ünsürü təbii ehtiyatlardır. Bir ölkənin zəngin təbii ehtiyatlarının və məhsuldar torpaqlarının olması həmin ölkənin potensial gücü baxımından olduqca əhəmiyyətli ünsür hesab edilir. Morgentauya görə, təbii ehtiyatlar faktoru bir dövlətin başqa dövlətlə müqayisədə gücünün müəyyənləşdirilməsi baxımından digər faktorlardan daha sabit faktordur. Çünki bu ehtiyatlar kritik vəziyyətdə ölkənin ərzaq tələbatını ödəyə bilir. Ərzaq məhsulları ilə özünü təmin edəcək gücdə olan dövlət bu məhsulları idxal edən dövlətdən həmişə üstün vəziyyətdə olmuşdur.

Bunun əksini başqa dövlətlərdən ərzaq asılılığı olan ölkə həmişə beynəlxalq siyasətdə gücsüz vəziyyətdə olur. Bunun ən bariz nümunəsi Hindistandır. Hindistanda bu gün də problem olan ərzaq qıtlığının iki başlıca səbəbi var. Bunlardan biri daima ərzaq təminatını qabaqlayan əhali artımı, ikincisi isə heç olmazsa ərzaq idxal etdiyi miqdarda mal ixrac edə bilməməsidir.

Bir ölkənin xammal ehtiyatlarına sahib olması da ölkənin gücü baxımından əhəmiyyətli faktordur. Xammal ehtiyatları sənaye istehsalı üçün və ən önəmlisi müharibə aparmaq qabiliyyəti olmaq üçün böyük əhəmiyyət daşıyır. Bu mənada, xüsusilə I Dünya müharibəsindən bu yana neft və hazırda təbii qaz, istər sənaye, istərsə də müharibə məsələlərində olduqca əhəmiyyətli enerji ehtiyatı halına gəlmişdir. Elə buna görə də, dünyanın neft və qaz ehtiyatına sahib olan ölkələri beynəlxalq siyasət baxımından olduqca vacib mövqeyə çata bilmişlər. Bundan başqa, dinc məqsədlə və texnoloji inkişafda istifadə edilən, eyni zamanda, nüvə enerjisi istehsalında da əsas ünsürlərdən olan uran bu ehtiyata sahib olan ölkələrə beynəlxalq aləmdə üstünlük qazandırmışdır.

Bu baxımdan, zəngin təbii ehtiyatlara malik olan Azərbaycan bu potensial ünsürdən səmərəli surətdə istifadə etməkdədir. Xüsusilə də Azərbaycanın praqmatik enerji siyasəti ölkəmizin milli maraqlarını təmin etməklə yanaşı, regional və qlobal miqyasda enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfələr bəxş edir. Azərbaycan özünün enerji resurslarından istifadə etməklə həm milli iqtisadiyyatın inkişafını sürətləndirmiş olur, həm də beynəlxalq miqyasda öz mövqeyini daha da möhkəmləndirir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi, idxalla ixrac arasında balansın qorunması, təbii sərvətlərdən səmərəli istifadə mexanizmi vasitəsilə milli iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına yatırımların edilməsi və s. milli inkişafın fundamental substratları qismində çıxış etməkdədir. Bütün bunlar isə onu göstərir ki, Azərbaycan milli potensial kimi dəyərləndirilən təbii ehtiyatlardan səmərəli surətdə istifadə etməklə milli  gücünü mütəmadi surətdə artırmaqdadır.

Bunlarla yanaşı, bir ölkənin iqtisadi potensialı dedikdə bu gün, ilk növbədə, həmin ölkənin sənaye potensialı göz önünə gəlir. Çünki hər hansı bir ölkə nə qədər xammal potensialına sahib olursa olsun, əgər bu ehtiyatlardan ölkənin sənayeləşməsi üçün istifadə edə bilmirsə, deməli, mövcud potensialın səmərəli istifadəsini təşkil edə bilmir. Məsələn, tutaq ki, Konqoda da, İngiltərə və ABŞ-da da uran ehtiyatlarının olması heç də praktik mənada eyni mahiyyət daşımır. Ona görə ki, Konqo bu strateji məhsulu ölkənin milli gücünün xeyrinə reallaşdıra bilmir. ABŞ və İngiltərə isə bundan milli potensial və beynəlxalq aləmdə üstünlük üçün maksimum yararlanır. Buna görə də, böyük mənada sənayeləşmiş ölkələrin eyni zamanda böyük dövlət sayılmaları və sənayeləşmə baxımından dünyada tutduğu yerə görə də güclü dövlətlər iyerarxiyasında yer alması təbiidir. Başqa sözlə, hazırda dövlətlərin böyük və ya güclü dövlət kimi qiymətləndirilməsində sənaye potensialı və texniki inkişaf səviyyəsi olduqca əhəmiyyətli kriteriyalar hesab olunur.

Ölkənin iqtisadi potensialı üçün sənaye potensialı ilə bərabər təbii ehtiyatlar da daxil olmaqla ixracat potensialı, daxili tələbatın

ödənilməsi, istehsal potensialı, ümummilli hasilat, adambaşına düşən milli gəlir kimi faktorlar da olduqca əhəmiyyətlidir.

Qeyd edildiyi kimi, əksər geopolitikaçılara görə, potensial ünsürlərinin hamısı birlikdə cəm olduğu zaman və ondan səmərəli istifadənin düzgün təşkili zamanı əhəmiyyət kəsb edir. Lakin marksist düşüncəni mənimsəyən araşdırmaçılar xarici siyasətə təsir edən ən təməl ünsür kimi iqtisadi faktoru irəli sürərək beynəlxalq siyasəti də təkcə bu faktordan izah edirlər. Onlara görə, bir ölkənin iqtisadi inkişafı ilə imperialist və aqressiv, başqa sözlə, müharibəyə meyilli olması arasında birbaşa əlaqə vardır.

Marksistlər bunu əsas götürərək inkişaf etmiş kapitalist ölkələri imperialist olaraq qiymətləndirir və imperializmi və müharibələri aradan götürmək üçün kapitalizmin ləğv olunmasının vacibliyini irəli sürürlər.

Azərbaycan Respublikasının iqtisadi potensialı həyata keçirilən milli iqtisadi inkişaf strategiyasının fonunda mütəmadi surətdə artmaqdadır. Yüksək iqtisadi inkişaf sayəsində əhalinin təminatı, idxal və ixrac arasında balansın gözlənilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması, sərmayə qoyuluşlarının artırılması və s. mümkün olub. Bunların fonunda dünyanı bürümüş qlobal maliyyə böhranı Azərbaycana cüzi surətdə təsir edib. İqtisadi siyasətin dünya iqtisadiyyatının konkret qanunauyğunluqlarına müvafiq surətdə icra edilməsi Azərbaycanın MDB məkanında böhrana ciddi surətdə uğramayan yeganə dövlət qismində çıxış etməsini şərtləndirib. Resessiya, bəzənsə “slump” adlandırılan işgüzar aktivliyin kəskin azalması və daralması ilə müşayiət olunan böhran dövründə Azərbaycan iqtisadiyyatı krizisin fəsadlarından çox cüzi təsirlənib. Bu da səbəbsiz deyil. Belə ki, dünyanın iqtisadi nəhənglərinin çox ciddi itkilərlə üzləşdiyi bir mərhələdə Azərbaycan hökumətinin operativ antiböhran tədbirləri sayəsində ölkəmiz qlobal maliyyə böhranına qarşı yüksək dayanıqlılıq nümayiş etdirdi. Düzdür, Azərbaycan iqtisadiyyatının qlobal iqtisadiyyata açıq olması və inteqrasiyası dünya maliyyə böhranının ölkəmizin iqtisadiyyatına da müəyyən

qədər təsir etməsinə səbəb olub. Amma neft gəlirlərinin səmərəli idarə edilməsi və strateji valyuta ehtiyatlarının formalaşdırılması, həmçinin konservativ xarici borclanma strategiyası, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sahələrinin inkişafı, regionların tarazlı inkişafı, özəl sektorun inkişaf etdirilməsi və sahibkarlığa dövlət dəstəyi kimi fundamental tədbirlər ölkəmizdə iqtisadiyyatın sabit artım tempinin davam etməsini şərtləndirib. Bu isə nəticə etibarilə ÜDM-in, xarici ticarət dövriyyəsinin müsbət saldosunun, əhalinin gəlirlərinin və investisiya qoyuluşlarının artmasını təmin edib.

Beləliklə, sadalanan tədbirlərin yüksək səviyyədə həyata keçirilməsi və iqtisadi strategiyanın dünya iqtisadiyyatının konkret qanunauyğunluqlarına, tələblərinə və reallıqlarına müvafiq surətdə icra edilməsi Azərbaycanın MDB məkanında böhrana uğramayan yeganə dövlət qismində çıxış etməsini şərtləndirib. Yuxarıda sadalanan fundamental tədbirlərlə yanaşı, dövlətin maliyyə-büdcə siyasətinin effektiv səviyyədə təmin olunması, valyutanın sabitliyi, strateji valyuta ehtiyatlarından səmərəli istifadə, inflyasiyanın idarə olunan səviyyədə saxlanılması, büdcə kəsirinin minimum səviyyədə saxlanılması, uçot dərəcəsinin azaldılması, əmanətlərin sığortalanması, vergi yükünün azaldılması kimi vəzifələrin də yüksək səviyyədə yerinə yetirilməsi ölkəmizin beynəlxalq iqtisadi münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsini təmin edib.

Bütün bunların qanunauyğun nəticəsidir ki, ölkəmiz beynəlxalq miqyasda iqtisadi subyektlərin başlıca etibarlı strateji tərəfdaşlardan biri kimi çıxış etməkdədir. Belə ki, miqyasına görə regional, mahiyyətinə görə isə qlobal xarakterli layihələrdə Azərbaycan lokomotiv aktor kimi çıxış etməkdə və ölkələrarası ikitərəfli və çoxtərəfli əməkdaşlıq platformalarının formalaşmasında, inkişafında müstəsna rol oynamaqdadır. Bu isə Azərbaycanın dünya iqtisadiyyatında mövqeyini daha da gücləndirməkdədir...

Bütün bunlarla yanaşı, Morgetauya görə, bir ölkənin coğrafi mövqeyinin, təbii qaynaqlarının, sənaye potensialı faktorunun real

güc kimi qiymətləndirilməsində həmin ölkənin hərbi hazırlıq səviyyəsinin böyük rolu vardır. Margentau hərbi cəhətdən hazırlığı digər bütün cəhətlərdən daha vacib hesab edir və onu milli gücün ən əsası kimi qəbul edir. Beynəlxalq siyasət nəzəriyyəsində ən son araşdırma istiqamətlərindən biri bu olduğu üçün hər hansı bir dövlətin gücü hesablanarkən ən çox nəzərə alınan da elə hərbi güc faktorudur. Bu isə özlüyündə müasir müharibə texnologiyası, silahların keyfiyyəti və miqdarı və s. kimi məsələlərlə bağlıdır. Məsələn, hər hansı bir ölkənin modern silahlara, xüsusilə nüvə silahına sahib olması həmin ölkəyə böyük üstünlüklər verir.

Realist yanaşmanın, yaxud gerçəkçi məktəbin nümayəndələri əsas etibarilə millətin gücü, yaxud dövlətin potensialı ilə hərbi gücü eyniləşdirirlər. Digər başqa ünsürləri isə ikinci dərəcəli hesab edirlər. Belə olan halda, dövlət üçün ən əsas məsələ təhlükəsizlik məsələsi olduğundan istər təhlükəsizliyin qorunması, istərsə də dövlətin digər strateji maraqlarının həyata keçirilməsi üçün hərbi güc olduqca vacib ünsürdür.

Hər bir dövlətin, ilk növbədə, havada, quruda və dənizdə kifayət qədər hərbi gücə sahib olması həmin dövlətin güclü olması mənasına gəlir. Bundan başqa, inkişaf edən və daima dəyişən müharibə şərtlərində ölkənin tələbatı səviyyəsində quru və hava gücünə sahib olmaq da şərtdir. Eyni zamanda, günümüzdə böyük güc olmanın əsas şərtlərindən biri də əlbəttə, nüvə silahına sahib olmaqdır. Lakin nüvə silahına sahib olan güclü dövlətlər Nüvə Silahlarının Yayılması, yaxud Nüvə Araşdırmalarının aparılmasının qadağan edilməsi kimi proqramlarla bu silahı əldə etmək istəyən ölkələrə mane olur, qısacası, onun qarşısını almağa çalışırlar.

Bu baxımdan, Azərbaycan olduqca yüksək nailiyyətlər əldə etmişdir. Əlbəttə ki, torpaqlarının 20 faizi işğal edilmiş və hələ də müharibə şəraitində olan bir ölkənin hərbi potensialını mütəmadi surətdə artırması mütləq zərurətdir. Eyni zamanda, müasir beynəlxalq münasibətlər sisteminin qanunauyğunluqlarına və reallıqlarına müvafiq surətdə milli potensialın kəmiyyət ünsürü kimi çıxış edən hərbi potensialın artırılması strateji vəzifə qismində səciyyə-

ləndirilir. Məhz bu baxımdan, milli iqtisadiyyatın mütəmadi surətdə inkişaf etdirilməsi Azərbaycanın hərbi potensialının da artırılmasını şərtləndirir. Həyata keçirilən fundamental işlər sayəsində ordu quruculuğu prosesinin yeni mərhələyə qədəm qoyması ölkəmizin hərbi-müdafiə qabiliyyətinin güclənməsini, peşə hazırlığının və döyüş qabiliyyətinin yüksəldilməsini, texniki təchizatın yaxşılaşdırılmasını şərtləndirib. Məhz bunun qanunauyğun nəticəsi kimi, Azərbaycan ordusu hazırda Cənubi Qafqazın ən güclü silahlı birləşməsidir.

Ümumiyyətlə, Azərbaycanda ordu quruculuğu prosesi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi sistemli tədbirlər sayəsində orduda vahid komandanlığın, vahid idarəetmə sisteminin yaradılması, texniki təchizatın yaxşılaşdırılması, ordu daxilində stabil mühitin yaradılması mümkün oldu ki, bunlar da sonrakı dövrdə ordu quruculuğu işinin operativliyi və effektivliyini təmin edib.

Eyni zamanda, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə həyata keçirilən strateji tədbirlər sayəsində yuxarıda sadalanan istiqamətlərdə əhəmiyyətli nailiyyətlər əldə edilməklə yanaşı, orduda kadr hazırlığı işinin səmərəlilik səviyyəsinin artırılması və güclü hərbi-sənaye kompleksinin formalaşdırılması yönündə mühüm göstəricilər qeydə alınıb. Bundan başqa, müdafiə sənayesinə yönəldilən hərbi xərclər sayəsində istehsal olunan hərbi təyinatlı məhsulların kəmiyyət və keyfiyyətində əhəmiyyətli irəliləyişlər qeydə alınıb. Bunlarla yanaşı, Azərbaycan hərbi sənaye sahəsinin inkişaf etdirilməsi yönündə bir çox aparıcı ölkələrlə əməkdaşlıq etməkdədir. Eyni zamanda, ölkəmizdə yeni növ hərbi təyinatlı məhsulların istehsalı yönündə əhəmiyyətli tədbirlər görülməkdədir. Eləcə də, hərbi xərclərin mütəmadi surətdə artırılması Azərbaycan ordusunun maddi təchizat səviyyəsinin yaxşılaşdırılmasına dəlalət etməklə yanaşı, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasındakı mövqeyini daha da gücləndirməkdədir.

Hər nə qədər milli güc ilə əhali sayı arasında birbaşa əlaqə olduğu söylənilsə də, "hər hansı bir millətin sayı nə qədər çoxdursa, gücü də o qədər çoxdur" düşüncəsi doğru deyildir. Əgər belə olsaydı, o zaman Çin 1 milyard 300 milyondan çox əhalisi ilə dünyanın birinci güclü dövləti, Hindistan isə 1 milyarddan çox əhalisi ilə dünyanın ikinci güclü dövləti olardı. Lakin buna baxmayaraq, əhali sayı, albəttə, güclü dövlət olmağın başlıca substratlarından biridir.

Başqa sözlə, bir ölkənin digər ölkə ilə müqayisədə əhali sayı faktoruna görə güclü olduğunu düşünmək doğru olmadığı kimi, əhalisi az olan ölkənin də bu faktora görə super dövlət ola bilməyəcəyini düşünmək doğru deyildir.

Müasir dövrdə dövlətlərin iqtisadi və sənaye potensiallarını artıra bilmələri və böyük ordu yarada bilmələri üçün kifayət qədər çox əhali sayına da ehtiyacı vardır. Bu mənada, əhali sayı milli gücü müəyyənləşdirən faktorlardan biridir. Ona görə də, əhali faktorunun əhəmiyyətini nəzərə alan ölkələr arasında daha güclü olma yarışında bir rəqabət vardır. Xüsusilə, aralarında uzunmüddətli düşmənçilik olan dövlətlər arasında bu məsələ özünü daha qabarıq büruzə verir. Ancaq bununla bərabər sənaye potensialı və xammal baxımından zəif olan dövlətlər üçün əhali sayının artması əksinə ölkənin milli gücünə zəiflədici təsir göstərir.

Hal-hazırda dövlətlərin əhalisinin çoxluğundan daha çox əhali arasında təhsilin hansı səviyyədə olması daha çox diqqət çəkir. Təcrübə göstərir ki, ölkələrin inkişafında, yeni texnologiyaların yaradılmasında, yaxud mövcud texnologiyalardan səmərəli yararlanmanın təmin edilməsində təhsil görmüş, savadlı insanların mövcudluğu mühüm əhəmiyyət daşıyır. Əks təqdirdə, əhalinin çox olması onun tələbatının ödənilməsi üçün ölkənin xaricdən külli miqdarda mal idxal etməsinə, bununla da xarici ölkələrdən asılı vəziyyətə düşməsinə səbəb ola bilər. Beləliklə, əhali sayı faktoru güclülüyü təmin edən deyil, gücsüzlüyü təmin edən faktor olacaqdır. Ona görə də, hazırda bir çox ölkələr "saxlaya bilinəcək qədər uşaq" şüarı ilə doğum səviyyəsini nəzarət altında tutmağa çalışırlar.

Hər hansı bir ölkədə əhalinin sağlam olması və inkişafı doğum və ölüm faizləri arasında müəyyən tarazlığın olması ilə ölçülür. Bundan başqa, ölkənin əhalisinin sağlam olub-olmaması həm də həmin ölkədə uşaq ölümünün səviyyəsi və orta yaş həddi ilə qiymətləndirilir. Başqa bir məsələ isə ölkə əhalisinin ümumi orta yaşı ilə, yəni millətin gənc, yaxud yaşlı olması ilə əlaqədardır.

Azərbaycanda mövcud tələblərə, reallıqlara və qanunauyğunluqlara müvafiq surətdə rasional demoqrafiya siyasəti yeridilməkdədir. Belə ki, əhalinin sağlamlıq səviyyəsinin yaxşılaşdırılması, orta yaş göstəricisinin artırılması yönündə tədbirlər görülməklə yanaşı, vətəndaşların təhsil səviyyəsinin artırılması və peşə hazırlığının yüksəldilməsi istiqamətində də əhəmiyyətli nailiyyətlər əldə edilmişdir. Eyni zamanda, məşğulluğun təmin edilməsi, miqrasiya, immiqrasiya və urbanizasiya proseslərinin tənzimlənməsi də milli gücümüzün potensial ünsürü olan demoqrafik resurslardan səmərəli surətdə istifadə olunduğuna dəlalət edir.

Şübhəsiz, demoqrafik siyasətin fundamental strateji istiqaməti sosiumda yüksək peşə hazırlığına və təhsil səviyyəsinə malik olan intellektual təbəqənin formalaşdırılmasıdır. Bu, milli elitanın formalaşdırılması işinin də mühüm strateji istiqamətidir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu milli inkişaf strategiyasının fonunda bu istiqamətdə görülən işlər bəhs edilən vəzifənin yerinə yetirilməsi baxımından xüsusi önəm kəsb etmiş oldu. Sosiumda "mərkəzdənqaçma" meyillərinin aradan qaldırılması, yeni münasibətlər sisteminin formalaşdırılması demoqrafik resurslardan səmərəli istifadəni şərtləndirməklə milli intellektual təbəqənin təşəkkülünü təmin etmiş oldu. Bununla bağlı Ulu öndər Heydər Əliyev demişdir: **"Azərbaycan xalqının milli sərvəti onun intellektual potensialıdır, mədəniyyətidir, ədəbiyyatıdır. Biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışdıq. Bizim iqtisadi potensialımız kimi, başqa bir sərvətimiz – intellektual potensialımız da var. Bunu yaradanlar var. Bu dahi insanlar Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar".**

Prezident İlham Əliyevin ölkə başçısı kimi fəaliyyətə başlama-

sı ilə milli intellektual təbəqənin formalaşdırılması prosesində yeni mərhələ başlandı. Prezident İlham Əliyevin bu sahədəki rasional fəaliyyəti özündə Ulu öndər Heydər Əliyevin praqmatik fəaliyyətində əsas tutduğu prinsip və meyarları ehtiva etməklə dövrün və şəraitin qanunauyğunluqlarına və tələblərinə tam adekvat idi və bu gün də həmin kurs uğurla davam etdirilməkdədir. “Qara qızıl”ın insan kapitalına çevrilməsi bizim təcrübəmizdə, sadəcə, şüar deyil, real vəziyyətdir” deyən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli kadr siyasəti sosiumda yeni keyfiyyət dəyişikliklərini şərtləndirməklə yanaşı, intellektual stratifikasiyalaşma işini də sürətləndirdi. Bunun ardınca bəhs edilən sahədə milli intellektual təbəqənin təşəkkülü işinə mühüm töhfələr bəxş edəcək yeni dövlət proqramları qəbul edildi (“Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı” (2006-2010), “Gənclərin xaricdə təhsil alması, “Avropa təhsil məkanına inteqrasiya”, “Elektron Azərbaycan” və s.) və milli intellektual inkişafın yeni oriyentirləri müəyyənləşdirildi. Nəticə etibarilə, rasional kadr siyasətinin həyata keçirilməsi, milli intellektual təbəqənin formalaşdırılması istiqamətində keyfiyyət etibarilə fundamental strateji tədbirlərin görülməsi bəhs edilən vəzifələrin yerinə yetirilməsini təmin edən fundamental substrat qismində çıxış etdi.

Bütün bunlarla yanaşı, ölkələrin inanc sistemləri, özlərinə məxsus fərqlilikləri, dəyər sistemləri, başqa sözlə, onların siyasi mədəniyyətləri də kəmiyyət ünsürləri qədər ölkənin güc faktoruna təsir edən amillərdir. Bir xalqın hökumətinin həyata keçirdiyi siyasəti dəstəkləməsi və ya dəstəkləməməsi həmin ölkənin gücü müəyyənləşdirilərkən nəzərə alınan ünsürlərdən biridir. Bundan başqa, ölkədə birliyin olması və ya ölkənin ərazi bütövlüyü və suverenliyi məsələlərində bütün vətəndaşların həmrəy olması, ölkə daxilində sosial bərabərliyin mövcudluğu vətəndaşlar arasında sosial-iqtisadi baxımdan uçurumun olmaması, onların eyni ideologiyanı mənimsəmiş olması, həmin ölkənin gücü baxımından olduqca əhəmiyyətli hesab edilir. Yuxarıda söylənilənlər olmadıqda hər hansı bir xarici güc (ölkə) asanlıqla belə ölkənin hökuməti və xalqı arasında

nifaq yarada bilər, hökuməti xalqın dəstəyindən məhrum edə bilər. Beləliklə, həmin ölkəni zəiflədərək yaranmış durumdan öz məqsədləri üçün faydalana bilər. Dolayısıyla, xalqın hökuməti qəbul etməsi və dövlətçiliyi mənimsəməsi, özünü dövlətin bir hissəsi kimi hiss etməsi, öz siyasi iradəsini sərbəst ifadə edə bilməsi həmin ölkənin gücü baxımından üstünlük hesab edilir. Xalqın dövlətdən uzaqlaşdırılması, dövlətin legitimlik mübahisəsinə cəlb edilməsi, ölkə daxilində dərin sinfi və sosial ayrılıqların olması həmin ölkənin müstəqil xarici siyasət yeritməsinə mənfi təsir göstərir. Daxildə böyük bir ictimai müxalifətlə üz-üzə qalan, eyni zamanda, etnik, dini və digər sosial-iqtisadi səbəblərə görə bölünmüş müxtəlif sinif və qrupların təzyiqi altında olan siyasi iqtidar, həmişə bir xarici dəstəyə ehtiyac duyduğu üçün həmin dövlət və ya dövlətlərin təsiri altında qaldığından müstəqil siyasət yeridə bilməz.

Milli güc, yaxud potensialın elementlərindən milli xüsusiyyət və milli mənəviyyat qiymətləndirmə baxımından başa düşülməsi ən çətin olanlardır. Milli xüsusiyyət dedikdə bir millətin xarakterində tez-tez özünü göstərən intellektual və özünəməxsus keyfiyyətlər sahəsi nəzərdə tutulur. Bu keyfiyyətlər bir millətin başqalarından fərqinin göstəricisidir və onlar ən mürəkkəb kataklizmlərdən sonra belə öz mövcudluğunu qorumaq gücünə malikdir. Hər hansı millətin birinin digərindən nə qədər güclü olduğunu müəyyənləşdirmək istəyənlər mütləq milli xarakter fərqini də nəzərə almalıdırlar. Bu, ilk baxışda bir qədər aldadıcı və ya nisbi görünsə də, mütləq surətdə nəzərə alınmalıdır. Çünki bunu hesaba almadan verilən proqnozlar və həyata keçirilən siyasət nəticə etibarilə ciddi strateji səhvlərə gətirib çıxara bilər.

Başqa sözlə, istər müharibə, istərsə də sülh şəraitində millət adından iş görənlər, yəni milli siyasəti formalaşdıranlar, onu həyata keçirənlər və dəstəkləyənlər, seçənlər və seçilənlər, ictimai rəyi formalaşdıranlar, istehsalçılar və istehlakçılar və s. bu insanların hamısı milli xarakteri meydana gətirən intellektual və mənəvi keyfiyyətlərin daşıyıcıları olduqları üçün milli xarakter milli gücün necəliyinə təsir edir. Məsələn, rusların zor işlətməyi sevmələri və

inadcıllıqları, amerikalıların fərdiyyətçilikləri və ünsiyyətçilikləri, almanların qanunpərəstliyi və qənaətcilliyi, həmin millətlərin, yaxud onları təmsil edən fərdlərin iştirak etdiyi hər hansı bir tədbirdə mütləq özünü büruzə verən xüsusiyyətlərdir. Beləliklə, təbii ki, milli xarakter həmin millətin dövlət institutlarında da öz əksini tapır. Məsələn, milli xarakterinə uyğun olaraq alman, rus, amerika və ingilis hökumətlərinin həyata keçirdikləri tutalım ki, xarici siyasət, əlbəttə, keyfiyyətcə mütləq bir-birindən fərqli olacaqdır.

Bəzi araşdırmaçılar tərəfindən siyasi mədəniyyət kimi də qiymətləndirilən və eyni şəkildə aldadıcı, iştirakı olmayan kimi görünən, ancaq milli gücə təsir baxımından heç də digər faktorlardan geri qalmayan başqa bir faktor da milli mənəviyyatdır. Milli mənəviyyat bir millətin xarici siyasətində təzahür edən müharibəpərəst, yaxud sülhpərvər siyasətin həyata keçirilməsinə dəstək olan iradə dərəcəsidir, milli mənəviyyatın varlığı və ya yoxluğu, daha doğrusu, milli mənəviyyatın keyfiyyəti hər şeydən öncə millətin ən çətin anlarında, yaxud bir millətin öz varlığını sürdürməklə əlaqədar olan həlledici qərarların qəbul edildiyi məqamlarda fövqəladə əhəmiyyət daşıyır.

Hər bir millətin milli mənəviyyatı, müəyyən bir nöqtəyə qədərdir və o nöqtədən sonra düşkünlüyə məruz qalır. Ancaq düşkünlük nöqtəsi ayrı-ayrı millətlər üçün müxtəlif şərtlər altında fərqli-fərqli olur. Məsələn, bəzi millətlər müharibədə geniş miqyasda və əhəmiyyətsiz itkilər verdikdə mənəvi düşkünlüyə məruz qalır, bəzi millətlər əhəmiyyətli lakin müharibənin, sadəcə, bir mərhələsi olan məqamda milli-mənəvi düşkünlüyə qapılır və s. Bəzi millətlərin mənəviyyatı isə hökumətin qeyri-praqmatik idarəçiliyi, yoxsulluq, sıxıntı, müharibədə ümidsizlik kimi hallarda düşkünlüyə məruz qalır və ya ancaq müəyyən dərəcədə aşınır.

Ümumilikdə, bir millətin mənəviyyatı daha çox müharibə olduğu zaman (maksimum səciyyəli ekstremal şərait kimi) özünü qabarıq surətdə büruzə versə də, hər hansı bir beynəlxalq problemlə üzləşdikdə də milli-mənəviyyat mühüm əhəmiyyət qazanır. Tutaq ki, bir millətin müəyyən bir təbəqəsi özünü əhalinin geridə qalan

digər təbəqələrindən siyasi, iqtisadi, sosial, hüquqi və s. baxımlardan zəif mövqeyə sıxışdırıldığını düşünür. Belə olan halda, həmin təbəqədə tədricən milli mənəvi aşınma başlayacaq və vətənpərvərlik hissi azalacaqdır. Nəticə etibarilə, bu təbəqə milli hökumətin siyasətini dəstəkləməməklə onu zəiflədəcəkdir. Bununla da daxili siyasətdə müəyyən anlaşılmazlıqlara yol açmaqla xarici siyasəti də tələb olunan ümumxalq dəstəyindən məhrum edəcək. Bu isə, əlbəttə, arzuolunmazdır.

Beləliklə, milli mənəviyyat ilk baxışda fərq edilməsə də, milli gücün formalaşmasında hansı əhəmiyyətə malik olması göz önündədir.

Bu məsələnin Azərbaycan təcrübəsinə gəldikdə qeyd edə bilərik ki, "Dirçəliş" hərəkatının fonunda ortaya çıxan və xalqı bir mərkəzdə birləşdirən bu potensial ünsürdən zamanında və məkanında düzgün istifadə edilməməsi əldə edilmiş formal müstəqilliyin ilk illərində yeni cəmiyyət və milli dövlət quruculuğu prosesinin müəyyən qədər gecikməsinə və həmin ərəfədə cəmiyyətdə ciddi kataklizmlər və problemlərin meydana çıxmasına səbəb oldu. Azadlıq və müstəqillik uğrunda gərgin mübarizə aparan Azərbaycan xalqının milli mənəviyyat və xarakterinin struktur elementi kimi çıxış edən milli enerjidən düzgün istifadə edilməməsi bəhs edilən hərəkatın pərakəndə xarakter almasına səbəb olmaqla yanaşı, sonradan ictimai-siyasi mühitdə müəyyən deviasiyaların meydana çıxmasını şərtləndirdi.

Milli enerjidən düzgün istifadə edilməməsinin səbəblərindən biri də həmin ərəfədə milli azadlıq mübarizəsinə təcrübəli, praqmatik, harizmatik və rasional lider siyasətçinin rəhbərlik etməməsi idi. Hərəkatın başlanmasından müstəqilliyin ilk illərinədək ölkəyə rəhbərlik edən şəxslərin irrasional, antimilli mövqe sərgiləmələri və Moskvanın strateji tapşırıqları əsasında hərəkət etmələri milli enerjidən milli birliyi və həmrəyliyi təmin edən resurs qismində istifadə edilməsini mümkün etmədi. Bununla da milli azadlıq mübarizəsində iştirak edən qüvvələrin birliyi və müntəzəm, sistematik fəaliyyət mexanizmi təmin edilmədiyindən proseslər pərakəndə, iş-

tirakçıların təmsilçiliyi isə spontan xarakter aldı. Bunun ən ağır nəticəsi müstəqilliyin ilk illərində ölkədə xaotik proseslər, ziddiyyətlər, dissonanslar və antaqonizmlə müşayiət edilən destruktiv durumun və disbalanslı əlaqələr sisteminin hökm sürməsi nəticəsində yeni cəmiyyət və milli dövlət quruculuğu vəzifəsinin həyata keçirilə bilməməsi oldu. Bir sözlə, ölkə tam mənada antaqonist qrupların mübarizə meydanına və ideoloji qarşıdurma poliqonuna çevrildi.

Amma 1993-cü ildən, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra ümummilli inkişafın strateji konseptual əsasları formalaşdırıldı və bunun fonunda təcrübi müstəvidə milli enerjidən səmərəli istifadə mexanizmi həyata keçirildi və milli enerji amilindən sözün əsl mənasında sabitlik, bütövlük, həmrəylik və birlik yaradan fundamental faktor qismində istifadə edildi. Bununla da Azərbaycan xalqının milli xarakteri və milli mənəviyyatı yeni cəmiyyət və qeyri-formal milli dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi istiqamətində mühüm keyfiyyət ünsürünə çevrildi.

Bunlarla yanaşı, Morgentauya görə, bir millətin gücünü meydana gətirən elementlər arasında qeyri-sabit hesab edilsə də, ən əhəmiyyətlisi diplomatiyanın keyfiyyətidir. Diplomatiyadan kənar digər bütün keyfiyyətlər milli gücün, sadəcə, xammal bazasıdır. Diplomatiya isə bütün elementləri bir yerdə cəmləşdirir, onları müəyyən formaya salır, lazımi yönə istiqamətləndirir, qəlibə salaraq həqiqi güc halına gətirir. Dolayısıyla, diplomatiya, eyni zamanda, milli mənafe baxımından maraq doğuran beynəlxalq problemlər meydana çıxdıqda milli gücü təşkil edən müxtəlif elementləri təşkilatlandıraraq problemi milli mənafeyə uyğun həll etmək üçün maksimum təsiretmə səviyyəsinə çatdıran sənətdir.

Ona görə də, əgər milli mənəviyyata milli gücün ruhu deyilirsə, diplomatiyaya da milli gücün beyni deyilir. Əgər hər hansı bir millətin diplomatiyası qeyri-müəyyən, yanlış, onu həyata keçirən isə iradəsizdirlərsə, o zaman həmin millətin milli gücünü təşkil edən digər ünsürlər nə qədər qüvvətli olsa belə, nəticə etibarilə, bu güc milli mənafeyi qoruya bilməyəcəkdir. Bunun əksinə, millətin

güc potensialını düzgün qiymətləndirən, ondan maksimum səmərəli istifadəni təşkil etməyi bacaran diplomatiya isə həmişə uğur qazanacaqdır. Başqa sözlə, yüksək keyfiyyətli diplomatiya həyata keçirilən xarici siyasətin məqsəd və vasitələri ilə mövcud olan milli güc resursları arasında bir tarazlıq qurmağı bacarmalıdır. Bu zaman milli gücün potensialında gizlənən qüdrət də meydana çıxar və milli resurslar tam şəkildə həqiqi milli gücə çevrilmiş olar.

Morgentauya görə, hər hansı bir xarici siyasət nə qədər qüsursuz planlanmış və həyata keçirilmiş, nə qədər xətasız idarə edilmiş, nə qədər zəngin qaynaqlara söykənmiş olursa olsun, təməlində yaxşı idarəetmə, keyfiyyətli bir hökumət olmadıqda arzu olunan nəticəni verməyə bilər. Keyfiyyətli hökumətdən gözlənilən üç önəmli xüsusiyyət vardır. Bunlardan birincisi, milli gücü təşkil edən maddi və insani ehtiyatlarla həyata keçirilən xarici siyasət arasında tarazlıq yarada bilmə bacarığı, ikincisi, maddi və insani ehtiyatlar arasında lazım olan tarazlığı formalaşdırma, üçüncüsü isə, həyata keçirilən xarici siyasət məsələlərində xalqın dəstəyini qazanmaq qabiliyyətidir.

Yaxşı və keyfiyyətli bir hökumət mövcud olan gücə uyğun olaraq və həmin gücün uğurla dəstəkləyə biləcəyi bir xarici siyasəti və həmin xarici siyasətə uyğun məqsəd və vasitələri seçməyi bacarmalıdır. Sahib olduğu gücdən daha aşağı səviyyədə xarici siyasət yeridən millətlər beynəlxalq sistemdə layiq olduqları yeri tuta bilməzlər.

Qısacası, mövcud olan milli güc yeridilən xarici siyasətin sərhədlərini müəyyənləşdirməlidir. Başqa bir tərəfdən, hər hansı bir hökumət xarici siyasət ilə əlindəki güc arasında bir tarazlıq yaratdıqdan sonra bu gücü təşkil edən digər elementlər arasında da bir tarazlıq yaratmaq məcburiyyətindədir. Belə olmadıqda bəzən milli güc elementi kimi qiymətləndirilən hər hansı bir ünsür əksinə gücsüzlük elementinə çevrilə bilər.

Məsələn, Hindistanın timsalında göründüyü kimi, əldə lazımi qədər ərzaq ehtiyatları olmadıqda bir ölkənin əhali sayının çoxluğu həmin dövlətin milli gücü baxımından artıq güc elementi deyil,

gücsüzlük elementi olur.

Bundan başqa, milli gücü təşkil edən elementlər arasında tarazlıq olmadıqda, tutaq ki, Sovet İttifaqının timsalında başqa bir problem vardı. Məsələn, Sovet İttifaqında totalitar vasitələrlə həyata keçirilən sənayeləşmə və ordu quruculuğu məhz bu elementlər baxımından ölkəni qüdrətli etsə də, milli mənəviyyat və xalqın dözümlülüyü kimi digər ünsürlər təhrif olunduğundan onlar zəiflik yaradırdılar. Bütün bunlar isə nəticə etibarilə iqtisadi böhrana, pul inflyasiyasına, mənəvi aşınmaya gətirib çıxardı.

Beləliklə, müasir bir hökumət, xüsusilə demokratik bir hökumət üzərinə düşən vəzifələri yerinə yetirmək üçün yuxarıda göstərilən üç prinsipə riayət etməlidir. Eyni zamanda, demokratik hökumət olaraq xalqın onun həyata keçirdiyi xarici siyasəti dəstəkləməsini təmin edəcək bir daxili siyasət də həyata keçirməyi bacarmalıdır.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın qarşısında duran strateji vəzifələrin yerinə yetirilməsi üçün, heç şübhəsiz, rasional təfəkkürə və praqmatik fəaliyyət mexanizminə malik olan subyektlərdən ibarət milli hökumətin formalaşdırılması lazım idi. Bunun fonunda dövrün tələblərinə, reallıqlarına və qanunauyğunluqlarına müvafiq surətdə modern cəmiyyət və qeyri-formal milli dövlət quruculuğu vəzifəsinin yerinə yetirilməsi üçün mövcud resurslardan səmərəli istifadə mexanizminin formalaşdırılması, milli maraqlara müvafiq olaraq daxili və xarici siyasət prioritetlərinin müəyyən edilməsi və sadalananlara adekvat surətdə siyasi-strateji kursun həyata keçirilməsi lazım idi. Bu, milli inkişaf strategiyasının əsaslı surətdə icra edilməsini təmin edəcək substrat səciyyəsi daşıyırdı.

Ancaq müstəqilliyin ilk iki ilində hakimiyyətdə olan qüvvələrin irrasional təfəkkür və qeyri-praqmatik fəaliyyət mexanizmi sadalanan vəzifələrin yerinə yetirilməsini mümkün etməməklə yanaşı, Azərbaycanın siyasi, hüquqi, sosial, ideoloji və digər sahələrdə daha mürəkkəb kataklizmlərlə qarşılaşmasını şərtləndirdi. İdarəetmənin sistemə müvafiq prinsiplər və substratlar əsasında həyata keçirilməməsi, milli maraqlara zidd daxili və xarici siyasət kursuna istinad edilməsi kimi hallar yeni müstəqillik əldə etmiş Azərbayca-

nın müxtəlif regional güc mərkəzlərinin mübarizə meydanına çevrilməsinə səbəb oldu. Məhz belə bir situasiyanın fonunda Azərbaycan suverenliyi olmayan, müstəqil daxili və xarici siyasət kursu həyata keçirə bilməyən formal milli dövlət kimi səciyyələndirilirdi.

Belə bir şəraitdə müvafiq situasiyadan çıxmaq, "mərkəzdənqaçma" tendensiyalarını neytrallaşdırmaq və müxtəlif güc mərkəzlərinin istinad obyekti olmaqdan qurtulmaq üçün milli maraqlara müvafiq surətdə sistemli, nizamlı və davamlı tədbirlər görmək lazım idi. Bunun üçünsə rasional təfəkkürə, praqmatik fəaliyyət mexanizminə və zəngin idarəetmə (dövlətçilik) təcrübəsinə malik olan lider siyasətçi gərəkli idi. Məhz onun rəhbərliyi ilə milli inkişaf strategiyasının konseptual əsaslarının formalaşdırılması və ardıcıl, sistemli əməli tədbirlərin görülməsi mütləq zərurət idi. Məhz bu dahi şəxsiyyət Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev idi. Hadisələrin sonrakı dinamikası göstərdi ki, Ulu öndər Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlməsi Azərbaycanın qurtuluş və dirçəliş tarixi oldu. Məhz bundan sonra milli inkişaf strategiyası formalaşdırıldı və ona müvafiq surətdə əməli tədbirlər həyata keçirildi. Sosial-siyasi sabitliyin təmin edilməsi, bölücülük meyillərinin neytrallaşdırılması, subyektlərarası sürüşkən müstəvidə antaqonist meyillərlə təzahür olunan dağıdıcı proseslərin aradan qaldırılması milli inkişaf strategiyasında əks olunmuş fundamental vəzifələrin yerinə yetirilməsini mümkün etdi. Siyasi sistemin təşəkkül tapması, mütəmadi surətdə onun struktur elementlərinin təkmilləşməsini təmin edən siyasi-hüquqi islahatların həyata keçirilməsi, milli münasibətlər zəminində rasional və tarazlı münasibətlər sisteminin formalaşdırılması milli inkişafın təminatçı substratları qismində çıxış etdi.

Eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət milli inkişaf strategiyasından irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etməklə yanaşı, Azərbaycanın mütəmadi surətdə inkişaf edən ölkə kimi səciyyələndirilməsini şərtləndirmiş oldu.

Beləliklə, Ulu öndər Heydər Əliyevin təməlini atdığı milli inki-

şaf strategiyasının Prezident İlham Əliyev tərəfindən dövrün aktual çağırışlarına, reallıqlarına və qanunauyğunluqlarına müvafiq surətdə uğurla davam etdirilməsi sayəsində modern cəmiyyət quruculuğu prosesi fundamental nailiyyətləri gətirməklə yanaşı, hüquqi dövlət və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunması da mümkün oldu.

Bütün bunlar milli hökumətin keyfiyyətini göstərən təməl arqumentlər qismində çıxış etməkdədir. Milli hökumətin keyfiyyətini göstərən növbəti fakt həyata keçirilən uğurlu kadr siyasətidir. Məlum olduğu kimi, modern cəmiyyət quruculuğunun mühüm strateji istiqamətlərindən və struktur elementlərindən biri də kadr siyasətinin həyata keçirilməsi və sosiumda intellektual stratifikasiyanın formalaşdırılmasıdır. Bu məsələnin Azərbaycan təcrübəsinə gəldikdə isə qeyd edə bilərik ki, kadr siyasətinin əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və həyata keçirilən bu siyasət ölkəmizdə yeni intellektual stratifikasiyanın formalaşmasını təmin etməklə yanaşı, elita transformasiyasına da mühüm töhfələr bəxş edib.

Bütün bunlarla yanaşı, milli gücü potensial keyfiyyət ünsürlərindən biri də milli diplomatiyanın səmərəlilik səviyyəsidir. Bu baxımdan, Azərbaycan bəhs edilən potensial ünsürdən olduqca səmərəli surətdə istifadə etməkdədir. İstər Ulu öndər Heydər Əliyevin, istərsə də Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursunun fonunda əldə edilmiş nailiyyətlər milli diplomatiyamızın effektivliyini sübut edən başlıca arqument kimi çıxış edir. Təkcə bunu qeyd etmək lazımdır ki, həyata keçirilən praqmatik xarici siyasət strategiyasının sayəsində Azərbaycan beynəlxalq münasibətlər sisteminin müstəqil aktoruna çevrildi və sistemin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməkdədir. Xarici siyasət resurslarından olduqca səmərəli surətdə istifadə edən Azərbaycan beynəlxalq miqyasda regional və qlobal güc mərkəzlərinin etibarlı strateji tərəfdaşına çevrilmişdir. Cənubi Qafqazın siyasi güc mərkəzinə və iqtisadi lokomotivinə çevrilən Azərbaycan regionda inkişaf mənbəyi və təhlükəsizlik qarantı qismində çıxış

edir. Azərbaycanın razılığı və iştirakı olmadan bölgədə heç bir strateji layihə reallaşdırılmır və Azərbaycanın iştirakı ilə həyata keçirilən layihələr miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal səciyyə daşıyır. Qısacası, milli diplomatiyanın səmərəliliyi Azərbaycan milli gücünü artırmaqla yanaşı, milli maraqların rasional və praqmatik surətdə təmin olunmasını şərtləndirən fundamental faktor qismində çıxış edir.

Beləliklə, bütün bu sadalanan və nəzər yetirilən məsələlərin fonunda belə bir yekun nəticəyə gələ bilərik ki, Azərbaycan milli gücün potensial ünsürü (kəmiyyət və keyfiyyət elementləri olmaq etibarilə) kimi səciyyələndirilən resurslardan olduqca səmərəli surətdə istifadə etməkdədir. Yerləşdiyi əlverişli coğrafi şəraitdən və sahib olduğu təbii ehtiyatlardan milli maraqlara müvafiq surətdə səmərəli istifadə edən, milli iqtisadi inkişaf strategiyasını davamlı və ardıcıl surətdə həyata keçirərək milli inkişafın iqtisadi substratlarını möhkəmlədən, buna müvafiq surətdə hərbi potensialını mütəmadi şəkildə artıraraq müdafiə qabiliyyətini yüksəldən, demoqrafik resurslardan effektiv formada istifadə edərək və sosial stratifikasiyalaşmanı təmin edərək sosial ədalət prinsipinə müvafiq fundamental işlər görən Azərbaycan milli gücün mütəmadi artım nümunəsi kimi səciyyələndirilməlidir. Bütün bunlar isə ölkəmizin perspektiv inkişafının kontur və substratları qismində çıxış etməkdədir.

## 13.3. Balanslaşdırma siyasəti – milli maraqlara və dəyərlərə müvafiq xarici siyasət strategiyası

Azərbaycan Respublikasının xarici siyasət strategiyasının substratlarını, oriyentasiyasını və spesifikasını dəyərləndirmək üçün nəzər yetirilməli olan başlıca məsələlərdən biri də balanslaşdırma siyasətidir. Məlum olduğu kimi, müstəqillik əldə etdikdən sonra beynəlxalq hüququn tamhüquqlu subyektinə və beynəlxalq münasibətlər sisteminin formal milli aktoruna çevrilən Azərbaycanın qarşısında milli maraqlara müvafiq surətdə praqmatik xarici siyasət kursunun müəyyən və icra edilməsi vəzifəsi dururdu. Müstəqil-

liyin ilk iki ilində (1991-1993) mövcud potensialın, resurs və mexanizmlərin, eləcə də, real geosiyasi situasiyanın nəzərə alınmaması və səriştəli idarəetmə subyektlərinin olmaması milli maraqlara müvafiq müstəqil xarici siyasət kursunun həyata keçirilməsini mümkün etmədi. Odur ki, Azərbaycan regional və qlobal güc mərkəzlərinin strateji həmlələrinə duruş gətirə bilməyərək imperialist güc mərkəzlərinin mübarizə meydanına çevrildi.

1993-cü ildə Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycanın milli maraqlarına müvafiq surətdə rasional və praqmatik xarici siyasət kursu həyata keçirildi. İlk növbədə, mövcud resurslar, mexanizmlər müəyyənləşdirildi və geosiyasi situasiyaya müvafiq surətdə operativ və effektiv addımlar atıldı. Regionun təhlükəsizlik balansı və regiona yönəlik strateji aktlar nəzərə alınaraq milli maraqlara müvafiq surətdə tarazlı-balanslaşdırılmış xarici siyasət kursuna istinad edildi. Balanslaşdırma siyasətinin həyata keçirilməsi dövrün və situasiyanın reallıqlarına və qanunauyğunluqlarına müvafiq surətdə seçilmiş ən məqbul variant idi. Çünki Azərbaycanın yerləşdiyi coğrafi regionun mürəkkəb geostrateji balansı (və ya disbalansı) və regiona yönəlik edilən fərqli oriyentasiyalı strateji həmlələr, aktlar məhz bu cür strateji seçimi zəruri edirdi. Bu, milli maraqların həyata keçirilməsi üçün fundamental strateji substrat idi.

Beləliklə, beynəlxalq münasibətlər sisteminin müstəqil aktoru kimi çıxış edən Azərbaycan Respublikasının balanslaşdırma siyasəti ölkəmizin regionun güclü və nüfuzlu subyektinə çevrilməsini şərtləndirməklə yanaşı, qlobal miqyasda milli dövlətlərin təmsil olunduğu nüfuz və güc iyerarxiyasında mütəmadi yüksəlişini təmin etmiş oldu. Bundan sonra həyata keçirilən praqmatik balanslaşdırma siyasətinin sayəsində Azərbaycan beynəlxalq münasibətlər sistemində regional və qlobal aktorların etibarlı strateji tərəfdaşına çevrildi.

"Müvazinət siyasəti" (Balance policy) adlı nəzəriyyədə əks olunur ki, balanslaşdırma siyasəti milli maraqların təmin edilməsi və mütəmadi surətdə qorunması baxımından ən effektiv seçimdir.

Qeyd olunur ki, balanslaşdırma siyasəti həm hücum, həm də müdafiəni özündə ehtiva edən xarici siyasət növü kimi milli dövlətlərin praqmatik əməkdaşlıq və tərəfdaşlıq mənbəyi qismində çıxış edir. Bu baxımdan, beynəlxalq situasiyaya müvafiq surətdə strateji və taktiki prosedurların düzgün müəyyən və icra edilməsi ölkənin milli gücünü artıran amil kimi səciyyələndirilir.

Beləliklə, nəzəri-konseptual mənbələrdə də təsbit edilmiş məsələ və müddəalara müvafiq surətdə demək olar ki, Azərbaycanın xarici siyasət strategiyasında istinad etdiyi balanslaşdırma kursu milli və dövlətçilik maraqlarını ifadə edən ən məqbul strateji seçimdir.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu balanslaşdırma siyasətinin müasir dövrün reallıqlarına və qanunauyğunluqlarına müvafiq surətdə Prezident İlham Əliyev tərəfindən yeni keyfiyyətdə davam etdirilməsi Azərbaycanı Cənubi Qafqaz bölgəsinin ən güclü və nüfuzlu, suveren aktoruna çevirdi. Belə ki, Azərbaycan strateji resursları ilə regional miqyaslı, qlobal səciyyəli layihələrin mərkəzi aktoru kimi çıxış etdiyindən ölkəmizin rəy və razılığı olmadan regionda hər hansı bir layihənin gerçəkləşdirilməsi mümkün olmadı.

Nəticə etibarilə, həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və suveren aktoruna çevrilib. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı, inkişaf mənbəyi adlandırırlar. Təkcə onu demək kifayətdir ki, Azərbaycanın iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Bütün gerçəkləşdirilən regional layihələrin mərkəzi oyunçusu qismində də məhz Azərbaycan çıxış edir. Eyni zamanda, məhz bu cür layihələr ölkəmizin milli maraqlarına adekvat olmaqla bərabər, Azərbaycanın suverenlik səviyyəsini, birbaşa olaraq heç kimdən asılı olmadığını da təsdiq edir. Məsələn, Bakı-Tbilisi-Qars (BTQ) layihəsinin gerçəkləşdirilməsi yönündə atılan addımları, aparılan mübarizəni xatırlayaq. “Dəmir İpək yolu” adlandırılan və Qərblə Şərqi birləşdirəcək BTQ layihəsinin gerçək-

ləşdirilməsi istiqamətində birbaşa və əsas addımlar Azərbaycan tərəfindən atıldı. Bu, Cənubi Qafqazda reallaşdırılması nəzərdə tutulan ilk layihə idi ki, heç bir beynəlxalq maliyyə institutu onu maliyyələşdirməyə müsbət münasibət bəsləmirdi. Amma Azərbaycan kifayət qədər maliyyə ehtiyatlarını və güclü siyasi iradəsini ortaya qoyaraq BTQ-nin reallaşdırılması yönündə əsas öhdəliyi öz üzərinə götürdü. Məhz bu amilin fonunda dünyanın ən nəhəng nəqliyyat marşrutlarından birinin reallaşdırılması yönündə Azərbaycan Gürcüstana 200 milyon dollar kredit ayırmaqla bu prosesə mühüm təkan verdi. Bütün bu proseslərin qanunauyğun nəticəsi kimi, dünyanın, demək olar ki, bütün analitik mərkəzləri BTQ ətrafında cərəyan edənlərə məhz bu cür qiymət verdi: "**BTQ layihəsinin müəllifi və təkanvericisi Azərbaycanı Qərblə Şərqi birləşdirən transmilli mərkəzə çevirmək istəyən və bu yöndə xüsusi addımlar atan Prezident İlham Əliyevdir. "Dəmir ipək yolu" – BTQ Asiya ilə Avropa arasında təhlükəsiz və əlverişli yükdaşımalarını həyata keçirmək üçün olduqca effektiv bir layihədir. Layihə öncə gündəmə gələndə güclü siyasi iradə tələb olunurdu. Bu iradə isə Prezident İlham Əliyevin timsalında Azərbaycan dövləti tərəfindən nümayiş etdirildi...**"

Yuxarıda sadalananlara bənzər fikirlər BTQ layihəsinin tərəfdaşları Türkiyə və Gürcüstanın dövlət başçıları tərəfindən də əminliklə səsləndirildi. Türkiyənin prezidenti Abdullah Gül layihənin reallaşdırılması işinə məhz bu cür münasibət bildirdi: "**Bu tikintinin maliyyə dəstəyi də artıq təmin edilmişdir. Azərbaycan Prezidenti hörmətli İlham Əliyevin layihəyə verdiyi önəmli dəstək onun həyata keçirilməsinə daha əlverişli şərait yaratmışdır**".

Gürcüstan prezidenti Mixeil Saakaşvili də öz növbəsində BTQ layihəsi ətrafında cərəyan edən prosesləri məhz bu cür qiymətləndirdi: "**Azərbaycan Prezidenti İlham Əliyevin qəti mövqeyi və yaxından köməyi olmasaydı, Bakı-Tbilisi-Qars layihəsi reallaşmazdı**".

Ölkəmizin suverenlik səviyyəsinin başlıca göstəricilərindən birini də Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən

müstəqil və praqmatik enerji siyasəti təşkil edir. Azərbaycan enerji ehtiyatlarının ixracında çoxvariantlı nəqletmə sisteminə – diversifikasiya edilmiş təchizata üstünlük verir və dünyanın aparıcı dövlətləri tərəfindən etibarlı strateji tərəfdaş kimi qiymətləndirilir. Müstəqil enerji siyasəti ölkəmizin beynəlxalq arenadakı mövqeyini daha da gücləndirir.

Belə ki, "İnternational Herald Tribune" qəzetinin siyasi şərhçisi Selestin Bohlenin "Azərbaycan enerji ixracı sahəsində Avropa və Rusiya arasında tarazlı siyasət aparır" sərlövhəli məqaləsində bildirilir ki, Azərbaycanı etibarlı strateji tərəfdaşa çevirən təməl faktor bu ölkənin müstəqil və tarazlı enerji siyasəti yeritməsi ilə bağlıdır. Məqalədə qeyd edilir ki, Xəzər hövzəsinin bayraqdarı Azərbaycan regional miqyasda reallaşdırılan layihələrin mərkəzi oyunçusu olmaqla yanaşı, qlobal enerji siyasətində də tarazlaşdırıcı mexanizmdən səmərəli şəkildə istifadə edir: "**Bu da Azərbaycanın dünya miqyasında əhəmiyyətli üstünlüklər əldə etməsinə və mövqeyinin möhkəmlənməsinə səbəb olur**".

Azərbaycanın müstəqil siyasət yeritməsinin digər bir fundamental göstəricisi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yönündə ölkəmizin tutduğu prinsipial mövqe və sərgilədiyi praqmatik fəaliyyətdir. Ölkəmiz münaqişənin həlli yönündə bütün resurslarını işə salıb. Məhz bunun nəticəsidir ki, danışıqlar prosesi olduqca intensivləşib və işğalçı Ermənistanın barışmaz mövqeyi fiaskoya uğramaqdadır. Buna paralel olaraq dünyanın, demək olar ki, bütün dövlətləri Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Aparıcı dövlətlər və beynəlxalq təşkilatlar birmənalı olaraq qeyd edirlər ki, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həll edilməsi qaçılmaz və zəruri bir prosesdir. Beynəlxalq hüquq normaları isə Azərbaycanın ərazi bütövlüyünü ən yüksək səviyyədə təsbit edir.

Bir sözlə, bütün bu uğurların və mütəmadi inkişaf meyillərinin əsasında uzaqgörənliklə və praqmatik əsasda reallaşdırılan xarici siyasət kursu dayanır. Bütün bunların fonunda tam əminliklə demək olar ki, Azərbaycan praqmatik xarici siyasət strategiyası ilə

Cənubi Qafqaz regionunun inkişaf mənbəyi və təhlükəsizlik qarantı qismində çıxış edir. Həyata keçirilən müstəqil və balanslaşdırılmış xarici siyasət strategiyası Azərbaycanın beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətli şəkildə irəliləməsini təmin etməklə yanaşı, ölkəmizi dünya siyasətinin əsas konturlarını müəyyənləşdirən güc mərkəzlərinin başlıca istinad mərkəzlərindən və strateji tərəfdaşlarından birinə çevirib. Belə ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət strategiyası bir neçə istiqamətdə ölkəmizi nəzərə alınan lokomotiv aktorlardan birinə çevirib.

Beləliklə, ilk növbədə, reallaşdırılan müstəqil və balanslaşdırılmış enerji siyasəti regionun və regionətrafı coğrafiyanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, Azərbaycanı dünyanın enerji bazarında aparıcı ixracatçılardan birinə çevirib. Belə ki, bu gün Xəzər hövzəsinin bayraqdarı hesab edilən Azərbaycan sahib olduğu zəngin enerji ehtiyatlarından səmərəli şəkildə istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca aktorlardan biri kimi çıxış edir. Ölkəmiz milli dövlətçilik prinsiplərinə müvafiq olaraq həyata keçirilən praqmatik və rasional əsaslara söykənən siyasət nəticəsində miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli transmilli layihələrin mərkəzi oyunçusu qismində çıxış etməkdədir. Təsadüfi deyil ki, Xəzər dənizinə xarici sərmayədarları ilk dəfə dəvət etməklə uzunmüddətli qarşılıqlı-faydalı əməkdaşlığın sağlam təməlini atan Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə gerçəkləşdirilə bilməz. Bu da transmilli aktor və faktor olmaq etibarilə Azərbaycanın dünya dövlətlərinin enerji planı və strateji əməkdaşlıqlar perspektivində kəsb etdiyi önəmi aydın şəkildə əks etdirir. Hazırda Azərbaycan sahib olduğu bütün bu üstünlüklərlə başlıca aktorların – dünyanın aparıcı dövlətləri və transmilli şirkətlərin uzunmüddətli perspektivdə əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə can atdığı tərəfdaş ölkələrdəndir. Digər tərəfdən, Azərbaycan enerji siyasətindən əldə etdiyi gəlirlərdən ümummilli inkişafı təmin edən vasitə kimi istifadə etməkdədir.

Belə ki, "enerji amili məqsəd deyil, vasitədir" prinsipi əsas tutularaq enerji sahəsindən əldə edilən gəlirlər sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi, əhalinin sosial rifah halının yaxşılaşdırılması və qeyri-neft sektorlarının inkişaf etdirilməsi kimi prioritet istiqamətlərə yönləndirilib.

Digər tərəfdən, Azərbaycanın balanslaşdırılmış xarici siyasət strategiyası Cənubi Qafqazın hərbi-siyasi və iqtisadi təhlükəsizliyinin təmin olunmasına birbaşa töhfələr verməkdədir. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı və inkişaf mənbəyi adlandırırlar. Təkcə onu demək kifayətdir ki, Azərbaycanın iştirakı olmadan regionda heç bir strateji əməkdaşlıq platforması gerçəkləşdirilmir. Gerçəkləşdirilən bütün regional layihələrin mərkəzi oyunçusu qismində məhz Azərbaycan çıxış edir və sözügedən layihə Cənubi Qafqazın təhlükəsizlik sisteminin strateji korreksiyasında əhəmiyyətli faktor kimi dəyərləndirilir. Eyni zamanda, məhz bu cür layihələr ölkəmizin milli maraqlarına adekvat olmaqla bərabər, Azərbaycanın suverenlik səviyyəsini, heç kimdən asılı olmadığını da təsdiq edir...

Beləliklə, sadalananlardan belə bir qanunauyğun və məntiqi nəticəyə gəlmək olur ki, Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyi getdikcə güclənməkdədir. Həyata keçirilən praqmatik xarici siyasət strategiyası ölkəmizi dünya siyasətinin təmsilçisi qismində çıxış edən və müstəqil xarici siyasət yürüdən milli dövlətlərin etibarlı strateji tərəfdaşına çevirib. **Son olaraq Azərbaycanın 2012-2013-cü illərdə Şərqi Avropa bölgəsini Birləşmiş Millətlər Təşkilatının Təhükəsizlik Şurasında təmsil edəcək qeyri-daimi üzv seçilməsi həyata keçirilən rasional xarici siyasət kursunun qanunauyğun nəticəsini təşkil edir.**

# XIV FƏSİL

# MİLLİ MARAQLAR VƏ XARİCİ SİYASƏT

## 14.1. Milli maraqlara praqmatik münasibətin geosiyasi nümunəsi və ya Azərbaycanın xarici siyasət strategiyasında enerji resursları amili

Bu gün Azərbaycan sahib olduğu zəngin enerji ehtiyatlarından səmərəli şəkildə istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca aktorlardan biri kimi çıxış edir. Ölkəmiz milli dövlətçilik prinsiplərinə müvafiq olaraq həyata keçirilən praqmatik və rasional siyasət nəticəsində miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli transmilli layihələrin mərkəzi oyunçusu qismində çıxış etməkdədir. Təsadüfi deyil ki, Xəzər dənizinə xarici sərmayədarları ilk dəfə dəvət etməklə uzunmüddətli qarşılıqlı-faydalı əməkdaşlığın sağlam təməlini atan Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə gerçəkləşdirilə bilməz. Bu da transmilli aktor və faktor olmaq etibarilə Azərbaycanın dünya dövlətlərinin enerji planı və strateji əməkdaşlıqlar perspektivində kəsb etdiyi önəmi aydın şəkildə əks etdirir.

Azərbaycanın praqmatik enerji siyasətinin substratları və spesifikasını bir daha müəyyən etmək üçün enerji siyasətində təbii qaz və neft faktorlarını ayrılıqda nəzərdən keçirmək lazımdır.

Beləliklə, müasir müstəqil Azərbaycanın yüksək inkişaf mərhələsinə çıxmasında, milli-iqtisadi təhlükəsizliyinin möhkəmlənməsində və zəngin iqtisadiyyata malik olmasında neft amili xüsusi rol oynayır. Neft sərvətlərinin mənimsənilməsi, işlənilməsi və nəqli, ən əsası isə düzgün, düşünülmüş iqtisadi strategiyaya uyğun neft siyasətinin həyata keçirilməsi respublikamızın hazırkı tərəqqi mərhələsinə çatmasına dərin əsaslar yaradıb.

Ölkəmizdə neft sənayesinin tarixi çox qədimdir və Azərbaycanda neft resurslarının olmasına dair kifayət qədər çoxlu tarixi

məlumatlar mövcuddur. Ərəb tarixçiləri, coğrafiyaşünasları və səyyahları hələ bir neçə əsr əvvəl Abşerondakı iqtisadi həyatın qədimdən neftlə bağlı olduğunu göstərən, Bakının neftlə zəngin torpağa malik olmasına dair məlumatlar veriblər. İtalyan səyyahı Marko Polo Bakı neftinin Yaxın Şərq ölkələrinə aparılması, alman diplomatı və səyyahı Adam Oleari Bakıdakı neft quyularının mövcud olması, türk səyyahı Övliya Çələbi isə neft mədənlərindəki işlər, "qara qızıl"ın İrana, Orta Asiya, Türkiyə və Hindistana satılması haqqında qeydlərlə çıxış ediblər. Yerli mütəxəssislərimizin Balaxanıdakı neft quyularından birində aşkar etdiyi daş üzərindəki yazıda qədimdən burada neft çıxarılması öz əksini tapıb. Digər tarixi mənbələrdə də göstərilir ki, hələ 7-8 əsr əvvəl Bakı ətrafında 500-ə qədər neft quyusu mövcud olub. 1683-cü ildə Balaxanı, Binəqədi, Suraxanı yataqlarında olan İsveç səfirliyinin katibi, alman səyyahı Engelbert Kempfer qeyd edib ki, Abşerondan çıxarılan neft İran, Orta Asiya və Şimali Qafqaza daşınır.

Çar Rusiyası dövründə Azərbaycanda 1847-ci ildən neft mexaniki üsulla qazılmış quyulardan hasil edilməyə başlanır və Bibiheybət, Balaxanı yataqlarında sənaye əhəmiyyətli neft əldə olunur. Həmin ildən etibarən ölkəmizdə neft sənayesinin inkişafı başlanır. 1859-cu ildə Bakıda ilk neftayırma zavodu (qurğusu) tikilir. 1863-cü ildə Cavad Məlikov Bakıda kerosin zavodu tikdirir və dünyada ilk dəfə neftayırma prosesində soyuduculardan istifadə olunur. 1867-ci ildə 15 neftayırma qurğusu fəaliyyət göstərirdi. Beləliklə, sənaye üsulu ilə quyuların qazılması yeni neft yataqları aşkar edilməsinə və işlənməsinə səbəb olur. Neft sənayesinin infrastrukturu və neftin emalı inkişaf etməyə başlayır, neftin hasilatı, emalı və satışı üzrə yüzlərlə firmalar yaradılır. Azərbaycanda milli burjuaziyanın formalaşması Bakı şəhərini dünyanın sənaye mərkəzlərindən birinə çevirir. Həmin illərdə neft sənayesinin inkişafında milli "neft milyonçuları"nın (Hacı Zeynalabdin Tağıyev, İsa bəy Hacınski, Murtuz Muxtarov, Şəmsi Əsədullayev, Seyid Mirbabayev və b.) böyük fəaliyyətləri olub. 1872-ci ildə isə neft sənayesində münasibətləri tənzimləmək məqsədilə iki qanun qəbul edilir:

"Neft mədənləri və neft məhsullarından aksiz vergisi haqqında" və "İcarədarların əlində olan neftli sahələrin hərracla fiziki şəxslərə satılması". 31 dekabr 1872-ci ildə neftli sahələrin ilk satışında Balaxanıda 15 sahə, Bibiheybətdə 2 sahə hərraca qoyulur. 1874-cü ildə Bakıda ilk səhmdar neft şirkəti – "Bakı neft cəmiyyəti" yaradılır.

Neft sahələrinin hərrac yolu ilə fiziki şəxslərə satılmasına dair qanunun qəbulu və neft yataqlarının hərraca çıxarılması xarici sərmayəçilərin ölkəmizə axınına yol açır. 1873-cü ildə milliyyətcə isveç olan Robert Nobel Bakıya gəlir. 1876-cı ildə Nobel qardaşları Bakıda neft hasilatı və emalı üzrə neft şirkəti yaradırlar. O vaxtlar Azərbaycanda bir sıra neft mədənləri, neft emalı zavodları, ilk dəfə Xəzər dənizində quraşdırılmış neftdaşıyan tanker, barjlar, dəmiryolları, mehmanxanalar və s. Nobel qardaşlarına məxsus idi. 1876-cı ildə neft məhsullarına tətbiq olunan aksiz vergisi ləğv edildikdən sonra yeni neftayırma zavodları tikilib istismara verilir. 1878-ci ildə Balaxanı yatağı ilə Bakı neftayırma zavodunu birləşdirən 12 km uzunluğunda Rusiyada ilk neft kəməri inşa edilir. 1898-ci ildə neft mədənləri ilə Bakı neftayırma zavodlarını birləşdirən neft kəmərlərinin ümumi uzunluğu 230 km idi. Bu kəmərlərdə ildə 1 milyon ton neft nəql edilirdi.

1883-cü ildə Bakı-Batumi dəmiryolu tikilib istifadəyə verilir ki, bu da neft və neft məhsullarının Avropa ölkələrinə ixrac edilməsinə imkan verir. 1883-cü ildən Rotşild Bakıda maliyyə-kredit əməliyyatlarına başlayır və neftin satışı ilə məşğul olmağa başlayır. 1886-cı ildə Rotşildin Xəzər-Qara dəniz neft şirkəti yaradılır. Beləliklə, Azərbaycan bölgədə mühüm neft tədarükçüsünə çevrilir. 1901-ci ildə ölkəmizdə 11 milyon ton neft hasil edilir ki, bu da dünya neft hasilatının 50 faizdən çoxunu təşkil edirdi.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra neft sənayesində yeni mərhələ başlayır və 1920-ci ildən etibarən neft sənayesinin milliləşdirilməsi prosesi həyata keçirilir. Bu proses neft sənayesində bir sıra problemlər də yaradır və hasilat 1920-1925-ci illərdə 2-3 milyon tona düşür. Yalnız 40-cı illərdə hasilat artmağa başlayır. II Dünya müharibəsi illərində neft hasilatı ildə 23-24 milyon

tona çatdırılır ki, bu da o dövrdə SSRİ-nin neft hasilatının 76 faizini təşkil edirdi.

1949-cu ildə açıq dənizdə "Neft Daşları" yatağının kəşf olunması isə sənayenin tamamilə yeni formaya keçməsinə səbəb oldu. "Neft Daşları"nın istismara verilməsi ilə Azərbaycanda dəniz neft sənayesinin inkişafı başlandı. 1969-cu ildən başlayaraq Azərbaycanın neft və qaz sənayesində işlər daha da sürətlənir və bu sahə dinamik inkişaf mərhələsinə qədəm qoyur. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü ərzində neft və qaz sənayesinin, xüsusilə də, dəniz neftinin hasilatı əhəmiyyətli dərəcədə yüksəldi. Ulu öndərin birbaşa təşəbbüsü ilə 1970-ci ildə "Xəzərdənizneft" İstehsalat Birliyinin yaradılması isə Azərbaycan neftçilərinin Xəzərin bütün sektorlarında geoloji-kəşfiyyat, qazma, işlənmə, istismar və digər işlərin aparılmasına yol açdı. 1970-80-ci illərdə ağır yük qaldıran kran gəmilərinin, "Xəzər" və "Şelf" tipli yarımdalma üzən qazma qurğularının alınması nəticəsində dənizin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yarandı. Nəticədə 60-cı illərin sonu ilə müqayisədə yeni 8 neft və qaz yataqları kəşf edildi, neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırıldı. Həmin illərdə zəngin neft ehtiyatlarına malik "Günəşli", "Çıraq", "Azəri", "Kəpəz" və digər yataqlar kəşf olundu. Bu dövrdə dünyada analoqu olmayan Dərin Özüllər Zavodu tikilib istifadəyə verildi. Həmçinin, 70-80-ci illərdə Xəzər dənizinin digər respublikalara aid hissəsində yerləşən ən çətin yataqlarda kəşfiyyat işləri Azərbaycan neftçilərinə həvalə edildi.

### 14.2. Azərbaycanın iqtisadi inkişafında tarixi dönüş: "Əsrin müqaviləsi"nin imzalanması və yeni neft strategiyası

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra neft sənayesində tamamilə yeni mərhələnin əsası qoyuldu. Bu dövrdə başlıca vəzifə müstəqil ölkənin neft sənayesinə xarici neft kompaniyalarını cəlb etmək və yeni nəql marşrutları yaratmaqdan ibarət idi. Çox təəssüf ki, 1992-1993-cü illərdə hakimiyyətdə olan insan-

ların səriştəsizliyi, idarəçilik qabiliyyətinin olmaması, ölkəni bürümüş daxili ziddiyyətlər, səbatsızlıq, özbaşınalıq Qərbin neft şirkətlərini Azərbaycandan çəkindirdi. Eyni zamanda, həmin dövrdə Qərb şirkətləri ilə neftin istismarına dair aparılan danışıqlarda Azərbaycanın iqtisadi maraqları tam təmin olunmurdu. Bir sözlə, milli iqtisadiyyatın inkişafında mühüm rol oynaya biləcək əsas faktor olan neft amilindən istifadə olunmaması ölkədəki siyasi-iqtisadi-sosial böhranı daha da dərinləşdirirdi. Belə bir vəziyyətdə xalqın çağırışı və təkidi ilə 1993-cü ildə Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında, eləcə də, neft strategiyasının müəyyənləşməsində əsaslı dəyişikliklərin başlanğıcını qoydu.

Ümummilli liderin gərgin əməyi və qətiyyəti sayəsində neft müqaviləsi üzrə müzakirələrə, danışıqlara yenidən başlandı və nəhayət, çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri hazırlandı. 1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında dünyanın 8 ölkəsindən 11 iri neft şirkəti ilə "Əsrin müqaviləsi" adlanan beynəlxalq saziş imzalandı. Bununla da, Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu. Ulu öndər həmin sazişin respublikamızın iqtisadi, siyasi, sosial, humanitar, ictimai həyatında böyük dəyişikliklərə səbəb olacağını bildirirdi: **“1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir”.**

“Əsrin müqaviləsi”nin həyata keçirilməsi ilə Azərbaycan iqtisadiyyatında dönüş yarandı. Birinci növbədə 1995-ci ildə ilkin neft hasilatı layihəsi çərçivəsində “Çıraq-1” özülü qərb standartlarına uyğun olaraq bərpa olundu və böyük mailli quyuların qazılması məqsədilə bu özülün üst modulu modernizə edilərək yeni qazma avadanlıqları ilə təchiz olundu. 1999-cu ilin

dekabrında Azərbaycanın ilk mənfəət nefti ilə doldurulmuş tanker dünya bazarlarına çıxarıldı.

Ulu öndər Heydər Əliyev neft strategiyasının əsas istiqamətlərindən biri kimi, Azərbaycan neftinin dünya bazarlarına nəqlini vacib hesab edirdi. Bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Şərq-Qərb marşrutunun yaradılması başlıca məqsədlər idi. Məhz bu məqsədlə "Azəri-Çıraq-Günəşli" yataqlarından hasil olunan yanacağın Avropaya nəqlini təmin edə biləcək trans-kommunikasiya dəhlizinin yaradılması olduqca vacib sayılırdı. Ulu öndər Heydər Əliyev dünyanın ən nüfuzlu siyasi liderləri, müxtəlif ölkələrin dövlət və hökumət başçıları, işgüzar dairələrin nümayəndələri, neft şirkətlərinin rəhbərləri ilə mütəmadi danışıqlar apararaq Azərbaycan neftinin Türkiyə vasitəsilə Qərbə ixracını nəzərdə tutan strateji marşrutun çəkilməsi üçün dövlətlərarası sazişin imzalanmasına çalışırdı. Bunun üçün regionda ən təhlükəsiz və uzunömürlü, rentabelli marşrut olan Bakı-Tbilisi-Ceyhanın (BTC) çəkilməsi təklif olunurdu. Həmin dövrdə Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərləri Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasında rol oynasa da, BTC qədər beynəlxalq miqyasa malik və rentabelli ixrac dəhlizi sayıla bilməzdi. İlkin dövrlərdə BTC-nin reallaşmasını istəməyən qüvvələr çox idi və onlar neftin digər marşrutlarla nəqlinə çalışırdı. Lakin həmin qüvvələrin müxtəlif təxribatlarına və təzyiqlərinə baxmayaraq Heydər Əliyevin əzmkarlığı və qətiyyəti nəticəsində Bakı-Tbilisi-Ceyhanın çəkilməsinə dair sazişin imzalanması mümkün oldu. Türkiyə-Gürcüstan-Azərbaycan dövlətlərinin birliyi, Amerika Birləşmiş Ştatlarının dəstəyi nəticəsində, ən əsası isə Ulu öndərin qəti əzmkarlığı sayəsində çoxlarının əfsanə hesab etdiyi layihə reallığa, gerçəkliyə çevrildi.

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə görüşü çərçivəsində Ulu öndər Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman

Dəmirəl "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin ərazilərilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə" dair saziş imzaladı. Eyni zamanda, Azərbaycan Respublikası, Gürcüstan, Türkiyə Cümhuriyyəti, Qazaxıstan Respublikası və Amerika Birləşmiş Ştatlarının prezidentləri bu layihəni dəstəkləyən "İstanbul Bəyannaməsini" imzaladılar. Bununla da, Azərbaycanın uzunmüddətli siyasi, iqtisadi mənafelərinin təmin edilməsi, genişmiqyaslı beynəlxalq əməkdaşlığın həyata keçirilməsi, eyni zamanda, regionda sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar edilməsi üçün növbəti mühüm addım atıldı.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinə dair dövlətlərarası sazişin imzalanmasından sonra tərəflər BTC-nin çəkilişi üçün real işlərə başladılar. 2002-ci il sentyabrın 18-də Bakıda, Səngəçal terminalında Ümummilli lider Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyuldu və kəmərin tikintisinə başlandı. BTC-nin Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktyabrında baş tutdu.

## 14.3. Azərbaycan nefti regional siyasi-iqtisadi proseslərdə mühüm faktor kimi: Bakı-Tbilisi-Ceyhan kəmərinin işə düşməsi və yanacaq resurslarının dünya bazarlarına nəqli

2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salındı. İyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. BTC dünya dövlətləri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin, dünya xalqları ilə Azərbaycan xalqının əlaqələrinin yenidən qurulmasına təkan verdi, Azərbaycanın xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə səbəb oldu.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, BTC Azərbaycan,

Gürcüstan və Türkiyəni, xalqlarımızı bir-birinə daha da yaxınlaşdırmaqla yanaşı, bölgəyə sülh və sabitlik gətirib. Bu kəmər nəinki Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasına imkan verdi, həmçinin, "İpək yolu" üzərində yerləşən dövlətlərin, türkdilli ölkələrin, bütün dünyanın əsas magistral kəmərinə çevrildi. Bakı-Tbilisi-Ceyhan boru kəməri Azərbaycan, Gürcüstan, Türkiyə və bütövlükdə bölgə, Avropa və ümumən dünya üçün iqtisadi, siyasi baxımdan, enerji təhlükəsizliyi cəhətdən çox böyük əhəmiyyətə malik olmaqla yanaşı, Türkiyənin Qara dəniz boğazlarının həddən artıq yüklənməsinin də qarşısını aldı. Dünyanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna rol oynayan BTC ilə ildə 50 milyon ton Azərbaycan nefti nəql etmək mümkündür.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu neft strategiyası, çəkilişinə nail olduğu Bakı-Tbilisi-Ceyhan kəməri ölkəmizin müstəqilliyinin möhkəmlənməsi, təhlükəsizliyinin etibarlı təmin olunması, zəngin və qüdrətli dövlətə çevrilməsi, eləcə də, regionun və dünyanın enerji təhlükəsizliyində əsas yer tutan dövlət kimi nüfuzunun artmasına səbəb olub. Azərbaycan hazırda çoxşaxəli enerji siyasəti həyata keçirərək Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində başlıca rol oynamaqdadır. Hazırda Azərbaycanın yerləşdiyi Xəzər regionu dünyanın enerji təchizatında mühüm yer tutur. Avropanın enerji təhlükəsizliyinin təminatında Xəzər regionu müstəsna məkandır və Azərbaycan bu prosesdə başlıca rol oynayan regionun flaqmanıdır. Azərbaycan hökumətinin nümayiş etdirdiyi siyasi iradə olmasaydı və respublikamızın 17 il əvvəl imza atdığı enerji siyasəti reallaşmasaydı, hazırkı neft və qaz layihələri çəkilə bilməyəcəkdi, eləcə də, Avro-Asiya Neft Nəqli Dəhlizi sisteminin yaradılması bu qədər gerçəyə çevrilməzdi.

Hazırda Azərbaycan dünyanın 33 ölkəsinə neft və neft məhsulları ixrac edir. BTC işə düşəndən indiyədək Azərbaycan beynəlxalq bazarlara təxminən 260 milyon ton neft ixrac edib.

### 14.4. Neft iqtisadiyyatı digər sahələrin inkişafını stimullaşdıran amil kimi: diversifikasiya siyasəti və qeyri-neft sektorunun inkişafı

Neft-qaz sektoru hazırda iqtisadiyyatın digər sahələrinin inkişafında lokomotiv rolunu oynamaqdadır. Qeyri-neft sektorundakı bu dinamizmi iqtisadiyyatın diversifikasiyası ilə bağlı həyata keçirilən siyasətin mühüm nəticəsi hesab oluna bilər.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, keçid iqtisadiyyatından sonrakı yeni inkişaf mərhələsində ölkəmizin qarşısında duran əsas vəzifələrdən biri qeyri-neft sektorunun sürətli inkişafını təmin etməkdən və bu sektora aid müəssisələrin yüksək keyfiyyətə malik məhsul istehsalını artırmaqdan ibarətdir: “Bu gün artıq Azərbaycan iqtisadiyyatı neft amilindən o qədər də asılı deyildir. İnvestisiyaların cəlb edilməsi, xarici şirkətlərlə uğurlu və qarşılıqlı maraqlar əsasında yaradılmış əlaqələr, hasilatın artırılması, Azərbaycanın iqtisadi inkişafının təmin edilməsi, neft kəmərlərinin tikintisi və təbii ehtiyatların bu kəmərlər vasitəsilə dünya və Avropa bazarlarına nəql edilməsi layihələri bugünkü Azərbaycanın reallıqlarını böyük dərəcədə əks etdirir. Bu gün Azərbaycanın qeyri-neft sektorunun inkişafı da çox sürətlə gedir. Buna təkan verən məhz neft siyasəti, neft strategiyası olmuşdur”.

Qeyri-neft sektorundakı yüksək artım Azərbaycan iqtisadiyyatının çoxşaxəli iqtisadiyyat olduğunu göstərir. Azərbaycan hökuməti zəngin neft resurslarının satışından daxil olan valyuta ehtiyatlarını səmərəli şəkildə xərcləməklə, iqtisadiyyatın bütün sektorlarının dinamik inkişafı üçün əlverişli baza yaratmağa nail olub və hazırda qeyri-neft sektoru valyuta gətirə biləcək strateji bölməyə çevrilib. Həyata keçirilmiş məqsədyönlü investisiya proqramlarının icrası nəticəsində neftdən kənar sahələr valyutatutumlu olmaqla, gələcəkdə iqtisadi inkişaf üçün dərin zəmin yaradır.

Prezident İlham Əliyev bildirib ki, biz gələcəyimizi yalnız neftlə bağlamaq istəmirik. Neft faktoru bizim üçün vasitədir. Müstəqilliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın gücləndiril-

məsi istiqamətində bir vasitədir: **"Yəni biz bu vasitədən istifadə edirik: Neft bizim üçün vasitədir. Mən hesab edirəm ki, biz bu vasitədən çox səmərəli istifadə etdik. Azərbaycan artıq dünyada tanındı. Ölkəmizə milyardlarla dollardan artıq sərmayə gətirilib qoyuldu. Azərbaycan öz iqtisadiyyatının neftlə bağlı olan digər sektorlarının da xeyrini götürdü, orada inkişaf müşahidə olunur... Azərbaycan neft satışından milyardlarla dollar götürəcəkdir ki, bu da geniş sosial proqramları həyata keçirməyə, əməkhaqqını və pensiyaları artırmağa, imkansız ailələrə, müharibə əlillərinə və qaçqınlara daha da çox kömək etməyə imkan verəcəkdir. Nəticədə güclü iqtisadi potensial yaradılacaq və bu da ölkənin müstəqilliyini bundan sonra da qoruyub möhkəmlətməyə imkan verəcəkdir. Deyə bilərəm ki, Azərbaycanın neft gələcəyi çox parlaqdır. Hesab edirəm ki, respublikamız bundan əldə etdiyi gəliri düzgün xərcləyəcək və beləliklə, iqtisadiyyatımızın bütün sektorları inkişaf edəcəkdir".**

Respublikamızda qeyri-neft sektorunun yüksək inkişaf perspektivləri iqtisadiyyatın diversifikasiyası üçün başlıca stimullardan biridir və yeni strateji plana əsasən Azərbaycan yaxın onillikdə qeyri-neft məhsullarının ixracatçısı kimi dünyada böyük nüfuza malik olacaq. Təbii ki, ilkin mərhələdə iqtisadiyyatın diversifikasiyasının sürətləndirilməsi üçün neftdən daxil olan vəsaitlərin həcmi xüsusi rol oynayacaq. Azərbaycan hökuməti zəngin neft resurslarının satışından daxil olan valyuta ehtiyatlarını səmərəli şəkildə xərcləməklə iqtisadiyyatın bütün sektorlarının dinamik inkişafı üçün əlverişli baza yaratmağa nail olub və hazırda qeyri-neft sektoru böyük gəlirlər gətirə biləcək strateji bölməyə çevrilib.

Ümumiyyətlə, Azərbaycan hökuməti neft gəlirlərinin xərclənməsini ölkənin inkişafı üçün prioritet hesab edir və bu sahədə şəffaflığın təmin edilməsini başlıca məqsədlərdən sayır. Oğuz-Qəbələ-Bakı su kəmərinin, hazırda inşası davam etdirilən Samur-Abşeron suvarma sisteminin yenidən qurulması, Bakı-Tbilisi-Qars dəmiryolu layihəsinin maliyyələşdirilməsi neft vəsaitləri hesabına həyata keçirilir və bu layihələr trans-kommunikasiya sistemlərinin

ən mühüm seqmentlərini təşkil edir. Bundan başqa, neft vəsaitlərinin böyük bir hissəsinin qaçqın və məcburi köçkünlərin sosial şəraitinin yaxşılaşdırılmasına, təhsil və səhiyyə bölmələrində bir sıra layihələrin maliyyələşdirilməsinə yönəldilməsi bir daha hökumətin sosialyönümlü siyasət yürütdüyünü, insanların rifah halına xüsusi önəm verdiyini təsdiqləyir. Həyata keçirilən məqsədyönlü investisiya proqramlarının icrası nəticəsində neftdən kənar sahələr valyutatutumlu olmaqla, gələcək iqtisadi inkişaf üçün dərin zəmin yaradır.

XXI əsrin birinci onilliyində respublikamızın iqtisadi inkişafında neft gəlirləri başlıca valyuta mənbəyi olsa da, ikinci onillikdə qeyri-neft məhsullarının istehsalının və ixracının yüksəlməsi valyuta resurslarının strukturunun dəyişməsinə imkan yaradır. Yəni iqtisadiyyatda diversifikasiya siyasətinin həyata keçirilməsi yaxın illərdə öz mühüm bəhrəsini verdikdən sonra ölkəmizin valyuta mənbələri sırasında qeyri-neft məhsulları xüsusi paya malik olacaq.

Neft gəlirlərinin ədalətli bölüşdürülməsi: büdcədə neft gəlirlərinin yeri, Dövlət Neft Fondundan transferlər, şəffaflıq...

***“Neft Fondunun başlıca məqsədi indiki və gələcək nəsillərə xidmət etməkdir”***

***Ulu öndər Heydər Əliyev***

Ulu öndər Heydər Əliyev neftdən əldə olunan gəlirlərin səmərəli və şəffaf şəkildə xərclənməsi üçün mükəmməl strategiyanı da yaradıb. 1999-cu ildə Ümummilli lider Heydər Əliyev “Azərbaycan Respublikasının Dövlət Neft Fondunun (DNF) yaradılması haqqında” Fərman imzalamaqla neft vəsaitlərinin ədalətli bölüşdürülməsi konsepsiyasının təməlini qoyub. Neft Fondunun yaradılması fəlsəfəsinin əsas qayəsi neft sərvətlərinin nəsillər arasında ədalətli bölüşdürülməsinin təmin olunmasını təşkil edir. Fondun qarşısında qoyulan əsas məqsədlərdən biri neft gəlirlərinin gələcək nəsillər üçün toplanaraq artırılması və vəsaitlərdən ölkəmizin cari sosial ehtiyaclarını, iqtisadi tərəqqi və inkişaf

tələblərini nəzərə almaqla, bugünkü nəsillər üçün istifadə edilməsidir. Fond yaradılarkən dünyanın bir sıra dövlətlərində bu cür qurumların təcrübəsindən, beynəlxalq maliyyə təşkilatlarının məsləhətlərindən istifadə olunmuş, eyni zamanda, yerli xüsusiyyətlər və mövcud ehtiyaclar da nəzərə alınıb.

Respublikamızın neft gəlirlərinin sürətlə artmasını və həmin vəsaitlərin güclü daxili və xarici netto-kreditor mövqeyinin formalaşması məqsədilə səmərəli idarə olunması xüsusi diqqət çəkir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, neftdən daxil olan vəsaitlər milli iqtisadiyyatın sürətli inkişafının təmin edilməsinə və insanların sosial vəziyyətinin yaxşılaşmasına, eyni zamanda, ən son qabaqcıl texnologiyaların respublikamızda tətbiq olunmasına yönəldilir: **“Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir”.**

Neft gəlirlərinin səmərəli xərclənməsi Azərbaycanın şəffaflıq prinsipini başlıca məqsədlərdən biri hesab etməsinin ən bariz nümunəsidir. Bu faktorlar isə beynəlxalq maliyyə institutları və reytinq agentlikləri tərəfindən dərin təhlil edilib və nüfuzlu təşkilatlar Azərbaycan hökumətini neft vəsaitlərinin səmərəli idarə olunmasına görə, yüksək reytinqlə qiymətləndiriblər. Neft Fondu Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün (MHŞT) tətbiqi prosesində fəal iştirak edir. Azərbaycan bu təşəbbüsə 2003-cü ildən qoşulub və ötən dövr ərzində yüksək nailiyyətlər əldə edib.

Azərbaycan MHŞT üzrə dünyada ilk hesabatı açıqlayan ölkə hesab olunur. (2005-ci il martın 15-də). DNF Şərqi Avropa və MDB ölkələrinin dövlət təşkilatları arasında "BMT-nin Dövlət Qulluğu Mükafatı"na layiq görülən birinci dövlət qurumudur. 2007-ci il üçün "BMT-nin Dövlət Qulluğu Mükafatı" uğrunda mübarizəyə 200-ə yaxın ölkə qoşulub, lakin bir neçə mərhələdən sonra yalnız 14 ölkə bu mükafatı qazanmağa müvəffəq olub. 2008-ci il sentyabrın 11-də Azərbaycan hökuməti tərəfindən təqdim edil-

miş MHŞT-ni dəstəkləyən qətnamə layihəsi BMT-nin Baş Assambleyasında konsensusla qəbul edilib. BMT DNF-yə "2009-cu il MHŞT mükafatı" təqdim edib.

Respublikamız neft vəsaitlərinin xərclənməsində şəffaflıq prinsiplərinin qorunmasını təmin edən mükəmməl mexanizm yaratmaqla bir çox ölkələrə nümunə olmaqdadır. Bu gün neft istehsal edən dövlətlərin əksəriyyəti respublikamızın neft gəlirlərinin idarə olunması sahəsindəki təcrübəsini tətbiq etməyə hazırlaşır.

Bir neçə ildir ki, dünyanın ən nüfuzlu təşkilatlarının neft bölməsində şəffaflıqla bağlı hesabatlarında Azərbaycan ən yüksək yerlərdən birini tutur. Neft vəsaitlərinin düşünülmüş siyasətə uyğun həm xarici investisiyalara, həm daxili sərmayələrə, həm də sosial sahələrə səmərəli xərclənməsi son nəticədə insan kapitalının inkişafına stimul verir. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycan hökumətinin apardığı siyasətin başlıca məqsədi nefti – "qara qızılı" insan kapitalına çevirməkdən ibarətdir. Bu istiqamətdə aparılan tədbirlər öz mühüm nəticələrini verməkdədir və neft gəlirləri insanların ən qabaqcıl informasiya-kommunikasiya texnologiyalarını mənimsəməsinə, intellektual mülkiyyətin inkişafına istiqamətlənir.

Onu da qeyd edək ki, Azərbaycanda qeyri-neft sektorunun sürətli inkişafı beynəlxalq maliyyə institutları və xarici investorlar tərəfindən təqdir olunmaqdadır. Məsələn, bir müddət əvvəl BMT İnkişaf Proqramının hazırladığı İnsan İnkişafı Hesabatında respublikamızın qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirdiyi davamlı islahatlar yüksək qiymətləndirilib. Həmin hesabatda BMT Azərbaycan üçün əhəmiyyətli olan sahələrin, xüsusilə də, qeyri-neft sektoru və effektiv idarəetmə sahəsinin inkişafını təqdir edib. Təşkilat bu istiqamətdə ölkəmizlə əməkdaşlığı davam etdirəcəyini bəyan edib. BMT neft satışından daxil olan vəsaitlərin sosial-iqtisadi sahələrdə məqsədyönlü proqramların həyata keçirilməsinə, xüsusilə də, qeyri-neft bölməsindəki layihələrə sərf olunmasını pozitiv faktor kimi səciyyələndirir.

## 14.5. Neft Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında və regional əməkdaşlığın inkişafında mühüm vasitədir

Yanacaq resurslarının nəqlinə başlandığı gündən diversifikasiya siyasətinə üstünlük verən Azərbaycanın atdığı qətiyyətli addımlar regionun və dünyanın enerji təhlükəsizliyini təmin edib, çoxşaxəli enerji marşrutları sisteminin yaradılmasına əlverişli zəmin yaradıb. Azərbaycan hökuməti nümayiş etdirdiyi siyasi iradə ilə trans-enerji layihələrinin çəkilişinə səbəb olub, Avro-Asiya Neft Nəqli Dəhlizi sisteminin yaradılmasını reallaşdırıb. Avropa İttifaqı Xəzər regionu ölkələrinin enerji resurslarının Avropa istiqamətinə cəlb olunması üçün öz səylərini daha da artırmaqdadır. Azərbaycan hazırda çoxşaxəli enerji siyasəti həyata keçirərək Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində başlıca rol oynamaqdadır.

Son illər dünyada baş verən siyasi-iqtisadi proseslər bir çox enerji tədarükçülərinin öz tərəfdaşlarına qarşı ədalətsiz siyasət yürütdüyünü göstərir. Xüsusilə də Rusiyanın son illər ədalətsiz qiymət siyasəti və enerji amilindən siyasi təzyiq vasitəsi kimi istifadə etməsinə çox təsadüf olunub. Buna görə də, Avropa dövlətləri gələcək talelərinin Xəzər regionundan, əsasən də Azərbaycandan asılı olmasını qəti şəkildə müəyyənləşdiriblər. Ölkəmiz Avropaya neft ixrac edən potensial və etibarlı ixracatçı imicini qazanıb.

Azərbaycan enerji siyasətini həyata keçirərkən neft və qaz amilindən heç vaxt siyasi məqsədlər üçün istifadə etməyib və tərəfdaşları ilə qarşılıqlı səmimiyyət prinsiplərinə söykənib. Bunu daha açıq şəkildə ölkəmizin neft və qaz ixrac etdiyi dövlətlərə olan münasibətlərinin fonunda müşahidə etmək olar. Azərbaycan Gürcüstan, Türkiyə və Yunanıstanı qazla təmin edərkən həmin ölkələrə qarşı humanizm nümayiş etdirərək yanacağın dəyərinin digər tədarükçülərlə nisbətdə güzəştli qiymətlərlə ödənilməsinə də razılıq verib. Gürcüstan 2005-ci ildə Rusiyanın qaz təchizatını dayandırdığı vaxt qışda donmaq təhlükəsi ilə üzləşmişdi. Bu vəziyyətdə Azər-

baycan qonşu ölkəyə yardım əlini uzadaraq dözülməz vəziyyətdən çıxarmağa qərar verdi.

Bu kimi faktorlar respublikamızın dünya enerji tədarükçüləri arasında nüfuzunu və mövqeyini möhkənləndirmiş olur. Enerji istehlakçılarının rəsmi Bakıya etibarlı tərəfdaş kimi rəğbəti yüksəldi, onlar Azərbaycanın sülh və sabitliyə, qarşılıqlı hörmətə, dərin əməkdaşlığa xidmət edən siyasətini yüksək dəyərləndirərək sıx münasibətlər qurmağa çalışır. Bu gün respublikamıza Şərqi və Qərbi Avropanın demək olar ki, bütün ölkələrinin hökumət başçılarının ardıcıl xarakter alan səfərlərinin də bir məzmunu var: Azərbaycan regionda ən etibarlı tərəfdaşdır və rəsmi Bakı ilə enerji sahəsində möhkəm təməllərə söykənən əməkdaşlıq sazişlərinin imzalanması gələcək təhlükəsizliyə etibarlı təminat yaratmaq deməkdir. Estoniyanın dövlət başçısının ölkəmizə səfəri zamanı müzakirə olunan başlıca elementlər də qeyd olunanları möhkəmləndirmiş olur.

Azərbaycana olan etibar bu gün Avropanın fəaliyyət planının bir nömrəli məsələsidir. Prezident İlham Əliyev dünyada enerji təhlükəsizliyinin ciddi problemə çevrildiyi indiki vaxtda ölkəmizin Qərbin enerji təhlükəsizliyinin təmin olunmasında yaxından iştirak etdiyini vurğulayaraq tərəfdaşları ilə ədalətli əməkdaşlığa önəm verildiyini bəyan edib: **“Azərbaycan enerjidaşıyıcılarının nəqli və qiymət məsələsində istər hasilatçı, istər istehlakçı, istərsə də tranzit ölkələrin maraqlarının ədalətli şəkildə uzlaşdırılmasının tərəfdarıdır. Biz etibarlı təchizatçıyıq. Azərbaycandan neft və qaz dünyanın müxtəlif yerlərinə ixrac edilir. Bütün ixrac əməliyyatlarımızda heç vaxt elə bir hal olmayıb ki, təchizatımız dayansın və ya istehlakçılar müəyyən problemlərlə üzləşsinlər. Enerji siyasəti dostluğa və əməkdaşlığa xidmət etməlidir. O, millətləri bir-birindən ayırmalı deyil, onları birləşdirməlidir. Biz enerjinin nəql olunması sistemini şaxələndirmişik. Əminəm ki, gələcəkdə Azərbaycan ilə Avropa istehlakçıları arasında münasibətlər uğurla inkişaf edəcəkdir”.**

Hazırda Azərbaycanda neft hasilatı 50 milyon tonu ötüb və bu,

çox böyük göstərici sayıla bilər. İllik qaz hasilatı isə 25 milyard kubmetrdən artıqdır.

Hazırda Azərbaycanın karbohidrogen ehtiyatlarının ümumi həcmi 10 milyard tondan çoxdur. 2025-ci ilədək dünyada yanacaq məhsullarına olan tələbatın kəskin şəkildə artması və Xəzər regionundan hasil olunan ehtiyatların həcminin çoxalması bölgədə əlavə magistral kəmərlərin tikintisini zəruri edəcək. Xəzər regionunda neft hasilatı 2015 və 2025-ci illərədək müvafiq olaraq 100 və 150 min ton artacaq. Buna görə də, bu həcmlərin təmini üçün yeni boru kəmərlərinin çəkilməsi, Qazaxıstan, Azərbaycan və Gürcüstanın liman imkanlarının genişləndirilməsi, Azərbaycan və Gürcüstan arasında dəmiryol nəqliyyatının yaxşılaşdırılması, terminallarda anbar qurğularının genişləndirilməsi, Odessa-Brodı-Plosk-Qdansk neft kəmərlərinin çəkilməsi vacibdir. Yeni enerji dəhlizlərinin yaradılması isə Azərbaycanın həm ixrac coğrafiyasını genişləndirəcək, həm də 50-ə yaxın ölkəyə neft-qaz məhsulları nəql etməsinə imkan verəcək.

Göründüyü kimi, milli gücün potensial ünsürü kimi səciyyələndirilən neft resurslarından səmərəli surətdə istifadə edilməsi Azərbaycanın milli iqtisadiyyatının inkişafını, regional və qlobal miqyasda enerji təhlükəsizliyinin təmin olunmasını şərtləndirməklə yanaşı, ölkəmizin dünya iqtisadiyyatında mövqeyinin möhkəmlənməsinə fundamental töhfələr bəxş edib.

Bununla yanaşı, Azərbaycan sahib olduğu qaz ehtiyatlarından səmərəli surətdə istifadə etməklə diversifikasiya siyasəti yeridir və bu, ölkəmizin milli maraqlarının təmin olunmasını şərtləndirən əhəmiyyətli amil qismində çıxış edir.

Azərbaycan yerləşdiyi regionda əlverişli coğrafi relyefə malik olmaqla yanaşı, zəngin mineral resursları ilə də dünyanın diqqət mərkəzindədir. Xüsusilə də, Xəzərin Azərbaycan sektorunda yerləşən karbohidrogen ehtiyatları ilə zəngin yataqları daha perspektivli və uzunömürlü olması ilə diqqəti cəlb edir. Respublikamızda neft hasilatı sənayesinin tarixi XIX əsrə gedib çıxsa da, qaz sənayesinin tarixi əsasən ötən əsrin ortalarından başlayır. Qaz resursları əsasən

dənizdən hasil olunur, amma bununla yanaşı, bu yanacaq növünə quruda da rast gəlmək mümkündür. Xüsusilə də, Balaxanının aşağı hissəsində daha məhsuldar qaz qatları mövcuddur. Bundan başqa, Balaxanı, Sabunçu, Ramana, Suraxanı, Qaraçuxur, Zığ ərazilərində yerin təkində qaz resursları var. Buradan hasil olunan yanacağın həcmi isə ümumi hasilatda çox cüzi paya malikdir.

Qeyd etdiyimiz kimi, respublikamıza məxsus zəngin qaz ehtiyatları dənizdə yerləşir. Xəzərdə böyük həcmli qaz hasilatı ötən əsrin 50-ci illərindən sonrakı dövrə təsadüf edir. Xəzərin Qumdaşı, Bahar, Duvannı, Kənizdağ, Səngəçal-Duvannı, Bulla-dəniz yataqları, eləcə də, Qərbi Abşeron-Atəşgah, Buta-Quşxana, Qaradağ yataqları əsas hasilat zonaları sayılır. Amma respublikamızın mövcud kəşf olunmuş və hazırda geoloji kəşfiyyat işlərinin davam etdiyi qaz yataqları ("Azəri-Çıraq-Günəşli"dəki səmt qazı blokları, "Şahdəniz", "Şəfəq-Asiman", "Ümid", "Babək", "İnam", "Alov", "Şərq") bu sənaye sahəsinin əsas rezerv bazalarıdır. Qeyd olunan yataqlar Azərbaycanın qaz bumunun başlanmasında əsas strateji hasilat mərkəzləri sayıla bilər.

Sovet dövründə, eləcə də, müstəqilliyin bərpasından sonrakı 10 il ərzində respublikamız əsasən neft ölkəsi kimi tanınsa da, qaz rezervlərinin hasilata cəlb olunması və mənimsənilməsi Azərbaycanın enerji siyasətində tamamilə yeni səhifə açmış oldu. Neft strategiyası qaz siyasəti ilə zənginləşməyə başladı. Azərbaycan XXI əsrin ilk onilliyində artıq dünyada güclü və potensial qaz ölkəsi olduğunu təsdiq edərək ən yeni tarixə öz möhürünü vurdu.

Qeyd etdiyimiz kimi, ötən əsrin sonlarından başlayaraq qaz ehtiyatlarının nəqlinin gücləndirilməsi və yeni bloklarda hasilat işlərinə başlanılması respublikamızın enerji siyasətinin daha da zənginləşməsinə səbəb olub və karbohidrogen resurslarının ixracı ilə bağlı strategiyaya əlavə komponentlər daxil edilib. Zəngin qaz ehtiyatlarına malik olan Azərbaycan enerji resurslarının nəqlində diversifikasiya siyasətini genişləndirərək Avropanın bir çox dövlətlərinə yanacaq ixracını artırıb. Respublikamız dünyada təchizatçı kimi mövqeyini daha da möhkəmləndirib.

Azərbaycanın həyata keçirdiyi enerji siyasəti regionun geosiyasi mənzərəsini dəyişdirməklə yanaşı, bölgədə sülh, dostluq və təhlükəsizlik dəhlizinin daha da genişlənməsinə imkan yaradıb. Bu strategiya ölkəmizin həyata keçirdiyi enerji siyasətini daha da zənginləşdirib və respublikamız dünyada təchizatçı kimi mövqeyini möhkəmləndirib. Son illər karbohidrogen ehtiyatlarının hasilatında və nəqlində artım meyilləri baş verib, xarici ölkələrə ixrac olunan yanacaq resurslarının həcmi əhəmiyyətli dərəcədə artıb. Respublikamızın dünyanın yeni enerji xəritəsində və geosiyasi-iqtisadi düzənində strateji üstünlüyü daha da artıb. 2010-cu ildə Azərbaycanın Amerika, Avropa, Asiya ölkələrinin enerji təminatında aparıcı rol oynamaqla bölgənin enerji tədarükü mərkəzi və yeni neft-qaz layihələrinin həyata keçirilməsinin təşəbbüskarı olmasını bir daha nümayiş etdirib.

Respublikamızın qaz partnyorları sırasına Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Macarıstan, Rusiya Federasiyası, İran daxil olub, həmçinin, yanacaq alıcılarının sayı və ixracın coğrafiyası ilbəil artmaqdadır. Ötən il karbohidrogen ehtiyatlarının hasilatında və nəqlində artım meyilləri baş verib, xarici ölkələrə ixrac olunan yanacaq resurslarının həcmi əhəmiyyətli dərəcədə artıb. Azərbaycan 2010-cu ildə bölgənin bir çox ölkəsinə yanacaq ehtiyatlarının nəqlini həyata keçirməklə diversifikasiya siyasətini gücləndirib. Azərbaycan 2010-cu ildə dünyanın 30-a yaxın ölkəsinin enerji təminatında mühüm rol oynamaqla qlobal iqtisadiyyatda xüsusi çəkiyə malik dövlət olmasını təsdiqləyib.

2010-cu ildə ölkəmiz yanacaq-enerji sektorunda ən mühüm nailiyyətlər əldə edib. Rusiya istiqamətində şimal marşrutunun nəql gücünün artırılması, İrana qaz ixracına başlanılması, qardaş Türkiyə ilə yeni əsrin ən mühüm iqtisadi hadisələrindən biri olan tranzit sazişinin imzalanması, AGRİ layihəsinin əsasının qoyulması, digər dövlətlərlə yanacaq nəqlinə dair razılaşmaların əldə olunması, karbohidrogen ehtiyatlarının axtarış-kəşfiyyat işlərinin uğurla aparılması və yeni enerji bloklarının kəşf edilməsi ötən ilin uğurlarını şərtləndirən faktorlar kimi dəyərləndirilə bilər.

## 14.6. Avropanın enerji təhlükəsizliyində Azərbaycan qazının əhəmiyyəti

Heç şübhəsiz ki, 2010-cu ilin ən zəngin iqtisadi yeniliklərindən biri iyun ayında Azərbaycanla Türkiyə arasında təbii qazın satışı və nəqli üzrə sazişin imzalanmasıdır. Bu sazişi imzalamaqla Azərbaycanla Türkiyə regionda əməkdaşlıq və təhlükəsizlik dəhlizinin möhkəmlənməsi üçün yeni təməllər yaradıb. Bundan başqa, ötən il Azərbaycan, Gürcüstan və Rumıniyanın dövlət başçılarının, Macarıstanın isə baş nazirinin iştirakı ilə AGRİ layihəsinə dair imzalanan saziş geoiqtisadi əhəmiyyətinə görə, böyük strateji məzmun kəsb edir. Bu layihə Xəzər-Qara-Aralıq dənizlərinin əhatə olunduğu hövzənin enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfələr verməklə yanaşı, yeni strateji əməkdaşlıq platformalarının formalaşmasına və uzunmüddətli perspektivdə davam etdirilməsinə əlverişli zəmin yaradır.

Bundan başqa, sözügedən il "Çıraq" Neft Layihəsinə dair saziş imzalanıb. Dövlət Neft Şirkəti mart ayında "BP" şirkəti ilə dəyəri 6 milyard dollar olan "Çıraq" Neft Layihəsinə sanksiya verib. Bundan bir müddət sonra isə "BP" ilə Azərbaycan arasında ən zəngin neft-qaz bloklarından biri sayılan "Şəfəq-Asiman" yatağının işlənməsinə dair saziş imzalanıb.

Qaz sektorunda yeni yataqların mənimsənilməsi ilə bağlı aparılan axtarış işləri də son illər öz bəhrəsini verməkdədir. Bu istiqamətdə görülən işlər ötən il daha intensiv xarakter alıb və ümumilikdə, 2010-cu il Azərbaycanın qaz sənayesi tarixində əlamətdar il kimi yadda qalıb. Məsələn, ötən ilin noyabr ayında Azərbaycanın neft-qaz sənayesində xüsusi rolu olan neftçilərin gərgin və qətiyyətli əməyi sayəsində "Ümid" yatağı kəşf olundu. Bu, Azərbaycanın neft və qaz sənayesi tarixində ən mühüm hadisə kimi qeyd oluna bilər. Bu faktor Azərbaycanın bölgədə siyasi, geoiqtisadi və siyasi gücünün daha bir təntənəsi idi.

Proqnozlaşdırılan ehtiyatları 200 milyard kubmetr qaz, kon-

densatı isə 30-40 milyon tondan ibarət olan bu yataq, Azərbaycanın onilliklər boyu dünyaya qaz satmasına əla fürsət yaradıb. Bundan başqa, “Ümid” yatağı digər perspektivli yataqlara da geniş yol açmış olur. Bu yataq “Babək” bloku üçün də əlverişli perspektivlər vəd edir. Çünki “Babək”in ehtiyatlarının mənimsəmə vəziyyəti daha əlverişlidir və “Ümid”lə müqayisədə burada resurslar 2 dəfə çoxdur. Yəni “Ümid” yatağında ehtiyatlar 200 milyard kubmetr olacaqsa, “Babək”də bu, 400 milyard kubmetr proqnozlaşdırılır.

Qeyd edək ki, “Ümid” yatağının kəşf olunması Azərbaycan neftçiləri tərəfindən, özü də dünyada heç bir ölkənin mütəxəssislərinin iştirakı olmadan həyata keçirilib və bir daha respublikamızın neft-qaz sənayesi işçilərinin yüksək peşəkarlığının, elmi-təcrübi-geoloji axtarışlarının nümunəsidir. Məlumat üçün bildirək ki, Sovet dövründə neftçilər burada geofiziki işlər apararaq həmin blokda bir neçə quyu qazsalar da, nəticələr ümidverici olmayıb. Buna görə də, hasilat işlərinə başlanılmayıb. Amma bu, neftçilərimizi ruhdan salmayıb və onlar axtarışlarını son 2 ildə yenidən bərpa ediblər. Beləliklə, onlar bu yataqda uğurlu nəticə əldə ediblər. Yəni müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan öz gücünə ən nəhəng layihələri təkbaşına yerinə yetirməyə qadir olduğunu göstərmiş oldu.

“Ümid” yatağı ölkəmizin qaz sənayesi ilə bağlı digər iqtisadi proseslərin də sürətlənməsinə səbəb olub. Belə ki, yeni yataqların kəşf olunması və hasilata cəlb edilməsi Azərbaycanın qaz ehtiyatlarının həcmi ilə bağlı ümumi proqnozların da dəyişməsinə gətirib çıxarır və bu amil dünya dövlətlərinin respublikamızla əməkdaşlıq münasibətlərini daha da uzunömürlü etməsi üçün dərin əsaslar yaradır. Yəni hazırda Avropa ölkələri Azərbaycanın mövcud qaz potensialı kimi daha çox "Şahdəniz"in resurslarına arxalanırlar. Amma son proseslər onu göstərir ki, Qərb artıq respublikamızın digər yataqlarının hasilata cəlb olunmasına böyük həcmdə sərmayə qoymağa çalışır və yeni yataqlardan nəql olunacaq resursların əldə edilməsi üçün səyləri gücləndirib. Bir neçə il əvvəl aparılmış hesablamalara görə, respublikamızın proqnozlaşdırılan qaz ehtiyatla-

rının həcmi 2 trilyon kubmetr təsdiq edilib. Amma “Ümid”, “Babək”, eləcə də, “İnam”, “Alov”, “Şərq” yataqlarındakı resursların ən azı 2 trilyon kubmetr olmasını nəzərə alsaq, ölkəmizin yanacaq ehtiyatlarının həcmi bundan 2 dəfə çox olacaq. Yəni Azərbaycanın yeni proqnozlar üzrə qaz ehtiyatlarının həcmi 4 trilyon kubmetrdən çox olacaq. Ola bilsin ki, bu rəqəm gələcəkdə bəzi yataqların işlənməsindən asılı olaraq dəyişsin və ehtiyatların həcmi bundan da artıq olsun. Bütün bu amillər Avropa, Amerika və Asiya, eləcə də, Afrikanın bəzi ölkələrini Azərbaycanla qaz sahəsində sıx əməkdaşlığı dərinləşdirməyə sövq edir.

### 14.7. Bakı-Tbilisi-Ərzurum qaz kəməri regionda yeni geoiqtisadi mənzərə yaratdı

Hazırda qazın nəqlində əsas ixrac kəməri olan Bakı-Tbilisi-Ərzurum layihəsinin miqyas baxımından daha da genişlənməsi yanacağın şaxələndirilməsinə əhatəli yol açır. Qeyd edək ki, hazırda Bakı-Tbilisi-Ərzurum kəməri bilavasitə 296 km-lik Türkiyə-Yunanıstan qaz kəməri ilə birləşib və bu kəmərlər şəbəkəsi qaz nəqli üçün ən sərfəli marşrutlardan birinə çevrilib. Yaxın illərdə illik nəqletmə gücü 12 milyard kubmetr olan Türkiyə-Yunanıstan kəmərinin genişləndirilməsi nəzərdə tutulur. BTƏ vasitəsilə Azərbaycan qazını Türkiyədən Yunanıstana, oradan isə İtaliyaya, Balkan yarımadasına və başqa Avropa ölkələrinə ixrac etmək üçün həmin layihənin ikinci mərhələsinə start veriləcək. 2013-cü ilin sonunadək Adriatik dənizinin dibi ilə Yunanıstanla İtaliyanı birləşdirəcək daha bir kəmərin inşası planlaşdırılır ki, bu da Türkiyə-Yunanıstan qaz kəmərinin davamı olacaq. Azərbaycanın yanacaq ehtiyatlarının Türkiyə və Yunanıstan vasitəsilə İtaliya limanlarına, oradan isə müxtəlif dövlətlərə daşınması hüquqi cəhətdən beynəlxalq status alacaq. Həmin kəmərə vurulan qaz isə tamamilə Azərbaycan qazı, yəni “Şahdəniz”dən hasil olunan yanacaq olacaq.

Beləliklə, Avropa yalnız Xəzərin Azərbaycan sektorundan hasil olunan qazı Bakı-Tbilisi-Ərzurum-Yunanıstan-Balkan qaz

marşrutu ilə ixrac etməklə ildə 20 milyard kubmetrdən çox yanacaq əldə edəcək. Azərbaycan təkcə "Şahdəniz" yatağından ildə 15 milyard kubmetr qaz ixrac edəcək. Digər yataqlardan, məsələn, "Bahar", "İnam", "Alov", "Ümid" kimi perspektiv yataqlardan çıxarılan qazın nəqli isə ölkəmizin ildə 20-30 milyard kubmetrdən çox yanacaq ixrac etməsinə imkan verəcək. Azərbaycan 2013-2015-ci illərdə Avropanın 10-a yaxın dövlətinə qaz ixrac edəcək.

Bütün bunlar bir daha Azərbaycanın qaz ixracı üçün marşrut probleminin olmamasını təsdiqləyir. Bir çoxlarının "NABUCCO olmasa qazın Avropaya nəqli mümkün olmayacaq" kimi fikirləri isə əsassız arqumentlərdən başqa bir şey deyil. Amma bununla belə, Azərbaycanın yanacaq ixracı üçün 4 qaz marşrutu olsa belə, ölkəmiz NABUCCO-da təmsil olunmaq niyyətlərini gizlətmir. Azərbaycan enerji marşrutlarının diversifikasiyası baxımından bu layihəni məqbul bir layihə kimi dəyərləndirir, digər marşrutlar kimi bu kəmərlə də yanacaq nəql etmək istəyini bəyan edir. Amma bu layihə təkcə Azərbaycandan asılı olmadığından digər tədarükçülərin, əsasən də Qazaxıstanın və Türkmənistanın siyasi qərarı daha böyük önəm daşıyır. Yəni bu ölkələrin iştirakı olmadığı halda, təkcə Azərbaycanın enerji mənbələri hesabına sözügedən kəməri qazla təmin etmək mümkün deyil. Digər tərəfdən, qazın qiyməti, ölkələr arasında bölüşdürülməsi, maliyyə xərcləri və tranzit tarifləri ilə bağlı ciddi fikir ayrılıqları həll olunmamış qalır. Azərbaycan qazı üçün də əsas məsələlərdən biri təklif olunacaq qiymətdən asılıdır.

### 14.8. Azərbaycanın qaz nəqli ilə bağlı diversifikasiya siyasəti: "Cənub dəhlizi" və NABUCCO kəmərləri məsələsi

Azərbaycan hökuməti həmişə bəyan edib ki, qaz ehtiyatlarının həcminin çoxalması həm alıcı dövlətlərin sayının artmasına, həm də yanacağın nəql marşrutlarının coğrafiyasının genişlənməsinə səbəb olacaq. Dünyada əlavə qaz mənbəyinə tələbatın artmasını

nəzərə alan Azərbaycan istehlakçı ölkələrin yanacaqla təmin olunması üçün öz səylərini artırmağı düşünür. Təbii ki, yanacağın istehlakçılara çatdırılması üçün iqtisadi baxımdan daha sərfəli və respublikamızın iqtisadi maraqlarına cavab verən marşrutlara üstünlük veriləcək. O cümlədən ən rentabelli marşrutlardan biri kimi dəyərləndirilən NABUCCO layihəsində də Azərbaycanın iştirakı mümkündür. Bunun üçün beynəlxalq normalara və təcrübəyə əsaslanan tranzit tarifləri, yanacağın dünya bazar qiymətləri və digər texniki-hüquqi məsələlər həll olunmalıdır.

Öz enerji siyasətində çoxvektorlu ixrac strategiyasına, diversifikasiya xəttinə üstünlük verən Azərbaycan qazın nəqlində bütün tərəflərin təkliflərini qəbul etdikdən sonra yekun qərar verəcəyini bəyan edib. Respublikamız enerji ehtiyatlarının ixracı üçün çoxşəbəkəli marşrutlar sisteminə qoşulmaq niyyətini dəfələrlə bildirib. Bu gün Azərbaycanın qaz nəqli üçün mövcud kəmərlərdən istifadə etmək imkanları var. Bakı-Tbilisi-Ərzurum (Cənubi Qafqaz Boru Kəməri), Hacıqabul-Mozdok qaz kəməri və İran istiqamətində cənub marşrutu yanacağın ixracını həyata keçirmək üçün ən rentabelli marşrutlardandır. Eləcə də, NABUCCO yanacağın nəqli üçün çoxvektorlu sistemin əsas halqalarından ola bilər.

Avropa İttifaqı Azərbaycanın Bakı-Tbilisi-Ceyhandan başlayan strateji nəql siyasətinin davamı kimi daha yeni yanacaq mənbələri və ixrac marşrutlarından faydalanmağı olduqca zəruri sayır. Aİ ölkələri özünün enerji təhlükəsizliyini daha etibarlı və uzunömürlü etmək üçün məhz respublikamızın enerji imkanlarına güvənir. Ümumiyyətlə, Avropa İttifaqı Azərbaycanın həyata keçirdiyi diversifikasiya siyasətini çox yüksək qiymətləndirir və bu prosesdə iştirak etməyin hansı dərəcədə əhəmiyyət daşıdığını yaxşı anlayır. Bu ilin əvvəllərində Azərbaycan və Avropa İttifaqı arasında “Cənub qaz dəhlizi” haqqında Birgə bəyannamənin imzalanması da olduqca mühüm hadisə sayıla bilər. Bu saziş siyasi və iqtisadi mahiyyətinə görə, 2011-ci ilin qlobal enerji sektorunda ən mühüm geoiqtisadi hadisə kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyan

etdiyi kimi, "Cənub dəhlizi" haqqında Birgə bəyannamə çox məzmunlu, mühüm bir sənəddir və enerji əməkdaşlığının bütün aspektlərini, Avropa təsisatları ilə Azərbaycan arasında bu sahədə əməkdaşlığı əhatə edir: **“Bu gün isə biz enerji inkişafımızın yeni bir mərhələsindəyik və Avropa təsisatları ilə münasibətlərimiz bizim üçün çox əhəmiyyətlidir. Enerji təhlükəsizliyi məsələsi, enerji təchizatının şaxələndirilməsi hasilatçılar, istehlakçılar, tranzit ölkələr üçün eyni dərəcədə vacibdir. Zənnimcə, maraqların kombinasiyası və səylərin bir araya yönəldilməsi və bunun bir növ sinxronlaşdırılması bizim planlarımızın uğurla həyata keçirilməsi üçün əsas ilkin şərtdir. Azərbaycan əvvəldən “Cənub enerji dəhlizi”nə dəstək vermişdir. Əslində, bu, elə Azərbaycanın başladığı layihəyə yönəlir: Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz boru kəmərləri – məhz bunlar bu istiqamətdə həyata keçirilən ilk təşəbbüs olmuşdur. Bundan sonra isə biz nəql dəhlizləri üzərində işləməyə başladıq, çünki bilirik ki, bu dəhlizlər bizim prioritetlərimizdən biridir və bu istiqamətdə apardığımız ciddi bir işdir”.**

Yeri gəlmişkən, “Cənub qaz dəhlizi”nin reallaşması o demək deyil ki, bu marşrut NABUCCO-ya alternativ olacaq, yaxud onun çəkilişini əngəlləyəcək. Məlum olduğu kimi, bu gün dünyada, xüsusilə də Avropa qitəsində yanacağa olan tələbat ilbəil artır. On ildən sonra Avropada təkcə qaza olan ehtiyac ildə ən azı 50-100 milyard kubmetr artacaq. Bu tendensiya isə yeni qaz mənbələrinin axtarışını, nəql kəmərlərinin çəkilməsini zəruri edir. Yəni hazırda yeni təməli qoyulan, eləcə də, çəkilişi ilə bağlı sazişlər imzalanan kəmərlərdən başqa, daha yenilərinə də ehtiyac var. Hazırda Avropanın enerji təhlükəsizliyinin təmin olunması üçün Bakı-Tbilisi-Ərzurumun davamı olaraq Azərbaycan-Türkiyə-Yunanıstan-İtaliya, AGRİ kimi layihələrin çəkilməsi reallaşmaqdadır. Yaxın illərdə işə düşəcək bu nəql kəmərləri Avropa İttifaqının yanacaq təchizatında xüsusi rol oynayacaq. “Cənub qaz dəhlizi”nin istifadəyə verilməsi isə Aİ ölkələrinin enerji təminatına mühüm töhfə verəcək. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmizin təsdiq-

lənmiş qaz ehtiyatları 2,2 trilyon kubmetr həcmindədir, potensial ehtiyatlar, hətta bundan da artıqdır. Bu isə ölkəmizin uzunmüddətli ixrac gücünü artırır: **"Bizə proqnozlaşdırılmış, uzunmüddətli, qanunvericiliklə tənzimlənən rəqabətcil bir bazar lazımdır ki, bacardığımız qədər qaz hasil edə bilək. Buna görə də, "Cənub qaz dəhlizi" bizim üçün strateji əhəmiyyət daşıyır, bu, qaz potensialımızı realizə etməkdə bizə yardımçı olacaqdır".**

"Cənub qaz dəhlizi"nin reallaşması Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın məzmununda tamamilə yeni bir səhifə açacaq və tərəflər arasında davamlı və möhkəm münasibətlər daha da güclənəcək.

## 14.9. Qaz nəqlinin yeni mərhələyə qədəm qoyması

Azərbaycan yeni inkişaf mərhələsində özünün enerji siyasətində qarşılıqlı maraqların təmin olunmasına və bölgədə sülhün, təhlükəsizliyin dərinləşməsinə impuls verən siyasəti gücləndirmək niyyətindədir. Azərbaycan hökuməti yanacağın Bakı-Tbilisi-Ərzurum (BTƏ), Türkiyə-Yunanıstan-İtaliya (ITGI) qaz kəmərləri, eləcə də, "Cənub dəhlizi" ilə nəqlindən başqa, digər marşrutlarla da ixracına hazırlaşır. Respublikamız yanacağın çoxvektorlu ixrac marşrutları ilə nəqlini həyata keçirərkən qazın sıxılmış formada dünya bazarlarına çatdırılmasına da xüsusi önəm verəcək. 2011-2012-ci illərdə Avropa bazarlarına qaz tədarükünün təmin edilməsi üçün şəffaf tranzit dəhlizinin yaradılmasına başlanılıb.

Respublikamız şəffaf tranzit dəhlizinin qazla təmin olunmasında heç bir problem görmür. Yəni bu kəmərlə nəql olunan qazın həcmi kifayət qədər olacaq və marşrutun rentabelli işləməsi tamamilə mümkün olacaq. Bu qaz dəhlizi üçün yanacaq həm "Şahdəniz"in ikinci fazası çərçivəsində hasil olunacaq resurslar, həm də digər yataqların ehtiyatları hesabına ödəniləcək. Əsas perspektiv yataqlar kimi "Ümid", "Babək", "Alov" və "Naxçıvan" yataqları nəzərdən keçirilir. Yeri gəlmişkən, bu günlərdə Azərbaycan hökuməti ilə Almaniyanın "RWE" şirkəti arasında "Naxçıvan" perspek-

tiv strukturu üzrə müqavilə imzalanıb ki, bu da yeni qaz yatağında hasilat işlərinə başlamağı nəzərdə tutur. Bu yataqdan hasil olunan qazın şəffaf tranzit dəhlizinə yönəldilməsi istisna olunmur.

AGRİ layihəsinin davamı kimi Rumıniya ilə Macarıstan arasında Arad-Şeged qaz nəqli xəttinin yaradılması nəzərdə tutulur. Qeyd edək ki, layihə Azərbaycan qazının Gürcüstanın Qara dəniz sahilində qaz kəməri üzrə nəqlini nəzərdə tutur ki, bu qaz da xüsusi terminalda mayeləşdirilərək tankerlərlə Rumıniyanın Konstant limanı terminalında nəql olunacaq. Eləcə də, maye qaz Rumıniyadan Macarıstana ixrac olunacaq. Hazırda isə əsas müzakirə mövzularından biri yanacağın təbii qaz halına gətirilərək Macarıstandan digər Avropa ölkələrinin qaz tələbatına yönləndirilməsindən ibarətdir. Bu isə Avropada daha bir neçə ölkənin AGRİ-yə qoşulması deməkdir.

Prezident İlham Əliyev bildirib ki, növbəti mərhələdə – XXI əsrdə Azərbaycan dünyada qaz ölkəsi kimi öz sözünü deyəcək. Bu siyasət respublikamızın beynəlxalq mövqelərini gücləndirəcək: "**Ümid edirəm ki, növbəti mərhələlərdə Azərbaycanda qaz yataqlarının kəşfiyyatı davam edəcəkdir... "Ümid" yatağının aşkarlanması göstərir ki, onun yanında yerləşən perspektiv strukturlarda da kifayət qədər qaz vardır. Biz buna əminik. Bizim qaz ehtiyatlarımız, bir daha demək istəyirəm ki, kifayət qədərdir. Ən azı yüz il bundan sonra həm bizə, həm istehlakçılara kifayət edəcəkdir**".

Məhz bütün bu uğurları nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2010-cu ilin iyul ayının 22-də keçirilən Nazirlər Kabinetinin 2009-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan iclasında vurğulayıb ki, enerji təhlükəsizliyi məsələlərinin həlli ilə mütəmadi qaydada məşğul olunur və bu sahədə, demək olar ki, bütün vəzifələr uğurla icra edilmişdir: "...**Enerji təhlükəsizliyi məsələsinə gəldikdə demək istəyirəm ki, Azərbaycan tam şəkildə özünü təmin edib. Biz enerji təhlükəsizliyi məsələsində beynəlxalq təşkilatlarla və dost ölkələrlə əməkdaşlıq edirik. Bu əməkdaşlıq qarşılıqlı**

**maraq əsasında qurulur**".

**Məlumdur ki, günümüzdə Azərbaycan qaz ixracı marşrutlarının diversifikasiyasına nail olub. Lakin Azərbaycanın enerji sektorunun inkişafı, "Şahdəniz" layihəsinin ikinci mərhələsinə hazırlıq, "Ümid" yatağının kəşfi və işlənməyə hazırlanması, "Abşeron" blokunda iri qaz yatağının aşkarlanması və digər perspektiv işlər yaxın illərdə ölkədə təbii qaz hasilatının həcminin əhəmiyyətli surətdə artacağına dəlalət edir. Bu isə yeni ixrac imkanlarını inkişaf etdirmək zərurəti yaradır.**

**Azərbaycan enerji sahəsində Türkiyə ilə də fəal əməkdaşlıq etməkdədir. Azərbaycanın Avropaya inteqrasiyasında və dünya ölkələri arasında çəkisinin artmasında əhəmiyyətli rola malik olan mövcud transmilli layihələr həm də qardaş Türkiyənin tranzit ölkəyə çevrilməsinə öz tövhəsini verib. Təkcə bir faktı qeyd etmək lazımdır ki, ən nəhəng qaz və neft kəmərləri Azərbaycan-Türkiyə tranzit məkanı vasitəsilə dünyaya "uzanmaqdadır". Bunun hansı siyasi güc olması isə bütün dünya dövlətlərinə yaxşı məlumdur. Məhz bu amil hər iki türk ölkəsinin dünya iqtisadiyyatına inteqrasiyasında mühüm rol oynayır və qarşılıqlı əməkdaşlığı nəzərdə tutan yeni-yeni layihələr dünya birliyində Azərbaycan və Türkiyənin nüfuzunun, mövqeyinin güclənməsinə təkan verir.**

**Qeyd edildiyi kimi, hazırda Bakı-Tbilisi-Ceyhan (BTC), Bakı-Tbilisi-Ərzurum (BTƏ) layihələrinin gerçəkləşməsinə nail olan hər iki ölkə nəinki regionun, bütünlükdə dünyanın enerji təhlükəsizliyinin təminatında həlledici rol oynamaqdadır. Digər tərəfdən, BTC, BTƏ, BTQ kimi iri layihələri hər iki dövlətə olan diqqəti daha da artırmaqla yanaşı, həm də daha çox investisiyaların cəlb edilməsini, ölkə iqtisadiyyatına əlavə gəlirlərin gətirilməsini şərtləndirir.**

**Qeyd edək ki, Azərbaycan və Türkiyə arasında imzalanan Trans-Anadolu qaz kəməri (TANAP) layihənin reallaşması da dünyada enerji təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verəcək.**

**Məlum olduğu kimi, 2012-ci ilin iyunun 26-da İstanbulda Trans-Anadolu Qaz Boru kəməri layihəsinin həyata keçirilməsi ilə bağlı Azərbaycan və Türkiyənin iqtisadi sahədə, xüsusən də enerji, investisiya yatırımı üzrə əməkdaşlığı baxımından iki ölkə arasında tarixi razılaşma imzalanıb. Bu razılaşma Türkiyə-Azərbaycan enerji əməkdaşlığının inkişaf etdirməklə yanaşı həm də Avropanın enerji təhlükəsizliyi baxımından böyük əhəmiyyət daşıyan bir hadisədir.**

**Türkiyə TANAP layihəsində Azərbaycanın əsas tərəfdaşıdır. Türkiyənin Gürcüstandan başlayan sərhədindən Avropada bitən sərhədinə qədər olan məsafədə Xəzər hövzəsindən çıxan Azərbaycan qazının Avropa bazarlarına birbaşa nəqli nəzərdə tutulur.**

**Şübhəsiz, belə bir beynəlxalq iqtisadi layihənin qardaş Türkiyə ilə birgə həyata keçirilməsi Azərbaycanın çox böyük gücə və potensiala sahib olduğunu nümayiş etdirir. Bu istər siyasi, istərsə də iqtisadi nöqteyi nəzərdən beynəlxalq səviyyədə Azərbaycanın mövqelərinin möhkəmlənməsində çox uğurlu addımdır. Bu razılaşma Azərbaycanla Türkiyə arasında "bir millət, iki dövlət" prinsipinin daha da genişlənməsi, dərinləşməsi üçün çox böyük əsaslar yaradır.**

**TANAP layihəsi iki qardaş, dost ölkə olaraq həm Türkiyə, həm də Azərbaycanın enerji təhlükəsizliyi layihələrinin reallaşdırılması istiqamətində iqtisadi vəziyyətin yaxşılaşdırılmasına, iki ölkənin bu sahədə tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə, eləcə də, Xəzərin Azərbaycan sektorundan çıxan zəngin qaz ehtiyatlarının Türkiyə vasitəsilə Avropa bazarlarına çıxarılması, birinci əldən realizə olunması və əldə olunmuş gəlirin Azərbaycanın və müvafiq olaraq Türkiyənin inkişafına yönəldilməsinə, dünyada enerji təhlükəsizliyinin təmin olunmasında xidmət edəcək.**

Nəticə etibarilə, hazırda Azərbaycan sahib olduğu bütün bu üstünlüklərlə başlıca aktorların – dünyanın aparıcı dövlətləri və transmilli şirkətlərin uzunmüddətli perspektivdə əməkdaşlıq müna-

sibətlərini inkişaf etdirməyə can atdığı tərəfdaş ölkələrdəndir. Belə ki, dünyanın aparıcı analitik mərkəzlərindən biri olan "Con Hopkins Strateji Araşdırmalar Mərkəzi"nin regional və qlobal miqyasda enerji təhlükəsizliyi ilə bağlı apardığı araşdırmalar nəticəsində Cənubi Qafqazın təhlükəsizlik və sabitlik təminatçısı olmaq etibarilə Azərbaycanın önəmi məhz bu şəkildə qiymətləndirilir: "**Azərbaycan Qafqaz bölgəsi və Xəzər hövzəsində enerji təhlükəsizliyinin təmin edilməsi və strateji əhəmiyyətli layihələrin reallaşdırılmasında lokomotiv roluna malik olan bir aktordur... Azərbaycan, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm yerə malik olmaqla Qərb ölkələrinin əksəriyyətinin etibarlı strateji tərəfdaşına çevrilməkdədir".**

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan "heartland"ın (geosiyasi baxımdan mühüm əhəmiyyət kəsb edən kontinental ərazi, dünyanın ürəyi) tərkib hissəsi olmaq etibarilə əlverişli tranzit mövqeyi və zəngin karbohidrogen ehtiyatları ilə Avropa üçün də həyati önəm kəsb edir. Məhz bu önəmin fonunda Azərbaycanla Avropa arasında qarşılıqlı-faydalı əməkdaşlıq edilməkdə və ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyət kəsb etməkdədir. Belə ki, Azərbaycan 2007-ci ildən etibarən Avropaya qaz ixrac edir. Bununla yanaşı, yaxınmüddətli perspektivdə Xəzərin Azərbaycan sektorundan hasil edilən 20 milyard kubmetrə yaxın qaz ehtiyatının Bakı-Tbilisi-Ərzurum – Yunanıstan-Balkan qaz marşrutu vasitəsilə Avropaya nəql edilməsi də nəzərdə tutulur. Digər tərəfdən, 2012-2014-cü illərdə Xəzərin Azərbaycan sektorundan Avropanın 10-a yaxın ölkəsinə qaz ixrac edilməsinin nəzərdə tutulması da çoxşaxəli nəqletmə sisteminin tərkib hissəsini təşkil etməkdədir. Ümumilikdə, Azərbaycanın 2012-ci ildən etibarən dünya bazarlarına təxminən 30 milyard kubmetrə yaxın qaz ixrac etməsi gözlənilir. Eyni zamanda, 2012-ci ilin sonuna kimi Adriatik dənizinin dibi ilə Yunanıstanla İtaliyanı birləşdirəcək qaz kəmərinin inşasının tamamlanması ilə Azərbaycan qazının İtaliyaya ixrac edilməsi də planlaşdırılır. Bu layihənin

reallaşdırılmasından sonra digər Avropa ölkələrinə də qaz ixracının həyata keçirilməsi nəzərdə tutulur. Bununla yanaşı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayacaq Odessa-Brodı-Plotsk-Qdansk layihəsinin reallaşdırılmasında da Azərbaycan önəmli mövqeyə malik olan aktorlardan biri kimi çıxış etməkdədir.

Digər tərəfdən, Qərb Mərkəzi və Şərqi Avropanın enerji ehtiyatları ilə təmin edilməsində əhəmiyyətli dərəcədə önəm kəsb edəcək NABUCCO layihəsində də Azərbaycanın iştirakını olduqca prioritet və zəruri amil kimi qiymətləndirir. Belə ki, ABŞ-ın Ceyms Taun Fondunun "Avrasiya gündəlik monitor" elektron nəşrində ekspert Vladimir Sokorun "Azərbaycan NABUCCO layihəsinə təkan verir" sərlövhəli məqaləsində yuxarıda qeyd edilən fikir bir daha təsdiq edilir. Məqalədə NABUCCO layihəsinin reallaşdırılmasında Azərbaycanın yeri, rolu və önəmi məhz bu şəkildə qiymətləndirilir: "**NABUCCO layihəsinin ilkin mərhələdə qazla təmin edilməsi, ikinci mərhələdə isə tranzit mövqeyi baxımından Azərbaycanın əhəmiyyəti olduqca önəmlidir**".

Müəllif onu da qeyd edir ki, bundan əvvəl reallaşdırılan layihələrdə zəngin enerji ehtiyatları və əlverişli tranzit mövqeyi baxımından Azərbaycanın oynadığı rol və kəsb etdiyi önəm Qərbin Azərbaycana etibarı və marağını artırmaqla yanaşı, bu ölkənin əsas söz sahibi olacağı perspektiv layihələrin də gündəmə gəlməsinə təkan verir: "... **Beləliklə, Azərbaycan əlində cəmləşdirdiyi bütün bu üstünlüklərlə NABUCCO layihəsinə təkan verir**".

Amma bir məqamı xüsusi şəkildə vurğulamaq lazımdır ki, NABUCCO layihəsi Azərbaycanın çoxşaxəli nəqletmə sisteminin tərkib hissəsini təşkil edir. Yəni Azərbaycan hazırda şaxələndirilmiş 4 kəmər vasitəsilə Avropaya qaz ixrac edir və gələcəkdə yeni qaz kəmərlərinin istifadəyə verilməsi də nəzərdə tutulur. Bir sözlə, Azərbaycan iqtisadi və kommersiya şərtləri uyğun olarsa, NABUCCO layihəsində də təmsil olunacaq. Bu da onu deməyə əsas verir ki, heç vaxt rentabelli kəmər problemi ilə üzləşməyən Azərbaycanla aparıcı aktorlar arasında perspektivdə əməkdaşlığa

əsaslanan tərəfdaşlıq münasibətləri daha da inkişaf edəcək.

**Beləliklə, Prezident İlham Əliyevin bildirdiyi kimi, enerji təhlükəsizliyi sahəsində atılacaq növbəti addımlar bu vaxta qədər olduğu kimi, ilk növbədə, Azərbaycanın milli maraqlarını təmin edəcək, eyni zamanda, əməkdaşlığın daha da möhkəmləndirilməsi beynəlxalq səviyyədə enerji təhlükəsizliyinin təmin edilməsi məsələlərinə də müsbət təsir göstərəcək.**

Bunlarla yanaşı, "İnternational Herald Tribune" qəzetinin siyasi şərhçisi Selestin Bohlenin "Azərbaycan enerji ixracı sahəsində Avropa və Rusiya arasında tarazlı siyasət aparır" sərlövhəli məqaləsində Azərbaycanın həm Avropanın, həm də Rusiyanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyi bildirilir. Məqalədə qeyd olunur ki, Xəzər hövzəsinin bayraqdarı Azərbaycan regional miqyasda reallaşdırılan layihələrin mərkəzi oyunçusu olmaqla yanaşı, qlobal enerji siyasətində də tarazlaşdırıcı mexanizmdən səmərəli şəkildə istifadə edir: **"Bu da Azərbaycanın dünya miqyasında əhəmiyyətli üstünlüklər əldə etməsinə və mövqeyinin möhkəmlənməsinə səbəb olur".**

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın uğurla həyata keçirdiyi enerji siyasəti ölkəmizin milli maraqlarına uyğun olmaqla mütəmadi iqtisadi inkişaf tendensiyasını daha da sürətləndirməkdədir. Prezident İlham Əliyevin bildirdiyi kimi, biz neft gəlirlərindən səmərəli şəkildə istifadə etməklə iqtisadiyyatımızı yüksək səviyyədə şaxələndirə bilmişik və Azərbaycanda iqtisadi artım sürəti buna bariz nümunədir: "...**Bizim üstünlüyümüz ondan ibarətdir ki, dünya iqtisadiyyatına sürətlə inteqrasiya etməklə yanaşı, öz milli maraqlarımızı da heç vaxt unutmamışıq. Biz ancaq o sahələrə inteqrasiya etmişik ki, bunlar daxili iqtisadi sabitliyimizə problemlər yaratmasın**".

Məhz bu uğurların fonunda "**enerji amili məqsəd deyil, vasitədir**" prinsipi əsas tutularaq enerji sahəsindən əldə edilən gəlirlər sosial-iqtisadi inkişafın səviyyəsinin yüksəldilməsi, tempinin sürətləndirilməsi, əhalinin sosial rifah halının yaxşılaşdırılması və qeyri-neft sektorunun inkişaf etdirilməsi kimi prioritet istiqamətlərə

yönləndirilib. Bir sözlə, Prezident İlham Əliyevin bildirdiyi kimi: "**Enerji siyasətindən əldə edilən gəlirlər sosial məsələlərin həllinə yönəldilir. Minlərlə yeni məktəblər, yüzlərlə yeni xəstəxanalar, yollar, elektrik stansiyaları bugünkü Azərbaycanın reallıqlarıdırsa, bunun təməlində uğurlu enerji siyasəti dayanır**".

Nəticə etibarilə qeyd etmək olar ki, əsasını Ulu öndər Heydər Əliyevin qoyduğu və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən enerji siyasəti milli sərvəti milli mənafeyə yönəltməklə yanaşı, ölkəmizin beynəlxalq arenada mövqeyinin möhkəmləndirilməsinə də xidmət edən başlıca amil kimi qiymətləndirilməlidir.

## 14.10. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi analitik tədqiqat obyekti kimi: faktlar və nəticələr

Cənubi Qafqaz strateji baxımdan dünyanın ən önəmli bölgələrindən biridir. Təsadüfi deyil ki, dünya siyasətinin və beynəlxalq münasibətlər sisteminin əsas meyillərini və təmayüllərini müəyyənləşdirən və yönləndirən güc mərkəzləri bu bölgəni özlərinin uzunmüddətli strateji planlarına daxil ediblər. Geostrateji planlarda və nəzəriyyələrdə "heartland" (dünyanın qəlbi-idarəetmə mərkəzi) adlandırılan Avrasiya materikində hakim mövqeyə sahib olmaq üçün qlobal aktorlar digər önəmli bölgələrdə olduğu kimi, Cənubi Qafqazda da uzunmüddətli qarşılıqlı-faydalı əməkdaşlıq münasibətləri formalaşdırmaq və geniş əhatəli inteqrasiya proseslərini milli maraqlarına müvafiq qaydada sürətləndirmək üçün fundamental addımlar atmağa çalışırlar. Bu baxımdan, qlobal güclərin geosiyasi və geoiqtisadi, bütövlükdə geostrateji maraqlarının kəsişdiyi və toqquşduğu bir məkan kimi Cənubi Qafqazda uzunmüddətli sabitliyin və tərəfdaşlığın hökm sürməsinə mane olan mənfi faktorların, tendensiyaların neytrallaşdırılmasına xüsusi ehtiyac var. Dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə qarşı təcavüzkar, təhdid xarakterli addımların atılması, separatçılığa dəstək verilməsi, birtərəfli qaydada hər hansı bir dövlətə qarşı müxtəlif xa-

rakterli təzyiqlərin edilməsi (buraya psixoloji müharibə, müxtəlif dövlətlərin diplomatik nümayəndələrinin "persona non-qrata" elan edilməsi, kütləvi deportasiya siyasətinin həyata keçirilməsi və s. hallar aid edilir) bu kimi mənfi tendensiyalara daxildir. Məsələyə məhz bu baxımdan yanaşdıqda tərəddüdsüz qeyd etmək olar ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də bölgənin inkişafına, uzunmüddətli sabitliyə mane olan dağıdıcı faktorlardan biridir. Ona görə də, bu problemin həlli beynəlxalq təhlükəsizliyin, hətta qlobal güclərin milli maraqlarının diktə etdiyi zərurətdir.

Bu baxımdan, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin spesifikasını və mahiyyətini aşkar etmək və münaqişənin dinamikası ilə bağlı proqnozlar vermək üçün bir-biri ilə əlaqəli olan bir neçə məsələyə nəzər yetirmək lazımdır. İndiyədək münaqişənin tarixi aspektləri, dinamikası ilə bağlı bir sıra araşdırmalar aparılıb və müxtəlif səciyyəli materiallar ortaya çıxarılıb. Başqa sözlə, münaqişənin yaranma tarixi, dinamikası və problem çərçivəsində aparılan danışıqlar, irəli sürülən həll modelləri ilə bağlı çoxsaylı informasiya və materiallar mövcuddur. O səbəbdən məqsədəmüvafiq hesab etdik ki, münaqişənin dinamikası ilə bağlı məsələlərə analitik yanaşmaya istinad edək və analitik təhlilə müvafiq surətdə gəldiyimiz nəticələr əsasında proqnozlar ifadə edək.

Beləliklə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin spesifikası və mahiyyətinə müvafiq surətdə analitik təhlil aparmaq üçün bir sıra məsələlərə (münaqişənin tarixi təşəkkülü, onun siyasi-hüquqi və beynəlxalq aspektləri və bu kontekstdə Azərbaycanın xarici siyasət strategiyası) kompleks surətdə nəzər yetirmək lazımdır.

Beləliklə, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkəmizin qarşısında duran başlıca məsələlərdən biri də Qarabağ problemi idi. Bu problemin xüsusiyyətləri araşdırılarkən, ilk növbədə, onu nəzərə almaq lazımdır ki, problemin kökləri dərinlərə gedib çıxır və onun yaranmasını müstəqillik dövrü ilə bağlamaq doğru olmaz. 1922-ci il-SSRİ-nin yaranması tarixi Azərbaycanın ərazi bütövlüyünün real təhlükələrlə üzləşdiyi bir

mərhələdir. Bu təhlükə Rusiyanın imperialist siyasəti və erməni şovinist-təcavüzkarlıq niyyətlərinin əcaib bir formada uzlaşmasından irəli gəlirdi.

Rus imperializminin maraqları digər sərhədlərinə nisbətən daha şəffaf olan cənub sərhədlərinin möhkəmləndirilməsini tələb edirdi. Zaqafqaziya etnik tərkibinə görə çox qarışıq bir region olmaqla bərabər, həm də yerli əhali Rusiyadan daha çox İran və Türkiyə ilə əlaqələrə meyilli idi. Bu meyillər özünü həmin vaxtlar Zaqafqaziyada əhalinin sayına və ərazisinə görə mütləq üstünlük təşkil edən Azərbaycanda daha çox büruzə verirdi. Buna görə də, imperiya cənub sərhədlərinin möhkəmləndirilməsi üçün bu regionda daha yaxın olan etnosun hakimliyini təmin etməkdə maraqlı idi. Belə bir etnosun tanınması böyük bir çətinlik törətmədi. Hələ I Pyotrun dövründən rus maraqlarına xidmət etmək istəyində bulunan və bu xidmət nəticəsində öz maraqlarını da təmin edən ermənilər SSRİ imperiyası üçün hazır tapıntı idi. Məhz buna görə də, Zaqafqaziyada erməni nüfuzunun qaldırılması məqsədilə hələ Çar Rusiyasının dövründən aparılan siyasət SSRİ dövründə də davam etdirilərək daha da dərinləşdirildi. Bu isə qanunauyğun idi. Belə ki, dinamik və statik səciyyəli maraqlar dəyişməmişdisə, siyasi kursu da dəyişməyə ehtiyac yox idi. Digər tərəfdən, I Dünya müharibəsində məğlub olmuş Türkiyənin daxili problemlər girdabında olması, İranın lokal siyasəti qlobal siyasətə qurban verməsi, sosialist inqilabı nəticəsində rus-erməni şovinizminə layiqli müqavimət göstərən bəylərin, xanların, digər güclü və imkanlı şəxslərin kütləvi surətdə məhv edilməsi Azərbaycanın erməniləşdirilməsi siyasətinə geniş meydan açmış oldu. Erməni tərəfdən isə bu siyasət vətənsiz, yurdsuz insanların (qaçqınların) yerli xalq kimi təsdiq olunaraq respublika yaratmaq istəyi ilə müşayiət olunurdu.

Məhz bu rus-erməni şovinizminin nəticəsi idi ki, SSRİ-nin yaranmasından çox keçməmiş Azərbaycanın qərb əyalətlərinin böyük bir hissəsi Azərbaycandan qoparılaraq Ermənistan respublikasına verildi. Bu aqibətdən təkcə Naxçıvan qurtula bildi ki, bu da Rusiya ilə Türkiyə arasında imzalanmış "Kars" müqaviləsinin sa-

yəsində oldu. Bu cür qoparmalar ona gətirib çıxardı ki, artıq 1940-cı ilə Azərbaycanın ADR dövründə mövcud olmuş 118 min kvadrat kilometr ərazisi 86,6 min kvadrat kilometrədək kiçildi.

Qoparmalar arasındakı müddətdə isə bu cür ayrılmalara faktiki zəmin yaratmaq məqsədilə azərbaycanlıların sistemli şəkildə həmin ərazilərdən hansı yolla olursa olsun sıxışdırılıb, çıxarılması və ermənilərin məskunlaşdırılması kimi çirkin siyasət aparıldı. Bu hadisələrin ən iyrənc tərəflərindən biri də o idi ki, bu əməliyyatlarda Azərbaycanın o zamankı rəhbərliyi də yaxından iştirak edirdi.

Yuxarıda qeyd etdiyimiz kimi, bu şovinist siyasətin nəticəsində Azərbaycanın qərb əraziləri tamamilə Ermənistanın ərazisinə daxil edildi. Qarabağın dağlıq hissəsində isə gələcək qoparmalara hazırlıq kimi qondarma "Dağlıq Qarabağ Muxtar Vilayəti" yaradıldı. Sonra da siyasi vəziyyətin nisbətən dəyişməsi Qarabağın tamamilə Azərbaycandan ayrılması məsələsini təxirə salmış oldu. Halbuki 30-50-ci illərdə Ermənistan tərəfindən buna bir neçə dəfə cəhd edilmişdi. Bunun əvəzində Dağlıq Qarabağdan türk mənşəli tarixi adlarının qondarma erməni mənşəli adlarla əvəz olunmasının kütləvi hal alması 1988-ci ildən sonrakı hadisələrə ciddi hazırlıq getdiyindən xəbər verirdi.

1985-ci ildə SSRİ-də hakimiyyət kürsüsünə M.S.Qorbaçovun keçməsi ilə imperiyadaxili atmosfer tamamilə dəyişmiş oldu. SSRİ-nin dağıdılması məqsədini güdən siyasətin nəticəsi olaraq imperiyanın bir çox regionlarında olduğu kimi, Qafqazarxası respublikaların da həyatında siyasi canlanma müşahidə olunmağa başlandı. Bundan çəkinən imperiya rəhbərliyi münaqişə ocaqları yaradaraq siyasi diqqətin digər məsələlərə yönəldilməsinə imkan verməmək məqsədini həyata keçirdi. Məhz bunun üçün Azərbaycana qarşı sınanmış üsula əl atan Rusiya Ermənistana məlum məqsəd uğrunda fəaliyyətə başlamaq razılığını verdi. 1987-ci ilin sonlarında Ermənistandan azərbaycanlı əhalinin kütləvi surətdə zorakılıqla qovulması baş verəcək gələcək hadisələrin ilk carçısı oldu. Ermənistan ərazisində türk mənşəli əhalinin qovulmasından sonra strateji planın əsas hissəsinə keçildi. Dağlıq Qarabağdan guya yerli

əhalinin azadlıq mübarizəsinə başlaması qaldırıldı və bu ad altında Azərbaycanın Qarabağ və ona bitişik ərazilərinin Ermənistan tərəfindən işğalı prosesi başlamış oldu.

Hadisələrin bu cür acınacaqlı hal almasında məsuliyyətin çoxu o dövrkü Azərbaycan rəhbərliyinin üzərinə düşür. Belə ki, sözün əsl mənasında xəyanətkar mövqe tutan hakim dairələr hadisələrin hansı yöndə cərəyan etdiyini görə-görə Qarabağın azərbaycanlı əhalisinin sıxışdırılmasında yaxından iştirak edərək guya sabitliyin təmin olunması məqsədilə əhalidən silahların yığılması və əhalinin ekstremistlər qarşısında köməksiz buraxılması vəzifəsini yerinə yetirdilər. Bakıda və respublikanın digər iri şəhərlərində baş verən etiraz aksiyalarının amansızlıqla yatırılması, hətta bu məqsədlə imperiyanın xüsusi cəza dəstələrindən də istifadə edilməsi hakimiyyətdə olan qüvvələrin iç üzünü açmış oldu.

Hadisələrin sonrakı inkişafı 1991-ci ildə SSRİ-nin dağılması ilə daha da mürəkkəbləşmiş oldu. Hadisədə iştirak edən tərəflərdən ən az biri üzərində nəzarətini itirən Rusiya hadisələri tam nəzarətdə saxlamaq imkanından məhrum oldu. 1991-cı ildə Dağlıq Qarabağ münaqişəsinin açıq müharibəyə keçməsi məhz bu itkinin balanslaşdırılması istəyi idi ki, bu müharibədə də Azərbaycan Dağlıq Qarabağ əhalisi adı altında rus-erməni hərbi birləşmələri ilə müharibə aparmalı oldu.

1991-1993-cü illərin məlum hadisələrinə həlledici təsir göstərən amillərdən biri də həmin dövrlərdə Azərbaycan rəhbərliyində yenə də təcrübəsiz romantiklərin olması idi. Bütün qüvvələri səfərbərliyə alıb düşmənlə döyüşmək əvəzinə, ayrı-ayrı adamlar ətraflarına silahlı qruplaşmalar toplayaraq “Qarabağ” şüarı altında hakimiyyət davası aparmağa başladılar ki, bunun da nəticəsi çox acınacaqlı oldu. Azərbaycan böyük məğlubiyyətlərə düçar oldu, nəinki Qarabağın dağlıq ərazisi, habelə digər qərb rayonları da daxil olmaqla ərazisinin 20 faizini itirdi. Əgər 1993-cü il hakimiyyət dəyişikliyi nəticəsində hakimiyyətə gələn Heydər Əliyevin gərgin əməyi sayəsində atəşkəsə nail olunmasaydı, hərbi əməliyyatlar daha böyük vüsət alaraq daha geniş əraziləri əhatə edəcəkdi.

Məhz 1993-cü ildən sonra Heydər Əliyevin əhəmiyyətli səyləri və gərgin əməyi sayəsində bu problemin həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atılmağa başlandı.

Problemin sülh yolu ilə həll edilməsinin vacibliyini dəfələrlə vurğulayan Azərbaycan müxtəlif səviyyəli diplomatik danışıqlara gedərək və bütün mövcud resurs və vasitələrdən istifadə edərək məsələnin həlli yollarını axtarmağa başladı. Məsələnin ATƏT çərçivəsində həll edilməsi üçün təşkil edilən Minsk qrupunda, həmçinin, qurumun bir sıra zirvə toplantılarında məsələnin mahiyyətini dünya ictimaiyyətinin diqqətinə çatdıran Ulu öndər Heydər Əliyev dünya dövlətlərini Qarabağ məsələsində diqqətli olmağa və məsələnin tezliklə beynəlxalq hüquq normalarına müvafiq surətdə həll edilməsi işində yaxından iştirak etməyə dəvət etdi. Bir çox dünya dövlətləri ilə bu mövzuda danışıqlar aparan, Bişkek, Lissabon sammitlərində Azərbaycanın mövqeyinə və maraqlarına uyğun bəyanatların qəbul olunmasına nail olan Ümummilli lider Heydər Əliyev sonunda beynəlxalq vasitəçilərin fəaliyyətinin lazımi nəticələr vermədiyini görərək Ermənistan prezidenti ilə birbaşa danışıqlara gedib, problemin həlli yollarının bilavasitə münaqişə edən tərəflər arasındakı danışıqlardan tapılmasına cəhd etdi. Lakin münaqişə tərəflərindən biri olan Ermənistanın qeyri-konstruktiv mövqeyi danışıqların nəticəsiz qalmasını şərtləndirmiş oldu.

Eyni zamanda, Prezident İlham Əliyevin dövründə davam etdirilən danışıqlar da Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə səciyyələndi. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hücum diplomatiyasının fonunda Azərbaycan dplomatik cəbhədə əhəmiyyətli nailiyyətlər qazandı, eləcə də, informasiya savaşında mühüm üstünlük əldə etdi. Artıq münaqişənın həlli məsələsi mütəmadi qaydada beynəlxalq arenada gündəmə gətirilməkdə və bir sıra beynəlxalq toplantıların aktual müzakirə predmetlərindən birini təşkil etməkdədir. Müxtəlif zaman kəsiklərində Dağlıq Qarabağ münaqişəsinin həlli problemi istər BMT Baş Məclisinin geniş çərçivəli toplantılarında, istər digər beynəlxalq təşkilatların sessiyalarında, müxtəlif dövlətlərin qanunvericilik orqanlarında – parla-

mentlərində, istərsə də dövlətlərarası ikitərəfli və çoxtərəfli görüşlərdə ən yüksək səviyyə və formada gündəmə gətirilib. Təbii ki, bütün bunların əsasında dayanan fundamental amil Azərbaycan hakimiyyətinin uğurlu xarici siyasəti və yüksək diplomatik səriştəsidir. Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu praqmatik, rasional və realist xarici siyasi-strateji kursun bu gün Prezident İlham Əliyev tərəfindən müasir beynəlxalq münasibətlər sisteminin tələblərinə müvafiq qaydada uğurla davam etdirilməsi, sözsüz ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinin olduqca intensivləşməsinə səbəb olub. Artıq Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həll edilməsinə dair bəyanatlar birmənalı şəkildə, bu və ya digər səviyyədə bütün dövlətlər tərəfindən mütəmadi olaraq səsləndirilməkdədir. Qısacası, bütün bunların fonunda Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən – Azərbaycan dövlətinin ərazi bütövlüyü çərçivəsində həll ediləcəyinə dair son dərəcə optimist fikirlər səsləndirilməkdədir.

Bütün bunlara paralel olaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həll edilməsi Azərbaycan dövlətinin qarşısında duran ən öncül strateji vəzifələrdən biri və birincisidir. İstər Ulu öndər Heydər Əliyev, istərsə də Prezident İlham Əliyev tərəfindən dəfələrlə bəyan edilib ki, Azərbaycan istənilən şəraitdə özünün ərazi bütövlüyünü bərpa edəcək və təcavüzkar qüvvələr işğal olunmuş Azərbaycan ərazisindən çıxarılacaq. Məhz bu cür qətiyyətli və prinsipial mövqeyin fonunda Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli naminə bütün resurslarından səmərəli istifadə etməkdə və aktiv, hücumçu diplomatiya həyata keçirməkdədir. Bunun qanunauyğun nəticəsidir ki, artıq Dağlıq Qarabağ münaqişəsinin həlli yönündə atılan addımlar və aparılan danışıqlar olduqca intensiv xarakter alıb. Və dünyanın, demək olar ki, bütün dövlətləri birmənalı qaydada ölkəmizin ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Amma Azərbaycan hələlik problemin həlli yönündə sülh danışıqlarına, diplomatik vasitələrə üstünlük verir. Bu isə ona dəlalət edir ki, xarici siyasi

fəaliyyətində daim beynəlxalq hüquq normalarını əsas götürən ölkəmiz dinc vasitələri hələlik optimal və effektiv mexanizm kimi görməkdə davam edir.

"Euronews" telekanalına müsahibə verən Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qeyd edib ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair sülh danışıqlarına böyük ümidlər bəsləyir: "**Çünki artıq neçə illərdir ki, davam edən proses məhz sülh vasitəsilə həllə gətirilməlidir. Lakin əlbəttə ki, bu, Ermənistanın beynəlxalq hüquq normalarına riayət etməyə və öz qoşunlarını Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqlarından çıxarmağa hazır olub-olmamasından asılı olacaq. Yalnız o halda sülhə nail olmaq olar**".

Qeyd etdiyimiz kimi, Azərbaycan münaqişənin həllinə sülh yolu ilə, diplomatik vasitələrlə nail olmağa çalışır. Amma bu, o demək deyil ki, danışıqlar prosesi istənilən nəticəni verməyəcəyi təqdirdə, Azərbaycan digər bir metoda, hərbi güc tətbiqinə baş vurmayacaq. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, biz Dağlıq Qarabağ münaqişəsinin 15 il daha dondurulmuş vəziyyətdə qalmasına imkan verə bilmərik: "**Buna son qoyulmalıdır. Biz buna sülh yolu ilə son qoymaq istəyirik və bu istiqamətdə də işləyirik. Lakin eyni zamanda, bizim səbrimizin həddi var. Ümid edirəm ki, artıq əldə olunmuş baza razılaşmaları və bu il razılaşdırmağı planlaşdırdığımız məqamlar münaqişəyə son qoyacaq və Qafqaza sülh gələcək**".

Göründüyü kimi, Azərbaycanın mübarizəsi haqq işidir və özündə beynəlxalq hüquq normalarına əsaslanan prinsipləri və dəyərləri ehtiva edir. Bu mübarizənin məntiqi və qanunauyğun sonluğa çatması – ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi üçün Azərbaycan dövləti hər bir vasitə və metoda baş vuracaq. Bu, ölkəmizin beynəlxalq hüquq normalarına əsasən təsbit olunmuş ali hüququdur. Silahlı müdafiə metodu və mexanizminə istinad da Azərbaycanın qarşısında duran hüquqi alternativdir. Ölkəmizin bu hüququ 1975-ci ildə qəbul edilmiş ATƏT-in Helsinki Yekun Aktında da beynəlxalq hüquq normaları və prinsipləri ilə tanınır və təsdiq-

lənir. Helsinki Yekun Aktında məsələyə məhz bu cür yanaşılır: "**Ərazi bütövlüyü beynəlxalq hüququn başlıca norma və prinsiplərinin əsasını təşkil edir. Hər hansı bir dövlətə, onun ərazi bütövlüyünə qarşı xarici təcavüzkarlıq aktı baş verərsə, bu zaman təcavüzə məruz qalmış dövlət öz təhlükəsizliyini təmin etmək üçün silahlı qüvvələrdən istifadə edə bilər...**"

Onu da xüsusi vurğulamaq lazımdır ki, Azərbaycanın tutduğu prinsipial mövqeyin və sərgilədiyi praqmatik siyasətin fonunda dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həllinin zəruri və qaçılmaz bir proses olduğunu hər zaman bəyan edirlər. Məhz bunun nəticəsidir ki, beynəlxalq təşkilatların bir sıra sessiyalarında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həlli ilə bağlı fundamental və zəruri qətnamələr qəbul edilib. Elə bu prosesə paralel olaraq ATƏT-in Minsk qrupu da münaqişənin həlli yönündə öz fəaliyyətinin səmərəlilik səviyyəsini artırmaqdadır. Prezident İlham Əliyevin bildirdiyi kimi, ATƏT-in Minsk qrupu həmsədrlərinin təklifləri Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, erməni qoşunlarının bütün işğal olunmuş ərazilərdən çıxarılması, məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıtması və bütün kommunikasiya xətlərinin açılmasına əsaslanır.

Bununla yanaşı, münaqişənin həlli istiqamətində mühüm təsir və tənzimetmə mexanizminə malik olan milli dövlətlər də müəyyən səy və cəhdlərlə çıxış etməkdədir. Münaqişənin müəllifi və idarəedici subyekti kimi səciyyələndirilən Rusiya belə dəyişən geostrateji şərtlərə müvafiq surətdə müəyyən zaman kəsiklərində münaqişə tərəflərini bir araya gətirərək problemin həlli yönündə əhəmiyyətli səylər etməkdədir. Bəzi ekspertlər bunu Moskvanın taktiki manevri kimi səciyyələndirsələr də, bu, əslində, Azərbaycanın hücumçu diplomatiyasının fonunda bölgənin dəyişən geostrateji şəraitinə müvafiq qanunauyğun nəticədir. Bəhs edilən görüşlərin spesifikasına nəzər yetirdikdə belə bir nəticəyə gəlmək olur ki, bunlar təməl məsələlərin müzakirəsi və müvafiq nəticələrin əldə

edilməsi üçün müəyyən əhəmiyyət kəsb edir. Bunlar sırasında Rusiyanın təşəbbüsü və vasitəçiliyi ilə Moskvada Azərbaycan və Ermənistan prezidentləri arasında Mayndorfda keçirilmiş görüşü xüsusi qeyd etmək lazımdır. Bəhs edilən görüş çərçivəsində tərəflər arasında "Mayndorf Bəyannaməsi" imzalanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "Mayndorf Bəyannaməsi" Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinə əsaslanır və özündə 3 mühüm elementi ehtiva edir:

**1.** Bu sənəd tərəflər arasında imzalanmış saziş deyil, siyasi bəyannamədir və bilavasitə Azərbaycanla Ermənistan arasında imzalanıb. Yəni Ermənistan tərəfi uzun müddət sərgilədiyi qeyri-konstruktiv mövqeyindən müəyyən qədər imtina edərək münaqişə tərəflərinin birə-bir şəkildə kimlər olduqlarını göstərən sənədə imza atıb;

**2.** Bəyannamədə münaqişənin beynəlxalq hüquq norma və prinsipləri, eləcə də, həmin prinsiplər çərçivəsində qəbul edilmiş qərar və qətnamələr əsasında həll edilməsi nəzərdə tutulur. Dolayısıyla bildirilir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Qeyd edək ki, ərazi bütövlüyü beynəlxalq hüququn ali prinsipi hesab edilir və bu, istər BMT-nin Nizamnaməsində, istər ATƏT-in Helsinki Yekun Aktında, istərsə də bu sənədlərə müvafiq olaraq qəbul edilmiş qətnamə və qərarlarda birinci dərəcəli məsələ hesab edilir. ATƏT-in Helsinki Yekun Aktında göstərilir ki, ərazi bütövlüyü beynəlxalq hüququn başlıca norma və prinsiplərinin əsasını təşkil edir və onun pozulması qətiyyən yolverilməzdir. Sənəddə o da qeyd edilir ki, hər hansı bir dövlətə, onun ərazi bütövlüyünə qarşı xarici təcavüzkarlıq baş verərsə, bu zaman təcavüzə məruz qalmış dövlət öz təhlükəsizliyini təmin etmək üçün silahlı qüvvələrdən istifadə edə bilər. Bir sözlə, "Mayndorf Bəyannaməsi"ndə də beynəlxalq hüquq normaları əsas götürüldüyünə görə Azərbaycanın ərazi bütövlüyü əsas prinsip kimi qəbul edilir;

**3.** Bəyannamədə yer alan prinsiplərdən biri də odur ki, münaqi-

şənin həllində hər bir mərhələ beynəlxalq təminatla müşayiət olunmalıdır. Yəni bəyannamədə Dağlıq Qarabağ münaqişəsinin mərhələ-mərhələ nizamlanması prinsipi əsas tutulur. Bu da, Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycanın mövqeyini tam adekvat şəkildə əks etdirir: "**Bizim mövqeyimiz münaqişənin mərhələli şəkildə həll edilməsindən yanadır. Ermənistan isə münaqişənin paket formasında həll edilməsi tərəfdarı kimi çıxış edirdi...**"

Bununla yanaşı, Rusiyanın vasitəçiliyi ilə 24 iyun 2011-ci il tarixində Kazanda Azərbaycan, Rusiya və Ermənistan prezidentləri arasında baş tutmuş üçtərəfli görüşə də analitik surətdə toxunmaq məqsədəmüvafiqdir. Görüşdən öncə bir çox ekspertlər tərəflərin potensialını əsas tutaraq müxtəlif təhlillər aparır və mümkün proqnozlar ifadə edirdilər. Yekdilliklə bidirilirdi ki, Azərbaycan rasional diplomatiyası və praqmatik xarici siyasət strategiyası ilə Kazan görüşünə üstün şəkildə yollanan tərəfdir. Çünki həyata keçirilən xarici siyasət strategiyası ölkəmizin regional və qlobal miqyasda mövqeyini mütəmadi surətdə möhkəmləndirməklə yanaşı, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesinin olduqca intensivləşməsinə təkan verib. Münaqişə tərəfi kimi Azərbaycan problemin beynəlxalq hüquq normaları əsasında həll edilməsi üçün fundamental diplomatik səylər göstərməklə yekun nəticənin əldə edilməsi – ərazi bütövlüyünün bərpa olunması istiqamətində ardıcıl və sistematik xarakterli fəaliyyətini davam etdirməkdədir. Bu isə onun göstəricisidir ki, tərəflər Kazan görüşünə Azərbaycanın aktiv diplomatiyası sayəsində intensivləşən danışıqların fonunda gedirdi.

Kazanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair danışıqların yekunlarına əsasən birgə bəyanat qəbul etdilər. Bəyanatda əks olunmuşdur: "2011-ci il iyunun 24-də Azərbaycan, Ermənistan və Rusiya Federasiyasının prezidentləri Kazanda görüşmüş və onların

tapşırığına əsasən, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin Əsas Prinsipləri layihəsinin razılaşdırılması məqsədilə aparılan işin gedişini nəzərdən keçirmişlər.

Dövlət başçıları bir sıra məsələlərə dair qarşılıqlı anlaşma əldə edilməsini, bu məsələlərin həllinin Əsas Prinsiplərin bəyənilməsi üçün şərait yaradılmasına kömək etdiyini bildirmişlər. Azərbaycan və Ermənistan prezidentləri ATƏT-in Minsk qrupunun həmsədr ölkələri kimi Rusiya, ABŞ və Fransa liderlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi probleminə daimi diqqətinə görə onlara minnətdarlıq bildirmiş və Rusiya Federasiyası Prezidentinin razılaşma əldə edilməsinə kömək üçün göstərdiyi şəxsi səylərini yüksək qiymətləndirmişlər".

Görüş çərçivəsində yekun nəticə əldə edilməsə də, Azərbaycan öz prinsipial mövqeyini davam etdirərək qətiyyət nümayiş etdirdi. Rəsmi Bakı ölkəmizin ərazi bütövlüyü prinsipini əsas tutaraq işğal edilmiş Azərbaycan torpaqlarının geri qaytarılması tələbi ilə çıxış etdi. Bu, bir daha onu göstərdi ki, Azərbaycan prinsipial mövqeyini davam etdirərək öz ərazi bütövlüyünün bərpa edilməsi yönündə aktiv diplomatik səylərini davam etdirməkdədir.

Digər tərəfdən, Kazan görüşünün fonunda bir daha aşkar olundu ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi münaqişənin beynəlxalq hüquq normalarına əsasən həll edilməsinə mane olan başlıca faktordur. Bir daha belə bir nəticəyə gəlindi ki, İrəvanın bu mövqeyi danışıqlar prosesinin gedişatına mənfi təsir etməklə yanaşı, yekun nəticənin əldə olunmasına mane olur.

Bütün bunların fonunda qeyd etmək olar ki, Azərbaycan özünün ərazi bütövlüyünün təmin olunması yolunda olduqca prinsipial fəaliyyət göstərməkdədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən rasional və realist strateji kurs Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həll ediləcəyinə dair ümidləri son dərəcə artırıb. Şübhə yoxdur ki, işğalçı Ermənistanın təcavüzkar siyasəti əvvəl-axır özünə qarşı kəskin "bumeranq" zərbəsi endirəcəkdir. Nəticə etibarilə belə bir proqnoz vermək olar ki, Azərbaycanın praqmatik diplomatiyasının və uğur-

lu siyasətinin fonunda mütləq mənada ölkəmizin ərazi bütövlüyü bərpa ediləcəkdir.

Bundan başqa, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu Cənubi Qafqaz bölgəsinin təhlükəsizlik sisteminə də real təhdiddir. Belə ki, Dağlıq Qarabağ münaqişəsi nə qədər ki ədalətli şəkildə həll edilməyib, regionda tam mənada sülh və sabitlikdən bəhs etməyə dəyməz. Çünki ərazi iddialarının, təcavüz faktının və separatizmin mövcud olduğu məkan və şəraitdə qarşılıqlı maraqlara söykənən əməkdaşlıq meyillərini reallaşdırmaq qeyri-mümkündür. Onun üçün zərurətdir ki, BMT başda olmaqla öz fəaliyyətində sülh və sabitlik amilini fundamental prinsip kimi qəbul edən dünyanın aparıcı təşkilatları münaqişənin ədalətli qaydada həllinə xüsusi töhfələr versinlər, işğalçı dövlətə qarşı effektiv islahedici metodlardan istifadə etsinlər. Əks təqdirdə, Cənubi Qafqaz yeni müharibələr və qarşıdurmalar meydanına çevrilə bilər. Bu isə istər regional, istərsə də qlobal mənada heç bir dövlət tərəfindən arzuolunan hal hesab edilmir. Separatizm və kəskin qarşıdurmaların fonunda ortaya çıxan 2008-ci ilin avqust hadisələri-Rusiya-Gürcüstan müharibəsi deyilən fikri təsdiqləyən ən güclü dəlillərdən biridir. Qısacası, bütün beynəlxalq sənədlərdə ən yüksək səviyyədə qəbul edilən dövlətlərin ərazi bütövlüyü prinsipinə müvafiq qaydada Dağlıq Qarabağ probleminin həlli yönündə xüsusi və intensiv addımlar atılmalıdır.

Yekun olaraq qeyd etmək lazımdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll edilməli və ölkəmizin ərazi bütövlüyü təmin edilməlidir. Bu, Cənubi Qafqaz kimi önəmli bir məkanda siyasi-iqtisadi prosesləri, durumu və təhlükəsizlik balansını tarazlaşdırmaqla yanaşı, uzunmüddətli qarşılıqlı-faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin də formalaşmasına və inkişafına təkan vermiş olacaq.

# Azərbaycan artıq postsovet ölkəsi deyil

***“Azərbaycan artıq postsovet ölkəsi deyildir. Bəzən bizə belə deyəndə, mən hesab edirəm ki, buna razı olmamalıyıq, çünki postsovet dövrü başa çatıb. Biz müstəqil, güclü, müasir, demokratik ölkəyik”.***

***Prezident İlham Əliyev***

XX əsrdə beynəlxalq münasibətlər sisteminin və dünya siyasətinin ən böyük hadisələrindən biri nəhəng geosiyasi vahid olan SSRİ-nin süquta uğraması oldu. Bundan sonra beynəlxalq hüququn tamhüquqlu subyektləri və beynəlxalq münasibətlər sisteminin formal müstəqilliyə malik olan aktorları qismində çıxış edən milli dövlətlər meydana çıxdı. Dünyanın siyasi xəritəsində baş verən sözügedən kardinal dəyişiklik beynəlxalq münasibətlər sistemində yeni tendensiyaların və ümumi düzənə müvafiq proseslərin meydana gəlməsini şərtləndirdi. Məhz belə bir şəraitdə yeni müstəqillik əldə etmiş milli dövlətlərin, o cümlədən Azərbaycanın qarşısında dövrün tələblərinə, qanunauyğunluqlarına və reallıqlarına müvafiq olan inkişaf strategiyasının hazırlanması və icra edilməsi vəzifəsi dururdu. Bunun üçünsə daxili və xarici siyasəti milli mənafeyin təmin olunması vəzifəsinə müvafiq həyata keçirmək potensialına malik olan lider siyasətçi tələb olunurdu. Amma müstəqilliyin ilk illərində ölkəyə xarici imperialist güclərə xidmət edən subyektlərin “rəhbərlik” etməsi Azərbaycanı ən müxtəlif kəşfiyyat orqanlarının mübarizə meydanına və ideoloji qarşıdurma poliqonuna çevirdi. Nəticə etibarilə, Azərbaycan mütləq mənada forposta çevrilmək təhlükəsi qarşısında idi... Ancaq 1993-cü ildə ikinci dəfə hakimiyyətə gələn Ulu öndər Heydər Əliyev qısa zaman kəsiyində müəyyənləşdirdiyi və reallaşdırdığı milli inkişaf strategiyası ilə bütün sahələrdə – iqtisadi, siyasi, hüquqi, sosial, mədəni, humanitar və hərbi sahələrdə uzunmüddətli inkişaf tendensiyasının əsasını qoya bildi, eləcə də, Azərbaycan beynəlxalq münasibətlər sisteminin

müstəqil və tamhüquqlu aktoruna çevrildi. Bundan sonra həyata keçirilən konstruktiv islahatlar və görülən fundamental əhəmiyyətli işlər təməli uzaqgörənliklə qoyulmuş inkişaf strategiyasının mütəmadi xarakter almasını təmin etdi.

Bu gün isə Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün aktual çağırışlarına, qanunauyğunluqlarına və reallıqlarına uyğun surətdə davam etdirilən ümummilli inkişaf strategiyası nəticəsində sadaladığımız bütün sahələrdə yüksək göstəricilərin əldə edilməsi tendensiyası davam etməkdədir. Başqa sözlə, Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və reallaşdırdığı milli inkişaf strategiyasının dövrün aktual çağırışlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirilməsi sayəsində əhəmiyyətli tərəqqi meyilləri sürətləndi və inkişaf göstəriciləri daha da artdı.

2010-cu il dekabr ayının 29-da "Gülüstan" sarayında "Jurnalistlərin dostu" mükafatının təqdimetmə mərasimində çıxış edən Prezident İlham Əliyev qeyd etdi ki, bu gün Azərbaycanın inkişafına nəzər salsaq, görərik ki, bütün istiqamətlərdə ancaq müsbətə doğru tərəqqi vardır: "**Azərbaycan artıq postsovet ölkəsi deyildir. Bəzən bizə belə deyəndə, mən hesab edirəm ki, buna razı olmamalıyıq, çünki postsovet dövrü başa çatıb. Biz müstəqil, güclü, müasir, demokratik ölkəyik**".

Bəli, həqiqətən də, bu gün Azərbaycan olduqca yüksək inkişaf göstəriciləri əldə edib və ölkəmiz inkişaf sürətinə görə dünyada öncül yerlərdən birini tutmaqdadır. Bu fikri əsaslandırmaq üçün iqtisadi, siyasi, sosial sahələrin inkişafına və bu sahələrdə əldə edilən göstəricilərə, inkişaf dinamikasına nəzər yetirmək kifayət edir.

Beləliklə, vətəndaşların maddi rifah halının daha da yaxşılaşdırılması, sosial müdafiə və təminat sisteminin gücləndirilməsi, sosialyönümlü iqtisadiyyatın inkişaf etdirilməsi kimi konkret faktlar həyata keçirilən rasional və praqmatik sosial siyasət kursunun fonunda əldə edilmiş ümummilli inkişafın təcrübi gerçəkliklərini təşkil edir. Qarşıda duran bütün sosial proqramların və infrastruktur

layihələrinin uğurla icra edilməsi, məşğulluq səviyyəsinin ardıcıl olaraq yüksəldilməsi kimi zəruri və təxirəsalınmaz tədbirlər isə bütövlükdə milli inkişafa təkan verməkdədir. Yəni uğurlu sosial siyasətin fonunda əhalinin sosial şəraitinin yaxşılaşdırılması, sosial tələbatlar və ehtiyacların yüksək səviyyədə ödənilməsi perspektiv inkişafın təməl komponentlərini təşkil edir. **Bir sözlə, sosial siyasətin səmərəliliyi və bu sahədə əldə edilən yüksək nəticələr bir daha sübut edir ki, Azərbaycan digər postsovet ölkələrinin bir çoxundan fərqli olaraq özünəməxsus milli inkişaf modelinə malikdir**.

Bundan başqa, yüksək iqtisadi inkişaf da deyilənləri sübut edən növbəti arqumentdir. Belə ki, iqtisadiyyatın mütəmadi olaraq inkişaf etdirilməsi yönündə atılan addımlar da praktik baxımdan olduqca səmərəli nəticələr verməkdə və bütün sahələrin inkişafını təmin etməkdədir. Valyuta ehtiyatlarının və investisiya qoyuluşunun daim artırılması, sahibkarlığın və özəl sektorun inkişafına geniş şərait yaradılması, sənaye istehsalına və qeyri-neft sektoruna xüsusi diqqət göstərilməsi iqtisadi inkişafın təməl mexanizmini təşkil edir. Bunların qanunauyğun nəticəsidir ki, Azərbaycan iqtisadi inkişaf sürətinə görə dünyada öncül mövqedə qərar tutub.

Milli inkişafı təmin edən digər bir əhəmiyyətli faktor demokratikləşmə məramına xidmət edən siyasi-hüquqi islahatların mütəmadi surətdə həyata keçirilməsidir. Belə ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi-hüquqi islahatlar mütəmadi sabitlik və inkişafın qarantı qismində çıxış edir. Yerli və xarici analitiklərin yekdilliklə üzərində durduqları başlıca məsələlərdən biri də budur ki, Azərbaycanda hökm sürən ictimai-siyasi sabitliyin əsaslarını dövlət tərəfindən həyata keçirilən uğurlu islahatlar və tətbiq edilən yeniliklər, inkişaf modelləri təşkil edir. İnsan və vətəndaş hüquq və azadlıqlarının ən yüksək səviyyədə təmin edilməsi, qanunvericilik bazasının mütəmadi surətdə zənginləşdirilməsi, sosial-siyasi təsisatların legitimləşdirilməsi, vətəndaşların siyasi həyatda iştirakına maksimum şərait yaradılması kimi göstəricilər

və nəticələr deyilənləri təsdiq edir. Digər tərəfdən, seçki prosesi, reallaşdırılma vasitələri və demokratiklik səviyyəsi baxımından da Azərbaycan olduqca yüksək səviyyədə qiymətləndirilir.

Bunlarla yanaşı, müstəqil Azərbaycan Respublikası həyata keçirdiyi rasional və praqmatik xarici siyasət strategiyasının fonunda müasir beynəlxalq münasibətlər sisteminin suveren aktoru kimi çıxış etməkdədir. Milli maraqlara və dəyərlərə müvafiq surətdə xarici siyasət resurslarından səmərli şəkildə istifadə edilməsi Azərbaycanın Cənubi Qafqazın ən güclü və nüfuzlu aktoruna, siyasi güc mərkəzinə və iqtisadi lokomotivinə çevrilməsini şərtləndirməklə yanaşı, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsini də təmin edib.

Beləliklə, bütün fəsil və paraqraflarda analitik tədqiqata cəlb etdiyimiz kompleks məsələlərin və göstəricilərin fonunda gəlinən qənaət ondan ibarətdir ki, milli maraqlara və dəyərlərə müvafiq surətdə həyata keçirilən milli inkişaf strategiyası bütün sahələrdə əhəmiyyətli nailiyyətlərin əldə edilməsini şərtləndirməklə yanaşı, ölkəmizin perspektiv inkişaf konturlarını da müəyyənləşdirib. Nəticə etibarilə, milli inkişaf strategiyasının əsasını qoyan Ulu öndər Heydər Əliyevin politoloji irsini yaşadan və çağımızın aktual çağırışlarına müvafiq surətdə davam etdirən Prezident İlham Əliyevin praqmatik inkişaf strategiyası sayəsində əhəmiyyətli, tarixi nailiyyətlər əldə edən Azərbaycan artıq postsovet ölkəsi kimi səciyyələndirilməməlidir.

Bir sözlə, Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu milli inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən müasir dövrün aktual çağırışlarına, qanunauyğunluqlarına və reallıqlarına uyğun surətdə davam etdirilməsi Azərbaycanı mütəmadi surətdə inkişaf edən müasir məmləkətə çevirib. Nəticə etibarilə bütün bu göstəricilər, reallıqlar və nailiyyətlər deməyə əsas verir ki, Azərbaycan artıq postsovet ölkəsi deyil. Azərbaycan iqtisadi və siyasi baxımdan tam müstəqil, demokratik, azad ölkədir. Bu, sözün əsl mənasında tarixi nailiyyətdir.

# İstifadə edilmiş terminlərin izahlı lüğəti

**Absenteizm** – müasir siyasi leksikonda siyasi təmsilçilikdən və iştirakdan imtina etmək, yayınmaq mənasında işlədilir. Əsasən siyasi mədəniyyyət elementlərinin zəif təşəkkül tapdığı, submədəniyyət komponentlərinin hökmran olduğu, siyasi sistemin struktur elementlərinin natamam və qeyri-təkmil səciyyə daşıdığı cəmiyyətlərdə müşahidə edilir. Demokratik siyasi sistemin mövcud olmadığı, siyasi deviasiyaların hökm sürdüyü, siyasi hüquq və azadlıqların məhdudlaşdırıldığı cəmiyyətlərdə mütləq abseneizm mövcud olur. Absenteizm seçkilərə və siyasi proseslərə etinasızlıq, siyasi idarəetmədə təmsilçilik hüququndan imtina edilməsi kimi formalarda təzahür olunur.

**Alternativ** – özündə ehtiva etdiyi xüsusiyyətlər etibarilə bir-birindən fərqlənən iki seçim variantından birinə istinad edilməsidir.

**Amoralist** – cəmiyyətdə mənəvi-etik dəyərlərlə təsbit olunmuş normalar və qaydalara zidd mövqe və davranış formasıdır.

**Anarxizm** – hakimiyyətin və hakimiyyət strukturlarının mövcud olmamasını, könüllü idarəetmənin təşəkkül tapmasını əsas tutan radikal ideoloji baxışlar sistemi. Radikalizmin sol qanadının təzahür formalarından və ideoloji xətlərindən biri olan anarxizm cəmiyyətdə ümumi həmrəyliyə mənfi təsir edən, dağıdıcı meyillərə səbəb olan, xaos və destabilliyin yaranmasına təkan verən sosial bəla qismində çıxış edir. "Suveren milli dövlətlərin sıradan çıxması" və "ümumi normalarla təsbit edilmiş qanunların ləğv edilməsi" prinsiplərindən çıxış edən anarxistlər sadalanan məqsədlərin həyata keçirilməsi naminə inqilab etməyə və müxtəlif stratifikasiyalar arasında antaqonizm yaratmağa cəhd edirlər. Onların ən çox istifadə və istinad etdiyi vasitə isə sui-qəsd metodudur. Peter Kropotkin, Emman Goldman, Aleksandr Berkman, Pier-Cozef Prudon, Benjamin Tuker, Uilyam Grin kimi anarxizm cərəyanının tərəfdarları da etiraf edirlər ki, anarxistlərin təməl prinsipi "sərhədsizlik"dir və onlar qanunların qəsdində durmağı təməl vəzifə hesab edirlər. On-

lar bildirirlər ki, ümumi normalarla təsbit edilmiş qanunlardan hər bir fərd və cəmiyyət imtina etməlidir və dövlət onlar üçün başlıca tənəzzül və təhlükə mənbəyidir.

**Antaqonizm** – barışmaz ziddiyyətlər. Antaqonizm anlayışı siyasi-hüquqi leksikonda mövcud olan ziddiyyətlərin ifrat forma alaraq dağıdıcı səciyyə daşıdığını ifadə etmək üçün işlədilməkdədir.

**Antreprener sistem** – elitanın seçilməsi sistemlərindən biridir. Bəhs edilən sistem çərçivəsində elitanın seçilməsi məhz bu prinsiplərə əsaslanır: cəmiyyətin bütün qrupları elitada təmsil olunmaq imkanına malik olmasa da, bu hüququ malikdir; elitanın formalaşması prosesində plüralist rəqabət şəraiti yaradılmalı və əsas götürülməlidir; idarəetmə strukturlarına seçim kampaniyası müsabiqə əsasında təşkil edilməli və seçim zamanı mənəvi keyfiyyətlər, təcrübi qabiliyyətlər və intellektual potensial əsas götürülməlidir; elitanın seçimi zamanı inzibati maneələrə yol verilməməli və formal tələblər aradan qaldırılmalıdır.

**Aktiv seçki sistemi** – seçkili dövlət orqanlarına seçmək hüququ. Aktiv seçki hüququnda "alternativlik" prinsipi xüsusi önəm kəsb edir. Alternativlik dedikdə aktiv seçki hüququna malik olanlar – seçicilər seçkilər prosesində siyasi mübarizə aparan namizədlərdən istədiklərinə səs verə və öz mövqelərini azad formada ifadə edə bilməsi nəzərdə tutulur. Daha da dəqiqləşdirsək, siyasi plüralizmin hökm sürdüyü cəmiyyətlərdə siyasi iştirakçılıq və aktivlik yüksək səviyyədə olduğundan vətəndaşlar səsvermə prosesində müxtəlif təmsilçilər arasında sərbəst seçim edə bilirlər.

**Aktor** – siyasi proseslərin iştirakçısı qismində çıxış edən, qəbul və icra etdiyi qərarlarla digər subyektlərin fəaliyyəti istiqaməti və mexanizminə təsir edən aktiv subyekt(lər)dir.

**Apolitik** – siyasətə və siyasi proseslərə laqeyd və etinasız münasibətlə ifadə olunan mövqedir. Siyasət nəzəriyyəsində çox hallarda apolitiklik və absenteizm anlayışları sinonim ifadələr kimi işlədilir.

**Aristokratiya** – özündə nəcib xüsusiyyətləri, zəngin intellektual potensialı və idarəetmə təcrübəsini cəmləşdirən idarəetmə sub-

yektləri və ya hakimiyyət daşıyıcıları. Aristokratiyanın "nəcib siyasət"i sayəsində əldə edilən inkişaf ümummilli səciyyə daşıyır və xalqın, millətin milli sərvəti kimi dəyərləndirilir. Ölkənin və dövlətin nəcib xüsusiyyətlərə malik olan, milli mənafeyi təməl faktor kimi əsas tutan elit zümrə tərəfindən idarə edilməsi təbəqələrarası münasibətlərin və onun balansının sağlam inteqrativ dəyərlər və substratlar əsasında formalaşması və inkişafını təmin edir. Bu isə nəticə etibarilə cəmiyyətin ahəngdarlığını təmin edən ümumi mexanizm rolunu oynamaqla, eyni zamanda, milli dövlətin milli maraqlar və dəyərlər əsasında inkişafını təmin edir.

**Avtokratiya** – avtoritar rejimlər çərçivəsində qeyri-məhdud hakimiyyətə əsaslanan idarəetmə formasıdır.

**Avtoritarizm** – idarəetmə üsulu kimi səciyyələndirmək etibarilə siyasi rejim növlərindən biridir. Avtoritar siyasi rejimlərin başlıca xüsusiyyətləri bunlardır: hakimiyyət avtarkiyaya əsaslanır, yəni rejimin mahiyyətinə müvafiq olaraq hakimiyyət bir şəxs və ya qrupun iradəsinə əsaslanır və onların inhisarında olur; qanunlar mövcud olsa da, tətbiq mexanizmi olmur. Yəni qanunlar Konstitusiyada, ona müvafiq qanunvericilik aktlarında təsbit edilsə də, hakim dairələrin tətbiq etdiyi məhdudiyyət və nəzarətə görə işləmir; proseslərin tənzimlənməsində, ziddiyyətlər və münaqişələrin aradan qaldırılmasında hakimiyyət real güc üsullarına, zorakı vasitələrə istinad edir. Başqa sözlə, müdafiə dəstələri, hüquq-mühafizə sistemi rejimin mühafizəsi funksiyasını yerinə yetirir; müxtəlif səciyyəli demokratik prosedurlar (seçkilər, müxtəlif təmayüllü siyasi partiyalar, ictimai-siyasi institutlar və s.) mövcud olsa da, formal səciyyə daşıyır. Yəni siyasi hüquq və azadlıqların ciddi şəkildə məhdudlaşdırıldığı şəraitdə demokratik prosedurların reallaşdırılması mümkün olmur; milli elita gildiya sistemi əsasında-qapalı sistem çərçivəsində formalaşdırılır və s.

**"Bayraqdar" liderlər** – cəmiyyətdə ali, nəcib şəxsi keyfiyyətlərə malik olan əsl rəhbər kimi qəbul və müdafiə edilirlər. Onun uğurlarının əsasında həmin şəxsə qarşı olan yüksək dəstək amili dayanır. Məhz bu cür siyasi liderlər olduqca realist, rasional və

praqmatik təfəkkürə malik olurlar və qarşılarına qoyduqları dərk edilmiş məqsədlərə uğurla çata bilirlər. Bir sözlə, "bayraqdar" liderlər sözün əsl mənasında yeganə və əsas aparıcı qüvvə qismində çıxış edirlər.

**De-fakto** – beynəlxalq münasibətlər sistemi çərçivəsində beynəlxalq hüquq normalarına əsasən dövlətin faktiki-rəsmi tanınmasıdır.

**Determinasiya** – hadisə və prosesləri immanent təsir vasitəsilə şərtləndirən obyektləri ifadə etmək üçün işlədilməkdədir.

**Deviasiya** – qəbul olunmuş ümumi normalara zidd olan, sosiumda dağıdıcı meyillərə və qarşıdurmalara yol açan davranış formasıdır. Bir çox nəzəri mənbələrdə deviasiya "sapma", "yayınma" anlayışları ilə ifadə olunur.

**De-yure** – beynəlxalq münasibətlər sistemində qəbul olunmuş hüquqi norma və qaydalara əsasən formal tanınma.

**Dilemma** – qərar qəbulu zamanı mövcud olan iki mümkün variantdan birinin seçilməsi.

**Diskriminasiya** – ayrı-seçkiliklə təzahür olunan münasibət formasıdır. Diskriminasiya bir sıra formal statik əlamətlərə (milli və irqi mənsubiyyətinə, siyasi əqidəsinə və s.) görə fərdlər, qruplar, xalqlar və millətlərə qarşı ayrı-seçkiliyin tətbiq olunması, onların pozitivi və neqativ hüquqlardan məhrum olunmasına yönəlik aktların reallaşdırılması formasında təzahür olunur. Xalqlara və millətlərə qarşı həyata keçirilən genosid, yaxud soyqırım aktları diskriminasiyanın xüsusi forması kimi səciyyələndirilir.

**Dissonans** – kəskin ziddiyyətlər və qarşıdurmalarla müşayiət edilən destruktiv proseslər.

**Dominant** – sahib olduğu resurslardan istifadə mexanizminə görə sosial və siyasi münasibətlər sistemində üstün mövqe əldə edən hegemon subyekt.

**Eksses** – kəskin qarşıdurmalarla səciyyələnən toqquşmalar və ictimai ahəngin ciddi surətdə pozulması.

**Ekspansiya** – mövcud hədəflər və məqsədlər əsasında müəyyən olunmuş strategiyaya müvafiq surətdə davamlı genişlənmə, sahəyə doğru yayılma və ya fəal müdaxilə.

**Ekspatriasiya** – elmi ədəbiyyatda bu anlayış çox hallarda deportasiyanın sinonimi kimi işlədilsə də, bəhs edilən məfhumlar mahiyyət etibarilə bir-birindən fərqlənir. Ekspatriasiya vətəndən köçürülmə mənasını ifadə etsə də, deportasiyadan fərqli olaraq könüllü səviyyə daşıya bilər. Amma deportasiya məcburi köçürülmədir. Ekspatriasiya zamanı köç(ürül)müş şəxslər vətəndaşlıqdan da məhrum edilirlər.

**Ekstremizm** – siyasətdə ifrat görüşlər və radikal meyillərlə səciyyələndirilən deviativ mövqe. Ekstremistlər radikal və anarxist mövqe tutaraq mövcud düzənə və sistemə qarşı çıxaraq eksses aktlarına istinad edirlər. Bu cərəyanın tərəfdarları hər cür hakimiyyətə qarşı çıxmaq prinsipini fəaliyyətlərində əsas tuturlar.

**Elita** – sahib olduğu yüksək şəxsi keyfiyyətlərinə, intellektual potensialına və rasional, praqmatik fəaliyyət mexanizminə görə sosial piramidanın zirvəsində qərar tutan institusional aktorlardır.

**Elitar demokratiya modeli** – elitar demokratiya modelində əks olunur ki, siyasi idarəetmə peşəkar azlıq tərəfindən həyata keçirilməlidir. Xalq idarəetmədə iştirak etməməlidir, çünki idarəetmə nəcib keyfiyyətlərə malik olan azlıq tərəfindən həyata keçirilə bilər. Siyasi qərarların məhdud peşəkar qrup tərəfindən qəbul edilməsi obyektiv strateji zərurətdir. Məhz belə bir təsbitin fonunda demokratik idarəetmə ilə bağlı başlıca məsələ həmin peşəkar qrupların necə formalaşdırılmasıdır. Beləliklə, demokratiya xalqın razılığı və iradəsi ilə elitanın leqal və legitim idarəetməsidir. Bütün bunların fonunda hər bir cəmiyyətdə iyerarxik strukturların formalaşması obyektiv zərurətə çevrilir. İqtisadi, siyasi, hərbi, maliyyə elitaları yaranır və ayrı-ayrı sahələrdə idarəetmə funksiyasını yerinə yetirirlər.

**Empirik** – təcrübi proseslər və hadisələrdən alınmış və faktlarla təsbit edilmiş.

**Eskalasiya** – mütəmadi yüksəliş və artımla müşahidə edilən

proses.

**Evolyusiya** – tədrici dəyişmə, təkamül xarakterli dəyişikliklər.

**"Faydalı" liderlər** – özlərində xüsusi keyfiyyətləri cəmləşdirmiş və bir çox lider modellərinin xüsusiyyətlərini sintez etmiş rəhbər qismində səciyyələndirilir. Məhz bu cür siyasi liderlər ictimai-siyasi proseslərin dərinliklərinə nüfuz edir və sözün əsl mənasında sabitləşdirici və inkişafetdirici qüvvə kimi çıxış edirlər. Rasional liderlər qrupuna aid edilən bu şəxslər zaman və məkanın bütövlüyünü lokal surətdə təmin edərək cəmiyyətin və xalqın ali maraqlarının ifadəedicisi qismində çıxış edirlər.

**Federasiya** – tərkibində inzibati-ərazi vahidlərini birləşdirən dövlət forması kimi səciyyələndirilir. Federasiyalar simmetrik və asimmetrik olmaq etibarilə 2 tipə ayrılır. Simmetrik federasiyalarda ittifaqın tərkibinə daxil olan subyektlər konstitusiya əsasında mühüm hüquqi üstünlük və imkanlara malik olur ki, bu da onların idarəetmədə müstəqil surətdə təmsilçiliyini təmin etmiş olur. Asimmetrik federasiyalarda isə ittifaqın tərkibinə daxil olan subyektlər məhdud müstəqilliyə malik olur. Bu cür federasiyalarda subyektlər müstəqil orqanlara sahib olmadığından idarəetmədə məhdud surətdə iştirak edirlər. Ümumilikdə simmetrik və asimmetrik olmaq etibarilə federasiyalar bir sıra səciyyəvi xüsusiyyətlərin daşıyıcısı qismində çıxış edirlər:

İttifaq və subyektlər idarəetmənin hüquqi əsası kimi çıxış edən konstitusiyaya sahib olurlar. Hüquqi müstəvidə ittifaq konstitusiyası üstünlük təşkil edir və ümumfederal qanunvericiliyin əsası qismində çıxış edir; simmetrik federasiyalarda subyektlər də hakimiyyət bölgüsünə malik olur, yəni qanunverici, icraedici və məhkəmə hakimiyyəti mövcud olur və ayrılıqda müstəqil surətdə fəaliyyət göstərirlər; federasiya subyektləri müəyyən edilmiş norma və prinsiplər əsasında qanunvericilik hüququna malik olurlar; federasiyalarda qanunverici orqan, yəni parlament ikipalatalı olur və subyektlərin nümayəndələri yuxarı palatada təmsil olunur; federasiya subyektlərinin əhalisi vahid və bərabər vətəndaşlığa malik olur.

**Formal lider** – inzibati qayda və resurslarla müəyyən quruma rəhbərlik edən şəxsdir ki, onların rəhbərliyi rəsmi xarakter daşıyır və nüfuz-təsir imkanları bilavasitə rəsmi, inzibatı resursların fonunda müəyyən edilir.

**Gildiya sistemi** – elitanın seçilməsində istifadə edilən sistemlərdən biridir. Antreprener sistemin tam əksi qismində səciyyələndirilir və qeyri-təkmil üsul kimi çıxış edir. Gildiya sisteminin mahiyyətini anlamaq üçün onun təməl xüsusiyyətlərinə nəzərə yetirmək məqsədəmüvafiqdir: elita seçimi qapalı səciyyə daşıyır və nümayəndələr artıq elita qismində çıxış edən aktorların təyin etdikləri şəxslərdən formalaşır; seçim zamanı mənəvi keyfiyyətlər, idarəetmə bacarığı, təcrübi qabiliyyətlər və intellektual potensial aşağı səviyyədə nəzərə alınır. Əsasən namizədlər qarşısında formal tələblər qoyulur və kadr yetişdirilməsi işi düzgün təşkil edilmir; elitanın seçilməsi və formalaşdırılması prosesində selektoratın (seçənlər) təmsilçilik dairəsi məhdud xarakterli olur ki, bu da seçim zamanı rasionallıq və praqmatiklik səviyyəsinin olduqca aşağı düşməsinə səbəb olur.

**Hüquqi dövlət** – bir çox nəzəriyyəçilər və araşdırmaçılar hüquqi dövlət məfhumunu legitim hakimiyyət anlayışı ilə eyniləşdirsələr də, bunlar tamamilə fərqli kateqoriyalar kimi səciyyələndirilməlidir. Əslində, legitim hakimiyyət hüquqi dövlətin bir göstəricisi və ya təməl struktur elementidir. Elmi ədəbiyyatda isə hüquqi dövlətə məhz bu cür tərif verilir: Hüquqi dövlət siyasi hakimiyyətin daşıyıcısı və hüququn subyekti kimi onun fərdlərlə qarşılıqlı münasibətlərinin təşkili və idarə olunmasının qanuni, leqal formasıdır.

**İnfokratiya** – informasiya hakimiyyəti. İnfokratiya informasiya vasitəsilə insanların idarə olunması missiyasını yerinə yetirən subyektlərin hakimiyyətini ifadə etmək üçün işlədilir.

**İrrasional** – sağlam düşüncəyə əsaslanmayan, daha çox mülahizə və hisslər vasitəsilə təzahür olunan təfəkkür forması (düşüncə tərzi) kimi səciyyələndirilir. Burada məntiqi və analitik düşüncəyə yer verilmir.

**Kataklizm** – dəyişikliklər dövründə dağıdıcı, aşındırıcı proseslər.

**Konfederasiya** – müstəqil dövlətlərin hüquqi anlaşma əsasında birləşdiyi vahid ittifaq kimi səciyyələndirilir. İttifaqa daxil olan subyektlər nisbi suverenliyə malik olur və nəzəri-formal-hüquqi əsasda özünün siyasi müstəqilliyini, konstitusiyasını, silahlı qüvvələrini, maliyyə və hüquq sistemini qoruyub saxlayır. Amma bütün bunlarla yanaşı, ümumi anlaşma əsasında formalaşmış konfederasiya çərçivəsində vahid dövlətə aid bir çox məsələlər razılaşdırılmamış və həll edilməmiş qalır. Daha çox ümumi məsələlər – müharibə və sülh məsələsi, xarici siyasət kursu, vahid ordunun, milli maliyyə və hüquq sisteminin formalaşması məsələləri birgə surətdə razılaşdırılır. Konfederativ dövlət formasında hər nə qədər "mərkəzdənqaçma" meyilləri müşahidə və təzahür olunsa da, vahid siyasi kursun həyata keçirilməsi üçün tərəflərin təmsilçiliyi əsasında ümumi hakimiyyət strukturları formalaşdırılır. Amma formalaşdırılmış ümumi hakimiyyət orqanlarının qərarlarının imperativ səciyyə daşımaması – tövsiyə xarakterli olması idarəetmə sisteminin natamamlığından xəbər verir. Digər tərəfdən, konfederasiyanın formalaşması üçün əldə edilmiş razılaşmaya daxil olan maddələrin də bir çoxu qeyri-imperativ olur ki, bu da nəzəri və tətbiqi cəhətdən ittifaqın davamlılığını və əsaslarını şübhə altına alır.

**Konfrantasiya** – subyektlərarası qarşıdurma və toqquşmalar formasında səciyyələndirilən dinamik proses.

**Konsolidasiya** – mövcud dəyərlər və normaların təfəkkür və düşüncədə təşəkkül tapması anlamında işlədilir. Məsələn, demokratik transformasiya prosesini həyata keçirən cəmiyyətlərdə demokratik dəyərlərin şüurlarda və düşüncələrdə təşəkkül tapması demokratiyanın konsolidasiyası adlanır.

**Kontroverza** – ixtilaflarla müşayiət edilən və parçalanmalara səbəb olan dağıdıcı proseslərdir.

**Qeyri-formal lider** – onların rəsmi, inzibati resurslarla quruma rəhbərlik etməsi şərt deyil. Onlar şəxsi keyfiyyətləri və nüfuzları, xarizmatik xüsusiyyətləri ilə müəyyən qurum və qrup tərəfin-

dən lider kimi qəbul edilirlər.

**Leqal demokratiya modeli** – leqal demokratiya modelində legitimlik və leqallıq anlayışları mərkəzi məfhumlar qismində nəzərdən keçirilir. Bildirilir ki, qanunlar və xalqın iradəsi demokratik idarəetmə sisteminin əsasını təşkil edir. Hər iki məfhum bir-birilə bağlı olsa da, qanunlar xalqın iradəsindən üstündür. Hər bir idarəetmə subyekti öz fəaliyyətində təməl dəyər kimi qanunlara əsaslanmalıdır. Bu modeldə vətəndaş cəmiyyətinə xüsusi diqqət yetirilir və bildirilir ki, vətəndaş cəmiyyəti ictimai-siyasi institutlaşmada özünəməxsus funksionallığa malikdir: dövlət vətəndaş cəmiyyətinin formalaşmasında maraqlı olmalı və meydana çıxan maneələri aradan qaldırmalıdır. Bunun fonunda liberallaşmaya xüsusi diqqət göstərilməli və legitimləşdirmə ilə liberallaşma paralel surətdə həyata keçirilməlidir.

**Majoritar seçki sistemi** – təkmil siyasi sistemə sahib olan bir çox inkişaf etmiş ölkələrdə majoritar seçki sistemindən istifadə edilməkdədir. Bu sistem çərçivəsində keçirilən seçkilər ərəfəsində ölkənin inzibati ərazi vahidləri üzrə birmandatlı seçki dairələri təşkil edilir və hər seçki dairəsindən bir namizədin təmsilçi hüququ və statusu qazanması nəzərdə tutulur. Qısacası, majoritar seçki sistemində səs çoxluğu prinsipi əsas götürülməklə səsvermənin nəticələrinə müvafiq olaraq daha çox səs toplayan qalib hesab edilir. Səs çoxluğu isə mütləq və nisbi olmaq etibarilə iki kateqoriyada təsnif edilir. Mütləq səs çoxluğu dedikdə qalib statusu əldə etmək üçün seçicilərin səsinin yarıdan çoxunun (50+1) toplandığı sistem nəzərdə tutulur. "Mütləq səs çoxluğu" prinsipinə əsaslanan majoritar seçki sistemində seçkilərin nəticəsində heç bir namizəd səslərin "50+1" faizini toplaya bilmirsə, bu zaman seçkilərin ikinci mərhələsi təşkil edilir ki, bu mərhələyə ilk mərhələdə ən çox səs toplamış iki namizəd buraxılır. Bu mərhələdə ən çox səs toplamış namizəd qalib statusu əldə edir. "Nisbi səs çoxluğu"na əsaslanan sistemdə isə ən çox səs toplamış şəxs nümayəndəli orqanda təmsilçilik hüququ qazanır. Majoritar seçki sistemində aktiv seçki hüququndan istifadə edənlər – seçicilər səs verdikləri və seçdikləri namizədi bi-

lavasitə tanıyır və onunla seçki prosesinin müxtəlif mərhələlərində təmasda olurlar. Nəticə etibarilə, seçicilər majoritar seçki sisteminin fonunda həm rasional seçim edirlər, həm də sonradan problemlərin həllinə, qanunvericilik prosesinin praqmatik surətdə təşkil edilməsinə mühüm töhfələr bəxş edirlər.

**Maksimalizm** – obyektə (və ya subyektə) xas ifrat meyil və mövqe ilə təzahür olunan statik və dinamik durum.

**Marionetka** – müstəqil kursa və istiqamətə malik olmayan, konkret aktorların diktəsi və göstərişləri ilə fəaliyyət göstərən subyekt.

**Milli identiklik** – milli kimliyin daşıyıcısı qismində çıxış edən və cəmiyyətdə müəyyən status daşıyıcısı olan fərdlərin milli dəyərlər əsasında özünü milli birliyə aid etməsi, milli eyniliyin tanınması.

**Mondializm** – vahid dünya dövlətinin yaradılması prinsipini əsas tutan ideoloji oriyentasiyalı konsepsiya. Mondializm Qərb nəzəriyyəçilərinin və beyin mərkəzlərinin konkret siyasi-ideoloji istiqamətlər əsasında hazırladığı konsepsiya olduğundan dünya siyasətinin başlıca meyillərini yönləndirən müəyyən güc mərkəzlərinin maraqları əsasında tərtib edilmişdir. Bəhs edilən konsepsiyada dünyanın vahid qanunlar əsasında vahid mərkəzdən idarə edilməsi prinsipi əsas kimi qəbul edilir və vahid dünya hökumətinin yaradılması mütləq zərurət kimi qeyd edilir. Bu nəzəriyyə milli dövlətlərin suverenliyi prinsipini qəbul etmir və bir növ, qloballaşmanın ideoloji-konseptual əsası kimi çıxış edir.

**Müxalifət** – siyasi çoxluğa, həyata keçirilən milli siyasətə, dövlət hakimiyyətinin həyata keçirilməsinin məqsəd və metodlarına qarşı çıxan siyasi azlıqdır. Amma bu tərif müxalifət institutunun mahiyyətini dar çərçivədə izah edir. Eyni zamanda, müxalifətçilik peşə və ya ştat vahidi olmamaq etibarilə sosial statusdan irəli gələn siyasi dünyagörüşüdür.

**Nümayəndəli demokratiya modeli** – nümayəndəli demokratiya modelində isə belə bir konseptual maddə əks olunur ki, xalqın iradəsinin həyata keçirilməsi onun özünün bilavasitə aktiv təmsilçiliyi əsasında mümkün olmur. Real demokratiya xalq təmsilçiliyi

hökumətinin formalaşdırılması ilə təmin edilə bilər. Bu hökumət isə xalqın passiv iştirakı (aktiv seçki hüququndan istifadə etməklə) sayəsində formalaşdırılır. Daha da dəqiqləşdirsək, hökumət xalqın iradəsi əsasında formalaşır, amma xalqın özü bilavasitə idarəetmədə iştirak etmir. Təmsilçilər isə öz fəaliyyətlərində xalqın ali maraqlarını rəhbər tutmağa söz verir. Amma bu vədlərin yerinə yetirilməsi səviyyəsi sistemin spesifik xüsusiyyətlərindən asılıdır. Politoloq Gilyermo Donnel yazır ki, nümayəndəli demokratiya modeli daha az liberaldır: *"Bu modeldə ictimai-siyasi institutlaşma xüsusi zəruri strateji missiya kimi səciyyələndirilir. Təsisatların fəaliyyətinin legitimliyi sistemin effektivlik səviyyəsini artırır... Bu modeldə güclü prezident hakimiyyətinə xüsusi ehtiyac duyulur və prezident millətin siyasi təcəssümü, maraqların ifadəçisi qismində dəyərləndirilir... Nümayəndəli demokratiyada qərarların qəbulu ləng, icrası isə operativ surətdə baş tutur"*.

**Oliqarxiya** – güclü maliyyə imkanlarını özündə cəmləşdirən müəyyən qrupun hakimiyyəti. Oliqarxiyanın hakim zümrə olduğu milli dövlətlərin sahələrarası hormoniyaya əsaslanan inkişafından bəhs etmək olmaz. Görüntü səciyyəsi daşıyan "inkişaf" isə qrup mənafeyinin və "hakimlərin transmilli maraqlarının təmin olunması" fonunda ortaya çıxan təzahürdür. Daha da dəqiqləşdirsək, deyə bilərik ki, "kapital maşını" qismində çıxış edən oliqarxlar (təsadüfi deyil ki, bu zümrə bəzən "maliyyə oliqarxiyası" adlandırılır) milli zəmində ümummilli sərvətlərin inhisarçısı qismində çıxış edir və assimmetrik əlaqələrin daha da dərinləşməsinə şərait yaradan fəaliyyət mexanizminə malik olurlar.

**Paritet münasibətlər** – simmetrik və bərabərtərəfli əlaqələr sistemi.

**Partisipator demokratiya modeli** – Nikos Pulantsas, Kerol Peytmen, Benjamin Barber, Artur Şlezinger kimi nəzəriyyəçi alimlərin təmsil etdiyi partisipator (iştirakçı) demokratiya nəzəriyyəsində isə liberalist prinsiplər üstünlük təşkil edir. Bir çox nəzəriyyəçilər onu liberal demokratiya ilə eyniləşdirirlər və bəhs edilən modelə bu xüsusiyyətləri aid edirlər: fərdlərin azadlığı və bərabərliyi,

demokratik təsisatların formalaşmasında seçkilərin əsas olması və çoxpartiyalı plüralist sistemin formalaşdırılması, aktorlara siyasi fəaliyyət azadlığının yaradılması, qanunların aliliyi, çoxluğun iradəsi və sair. Bundan başqa, bu modeldə fərdlərin qərar qəbulunda iştirakına geniş şəraitin yaradılması xüsusi vurğulanır. Bununla əlaqədar olaraq Artur Şlezinger yazır: "Siyasi qərarların qəbul edilməsi prosesində cəmiyyətin əsas maraqları diqqətlə nəzərə alınmalıdır ki, buna da yalnız həmin maraqların təmsilçilərinin və ya tərəfdarlarının hakimiyyət sistemində hakim mövqe tutduqları halda nail olmaq mümkündür". Bu modelə əsaslanan nəzəri-konseptual mənbələrdə "sosial inqilab" məfhumundan istifadə edilir ki, bu ifadənin mənası klassik semantikadan uzaqdır. Belə ki, bəhs edilən anlayış müxtəlif vasitələrlə hakimiyyətin devrilməsi və qəsb edilməsi mənasında yox, sivil vasitə və metodlarla demokratikləşməsi anlamında işlədilir. Nəzərdə tutulur ki, demokratikləşmənin fundamental meyarı qüvvələrarası konsensusdur. Partisipator demokratiya modelində təsbit edilir ki, xalq irrasional toplum deyil və səmərəli idarəetmənin əsasında dayanmaq iqtidarındadır. Fərdlər ictimai-siyasi proseslərdə təmsil olunmaqla idarəetmənin təkmilləşməsinə xüsusi töhfələr bəxş etmək gücündədirlər. Beləliklə, xalq bütün proseslər və münasibətlərin fonunda mərkəzi subyekt qismində dəyərləndirilməlidir.

**Passiv seçki hüququ** – seçkili dövlət orqanlarına seçilmək hüququ.

**Periferiya** – mərkəzdən kənar yer, əyalət mənasında işlədilir. Daha çox federasiya subyektlərini ifadə etmək üçün işlədilir.

**Plutokratiya** – cəmiyyətdə müxtəlif amoralist və dağıdıcı üsullarla maddi resurslar toplayaraq üstünlük (hakimiyyət) əldə edən şəxsləri ifadə etmək üçün işlədilir.

**Plüralist demokratiya modeli** – plüralist demokratiya modelini səciyyələndirərkən, ilk növbədə, bu prinsip önə çəkilir: "Xalq hakimiyyəti ideyasından azlığın mənafeyinin leqal surətdə təmin və mühafizə edilməsinə keçid". Plüralist demokratiya modelində başlıca hərəkətverici subyekt qismində qruplar götürülür. Buradan

da belə bir mövqe ifadə edilir ki, demokratiya insanlara qruplarda birləşmək və fəaliyyət göstərmək imkanı yaratmalıdır. Beləliklə, formalaşan qruplar siyasi mübarizə meydanında avanqard aktor qismində çıxış edirlər və rəqabət qruplararası mübarizənin fonunda meydana gəlir. Mübarizə prosesində ayrı-ayrı qruplar bir-birini neytrallaşdırır və hansısa qrupun hakimiyyəti inhisara almasına imkan verilmir. Belə bir şəraitdə dövlət özünəməxsus funksiya daşıyır və müxtəlif qrupların maraqlarını uzlaşdıran təməl aktor qismində çıxış edir. Bundan başqa, plüralist demokratiya modelində əks olunur ki, maraqlar uğrunda mübarizə aparan qruplar (mənafe qrupları) siyasi sistemin başlıca ünsürləridir. Siyasi proseslərdə hərəkətverici faktor qrup mənafeyidir. Belə bir situasiyada şəxsiyyətin fərdi maraqları qrup mənafeyinin fonunda ikinci plana keçir. Amma nəzərə almaq lazımdır ki, qrupların yaranmasının əsasında duran təməl faktor fərdlərin spesifik maraqlarıdır. Fərdlər öz maraqlarını təkbaşına gerçəkləşdirə bilmədiklərindən qruplarda birləşirlər və öz maraqlarını inteqrativ surətdə uzlaşdıraraq qrup mənafeyi halına salırlar. Digər tərəfdən, demokratik şəraitdə legitim hakimiyyətin sosial əsaslarını və real gücünü mənafe qrupları arasındakı strateji rəqabət və qüvvələrarası münasibətlər balansı təşkil edir. Məhz bu amil siyasi səhnədə təmsilçilik və münasibətlər sistemini formalaşdıran mexanizm qismində çıxış edir. Bununla yanaşı, belə bir şəraitin fonunda ictimai nizamın təmin və mühafizə edilməsi zərurəti də ortaya çıxır ki, burada əsas məsuliyyət və öhdəlik dövlətin üzərinə düşür. Dövlət öz funksionallığı çərçivəsində ictimai ahəngi təmin edən mexanizm qismində çıxış edir və qruplararası mübarizənin dağıdıcı nəticələrinin cəmiyyətə mənfi təsir etməsinə imkan vermir. Konsepsiyada bildirilir ki, mənafe qruplarının üzərinə düşən əsas vəzifə və öhdəlik onu təşkil edən şəxslərin maraqlarının inteqrativ surətdə təmin edilməsi səviyyəsidir.

**Polemologiya** – politologiyada müharibə və silahlı qarşıdurmaları öyrənən sahədir.

**Proporsional seçki sistemi** – bu seçki sistemində ölkədə inzibati ərazi vahidləri üzrə çoxmandatlı seçki dairələri təşkil edilir və

hər seçki dairəsindən müxtəlif partiyalardan olan bir neçə namizəd nümayəndəli orqanda təmsil olunmaq hüququ qazanır. Başqa sözlə, seçicilər konkret şəxsə yox, siyasi partiyaların namizədlər siyahısına səs verirlər. Siyasi partiyalar seçkilərin nəticələrinə müvafiq olaraq ümumi səslərin proporsiyasında qazandıqları faizlərə müvafiq olaraq nümayəndəli orqanda yer qazanırlar. Proporsional seçki sistemində parlamentdə keyfiyyət tərkibinin formalaşdırılması üçün "seçki səddi"ndən istifadə edilir. "Seçki səddi" dedikdə partiyaların topladıqları səs faizləri nəzərdə tutulur. "Seçki səddi" müxtəlif ölkələrdə 1-20 faiz arasında olur.

**Rasional davranış modeli** – məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, real faktlar və göstəricilərin əsas götürülməsi fonunda istinad edilən davranış forması.

**Resessiya ("slump")** – işgüzar aktivliyin kəskin azalması ilə müşayiət olunan iqtisadi tənəzzül meyilləri.

**"Sahibkar" imicli liderlər** – özlərinə bənzərlik effektinə xüsusi diqqət yetirir və öz davamçılarını məhz bənzərlik əsasında müəyyən edirlər. Siyasət nəzəriyyəsində bu cür liderlər irrasional xüsusiyyətlərin məcmusu kimi təsvir edilsə də, bir çox situasiyalarda onların fəaliyyət mexanizmi inkişaf mənbəyi kimi çıxış edir.

**Seçkilər** – siyasi sistemin struktur elementi kimi səciyyələndirilən seçkilər xalqın ümumi iradəsinin ifadə forması olmaq etibarilə nümayəndəli orqanların formalaşmasını, bir sıra ali dövlət vəzifələrinin tutulmasını təmin edən  və sosiumda siyasi iştirakçılıq və sosiallaşma səviyyəsini kəmiyyət və keyfiyyət etibarilə artıran institusional mexanizm qismində çıxış edir.

**Siyasi manipulyasiya** – şüurların gizli surətdə idarə edilməsi metodu kimi təsvir edilir. Bunun fonunda siyasi manipulyasiyanın iki başlıca forması (modeli) fərqləndirilir. Bunlardan birincisi sensitiv modeldir. Manipulyasiyanın sensitiv modeli dedikdə obyekt kimi seçilən qruplara qarşı müxtəlif stimul mexanizmlərindən istifadə edilməsi və müvafiq reaksiyanın alınması nəzərdə tutulur. Nəticə etibarilə, müvafiq reaksiyaların alınması ilə sosial obyektlərin şüuru idarə olunur və yönləndirmə mexanizminin işləkliyi təmin

edilir. Manipulyasiyanın rasional modelində daha çox aldadıcı informasiya resurslarından istifadə edilir. Ya tamamilə qara piar səciyyəli yalan məlumatlardan istifadə edilir, ya da doğru informasiyaların təhrif olunması ilə şüurlar manipulyasiya edilir. Rasional manipulyasiya metodunun struktur komponentlərinə bunlar aiddir: informasiyaların konkret maraqlara müvafiq surətdə təhrif edilməsi, informasiyanın qərəzli və yönləndirici detallarla doldurulması, rasional nəticəyə gəlməyə imkan verən informasiya elementlərinin sıradan çıxarılması və məlumata faktları pərdələyən komponentlərin daxil edilməsi və s.

**Siyasi mədəniyyət** – vətəndaşların hakimiyyətlə qarşılıqlı münasibətlərinə aid olan mövqe və davranışların əsasını təşkil edən dəyərlərin, eyni zamanda, siyasi sistemin iştirakçıları arasında təzahür edən fərdi mövqe və meyillərin kompleks məcmusudur.

**Siyasi modernləşmə** – Siyasi modernləşmə kursu milli inkişaf strategiyasının fundamental istiqamətlərindən biri kimi səciyyələndirilir. Siyasi modernləşmə prosesi dedikdə siyasi sistemin yeni dəyərlər əsasında formalaşdırılması və struktur elementlərinin təkmilləşdirilməsi ilə ənənəvi sistemdən müasir sistemə keçidlə səciyyələnən sosial-siyasi transformasiya nəzərdə tutulur.

**Siyasi praqmatizm** – müəyyən edilmiş məqsəd və hədəf uğrunda həyata keçirilən və hədəflənmiş nailiyyət və dividendlərin əldə edilməsini təmin edən siyasi fəaliyyət forması.

**Staqnasiya** – iqtisadi, siyasi, sosial və digər sahələrdə potensial olaraq inkişafın qarşısını alan və tənəzzülə şərait yarada biləcək durğunluq halı, statik durum.

**Stratifikasiya** – sosiumda status və rollarla təsbit edilmiş təbəqələr.

**Substrat** – obyektə daxilən xas olan, hadisələrin mahiyyətini əks etdirən şərtləndirici və təminedici faktor.

**“Təmsilçi” liderlər** – onların fəaliyyət mexanizminin əsasında təmsil etdiyi qrup və subyektlərin maraqlarının təmin edilməsi prinsipi dayanır. Onlar sahib olduqları bütün resurslardan xalqın mənafeyinin təmin edilməsi və tələbatlarının ödənilməsi istiqamə-

tində istifadə etməyi zəruri strateji prinsip kimi qəbul edir və fəaliyyət fəlsəfələrini məhz bu nöqteyi-nəzərdən müəyyən edirlər.

**Totalitarizm** – idarəetmə üsulu kimi səciyyələndirmək etibarilə siyasi rejim növlərindən biridir. Totalitar siyasi rejimlərin başlıca xüsusiyyətləri bunlardır: siyasi sistemdə partiya vahidliyi və hegemoniyası mövcud olur. Başqa sözlə, siyasi palitrada yeganə partiya təmsil olunur və inzibati resurslar əsasında hakim partiyadan başqa digər partiyaların fəaliyyətinə imkan verilmir; hakim qüvvələrin mənafeyini ifadə edən vahid ideologiya mövcud olur və bu ideologiya milli maraqları, birliyi, həmrəyliyi deyil, konkret qrupların maraqlarına əsaslanır; kütləvi informasiya vasitələri inhisarda və total nəzarətdə olur. KİV-in fəaliyyəti hakim qüvvələrin maraqlarını və ideologiyasını əsaslandıran substratlar üzərində qurulur; iqtisadiyyat üzərində total nəzarət olur və müstəqil iqtisadi sistemin mövcudluğuna imkan verilmir və s.

**Unitar dövlət** – mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş olmaq etibarilə müxtəlif inzibati-ərazi vahidlərindən təşkil olunan dövlət formasıdır. Bu dövlət formasının tərkibindəki inzibati-ərazi vahidlərinin siyasi müstəqilliyi olmur. Unitar dövlətin bir sıra spesifik xüsusiyyətləri vardır:

Unitar dövlətin vahid konstitusiyası olur ki, bu, bütün inzibati-ərazi vahidlərinə şamil edilir; idarəetmə hakimiyyət orqanlarının formalaşdırdığı vahid sistem tərəfindən həyata keçirilir və qəbul edilən qərarlar imperativ səciyyə daşıyır; vahid hüquq sistemi formalaşdırılır və ölkənin bütün ərazisində idarəetmə məhz həmin sistemə əsaslanır.

Dünya praktikasında unitar dövlət formasının 2 növünə rast gəlinir. Bunlardan birincisi mərkəzləşdirilməmiş, digəri isə mərkəzləşdirilmiş unitar dövlətdir. Mərkəzləşdirilməmiş unitar dövlətlərdə inzibati ərazi vahidlərini təşkil edən regional orqanlar (subyektlər) müstəqil surətdə formalaşır. İtaliya, Böyük Britaniya, İspaniya, Yaponiya və Yeni Zellandiya idarəetmə sisteminə görə bu tipə aid edilir. Mərkəzləşdirilmiş unitar dövlətlərdə isə regional orqanlar bilavasitə mərkəz tərəfindən formalaşdırılır və mərkəzə tabe olur-

lar. Bu cür unitar dövlət tipinə Qazaxıstan, Özbəkistan və Niderlandı aid etmək olar.

**Uzurpasiya** – məqsədə və hədəfə çatmaq üçün zorakı vasitə və metodlardan istifadə edilməsi.

**Vətəndaş cəmiyyəti** – mülki şəxslərin könüllü birləşməsi nəticəsində yaranan, özünütənzimləmə və özünüidarə mexanizminə malik olan, qeyri-siyasi səciyyəsi ilə sivil şəxslər və münasibətlər sistemini ehtiva edən ictimai birlik kimi səciyyələndirilir.

**"Yanğınsöndürən" liderlər** – mürəkkəb situasiyanın fonunda xüsusi fəaliyyətləri ilə milli həmrəylik və bütövlüyün təmin olunmasına nail ola bilən, birləşdirici və xilasedici rəhbər qismində çıxış edirlər. Bir çox liderlərdən fərqli olaraq onlar ən mürəkkəb situasiyalarda özlərinin şəxsi təcrübə və keyfiyyətlərindən xüsusi məharətlə yararlanırlar və xalqın ali mənafeyinin təmin edilməsi missiyasını uğurla yerinə yetirirlər.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATIN SİYAHISI

## *Azərbaycan dilində*


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. I-XIII kitablar. Bakı: 1996-2005.
2. Azərbaycan dövləti bundan sonra da yaşayacaq və müstəqilliyimiz əbədi, daimi olacaqdır. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 10-cu ildönümünə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi// "Azərbaycan" qəzeti, 18 oktyabr, 2001
3. Əliyev H. // Müstəqilliyimiz əbədidir. I-X kitablar. Bakı: Azərnəşr. 1997-2002. 598 səh. 581 səh. 477 səh. 513 səh. 490 səh. 501 səh. 509 səh. 472 səh. 464 səh. 471 səh.
4. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin Baş Məclisinin 49-cu sessiyasında nitqi// "Azərbaycan" qəzeti 1994. 30 sentyabr.
5. "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 6 avqust 1998-ci il tarixli Fərmanı.
6. Azərbaycan Respublikasının Prezidentinin "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 1998-ci il tarixli Sərəncamı.
7. Azərbaycan Respublikasının Konstitusiyası.
8. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu. 28 dekabr 2001-ci il// "Azərbaycan" qəzeti. 5 mart 2002-ci il.
9. "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişiklik edilməsi məqsədilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 22 iyun 2002-ci il tarixli Fərmanı, // "Azərbaycan" qəzeti, 2002, 23 iyun.
10. Azərbaycan Respublikasının Qanunvericilik toplusu. 1997,

№5; №12.
11. Azərbaycanda ombudsman təsisatı // Dirçəliş-XXI Əsr. 2001. №40 Səh. 74
12. Azərbaycan Respublikasında ombudsman təsisatının yaranma prinsipləri// Dirçəliş – XXI əsr, 2001. №39
13. Azərbaycan milli dövlət quruculuğu yolunda: 1994-cü il oktyabr, 1995-ci il mart hadisələri və Azərbaycanda ictimai-siyasi vəziyyətə həsr olunmuş ümumxalq toplantısının materialları (5-6 aprel 1996). Bakı, 1996
14. Azərbaycan beynəlxalq aləmdə. I-V cildlər. Bakı: 1996-1999
15. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı: 1995
16. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: 2000
17. Azərbaycan Respublikası Prezidenti seçkiləri haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı: 1993
18. Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. II buraxılış. Bakı: 2000
19. Azərbaycanda çoxpartiyalı sistemin formalaşma prosesi: problemlər və perspektivlər. Bakı, 1997
20. Ramiz Mehdiyev. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı: "Azərbaycan" qəzeti, 2006 ("Azərbaycan" qəzetinin "Azərbaycanın özü qədər əbədi" silsiləsindən nəşr etdirdiyi III kitab)
21. Ramiz Mehdiyev. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı: "Şərq-Qərb", 2008
22. Ramiz Mehdiyev. Milli məfkurə, milli dövlətçilik, müstəqillik yolu ilə (II hissə). Bakı: "XXI-Yeni Nəşrlər Evi", 2007
23. Ramiz Mehdiyev. Yeni siyasət: inkişafa doğru. Bakı: 2006 ("Azərbaycan" qəzetinin "Azərbaycanın özü qədər əbədi" silsiləsindən nəşr etdirdiyi IV kitabı)
24. Ramiz Mehdiyev. Azərbaycan-2003-2008: Zaman haqqında düşünərkən. Bakı: "Şərq-Qərb", 2009

25. Mehdiyev R. Azərbaycanın inkişaf dialektikası. Bakı, "Azərbaycan Milli Ensiklopediyası", 2000. 288 səh.
26. Mehdiyev R. Heydər Əliyevin dövlət idarəçiliyinin nəzəriyyə və təcrübəsinə töhfəsi // Dövlət müdriklik məktəbi. Bakı, 2000. 214 səh. Səh. 14-19
27. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı, "Yeni Nəşrlər Evi", 2003. 248 səh.30
28. Mehdiyev R. İlham Əliyevin birillik Prezidentliyi Azərbaycan xalqının siyasi şüurunun yüksək olduğunu bir daha sübut etdi // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. 2004 №3 (7) səh.111-134.
29. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik – Bakı: «Azərbaycan» nəşriyyatı, 2005
30. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın xarici siyasət prioritetlərinin müəyyənləşməsi // Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi. Bakı: 2005
31. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması // Heydər Əliyev və müasir Azərbaycan. Bakı: 2003.
32. Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı: Azərnəşr, 1998
33. Şirəliyev H., Əhmədov Ə., Poltologiya. Dərslik. Bakı: 1997
34. Hikmət Babaoğlu. Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi (siyasi, ideoloji və diplomatik məsələlər). Bakı: Elm, 2007
35. Hikmət Babaoğlu. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı: “Çinar-çap”, 2010
36. Hikmət Babaoğlu. İnsan hüquqları və azadlıqları (tarixi təkamülü, beynəlxalq və politoloji aspektləri, Azərbaycan təcrübəsi). Bakı: “Elm”, 2006
37. Politologiya. İzahlı lüğət. Bakı: “Şərq-Qərb”, 2007
38. Məcid Əfəndiyev. Siyasi elmin əsasları, Bakı: Siyasət, 2004
39. M.Qasımov, Azərbaycan beynəlxalq münasibətlər sistemində.

Bakı: 1996
40. Vəsxanım Cəfərova, Azərbaycan müstəqillik dövründə: problemlər, perspektivlər. Bakı: Şirvannəşr, 2005
41. Kütləv informasiya vasitələri haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: 2000
42. Milli Məclisin daimi komissiyalarının hesabatları. 1995-202
43. Bayramova P. İnsan hüquqları. Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 1998. 127 səh.
44. Dərədgah H.Ə. İnsan hüquqlarının beynəlxalq institusional müdafiə mexanizmi. h.e.n. alimlik dərəcəsi almaq üçün dissertasiya avtoreferatı. Bakı, 1997. 24 səh.
45. Əhmədov Ə. Heydər Əliyev və Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu // Dövlət müdriklik məktəbi. Bakı: "Çaşıoğlu" nəşriyyatı. 2000. Səh. 73-80
46. Hacıyev B. İnsan haqlarının inkişaf tarixi və fəlsəfi hüquqi məzmunu // Dirçəliş – XXI əsr. 2000 №5. Səh. 51-56
47. Həbiboğlu Vəli. Heydər Əliyev və Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu // Dirçəliş – XXI əsr. 2002. №53. Səh. 38-50
48. Hüseynov L. İnsan hüquqları sahəsində beynəlxalq müqavilələrin Azərbaycan Respublikasında impelmentasiyası məsələləri. Bülleten. Bakı 1998, №1. Səh. 32-38
49. Hüseynov Ə. İnsan hüquqlarının müdafiəsinin bəzi meyarları haqqında // İnsan hüquqları. Bülleten. Bakı, 1998. №1. Səh. 39-41
50. Demokratiya, hüquqi dövlət və insan hüquqlarının təmininə doğru daha bir addım // Dirçəliş – XXI Əsr, 2002, №53. Səh. 60-73
51. "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında". Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin 22 fevral 1998-ci il tarixli fərmanı.
52. İnsan hüquqları haqqında Beynəlxalq Bill. Bakı, "Azərbaycan" nəşriyyatı, 1998, 54 səh. Səh. 5-12
53. "Kütləvi İnformasiya vasitələri haqqında" Azərbaycan Respub-

likasının Qanunu. 7 dekabr 1999-cu il. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2000
54. Qaracayev C. Azərbaycanın hüquq sistemində insan və vətəndaş hüquqları sahəsində beynəlxalq standartların təmin olunması // "Dirçəliş – XXI əsr", 2001, №4, səh. 43-54
55. Məmmədov S., Mehdiyev M: Ombudsman təsisatı. Bakı, 2000.
56. Mürsəl Cavad. İnsan hüquqlarının qorunması əsas məqsəddir. // Dirçəliş – XXI əsr. 2001. №39. Səh. 66-70
57. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt // İnsan hüquqları haqqında Beynəlxalq Bill. Bakı, 1998, 54 səh. Səh. 26-49
58. Şükürov İ. Azərbaycanda demokratik cəmiyyətin modeli // Dirçəliş – XXI əsr, 2000. №7-8. Səh. 23-28
59. "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) məhkəməyə şikayət edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, №7. Səh.171
60. İbrahimov O. Demokratik ölkələrin seçki təcrübəsi. Bakı, 1998
61. Sosial-siyasi problemlər toplusu. Bakı, 1998
62. Sosial-siyasi problemlər (toplu). VI buraxılış. Bakı, 2001
63. Social problems in the world today ed.by J.Kinch, p.56
64. Sosial-siyasi fəlsəfə problemləri (toplu). VII buraxılış. Bakı, 2002
65. Cəfərova V.M. Bazar iqtisadiyyatına keçid: ziddiyyətlər və onların həlli yolları. Bakı, 1996
66. İnsan hüquqları haqqında Beynəlxalq Bill. Bakı: “Azərbaycan” nəşriyyatı, 1998
67. Piriyev A.M., Əfəndiyeva X.B. Sosiologiya və politologiya fənnindən mühazirə mətnləri. Bakı: “Təhsil” NPM, 2009
68. Beynəlxalq Müqavilələr Toplusu. Bakı: “Azərbaycan” nəşriyyatı, 1998

## Türk dilində


1. Arı Tayyar. «Sovyetler Birliyi Sonrasında Avrasiya: Din, Etnik Yapı, Ekonomi ve Dış Politika», Avrasiya Dergesi. Cilt 3. Sayı. 4 (Kış 1996). s. 27-44
2. Arı Önder. Uluslararası İlişkiler. İstanbul: Der Yay,. 1987
3. Ataöv Türkkaya. «Milletlerarası Münasibetlerde Küvvet Muvazenesi», Ankara Universiteti SBF Dergisi. No.4. (Aralık, 1960 s.)
4. Çam Esat. Siyaset Bilimine Giriş. İstanbul Üniv. Yay., 1977
5. Ergin, Feridun. Uluslararası Politika Stratejileri. İstanbul: İstanbul Üniv, Yay., No. 2008.ty
6. Gönlübol Mehmet. Uluslararası Politika. 3 b. Ankara. SBF Yay.1985
7. Linz Juan J. Totaliter ve Otariter Rejimler. Çev. Erqun Özbudun. Ankara S.Yayımları, 1975
8. Sönmezoğlu Faruk. Uluslararası Politika ve Dış Politika Analizi İstanbul: Filiz Kitabevi, 1989

### *Rus dilində*

1. А.А.Дегтярев. Теории политики, Москва: 1998
2. А.С.Панарин. Политология (учебник), Москва: 1998
3. Аббасбейли А.,Гасанов А. Азербайджан в системе международных и региональных организаций. Баку: Азернешр, 1999, 256 с.
4. Аббасбейли А.,Гасанов А. Гейдар Алиев и мировая политика. Баку: Азернешр, 1997, 302 с.
5. Арон Р. Деиократия и тоталитаризм. М.,1993.
6. Баланс сил в мировой политике, Теория и практика./ Под ред. Э.А.Позднякова.М.,1993.
7. Бзежински З. Великое преобразование – «Демократия в 90-х». Информационное агентство Соединенных Штатов, 1997.
8. Блищенко И.П. Солнцева М.М.Мировая политика и междунродное право. М., 1991.
9. Буркан С. Плюрализм и социальные конфликты. М., 1990.
10. В.Д.Перевалов. Политология. Москва: 2004
11. В.И.Лавриненко. Политология. Москва, 1999
12. В.П.Пугачев, А.У.Соловьев. Введение в политологии. Москва: 1999
13. Гаджиев К.С. и др. Введение в политологию. М., 1995.
14. Гаджиев К.С. Политическая наука. М., 1996.
15. Геополитические теория и практика, М,1993.
16. Д.П.Зеркин. Основы политологии (курс лекции, Москва: 1997)
17. Дегтярев А.А. Теория принятия политических решении в структуре социальных и управленческих дисциплин.// Политические исследования. 2002.№2.
18. Демократия и правовой статус личности в социалистическом обществе. М., 1987.
19. Дипломатический словарь: В.3.т. /Редколл: И.И.Минц, Ю.А.Поляков, З.В.Удальцова и др. М.,1985.

20. Дипломатия иностранных государств. М.,2004.
21. Ермоленко Д.В. Социология и проблемы международных отношений. М., 1977.
22. Исмаилов М. Правда об армянской агрессии. Баку, Азернешр, 1996, 108 с.
23. Ковалев А.Г.Азбука дипломатии. М.,1994.
24. Косолапов Н.А. Международные отношения: эпистемологии и методы исследования // мировая экономика и международные отношения. 1998 №1.
25. Косолапова Н.А. Субьекты мировой политики и международных отношений // Мировая экономика и международные отношения. 1998, №12.
26. Косолапова Н.А. Теоретические исследования международных отношении // Мировая экономика и международные отношения. 1998. №2.
27. Кулагин В. Современные теории международных отношений //Международная жизнь. 1998,№1.
28. Л.М.Куликов. Основы социологии и политологии (учебное) пособие, Москва: 1999
29. Ланцев С.А. Мировая политика и международные отношения: Конспект лекций. СП6.2000.
30. Ланцов С.А. Введение в специальность «Политология»: Конспект Лекций. СП6.2000.
31. Лебедева М.М. Мировая политика. Учебник для вузов. М. 2003.
32. Мамедов И., Мусаев Т. Армяно-азербайджанский конфликт: история, право и посредничество. Тула: Гриф и К, 2006, 192 с.
33. Махмудов М.А.Политическое поведение индивида в условиях переходного периода. Автореф. Конд.дис. Баку, 1997.
34. Международные отношения: социологические подходы / Под ред. П.А.Цыганкова.М.,1998.
35. Микульский К.И. Социальная политика КПСС. М.,

1987.
36. Моргентау Г. Политические отношения между нациями. Борьба за власть и мир. //Социально-политический журнал, 1997,№2.
37. Нартов Н.А. Геополитика .М., 1999.
38. Национальные интересы: теория и практика. /Под ред. Э.А.Ползднякова М., 1991.
39. Никитченко А.Н. Транснационализация демократии (третья волна демократизации в свете теории международных отношений) //Политические исследования, 1996,№5).
40. Панарин А.С. Политология. М., 1999
41. Политическая наука новые направления // Научн. ред. Е.Б.Шестонал М.,1999.
42. Политология. Хрестоматия. Петербург: 2006
43. Пугачев В.П., Соловьев А.И.Введение в политологию. М., 1998.
44. Современные международные отношения: Учебник /Под ред.А.В.Торкунова, М., 1999.
45. Шилз Е. Политическое развитие новых государств. М., 1998.
46. Шукуров И., Ибрагимов Н. Гейдар Алиев открывает миру Азербайджан. Баку, 1994, 173 с.
47. Южный фланг СНГ. Центральная Азия–Каспий – Кавказ: возможности и вызовы для России/ Под ред. М.М. Наринского, А.В.Малыгина, М., 2003

## *İngilis dilində*


1. Clande, Jr L. Pover And İnternational Relations. New York: Random House,1954.
2. Crane, Diana. «Transnational Networks in Basic Science» Robert O. Keohane and Joseph S. Jr. ed. Transnational Relations and World Politics. Cambridge: Harward University Press. 1972, p.235-51.
3. Diamond L. Developing Democraty: Toward Consolidation. Baltimore, London: The Johns Hopkins University Press, 1999.
4. Diamond L. Economik Development and Democraty Reconsidered // Newbury Park, London, New Delhe, Sage Publications, 1992.
5. Doyle Michael W. «Liberalism and World Politics Revisited» Paul R. Viotti and Mark V. Kauppi (ed) İnternational Relations Theory, Realism, Pluralism, Globalism 2nd ed. New York: Macmillan Publishing Co. 1993, p.262-285.
6. Gewirth Alan. The Basis and Content of Human Rights // Human Rights Nomos. N.Y.: New York University Press, 1981, p.121.
7. Hoffman, Stanley. Theory and İnternational Relations, James N.Rosenau, ed.İnternational Politics and Foreign Policy, a reader in research and theory. New York: The Free Press. 1969, p.30-40.
8. Holsti, K.J. «The Concept of Power in the Study of İnternational Relations», Robert l, Platoqraff. Politics and the İnternational System. 2nd.ed. New York: J.B.Lippinecoft Company, 1972, p.181-195.
9. İmbert P.-H. Proceedings of the 5th Round Table with European Ombudsman, Human rights and democracy// Council Europe Press/ 1996. P.13.
10. James N.Rosemai et al.ed. The Analysis of İnternational Politics (New York,The Free Press, 1972), p.166-74.

11. Lopez, George A. and Michael S.Stohl, İnternational Relations, Contemporary Theory and Practice. Washington, D.C. Conqressional Quarterly İnc., 1989.
12. Mahan, Alfred Thayer. The infuence of Sea Power Upon History. 1660-1783. Boston: Litlle, Brown And Co., 1890.
13. Mansfield, Edvard D. and Jack Snyder. «Democratization and the Danger of War», İnternational Security. Vol 20. No 1. (Summer 1995) p.5-38.
14. Olson, William Clinton. The Theory and practice of international Relations 8th ed. New Jersey. Prentice Hall İnternational 1991.
15. Rosecrance, Richard N. Action and Reaction in World Politics. Boston: Little, Brown, 1963.
16. Rowat D.C. The Ombudsman, Citizens Defender: Preface to Second Edition L., 1968. S. (XXIV); The Ombudsman in Sweden. The Ombudsmen Plan: Essays on the Worldwide Spread of an idea 2, H., 1973.
17. Snyder, Richard C., H.W.Bruck and Burton Sapin. «The Decision Making Approach to the Study of İnternational Politics and Foreign Policy, a reader in research and theory, New York: The Free Press, 1969, p. 199-206.
18. The İnternational Dimensions of Human Rights. Vol.2.P. 651-670.
19. Walts, Kenneth N. «İnternational Structure, National Force and Balance of World Power». James N.Rosenau ed. İnternational Politics and Foreign Policy, a reader in research and theory. New York: The Free Press, 1969, p.304-314.
20. What is democracy? United states information Agency. UCA, 1991.

## *Dövri mətbuat*


1. Hikmət Babaoğlu. 4 iyundan bu günə kimi. "Səs" № 61 (244). 15.11.1995
2. Hikmət Babaoğlu. Yeni konstitusiya demokratik dövlətin yaradılmasına əsas verən hüquqi siyasi sənəddir. "Yeni Azərbaycan" № 7 (105). 02.03.1996
3. Hikmət Babaoğlu. 5-6 aprel ümumxalq toplantısı xalqın özünə hesabatı idi. "Yeni Azərbaycan" №16 (114). 17.04.1996
4. Hikmət Babaoğlu. Heydər Əliyevin hakimiyyətə gəlməsi ümumxalq tələbinə çevrilmişdi. "Yeni Azərbaycan" № 29 (203). 16.04.1997
5. Hikmət Babaoğlu. Ulu öndər Heydər Əliyevin adı təkcə Azərbaycan etnosiyasi coğrafiyası ilə məhdudlaşmır. "Yeni Azərbaycan" № 095 (3029) 23.05.2009
6. Hikmət Babaoğlu. Müasir Azərbaycan inkişafının əsasında Ümummilli lider Heydər Əliyevin quruculuq fəlsəfəsi, inkişafı və tərəqqi strategiyası dayanır. "Yeni Azərbaycan" № 125 (3305). 15 iyul 2010
7. Hikmət Babaoğlu. Müasir Azərbaycan inkişafının tendensiyasının əsasları Ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. "Yeni Azərbaycan" № 126 (3306) 16 iyul 2010
8. Hikmət Babaoğlu. Azərbaycan mətbuatının böyük hamisi və dostu. "Səs" № 243 (3763) 29 dekabr 2010
9. Hikmət Babaoğlu. Modern informasiya cəmiyyətində milli maraqlar və jurnalistika. "Yeni Azərbaycan" № 060 (3485) 08 aprel 2011
10. Hikmət Babaoğlu. Azərbaycanda bəzi jurnalistlər siyasilərdən daha çox siyasiləşiblər. "525-ci qəzet" № 060 (3376) 08 aprel 2011
11. Hikmət Babaoğlu. Siyasi radikalizmin məntiqi sonu, yaxud anarxistlərin "demokratiya" oyunu bitdi. "Yeni Azərbay-

can" № 062 (3487) 12 aprel 2011
12. Hikmət Babaoğlu. Müxalifətçilik peşə deyil, ştat vahidi də deyil... "Yeni Azərbaycan" № 068 (3493) 20 aprel 2011
13. Hikmət Babaoğlu. Heydər Əliyev Azərbaycan xalqı üçün Ümummilli lider, dünya üçün ümumbəşəri dəyərdir. "Yeni Azərbaycan" № 080 (3505) 06 may 2011
14. Hikmət Babaoğlu. Ulu öndər Heydər Əliyev Azərbaycan dilini siyasi elitanın dilinə çevirdi... "Yeni Azərbaycan" № 140 (3565) 04 avqust 2011

## *İnternet resursları*

1. www.mfa.gov.az
2. www.turan.az
3. www.antiterror.ru
4. www.azerbaijan.news.az
5. www.humanities.edu.ru
6. www.dic.academic.ru
7. www.kavkaz.memo.ru
8. www.az.wikipedia.org
9. www.xalqqazeti.com
10. www.azerbaijan-news.az
11. www.yeniazerbaycan.com
12. www.mns.gov.az
13. www.mediaforum.az
14. www.modern.az
15. www.yap.org.az
16. www.trend.az
17. www.sia.az
18. www.azertag.com
19. www.bsu.edu.az

**ЩИКМЯТ БАБАОЬЛУ**
***(Мяммядов Щикмят Баба оьлу)***

# HEYDƏR ƏLİYEV SİYASİ İRSİNİN POLİTOLOJİ ASPEKTLƏRİ

НЯШРИЙЙАТ РЕДАКТОРУ
*Asəf Novruz*

ТЕХНИКИ РЕДАКТОРУ
*Zahid İlhamoğlu*

КОРРЕКТОРУ
*Aytən Qurbanova*

ОПЕРАТОРУ
*Şəfiqə Mansurova*

ЧАПА МЯСУЛ
*Bilal Əliyev*

*Мцяллифля ялагя*
**E-mail:** hbg66@mail.ru

*чапа имзаланмыш 27.11.2013,*
*форматы 60x90 $^{1}/_{16}$,*
*физики ч.в 28,5, таймс гарнитуру,*
*сифариш 39. Сайы 500.*

---

*Китаб*
*"MSA"-da няшря щазырланмыш*
*вя*
*офсет цсулу иля чап олунмущдур.*